İSSN 2224-0829

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

# ELMİ ƏSƏRLƏR

## İCTİMAİ ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS

## SERIES OF SOCIAL SCIENCES

# НАУЧНЫЕ ТРУДЫ

## СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

№ 2(99)

NAXÇIVAN, NDU, "QEYRƏT" - 2019

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR

*İctimai elmlər seriyası*

*№ 2 (99)*

NAXÇIVAN – 2019

Naxçıvan Dövlət Universiteti. “Elmi əsərlər”.
*İctimai elmlər seriyası. 2019, № 2 (99)*

**BAŞ REDAKTOR:** ***SALEH MƏHƏRRƏMOV***
*Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü*

**BAŞ REDAKTOR MÜAVİNİ:** ***MƏFTUN İSMAYILOV***
*Elmi katib, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

**REDAKTOR:** ***SAMİR TARVERDİYEV***

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**

***Tarix, antropologiya və siyasi elmlər üzrə:***

**İsmayıl Muxtar oğlu Hacıyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın həqiqi üzvü*
**Zəhmət Əbülfət oğlu Şahverdiyev**
*tarix üzrə elmlər doktoru, professor*
*AMEA-nın müxbir üzvü*
**İlqar İsmayıl oğlu Kəngərli**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Şamxal Şükür oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*

***Fəlsəfə və hüquq elmləri üzrə:***

**Məmməd Hüseyn oğlu Rzayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
**Yusif Hüseyn oğlu Hüseynov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Novruzəli Həmzə oğlu Rəhimov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Şükür Aloş oğlu Məmmədov**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
**Qəhrəman Novruz oğlu Behbudov**
*hüquq üzrə fəlsəfə doktoru, dosent*

***İqtisad elmləri üzrə:***

**Ağarza Ağahəsən oğlu Rüstəmov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Teymur Abbas oğlu Abbasov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Nazim Hidayət oğlu Əhmədov**
*iqtisad üzrə elmlər doktoru, professor*
**Yuliya Vasiliyevna Cutceva**
*(Rusiya Dövlət Aqrar Universiteti)*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

# TARİX

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*
*ismayil_haciyev@yahoo.com*

**UOT 94 (479.24)**

## NAXÇIVAN İLKİN ŞƏHƏR MƏDƏNİYYƏTİ VƏ DUZDAĞ ARASINDAKI PARALELLƏR

**Açar sözlər:** *Naxçıvan, Duzdağ, Nuh peyğəmbər, Nuhçıxan, ilkin şəhər mədəniyyəti, Ovçulartəpəsi, Nikitin*
**Key words:** *Nakhchivan, Duzdagh, the Prophet Noah, Nuhchikhan, the first urban culture, Ovchulartepesi, Nikitin*
**Ключевые слова:** *Нахчыван, Дуздаг, пророк Ной, Нухчыхан, ранняя городская культура, Овчулартепеси, Никитин*

Naxçıvan ilkin şəhər mədəniyyətinin yaranması, bunun tarixi, Duzdağ mədəni, duzun çıxarılması, emalı, satışı, Naxçıvanla Duzdağ mədənləri arasındakı paralellər, Naxçıvan şəhərinin tarixinin Naxçıvan duzunun çıxarılması tarixi ilə bağlı olması məsələsinə də aydınlıq gətirilmişdir. Araşdırmadan əldə olunan nəticə bundan ibarətdir ki, e.ə. V minillikdə Naxçıvan Duzdağında mədən üsulu ilə duz çıxarılmış və burda işləyənlər yaxınlıqda ilk yaşayış məskəni salmış, bu, inkişaf edərək ilkin şəhər mədəniyyətinə çevrilmişdir.

Naxçıvan diyarı dünyanın ən qədim insan məskənlərindən biridir. Son illərdə Naxçıvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi-mədəniyyət nümunələri əsasında arxeoloq alimlər təsdiq edirlər ki, 500-300 min il bundan əvvəl bu ərazilərdə ən qədim insanlar məskən salmışlar. İnsanlar Daş dövründən başlayaraq bu ərazidə yaşamış və təbii zənginliklərindən istifadə etməyi öyrənmişlər. Qədim insanlar Naxçıvanın təbii zənginliklərə malik çay vadilərində, dağ yamaclarında, Qazma, Kilit, Daşqala, Ərməmməd mağaralarında yaşamışlar. Şərur rayonunun Ovçulartəpəsi yaşayış yerindən tapılmış əmək alətləri bu ərazinin nəinki Azərbaycanın, hətta dünyanın ən qədim yaşayış yerlərindən biri olduğunu göstərir. Tapılmış əmək alətləri Alt Paleolit dövrünə aid edilir. Daş, Tunc və Erkən Dəmir dövrlərində Naxçıvan ərazisində ardıcıl və intensiv yaşayış olmuşdur.

Tunc dövründə qədim Naxçıvan tayfalarının iqtisadi, ictimai və mədəni həyat tərzində böyük dəyişikliklər baş vermiş və iri tayfa ittifaqları yaranmışdır. Bu tayfaların həyat tərzini səciyyələndirən tarixi mənbələr Kür-Araz mədəniyyəti abidələridir. Qafqazda, Ön Asiyada geniş yayılmış Kür-Araz mədəniyyətinin əsas vətəni Naxçıvan diyarıdır. Bu mədəniyyətin daşıyıcıları Azərbaycanın yerli əhalisi – qədim türklərdir. Yaxın Şərq və Ön Asiyanın Kür-Araz mədəniyyəti abidələrinin tarixi e.ə. IV minilliyin ortalarına aid edilir. Son illərdə Şərur rayonunun Ovçulartəpəsində aşkar edilən maddi-mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin e.ə. V minilliyin sonu, IV minliyin əvvəllərinə aid olduğunu, Naxçıvanın isə bu mədəniyyətin vətəni olduğunu təsdiq edir.

Naxçıvan ərazisi Nuh Peyğəmbər və Dünya tufanı ilə sıx surətdə bağlıdır. Nuh Peyğəmbərin torpağa endiyi ehtimal olunan yerlərdən biri də Naxçıvan ərazisindəki Gəmiqayadır.

Nuh Peyğəmbərin ailəsi və tərəfdaşları Naxçıvan ərazisində quruya çıxmış, burada yurd salmış və Nuh Peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuşdur. "Naxçıvan" sözü də Nuhçıxan ifadəsindən yaranmışdır [11, s.25]. Naxçıvan Nuhçıxanın varisidir, davamıdır. Nuhçıxan şəhərin formalaşması mərhələsi, Naxçıvan isə artıq inkişaf etmiş şəhərdir.

Tarixdə ilk dəfə olaraq yunan alimi Klavdi Ptolemey bizim eranın II əsrində Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırlatmışdır. Tarixi mənbələrdə Nuh Peyğəmbərin Naxçıvan şəhərinin əsasını qoyması haqqında məlumatlar vardır [24, s.111].

Tədqiqatçıların fikrincə, Orta Tunc dövründə Naxçıvanda güclü tayfa ittifaqları formalaşmış, əhalinin sayı artmış, əkinçilik, maldarlıq, sənətkarlıq əsas təsərrüfat sahələri kimi özünü göstərmiş, mübadilə və ticarət əlaqələri genişlənmişdir. Naxçıvan şəhərinin mədəniyyəti Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr şəraitində inkişaf edib təşəkkül tapmışdır. İqtisadiyyatın və ticarətin inkişafı Naxçıvan ərazisində şəhər tipli yaşayış məskənlərinin yaranmasına imkan vermişdir [3]. Şəhər mədəniyyətinin yaranması və inkişafı iki mərhələdən keçir: ilkin şəhərsalma mədəniyyəti və inkişaf etmiş şəhər mədəniyyəti [9, s.19]. İnkişaf etmiş

mərhələdən danışarkən artıq bu şəhərlərin qala divarları, dulusçu emalatxanaları, bazarı, su təchizatı, meydanı və digər əlamətləri özünü göstərir. İlkin şəhərsalma mərhələsindən, yəni protoşəhər dövründən inikas etmiş şəhər mədəniyyəti mərhələsinə qədər min illərlə vaxt tələb olunur. Naxçıvan diyarının Ön Asiya qədim Şərqinin inkişaf etmiş sivilizasiyaları ilə qonşuluqda yerləşməsi burada da ilkin şəhər mədəniyyətinin inkişafına təsir etmişdir. Akademik İqrar Əliyev göstərmişdir ki, Naxçıvan şəhərini "Azərbaycanın ən qədim şəhərlərindən biri hesab etmək üçün kifayət qədər əsas var [22, s.37]. Son illərdə bu istiqamətdə tədqiqatlar aparılmış və maraqlı nəticələr əldə edilmişdir. Prof. Y.Yusifovun yazdığına görə e.ə. III minillikdə Azərbaycanda dövlət qurumlarının meydana gəldiyi müşahidə olunur [1, s.64]. Əlverişli təbii-coğrafi şəraiti olan Naxçıvan ərazisi dünyada insanın formalaşdığı ilk məskənlərdən və insanların yaratdığı ilkin şəhər mədəniyyətinin mərkəzlərindən biridir.

İlkin şəhər mədəniyyətinin yaranması bir sıra amillərlə əlaqədardır: təbii-coğrafi şərait, coğrafi mövqe, insanların yaşaması üçün təbii zənginliklərin olması, torpaq və su ehtiyatının bolluğu və s. Bütün bu amillər Naxçıvan diyarı üçün xarakterikdir. Bu ərazidəki ibtidai insanlar Neolit dövründən başlayaraq I və II Kültəpə, Sədərək, Ovçulartəpəsi, Xələc, Duzdağ, Şahtaxtı, Nəhəcir kimi yaşayır yerləri salmışlar. Gəmiqaya abidəsi, Əshabi-Kəhf dini və tarixi memarlıq kompleksi bu ərazinin ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətlini daha da artırır [18, s.6].

"Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən beynəlxalq simpoziumdakı çıxışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qeyd etmişdir ki: "Əldə olunan nəticələr sübut edir ki, Naxçıvanla Yaxın Şərqin qədim şəhərləri arasında sıx iqtisadi, mədəni əlaqələr olmuş, əkinçiliyin, maldarlığın, sənətkarlığın inkişafı sosial-iqtisadi və mədəni yüksəlişə təkan vermiş, nəticədə 5 min il bundan əvvəl Naxçıvan şəhəri yaranmışdır" [18, s.8].

Tədqiqatçıların fikrincə, Naxçıvan ərazisində ilkin şəhər mədəniyyətinin yaranmasının əsas səbəblərindən biri yaxınlıqda duz mədənlərinin olmasıdır. Dünyadakı duz mədənlərinin demək olar ki, hamısının yaxınlığında qədim şəhərlər vardır [11, s.11]. Naxçıvan şəhərinin tarixi Duz mədəninin tarixi ilə sıx əlaqədardır. "Duz mədənləri həm Naxçıvanın daş dövrünü, həm də bu şəhərin yaşını müəyyən etmək baxımından çox əhəmiyyətli tədqiqat obyektidir" [9, s.22]. Naxçıvanda şəhərsalmanın tarixi ən azı Duzdağın kəşfi ilə eynidir, bəlkə də bir az da qədimlərə aiddir. Duzdağ – Naxçıvanda şəhər tipli mədəniyyətin əsasında dayanan ən mühüm amillərdəndir [11, s.13].

Naxçıvan şəhərinin yaranmasında Naxçıvan Duzdağının rolundan bəhs edən Ali Məclisin Sədri demişdir: "Naxçıvan şəhərinin yaranmasına bilavasitə təsir göstərən Naxçıvan Duzdağı mədəniyyətinin öyrənilməsini və Duzdağı ətrafındakı ilkin yaşayış məskənlərinin tədqiqata cəlb olunmasını ilkin şəhərsalma mədəniyyətinin öyrənilməsində yeni elmi istiqamət kimi qəbul etmək, Naxçıvan şəhər mədəniyyətini onun indiki tarixi-coğrafi hüdudlarından kənarda yox, Naxçıvan şəhərinin özündə axtarmaq, bu ərazidə tədqiqatları intensivləşdirmək lazımdır" [18, s.8].

Fikrimizcə, Naxçıvan şəhərinin yaşı məsələsi şəhərin yaxınlığındakı Duz mədənlərinin tarixi ilə üzvi sürətdə bağlıdır. Mənbələrdə hətta Duz mədənlərinin həzrəti Nuh Peyğəmbərin zamanından salınması haqqında məlumatlar vardır. K.A.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan mahalı" adlı məqaləsində göstərilir: "...Xalq arasında Nuhun Naxçıvan və Kulp duz mağaralarındakı fəaliyyəti barədə əfsanələr yaşamaqdadır. Əfsanəyə görə o, burada ilk çalışan olmuşdur" [24, s.119]. Onun fikrincə, Naxçıvan şəhəri ilə yanaşı, bu şəhərdən bir qədər aralıda yerləşən Duzdağın da əsası Nuh peyğəmbər tərəfindən qoyulmuşdur. Belə olduqda Naxçıvan şəhəri ilə Duzdağ, yəni duzun çıxarılması, təxminən yaşıddır. Belə demək mümkünsə, əvvəlcə duz çıxarılmış, sonra isə qədim yaşayış yerinin əsası qoyulmuş və nəticədə ilkin şəhərə çevrilmişdir. Tədqiqatçılara görə e.ə. V minillikdən başlayaraq Duzdağdan duz çıxarılır [2, s.13]. Duz mədənindən Erkən Tunc dövründə geniş istifadə olunmuşdur. Tədqiqatlardan məlum olur ki, XIX əsrin II yarısında Duz mədənləri ərazisində qazıntı aparılarkən burada daş baltalar aşkar edilmişdir. K.Nikitin yazır ki, "Naxçıvanda qədim mədəniyyətə Naxçıvan duz mədənlərindən tapılmış daş baltaları və daş pazları aid etmək olar. Bu alətlər (daş alətlər – İ.H.) 1870-ci ildə buradakı Duz mədənlərinin nəzarətçisi cənab Beyer tərəfindən tapılmış, 2 ədədi Naxçıvan şəhər məktəbinə verilmiş, qalanlarının isə bir hissəsi Tiflis muzeyinə göndərilmişdir. Baltalar və pazlar duzçıxarma aləti kimi bu ərazidə insanlığın ilk məskunlaşma dövrləri, hələ insanlara dəmirdən istifadənin məlum olmadığı daş dövrü haqqında təsəvvür yaradır, eyni zamanda, bunlar ərazidəki eradan əvvəl işlənən Duz mədənlərinin qədimliyini müəyyən edir" [24, s.115]. Duzdağdan tapılmış daş alətləri tədqiq edən ilk azərbaycanlı arxeoloq İ.Cəfərzadə, Daş dövrü üzrə görkəmli mütəxəssis M.Hüseynov, iqtisadçı alim M.Vəliyev (Baharlı) də burada Daş dövründən duz çıxarıldığı fikrindədirlər [20, s.315].

Sovetlər birliyi dövründə milli tarix və mədəniyyətimizin öyrənilməsinə qoyulan məhdudiyyətlər bəhs etdiyimiz Naxçıvanın ilkin şəhər mədəniyyətinin yaranmasına, Nuh Peyğəmbərin Naxçıvanla əlaqəsinə, Duzdağın və duzun çıxarılması tarixinə də aiddir. Lakin ölkəmiz ikinci dəfə dövlət müstəqilliyini bərpa

etdikdən sonra muxtar respublikanın tarix və mədəniyyətinin hərtərəfli öyrənilməsinə və inkişaf etdirilməsinə şərait yarandığı kimi, diqqət də artırılmışdır.

1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun keçirilməsi və simpoziumun qərarları Naxçıvan tarixinin öyrənilməsində əhəmiyyətli addım olmuşdur. Beynəlxalq simpoziumun iştirakçılarını təbrik edən ulu öndər Heydər Əliyev demişdir: "*Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv, elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir"* [8].

Sonrakı illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun müvafiq sərəncamları ilə keçirilən "Nuh Peyğəmbər, Dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" və başqa beynəlxalq konfranslar Naxçıvan diyarının tarixinin, mədəniyyətinin, təbii zənginliklərinin öyrənilməsində mühüm rol oynamışdır. Xüsusilə 2012-ci keçirilən beynəlxalq konfransla bağlı Sərəncamda deyilir: "Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasına təsir göstərən amillərdən biri son illər aşkara çıxarılan və elmi tədqiqata cəlb olunan Duzdağ mədəniyyətidir. Duzdağda aparılan araşdırmalar sübut edir ki, Eneolit dövründən başlayaraq Naxçıvanda mədənçilik mövcud olmuş, eradan əvvəl 4-cü minillikdə bu proses daha geniş miqyas almış, mübadilə məqsədi ilə tələbatdan artıq duz tədarük olunmuş, bu isə öz növbəsində şəhərlərarası əlaqələrə və ticarətin inkişafına, eləcə də insanların Duzdağ ətrafında məskunlaşmasına gətirib çıxarmışdır" [20, s.3].

Son illərdə Naxçıvan ərazisində respublika və beynəlxalq səviyyəli arxeoloji ekspedisiyalar fəaliyyət göstərir. Beynəlxalq ekspedisiyalar əsasən Oğlanqala, Ovçulartəpəsi, Sirabətrafı, Naxçıvantəpə və Duzdağda aparılır. Yuxarıda göstərdiyimiz kimi, Naxçıvantəpə və Ovçulartəpəsində arxeoloji qazıntılar bu ərazidə insanların çox qədimdən yaşadığını sübut edirsə, Duzdağdakı tədqiqatlar həm bu mədənin dünyanın ən qədim duz çıxarıldığı yer olması fikrini təsdiqləmiş, həm də Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasının Duzdağla bağlı olduğu qənaətinə gəlinmişdir.

Duzdağda çalışan insanlar əlverişli yerdə özlərinin yaşayış məskənlərini salmış və burada məskunlaşmışlar. Belə yaşayış məskənlərindən biri, bəlkə də birincisi Naxçıvandır. Duzdağda duzun çıxarılması həm ətraf ərazilərdə insanların tələbatının ödənilməsinə səbəb olmuş, həm də kənar yerlərlə mübadilə edilmiş və satılmışdır. Duzdağın yaxın ətrafında şəhər tipli yaşayış yerləri olmuşdur: Naxçıvan, Qarabağlar, II Kültəpə, Şahtaxtı və s. [3]. Bəzi tədqiqatçılar Naxçıvanın ilkin şəhər mədəniyyətindən danışarkən bunu II Kültəpə ilə eyniləşdirirlər. Bu həqiqətə uyğun deyil. Naxçıvanın ilkin şəhər mədəniyyəti elə Naxçıvan şəhəri ərazisindədir. II Kültəpə də şəhər tipli yaşayış yeri olmuşdur, lakin bu, Naxçıvan şəhəri deyildir. Ola bilsin ki, Duzdağda çalışan insanların bir qismi çox əlverişli bir yer olan II Kültəpə ərazisində ilkin şəhər mədəniyyətini yaratmışlar. Duzdağdan Naxçıvan və II Kültəpə əraziləri əsasən eyni məsafədədir. Lakin duz mədənlərindən Naxçıvana olan məsafə II Kültəpəyə nisbətən çox rahat və əlverişli idi. Bununla belə, Duzdağın olması bu şəhər tipli yaşayış yerlərinin yaranmasına səbəb olmuşdur.

Duzdağdakı duz mədənlərindən çoxsaylı daş alətlər və keramikalar tapılmışdır. Duzdağ mədənlərində duzun çıxarılması və ilkin emalı üçün minlərlə böyük daş alətlərdən istifadə edilmişdir [2,s.9]. Daş alətlərin 80 faizindən çoxu daş çəkiclərdir. Tədqiqatçıların fikrincə, daş çəkiclər Naxçıvançaydan, ya da Duzdağ təpəsinin səthində saxlanılan allyuval yataqlardan gətirilmişdir. Həmin alətlərin sayəsində duz istehsalı ilə əlaqədar olaraq dağ-mədən işi kifayət qədər inkişaf etmiş və sənaye səviyyəsinə qədər yüksəlmişdir. Sənayenin yüksəlişi isə öz növbəsində iqtisadiyyatın, ticarətin, sənətkarlığın, mədəniyyətin və başqa sahələrin inkişafına böyük təkan vermişdir. Bu inkişaf ilkin şəhərsalmanın və şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Arxeoloqların fikrincə, I və II Kültəpə yaşayış yerləri Duzdağdan uzaqda olduğundan insanların ilk yaşayış yeri yaxınlıqda olmalı idi. Axtarışlar nəticəsində Duzdağ yaxınlığında insanların məskən saldığı Sust adlı ərazidə Eneolit və Erkən Tunc dövrlərinə aid abidələr aşkar olunmuşdur. Bu da Duzdağa ən yaxın və ən qədim yaşayış yeridir. Ehtimala görə, duz mədənindən istifadə Sust ərazisindən başlamışdır. Sonra duz istehsalının artması, işçi qüvvəsinə olan tələbatın, duz ticarəti və başqa amillər yeni yaşayış yerlərinin yaranmasına gətirib çıxarmışdır. Bunlardan biri də qeyd etdiyimiz kimi, daha əlverişli ərazidə yeni yaşayış məntəqəsinin salınması ilə nəticələnmişdir ki, bu da Naxçıvan şəhəridir. Duzdağdan Naxçıvana olan məsafənin və yolun əlverişli olması, şəhərin (təbii ki, əvvəl bu, şəhər olmamışdır – İ.H.) çox əlverişli yerdə salınması ilkin şəhər mədəniyyətinin yaranması ilə nəticələnmişdir. Qədim insanlar yaşayış yerini seçərkən bir sıra amilləri nəzərə almağa məcbur idi: coğrafi mövqeyi, su təminatı, təhlükəsizliyi, ticarət yolları üzərində yerləşməsi, təbii zənginlikləri və başqaları. Naxçıvanda ilkin şəhər mədəniyyətinin yaranmasına bir sıra amillər

təsir göstərsə də, bunlar arasında Duzdağın olması fikrimizcə ən mühüm amildir. Ümumiyyətlə, Naxçıvan şəhərinin tarixi Naxçıvan duzunun çıxarılma tarixi ilə bağlıdır.

Tarix boyu duz insan həyatında çox mühüm rol oynamışdır. "Duzun kəşf olunması ilə insanlıq mədəni həyat tərzinə qədəm qoymuşdur. Duzun kəşfi ibtidai insan birliklərinin oturaq mədəni həyata keçidinin inqilabıdır. Duzun kəşfi, axtarışı, üzə çıxarılması, əldə edilməsi, məişətə daxil olması, istifadəsi, bazarı ilə bağlı məsələlər əvvəlcə insanı, sonra isə bu yolla insan cəmiyyətini formalaşdırmış, oturaq həyatın bünövrəsinə çevrilmişdir. Duz istehsalı anlayışını əhatə edən yataqların müəyyən olunması, indiki terminologiya ilə desək kəşfiyyatı, mağaraların qazılması, duz parçalarının əldə olunması, üyüdülməsi, alınıb-satılması, Duzdağ əmək alətlərinin – daş baltaların, pazların hazırlanması və sair bəşəriyyətin həyatında şəhər tipli inkişaf tərzinin də əsasını qoymuşdur" [10].

Bir neçə min il bundan əvvəl Duzdağın insanlara məlum olması, duzun çıxarılması, istifadəsi, daşınması, satışı Naxçıvanda yaşayış məskənlərinin genişlənməsinə və şəhərləşmə işinin inkişafına təkan vermişdir.

Naxçıvan ərazisində yaşamış insanların təbii yer seçmələri qanunauyğun bir prosesdir. Lakin insanların duza olan tələbatları, həm də duz vasitəsi ilə, yəni onun mübadiləsi ilə digər tələbatlarının ödənilməsi Duzdağ ətrafında uyğun yaşayış yerlərinin seçilməsi və salınmasını zəruri etmişdir. Duz həm də istehsal prosesi ilə reallaşır, insanın tələbatını ödəməyə xidmət edir. Bu isə asan başa gəlmir. Xüsusilə də Naxçıvan Duzdağındakı daş duz insan əməyinin nəticəsində istehsal edilir. "Duz dağı, duz mağarası, duz mədəni, duz bazarı anlayışları ilkin şəhər tipli yaşayış düşüncəsinin təməl şərtlərindəndir. Naxçıvanda da ilkin şəhərsalmanın yaranmasında və inkişafında Duzdağ məsələsi mühüm rol oynamışdır [10].

Duz istehsalının ən böyük təsirlərindən biri də mübadilənin, duz ticarətinin əsaslı inkişafına səbəb olmasıdır. Ticarətin inkişafı öz növbəsində alış-verişin çoxalmasına, şəhər həyatının, bazarın yaranmasına və inkişafına səbəb olur. Naxçıvan mədənlərindən çıxarılan duz İrəvan vilayətinin Gərniçay və İlançay vadilərindəki kəndlərə, Dərələyəz mahalına, Göyçə gölü, Qarabağ və Gəncə ətrafına, Şuşaya, Zəngəzura aparılırdı. Ümumiyyətlə, duzun əsas istifadə bölgələri Naxçıvan, Ordubad, Yeni Bəyazid qəzaları, İrəvan quberniyası, Şuşa və İran idi. Qafqaz Dağ İdarəsinin 1889-1907-ci illər – 19 il ərzində - hesabatında Naxçıvan mədəninin orta illik istehsal gücünün 164,4 puda bərabər olduğu göstərilir. 1868-ci ildən Sust duz mədənindən də duz çıxarılmağa başlanılmışdır.

XIX sərin sonu, XX əsrin əvvəllərində Naxçıvanın duz istehsalında yeni mərhələ başlandı. Naxçıvan duz mədənlərinin istismarı dövlətin əlində cəmləşmişdi. Duza tələbatın artmasını nəzərə alan hökumət həmin dövrdə Sust və Cənnət kəndləri yaxınlığında daha iki mədənin istismarına başlamışdı [16, s.190]. Yalnız öz gücü ilə tələbatın öhdəsindən gələ bilməyən hökumət bu işə ayrı-ayrı sahibkarları da cəlb etməyə məcbur olmuşdur. Belə ki, 1907-ci ildən başlayaraq Sust mədənlərinin istismarı ilə "Kəlbəlixanov qardaşları və K°" şirkəti də məşğul olmağa başladı [16, s.190]. Bu şirkətin 1911-ci ildə Sust mədənlərindən hasil etdiyi duzun həcmi 304,3 min pud təşkil etmişdi [12; 16, s.190]. Duz mədənlərindən ildə təxminən 600-800 min pud duz istehsal edilirdi.

Beləliklə, bir neçə min il bundan əvvəl Duzdağın insanlara məlum olması, duzun çıxarılması, istifadəsi, daşınması, satışı Naxçıvanda yaşayış məskənlərinin genişlənməsinə və şəhərləşmə işinin inkişafına təkan vermişdir. Duzdağ Naxçıvanda şəhərtipli mədəniyyətin əsasında dayanan ən mühüm amil olmuşdur.

Naxçıvan tarixində Duzdağın və duzun oynadığı mühüm rol nəzərə alınaraq aparılan elmi tədqiqatların nəticələrinin sistemləşdirilməsini, arxeoloji tədqiqatlar zamanı əldə olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanılmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamına əsasən Naxçıvan Duz Muzeyinin yaradılması qərara alınmışdır. Naxçıvan Duz Muzeyinin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: "Naxçıvanın tarixi Naxçıvan duzunun çıxarılma tarixi ilə bağlıdır. Naxçıvan tarixini tədqiq etmək üçün, ilk növbədə, Naxçıvan duzunun tarixini öyrənmək lazımdır. Çünki Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olmuşdur. 5-7 min il bundan əvvəl tədavüldə qiymətli metallardan və puldan istifadə olunmurdu. Həmin dövrdə yeganə tədavül vasitəsi duz olduğunu nəzərə alaraq demək olar ki, Naxçıvan şəhəri məhz duzun çıxarıldığı bu ərazilərdə salınmışdır. Bu da o qənaətə gəlməyə imkan verir ki, Naxçıvan şəhərinin formalaşması 5-7 min il bundan əvvəl Naxçıvanda ilk dəfə duzun çıxarılması ilə başlanmışdır" [8].

Beləliklə, aydın olur ki, Naxçıvan şəhəri yaxınlığında olan Duzdağı və oradan mədən yolu ilə çıxarılan duzun tarixi çox qədimdir. Eramızdan əvvəl V minillikdən başlayaraq Duzdağda duz çıxarıldığını, mədənçiliyin inkişaf etdirildiyini, bu mədənin xüsusilə Erkən Tunc dövründə geniş istifadə olunduğu qənaətinə gəliriksə, həm də mədənçilik işinin şəhər tipli yaşayış üçün səciyyəvi olduğunu bildiririk.

Ümumiyyətlə, Duzdağ amili, mədənçiliyin yaranması və inkişafı Naxçıvanda ilkin şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Duzdağda əmək alətlərin, axtarış işlərinə, duzun çıxarılmasına, satışına, mübadiləsinə yaranan tələbat Naxçıvanda şəhərsalma və şəhərləşmə işinin inkişafına təkan vermişdir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi. Bakı: "Çıraq", 720 s.
2. Baxşəliyev V., Catherine M. və b. Naxçıvan Duzdağının qədim duz mədənləri. Naxçıvan: "Əcəmi", NPB, 2012, 80 s.
3. Baxşəliyev V. Naxçıvanın qədim şəhərləri. "Şərq qapısı" qəzeti, 2010, 5 mart.
4. Əliyev V. Naxçıvanın qədim duz mədənləri. Azərbaycan EA-nın "Xəbərlər"i. Bakı, 1983, № 4, s. 75-83.
5. Əliyev V. Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemi // Naxçıvan tarixinin səhifələri. Bakı: ADPU, 1996, 222 s.
6. Əliyev V. Naxçıvan şəhərinin qədim tarixinə dair qərəzli mülahizə. Bakı, "Elm" qəzeti, 1999, 13, 27 avqust
7. Əliyev V., Bağırov R. Naxçıvanın qədim qala şəhərləri. Bakı: "Elm", 2012, 192 s.
8. Haciyev İ. Naxçıvan şəhərinin tarixi Naxçıvan duzunun çıxarılması tarixi ilə bağlıdır. "Şərq qapısı" qəzeti, 2018, 8 may
9. Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il / Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Bakı: "Nurlan", 2007
10. Həbibbəyli İ. Naxçıvan Duzdağı: tarix və müasirlik. "525-ci qəzet", 2012, 28 iyul
11. Həbibbəyli İ. Duzdağ mozaikası. Bakı: "Elm və təhsil", 2017, 308 s.
12. Həsənov S. Naxçıvanda duz istehsalı: keçmişdən bu günümüzə. "Şərq qapısı" qəzeti, 2017, 2 dekabr
13. II Uluslararası Aras hövzəsi sempoziumunun materialları (13-15 Aralık 2011), İğdır, Türkiyə
14. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: "Elm", 1977, 158 s.
15. Məmmədov F. Azərbaycan şəhərləri tarixinin tədqiqi metodologiyasına dair // Tarixin metodoloji və aktual problemləri, Beynəlxalq elm-nəzəri konfransın tezisləri, Bakı: "Nurlan", 2010, s. 92-93
16. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII – XX əsrin əvvəlləri). Bakı: "Elm", 2017, 264 s.
17. Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan: "Əcəmi" NPB, 2012, 398 s.
18. "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda keçirilən beynəlxalq simpoziumda Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışı / Naxçıvan Muxtar Respublikası, Rəsmi sənədlər. 1996-2011, Naxçıvan: "Əcəmi" NPB, 2012, s.514-515.
19. Naxçıvan tarixi. Üç cilddə. I cild. Naxçıvan: "Əcəmi" NPB, 2013, 452 s.
20. Naxçıvan: ilkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Naxçıvan: "Əcəmi" NPB, 2013, 360 s.
21. Belli O., Belli G.S. Ağrı dağı bölgesinde kayatuzu üretimi, ticareti və tuzun halk edebiyatındakı yeri. IV Uluslararası Ağrı dağı ve Nuhun gemisi sempozyumu, 18-20 Ekim 2017, Ağrı, s.113-123.
22. Алиев И. К вопросу о возрасте города Нахчыван/ Naxçıvan Muxtar Respublikası, Məqalələr toplusu. Bakı: "Elm", 1999, s.30-37.
23. Григорьев В.Т. Статистическое описание Нахчыванской провинции. Санкт-Петербург, 1838.
24. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК, вып.2. Тифлис, 1882, с. 109-142.
25. Из дневника И.С.Полякова археологических работ, веденных в Закавказском крае осенью 1879 года. Протоколы Подготовительного комитета V археологического съезда. Прил. к вып. I, т. IX. Древности.- Москва, 1882, с. 198-224.
26. Смирнов К.Н. Материалы по истории и этнографии Нахичеванского края. Баку: «Озан», 1996, 156 с.
27. Щерметевский П. Нахичеванские соляные месторождения. Газета «Кавказ», 16 марта 1855 г.

## ABSTRACT

**Ismayil Hajiyev**

## PARALLELS BETWEEN THE NAKHCHIVANI FIRST URBAN CULTURE AND DUZDAGH

In the article the questions about Nakhchivan's being one of the most ancient human settlements, the material-cultural samples revealed during the archaeological explorations and their analyses, changes took place in the economic, social and cultural life of the tribes living in the territory, Nakhchivan's having relations with the Prophet Noah and World Storm are worked on.

The problems of formation of the Nakhchivani first urban culture, and its history, the Duzdagh mine, how the salt was extracted, processed, and sold, the parallels among Nakhchivan and the Duzdagh mines, the history of Nakhchivan relating to the history of salt manufacture are clarified. The conclusion of the investigation is that in the V century BC in Nakhchivan Duzdagh the salt was extracted by feat of mining and those who worked in the mines created the first settlement here. So it has developed and become an urban culture.



## РЕЗЮМЕ

**Исмаил Гаджиев**

## ПАРАЛЛЕЛИ МЕЖДУ РАННЕЙ ГОРОДСКОЙ КУЛЬТУРОЙ НАХЧЫВАНА И ДУЗДАГОМ

В исследованы вопросы о бытности Нахчывана одним из самых древних человеческих поселений в мире, доказывающие это материально-культурные образцы, добытые в результате археологических исследований, их анализ, изменения, произошедшие в экономической, общественной и культурной жизни населявших регион племён, связь нахчывана с пророком Ноем и Всемирным потопом.

Также освещены такие вопросы, как формирование ранней городской культуры в Нахчыване, его история, соляные прииски, добывание соли, переработка, продажа, параллели между Нахчываном и Дуздагом, связь истории Нахчывана с историей добывания нахчыванской соли. В результате исследований выяснилось, что в V тысячелетии до н.э. в нахчыванском Дуздаге добывали соль, и работающие здесь люди вблизи приисков образовали поселение, которое развиваясь, постепенно переросло в раннюю городскую культуру.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**RAFİQ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
**ZAMİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*zaminalisoy@gmail.com*

**UOT: 94(479.242)**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ERMƏNİLƏRİN NAXÇIVANLA BAĞLI İDDİALARI VƏ BU İDDİALARIN İFLASA UĞRAMASI

**Açar sözlər:** *Rusiya imperiyası, Naxçıvan, Qars müqaviləsi, Moskva müqaviləsi İrəvan, saxtakarlıq, Türkmənçay müqaviləsi*

**Key Words:** *Russian Empire, Nakhchivan, Kars contract, Moscow contract Yerevan, Falsification, Turkmenchay contract*

**Ключевеы слова:** *Российская империя, Нахчыван, Карский договор, Московский договор, Ереван, мошенничество, Туркменчайский договор*

Dünyanın siyasi xəritəsinə baxdıqda Azərbaycanın tərkib hissəsi olan Naxçıvan olduqca kiçik bir ərazini əhatə edir. Lakin buna baxmayaraq geosiyasi mövqe etibarilə olduqca mühüm mövqedə dayanır. Kiçik bir ərazisi olan Naxçıvan, Türk dünyasını bir-birinə bağlayır. Türkiyə ilə digər türkdilli ölkələr arasında adətən körpü rolunu oynayır. Bu qapının açıq olması, türkdilli ölkələrin birliyi ideasının reallaşması daim gündəmdə olacaq deməkdir və dolayısı ilə bu birliyin yaranmasını istəməyən qüvvələrin diqqət mərkəzində dayanacaqdır. Məhz ona görə də, XIX- əsrin sonu XX əsrin əvvəllərində Türk ölkələrin coğrafi birliyini istəməyən xristian dünyası bu bölgədə türkdilli ölkələri bir -birindən ayırmaqlar bölgədə xristian erməni dövlətin yaradılmasına fitva verdilər. Tarixin heç bir mərhələsində bölgədə erməni dövlətinin olmasına baxmayaraq ermənilər bölgə ölkələrinə ərazi iddiaları il çıxış etməyə başladılar.

Qədim dövrdə və erkən orta əsrlərdə müxtəlif dövlətlərin tərkibində erməni knyazlıqları olsa da, onlar müstəqil olmamış və öz dövlət qurumlarını yarada bilməmişlər. Lakin XX əsrin əvvəllərində beynəlxalq vəziyyətin gərgin olması və Osmanlı imperiyasının zəifləyərək öz nüfuzunu itirməsi ermənilərin əl qol açmasına səbəb oldu. Ermənilər 1828-ci il və ondan sonrakı proseslərdə Osmanlı və İran ərazilərindən Azərbaycana köçürüldüklərini unudaraq Azərbaycana ərazi iddiaları irəli sürməyə başladılar.

M.S. Ordubadinin "Qanlı illər" əsərində göstərilir ki, 1905-1906-cı illər iğtişaşları zamanı ermənilərin başlıca məqsədləri İrəvandan Naxçıvana qədər yol üstə yerləşən islam kəndlərini dağıtmaqla İrəvan ermənilərini Naxçıvanda hazır olan əsgəri qüvvələrlə birləşdirmək, sonra isə Naxçıvandan Zəngəzura kimi yol boyunda olan köyləri dağıdıb, Zəngəzur könüllüləri ilə Naxçıvandakı əsgəri qüvvəni birləşdirmək kimi alçaq xəyallardan ibarət idi [5, s 17]. Yəni ermənilər İrəvanla Zəngəzurun erməni kəndləri arasında müsəlman kəndlərinin əhalisini silah gücünə, kütləvi qırğınlar törətməklə təmizləmək, həmin kəndlərdə Türkiyədən gəlmiş erməniləri yerləşdirmək istəyirdilər. M.S.Ordubadinin daha sonra qeyd etdiyi kimi, erməni təşkilatlarının məqsədi İrəvanla Naxçıvan və Naxçıvanla Zəngəzur arasındakı müsəlman yaşayış məntəqələrini təmizləyib Qarabağ erməniləri ilə təhlükəsiz, birbaşa əlaqə qurmaq, sonradan həmin ərazilərdə erməni dövləti yaratmaqdan ibarət idi [5, s 119].

Məlum olduğu kimi, "Erməni məsələsi" beynəlxalq rəqabətdə maraqları toqquşan iki böyük dövlətin – Rusiya ilə İngiltərənin təhrikləri nəticəsində ortaya çıxmışdır. Xüsusilə Rusiyanın erməni siyasəti İngiltərənin erməni məsələsinə yönəlik baxışına təsir edən amillərin başında gəlir. Rusiya tarixi məqsədlərinə çatmaq üçün Osmanlı ərazisində yaşayan ünsürlərin, xüsusilə ermənilərin problemlərini faydalı potensial amil kimi dəyərləndirdilər. Ermənilər Rusiyanın cənuba enmək üçün Anadolunun şərqində yaşayan xalqın bir hissəsini təşkil edirdilər. Eyni zamanda kilsənin də təhriki və təşvikiylə radikal millətçilik duyğusuna sahib idilər. Bu səbəbdən Rusiyanın Osmanlı torpaqlarına göstərdiyi marağın özəyində ermənilər və onların problemləri yer almışdı. Rusiyanın Yaxın Şərqdə güclənmək və isti dənizlərə çıxmaq strategiyasını özündə ehtiva edən bu siyasəti İngiltərənin ənənəvi siyasətinə tərs düşmüş, nəticədə erməni məsələsi beynəlxalq problemə çevrilmişdir [6, s 28]. Avropa ölkələri, xüsusən İngiltərə və Fransa Osmanlı imperiyası ərazisində bir erməni dövlətinin yaranmasına razı idilər. İngiltərə Osmanlı ərazisində yaradılacaq erməni dövlətindən istifadə edərək bölgədə təsir gücünü artıracaqdı. Bu siyasət İngiltərənin 1917-ci il noyabrın 2-də *Balfur bəyannaməsindəki niyyəti ilə oxşarlıq təşkil edir.* Bu zaman ermənilərin digər bir havadarı olan Rusiya Anadoluda yaradılacaq erməni dövlətinin İngiltərə və Fransanın himayəsində olacağından çəkindiyi üçün erməni dövlətinin Qafqazda reallaşmasına razılıq

verdi. Bu dövlət də təbii ki, Rusiyanın tabeliyində olmalı idi. Qafqazda ermənilər əsasən rusların əli ilə Azərbaycan ərazilərində məskunlaşdırılması nəzərdə tutulurdu. Yaradılacaq dövlətin ərazisi də Azərbaycan ərazisi hesabına təmin edilməli idi. Ermənilər I Pyotrun dövründən etibarən Azərbaycanın müxtəlif bölgələrinə məskunlaşdırılmışdılar. Onların ən sıx köçürüldükləri bölgələr, əsasən Naxçıvan, Zəngəzur, İrəvan və Qarabağ bölgələri idi. Bu bölgələrin seçilməsi heç də təsadüfi deyildi. Belə ki, ermənilərin qeyd etdiyimiz bölgədə yerləşdirilməsi və dövlətləşməyə doğru irəliləməsi xristian dövlətlərin, əsasən, Rusiyanın çoxəsrlik planlarının bir parçası idi. Yəni Rusiya Qafqazda erməni dövləti yaratmaqla Azərbaycanla Türkiyənin bir- birindən ayırmış olacaq, bu da dolayısı ilə Türkiyənin digər türkdilli ölkələrdən ayrılması demək idi. Bu məsələni Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev də dəfələrlə qeyd etmişdir. Milli Elmlər Akademiyasının illik ümumi yağıncağında İlham Əliyev bu məsələni yenidən gündəmə gətirmişdir. Öz çıxışında o qeyd etmişdir: "...dünya birliyi demək olar bilmirdi ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Biz təşəbbüslərimiz, tarixə müraciətimiz və konkret dəlillərlə, faktlarla mövqeyimizi əsaslandır-mışıq ki, İrəvan Ermənistanın paytaxtı kimi Azərbaycan dövləti tərəfindən 1918-ci ildə verilmişdir. Zəngəzur mahalı qədim Azərbaycan torpağıdır və süni şəkildə Ermənistana verilmişdir. Zəngəzur mahalının Ermənistana verilməsi böyük ədalətsizlik idi. Doğma torpağımızın bir parçası Ermənistana birləşdirildi. Bunun çox böyük mənfi nəticəsi oldu. Bu bütün türk dünyasını parçaladı. Bu gün türk dünyası coğrafi baxımdan parçalanıb..." [7].

Ermənilər rus dəstəyi ilə Naxçıvan istisna olmaqla yuxarıda qeyd etdiyimiz digər Azərbaycan ərazilərinin əhalisinə qarşı soyqırım, deportasiya tətbiq edərək bu bölgələri ələ keçirə bildilər. Ermənilərin Naxçıvanı işğal edə bilməməsi onların planlarını yarımçıq qalmasına səbəb oldu. Naxçıvan əhalisinin mübarizliyi və qəhrəmanlığı bu planların həyata keçirilə bilməməsində ən böyük faktordur. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbov qeyd etmişdir: İstər XIX əsrdə, istərsə də XX əsrin əvvəllərində Naxçıvana ermənilərin yerləşdirilməsi prosesi davam etdirilsə də, ermənilər tərəfindən Naxçıvanda qırğınlar törədilsə də, Naxçıvan əhalisi heç vaxt azadlıq əzmini itirməmiş, həmişə öz sözünü deməyi bacarmış, düşmənin layiqli cavabını vermiş, hətta naxçıvanlıların qəhrəmanlığı ermənilərin tarixi sənədlərində də öz əksini tapmışdır [2, s 5].

Naxçıvanın Azərbaycan tərkibində qorunub saxlanılmasında Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyə Cumhuriyyətinin rolu da əvəz edilməzdir. Xüsusən Moskva və Qars müqavilələrində Azərbaycanın mənafeyi müdafiə edilir. Qars danışıqları və müqaviləsi, onun ayrı-ayrı maddələri Ermənistan və diaspor erməniləri tərəfindən birmənalı qəbul olunmurdu. Əgər "Sovet Ermənistanı" qəzeti "Qars sülh konfransı" adlı yazısında bu danışıqları Ermənistanın müstəqilliyini möhkəmləndirə biləcək bir akt kimi qiymətləndirirdisə, əks mövqedə dayanan qüvvələr və onların mətbu orqanları məsələyə başqa səpkidən yanaşırdılar.

Təbrizdə çıxan "Hayk" qəzetinin "Pərdə götürülmüşdür" adlı baş məqaləsi bu baxımdan olduqca maraqlıdır. Orada yazılırdı ki, şanlı Qızıl ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz hissəsini təşkil edən 1914-cü il sərhədlərində belə dayana və hətta balaca Naxçıvanı kamalçıların caynaqlarından qopara bilmədilər.

Məqalədə Qars müqaviləsinin nəinki Ermənistana, habelə Rusiyanın özünə də heç nə vermədiyi və sanki türk qoşunlarının təntənə ilə Moskvaya daxil olaraq məğlub Rusiyaya öz iradələrini diqtə etdirmələri təsiri bağışladığı göstərilirdi. Bu yazı belə bir sonluqla bitirdi: erməni xalqının "xilaskar Rusiyaya" bəslədiyi ümidlər sadəcə yalandır və Rusiya digər imperialist dövlətlərindən özünün fərsizliyi və kütlüyü ilə fərqlənir; Ermənistan da onun qurbanıdır. Ermənilərin həmişəki xəyanətkar xisləti bu yazıda özünü biruzə verir. Yəni onların hamisi və erməniləri gətirib Qafqazda məskunlaşdıran Ruslara qarşı da bəzən Avropa ölkələri ilə şantaj məqsədli münasibətlər saxlayırdılar. Belə ki, onlar qədimdən bəri bölgədə hakim olan imperiyalara sığınmış və digər xalqlara böhtanlar, ərazi iddiaları irəli sürmüşdülər. Erkən orta əsrlərdə ilk başda ərəblərə qarşı bizansı dəstəkləyən ermənilər sonradan Bizansın zəiflədiyini görüb ərəblərə tərəf keçmiş və alban kilsəsinə qarşı böhtanlar atmışdır. Bunu erməni katalikosu İlyanın ərəb xəlifəsi Əbdülməlikə məktubundan aydın görə bilərik. Onların bu xisləti Hülakilər dövründə və bundan sora bölgədə möhkəmlənən bütün dövlətlərə münasibətindən aydın görə bilərik. Onlar bu siyasəti XX əsrin əvvəllərində Rusiyaya qarşı da tətbiq edirdilər.

Qars konfransından sonra qaldırılan "erməni məsələsi" ilə bağlı Atatürkün bir fikrini burada xatırlatmaq yerinə düşərdi. O, çıxışlarından birində demişdi ki, bizim Şərqdəki faktiki vəziyyətimiz Qars müqaviləsilə hüquqi forma almışdır və bu müqavilə Sevr müqaviləsinin tətbiqolunmazlığını sübut edən amillərdən biridir, "erməni məsələsi" deyilən bu məsələ isə özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır [8].

Beynəlxalq vəziyyətin mürəkkəbliyi, imperialist qüvvələrin erməniləri dəstəkləməsinə baxmayaraq Naxçıvan əhalisi inadlı müqavimət göstərmiş xüsusəndə türkiyə hökumətinin naxçıvanla bağlı qətiyyətli mövqe göstərmişdir. Erməni millətçilərinin "böyük Ermənistan" ərazisinin tərkibində görmək istədiyi Naxçıvanla bağlı saxta və qeyri-obyektiv məlumatlar yayırdılar.

Ulu öndərimiz Naxçıvanın muxtariyyət statusu əldə etməsinin və Qars müqaviləsinin imzalanmasının mühüm tarixi əhəmiyyət daşıdığını bildirərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini

gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir” [9].

Təssüf ki, erməni ideoloqları və onların havadarları olan xristian dünyası Cənubi Qafqazla bağlı planların böyük əksəriyyətini gərçəkləşdirə bildilər yəni vahid türk məkanını parçalanmasına nail oldular. Lakin, Naxçıvanı ələ keçirə bilməmələri onların planlarının müəyyən qədər yarımçıq qalmasına səbəb oldu. Zamanında ermənipərəst qüvvələrin niyyətlərini yaxşı başa düşən Mustafa Kamal Atatürk ona görə də Naxçıvanı nəyin bahasına olursa olsun əldən vermək istəmirdi.

Başlanğıcda, Naxçıvan Muxtar Respublikası yaradılarkən Naxçıvan və Türkiyə arasında ümumi sərhəd yox idi. Bu, Mustafa Kamal Atatürk İran şahı Rza Pəhləvi ilə Türkiyə ərazisinin Naxçıvana doğru uzadılaraq dəyişdirilməsi üçün ərazi dəyişikliyi barədə razılaşma əldə etdikdən sonra mümkün oldu. Dəyişiklik 1930-cu illərdə Türkiyə ilə Azərbaycan arasında 11 kilometrlik sərhəd xəttinin yaradılmasına imkan verdi. Bu məqsədlə Türkiyə kompensasiya olaraq özünün cənubdakı bəzi torpaqlarını İrana verdi. Beləliklə, 1921-ci ildə bağlanmış Qars müqaviləsi ortaq Türkiyə-Azərbaycan sərhədinin yaradılması istiqamətində ilk addım idi [10]. Qərb diplomatiyasının və Rusiyanın səyləri ilə XIX əsrdə və XX əsrin əvvəllərində bir çox beynəlxalq müqavilələrin San-Stefano müqaviləsi, Berlin traktını, Sevr müqaviləsi, Moskva və Qars, Lozanna müqavilələri əsasında əvvəlcə əzəli, qədim Azərbaycan ərazisində “əyalət”, Sevr müqaviləsinə əsasən “ABŞ-ın mandatı altında Qara dənizə çıxışı olan 170 min kvadrat kilometr ərazisi olan “müstəqil Ermənistanın yaradılması haqqında qərar verilmiş, XX əsrin əvvəllərində Azərbaycan torpaqları hesabına özlərinin “Şərqi Ermənistan”, “Qafqaz Ermənistanı”, “Rusiya Ermənistanı” adlandırdıqları ərazilərimizdə təcavüzkar Daşnak Ararat Ermənistan Respublikası (Ermənistan Demokratik Respublikası), sonralar isə Ermənistan sovet respublikası yaradılmasına nail olunmuşdur.

## ƏDƏBİYYAT


1. Naxçıvan tarixi III cilddə, II cild, Naxçıvan: Əcəmi, 2014 (528)
2. İ. Hacıyev. Ermənilərin Azərbaycana Qarşı Ərazi İddiaları və Qanlı Cinayətləri, Naxçıvan, Əcəmi, 2012 (191s)
3. E. Şıxəliyev. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsi"nin yeri və Azərbaycana təsiri (1917-1920), (Böyük Britaniyanın arxiv materialları əsasında), Naxçıvan: Əcəmi, 2016 (144 s)
4. Z. Əmrahov. Osmanlı imperiyasında erməni məsələsi problem, Bakı: Elm və Təhsil, 2017 (270s)
5. Ordubadi M. S. Qanlı illər (1905-1906-cı illərdə Qafqazda baş vermiş erməni-müsəlman davasının tarixi), B, 1991
6. E. Şıxəliyev. Böyük Britaniyanın arxiv materialları əsasında İngiltərənin “erməni” siyasəti və Naxçıvana təsiri (1917-1920-ci illər), Naxçıvan: Qeyrət, NDU-2016 (s 28-36)
7. https://president.az
8. https://az.wikipedia.org
9. www.serqqapisi.az
10. https://www.bbc.com


## ABSTRACT


**RAFIG RAHIMOV, ZAMIN ALIYEV**

**ARMENIAN CLAIMS ON NAKHCHIVAN AT THE BEGINNING OF 20TH CENTURY AND ITS' DOWNFALL**

In many stages of history, the Armenians have tried to break stability of the region by bringing territorial claims to Azerbaijan. Taking advantage of the imprudence, they have claimed territorial claims to ancient Turkic land Nakhchivan and Yerevan with counterfeit "historical evidence". Based on many historical sources, we can say that in the territory of present-day Armenia (Western Azerbaijan) ethnicity prevails no longer in Armenians, and even in the first half of the 19th century, after the Russians moved armenians from Ottoman and Iranian here, the situation did not change to the in favor. Never the less, their territorial claims continued in the early 20th century.


## РЕЗЮМЕ


**РАФИГ РАГИМОВ, ЗАМИН АЛИЕВ**

**АРМЯНСКИЕ ПРИТЯЗАНИЯ НА НАХЧЫВАН В НАЧАЛЕ 20-ГО ВЕКА И ЕГО БАНКРОТСТВА**

Армяне, на многих этапах истории предъявляя территориальные притязания на Азербайджан, стремились к нарушению стабильности в регионе. Пользуясь сложившимися обстоятельствами на различных этапах они, на основе ложных исторических доказательств, выдвигали территориальные притязания на Нахчыван и Иреван, являющиеся древними тюркскими землями. Опираясь на многие источники можно сказать, что на територии современного государства Армения (Западный Азербайджан), этническое превосходство никогда не было в пользу армян, даже в первой половине XIX века, после переселения сюда армян русскими из Османской Империи и Ирана не удалось поменять ситуацию к лучшему. Несмотря на это их территориальные притязания продолжали оставаться и в начале XX века.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**ALLAHVERDİ HÜSEYNOV**
**XƏZƏR HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*
*xezerhuseynov@gmail.com*

**UOT:94(479.242)**

# AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİ TƏRƏFİNDƏN AZƏRBAYCAN ORDUSUNUN YARANMASI TARİXİNDƏN

**Açar sözlər:** *Azərbaycan Xalq Cumhuriyyəti, Azərbaycan Ordusu, Milli Şura, Hərbi Nazirlik, Ordu quruculuğu*

**Key words:** *Azerbaijan People's Republic*, Azerbaijani Army, National Council, Military Ministry, Army building

**Ключевые слова:** *Азербайджанская Демократическая Республика, азербайджанская армия, Национальный Совет, Военное Министерство, построение армии.*

İctimai-siyasi hadisələrlə zəngin olan XX yüzillik cəmiyyət tarixinə ilk növbədə məzlum xalqların milli oyanışı və milli dirçəlişi kimi daxil olmuşdu. Bu dövrdə dünyanın siyasi xəritəsində onlarla müstəqil dövlətlər meydana gəlmişdi. Azərbaycan xalqı da bu ümumdünya prosesindən kənarda qalmamışdı.

1918-ci il may ayının 28-də yaranmış Azərbaycan Milli Şurası İstiqlal bəyannaməsi ilə Azərbaycan Xalq Cumhuriyyətini elan etdi. Azərbaycan Parlamenti yarandı.

Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 16 mart 2017-ci il tarixli sərəncamında deyildiyi kimi: “Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı...” (7, s.1).

Yenicə yaranmış Azərbaycan Parlamentinin qarşısında mühüm vəzifələr dururdu. Onlardan ən başlıca vəzifələrdən biri də Azərbaycan Ordusunu yaratmaq problemi idi. Çünki gənc respublikanın müstəqilliyinə, ərazi bütövlüyünə qarşı hər an real təhlükə və onun milli mənafeyinin qorunması təsirli tədbirlər görülməsini, ordu yaradılmasını tələb edirdi.

Azərbaycan Xalq Cumhuriyyəti çox mürəkkəb tarixi və coğrafi-siyasi şəraitdə yaradılmışdı. Azərbaycanın əlverişli coğrafi-strateji əhəmiyyətinə, təbii-iqtisadi şəraitinə görə o, dünyanın ən iri dövlətlərinin maraqlarını özünə cəlb etmişdi. Belə bir şəraitdə Azərbaycan Xalq Cumhuriyyətinin varlığını və torpağını qoruyub saxlamaq ən vacib məsələlərdən biri idi.

Birinci Dünya müharibəsinin gedişində cəbhəni tərk etmiş rus qoşunlarının yerini tutan erməni hərbi hissələri Osmanlı qoşunlarının zərbələri altında geri çəkilərkən öz heyiflərini Azərbaycan əhalisindən çıxır, on minlərlə müsəlman qətlə yetirilir, kəndlər darmadağın edilirdi.

Qonşulara nisbətən bu dövrdə Azərbaycanın vəziyyəti çox ağır idi. Belə ki, Azərbaycan milli-demokratik qüvvələrin ixtiyarında milli hərbi hissələr yox dərəcəsində idi. Bu, çar hökuməti dövründə imperiyanın Azərbaycana münasibətdə yüz il ərzində yeritdiyi siyasətlə izah edilir (12, s.54).

Qeyd etmək olar ki, Rus imperiyası dövründə müsəlmanlara etibar edilmədiyinə görə, onlar orduya çağırılmır və bunun əvəzində “hərbi vergi” verirdilər (5, s.249).

Hələ Türk ordusu Azərbaycanda olarkən ordu quruculuğuna başlamış, onu sürətləndirmək və daha səmərəli aparmaq üçün 1918-ci il oktyabrın 23-də respublika hökumətinin iclasında Hərbi Nazirliyin yaranması qərara alınmışdı (1, s.394). Bu qərar Nazirlər Şurası tərəfindən 1918-ci il noyabr ayının 1-də imzalandı (1, s.395).

Azərbaycan Milli Ordusunun təşkili Azərbaycan Xalq Cumhuriyyətinin elan edildiyi gündən başlamışdı (2, s.175). Yeni yaradılacaq ordunun əsasını Müsəlman korpusu təşkil edirdi. Ordu quruculuğuna rəhbərlik üçün ilk növbədə Hökumət kabinəsi tərkibində Hərbi Nazirlik də nəzərdə tutulmuş və Xosrov Paşa bəy Sultanov Hərbi nazir təsdiq edilmişdi. Lakin çox çəkmədi Hərbi nazirlik kabinənin buraxılması ilə Hərbi nazir

vəzifəsi də ləğv edilmişdir. Ordu işlərinin təşkili hərbi işlər üzrə baş müvəkkil İsmayıl Xan Ziyadxanova tapşırılmışdı (2, s.175).

1918-ci il iyunun 26-da Hökumətin qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı. Onun ştat cədvəlində qismən dəyişiklik edildi. General-leytenant Əlağa Şıxlinski korpus komandiri kimi vəzifəsini icra etdi.

Hökumət ordu quruculuğu sahəsində bir sıra tədbirlər həyata keçirdi. İyun ayının əvvəllərində Gəncə Hərbi məktəbi fəaliyyətə başladı. Hökumətin qərarı ilə çağırışçılar üçün yaş senzi 19 yaşa endirildi. Sonra 1894-95-ci illərdə doğulmuş və islam dininə mənsub gənclərin xidmətə çağırılmaması barədə qərar qəbul edildi.

Millətin təhlükəsizliyini və Vətənin ərazi bütövlüyünü qoruya biləcək milli ordu quruculuğunu gücləndirmək məqsədi ilə Nazirlər Şurası tərəfindən 1918-ci ilin noyabr ayının 1-də Hərbi Nazirliyin yenidən bərpa edilməsi qərara alınmışdı. Yeni şəraitdə Azərbaycanın ərazi bütövlüyünün qorunması tamamilə Hərbi Nazirliyin üzərinə düşməli idi. Bu struktur dövlətin qarşısında duran tarixi vəzifələrin həllində mühüm rol oynadığından ona rəhbərliyi ilk vaxtlar Nazirlər Şurasının sədri F.X.Xoyski öz üzərinə götürdü. Nazir müavini isə artilleriya generalı Səməd bəy Mehmandarov təyin edildi və ona Nazirliyin formalaşması tapşırıldı (1, s.395).

General Səməd bəy Mehmandarov milli ordunun yenidən qurulmasına formalaşmasını başa çatmamış və pərakəndə halda olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün ilk növbədə mərkəzi hərbi idarəetmə orqanlarını təşkil etməkdən başladı. Qısa müddət ərzində Hərbi nazirliyin aparatı yaradıldı. Hərbi Nazirliyin təşkili barədə Hökumət qərarından iki həftə sonra, noyabrın 15-də ordunun Ümumi Qərargahının təsis edilməsi barədə S.Mehmandarovun müvafiq əmri imzalandı (1, s.395; 3, s.176). Ümumi Qərargahın tərkibi, ləvazimat, mühəndis, növbətçi general, general-kvartirmeyster, topçu, topoqrafiya, tibb, hərbi təhsil və nəzarət şöbəsindən ibarət idi. Bu şöbələrin başçıları vəzifələrinə milli qoşun hissələrinin yaradılmasında artıq kifayət qədər xidmətləri olan zabitlər təyin edildilər. Polkovnik H.Səlimov - Ümumi Qərargah və dəftərxananın, polkovnik Qaytabaşı - növbətçi general, polkovnik Seyfulla Mirzə - ləvazimat, general-mayor Usubov - hərbi təhsil şöbəsinin rəisi və qoşunlarda atıcılıq işlərinin müfəttişi oldular (1, s.395). Adları çəkilən rəislərdən yalnız general-mayor Usubovdan başqa hamısı Müsəlman Korpusu yaradıldığı gündən milli hərbi hissələrinin təşkilində fəal iştirak etmişdilər. Azərbaycanın ərazi bütövlüyünün qorunmasında və müstəqil ordusunun formalaşmasında dəyərli xidmətlər göstərmişdilər.

1918-ci il Mudros müqaviləsinin şərtinə görə, müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis hərbi qüvvələri komandanı general V.Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb etdi ki, 1918-ci il noyabrın 17-dən Türkiyə qoşunları kimi Azərbaycan qoşunları da Bakı şəhərini tərk etsinlər (13, s.147). Çünki V.Tomson öz ölkəsinin xarici siyasətinə uyğun olaraq, Bakı şəhərini istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi baxımdan mühüm strateji mərkəz sayır və ona nəzarəti tamamilə öz əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun nəzarəti altında olan hərbi qüvvələrə də etibar etmirdi. Ona görə 1918-ci il noyabrın 22-də Hərbi nazirlik Gəncəyə köçdü (1, s.395). General S.Mehmandarovun rəhbərliyi altında öz fəaliyyətini Gəncədə davam etdirdi. Azərbaycan Cumhuriyyəti Ordusunun əsas qüvvələri Hərbi Nazirliyin Gəncədəki fəaliyyəti zamanı qurulmuşdu.

1918-ci il dekabrın 28-də Bakıda olan V.Tomson Azərbaycan hökumətini tanıdığını bildirdi. V.Tomsonun bəyanatında deyilirdi ki, bütün Azərbaycan ərazisində F.X.Xoyskinin sədrliyi ilə yaranmış Azərbaycan Koalisyon hökuməti yeganə qanuni hakimiyyətdir və müttəfiq ölkələrin hərbi qüvvələrinin komandanlığı bu hökumətə hərtərəfli yardım göstərəcəkdir. Az sonra Bakıya gələn Balkanlarda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Mili V.Tomsonun bəyanatını təsdiq etdi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisini yeganə qanuni hakimiyyət kimi tanıyır (13, s.156).

İngilis qoşunları Bakını tərk etdikdən sonra Azərbaycan Hərbi Nazirliyi Gəncədən Bakıya köçürüldü.

1918-ci ilin sonu və 1919-cu ilin əvvəllərində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Nazirlər Şurasının 1918-ci il 25 dekabr tarixli qərarı ilə tam artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr 1918-ci il tarixli qərarı ilə general-leytenant Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi (1, s.396;2,s.176). Bu təyinat Azərbaycan ordusunun formalaşması istiqamətində hökumətin qəbul etdiyi dəyərli qərarlardan biri idi. Çünki bu iki şəxsiyyətin təcrübəsi və biliyi orduda quruculuq işlərinin səmərəli xarakter olmasına zəmin yaratdı.

Hərbi nazir 1918-ci il 31 dekabr tarixli 40 saylı əmr ilə Ümumi qərargahın tarixindəki topçu şöbəsinin əsasında Topçu idarəsi yaradıldı (1, s.397; 2,s.176). Bu idarə texniki və təftiş bölmələrindən ibarət idi. Texniki bölmə Azərbaycan ordusunun bütün nizami hissələrinin topçu texnikası, sursat və ləvazimatla təchiz olunması, bütünlükdə, topçu əmlakının mühafizəsi ilə məşğul olmalı, bunun üçün lazımi metodiki göstərişləri

hazırlamalı, təftiş bölməsi isə topçu hissələrinin döyüş hazırlığı ilə məşğul olmalı və bunun üçün zəruri olan təlimatları metodiki sənədləri hazırlamalı idi.

Hərbi Nazirlik orduda xidmətin hüquqi əsaslarının hazırlanmasına xüsusi diqqət yetirdi. Buraya hərbi nizamnamələr, döyüş təlimatları, bütün xidməti sahələri tənzimləyən sənədlər, zabit rütbələri, səfərbərlik, hərbi məhkəmə işlərinin aparılması üzrə əsasnamələr və s daxil idi.

1918-ci il dekabrın 27-də Azərbaycan Cumhuriyyətinin Hərbi nazirinin 34 saylı əmri ilə Azərbaycan dili orduda dövlət dili qəbul edilmişdi.

Azərbaycan döyüşçüsünün milli ruhda tərbiyələnməsi, hərbi təlimin ana dilində aparılması, onların mənəvi-psixologiyasına müsbət təsir göstərirdi. Hərbi Nazirliyin rəhbərliyi bu məsləyə xüsusi diqqət yetirirdi.

1919-cu ilin martında Azərbaycan ordusunun idarə etmə orqanlarında mühüm keyfiyyət dəyişikliyi meydana gəldi. Hərbi nazirin əmri ilə mart ayının 21-də Baş Qərargah təsis edildi. General-leytenant Məmməd bəy Sulkeviç bu ordunun rəisi təyin edildi. Bundan sonra ordu hissələrinin formalaşması daha ahəngdar xarakter aldı. 2-ci Bakı piyada alayının formalaşması sürətləndirildi. 3-sü Şəki süvari alayının təşkili tezliklə başa çatdı (1, s.400).

1919-cu ildə 8-ci Ağdaş piyada alayının və Zəngəzurdakı xüsusi hərbi hissələrinin formalaşması başa çatdırıldı. 6-cı Göyçay piyada alayının formalaşması aparıldı. Lənkəran qəzasında mühüm ordu quruculuğu gücləndi. Azərbaycan Xalq Cumhuriyyətinin hökuməti və parlamenti öz daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra məsələlərə də diqqət yetirmişdi. Bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdi (11, s.251).

Azərbaycan Xalq Cumhuriyyəti hökuməti Naxçıvana xeyli vəsait, poçt-teleqraf işi qaydaya salınmış, neft məhsulları ilə təmin edilməsinə diqqəti artırmışdı. Azərbaycan hökuməti özünün 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğunu yaratmışdı. Yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün Daxili İşlər Nazirliyinin 20 milyon manatlıq fondundan 500 min manat pul ayırmışdı (1, s.411; 11, s.254).

1919-cu ilin yanvarında və payızında ordu hissələrinin formalaşması böyük sürətlə davam etdirilmişdi.

Birinci piyada diviziyanın qərargahı Gəncədə yerləşmiş, rəisi general-mayor Cavad Şıxlinski idi. Bu diviziyaya Cavanşir (komandiri polkovnik Səməd Rüstəmov), Zaqatala (polkovnik Əhməd Dibirov), Gəncə (polkovnik Cahangir Kazımbəyov), alayları daxil idi. Hər piyada alayı min nəfərlik 3 tabordan (batalyondan) ibarət idi. İkinci piyada diviziyanın qərargahı Bakıda yerləşmiş, rəisi general-mayor İbrahim Usubov (bəzi mənbəklərdə-Yusifov) idi. Tərkibinə Quba (polkovnik Hüseyn Quğuşov), Bakı (polkovnik İsrafil İsrafilov), Göyçay (polkovnik Mehdi Sultanov) alayları daxil idi. Kapitan Sultan Hüseynzadənin başçılıq etdiyi Lənkəran ehtiyat batalyonu da ikinci piyada diviziyanın tərkibində idi.

Süvari diviziyanın da qərargahı Gəncədə yerləşmiş, rəisi general-mayor Teymur Novruzoğlu idi. Tərkibinə türk (polkovnik Nubay Sofiyev), Qarabağ (polkovnik Məhəmməd Tuganov), Şəki (polkovnik Tongiyev) süvari alayları daxil idi. Səlim Sultanovun başçılıq etdiyi xüsusi süvari diviziya alay şəklini almaqda idi. Kapitan Yunis Şəkərovun atıcı batalyonu da üçüncü süvari diviziyanın tərkibində idi.

Gəncədə 1 və 11 artilleriya briqadaları yerləşdirilmiş, yüngül toplara malik xüsusi divizion formalaşmışdı. Bakıda möhkəmləndirilmiş rayonu komandanlığının (general-mayor Həbib Səlimov) tabeliyində xüsusi hərbi hissələr və bateriyalar mövcud idi. Parlamenti xüsusi mühafizə dəstəsi (rəisi Nağı Əliyev) qoruyurdu. Azərbaycan ordusunda bu dövrdə 3 zirehli qatar, 4 hərbi təyyarə, 6 zirehli avtomobil, iki hərbi gəmi var idi (12, s.65). 1919-cu ilin sonunadək Azərbaycan ordusunun şəxsi heyətinin sayı 20 min nəfəri olduğu halda, 1920-ci ildə Hərbi Nazirlik ordunun sayını 40 min nəfərə çatdırmağı nəzərdə tutdu. Buna nail olmaq üçün 1920-ci ilin ilk günlərindən etibarən çox geniş quruculuq işlərinin aparılması planlaşdırıldı.

Hərbi nazirlik tərəfindən tərtib edilmiş plana görə il ərzində 9-cu piyada alayı, 4-cü siyasi alayı, iki qaubitsa batereyası, bir dağ-süvari batereyası, dağ-süvari diviziyasının qərargahı, üz bateriyadan ibarət yüngül səhrə divizyonu və onun qərargahı, hər biri bir bölükdən ibarət olan dörd məhəlli komanda və hər biri yarım bölükdən ibarət olan üç məhəlli komandan yaradılmalı idi (2, s.179).

1919-cu ilin yayında Azərbaycan ərazisində hərbi şəraitin kəskinləşməsinə baxmayaraq, Hərbi Nazirliyin rəhbərliyi ordu quruculuğu işindəki ahəngdarlığı saxlamağa çalışdı. 1920-ci ilin ilk günlərindən 3-cü zirehli qatarın komplektləşdirilməsinə başlandı. Ordunun ali idarəetmə orqanlarında əsaslı sürətdə dəyişikliklər aparıldı. 1920-ci ilin mart ayında Baş qərargahla Ümumi qərargah birləşdirilərək Azərbaycan Ordusunun Qərargahı yaradıldı. Mərkəzi təminat və təchizat orqanları birləşərək, Azərbaycan Ordusu təchizat rəisinin idarəsi təşkil edildi. Ordunu hərbi texnika, sursat, geyim və s işləri yaxşılaşdı. Gürcüstandan, İtaliyadan və s. ölkələrdən hərbi ləvazimatlar alındı.

Azərbaycan Ordusunun inkişafı və formalaşması Ermənistanı və Sovet Rusiyasını çox narahat etdi. Onlar öz aralarında gizli müqavilə bağladılar.

Bu gizli müqavilənin əsas məqsədi Şimal rayonlarında yerləşən Azərbaycan Ordu hissələrinin mərkəzə çəkilməsini, Azərbaycanın rus ordusu tərəfindən işğal olunmasını asanlaşdırdı.

Ermənistanla Rusiya arasında bağlanmış gizli müqavilənin şərtini yerinə yetirən erməni silahlıları 1919-cu il martın 19-da hücum edərək 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər. Erməni qüvvələrinin hücumu martın 22-də gecə saat 3-də eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə basqınlar başladı (1, s.419).

1920-ci ilin Novruz bayramı günlərində ermənilər gecə vaxtı qəflətən Xankəndi qarnizonuna hücum çəkib, 16 ordu zabiti və xeyli əsgəri şəhid etdilər. Qarnizon rəisi general Qacarın başçılığı ilə kiçik şaşqınlıqdan sonra özünə gəlmiş, ordu zabitləri müdafiəni təşkil etmiş, erməni hərbi dəstələrini Xankəndindən kənar etmişdilər. Lakin düşmən Əsgəran qalasını ələ keçirmək, Xankəndində olan Qarabağ süvari alayı, Cavanşir piyada alayı və artilleriya bateriyasını mühasirəyə ala bildilər. Ermənilərin Şuşa üzərinə hücumu Cavanşir alayının bir batalyonu tərəfindən dəf edildi. Elə bu zaman Şuşanın erməni məhəlləsində yanğın baş verdi (12, s.69).

Əsgəran qalasını geri almaq və Qarabağda ermənilər tərəfindən yaradılmış qiyamı yatırmaq üçün Azərbaycan Hökuməti Baş Qərargahın rəisi general-mayor Həbib Səlimovun rəhbərliyi altında ordunun böyük bir hissəsini Qarabağa göndərməyə məcbur oldu. Əsgəran qalası tezliklə azad edildi. Erməni hərbi hissələrinin başçısı Dəli Qazar öldürüldü. Ermənilərin yığıncaq mərkəzi olan Keşiş kənd uğrunda olan ağır döyüşlər Azərbaycan Ordu hissələrinin qələbəsi ilə başa çatdı. Qarabağ qiyamı yatırıldı.

Qarabağda gedən döyüşləri müşahidə edən Hərbi nazir general Mehmandarov əsgərlərə müraciətində demişdi: “Qəhrəman əsgərlər, mən şəxsən Almaniya cəbhələrində bir çox müharibələrdə oldum, fəqət sizin qədər qəhrəman əsgərlərə nadirən təsadüf edirəm. Siz qanınızla gənc Azərbaycan Ordusunun namusunu mühafizə etdiniz (12, s.69).

Ümumiyyətlə, 1920-ci il aprelin sonunadək Azərbaycan Ordusu regiondakı 1919-cu il noyabrın 23-nə olan vəziyyəti bərpa edərək ölkəsinin ərazi bütövlüyünü qorudu və bununla da öz vəzifəsini şərəflə yerinə yetirdi.

Azərbaycan Cumhuriyyətinin mövcudluğu zamanı onun ərazisi 113.895,97 $km^2$ idi. Onun 97.297,67 $km^2$ mübahisəsiz, 16.598,30 $km^2$ mübahisəli zonaları əhatə edirdi (1, s.422).

Hərbi münaqişə Azərbaycan hökumətinin əsas ordu qüvvələrini respublikanın qərb sərhədlərində yerləşdirməyə vadar etdi ki, bu da Şimal sərhədlərinin xeyli zəifləməsinə gətirib çıxardı. 1920-ci ilin martında Qarabağda qiyam Ermənistan hökuməti tərəfindən təşkil edilmişdi. Ermənistanın məkirli planını Sovet komandanlığı rəsmi İrəvanla birgə hazırlanmışdı, Azərbaycana hücum edən XI Qızıl Ordunun əməliyyatlarını asanlaşdırmaq məqsədini güdürdü. Lakin bunun fərziyə deyil, fakt olması sonralar Ermənistan hökumətinin 1920-ci ilin iyununda Moskvaya Millətlərin işi üzrə Komissarlığa və RK(b) PMK-ya təqdim etdiyi məktubda təsdiq edilmişdir (1, s.422).

1920-ci ilin mart ayında Azərbaycan Ordusunun əsas qüvvələri Qarabağ əməliyyatına və Ermənistanla sərhəd xəttində irimiqyaslı erməni təcavüzünə qarşı mübarizəyə səfərbər olduğuna görə Azərbaycanın Şimal sərhədlərinin müdafiə sistemi zəifləmişdi. Bu da bolşevik işğalı üçün daha obyektiv şərait yaratmışdı.

72 minlik XI Qızıl Ordunun zirehli qatarlar qrupu mart 26-dan 27-nə keçən gecə Azərbaycan sərhədini keçib sürətlə Bakı üzərinə hücum etmişdi. Azərbaycan Ordusunun kiçik dəstələri XI Qızıl Ordunun hücumlarının qarşısını ala bilməmişdi. General S.Mehmandarov xəstə olduğuna görə Hərbi Nazir vəzifəsini icra edən general Əliağa Şıxlinski minalanmış körpülərin partladılması əmrini ləğv etdi. Azərbaycan K(b)P, Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransının hakimiyyəti təslim etmək haqqında Azərbaycan Parlamentinə ultimatum verdilər (12, s.70).

1920-ci il aprel ayının 27-də Azərbaycan Parlamentinin son iclasında kəskin mübarizələrin gedişində hakimiyyətin dinc yolla Azərbaycan kommunistlərinə verilməsi barədə 6 maddədən (şərtdən) ibarət qərar çıxarıldı (8, s.352). Bu qərarların birində Azərbaycan Ordusunun buraxılmayacağı vəd edilirdi. Lakin çox keçmədi Azərbaycan Ordu hissələri ləğv edildi. Azərbaycan Xalq Cumhuriyyəti dövründə Milli Ordu üçün yığılmış maddi-texniki baza talan olundu. Buna baxmayaraq 90-cı illərdə Müstəqil Azərbaycan Respublikasının yaranması illərində Azərbaycan Ordusu yenidən yarandı, inkişaf etdi və Ordu quruculuğu formalaşdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi “Müasir dövrdə Azərbaycanın güclü Ordusu vardır”.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, 7 cilddə, V cild (1900-1920-ci illər), Bakı: Elm. 2001, 772 s.
2. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası, İki cilddə, I cild. Bakı: “Lider nəşriyyatı” 2004. 440 s.
3. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası, İki cilddə, II cild. Bakı: “Lider nəşriyyatı” 2005. 472 s.

4. Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bakı: Azərnəşr. 1992. 191 s.
5. Allahverdiyev Səttar, Haqverdiyev Əli, Behbudov Mürşüd, "Azərbaycan tarixi", Bakı: "Müəllim" nəşriyyatı, 2005, 332 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, XV cild. Bakı: Azərnəşr. 2005. 528 s.
7. Əliyev İ.H. Azərbaycan Xalq Cumhuriyyətinin 100 illik yubileyi haqqında, Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Bakı: 16 may. 2017, 2 s.
8. Məmmədov İsmayıl "Azərbaycan tarixi" (Ali məktəblər üçün dərslik), Bakı: "Adiloğlu" nəşriyyatı, 2005. 486 s.
9. Hacı Hacıyev İstiqlalın əzablı yolu, Bakı: "Kommunist" nəşriyyatı, 1991. 34 s.
10. Musayev İsmayıl Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı: Universitet nəşriyyatı. 1998. 385 s.
11. Naxçıvan tarixi, Üç cilddə, II cild. Naxçıvan: "Əcəmi" NPB, 2014, 528 s.
12. Nəsibzadə Nəsib. Azərbaycan Demokratik Respublikası (Məqalələr və sənədlər), Bakı: Elm, 1990, 112 s.
13. Həsənov Cəmil. Azərbaycan beynəlxalq münasibətlər sistemlərində (1918-1920-ci illər, Bakı: Azərnəşr, 1993. 362 s.Allahverdi Hüseynov

**ABSTRACT**

**Allahverdi Huseynov**
**Khazar Huseynov**

**FROM THE HISTORY OF THE FORMATION OF THE AZERBAIJANI ARMY BY THE PEOPLE'S REPUBLIC OF AZERBAIJAN**

The article examines the actual problems of the history of the formation of Azerbaijani Army during the period of the People's Republic of Azerbaijan

The establishment, formation and strengthening of material and technical basis of the Army in 1918-1920, protection of the territorial integrity of Azerbaijan and the Parliament by the army are actually substantiated and investigated with scientific evidences.

**РЕЗЮМЕ**

**Аллахверди Гусейнов**
**Хазар Гусейнов**

**ИЗ ИСТОРИИ СОЗДАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКОЙ**

В статье рассматриваются актуальные проблемы создания азербайджанской армии в период Азербайджанской Демократической Республики. Научно обосновывются и исследуются построение, формирование, укрепление материально-технической армии в 1918-1920 годах, обеспечение территориальной целостности Азербайджана и защита армией Парламента.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:94(479)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ CƏNUBİ QAFQAZDA KÖÇLƏR VƏ QAÇQINLIQ PROBLEMİ

**Açar sözlər:** *Qaçqınlıq, köçlər, deportasiya, erməni özbaşınalığı, Xalq Cümhuriyyəti, Cənubi Qafqaz*
**Key words:** *refugee, immigrants, deportation, People's Republic, South Caucasus*
**Ключевые слова:** *беженство, переселенцы, депортация, армянский произвол, Народная Республика, Южный Кавказ*

1917-ci ildə Rusiyada çarizmin devrilməsi, bir qədər sonra isə kommunistlərin hakimiyyətə gəlməsi ilə imperiyanın digər əraziləri kimi, Cənubi Qafqazda da ictimai-siyasi vəziyyət kökündən dəyişdi. Həmin dövrlərdə Cənubi Qafqazda sülhü və sabitliyi bərqərar etmək məqsədilə yaradılan Zaqafqaziya Komissarlığı, habelə onu əvəz edən Zaqafqaziya Seymi burada həqiqi hakimiyyət orqanı ola bilmədilər. Regionun ucqarlarındakı bölgələrində əslində bir hakimiyyətsizlik, özbaşınalıq hökm sürürdü. Azərbaycan milli qüvvələrinin zəifliyi, gürcü milli qüvvələrinin isə təhlükəni lazımınca qiymətləndirə bilməməsi zəminində Cənubi Qafqazda yeganə real hərbi qüvvə birləşmiş rus-erməni silahlı qüvvələri idi. Erməni siyasi-klerikal dairələri dəyişilən tarixi şəraitdə, yeni siyasi müstəvidə öz qəsbkar planlarını həyata keçirmək, ərazilər əldə etmək, mifik "Böyük Ermənistan" planlarını reallaşdırmaq üçün məhz bu şəraitdən istifadə etmək qərarına gəldilər və dərhal əməli işə keçdilər. Bu işlərdən ən başlıcası Cənubi Qafqazın bütün erməni əhalisinin hamılıqla silahlandırılması idi. Zaqafqaziya Komissarlığının ermənipərəst mövqeyi, habelə daşnak emissarlarının səyləri nəticəsində ermənilərə külli miqdarda silah və patron verildiyi halda azərbaycanlı əhaliyə bundan imtina edilmişdi. Qafqaz cəbhəsinin baş komandanı general E.Lebedinski də eyni mövqedən çıxış edərək, erməni könüllü korpusunun yaradılmasına əmr vermişdi. "Bu korpusun fövqəladə komissarı isə Erməni Milli Şurasının təkidi ilə daşnak Drastamat Kanayan (Dro) təyin olundu" (9, s.11).

Beləliklə, əslində əli silah tutan hər bir ermənininin potensial döyüşçüyə çevrildiyi ərazilərdə həm də Dro, Njde, Andranik kimi peşəkar quldurların rəhbərlik etdiyi böyük hərbi dəstələr, habelə rus ordusunun tərkibində Osmanlı cəbhələrindən qayıdan nizami erməni hərbi hissələr daşnak liderlərinin sərəncamında idi. Bu gücün sayəsində Azərbaycan türklərinə qarşı bütün regionu bürüyən kütləvi qırğınlar, talanlar, qəddarlıq və vandalizm hallarının başlanması özünü çox da gözlətmədi. Artıq 1917-ci ilin sonlarına doğru təkcə İrəvan quberniyasında erməni quldur dəstələri tərəfindən 197 Azərbaycan kəndi dağıdılıb talan edilmişdi. "Həmin dövrdə Qarabağda 157 kənd qismən dağıdıldı" (2, s.39). 1918-1920-ci illərdə Cənubi Qafqazda baş verən məlum dramatik hadisələrin gedişində regionda köçlərin növbəti, ən güclü dalğalarından biri meydana gəldi. Bu əslində yeni olmayıb, I Dünya Müharibəsinin yaratdığı köç dalğasının davamı idi. Lakin fərq burasında idi ki, müharibə illərində Osmanlı imperiyasından qaçan ermənilər Cənubi Qafqazda məskunlaşırdılar. İndiki halda isə bu məskunlaşmanın davam etməsi ilə yanaşı on minlərlə azərbaycanlı tarixi torpaqlarını tərk edib qaçqın vəziyyətinə düşür, mühacir həyata başlayırdılar. I Dünya Müharibəsi və Rusiya imperiyasının dağılmasının doğurduğu hakimiyyətsizlik və hərc-mərclik nəticəsində daşnak quldur dəstələrinin törətdiyi deportasiya və soyqırım qarşısında köməksiz qalan yerli əhali erməni terrorundan baş götürüb qaçırdı.

1918-1920-ci illərdə Cənubi Qafqazda erməni terroru və bu terrorun yarat-dığı köç dalğaları tək Azərbaycan və Gürcüstanla məhdudlaşıb qalmırdı. Bu hadisələr daha çox tarixi Qərbi Azərbaycan torpaqlarında, siyasi baxımdan erməni hökumətinə bağlı Ararat Respublikasının ərazilərində baş verdi. Məlum olduğu kimi, 1918-ci ilin 28 mayında Tiflisdə elan edilən Ararat (Ermənistan) Respublikasının nə paytaxtı, nə də tarixən onlara məxsus torpaqları vardı. Yalnız erməni silahlı birləşmələrinin və quldur dəstələrinin nəzarəti altında olan ərazilər vardı: Bunlar başlıca olaraq Qarabağ, Zəngəzur, Qərbi Azərbaycan torpaqları idi.

Osmanlı imperiyası ilə Ararat Respublikası arasında bağlanan 4 iyun 1918-ci il tarixli "Sülh və dostluq ittifaqı" adlı müqaviləyə əsasən başlıca olaraq keçmiş İrəvan quberniyası ərazisindəki Aleksandropol, Yeni-Bəyazit, Eçmiədzin və İrəvan qəzalarını təşkil edən tarixi Azərbaycan torpaqları Ararat Respublikasına verildi.

Yarandığı zaman Ararat Respublikasının sahəsi təqribən 10 min kvadrat kilometr olan ərazilərində yaşayan əhalinin yarıdan çoxu müsəlmanlar idi. Amerikan alimi Samyuel A. Uimz yazır: "I Dünya Müharibəsi qurtarandan sonra diktatorların balaca bir bandası Rusiyanın münbit torpaqları arasındakı dağlıq hissəsində

kiçik bir ərazini nəzarətə götürərək özünü Ermənistan Respublikası elan etdi. Ermənistan adlı yeni ölkənin həyata keçirdiyi ilk tədbirlərdən biri qonşuluqdakı xristian Gürcüstanına xaincəsinə hücum edərək torpaq ələ keçirmək cəhdlərini araya qoymaq oldu. Onda erməni terrorçu diktatorları məğlub oldular. Bundan az sonra erməni liderləri bu dəfə müsəlman Azərbaycanına digər təəccüb doğuran hücuma cəhd göstərdilər. Erməni terrorçu diktatorları bu dəfə də uduzdular. Eyni zamanda erməni liderləri türklər üzərinə yeni hücumun planlarını cızdılar. Bu dəfə türklər erməniləri qabaqlayaraq hücuma keçdi və osmanlıların təxminən səkkiz yüz il sahiblik etdikləri "tarixi vətənlərini" geri götürdü" (5, s.18).

Əldə etdiyi ərazilərlə kifayətlənməyən, habelə xarici havadarlarının fəal dəstəyi sayəsində daşnak hökuməti ilk günlərdən başlayaraq qonşu dövlətlərə qarşı ərazi iddialarına, azərbaycanlı əhaliyə qarşı isə etnik təmizləmə və deportasiya siyasətinə başladı. Əslində daşnaklar Cənubi Qafqazda müsəlman əhaliyə qarşı terror və soyqırım əməllərinə hələ bu hadisələrdən xeyli əvvəl başlamışdılar. Məsələn; "Zaqafqaziya Komissarlığının köməyilə silahlanan daşnak Dro digər daşnak Pirumovla birlikdə 1918-ci il fevralın 17-dən 21-ə qədər İrəvan quberniyasında 21 müsəlman kəndini məhv etmişdilər" (2, s.39).

Erməni əhalisinin nisbətən çoxluq təşkil etdiyi Yeni-Bəyazit bölgəsində daşnak zülmü daha dözülməz səviyyəyə çatmışdı. 1918-ci ilin yaynda qəzanın müsəlman əhalisi bir tərəfdən quldur Andranik Ozanyanın dəstələrinin, digər tərəfdənsə nizami hökumət qoşunlarının və silahlı erməni əhalisinin hücumlarına məruz qalırdı. Həmin dövrün hadisələrini əks etdirən arxiv sənədlərinin birində deyilir ki, Azərbaycan Hökumətinin başçısı Fətəli xan Xoyski, Azərbaycan Hökumətinin Tiflisdəki Diplomatik nümayəndəliyinə göndərdiyi 28 iyul 1918-ci il tarixli məktubda Yeni-Bəyazitdəki müsəlman-türklərin fəlakətli vəziyyətini göstərirdi: "Yeni-Bəyazit qəzasının Çamurlu, Şordisa, Qayabaşı, Sarı-yaqub, Daşkənd, Təzə-Qoşa-bulax, Qızıl-bulax, Nokitı, Yuxarı-Alçalı və Gərkibaş müsəlman kəndlərinin sakinlərinin nümayəndələri yanıma gəlmişdilər. Onlar yazılı və şifahi olaraq mənə, erməni əhalisinin və hərbi hissələrin törətdikləri özbaşınalıqlar barədə ərz etdilər. Onların kəndləri tamamilə yandırılmış, salamat qalanları talan edilmiş, mal-qarası əllərindən alınmış, müsəlmanlar özləri isə dağlara qaçmışlar ki, orada da otla qidalanırlar, ümumiyyətlə isə böyük məhrumiyyətlər çəkirlər. Onların əkin sahələri və örüşləri toplanmamış qalmışdır, indi onları ermənilər özləri toplayırlar. Məhsulu toplamaq üçün və ya ərzaq məhsulları əldə etmək üçün gedənləri ermənilər güllələyir və ən yaxşı halda həbs edərək hər cür zorakılıqlara məruz qoyurlar" (10, v. 9).

Həmin dövrlərdə Ararat Respublikasının hər yerində terror, deportasiya, dövlət səviyyəsində həyata keçirilən zorakılıq və özbaşınalıq hökm sürürdü. Yenə də Yeni-Bəyazit qəzasının Aqri-vank, Ağ-Qala, Ağzibar, Müğan, Rəhman-Kənd, Bığlı Hüseyn, Saraçlı kəndlərinin sakinləri 24 avqust 1918-ci il tarixdə Qazax qəza rəisinə ünvanlanan ərizələrində qəzada hökm sürən daşnak özbaşınalığını, özlərinin acınacaqlı vəziyyətlərini göstərirdilər: "Bu il martın 1-də qonşu erməni kəndlərinin sakinləri bizim adları çəkilən kəndləri talan etdilər, bizə məxsus olan tərpənən əmlakı, ev əşyalarımızı apardılar ki, onları indi də saxlayırlar. İlk növbədə bizi Yeni-Bəyazitin adını bilmədiyimiz qəza komissarı və şəhər rəisi Vohan Apromov başda olmaqla şəhər sakinləri qarət etdilər. Qarət və soyğunda Naraduz, Qışlaq, Quləli, Paşakənd, Kosa Məmməd, Kərimkənd, Başkənd, Qozaca, Urdak və Dəli Qardaş kəndlərinin və Yeni Bəyazitin şəhər əhalisi iştirak edirdi. Bu erməni kəndlərinin sakinləri Yeni-Bəyazit qəza komissarının və şəhər rəisinin təşəbbüsü ilə silahlanıb bizim kəndlərə soxulduqda, kəndlərimizin sakinləri qaçqına çevrildilər, həftələrlə açıq havada gecələməli oldular. Bunun da nəticəsində hər iki cinsdən olan iki min nəfərə qədər adam öldü. Yeni-Bəyazit şəhərinin özündə bizim orada yaşayan 27 nəfərimiz öldürüldü. Bizim sakinlər öz evlərini tərk etdikdən sonra yuxarıda adını çəkdiyimiz erməni kəndlərinin sakinləri evlərimizi uçurdular, bütün sökülmüş tikinti materiallarını özlərinə apardılar" (10, v.10).

İrəvan şəhərində müsəlmanların başına gətirilən hadisələr barədə bir arxiv sənədində deyilir: "İrəvan şəhərində müsəlmanlar o qədər müdafiəsiz və hüquqsuzdurlar ki, gecələr bir yana qalsın, günün günorta çağında şəhərin müsəlman hissəsində onların paltarlarını əyinlərindən soyundururlar, əgər bu paltarlar az-çox bir işə yarayırlarsa" (138, v.50).

Ararat Respublikasının İrəvan, Eçmiədzin və digər qəzalarında da oxşar vəziyyət hökm sürürdü. "Azərbaycan" qəzetinin 1918-ci il 29 iyun tarixli sayında "Ermənistanda müsəlmanların vəziyyəti" adlı məqalədə deyilirdi: "İrəvanın müsəlman əhalisinin çəkdiyi əzablar, işgəncələr və zülmlər təsvirə gəlməzdir. Ermənilər tutduqları müsəlman evlərini, məskunlaşdıqları məscidləri yalnız yüksək məbləğ müqabilində əvvəlki sahiblərinə qaytarırlar…Erməni hökuməti şüurlu surətdə və bilərəkdən erməni qaçqınları müsəlman məhəllələrində və evlərində yerləşdirirlər…Şəhərdə müsəlmanların vəziyyəti belədir, lakin İrəvan vilayətində və ümumiyyətlə Ermənistan hüdudları daxilində daha acınacaqlıdır. Zəngibasar və Qərnibasar rayonlarının əksəriyyətini təşkil edən və Erməni Respublikasının hakimiyyətini tanıyan müsəlman kəndliləri zorla onlara yerləşdirilən erməni qaçqınlarını qəbul etməyə məcbur olmuşlar. Onlardan ərzaq amansızlıqla müsadirə edilir, axırıncı mal-qaraları əllərindən alınır, müxtəlif bəhanələrlə pul tələb olunur …Göyçə və Dərəçiçək rayonlarının əhalisinin vəziyyəti xüsusilə ağırdır. Onlar hər cür toqquşmalardan sonra bütün əkinlərini və mal-

qaralarını taleyin ümidinə buraxmışlar. Bu rayonların əhalisi Ermənistanın indiki hərbi naziri "general" Silikovun nizami hərbi hissələrinin təzyiqinə davam gətirməyərək öz yurd-yuvalarını tərk etmişlər. Bu qaçqınların çoxu qonşu qəzaların sakinlərinə sığınmışlar" (11, v.51-52). 1918-1919-cu illərdə AXC-nin çox görkəmli dövlət xadimləri olan Səhiyyə naziri Xudadad bəy Rəfibəyli, qaçqınların işi ilə məşğul olan Himayəçilik naziri doktor Musa bəy Rəfiyev, həmin nazirliyin İrəvandakı xüsusi nümayəndəsi Teymur bəy Makinski, Azərbaycan Respublikasının İrəvandakı diplomatik nümayəndəsi Məhəmməd xan Təkinski, Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəsi Faris ağa Vəkilov, Azərbaycan parlamentinin üzvü Cəlil Sultanov və başqalarının həmin dövrdə Azərbaycan hökumətinə göndərdikləri məktub, xidməti məlumatlar, teleqramlarda ermənilərin Ararat Respublikası və ona bitişik Azərbaycan torpaqlarında törətdikləri etnik təmizləmə, terror və deportasiyalar haqqında geniş məlumatlar verir. Bunu təkcə Azərbaycanın deyil, Rusiyanın, Türkiyənin, ABŞ-ın və digər ölkələrin tarixçiləri və siyasi xadimləri, hətta bəzi erməni müəlliflərinin özləri də təsdiq edirlər. Keçən əsrin 70-ci illərində erməni yazıçısı Riçard Hovanesyan ingilis dilindəki bir məcmuədə bunları etiraf etmişdi: "1918-ci ilin başlanğıcından avqust ayına qədər 300 müsəlman kəndi dağıdıldı. O zaman İrəvanda 13 min, ətraf kəndlərdə 50 minə qədər azərbaycanlı qaçqın xristian ermənilərin nəzarəti altında idi. Paytaxtın cənubuna doğru, həyat şəraitinə uyğun olmayan ərazilərdə 70-80 minə qədər müsəlman qaçqın toplanmışdı. Erməni dövləti onlara yardım etməyi belə, rədd edirdi" (6, s.12-13). Bunun da nəticəsi olaraq, həmin dövrü tədqiq edən erməni alimi Z.Qorkodyanın yazdığı kimi, sovet hakimiyyətinin qurulduğu zaman Ararat Respublikasının ərazisində 10 min nəfərdən bir qədər artıq azərbaycanlı qalmışdı. "Təmizləmə" siyasəti nəticəsində 1919-cu ildə 200 min nəfərdən artıq türk və kürd Ermənistandan qovulmuşdur (3).

Ümumiyyətlə isə, 1918-1920-ci illərdə "Daşnaksütyun" partiyasının indiki Ermənistanda hakimiyyəti dövründə erməni silahlı qüvvələri və quldur dəstələri tərəfindən bu ərazilərdə yaşayan azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər nəticəsində o zamankı Ararat Respublikası ərazisində 1.000-ə yaxın azərbaycanlı kəndi viran qoyulmuş, orada yaşayan 570 min nəfər azərbaycanlıdan 1920-ci ilin noyabrına qədər yalnız 12 min nəfər qalmışdı (4, s.25).

Bu rəqəmləri erməni mənbələrinə istinad edən gürcü alimi Q.Marxuliya da təsdiq edir: "1918-1920-ci illərdə indiki Ermənistan ərazisində yaşayan 575 000 nəfər azərbaycanlının kütləvi qırılması nəticəsində 565 000 nəfər öldürüldü və qovuldu. Daşnaklardan sonra Ermənistandakı azərbaycanlı əhali 10 000 nəfərdən bir qədər çox idi" (8, s.128).

Ümumiyyətlə Ararat Respublikasının varlığı ərzində Ermənistanda yaşayan 373 582 azərbaycanlıdan 1918-1920-ci illər ərzində daşnak hökumətinin soyqırım siyasəti nəticəsində 240 mini qaçqına çevrilmiş, 130 mini fiziki cəhətdən məhv edilmişdi (7, s.263).

1920-ci ilin əvvəllərində, Rusiya işğalı ərəfəsində də daşnak silahlı qüvvələri tarixi Azərbaycan torpaqlarında etnik təmizləmə siyasətini davam etdirirdilər. Nəticədə İrəvan, Zəngəzur və onlara bitişik Qars bölgələrində 320 000 türk-azərbaycanlı qaçqın vəziyyətinə düşmüşdü.

Cənubi Qafqazdakı rus məmuru N.Solovyov da 1920-ci ilin ortalarında V.İ. Leninə "Çevrilişdən sonrakı iki ayda (may-iyun) Azərbaycanda bizim siyasətimiz" adlı hesabatında fərqli rəqəmlərdən bəhs etsə də oxşar deportasiya faktını təsdiq edərək yazırdı: "Ermənistan Respublikası yaranarkən onun hüdudlarında 250 müsəlman kəndi var idi, onlar hamısı məhv edilmişdir, indi orada bir nəfər də müsəlman yoxdur (1, s.52).

Demokratik Cümhuriyyətin yaranması ərəfəsində və varlığının ilk aylarında birbaşa bolşevik Rusiyasının rəsmi dövlət səviyyəsində etdiyi yardımlar sayəsində azərbaycanlı əhaliyə qarşı çevrilmiş erməni-daşnakların terror və soyqırım, kütləvi deportasiya hərəkətləri çox ağır itkilərlə nəticələnmişdi. Ölkənin birləşmiş rus-erməni qüvvələri tərəfindən dağıdılmış ərazilərində sosial baza olduqca zəifləmiş, kütləvi talanlar səbəbindən böyük maddi itkilər meydana gəlmiş, hökumətin qarşısına qaçqınlarla bağlı çoxsaylı problemlər çıxmış, həmin qüvvələrlə mübarizəyə külli miqdar maddi və insan ehtiyatları sərf olunmuşdu.

Maraqlıdır ki, bir tərəfdən Azərbaycan Xalq Cümhuriyyətinin zəifliyi və səhvləri, digər tərəfdən Rusiyanın və Qərbin açıq yardımı ilə tarixi Azərbaycan torpaqlarında öz dövlətini yaradan, regionda özləri üçün formalaşan əlverişli geosiyasi vəziyyətdən yararlanan ermənilər çox tez-tez himayəçilərini, başqa sözlə deyilərsə ağalarını dəyişirdilər. Çünki, özlərinin bütün tarixləri boyu böyük dövlətlərin himayəsinə sığınan, onların forpostu olan digər yarım müstəqil erməni dövlətləri kimi, 1918-ci ilin mayında yaranan bu dövlət də ambisiyalı planlarını təkbaşına həyata keçirə bilməzdi. S.Uimz məhz bunu nəzərdə tutaraq yazırdı: "Özlərini müdafiə etmək üçün ermənilər müttəfiqlərdən silah və sürsat almaq yalvarışlarına başladılar. Bu müddət ərzində ermənilərin muzdu agentləri müttəfiq ölkələrin hər birindən qoşun göndərməyi və qamarlamaq istədikləri müsəlman torpaqlarını onların əli ilə rahatca ələ keçirməyi xahiş edirdilər" (5, s.18).

Beləliklə, əvvəlki zamanlarda Rusiya imperiyasının birbaşa dəstəyi və müstəmləkə siyasəti nəticəsində Cənubi Qafqaza axışan ermənilər burada başlıca etnoslardan birinə çevrildilər. Azərbaycan Xalq Cümhuriyyətin dövründəki qısa zaman kəsiyində isə onlar regionda hakimiyyət əldə etdilər, xarici güclərin

himayəsi, habelə terror, deportasiya və yerli əhalinin sıxışdırılması yolu ilə bir sıra regionlarda demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişə bildilər, qondarma, monoetnik bir dövlət yarada bildilər. Qaçqınlıq və köçlər inkaredilməz siyasi reallıq oldu.

**ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi. 7 cilddə, VI cild, (1920-ci il aprel-1941-ci il iyun) Bakı: Elm, 1998, 568 s.
2. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgəsində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1918-1921-ci illər), Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.
3. Nazim MUSTAFA. http://1905.az /XX əsrdə erməni rəsmi dairələrinin kürdlərə qarşı həyata keçirdiyi deportasiya, repressiya və terror aktları haqqında (etnosiyasi analiz),"Strateji təhlil" jurnalı, avqust 2018
4. Deportasiya (N.Tusi adına ADPU-də azərbaycanlıların deportasiyasına həsr olunmuş konfransın materialları), Bakı, 1998.
5. Samuel U. Ermənistan-terrorçu "xristian" ölkənin gizliləri, Bakı: Elm, 2004, 386 s.
6. Guram Marhuliya, Şebnem Nuriyeva. Uydurulmaş Tarihte "Ermeni soykırımı", Baku, 2010, 324 s
7.Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане ХЫХ-начало ХХ веков. Баку: Алтай, 1999, 298 с.
8. Гурам Мархулия. Армяне в поисках Армении. Тбилиси, 2010, 232 с.
9. Неизвестные страницы истории: Беъенцы-мусульмане (1918-1920 гг). Баку, "Еспринт", 2018, 216 с.
10. 137.AR Pİİ SSA, f.277, siy.2, iş. 58.
11.138.AR Pİİ SSA, f.277, siy.2, iş 57.



**ABSTRACT**

**Shamxal Mammadov**

**THE PROBLEM OF IMMIGRANTS AND REFUGEES IN THE SOUTH CAUCASUS IN THE PERIOD OF THE AZERBAIJANI DEMOCRATIC REPUBLIC**

The Azerbaijan Democratic Republic, which was one of the bright pages of the history of Azerbaijan, and existed in the 1918-1920s, was weak from the military-political point of view in that time's historical conditions, also made some mistakes.As a result, üith the support of foreign countries that have geopolitical interests in the region, Armenians became a real military-political poüer in the South Caucasus.

Here, the Armenians, who became the second ethnos in number, were able were able to create their own never-existing fictional, mono-ethnic state. This state, which set its priorities for domestic and foreign policy on terrorism and aggression, gave new impetus to the new waves of refugees and immigrants in the South Caucasus both in the period of the Republic and after it.



**РЕЗЮМЕ**

**Шамхал Мамедов**

**ПРОБЛЕМА ПЕРЕСЕЛЕНЦЕВ И БЕЖЕНЦЕВ НА ЮЖНОМ КАВКАЗЕ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ**

Составляющий одну из блестящих страниц Азербайджанской истории, существовавший в 1918-1920 годах Азербайджанская Демократическая Республика в той исторической обстановке, будучи в первые времена слабой в военно-политическом отношении, допустила также и некоторые ошибки. В результате этого и при поддержке зарубежных стран, имеющих геополитические интересы в данном регионе армяне, на Южном Кавказе превратились в реальную военно-политическую силу. По численности превратившись во второй этнос региона, армяне здесь смогли создать свое никогда несуществовавшее вымышленное, моноэтническое государство. Построившее свое внутреннее и внешнее приоритетные политические направления на террористических и насильственных основах это государство и при Республике, и в пеприод после нее дало толчок новым волнам беженцев и переселенцев на Южном Кавказе.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**MƏMMƏD ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
mamed@mail.ru
**NƏRMİN ORUCOVA**
*Naxçıvan Dövlət Universiteti*
orucovanermin1995@gmail.com

**UOT:069**

# MUZEYLƏRİN İCTİMAİ HƏYATDA ROLU

**Açar sözlər:** *Muzey, Beynəlxalq Muzeylər Günü, ekspozisiya, fond, Muzeylərə*
**Key words:** *Museum, International Museum Day, exposition, fund, state care for museums*
**Ключевые слова:** *музей, Международный день музеев, экспозиция, фонд, государственная забота музеям.*

Dünənimizi sabaha bağlayan muzeylər hər bir xalqın maddi və mənəvi xəzinəsidir. Unudulub, yaddan çıxan tariximizi özümüzə qaytarılmasında muzeylərimizin xidmətləri əvəzsizdir. Çünki muzeylər tarixin müəyyən dövrlərində yaşayan insanların həyat tərzini, məşğul olduğu qiymətli sənət əşyalarını qoruyub saxlayan müəssisədir. Muzeylər ulu öndərimizin dediyi kimi gənc nəslə çox şey öyrədir və tarixi onlara çatdırır. Gənclərin muzeylərə getməsi və bu ruhda böyüməsi çox vacibdir. Yeniyetmələrin mənəvi inkişafında, gənclərin təşəkkülü və formalaşmasının tədqiqində muzeylər bu gün öz aktuallığı ilə mədəniyyət aləmində güclü inkişaf edici təsirə malikdir. Muzeylər ora gələn gənclərin təşəkkülü, onların özünü dərk etməsi, dünyagörüşünün formalaşmasında əvəzsiz rol oynayır.

İstər keçmişin bizə gəlib çatan tarixi mədəniyyət abidələri, istərsə də müasir dövrdə yaradılmış gözəl sənət nümunələrini gələcək nəsillər üçün mühafizə edib saxlamaq günün ən vacib məsələlərindən biridir. Bu, həm də insanlarda milli şüuru, milli mənəvi əxlaqi dəyərləri, sərvətləri, vətənə məhəbbət, milli həmrəylik, milli ümumbəşəri qürur hissləri kimi mühüm keyfiyyətləri formalaşdırır.

Bu baxımdan sosial institutlardan biri olan muzeylər mədəniyyətin varisi kimi çıxış edərək tarixi, bədii və estetik sərvətləri özündə əks etdirir. Onlar xalqın mənəvi xəzinəsini mühafizə edərək qoruyub saxlamaqla yanaşı, həm də bu mənəvi xəzinəni zənginləşdirir və gələcək nəsillərə çatdırır (2.47).

Respublika muzey işçilərinin 1982-ci ildə keçirilən müşvirəsində Heydər Əliyev muzey işinin daha da inkişaf etdirilib-təkmilləşdirilməsi zəruriliyi və əhəmiyyətini qeyd edərək demişdir: “Muzeylər mühüm mədəniyyət ocaqlarına, zəhmətkeşlərin, xüsusilə cavan nəslin ideya-siyasi və mənəvi tərbiyəsinin mərkəzinə çevrilmişdir. Muzeylər söz yox ki, hər bir vətəndaşın öz diyarının, kəndinin tarixinə bələd olması üçün də vacibdir. Bir sözlə, tarix-diyarşünaslıq muzeyləri təşkil etməyin zəruriliyi göz qabağındadır. Heydər Əliyev insanlara qayğı göstərərək ayrı-ayrı şəxsiyyətlərə abidələr ucaldılması, onların yubileylərinin keçirilməsi, muzeylərinin yaradılması və bu tədbirlərdə şəxsən iştirakı mədəniyyətimizə tükənməz məhəbbət və duyğusunun ifadəsidir. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan xalqının yetişdirdiyi böyük görkəmli şəxsiyyətlərin xatirə, ev muzeyləri yaradılmış və bu muzeylər mədəni irsimizin toplandığı və qorunduğu müqəddəs yerlərə çevrilmişdir...” [1].

Qlobal cəmiyyətdə həyatın ritmi bəzən insanı mənsub olduğu xalqın adət-ənənəsindən uzaqlaşdırır, hətta ona özündən sonrakı nəslə hansı dəyərləri miras qoyacağı barədə düşünməyə belə imkan vermir. Lakin elə bu cəmiyyətdə ayrı-ayrı xalqların əsrlər boyu yaratmış olduqları maddi və mənəvi irsi bir məbəd kimi qoruyan muzeylər onu keçmişdən gələcəyə ötürmək kimi mühüm missiyanı yerinə yetirir. Təsadüfi deyil ki, bu və ya digər ölkəyə gedən turistlər həmin yer haqqında məlumat mənbəyi kimi ilk olaraq muzeylərə üz tuturlar. Beləliklə, muzeylər dünyada mədəni proseslərin fəal iştirakçısına, eyni zamanda, qloballaşmanın mənfi nəticələrinə qarşı dura bilən mədəniyyət ocaqlarına çevrilir.

Hər il mayın 18-i dünya ölkələrində Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Beynəlxalq Muzeylər Şurasının (ICOM) təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir.

Tarixi, maddi və mənəvi abidələrlə zəngin olan ölkəmizdə də Beynəlxalq Muzeylər Günü qeyd edilir. Bu peşə bayramı münasibətilə müxtəlif tədbirlər keçirilir, tariximizlə, mədəniyyətimizlə yaxından tanış olmaq

məqsədi ilə mayın 18-də bütün muzeylərimizdə “açıq qapı” günü elan edilir. Tarixi qaynaqlardan məlumdur ki, muzeylər zamanın müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinədir. Muzey həm də şahiddir. O, eyni zamanda keçmişimizi və bu günümüzü gələcəyə çatdıran ən yaxşı bələdçidir. Muzeylərin əsas vəzifəsi əşyaların və eksponatların, sadəcə, qorunub öyrənilməsi deyil, həm də onu təbliğ etməkdən ibarətdir. Dünyanın 150-dək ölkəsində qeyd edilən Beynəlxalq Muzeylər Günü bu il “Muzeylər və mədəni landşaftlar” mövzusuna həsr olunub.

Bu bayram qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda qeyd edilir. Eramızdan əvvəl XVI əsrdə Krit, XIII-XII əsrlərdə Çin, III əsrdə Qədim Roma və Yunanıstanda estetik dəyərə malik əşyaların, əsərlərin, sənədlərin saxlandığı məkanların müasir muzeylərin sələfləri hesab olunduğunu nəzərə alaraq, ölkəmiz ərazisində qurulmuş Atropatena və Albaniya dövlətləri hökmdarlarının saraylarını da belə yerlər kimi qeyd etmək yerinə düşər. Erkən və orta əsrlərdə isə Azərbaycanda hakim sülalələr tərəfindən kolleksiyaçılıq ənənələrinə maraq güclənib, qiymətli əşyalar xəzinələrdə, saray kitabxanalarında mühafizə edilib.

Azərbaycanın ictimai-siyasi, mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan verib. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunub.

Ötən əsrin əvvəllərində isə Bakıda, xalq məktəbləri müdiriyyəti nəzdində Pedaqoji, həmçinin Ümumrusiya Texniki Cəmiyyətinin Bakı şöbəsi nəzdində qapalı muzeylər yaradılıb. Lakin Nehrəm kəndindəki muzey istisna olmaqla, adları qeyd edilən məkanlar çarizmin mənafeyinə uyğun fəaliyyət göstərib. Təsadüfi deyil ki, Azərbaycanda aşkar edilən qiymətli arxeoloji əşyalar Tiflis, Moskva, Peterburq muzeylərinə göndərilib. Azərbaycanda dövlət səviyyəsində 1919-cu ildə - Xalq Cümhuriyyətinin dövründə təməli qoyulmuş ilk milli muzey 1920-ci ildən Azərbaycan Dövlət Muzeyi kimi fəaliyyət göstərib.

Sovet hakimiyyətinin ilk illərində Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev kimi Bakı milyonçularından müsadirə edilmiş qiymətli sənət əsərləri bu muzeyin eksponatları olub. H.Z.Tağıyevin mülkündə yerləşən Milli Azərbaycan Tarix Muzeyinin binasının özü də tariximizdən xəbər verən daş abidə kimi qiymətlidir. Ona görə də bu yerə bəzən “Muzey içində muzey” də deyirlər.

Ötən əsrin 30-cu illərindən etibarən bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü – dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılıb. Sonrakı illərdə Azərbaycanda yeni muzeylər fəaliyyətə başlayıb.

Təəssüf ki, neçə-neçə tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən qarət olunub və dağıdılıb. İşğal olunmuş torpaqlarımızda 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalıb. Erməni faşistləri 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv ediblər.

Canlı muzey olan və bu gün düşmən tapdağı altında qalan Şuşada 8 muzey fəaliyyət göstərib. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, görkəmli musiqiçi Qurban Pirimovun Ağdam rayonundakı xatirə, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilib. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi ermənilər tərəfindən tamamilə yerlə-yeksan olunub.

Azərbaycanda milli mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə daim dövlət qayğısı olub. Ölkəmizdə muzey işinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan ulu öndər respublikada müvafiq şəbəkənin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlayıb. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü sayəsində yaradılıb.

Dahi rəhbərimizin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələrlə yanaşı, muzey işi də öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Ulu öndərin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilib, 1994-cü ildə isə bu müşavirənin materialları əsasında “Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında” qərar qəbul edilib. 2000-ci il martın 24-də qüvvəyə minmiş “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətləri tənzimləyir. Bu sənədə əsasən muzey - maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisəsidir.

Ümummilli lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir.

“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Prezident İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq milli mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulub.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində “Şirvanşahlar Sarayı Kompleksi”, Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu

UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır.

Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənib, bu sahədə beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilib.

Ümummilli liderimizin siyasi irsinin öyrənilməsi, azərbaycançılıq məfkurəsinin formalaşdırılaraq inkişaf etdirilməsi məqsədilə yaradılan Heydər Əliyev muzeyləri isə respublikada muzey şəbəkəsinin genişləndirilməsi sahəsində mühüm hadisə kimi qiymətləndirilməlidir.

Hazırda ölkəmizdə 200-dən çox muzey fəaliyyət göstərir və onların ekspozisiyaları azərbaycançılıq məfkurəsini uğurla təbliğ edirlər.

Muzey şəbəkələrinin yaradılması mədəniyyətimizin ümumi yüksəlişini, milli şüurun inkişafını əks etdirməklə yanaşı, həm də muxtar respublikanın turizm potensialının artırılmasına xidmət edir. Eyni zamanda muzeylər elm, maarif müəssisəsi olmaqla qədim keçmişlə bu günümüz arasında körpü rolunu oynayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Muzeylər Azərbaycan xalqının tarixini, böyük şəxsiyyətlərinin həyatlarını, yaradıcılıqlarını, fəaliyyətlərini özündə əks etdirir. Xalqın tarixi həm kitablarda yazılmaqla, həm də muzeylərdə qorunmaqla gələcək nəsillərə çatdırılır. Muzeylər bizim keçmişimizi özündə yaşadan, gələcəyə daşıyan yerlərdir".***

Azərbaycanda xatirə, ev muzeylərinin, tarix-diyarşünaslıq muzeylərinin məktəblilərin, tələbələrin, gənclərin, elmlə məşğul olan insanların ziyarət yerinə çevrilməsi doğrudanda xalqımızın mədəniyyətimizə sonsuz sevgisinin təzahürüdür. Muzeylər mədəniyyətimizin böyük bir parçasıdır və insanların hər tərəfli məlumat alması, tarixi şəxsiyyətlərimizin, mədəniyyətimizin təbliği üçün ən dəyərli məkanlardandır.

## ƏDƏBİYYAT


1. Adilxan Bayramov. "Heydər Əliyev və muzeylərimiz", Bakı, "Şur" nəşriyyatı, 1999, səh.5, 75
2. E.Qurbanova. Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu, Bakı 2014
3. Ramiz Ağayev, Sabir Əmirxanov, Abdin Əlizadə; "Muzeyşünaslıq", Dərslik, Bakı-2002. s 439
4. Bakı Biznes Universiteti, Sabir Əmirxanov, "Muzeyşünaslıq", Bakı-2012. s.112
5. Sübhi Kəngərli "Mənin məqalələrim", Naxçıvan, 2017.s.51



## ABSTRACT
## THE ROLE OF MUSEUMS IN SOCIAL LIFE

History and culture of different peoples are identified on the basis of the study of material and spiritual wealth developed in the process of human progress.

Therefore, the preservation of material and moral riches is the prerequisite for their study. Only museums can cope with such an important and responsible task. In addition to preserving a number of historical and cultural monuments, museums study them, restore them and deliver them to future generations by meeting their spiritual needs in this area. Converting the past centuries' relics into exhibits, museums also popularize them. Therefore, the organization of museum study is associated with complex scientific and mass work. The emergence of Museum Study as a science is the result of this process. Explicitly, as the importance of science increases, people's scientific thinking is formed at the proper level as well. History proves that science is perceived only when it is developed. One of the most important issues of today is the protection of historical cultural monuments that have come to us from the past, as well as preserving best art samples created in modern times. It also shapes crucial qualities such as national consciousness, national moral values, wealth, love for motherland, national solidarity, national universal pride in people.



## РЕЗЮМЕ
## РОЛЬ МУЗЕЕВ В ОБЩЕСТВЕННОЙ ЖИЗНИ

На основе изучения материальных и нравственных богатсв, созданных в процессе прогреса человечества, уточняются история и культура отдельных народов. Поэтому сохранение материальных и нравственных богатсв является первичным условием их изучения. С такой важной и ответственной работой могут справиться только музеи. Музеи наряду с сохранением ряда исторических и культурных памятников, изучают их, реставрируют, агитируют их, преращая памятники прошлых веков в экспонаты, доносят до будущих поколений, удовлетворяют их потребности в данной сфере. Поэтому организация музейного дела связана с комплексной научно-массовой работой. Образование музееведения как наука является результатом процесса данной деятельности. Известно, что с повышением значения науки научное мышление людей формируется на необходимом уровне. История доказывает, что наука познается только в период развития науки.

Одним из самых важных вопросов дня является охрана и сохранение для будущих поколений и исторических культурных памятников, дошедших до нас, и прекрасных образцов искусства, созданных в современном периоде. Все это формирует у людей такие важные качества, как национальное сознание, национально-нравственно-моральные ценности и богатства, прививает у них любовь к родине, национальной солидарности, чувства национальной и общечеловеческой гордости.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev

**HACIFƏXRƏDDİN SƏFƏRLİ**
*AMEA Naxçıvan Bölməsi*
*hacifexreddin@yahoo.com.tr*

**UOT: 94(479.24)**

# QARABAĞLAR TÜRBƏ KOMPLEKSİNİN ÖYRƏNİLMƏMİŞ KİTABƏLƏRİ

**Açar sözlər:** *Naxçıvan, Qarabağlar, türbə, minarə, kitabə.*
**Key words:** *Nakhchivan, Garabaghlar, mausoleum, minaret, inscription.*
**Ключевые слова:** *Нахчыван, Карабаглар, мавзолей, минарет, надпись.*

Orta əsr Azərbaycan memarlığı Naxçıvan məktəbinin ən möhtəşəm nümunələrindən biri də Qarabağlar Türbə Kompleksidir. Qalıqlarına əsasən demək olar ki, yarandığı zaman bir sıra dini tikililəri özündə birləşdirən kompleks çox böyük olmuş, ancaq zaman keçdikcə aşınmalara və dağıntılara məruz qalmış, zəmanəmizədək ancaq bir türbə və qoşa minarəli baştağ gəlib çatmışdır. Məlumdur ki, orta əsr Azərbaycan sənətkarları ənənəyə uyğun olaraq yaratdıqları abidələr üzərində onun təyinatı, sifarişçisi, inşa tarixi, memarı və s. haqqında müfəssəl məlumat verən kitabələr də yazırdılar. Memarlar inşa etdikləri abidələrin gözəlliyini artırmaq məqsədi ilə onların üzərində həndəsi və nəbati ornamentlərdən ibarət ornament və naxışlar da salırdılar. Həmçinin bu məqsədlə ərəb əlifbasınının müxtəlif xətləri (kufi, nəsx, süls və s.) ilə abidənin üzərində dini xarakterli kəlamlar, Qurani-Kərimdən ayələr və s. də yazırdılar. Bu zaman memarlar və xəttatlar ərəb əlifbasının yuvarlaqlığından və elastikliyindən məharətlə istifadə edərək həm öz fikirlərini ifadə edəcək kitabə motivləri, həm də gözəl bəzək ünsürləri yaradırdılar. Biz Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də bu günə qədər qalan memarlıq nümunələrinin timsalında bunu aydın şəkildə görürük.

Bu cəhətdən Naxçıvan Muxtar Respublikasına daxil olan indiki Kəngərli rayonunun Qarabağlar kəndindəki Türbə Kompleksi özünün naxış kompozisiyasının nəfisliyi, gözəlliyi, kitabələrinin zənginliyi ilə diqqəti cəlb edir. Şübhəsiz ki, Qarabağlar Türbə Kompleksi yaradılarkən onun üzərində müxtəlif xarakterli çoxlu kitabələr də yazılmışdır. Ancaq bu kitabələrin müəyyən bir hissəsi zəmanəmizədək aşınmış və ya salamat vəziyyətdə gəlib çatsa da, bir hissəsi keçən müddət ərzində təbii qüvvələrin təsirindən aşınaraq dağılmış, məhv olaraq sıradan çıxmışdır. Bu işdə keçən yüzillikdə islam mədəniyyəti nümunələri olan bu abidələrə olan laqeyd və mənfi münasibət də müəyyən rol oynamışdır. Təsadüfi deyildir ki, kompleksə daxil olan abidələrin kitabələri haqqında bəhs edərkən "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi Mirbağır Mirheydərzadə 1927-ci ildə yazırdı ki, kənd əhalisinin dediklərinə görə, kompleksə daxil olan qoşa minarənin yazılarının çox hissəsi çar soldatları tərəfindən sökülüb xarab edilmişdir. Olsun ki, tarixinə aid yazılar da o vaxt sökülmüşdür (5).

Qeyd etmək lazımdır ki, Qarabağlar Türbə Kompleksinin kitabələri XIX yüzilliyin 30-cu illərindən etibarən tədqiqatçıların diqqətini cəlb etmişdir. Kompleksin kitabələri həmin vaxtdan etibarən müxtəlif tədqiqatçılar tərəfindən tədqiq olunsalar da, son vaxtlar mətnləri dəqiqləşdirilən və yeni aşkar olunan kitabələrə əsasən demək olar ki, orada hələ də diqqətdən yayınan və öz tədqiqini gözləyən kitabələr vardır. Burada kompleksin bütün kitabələri haqqında ümumi məlumat verilməklə bərabər yeni tədqiq olunmuş həmin kitabələr haqqında da məlumat veriləcəkdir.

1836-cı ilə aid olan rus dilli bir mənbədə qeyd edilir ki, Qarabağlar türbəsi üzərində onun Bahadır xan tərəfindən inşa edildiyini göstərən kitabə olmuşdur (14, s. 337). Deməli, Naxçıvan bölgəsi 1828-ci ildə Rusiyaya ilhaq edildikdən sonra əraziyə gələn rus tədqiqatçıları və məmurları abidənin üzərində onun inşa tarixi haqqında məlumat verən kitabə görmüşlər. Ehtimal ki, onlar kitabəni yerli əhali arasında olan savadlı adamlara oxutmuş və onun Bahadır xan tərəfindən inşa etdirilməsini qeyd etmişlər. Mənbədə oxuyuruq: "Qarabağlar ehtimal ki, nə vaxt isə şəhər olmuşdur. Orada mavi rəngli şirlənmiş kərpiclərlə bəzədilmiş 15 (12-F.S.) sütunun (yarımsilindirin-F.S.) birləşdirilməsindən əmələ gələn çox gözəl qüllə vardır. Qüllənin karnizində müxtəlif rəngli hərflərlə Qurani-Kərimdən ayələr və bu ölkə Türkiyə hakimiyyəti altında (məlumat yanlışdır. Həmin vaxt bölgə Hülakülər dövlətinin tərkibində omuşdur-F.S.) olarkən Bahadır xan tərəfindən inşa etdirilmişdir. Qüllənin yaxınlığında, ehtimal ki, məscidə xidmət edən yüksək minarələri olan qapı yerləşir" (14, s. 337).

Mənbədə adı qeyd olunan Bahadır xan 1316-1335-ci illərdə Hülakülər dövlətini idarə etmiş Əbu Səid Bahadır xandır. Fikrimizcə, mənbənin məlumatında başqa bir yalnışlıq da vardır. Bizcə, abidə Əbu Səid Bahadır xan tərəfindən deyil, onun zamanında inşa etdirilmişdir. Ancaq bu kitabə zəmanəmizədək keçən müddət ərzində məhv olmuş, indiyədək gəlib çatmamışdır. Mənbənin məlumatına əsasən deyə bilərik ki, bu memarlıq kompleksində məscid də var imiş.

Qeyd etmək lazımdır ki, kompleksə daxil olan minarələr inşa edilərkən onların baş tərəfində – karniz hissəsində kufi xətlə kitabə yazılmışdır. Ancaq zaman keçdikcə minarələrin baş tərəfi təbii qüvvələrin (qar, yağış, isti, soyuq və s.) təsirindən tədricən aşınmış və ciddi dağıntıya uğramışdır. Ona görə də sol tərəfdəki minarənin kitabəsi tamamilə məhv olmuş, sağ tərəfdəki minarənin kitabəsinin isə çox hissəsi ovulub tökülmüş, bəzi sözlər qalmışdır. “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti” xətti ilə 1926-cı ildə Naxçıvan Muxtar Respublikasında, o cümlədən Qarabağlar kəndində elmi ezamiyyətdə olan epiqraf-alim İsa Əzimbəyov (Məddah) Türbə Kompleksini tədqiq edərkən bu kitabəni də görmüş və oxumuşdur. Alimin fikrincə kitabənin mətni Qurani-Kərimin 72-ci surəsinin məscid tikintilərinə aid olan 18-ci ayəsindən ibarətdir (10, s. 305): “Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahla yanaşı heç kəsə ibadət etməyin! (Allahdan savayı heç kəsi çağırmayın, heç kəsə dua etməyin!)” (1, s. 572). Alimin fikrincə bu kitabə sağdakı minarədən başlayaraq soldakı minarədə başa çatmışdır (10, s. 306).

İsa Əzimbəyovla birlikdə Qarabağlar kəndində olan və Türbə Kompleksini tədqiq edən, adı çəkilən Cəmiyyətin elmi katibi, rus alimi V.M.Sısoyev bu kitabə haqqında bəhs edərkən konkret fikir söyləmir və yazır ki, hər iki minarənin yuxarı karnizində (bir sətirdə?) görünür, Qurandan götürülmüş kufi xətli ərəbcə kitabə yazılmışdır (16, s.117).

İ.Əzimbəyov və V.Sısoyevdən bir neçə il sonra Qarabağlarda olan və Türbə Kompleksinin kitabələrini tədqiq edən epiqraf-alim Ə.Ələsgərzadə isə İsa Əzimbəyovun oxunuşuna şübhə ilə yanaşır və qeyd edir ki, kitabədə oxunan ayrı-ayrı sözlər Qurani-Kərimin 72-ci surəsinin 18-ci ayəsinin sözləri ilə müvafiq gəlmir və onunla heç bir əlaqəsi yoxdur (11, s. 390). Təəssüf ki, Ə.Ələsgərzadənin Türbə kompleksini tədqiq etdiyi vaxtdan keçən 70 ilə yaxın müddətdə bu kitabə daha da aşınmış və oxunuşu çox çətinləşmişdir. Ona görə də onun mətni haqqında konkret fikir söyləmək mümkün deyildir. Ancaq kitabədən indiyədək qalan sözlərin Qurani-Kərimin qeyd olunan ayəsi ilə tutuşdurmamız nəticəsində Ə.Ələsgərzadənin fikrinin həqiqət olduğu aydın olur.

Son araşdırmalar nəticəsində mətndə qalan sözlərə əsasən minarələrin baş tərəfindəki kitabənin mətni bərpa olunmuşdur. Məlum olmuşdur ki, üzbəüz dayandıqda sağ tərəfdəki, yəni cənubdakı minarənin baş tərəfindən başlayaraq Qurani-Kərimin XXII (əl-Həcc) surəsindən 28-29-cu ayələri yazılmışdır. Başqa sözlə desək, Qurani-Kərimin qeyd olunan ayələri cənubdakı minarədə başlayaraq şimaldakı minarədə başa çatmışdır. Həmin ayələrin mətninin tərcüməsi belədir: “28. Belə ki, öz mənfəətlərinin şahidi olsunlar və məlum günlərdə Allahın onlara ruzi verdiyi (dördayaqlı) heyvanların üstündə (onları qurban kəsərkən) Onun adını çəksinlər (bismillah desinlər). Onlardan özünüz də yeyin, biçarə (zavallı) yoxsula da yedirdin! 29. Sonra həcc əməllərini (dırnaq kəsmək, saçını qırxmaq, yaxud qısaltmaq və s.) yerinə yetirsinlər (və ya kirlərini təmizləsinlər), nəzirlərini versinlər və (Nuhun tufanından salamat çıxmış, yaxud bəşər övladı üçün ilk ziyarətgah olan) qədim evi (Kəbəni) təvaf etsinlər!” (1, s. 334).

Kompleksə daxil olan abidələr üzərindəki əsas kitabələrdən biri qoşa minarəli baştağın üzərində indiyədək qalan və çox hissəsi dağılmış kitabədir. Kompleks haqqında çox əhəmiyyətli məlumatları özündə əks etdirən, müxtəlif vaxtlarda tədqiqatçılar tərəfindən öyrənilmiş həmin kitabəni hərə bir cür oxumuşdur. Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin göndərişi ilə 1926-cı ildə Qarabağlar Türbə Kompleksinin kitabələrini tədqiq edən İsa Əzimbəyov (Məddah) bu kitabənin mətninin “Bu binanın tikilməsi haqqında... Quzey xatının əmri” sözlərindən ibarət olduğunu yazmışdır (10, s. 306). Kitabənin ilk tədqiqatçılarından M.Mirheydərzadə 1927-ci ildə nəşr etdirdiyi məqaləsində kitabənin mətninin “Əmərə binaəə hazil imarə” sözlərindən ibarət (5) olduğunu yazmışdır. Ancaq bir il sonra, o Naxçıvanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 13 may 1928-ci ildə keçirilən heyət iclasındakı məruzəsində kitabənin mətninin “Rəbbu hazihil-imarəti türkman Qudi xatın” olduğunu söyləmişdir (3, s. 67). Adı çəkilən Cəmiyyətin üzvü M.Rəsizadənin 1930-cu ildə verdiyi məlumatdan aydın olur ki, o bu kitabəni “Rəbbu hazəl imarəti türkman Kevzi xatın” kimi oxumuşdur (6, s. 82). Onlardan bir neçə il sonra Qarabağlarda olan tarix üzrə fəlsəfə doktoru Ə.Ələsgərzadə isə baştağın üzərindəki kitabəni belə oxumuşdur: “Bu binanın [tikilməsini]... Cahan Qudi xatın əmr etdi” (11, s. 390). Türbə Kompleksinin kitabələrinin son tədqiqatçılarından olan AMEA-nın müxbir üzvü M.Nemət də həmin kitabənin mətninin “Bu binanın tikilməsini... Cahan Qudi xatın əmr etdi” sözlərindən ibarət olduğunu yazmışdır (13, s. 60). Göründüyü kimi kitabədə xatırlanan qadının adını İ.Əzimbəyov Quzey xatın (10, s. 306), M.Mirheydərzadə Türkman Qudi xatın (3, s. 67), M.Rəsizadə Türkman Kevzi xatın (6, s. 82), Ə.Salamzadə Qoday xatın (7, s. 42), Ə.Ələsgərzadə Qudi xatın (11, s. 390), M.Nemət Qudi xatın (13, s. 60) kimi oxumuşdur.

Kitabənin mətninin dəfələrlə yerindəcə oxunması və əvvəlki oxunuşlarla müqayisəsi nəticəsində aydın olmuşdur ki, onun mətnində "Türkman" sözü yoxdur. Ancaq nədənsə M.Mirheydərzadə və M.Rəsizadə çox aydın şəkildə oxunan "Cahan" sözünü "Türkman" kimi oxumuşlar.

Fəzlullah Rəşidəddinin (XIII-XIV əsrlər) yazdığına görə Hülakülər (Elxanilər) dövlətinin banisi Hülakü xanın arvadlarından birinin adı Qutuy xatın olmuşdur (15, s. 16). Sarayda böyük nüfuza malik olan Qutuy xatın ağlı və bacarığı sayəsində oğlu Sultan Əhmədin iki il iki ay on üç gün davam edən hakimiyyəti dövründə (1282-1284-cü illər) dövlətin idarə olunmasında iştirak etmişdir (2, s. 18; 15, s. 104). Fikrimizcə, kitabədə adı çəkilən Qudi xatın mənbələrdə Quti və ya Qutuy xatın şəklində xatırlanan qadınla eyni adamdır. F.Rəşidəddin "Cami ət-Təvarix" əsərində Abaqa xanın arvadlarından bəhs edərkən onların adlarını qeyd edir. Tarxçinin məlumatından aydın olur ki, həmin arvadların içərisində "Qoday xatın" adlı qadın olmamışdır. Ona görə də kitabədə adı çəkilən qadının Abaqa xanın arvadı olması fikri ilə razılaşmaq olmaz.

Kitabədə tarix qalmamışdır. Ancaq minarələri tədqiq edən memarlar onların XII əsrdə inşa edilməsi fikrindədirlər (8, s. 40). Hətta bu minarələrin görkəmli memar Əcəmi Naxçıvani tərəfindən inşa edilməsini ehtimal edənlər də vardır. Akademik Ə.Salamzadə və sənətşünaslıq doktoru K.Məmmədzadənin fikrincə, bu minarələri birləşdirən baştağ isə sonralar, XIV əsrdə tikilmişdir (8, s. 140). Bu fikri baştağın üzərindəki kitabədə Hülakü xanın arvadı Qudi xatının adının qeyd edilməsi də təsdiq edir. Qudi xatının adının üzərində qeyd edilməsinə əsasən aydın olur ki, qoşa minarələri birləşdirən baştağ həmin qadının yaşının qocalıq dövrünə təsadüf edən XIV əsrin 30-cu illərində inşa edilmişdir.

Qarabağlar memarlıq kompleksinin əsasını təşkil edən türbənin də üzərində inşa edildiyi zaman çoxlu kitabələr yazılmışdır. Ancaq bu kitabələr zaman keçdikcə təbii qüvvələrin təsirindən güclü şəkildə aşınmaya məruz qalmış, çox hissəsi məhv olmuşdur. Türbənin səthi bütünlüklə həndəsi ornamenti xatırladan kufi və nəsx xətli kitabələr ilə bəzədilmişdir. Bu kitabələrin hamısı Quran ayələri və dini xarakterli kəlamlardır. Türbənin gövdəsindəki kitabələrin yazılmasında firuzəyi kaşılı və qırmızı rəngli kərpiclərdən istifadə edilmişdir. Kərpiclər 1322-ci ildə inşa edilmiş Bərdə türbəsində olduğu kimi şaquli və üfüqi istiqamətdə hörülmüş və ərəb dilində kitabələr əmələ gətirilmişdir. Abidənin gövdəsində yaradılan iri həcmli rombların içərisində kufi xəttilə yerinə yetirilmiş və dəfələrlə təkrarlanan kitabələrin mətni belədir: "Allahdan başqa Allah yoxdur. Məhəmməd – Allahın ona salavatı olsun – Allahın elçisidir". Göründüyü kimi kitabənin mətni el arasında "Kəlimeyi-Şəhadət" adlandırılan islamın doktrinasından ibarətdir.

Türbənin üzərində yazılan kitabələrdən biri də baştağların dördünün də baş tərəfində yazılmış kitabələrdir. Aparılan tədqiqatlar göstərir ki, hər dörd kitabənin mətni Qurani-Kərimin XL surəsinin 16-cı ayəsinin son hissəsindən ibarətdir: (Allah buyuracaq:) "Bu gün hökm kimindir?" (Heç kəsin qımıldanmağa belə cürəti çatmadığından Allah Özü cavab verəcəkdir:) "Bir olan, qəhr sahibi olan (qadir) Allahındır!" (1, s. 467).

Türbə Kompleksində aparılan bərpa işləri çərçivəsində aparılan tədqiqat işləri zamanı Kompleksin əsasını təşkil edən türbənin üzərində indiyədək tədqiqatçıların diqqətini cəlb etməyən və tədqiqat obyektinə çevrilməyən bir kitabə aşkar olunmuşdur. Kitabə türbənin gövdəsində olan baştağlardan ikisində qeydə alınmışdır. Belə ki, şimal və cənub baştağlarından içəri girərkən girişin divar kəsiyinin yanlarında və baş tərəfində firuzəyi kaşılı və qırmızı rəngli kərpiclərin ustalıqla hörülməsi yolu ilə dəfələrlə təkrarlanan, I imam və sonralar IV xəlifə olmuş şəxsiyyətin adından ibarət olan kitabə fraqmenti yaradılmışdır: "Əli". Kitabə lentvari haşiyə şəklində yazılmışdır.

Qeyd etmək lazımdır ki, I İmam, 656-661-ci illərdə xəlifə olmuş Əli ibn Əbutalibin adı Müsəlman Şərqi ölkələrinin memarlıq abidələrində kitabə fraqmenti olaraq çox işlənmişdir. Həmin ölkələrin, həmçinin Naxçıvan da daxil olmaqla Azərbaycanın memarlıq abidələrində bu görkəmli şəxsiyyətin adı müxtəlif formalarda həm kitabə, həm də bəzək ünsürü kimi yazılmışdır. Bunlardan ən geniş yayılanı altı guşəli medalyonlar içərisində həm batıq şəkildə, həm də qabartma şəkilində istifadə olunan və altı dəfə təkrarlanan "Əli" şəxs adından ibarət kitabədir. Biz bu kitabə nümunəsinə Xaraba Gilanda 1979-cu ildə aşkar olunan türbənin ətrafında aşkar olunan kitabə fraqmentlərində də rast gəlirik (12, s. 125, şəkil 9; 9, s. 84, şəkil 48). Ancaq Qarabağlar türbəsində bu kitabə fraqmenti fərqli şəkildə yerinə yetirilmişdir.

Kompleksə daxil olan türbənin yuxarısında – frizdə iri nəsx xətti ilə yazılmış kitabə vardır. Kitabənin çox hissəsi zaman keçdikcə aşınaraq məhv olmuşdur. Ancaq kitabədə qalan bəzi sözlərin köməyi ilə onun mətnini bərpa etmək mümkün olmuşdur: orada Qurani-Kərimin 67-ci (əl-Mülk) surəsindən I-VI ayələr yazılmışdır: "Bismilləhir-rahmənir-rahim! 1. Mülk (hakimiyyət, səltənət, mütləq hökmranlıq) əlində olan Allah nə qədər ucadır (nə qədər uludur). O, hər şeyə qadirdir! 2. Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq (bəlli etmək) üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır. 3. Yeddi göyü (bir-birinin üstündə) qat-qat yaradan da Odur. (Ey insan!) Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb (göyə) bax! Sən orada heç bir yarıq (çatdaq, nöqsan) görə bilərsənmi?! 4. Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada (axtardığını tapmayıb) zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır! 5. And olsun ki, Biz dünya səmasını (yerə ən yaxın olan göyü) qəndillərlə (ulduzlarla) bəzədik. Onları şeytanlara atılan mərmilər etdik və onlar (şeytanlar) üçün (yandırıb-yaxan) alovlu od əzabı hazırladıq. 6. Rəbbini inkar edənləri cəhənnəm əzabı gözləyir. Orası necə də pis dönüş yeridir!" (1, s. 561).

Qeyd olunan bu kitabələrdən əlavə türbə üzərində başqa kitabələr də olmuşdur. Ancaq zaman keçdikcə güclü aşındıqları və ya qəsdən məhv edildikləri üçün onları oxumaq mümkün deyildir. Tarix üzrə fəlsəfə doktoru S.Kərimzadə türbənin cənub portalının baş tərəfində qalmış kitabənin izlərinə əsasən müəyyən etmişdir ki, abidə Bərdə türbəsinin memarı olan naxçıvanlı Əyyub əl-Hafiz oğlu Əhmədin işidir. Alim bu haqda yazır: "Cənub portalda yerləşən açırımın üstündəki dördbucaqlı içərisində hazırda izi qalmış bir sıra yazılara təsadüf edilmişdir. Bu izlərdə "naxçıvanlı Əyyub əl-Hafiz oğlu Əhmədin işidir" sözlərini oxumuşuq. Kitabənin əvvəlində "Əhməd" və axırında isə "Əlhafiz" sözlərinin izləri nisbətən aydın oxunduğundan yəqin

etmişik ki, Qarabağlar türbəsinin ustası da Əyyub Əlhafiz oğlu memar Əhmədir" (4, s. 75). Alim həmçinin abidəni Azərbaycanın başqa memarlıq abidələri ilə müqayisə edərək onun Hülakü hökmdarı Əbu Səid Bahadır xanın zamanında (1316-1335-ci illər), 1332-1337-ci illər arasında inşa edildiyi nəticəsinə gəlmişdir (4, s. 77). Azərbaycan Sovet Ensiklopediyasının 1980-ci ildə nəşr olunmuş IV cildində (2, s. 255) də bu fikir qeyd olunmuşdur.

Göründüyü kimi, son tədqiqatlar zamanı Qarabağlar Türbə Kompleksinə daxil olan qoşa minarələrin baş tərəfində qalıqları qalan və haqqında müxtəlif fikirlər söylənən kitabənin mətni dəqiqləşdirilərək onun Qurani-Kərimin 22-ci (əl-Həcc) surəsinin 26-29-cu ayələrindən ibarət olduğu müəyyən edilmişdir. Həmçinin, Kompleksin özəyini təşkil edən türbənin şərq və qərb baş tağlarının divarlarında yazılan kitabə aşkar olunaraq oxunmuş və elmi dövriyyəyə daxil edilmişdir. Müəyyən edilmişdir ki, orada I imam və sonralar IV xəlifə olmuş Həzrət Əlinin adı yazılmışdır.

Gələcəkdə Qarabağlar Türbə Kompleksində güclü surətdə aşınaraq oxunmaz hala düşmüş digər kitabələrin də mətninin oxunaraq bərpa olunması mümkün ola bilər.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim məali. Azərbaycan dilinə tərcümə edənlər Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: İpək yolu nəşriyyatı, 2007, 604 s.
2. Azərbaycan Sovet Ensiklopediyası. IV cild. Bakı, 1980.
3. Xəlilov F. Naxçıvanı öyrənən elmi cəmiyyət. Bakı: Nurlan, 2005, 196 s.
4. Kərimzadə S. Qarabağlar türbəsinin kitabələri haqqında bəzi mülahizələr. Azərbaycan EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq. 1969, № 2, s.69-78.
5. Mirheydərzadə M. Asari-ətiqə. "Şərq qapısı" qəzeti, 27 dekabr 1927-ci il.
6. Rəsizadə M. Şərur dairəsində səyahət haqqında qeydlər. "Azərbaycanı öyrənmə yolu". № 4-5, Bakı, 1930, s. 81-82.
7. Salamzadə Ə.V. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri. Bakı: İşıq, 1976, 84 s.
8. Salamzadə Ə.V., Məmmmədzadə K.M. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 1985, 268 s.
9. Səfərli H. Naxçıvanın türk-islam mədəniyyəti abidələri. Naxçıvan: "Əcəmi" NPB, 2017, 216 s.
10. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах.ССР. Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2). Баку, 1929, с. 295-311.
11. Алескерзаде А.А. Надписи старинных архитектурных памятников Нахичеванского края. Изв. АН Азерб. ССР, 1949, № 5, с. 151-168.
12. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва: Московская типография № 12, 2000, 176 с.
13. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Баку: XXI –Yeni Nəşrlər Evi, 2001, 216 с.
14. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях.Часть IV, Санкт-Петербург, 1836, 401 с.
15. Рашидаддин Ф. Джами ат-таварих (Сборник летописей). Баку: 1957, том 3.
16. Сысоев В.М. Нахичевань на Араксе и древности Нах. ССР (Отчет о поздке летом 1926 г.); Нахичеванский Край – Нах. ССР (Отчет о поздке летом 1927 г.) / Изв. Азкомстариса. Вып. 4, Баку, 1929, с. 87-215.



## ABSTRACT

**Hajifakhraddin Safarli**

**UNLEARNED INSCRIPTIONS OF THE MAUSOLEUM COMPLEXOF GARABAGHLAR**

The article mentions the remaining inscriptions on the mausoleum complex of Garabaghlar. It is noted that the inscriptions head of the double minaret and mausoleum included in the complex were studied by various researchers. However, various opinions on the inscriptions were written on the head side of the double minarets have been reported, but recent studies show that 28-29 verses of 22 sura (əl-Həcc) of the Quran were written over there. Also an inscription of the first imam and later the name of the fourth caliph Hazrat Ali was discovered in the east and west ports of the mausoleum and included in the scientific circulation for the first time.



## РЕЗЮМЕ

**Гаджифахреддин Сафарли**

**НЕИСЛОДОВАННЫЕ НАДПИСИ КОМПЛЕКС МАВЗОЛЕЯ КАРАБАГЛАР**

В статье обсуждается о надписях Комплекс Мавзолея Карабаглар сохранившихся до сих пор. Отмечается, что надписи входивщий в состав комплекса на портале с двумя минаретами и мавзолея изучены различными исследователями. Но несмотря все еще звучение разные мнение о надписях, написанные на стороне головы двумя минаретами последние исследование показывает что, там написано из 22-го суре (ал-Хадж) Священного Корана айеты 28-29. А также на восточного и западного портала мавзолея выяснено до сих пор не исследованные надписи, составленный от имени I имам, а потом ставщий IV халифа Хазрата Али изучены впервые и были включены в научный оборот.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**TURAN HƏŞİMOVA**
*turanheshimova@mail.ru*
**VƏLİ BAXŞƏLİYEV**
*velibahshaliyev@mail.ru*

**UOT 94 (479.24)**

# NAXÇIVANIN ORTA TUNC DÖVRÜNÜN METAL ƏŞYALARINDA ƏKS OLUNAN İNANCLAR

**Açar sözlər:** *Naxçıvan, Orta Tunc, bəzək əşyaları, ilanbaşlı bilərziklər, ovsun*
**Keywords:** *Nakhchivan, Middle Bronze Age, jewelry, bracelets with snake heads, exorcism*
**Ключевые слова:** *Нахчыван, эпоха средней бронзы, предметы украшения, змееголовые браслеты, заклинание*

Araşdırmalar göstərir ki, Orta Tunc dövrünün metal əşyaları həmçinin o dövrdə yaşayan insanların mənəvi mədəniyyəti və ideologiyasını da əks etdirmişdir. Orta Tunc dövrünə aid metal məmulatı həm qədim insanların estetik zövqü, həm də ideoloji təsəvvürləri ilə bağlı olmuşdur. Arxeoloji abidələrdən aşkar olunmuş beş çıxıntılı sancaqlar, ilanbaşlı bilərziklər və boyunbağılar fikrimizə görə, ovsunla bağlı olmuş və praktiki olaraq qoruyucu funksiya daşımışdır. Paltara taxılan, yaxud ritual məqsədlə işlədilən bu tip sancaqlar və bilərziklər insanları dünyanın bəd qüvvələrindən və bəlalardan qorumalı idi.

Araşdırmalar göstərir ki, Orta Tunc dövrünün mənəvi mədəniyyəti və ideologiyası metal əşyalarda da əks olunmuşdur. Naxçıvanın Orta Tunc dövrü abidələrində metaləritmə ləvazimatının və metalişləmə emalatxanalarının qalıqlarının aşkar olunması metal emalının ixtisaslaşdığını təsdiq edir (5, s. 72-75). Bu dövrdə misə müxtəlif aşqarlar qatılması üsulunun mənimsənilməsi yüksək keyfiyyətli metal istehsalı üçün şərait yaratmışdır. Orta Tunc dövrünün metal məmulatı başlıca olaraq silahlardan (Şəkil 1) və müxtəlif bəzək əşyalarından ibarətdir (Şəkil 2). Silahlar yastı tiyəli xəncərlər, boru dəstəkli nizə ucları və ox ucluqları ilə təmsil olunmuşdur. Araşdırmalar göstərir ki, bu əşyaların hazırlanması zamanı onların bədii cəhətdən də mükəmməl olmasına fikir verilmişdir. Ortasından qabarıq xətt keçən yastı tiyəli xəncərlərin proporsionallığı bunu sübut edir. Bu baxımdan Çalxanqala kurqanlarından tapılmış xəncərlər xüsusilə diqqəti cəlb edir. Onlar silah olmaqla bərabər, həm də gözəl sənət əsərləridir. Tökmə üsulu ilə hazırlanan xəncərlərin tiyəsi yuxarıda oval çiyinlərlə tamamlanaraq yastı saplaqlara keçid əmələ gətirir. Xəncərlərin ortasından qabarıq xətt keçirilməsi onların möhkəmliyini və bədii xüsusiyyətlərini daha da artırmışdır.

Silahlar içərisində Qızılburundan tapılan Ön Asiya tipli xəncər də diqqəti cəlb edir (Şəkil 1, 5). O, olduqca mükəmməl hazırlanmış, dəstəyinin ortasında ağac inkrustasiya üçün çərçivə qoyulmuşdur. Xəncərin tiyəsi boyunca keçən batıq xətlər onun bədii gözəlliyini daha da artırmışdır (Şəkil 1, 5).

Orta Tunc dövrü abidələrindən müxtəlif növ bilərziklər, balıqqulağı və muncuq keçirilmiş sırğalar, üzüklər də aşkar edilmişdir. Bəzək əşyaları içərisində tunc sancaqlar xüsusilə zövqlü hazırlanmaları ilə seçilir (Şəkil 2, 11-20). Onların üzəri qoşa cızma və çərtmə naxışlar sırası ilə bəzədilmiş, yuxarısına isə farfor başlıq taxılmışdır. Sancaqların bəzisi beş çıxıntılı, bəzisi piramidal başlıqlı, bəzisi isə oval başlıqlıdır. Sancaqların biri cızma ornamentlə naxışlanmışdır.



Şəkil 1. Orta Tunc dövrünə aid bədii metal məmulatı:
1, 7 – Çalxanqala; 5-Qızılburun; 10 – Şahtaxtı.



Şəкil 2. Orta Tunc dövrünə aid bədii metal məmulatı:
1, 2, 3, 6, 9, 11 - 18, 21, 22 – Qızılburun; 4, 5, 7, 8, 10 – Şahtaxtı; 19, 20 – Çalxanqala.

Qeyd etmək istərdik ki, keramika və metal məmulatının naxışlanmasındakı bənzərlik, onların eyni mədəniyyətin məhsulu olduğunu göstərməklə bərabər, cəmiyyətdə yüksək sənətkarlıqla hazırlanmış əşyalara tələbatın get-gedə artdığını da göstərir.

Orta Tunc dövrünə aid metal məmulatının müqayisəli təhlili və onların spektral analizi Orta Tunc dövrü mədəniyyətinin mənşəyi və mədəni mənsubiyyəti ilə bağlı bir sıra məsələləri aydınlaşdırmağa imkan verir. Bu dövrdə metal emalında istifadə olunan mis ərintilərinin çeşidi artmışdır. Əgər Erkən Tunc dövründə başlıca olaraq mis-arsen ərintisindən istifadə edilmişdirsə, bu dövrdə mis ərintilərinin çeşidi artmış və yeddi tipə çatmışdır. Birinci tip azacıq qurğuşun, sink, arsen qarışığı olan mis əşyalarla təmsil olunmuşdur. Digər tiplər mis-arsen, mis-qalay, mis-qalay-qurğuşun, qurğuşun-arsen, mis-qurğuşun-arsen ərintiləri ilə təmsil olunmuşdur. Bu dövrdə mis-arsen ərintilərinin təklikdə tətbiqi azalmışdır. Qurğuşun və qalay qarışığı olan ərintilər isə artmışdır. Arsenin aşqarlayıcı metal kimi istifadəsinin azalması onun zərərli təsirləri ilə izah edilə bilər.

Bu dövrdə iqtisadi mədəni əlaqələrin genişlənməsi Uzaq Şərq ölkələrindən qalay gətirilməsinə şərait yaratmışdır. Texnoloji yeniliklərin tətbiqi, metal emalı ilə məşğul olan sənətkarların ixtisas biliklərinin artması, misə digər aşqarlar qatmağa və metal ərintisinin axıcılığını artırmağa imkan vermişdir. Bu dövrdə metal əşyaların tərkibində qurğuşundan geniş istifadə edilməsi diqqəti çəkir. Araşdırmalar göstərir ki, qurğuşun metal ərintisinə onun axıcılığını artırmaq məqsədi ilə qatılmışdır. Yüksək zövqlü, qüsursuz metal əşyaların hazırlanması üçün bu əsas şərtlərdən biri olmuşdur.

Araşdırmalar Orta Tunc dövrü metal məmulatının hazırlanmasında iki üzlü qəliblərdən və mum modelə

uyğun olaraq hazırlanan qəliblərdən istifadə edildiyini göstərir. Çalxanqala, Qızılburun nekropollarından aşkar olunan xəncərlərin olduqca mükəmməl olması onların mum modelə uyğun olaraq hazırlandığını bir daha təsdiq edir. Çalxanqaladan aşkar olunan saplaqlı, yastı tiyəli xəncərlərin tiyəsi boyunca keçən qabarıq zolaq ona möhkəmlik verməklə bərabər, bədii cəhətdən mükəmməl olmasını da təmin etmişdir. Digər tərəfdən Çalxanqala kurqanlarından aşkar olunan tunc xəncərlərin formaca bir-birini təkrar etməsi onların təkrar istehsalının mənimsənildiyini göstərir. Çalxanqala kurqanlarından aşkar olunan piramidal başlıqlı sancaqlar və Qızılburunun sancaqları onların tək-tək deyil, seriya ilə istehsal edildiyini deməyə əsas verir.

Boru dəstəkli nizə ucluqları ikitərəfli, açıla bilən qəliblərdə hazırlanmışdır. Əşyaların olduqca mükəmməl olması və seriya ilə hazırlanması onların daş qəliblərdə hazırlanma texnologiyasının da mənimsənildiyini göstərir. Bəzi bəzək əşyalarının hazırlanmasında, xüsusilə, bilərzik, üzük, sırğa və asmaların istehsalında standart metal çubuqlardan istifadə edilmişdir. Bu əşyaların istənilən formaya salınması üçün müxtəlif texnoloji üsullardan, xüsusilə, döymə, yonma, burma və s. istifadə edilmişdir. Qızılburundan aşkar olunan Tunc sancaqlar oyma və cızma üsulu ilə xüsusi kompozisiya ilə naxışlanmışdır. Araşdırmalar Orta Tunc dövrünün əvvəllərindən başlayaraq metalişləmə texnologiyasının standartlaşdığını göstərir. Bu isə metal emalı ilə bağlı xüsusi alət və ləvazimatların olduğunu göstərməklə bərabər, istehsalın stabil inkişafını təmin edən ixtisaslaşdırılmış emalatxanaların olduğundan xəbər verir.

Orta Tunc dövrünün əvvəllərindən başlayaraq mis-arsen ərintiləri ilə bərabər, mis-qalay ərintilərindən istifadə edilməyə başlanması belə ehtimal etməyə imkan verir ki, e. ə. III minilliyin ikinci yarısında mis-arsen ərintilərinin qalaylı tuncla əvəz edilməsi dövrü olmuşdur. Analoji vəziyyət Yaxın Şərq ölkələrində də müşahidə edilmişdir. Anadoluda aparılan araşdırmalar zamanı Assurlu tacirlərin qalay ticarəti ilə məşğul olması və qalay ticarətində Mesopotamiyanın önəmli rol oynadığını göstərmişdir (5, s. 98). Yaxın Şərqdə əldə edilən texnoloji nailiyyətlərin tezliklə mənimsənilməsi Naxçıvan tayfalarının yüksək iqtisadi-mədəni inkişaf səviyyəsi ilə bağlı olmuşdur.

Azərbaycanda, o cümlədən Naxçıvan abidələrində qalaylı tuncun meydana gəlməsi Boyalı qablar mədəniyyətinin yayılması ilə eyni vaxta düşür. Bu fakt şübhəsiz ki, Boyalı qablar mədəniyyətini daşıyan tayfaların Ön Asiya ilə sıx bağlı olduğunu göstərir. Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin Yaxın Şərq ölkələri ilə sıx iqtisadi-mədəni əlaqələr şəraitində formalaşdığını həmçinin metal əşyaların tipoloji analizi də göstərir. Orta Tunc dövrünə aid Qızılburun xəncərləri formaca Yaxın Şərq ölkələrində aşkar olunan xəncərlərlə bənzərdir. Çalxanqala kurqanlarından aşkar olunan xəncərlərin bənzərlərinə Yaxın Şərq abidələrində rastlanmamışdır. Onlar yalnız bəzi ümumi əlamətlərinə görə Ön Asiya nümunələri ilə müqayisə edilə bilər. Bu baxımdan Qızılburundan aşkar olunan Ön Asiya tipli xəncər maraq doğurur. Bu tip xəncərlər e. ə. II minilliyin ikinci yarısında İran ərazisində və Cənubi Qafqazda geniş yayılmışdır (7, s. 33-84). O.H.Həbibullayev bu xəncəri e. ə. XV-XIV əsrlərə (3, s. 203), V.H.Əliyev isə e. ə. XIV əsrə aid etmişdir (2, s. 122). Ön Asiya ölkələri ilə intensiv əlaqələrin olduğunu həmçinin Çalxanqala kurqanlarından aşkar olunan piramidal və beş çıxıntılı başlığı olan tunc sancaqlar da sübut edir.

Orta Tunc dövrü abidələrindən az da olsa qızıl və gümüş əşyaların aşkar edilməsi zərgərlik sənətinin inkişafı haqqında məlumat verir. Bu əşyaların biri V.H.Əliyev (1, s. 70), digəri isə Ə.K.Ələkbərov (4, s. 255) tərəfindən aşkar olunmuşdur. V.H.Əliyev tərəfindən aşkar olunan toqqa dairəvi tunc çərçivə və lövhəşəkilli gümüş üzlükdən ibarətdir. Bu üzlük bir-biri içərisində yerləşdirilmiş üçbucaqlar, üçbucaqların arasında və mərkəzi hissədə relyef dairə ilə naxışlanmışdır (Şəkil 2, 8). Buna bənzər qızıl üzlüklü toqqa Ə.K.Ələkbərov tərəfindən tədqiq edilən Şahtaxtı qəbirindən aşkar olunmuşdur. At əsləhəsinə aid olan bu toqqa O.H.Həbibullayev tərəfindən nəşr edilmişdir. Onun fikrinə görə, bu əşya yarımşarşəkilli formada olub naxışsızdır. Bu əşyaların bənzərlərinə qonşu ölkələrdə rastlanmamışdır. Lakin onlardan birinin naxışlanma motivi Cənubi Qafqaz və Şərq ölkələrindən aşkar olunan əşyalarla bənzərdir (6, s. 121).

Araşdırmalar göstərir ki, Naxçıvandan aşkar olunan metal əşyaların əksəriyyəti yerli istehsala aiddir. Bunu əşyaların əksəriyyətinin tərkibində yüksək faizli arsen qarışığına rastlanması, yaşayış yerlərində metalişləmə ocaqlarının və metal emalında işlədilən alətlərinin tapılması da sübut edir.

Orta Tunc dövrünə aid metal məmulatı qədim insanların yalnız estetik zövqünü deyil, həm də ideoloji təsəvvürlərini əks etdirmişdir. Qızılburundan aşkar olunan beş çıxıntılı başlığı olan sancaqlar, yuxarıda qeyd etdiyimiz kimi, insanların dünyanın beş hissəli horizontal quruluşu ilə bağlı təsəvvürlərini əks etdirmişdir. Paltara taxılan, yaxud ritual məqsədlə işlədilən bu tip sancaqlar insanları dünyanın dörd tərəfindən və göydən gələn bəlalardan qorumalı idi.

Qızılburun nekropolunun metal məmulatı arasında olan boyunbağıların bəzisinin bir ucu ilan başı formasında hazırlanmış, gövdəsi isə dərin gəzlərlə naxışlanmışdır. Şübhə yoxdur ki, bu tip boyunbağılar ilana bənzədilmişdir. Belə bəzək əşyalarının hazırlanması, fikrimizə görə, ovsunla bağlı olmuş və praktiki olaraq qoruyucu funksiya daşımışdır. Son zamanlaradək Azərbaycan xalqı arasında yaşayan ovsunlama adəti zamanı ovsunçu ilanı uşağın qoluna və boynuna dolayaraq ovsun mərasimini icra edirmiş. İnanca görə ilan

ovsunlanmış uşağa yaxın düşməz, onu vurmazmış. Tunc dövrünün sonuncu mərhələsində və Dəmir dövründə yayılan ilan başlı bilərziklər də şübhəsiz ki, bu funksiyanı daşımışdır.

Araşdırmalar göstərir ki, Orta Tunc dövrünün metal əşyaları həmçinin o dövrdə yaşayan insanların mənəvi mədəniyyəti və ideologiyasını da əks etdirmişdir. Orta Tunc dövrünə aid metal məmulatı həm qədim insanların estetik zövqü, həm də ideoloji təsəvvürləri ilə bağlı olmuşdur. Arxeoloji abidələrdən aşkar olunmuş beş çıxıntılı sancaqlar, ilanbaşlı bilərziklər və boyunbağılar fikrimizə görə, ovsunla bağlı olmuş və praktiki olaraq qoruyucu funksiya daşımışdır. Paltara taxılan, yaxud ritual məqsədlə işlədilən bu tip sancaqlar və bilərziklər insanları dünyanın bəd qüvvələrindən və bəlalardan qorumalı idi.

## ƏDƏBİYYAT


1. Əliyev V.H. Şahtaxtının tunc dövrü abidələri, Azərbaycan SSR EA Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1974, №4, s. 70-82.
2. Əliyev V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti, Bакı, Elm, 1977, 140 s.
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм, 1982, 316 с.
4. Алекперов А.К. Крашенная керамика Нахичеванского края и Ванское царство, Советская археология, 1937, № 4, с. 249-264.
5. Бахшалиев В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани, Дисс. на соиск. канд. исторических наук, Ленинград, 1986, 187 с.
6. Джапаридзе О.М. Археологические раскопки в Триалети в 1959-1962 г.г., Советская археология, 1964, № 2, с. 102-121.
7. Погребова М.Н. Иран и Закавказье в раннем железном веке. М., 1977, 248 с.



## ABSTRACT

**Turan Hashımova, Velı Bakhshalıyev**

**THE BELIEFS REFLECTED IN MIDDLE BRONZE AGE METAL OBJECTS OF NAKHCHIVAN**

Researches show that the spiritual culture and ideological representations of that time are reflected in metal objects of Middle Bronze Age. Metal products of Middle Bronze Age are connected by esthetic tastes and ideology of ancient people. Five-headed pins, bracelets and necklace with snake heads, as we think, connected with protective functions thus jewelry. The similar pins, bracelets and necklace which are put on a dress have to preserve people against angry spirit and troubles.



## РЕЗЮМЕ

**Туран Гашимова, Вели Бахшалиев**

**ВЕРОВАНИЯ, ОТРАЖЕННЫЕ НА МЕТАЛЛИЧЕСКИХ ИЗДЕЛИЯХ ЭПОХИ СРЕДНЕЙ БРОНЗЫ НАХЧЫВАНА**

Исследования показывают, что на металлических предметах эпохи средней бронзы отражены духовная культура и идеологические представления того времени. Металлические изделия эпохи средней бронзы связаны и эстетическими вкусами и идеологическими представлениями древних людей. Пяти шишечные булавки, браслеты и шейные гривны змеиными головками по нашему мнению практически были связаны заклинанием и имели оберегающее значение. Подобные булавки, браслеты и гривны, надетые на платье должны оберечь людей от злых дух и бедствий.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**BƏSRƏT ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT 94 (479.24)**

# XX ƏSRİN I YARISINDA AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİNDƏ HƏYATA KEÇİRİLƏN ORUC BAYRAMI (BABƏK VƏ ŞAHBUZ RAYONLARININ MATERİALLARI ƏSASINDA)

**Açar sözlər:** *Oruc, din, düşüncə, tarixi köklər, ənənə, ənənə, milli-mənəvi dəyərlər*
**Key words:** *Fasting, religion, thought, historical roots, tradition, tradition, national-moral values*
**Ключевые слова:** *Пост, религия, мысль, исторические корни, традиция, трациция, национально-нравственные ценности*

Bütün müsəlman dünyasında, o cümlədən Azərbaycanda və eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da xüsusi hörmətlə və ciddi şəkildə əməl olunmaqla keçirilən dini xarakterli bayramlardan biri və Ramazan ayında əməl olunan Orucluq bayramıdır.

İslamdan əvvəl meydana gələn dinlərdə də oruc tutmaq haqqında göstərişlər olmuşdur. Tarixi məlumatlara görə, Həzrət Adəmdən (ə) başlayaraq Allahın rəsullarının (onlara salam olsun!) hər biri, o cümlədən Xatəmül-Ənbiya Mühəmməd (s) də bu barədə insanlara xəbərdarlıq etmişdir. Orucluğun kökləri uzaq keçmişə bağlıdır. Orucluğun meydana gəlməsinin səbəbləri məxəzlərdə və şəriət qanunlarında geniş izah edilir. Qurani-Kərimə görə şəriətimizdə oruc tutmaq Allah əmridir. Orucluğun yerinə yetirilib-yetirilməməsini müzakirə etməyin özü əbəsdir. Çünki Allah kəlamı müzakirə olunmaz. İslama qədər orucluq - yeməkdən imtina etmək və ya yeməyi məhdudlaşdırmaq bir qayda olaraq yay fəslinə - isti dövrlərdə icra olunurdu. Ərəblər yay fəslinin çox isti vaxtında gündüzlər təsərrüfat həyatını dayandırır, bütün işləri axşama, hava sərinləşən vaxta keçirirdilər.

Orucluqla bağlı müsəlmanların "Qurani-Kərim" kitabında açıq şəkildə deyilir ki, "Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyrulduğu kimi, sizə də vacib buyruldu ki, (bunun vasitəsilə pis əməllərdən) çəkinəsiniz.

Buradan görünür ki, orucluğun kökləri uzaq keçmişə gedib çıxır. Orucluq islamdan əvvəlki qövmlər üçün vacib sayılıb.

Orucluğun meydana gəlməsinin səbəblərini müxtəlif məxəzlərdə, əhalinin kifayyət qədər ərzaqla təmin etmək çətinliyi ilə əlaqədar olması ilə izah edilsə də, amma həqiqi məlumatlara görə o cümlədən, "Qurani-Kərim"də göstərildiyi kimi oruc tutmaq Allah əmridir. Belə ki, Həzrəti Adəm peyğəmbərdən başlayaraq Allahın peyğəmbərləri, o cümlədən Həzrəti Məhəmməd peyğəmbər də bu barədə xəbərdarlıq etmişlər.

İslama qədərki orucluq bir qayda olaraq yay fəslinə düşürdüyü barədə məlumatlara rast gəlinir, lakin islam dini bərqərar olduqdan sonra isə, "Qurani-Kərim"in hökmünə əsasən "orucluq" islam qəməri təqviminin 9-cu ayı olan Ramazan ayında həyata keçirilməsi qərarlaşdırılmışdır. Ona görə bu aya şəhri Ramazan ayı da deyilir. Bu ay qəməri təqvimi ilə bağlı olduğundan ona görə də, orucluq ilin bütün fəsillərinə düşür. Bu da ki, Qəməri (Ay) təqviminin Şəmsi (Günəş) təqvimindən 10-11 gün qısa olması ilə bağlılığıynan əlaqədardır.

Ramazan ayı Qurani-Kərimdə adı çəkilən yeganə ay adıdır ki, burada göstərilən ayədə Ramazan orucundan ətraflı bəhs olunur.

Ona görə də islamda orucluq ixtiyari deyil, müntəzəm səciyyə kəsb edir. Məhz, bu mənada fərdin və icmanın həyatında orucluq barədə hər hansı bu və ya digər dəyişiklik edilə bilməz, eləcə də vaxtında dəyişdirilməsi mümkün deyildir.

Qeyd etmək lazımdır ki, məhz bu mənada Ramazan ayına qədər sağlam qalmış insanlar bu ayı namaz qılıb bir ay oruc tutmalıdırlar.

Oruc sözünün mənası ərəbcə "yandırmaq", yəni günahları yandırmaq, "hərəkətsiz olmaq", "hərəkət etməmək" deməkdir. Yəni, günah etməklə Allaha yaxınlaşmaqla bağışlanmaq istəyidir.

Ramazan ayında tutulan oruc vasitəsilə insanların paslanmış qəlblərinin təmizlənməsinə, günahlarının Allah tərəfindən bağışlanılmasına bir fürsət hesab olunur. Həmçinin, müqəddəs kitabımızda Qurani-Kərim də məhz Ramazan ayında Yerə endirilməyə başlanılmışdır. Bu ayda oruc tutmaq, Allah ilə insan arasında ibadətin ən yüksəyi hesab edilir, eləsə də bu ay Cənnət qapılarının tayba-tay açılması, Cəhənnəm qapılarının isə bağlanması ilə xarakterizə olunur. Ramazan ayında orucun tutulmasına müsəlman dünyasının hər yerində əməl

olunduğu kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsində də islam qaydası ilə əlaqədar Babək və Şahbuz rayonlarında da əvvəllərdə olduğu kimi, XX əsrin birinci yarısında da əməl edilmiş və indi də əməl olunmaqdadır.

XIX əsrin sonlarında rəsmi arxiv sənədlərində humanizm prinsiplərinə əsaslanan İslam dəyərləri haqqında maraqlı məlumatlara rast gəlinir. Qeyd olunur ki, "Dinin birinci şərti namazdır. Namaz gündə beş dəfə həyata keçirilməlidir. 1. Səhər günəş çıxmamışdan qabaq. 2. Günün yarısında. 3. Günün yarısından sonra. 4. Axşam vaxtı, (gecənin düşməsi). 5. Yatmamışdan əvvəl. İkinci şərt xeyirxah əməllər edilməsidir. Fitrə, zəkat və xums. Fitrə yoxsul insanlara verilməlidir. Adam başına torpaqdan alınan illik məhsulun (buğdanın) 10 q qədər. Zəkat torpaqdan yığılmış məhsullun və yaxud heyvanlardan əldə edilmiş gəlirə görə verilir. Şəriətə görə bu hədiyyə Formasında Verilmiş pullar əsasən məscidlərin tikintisinə sərf edilir. Xums ailənin illik gəlirinin beşdə biri qədər verilir. Bir hissəsi din xadimlərinə, bir hissəsi isə Seyidlərə (Məhəmməd nəslindən) verilir. Orucluq ramazan ayında səhər günəş çıxmamışdan axşam günəş batana qədər heç nə yeməməlisən və heç nə içməməlisən. Hətta gül qoxlamaq olmaz. Həcc ziyarət üçün Məkkəyə getməlisən.

"Qurani-Kərim"də göstərildiyi kimi Naxçıvanda da orucluq müddətində yemək-içmək gündə iki dəfə həyata keçirilir. 1. gün çıxmamış (yəni obaş), 2. gün batanda (şər qarışan vaxt) iftar açma ilə həyata keçirilir.

Qaydaya görə hər bir müsəlman 15 yaşına çatmış oğlan uşağı, 9 yaşını tamamlamış qız uşağından tutmuş hamının oruc tutması vacib sayılır. Lakin bununla bərabər bəzi istinalara da yol verilir. O cümlədən, xəstələr, yaşlı zəif adamlar, səfərə çıxanlar, hamilə və südəmər körpəsi olan qadınlar oruc tutmaqdan azad olunurlar. Amma "Qurani-Kərim" də "Əl-Bəqərə" surəsinin 184-cü ayəsində buyrulur ki, "sizdə xəstə və səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar"

Buradan aydın olur ki, yaş həddinə çatmış və sağlam olan bütün müsəlmanların oruc tutması vacib buyurulur.

Oruc tutan gərək gün ərzində özünü yeməkdən, su içməkdən, boğazına toz keçməkdən, papiros çəkməkdən, qəsdən başını suya batırmaqdan, bədənin qüsulunun olmasından, imalə olunmaqdan, yalan danışmaqdan, qeybət etməkdən, naməhrəmə baxmaqdan çəkinmiş olsun. Başqa bölgələrdə olduğu kimi, Naxçıvanda da XX əsrlərdə əsasən orucu Ramazan ayında ayın ilk görünməsi ilə, bir aydan sonra isə, yəni ayın görünməsi ilə bayram edilirdi. Şübhəsiz ki, XX əsrin əvvəllərində elmi-texniki inqilabın inkişafı ilə əlaqədar, bu işə ehtiyac qalmır, belə ki, orucluğun nə vaxt başlanması və qurtarıb bayram edilməsi, dövlət və eləcə də Şeyxüslam tərəfindən əvvəlcədən xəbər verilir.

Həzrəti Peyğəmbərimiz Ramazan ayının orucunu fəzilətindən qeyd edərək demişdir ki, "başqa aylardan fərqli olaraq, bu ayda bütün ibadətlər birə-min hesablanır. Bununla yanaşı orucluq ayında ziyarət etmək, ölənlərin ruhuna ehsan vermək, iftar süfrəsi açmaq böyük savab hesab olunur.

Aparılmış etnoqrafik tədqiqatlar nəticəsində və Naxçıvan bölgəsinin Şahbuz və Babək rayonları üzrə toplanmış materiallardan aydın olur ki, əgər bir şəxs qəsdən orucunu tutmaya və oruca etiqadı olmaya, o kafər sayılır və mürtəd hesab olunur.

İnformator Babək rayonunun Kültəpə kənd sakini 1934-cü il təvəllüdlü Mamed həkimin fikrinə əsaslanaraq qeyd etmək lazımdır ki oruc tutmaq tibbi və sağlamlıq nöqteyi nəzərdən və əxlaqi baxımdan da çox əhəmiyyətlidir. Belə ki, oruc tutmaq mədə xəstəliyi, baş ağrısını aradan götürülməsində, həm də insanı şər işlərdən, haramzadalıqdan, xoşagəlməz hadisələrdən, günah iş görməkdən çəkindirir və əxlaqı saflaşdırır.

Ona görə də Ramazan ayı xalq arasında mehribanlıq, səmimiyyət, təmizlik və halallıq ayı adlanır.

Naxçıvanın Babək, Culfa, Ordubad, Şahbuz və Şərur rayonlarında 2015-2018-ci illərdə aparılmış etnoqrafik tədqiqat materiallarından aydın olur ki, istər rayon, iştərsə də kənd yerlərində Ramazan ayında orucun tutulması, onun qaydalarına əməl olunması və oruc bayramının qeyd olunmasına lap qədim dövrlərdən etibarən bəzi qadağalara və çətinliklərə baxmayaraq ciddi əməl olunmuşdur.

Qeyd etmək lazımdır ki, Naxçıvanın bütün rayon və kənd yerlərində Ramazan ayının 15-ci gününü xüsusi təm-təraqla qeyd edərdilər. Həmin gün Novruz bayramında olduğu kimi, kiçik yaşlı uşaqlar dəstə-dəstə qohum-əqraba və qonşuların qapılarına gedib torba ataraq, orucluq payı yığardılar.

Bundan əlavə həmin gün axşam iftarını zəngin süfrə açaraq və oruc tutan ağsaqqallardan iftar yeməyinə çağırardılar. Həmçinin nişanlı qız evinin valideyinləri bəyi görmək üçün oğlan evinə gedərək hədiyyələr aparırdılar. Orucluğun ikinci yarısında Ramazan ayının 19,21,23-cü günlərində "əhya axşamı" "əhya" (yəni ərəbcə dirilmə mənasım bildirən günlər) saxlanılırdı. Həmin günlərin gecələri, oruc tutanlar ya məclislərə yığılar və yaxud da evlərdə səhərə kimi namaz qılaraq ibadət edirdilər. Bu ona görə idi ki, bu tarixlərin hansındasa, Quran nazil olduğu və Həzrəti Əlinin İbni Mülcəm Əbdürrəhman tərəfindən zərbətləndikdən sonra üç gün yaralı halda qaldığı gün ilə əlaqədar idi. Ona görə də Naxçıvan bölgəsinin bütün rayon və kəndlərində "əhya" axşamları xüsusi gün kimi qeyd olunur, dua edib ehsan verilir, halva çalınıb paylanılır.

Ramazan ayı "id-əl-fitr" deyilən orucluq bayramı ilə başa çatır. Oruc tutmayan sağlam müsəlmanlara

isə kəffarə gəlir və onun verilməsi vacib sayılır.

Fitr bayramı orucluq qurtaran günü, təzə ayın (hilalın) nazik şəkildə görünməsi ərəfəsində, yəni şəvyal ayının girməsi ilə başlayır. Fitrə hər ailə üzünə 3 kiloqram buğda hesabı ilə, bayram namazı qılınana qədər müsəlman olan fəqirlərə və füqarələrə verilməlidir. Fitrə, əgər öz qohumun kasıbdırsa ona, yox qohumlardan kasıb yoxdursa, qonşuya, yox əgər qonşuda yoxdursa, kəndində olan kasıblara verilməlidir. Fitrə həm də vacib sayılır, çünki Ramazan ayının fıtrəsi bədənin zəkatıdır.

İnformatorların məlumatından aydın olur ki, Orucluq bayramı günü obaşdan, yəni dan yeri sökülməmiş yenə niyyət edib, oruc tutulur, sübh namazından sonra hamı məscidlərə gedir, orada birlikdə gün çıxandan sonra 2 rikət bayram namazı qılaraq oruclarını yeyərək bayram edirdilər.

Bundan sonra dövlət səviyyəsində olmasa da böyük təntənə ilə şadlıq mərasimi təşkil olunurdu. Bayramın başlanması ilə qohum qardaşın, ağsaqqalların və ağbirçəklərin bayramını təbrik edirdilər.

Orucluq bayramında hazırda olduğu kimi ibadət işlərinin yerinə yetirilməsinə, "Qurani-Kərim"in oxunmasına, təmizliyə, paklığa nail olunmasına da xüsusi fikir verilirdi. Eyni zamanda xəstələri, qocaları, ağsaqqallar ziyarət edilir, könülləri alınır, yoxsullara isə əl tutulurdu.

Qeyd etmək lazımdır ki, sovet dönəmində totalitar rejimlə əlaqədar bu bayram dövlət səviyyəsində qeyd olunmurdu. Amma ölkəmiz müstəqillik qazandıqdan sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Qurban" və "Ramazan" bayramlarının ümumxalq bayramı kimi respublika səviyyəsində geniş şəkildə keçirilməsi xalqımızın çoxəsrlik arzusunu reallaşdırmış oldu.

## ƏDƏBİYYAT


1. "Qurani-Kərim". Ərəb dilindən tərcümə edənlər. Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı, Qismət, 2006
2. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı, Elm, 1985
3. Quliyev H.A. "Məişətimizdə adət-ənənələr". Bakı, 1976
4. Qədirzadə H.Q. "Ailə məişəti ilə bağlı inamlar, Etnoqrafik əlaqələr". Bakı, Elm, 2003
5. ASE-10 cilddə. VII cild (Baş redaktor Quliyev), Bakı, "Qızıl Şərq" mətbəəsi. **1998.624.S**
6. Xalq qəzeti **(11** Fevral **1999). №**236



## ABSTRACT

**Basret Zeynalov**

**ORUJ HOLIDAY, HELD IN THE NAKHCHIVAN REGION OF AZERBAIJAN IN THE FIRST HALF OF THE 20TH CENTURY (BASED ON THE MATERIALS OF BABAK AND SHAHBUZ DISTRICTS)**

There are many holidays that represent the National Emotional Values of the Muslim world, one of them is the Feast of Ramadan. Like other religious holidays, the historical roots of the Eid al-Fitr, as well as rituals, ceremonies, customs and traditions related to this holiday, have a positive effect on the upbringing of the new generation, enriching the spiritual life of our people. As a result, keeping fast is a reflection of the soul and faith, the refınement of the soul, and the formation of thoughts.



## РЕЗЮМЕ

**Басрет Зейналов**

**ПРАЗДНИК ОРУДЖ, ПРОВОДИМЫЙ В НАХЧЫВАНСКОЙ ОБЛАСТИ АЗЕРБАЙДЖАНА В ПЕРВОЙ ПОЛОВИНЕ 20-ГО ВЕКА (ПО МАТЕРИАЛАМ БАБЕКСКОГО РАЙОНОВ)**

Есть много праздников, которые представляют национальные эмоциональные ценности мусульманского мира, одним из них является праздник Рамадан. Как и другие религиозные праздники, исторические корни Ид аль-Фитр, а также ритуалы, обряды, обычаи и традиции, связанные с этим праздником, оказывают положительное влияние на воспитание нового поколения, обогащают духовную жизнь нашего народа. В результате, поддержание поста – это отражение души и веры, а также формирование мыслей.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyev

**MUSA QULİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*kuliyevm@yandex.ru*

**UOT: 94(479.242)**

# KIRIM XANLARININ VARİSLƏRİ ŞAHİNGİREYLƏR (ŞƏNGİLEYLƏR) NAXÇIVAN TARİXİNDƏ

**Açar sözlər:** *Kırım, I Şahin Girey, Akim Şahin Girey, M.Y.Lermantov, Naxçıvan, Şərurda Şəngiley kanalı, Şimali Qafqaz*

**Key words**: *Crimea, Shahin Girey I, Akim Shahin Girey, M.Y.Lermantov, Nakhchivan, Shangiley Canal in Sharur, North Caucasus*

**Ключевые слова:** *Крым, I Шахин Гирей, Аким Шахин Гирей, М.Ю.Лермонтов, Нахчыван, канава Шенгилей в Шаруре, Северный Кавказ.*

Tarixi mənbələrə görə Kрım xanlarının əcdadı Çingiz xandan başlanır. Onlar özlərini Cuci xanın nəsil davamçısı bilirlər. XV əsrdə isə Qızıl Ordadan ayrılaraq müstəqil Kрım xanlıбını yaratmışlar (6, s.211).

Türк alimi Xəlil Inalcıк Kрım türкləri olan Gireylərin (Gərayların) nəsil şəcərəsini hazırlayıb. Həmin şəcərəyə görə Kрım xanlığı miladi 1428 (hicri 831)-ci ildə I Hacı Girey tərəfindən idarə olunub. Müstəqil xanlığın axırıncı xanı isə I Şahin Girey olub (6, s.209-210).

1783-cü ildə rus çariçası Yекaterinanın qoşunları Kрımı işğal etdilər və Kрım Rusiyanın vassalına çevrildi. Bundan sonra 1784-1785-ci illərdə II Bahadur Girey, II Şahin Girey Kрımın sonuncu xanları oldular (6, s.211-212).

Kрım xanlığı mövcud olduğu illərdə həmişə Osmanlı Imperiyası ilə əlaqə yaratmış, hətta hərbi müttəfiq olmuşdur. Ona görə də Osmanlı dövləti 1787-1792-ci illərdə bucaq tatarlarına (Bessarabiya türкlərinə) Şahbaz Gireyi və Bəxti Gireyi müstəqil xan təyin etmişdi. XVI əsrdə Kрım xanları Uкraynanın cənubuna, eləcə də Don və Kuban çaylarının sahilindəкi ərazilərə haкimliк edirdilər. 1785-ci ildən sonra Kрım xanlığının, o cümlədən Kрım türкlərinin faciəli günləri başlayır.Ən böyüк faciə onların, xüsusilə Gireylər nəslinin zorla, məcburən xristianlaşdırılması idi və 1845-ci ildə Naxçıvan Qəza Idarəsinin rəisi olan Aкim Pavloviç Şahin Gireyin (1815-1883) taleyi də belə olmuşdur.

Onun atası Pavel Petroviç Şan Gireyin Şimali Qafqazda böyüк maliкanələri olub. Anası Mariya Aкimovna (1799-1845) Rusiyanın məşhur generalı Aкim Xastatovun qızı idi. Ana nənəsi Yекaterina isə şair M. Lermontovun ana nənəsi Yelizavetanın doğma bacısı idi və bu iкi bacı məşhur Stolıpinlər nəslindən idilər. Hər iкisi də aristoкrat olduqlarından xeyli var-dövlətləri var idi (7, s.483).

Aкim Şahin Gireyin nənəsinin Qafqazdaкı “Şelкovoye” və “Zemnoy Ray” maliкanələri isə bütün Rusiyada məşhur idi. 1825-ci ildə şair Lermontovun nənəsinin məsləhəti ilə Şan Gireylər Penza vilayətinə, Tarxanıya yaxın Apalixə кöçdülər. “Apa” tatarca “böyüк bacı” deməкdir.Çox yaxın qohum olan Mixail Lermontovun və Aкim Şahin Gireyin uşaqlığı bir yerdə кeçib. Istər Tarxanıda, istər Mosкvada, istərsə də Peterburqda onlar bir yerdə olublar. Aкim Şahin Girey Peterburqda Artilleriya məкtəbində təhsil almış, sonra orduda xidmət etmiş və podporuçiк rütbəsində ordudan tərxis olunmuşdur (8, s.33-35).

Uşaqlıq və gəncliк dostu, həm də yaxın qohumu şair Lermontovun təкidi ilə taleyini Qafqazla bağlayan Aкim Şahin Girey şairin dueldə öldürülməsindən sonra 1844-cü ildə Pyatiqorsк şəhərinə кöçür. 1845-ci ildə isə o, Naxçıvana qəza rəisi təyin edilir (8, s.497-498).

Naxçıvanda qəza rəisi işlədiyi illərdə Aкim Şahin Girey həm də irriqasiya işləri ilə məşğul olur. Şərur mahalında Arpaçayına yaxın bir ərazini 24 illiyə icarəyə götürür və öz dövrünə görə çox əhəmiyyətli olan “Şəngiley кanalı”nın tiкintisini başa çatdırır. Məxəzlərdə o vaxtlar ermənilərin bu кanalın çəкilməsinə maneçiliк törətmələri haqqında məlumatlara da rast gəlinir. Ermənilər tərəfindən dəfələrlə münaqişəyə cəlb olunsa da, özünün mütərəqqi ideyalarından əl çəкmir. Bu işdə ona II Kalbalı xan Naxçıvansкi də yaxından кöməкliк göstərir. Onlar həm də yaxın dost olublar (7, s.100). Qeyd edək ki. Akim Şərur mahalında özünə malikanə tikdirir, ətrafında çox füsunkar bağ salır. Az müddətdə təzə yaranan bu kəndə rəsmi olaraq Şahingirey adı verilir və 1898 –ci ilin dövlət xəritəsində qeyd olunub. Indi Oğuzkənd adlanır. Şahin Girey

Ümumiyyətlə, Naxçıvan xanları Kрım xanlarından olan Gireylərə dərin rəğbət bəsləyiblər. Naxçıvan xanları haqqında materiallarda Gireylər adına dönə-dönə rast gəlinir.

Şərurda məşhur “Şəngiley кanalı”nın əsasın qoyan Aкim Pavloviç Şahin Gireydir. Naxçıvanda işlədiyi illərə aid sənədlərin hamısı tapılmadığından onun burdaкı fəaliyyətindən ətraflı danışmaq olmur. Amma

tapılan arxiv sənədlərindən və həmin illərdə rus tədqiqatçılarının əsərlərindən məlum olur ki, Akim Şahingirey Naxçıvanda həmdə bağçılıqla, ipəkçiliklə, irriqasiya işləriylə və faydalı qazıntıların da axtarışları ilə ciddi məşğul olumuşdur. Çox zəngin bir şəxs olan Akim Şahingirey Naçıvanın olduqca bərəkətli torpağı olan Şərur mahalında xeyli torpaq sahəsinə sahiblik etmişdir. Bu məqsədlə o, məşhur "Şəngiley arxı" nın (kanalının) tikintisinə girişmişdir və buna nail olmuşdur. Çox təəssüf Azərbaycan mətbuatında bu məsələ o qədər də geniş işıqlandırılmadığından, indinin özündə də bu kanalla bağlı məlumatlar çox azdır. Rus tədqiqatçısı Pisaryevin həmin illərdə yazdığı "Oroşeniya (Suvarma)" kitabında Akim Şahin-Gireyin ömrünün çox illərinin həsr etdiyi "Şəngiley arxı"na xeyli səhifə həsr edilib. Cəmi 347 səhifə olan bu kitabın 1-68 səhifəsində yuxarıda dediyimiz məsələdən söz açılır. Buradakı məlumatlardan aydın olur ki, Akim Pavloviç Naxçıvanda yaşayıb işlədiyi illərdə 3 arx (kanal) çəkdirib. Onun məqsədi Şərurun Qır adlanan çöllərinə Arpaçaydan suvarma üçün kanal vasitəsilə su gətirmək olub. Amma bu məqsədlə o, əvvəlcə Arpaçayda suyun miqdarını artırmaq istəyib. Çünki yay aylarında Arpaçayda su azaldığından hardasaa onun mənbəyində əlavə çayların suyunu ona axıtmaq lazım gəlirdi. Bu çox çətin məsələ olsada Akim Şahingirey çar hökümətinə müraciət edir və izacə alır. Sənədlərdən məlum olur ki, onun mühəndislik etdiyi birinci kanal Dərələyəzdə Bazarçayından Arpaçayına çəkilib. O vaxtkı inzibati-ərazi bölgüsünə görə Bazarçay Yelizavetpol (Gəncə) quberniyasında olan dağlardan mənbəyini başlayır. Aкim Şahin Girey "Dəvəölən"dən "Şəngiley кanalı"nın tiкintisinə başlayıb və 1866-cı ildə başa çatdırıb (9, s.1-68)

O, hətta vəzifədən gedəndən sonra da Naxçıvanla əlaqə saxlamışdır. Onun burada icarə torpaqları var idi. Araşdırıcıların əsas mübahisələri Aкim Şahin Gireyin 1883-cü ildə, yaxud 1913-cü ildə vəfat etməsi ilə bağlıdır. Belə bir mübahisəyə səbəb 1918-ci ilədəк Şərurda onun maliкanəsinin "Şan Girey" imzası ilə idarə olunmasıdır. Rus alimi və şərqşünası K.M.Smirnov "Naxçıvan diyarının tarixinə və etnoqrafiyasına dair materiallar" кitabında yazır: "Keçmiş qəza rəisi Şan Girey torpaq aldı, кanal çəкdirdi və onun oğlu Naxçıvan diyarının mülкədarlarından biri oldu" (8, s.53). Onun əsərlərində göstərilir кi, 1913-cü ilə qədər yaşayan Aкim Şan Girey I Aкim Şan Gireyin oğludur. Həyat yoldaşı isə kazaк qızı Dedova olub. (II Aкim Şan Girey haqqında tarixçi alim Əli Əliyev özünün "Əlincə yaddaşı" кitabında ətraflı məlumat verir. Və onun 1913-cü ildə Irəvanda ermənilər tərəfindən öldürüldüyü göstərilir (2, s.101).

Ata Aкim Şahin Girey 1883-cü ildə vəfat etdiyindən Şəngiley кanalının çəкilişini onun oğlu, su mühəndisi Aкim Şahin Girey davam etdirib. Amma əsas layihələr ata Aкim Şahin Girey tərəfindən hazırlanıb və işlərə başlanılıb. Ata Aкim Pavloviç Şan Girey və oğul Aкim Aкimoviç Şan Girey Şərur mahalındaкı torpaqlarını aqrotexniкi qaydada suvarmaq, becərməк üçün bütün mütərəqqi vasitələrdən istifadə etmişlər. Bazar çayının Arpaçaya axıdılması məqsədi də bu baxımdan ortaya çıxıb. Aкim Pavloviç Şan Gireyin həyat yoldaşı isə Emiliya Aleкsandrovna Klingenberq (1815-1891) olub. Onların bir oğlu və bir qızı olub. Aкim və Yevgeniya adında. "Kazmına" isə Yevgeniyanın ər familiyasıdır. O, 1943-cü ildə vəfat edib (8, s.614).

Məxəzlərdə belə bir faкta da rast gəliriк кi, o vaxtlar Naxçıvanda zəngin var-dövlət qazanan mənşəcə assur olan Cahan Poladov, (Şərur mahalında) Irandan xanlıqlara кöçürülən ermənilərdən olan Saaк Yeqizarov və başqaları Şahin Gireyləri dəfələrlə məhкəmələrə cəlb etmişlər. Oğul Aкim Şahin Gireyə məxsus bu sənədlər Naxçıvan Dövlət Arxivində saxlanılır. (Həmin sənədlər erməni fitnəкarlarının da iç üzünü açır) (3).

Oğul Aкim Şahin Girey Şərur mahalında bağçılıqla da məşğul olmuşdur. O, 20 avqust 1901-ci ildə Peterburqda çap etdirdiyi "Şərur-Dərələyəz mahalında bağçılıq, üzümçülüк, bostançılıq və кənd təsərrüfatının digər sahələri haqqında" geniş bir məqaləsində bu torpaqda bitən meyvələr–əriк və şaftalı ağaclarının növlərindən söhbət açıb. Şərurda süfrə əriyi növrəst, ağcanabadın əvəzsizliyindən danışıb. "Abutalıb", "Haxverdi" növlərinin isə çox yararlı olduğunu yazıb. Özünün bağında əкdiyi "Qazanlıq çay və remontan qızıl gülləri"nin maydan-oкtyabra qədər çiçəк açdığını da fərəhlə bildirib və Şərurda bağçılığın inкişaf etdirilməsini zəruri sayıb. Məqalə genişliyi ilə mərhum alim Səfərəli Babayevin "Naxçıvan Muxtar Respubliкasının coğrafiyası" кitabında verilib (1, s.215).

Qanlı gölün tiкilməsi və bərpası məsələsinə, bu haqda araşdırıcı alimlər geniş yazıblar.Həmin göl 1747-ci ildən sonra Heydərqulu xan tərəfindən inşa edilib. Məqsəd Naxçıvanda suvarma sistemini qaydaya salmaq olub. Çünкi yay aylarında çayların suyu azalır və aran zonalarında suya böyüк tələbat yaranırdı.

Kükü кəndi Kəngərlilərin yaylaq кəndlərindən biri idi. Və II Kalbalı xan Naxçıvansкinin bu gölü çox sevməyinin səbəbi vardı. Gölün əvvəlкi adı Xanı yox, "Kanqlı göl" (Kəngərli gölü) olub. Fəzlullah Rəşidəddinin "Oğuznamə" əsərində qanlı (кanqlı) tayfalarının adlarına rast gəliriк. Və "Dədə Qorqud" dastanlarında adı çəкilən Qanturalı elə "qanlı" tayfasındandır. "Qanlı göl" toponimi Kəngərli adı ilə də sıx bağlıdır. Ona görə də II Kalbalı xan dostu Aкim Şahin Gireyə bu gölün əsaslı təmirini tapşırmışdı. I Aкim Şan Girey "Qanlı göl"ün bərpasını 1865-ci ildə başa çatdırıb (5, s.95).

Əsrlər ötüb кeçsə də Krım xanlarının varislərindən olan Şahin Gireylərin xeyirxah işləri, o cümlədən "Şərurda-Şəngiley кanalı" XXI yüzilliкdə də xalqın dilində dolaşmaqdadır. Bu tarixi tiкinti Krım və Naxçıvan xanlarının XIX yüzilliкdə yaratdıqları dostluq кörpüsüdür

## ƏDƏBİYYAT

1. Babayev S.Naxçıvan Muxtar Respublikasının coğrafiyası .Bakı,226s.
2. Əliyev Ə.Əlincə yaddaşı. Naxçıvan, Bakı, 2004, 316s.

3. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi(NMRDA),f.23,siy. 1,iş №1188
4. NMRDA,F.1,siy.1,iş22/1; F.27, siy.1,iş№195.
5.Səfərli F. Qanlıgöl su anbarının kitabəsi və orada adları xatırlanan şəxsiyyətlər//Axtarışlar,2019,№1, 228-235
6. Босфорт К.Э. Мусульманские династии. Москва,1971
7.Лермонтов М.Ю.Собрание сочинений в четырёх тома,том IV.Проза.Письма.Ленинград,1981г.,591с.
8. М .Ю.Лермонтов в воспоминаниях современников. Москва,1989,672с.
9. Псарёв М.Р.Очерк орошения в Закавказском крае. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края,т.5.Тифлис,1888, 347.
10.Смирнов К.Н.Материалы об истории и этнографии Нахичеванская края.Баку,1999г156с.

## ABSTRACT

**Musa Guliyev**

**THE HEIRS OF THE CRIMEAN KHANS THE SHAHINGIREYS (THE SHANGILEYS) IN NAKHCHIVAN HISTORY**

The article deals with the history of the Crimean khans and their heirs, especially Akim Pavlovich Shahingirey. Akim Shahingirey, a military officer, discharged from the army in 1844, came to the North Caucasus. He was appointed the chief of the province of Nakhchivan in 1845. He was also deeply involved in irrigation when he was a provincial officer in Nakhchivan. In the Sharur district, near the Arpachay region, he rents the area which is called “Gir” for 24 years and begins construction of "Shangiley irrigation ditch" which is very important for its time. Since this ditch was huge, it is designated in the documents as a channel.

"Kanawa Shahingirey (Shengiley)" started two miles below Deveolen village. The total length of the ditch, built thanks to his literacy and skill, was 35 miles and passed through 10 tunnels. The length of all the tunnels taken together was 600 fathoms. Akim Shahgirey built another ditch from Bazarchay to Arpacay, in the village of Gushchubilek in Daralayaz. Flowing from Bazarchay River from a height of 8,000 feet, the water ran up to 120 miles. About 120 thousand rubles were spent. About 120 thousand rubles were spent on all construction work. In 1863-1864 Akim Shahingirey also built a lake between Nakhchivan and the village of Sikhmahmud. In 1865 under the patronage of Nakhchivan Major-General Kalbali khan Nakhchivanski - Kangarli, he constructed a 45 km long dam along the coast of the "Blood Lake" near Kuku village in the territory of Shahbuz district. After the construction of the dam, a stone inscription was made on the southern shore of the lake. There was written in the Arabic-Persian and Russian languages who that lake’s dam was constructed by. The article says that the village which was built by the father Shahin Girey, was given the name of Shahingirey by the Russian government and it was shown on the state maps of 1898. In the paper it was also mentioned how the son Akim Shahin Girey continued gardening, mining industry and his father's irrigation work.

## РЕЗЮМЕ

**Муса Гулиев**

**НАСЛЕДНИКИ КРЫМСКИХ ХАНОВ ШАХИНГИРЕИ (ШЕНГИЛЕИ) В ИСТОРИИ НАХЧЫВАНА**

В статье говорится об истории крымских ханов и их наследниках, особенно об Акиме Павловиче Шахингирее. Будучи военным, Аким Шахингирей в 1844 году после отставки из армии приехал на Северный Кавказ. В 1845 году он назначается уездным начальником Нахчыванского уезда. В период работы уездного начальника в Нахчыване он также глубоко занимался ирригационными работами. В Шарурском махале, возле реки Арпачай, арендует на 24 года землю под названием Гир и начинает строительство очень важного для его эпохи «канавы Шенгилей». Поскольку данная канава была огромна, в документах она обзначена и как канал. «Канава Шахингирей (Шенгилей)» начиналась в двух верстах ниже от села Девеолен. Общая длина канавы, построенной благодаря его грамотности и умению, составляла 35 верст и проходила через 10 тоннелей. Длина всех вместе взятых туннелей составляла 600 саженей. Аким Шахингирей, построив другой канал, сбросил воду реки Базарчай в реку Арпачай в селе Гушчубилек в Дерелеазе. Вытекающая из реки Базарчай с высоты 8000 футов, вода проходила до 120 верст. На все строительные работы было потрачено около 120 тысяч рублей. В 1863-1864 годах Аким Шахингирей построил озеро между Нахчываном и селом Шыхмахмуд. В 1865 году по иждивению нахчыванского генерала-майора Калбали-хана Нахчыванского-Кенгерлинского он построил 45-километровую плотину на берегу «Ганлы гёл» (Кровавого озера) вблизи села Кюкю Шахбузского района. После строительства плотины на южном берегу озера была поставлена каменная надпись. В ней на арабско-персидском и русском языках была сделана запись о том, кем построена плотина озера. Текст на русском языке таков: «Иждивением Келбалы хана соорудил уездной начальник Шан Гирей, 1865». В статье также даются информации, что село, построенное отцом Шахином Гиреем названо правительством России его именем, и что оно занесено в государственные карты 1898 года. Автор также ведет речь о том, что сын Аким Шахин Гирей продолжал садоводство, горнодобывающую промышленность и работы отца по ирригационным делам.

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*yaarrahimov@yahoo.com.tr*

**UOT: 94(479.242)**

# KOLLEKTİVLƏŞMƏ İLLƏRİNDƏ NAXÇIVANDA REPRESSİYALAR

**Açar sözlər:** *repressiyalar, qırğınlar, ermənilər, Naxçıvan, Şahtaxtı, Kəngərlilər*
**Key words:** *repression, mass murders, armenians, Nakhchivan, shakhtakhtinski, kangarli*
**Ключевые слова:** *репрессия, массовые убийства, армяне, Нахчыван, шахтахтынские, кенгерлинцы*

1920-ci iin əvvəllərində Naxçıvanda da bolşevik hakimiyyətinə, sovetləşməyə mane olanlar, milli müstəqilliyimizi müdafiə edən minlərlə həmvətənimiz məhv edilmiş, Uzaq Sibir və Qazaxıstana sürgün olunmuşdur. Araşdırmalardan məlum olur ki, 30-cu illərin kütləvi repressiyalarının əsası 20-ci illərdə qoyulmuşdur. Repressiya sovet dövlət aparatı tərəfindən törədilmiş kütləvi hadisədir (20). Bundan başqa, əgər 20-ci illərdə milli düşüncəyə malik olanlar daha çox repressiyaya məruz qalırdısa, 30-cu illərdə bunlara proletar hökumətini quranlar da əlavə edilirdi.

1923-cü ildə Naxçıvanın muxtariyyət statusu məhdudlaşdırıldı və o muxtar diyara çevrildi. Müəyyən qüvvələr Naxçıvanın hüquqlarını məhdudlaşdırmaq istəyirdilər. 1925-ci ilin martında guya Naxçıvanın hakimiyyət strukturlarındakı "xan-bəy" elementləri"nin fəaliyyətini araşdırmaq üçün Naxçıvana xüsusi komissiya göndərilmiş, bir gecədə 50 rəhbər işçi həbs olunmuş, onlardan 48-i repressiyaya məruz qalmışdı. Bütün bunlar o adamlar idilər ki, Naxçıvanın ermənilərdən müdafiəsində xüsusi fəallıq göstərmişdilər (12, s.413).

Naxçıvanda 30-cu illərin əvvəllərində həbslərdən daha çox işdən çıxarmalar var idisə, kütləvi repressiyalara 36-cı ilin sonunda start verildi. Qeyd edək ki, 37-ci il repressiyalarının önündə kommunistlər gedirdi. Yəni ilk olaraq repressiyaya məruz qalanların çoxu kommunistlər idi. Naxçıvandakı həbslər Naxçıvan partiya komitəsində çalışan adamlardan da yan keçmədi. Başqa sözlə, Naxçıvanda "təmizləmədən" keçən kommunistərin əksəriyyəti partiyadan xaric edildilər. Bu illərdə muxtar respublikada yüksək vəzifə sahibləri (Vilayət Partiya Komitəsinin katibi M.Mehdiyev), rayon partiya komitəsinin katibləri (məs; Əbrəqunus rayon partiya komitəsinin katibi M.Süleymanov, Ordubad rayon PK katibi Məmməd Cəfərov-bəzi mənbələrdə Cəbrayılov), kolxoz sədrləri də daxil olmaqla 300 nəfərdən çox adam repressiyaya məruz qalmışdır. Təkcə bu faktı qeyd edək ki, cəmi 5 il ərzində (1932-1937-ci illər) Naxçıvan Vilayət Partiya Komitəsində 3 katib dəyişmiş, onlarla çalışanların bir neçəsi (A.Hacıyev, H.Mahnudov) həbs edilmiş və partiyadan xaric edilmişdir. Bu deyilənlər 20-30-cu illərdə Naxçıvanda da hakimiyyət ixtilafları və vəzifə çəkişmələrinin mövcudluğunu təsdiqləyir.

"Naxçıvanda həbs olunanların çoxu trotskçilikdə, zinovyevçilikdə ittiham olunurdu. Müttəhimlər arasında elələri var idi ki, onlar Trotski, Zinovyev sözünü belə düzgün tələffüz edə bilmir və ya bu adları təzə eşidirdi. Belə çıxırdı ki, Trotski və Zinovyev bütün SSRİ-də terror hazırlamış və ölkədə çevriliş aksiyası həyata keçirməyi planlaşdırmışdılar" (12, s.414).

30-cu illərdə kiçik cəza (alverçilik, işə gəlməmək, kolxozu tərk etmək və s.) halları ilə məsuliyyətə cəlb edilənlərlə yanaşı, müəyyən müddətə azadlıqdan və səsvermə hüququndan məhrum edilən insanlar da olmuşdur. Naxçıvanda bu cür məhkumlar arasında müxtəlif sosial təbəqələrin nümayəndələri-ziyalılar, kəndlilər, sadə əmək adamları da var idi. Siyahı tərtib edilərək sənədləri ilə birlikdə Bakıya göndərilən bu kateqoriyalara məhkum olunan naxçıvanlılar Nargin adalarında və b. yerlərdə güllələnirdi. Siyahıları isə əsasən erməni və digər millətlərin nümayəndələrinin təşkil etdiyi Naxçıvan XDİK-in əməkdaşları tərtib edirdilər.

Repressiyaların həyata keçirilməsində Naxçıvanda yaşayan ermənilər də mühüm rol oynayırdılar. Öz tarixi düşmənçiliklərini Naxçıvanda da davam etdirən Orbelyan, Danelyan, Akopov, Qranski, Baziyan, Mosesov, Gevorkov və b. yalan ifadə və əsassız iddialarla həmyerlilərimizə cinayət işi açdırır və hökm çıxarırdılar. Başqa sözlə, Naxçıvan da daxil olmaqla əyalətlərdə hər il təqib və təzyiqlərə məruz qalanların sayı bir neçə dəfə artırdı.

"Xalq düşməni", "millətçi", "Vətən xaini" damğası ilə 1937-1938-ci illərdə həbs olunmuş, azadlıqdan məhrum edilmiş həmyerlilərimizdən-Qambay Vəzirovu (dövlət çevrilişinə cəhddə günahlandırılırdı), şair-

dramaturq Hüseyn Cavidi (8 il müddətinə azadlıqdan məhrum edilmişdi), tanınmış müəllim Rzaqulu Nəcəfovu, onun əmi oğlusu Nəcəfqulu Nəcəfovu (hər ikisi güllələnmişdi), səhnə ustası Kazım Kazımzadəni, yazıçı Ənvər Qasımovu (hər ikisi 1938-ci ildə həbs edilmişdir), Əli Səbri Qasımovu (1937-ci ildə həbs edilmişdir) və digərlərinin adını qeyd etmək olar.

Naxçıvanda çox ağrılı keçən 20-30-cu illərin repressiyaları müxtəlif peşə sahiblərindən, hətta hərbçi və generallardan da yan keçməmişdir. Ailə üzvləri ilə birlikdə mərhumiyyətlərə düçar olmuş 77-ci Azərbaycan diviziyasının komandiri, general Qambay Vəzirovun taleyi daha acınacaqlı olmuşdur. Ona qarşı sürülən ittihamlar içərisində partiya və dövlət rəhbərlərinə qarşı sui-qəsd hazırlamaq, dövlət çevrilişi etmək (Ruhulla Axundovla birgə), müxtəlif təşkilatlarla əlaqə saxlamaq və s. var idi. Tanınmış generalı əksinqilabi millətçi və sui-qəsdçi təşkilatın üzvü olmaqda ittiham edən XDİK-in dövlət təhlükəsizlik kapitanı Avanesyan XDİK-in sədri Sumbatovla razılaşaraq Qambay Vəzirovu (27 iyul 1937-ci il) həbs etdi. Avanesyanın tərtib etdiyi saxta ittihamnaməyə əsasən müqəssir bilinən (11, s.105-106) Qambay Vəzirov 1937-ci il oktyabrın 13-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı məhkəmə iclasının hökmü ilə güllələndi (13). Azərbaycan diviziyasının 40 nəfər yüksək rütbəli zabiti və respublika hərbi komissarlığının 20 nəfər zabiti də bu işlə əlaqədar həbs edilib güllələndilər (1, s.40).

Məhkəmədən bir həftə əvvəl (5 oktyabr 1937-ci il) həbs edilmiş general Qambay Vəzirovun həyat yoldaşı İzzət Vəzirova da çox acı bir tale yaşamağa məcbur olmuşdur. Belə ki, dekabrın 9-da Vəzirova İzzət İsmayıl qızı 8 il müddətinə azadlıqdan məhrum edilmiş və bu azmış kimi onun doqquzuncu sinifdə oxuyan oğlu Yavuz Vəzirov (11 noyabr 1937-ci il) həbs edilmişdir. Yaşının az olmasına belə baxmayaraq o, 3 il azadlıqdan məhrum edilmişdi.

O vaxtlar Azərbaycan Xalq Torpaq komissarı vəzifəsində çalışmış Heydər Vəzirov da Vəzirovlar nəslinin repressiyaya məruz qalan nümayəndələrindən biridir. Hökumət tərəfindən "təhlükəli şəxs" kimi hesab edilən H.Vəzirovu 13 oktyabr 1937-ci ildə güllələdilər. Heydər Vəzirovdan sonra həyat yoldaşı Leyla xanım, oğlu Heydər, Sədrəddin Vəzirov da "xalq düşməni"nin qohumları kimi həbs edildilər (10, s.95). H.Cavid, yazıçılar və vəzirovlar MTN-in istintaq materialları əsasında tarixçi-alim Nadir Hüseynbəyli tərəfindən araşdırılaraq tədqiq edilib (12, s.412-422).

Naxçıvanda belə mərhumiyyətlərə düçar olan və acı talelər yaşayan ailələr həddindən artıq çox olmuşdur. Repressiyaya məruz qalan belə ailələrin arasında general C.Naxçıvanskinin də ailəsi var idi. Hökumət tərəfindən 3 dəfə cinayət məsuliyyətinə cəlb olunan general C.Naxçıvanskinin ailə üzvləri İranda və Türkiyədə mühacir həyatı yaşamağa məcbur olmuşlar. 1931-ci ildə (30 sentyabr) ona güllənməsi haqqında hökm oxunsa da, 1932-ci il fevralın 2-də bu hökm ləğv edilmiş və general azadlığa buraxılmışdı.

Bundan sonra o, yenə çox sevdiyi hərbi işlə məşğul olmağa başlamışdır. Lakin, C.Naxçıvanski 20 may 1938-ci ildə üçüncü dəfə həbs edilmişdir. Əsassız ittihamlarla - xüsusən "antisovet milli mərkəz"inin fəal iştirakçısı olmaqda, çevriliş etmək məqsədilə usyan hazırlamaqda, casusluqla məşğul olmaqda günahlandırılan general C.Naxçıvanski haqqında SSRİ Ali Məhkəməsinin Kollegiyasının çıxardığı güllələnmə hökmu (26 avqust 1938-ci il) həmin gün də icra olunmuşdur. Bəzi mənbələrdə C.Naxçıvanskinin "xan nəslindən olması" da güllələnmənin səbəbi kimi göstərilir (1,s.33).

Azərbaycanın müxtəlif bölgələrində olduğu kimi Naxçıvanda da totalitar rejimin qurbanlarına çevrilənlər arasında xalqın ictimai-siyasi fikir tarixində mühüm rol oynayan və hər yerdə tanınan nəsillər də az deylidi. Belə nəsillər arasında ən çox repressiyaya məruz qalanlar şaxtaxtinskilər, kəngərlilər və başqaları idi. Bütöv bir nəslin repressiyalara məruz qalması hər şeydən əvvəl, yalnız həmin nəslin deyil, həm də Azərbaycan xalqının ziyalılarına vurulan zərbə idi. Həmin nəslin ən böyük günahı bəy, mülkədar, zadəgan təbəqəsindən olması idi. Bəyliyin, mülkədarlığın, zadəganlığın məhvi 20-30-cu illərdə günün ən aktual məsələsi idi (12, s.418). Belə bəy nəslinin nümayəndələrindən olan Nəcəf Əbülfət oğlu Şahtaxtinski 20-30-cu illərdə bir neçə dəfə (ilk dəfə 1924-cü ildə, sonra 1931-ci ildə, 15 noyabr 1937-ci ildə) həbs olundu. Azərbaycan XDİK-in üçlüyünün qərarı ilə əmlakı müsadirə edilən N. Şahtaxtinski həbsindən bir ay sonra (1937, dekabrın 19-20-nə keçən gecə) güllələnmişdi.

Şahtaxtinskilər nəslinin digər nümayəndəsi Məmmədhüseyn Şahtaxtinski də mənşəyinə görə həbs edildikdən sonra 10 il müddətinə azadlıqdan məhrum edilmiş və cəzasını Gəncə şəhərindəki (3 saylı) həbsxanada çəkmişdir. Erməni xisləti və xainliyi, azərbaycanlılara şər atmaqdan mənəvi zövq almaq hissi burada da özünü göstərmişdir. Belə ki, 3 saylı həbsxana rəisinin müavini Bədəlyanın canfəşanlığı və təqdimatından sonra M.Şahtaxtinskiyə əlavə olaraq daha 8 il iş verilmişdi.

Həmin kənddə doğulan digər bir nümayəndə - Əhmədbəy Şahtaxtinski 1937-ci ildə (Azərbaycan XDİK-in sədri Sumbatovun arayışına əsasən) həbs edilmişdi. 5 il müddətinə səsi alınmaqla Ə. Şahtaxtinski 10 il müddətinə həbs edilmişdi.

Şahtaxtinskilərin tanınmış qadın nümayəndələri - Adilə və Ziba Şahtaxtinskayalar də həbs olunanlar sırasında idi. 4 sentyabr 1937-ci ildə həbs olunmuş tanınmış professor, məşhur ginekoloq A.Şahtaxtinskaya

həyat yoldaşına (Qulam Sultanova) görə ittiham edilirdi. “Vətən xaininin” arvadı damğası ilə repressiyaya məruz qalan Ziba Şahtaxtinskaya iki il müddətinə (9 aprel 1938-ci ildə) azadlıqdan məhrum edilmişdi.

1920-1930-cu illərin repressiyaları tanınmış və məşhur digər bir nəslin - kəngərlilər nəslinin nümayəndələrindən də yan keçməmişdir. Həmin illərdə bu nəslin nümayəndələri xüsusən kollektivləşməyə qarşı çıxmaqda, dini dəyərlərimizin təqibində, hökumət əleyhinə təbliğat aparmaqda, İrana və Türkiyəyə casusluqda və s. ittiham edilirdilər. Kəngərlilərin repressiyaya, təqib və işgəncələrə məruz qalan, güllələn nümayəndələrindən Əlimərdan bəy Kəngərlinskinin, Yaqub Kəhgərlinskinin, Əkbər Kəngərlinski, Fərəc Kəngərlinski, Hüseyn Kəngərli, Mirağa Kəngərlinski, Soltan Kəngərlinki, Bəhmən Kəngərlinski, Səid Kəngərlinskinin adlarını çəkə bilərik. Onlar haqqında qısa məlumat vermək məqsədəuyğundur.

Əlimərdan Kəngərlinski 1937-ci ildə Azərbaycan XDİK üçlüyünün Naxçıvan diyarı üzrə tərtib etdiyi siyahıya görə həbs edilsə də, Ali Məhkəmənin Məhkəmə kollegiyası onun barəsində olan qətnaməni (1937, 26 avqust) ləğv etmişdi. Üçlüyün 26 avqust 1936-cı il tarixli qərarı ilə Yaqub Paşa Kəngərlinski hökmdən bir neçə gün sonra icra olunan güllələnməyə məhkum edilmişdi. 14 avqust 1938-ci ildə şahid ifadələri əsasında və İrana casusluqda ittiham edilən Əkbər Kəngərlinski 5 il müddətinə azadlıqdan məhrum edilmişdi. Özünü müqəssir hesab etməyən Ə.Kəngərlinski barədə şahidlik edənlərdən biri belə ifadə verib: “Mənim Kəngərlinski ilə tanışlığım müddətində, təqribən 1931-1932-ci illərdə Culfa stansiyasında o, tez-tez sovet hökumətindən narazılıq edirdi. Dəmiryolçularla söhbətində deyirdi ki, tezliklə müharibə olacaq, sovet hökuməti məhv olacaq. Bu söhbətləri mən dəmiryolçulardan eşitmişəm, amma kimdən eşitdiyim yadımda deyil” (14, v.19). Qeyd edək ki, müttəhim Kəngərlinski haqqında şahidlik edənlərin də, onu dindirən müstəntiqlərin də böyük əksəriyyəti ermənilər olmuşdur.

Kollektivləşmə illərində Naxçıvandan öz ailəsi ilə bərabər Sibirə və Qazaxıstana sürgün edilmiş kəngərlilər nəslinin nümayəndələri də az olmamışdır. 1937-ci il avqustun 10-da Naxçıvan Muxtar Respublikasında 9950 nəfər həbs edilir. 500 ailə sürgünə məhkum olunur (əksəriyyəti sadə adamlardır), Hüseyn Qədir oğlu Kəngərli, Aydın Əmircan oğlu Kəngərli, Zəhra Məmməd qızı Səfibəyova (Naxçıvan), Əhmədbəy Hacıməmməd oğlu Qazıbəyov, İsmayıl İsmayıl oğlu Rəhimov, Nəsrulla Cəlilov (Şərur), Həbib Kəlba Məmməd oğlu Muxtarov, Məşədi Rzaqulu Sadıx oğlu Tağıyev (Ordubad) və onlarla digər ailələr sürgün edildilər (4, s.41).

Yuxarıda adları çəkilənlərlə yanaşı, Naxçıvan şəhər sakini Fərəc Kəngərlinski üçlüyün qərarı ilə (21 oktyabr 1938-ci il) həbs edilmiş, “əhali arasında əksinqilabi və təxribatçı şayiələr” yaydığı üçün Kəngərlinski-Mirağa Məmmədov (Əbrəqunus rayonunun Saltax kənd sakini) 72-ci maddə ilə məsuliyyətə cəlb edilmiş, Soltan Kəngərlinski (Naxçıvan şəhəri) və Qəmbər Bənəniyarski dövlət çevrilişinə cəhdə görə (baxmayaraq ki, axtarış zamanı istintaq üçün əhəmiyyətli heç nə tapılmamışdır) hər biri 3 il müddətinə həbs edilmişlər. Bunlardan başqa, Kəngərlinski Bəhmən, Səid Kəngərlinski (qeyd edək ki, onun heç bir təhsili almayıb) və kəngərli nəslinin onlarla digər nümayəndələri 30-cu illərin repressiyalarından, təqib və təzyiqlərdən yaxa qurtara bilməmişlər.

NMR MRDA-da saxlanılan və 5 iyun 1933-cü ildə tərtib olunmuş sənəddə yazılır ki, 1931-1932-ci ildə təkcə Şərur rayonunun Xanlıqlar kəndindən 8, Dərvişlər kəndindən 2, Şahtaxtı kəndindən 19, Püsyan sovetliyindən 12, Aralıq sovetliyindən 5,Yengicə sovetliyindən 31, Dəmirçi sovetliyindən 19, Daşarxdan 1, Sədərək sovetliyindən 7 nəfər kolxozçu qolçomaq, kolxoz quruluşuna qarşı çıxaraq antisovet təbliğat aparan şəxslər kimi repressiyalara məruz qalmışdır (15, v.1-3).

1930-1942-ci illərdə Naxçıvanda repressiya və soyqırım ilə bağlı S.Sadiqovun (Zeynaloğlunun) “Tarixin qan yaddaşı” (I və II kitab) adlı kitabında A.Orbelyanın cinayətləri haqda yazılır ki, “...Uzun axtarışlar axır ki, uğurla nəticələndi. Nəhayət ki, “Keçili işi” adlanan sənədləri toplamağa nail oldum. İki cildlik işin “Keçili üsyan hərəkatı”nı hədsiz diqqətlə oxuduqca əmin oldum ki, Orbelyan həddindən artıq səylə çalışmış ki, bu kəndin üsyanına qorxunc və dəhşətli “bandit” kəlməsi yapışdırılsın.

“Keçili işi” məni daha faciəli bir işlə, həmin Orbeliyan tərəfindən qandırılmış faciəli bir işlə qarşılaşdırdı. Məlum oldu ki, Orbeliyan 1930-cu il yanvar ayının əvvəlində “Milax işi”ni uydurmuş, nəticədə onlarla günahsız milaxlı və ətraf kəndlərin sakinlərini güllələdəndən sonra bundan vəcdə gələrək “Keçili işi”ni də saxtalaşdırmağa başlamışdır. Nəticədə bu kənddə də onlarla günahsız adam qanunsuz edam edilmişdir” (18, s.11). Naxçıvanda, Xızıda xüsusi fəallıq göstərən Orbelyan 40-cı illərdə Dağlıq Qarabağ Ali Məhkəmə sədri vəzifəsinə irəli çəkildi (4, s.41).

Şahid ifadələrindən, xatirələrdən, eləcə də çox sənədlərdən məlum olduğu kimi 30-cu illərdə təkcə qolçomaqlar, ortabab kəndlilər deyil, həmçinin muzdur kəndlilər də günahsız sürgün edilmişdilər. 30-cu illərin ən ağır bir dövründə; 1937-1941-ci illərdə rus, erməni və üzdəniraq “qeyrətli” azərbaycanlılar tərəfindən muxtar respublikamızın qolçomaqları, yoxsulları deyil, o cümlədən ziyalılarına, hərbçilərinə və hüquq orqanlarında işləyənlərə qarşı edilən repressiyalar var idi. 1937-1940-cı illərin repressiya qurbanları içərisində Cəmşid Naxçıvanski, Heydər Novruzov, Qurban Həsənov, Heydər Vəzirov, Qafar Babayev, Abbasqulu

Əliyarov, Həsən Səfərov, Hüseyn Cavid, Əli Səbri Qasımov, Əbdüləzim Rüstəmov və başqalarının adlarını qeyd etmək olar (3, s.127).

1920-ci illərin sonlarında təsərrüfat sahəsində tətbiq edilən beşillik plan 30-cu illərdə repressiyalara da şamil edildi. Hər iki sahədə plan yerinə yetirilmədikdə repressiyalar tətbiq edilirdi. Naxçıvanda yüzlərcə adam dövlət planını yerinə yetirmədiyinə görə sürgün edilmişdi (16, v. 7.)

1930-1940-cı illərdə Naxçıvan MR hüquq mühafizə orqanlarında işləmiş ermənilər, ruslar və digər millətlər tərəfindən Naxçıvan Muxtar Respublikasından 300-dən çoz azərbaycanlı öz yurdlarından sürgün edilmiş, 100-ə qədəri isə güllələnmişdir (3, s.128).

1930-cu ili kəndliyə qarşı terror dövrünün başlanğıcı adlandırmaq olar. Bu əsas məşq olmasa idi, çox güman ki, 1937-1938-ci illər də olmazdı, kəndlilərə qarşı 1930-cu ildəki terror olmasa idi, hökumət 1937-1938-ci il terroruna cəsarət etməzdi. 1930-cu il terroru ilə hökumət öz gücünü yoxladı və əmin oldu ki, kəndli var-yoxdan çıxıb, fəal müqavimət göstərmək iqtidarında deyil və onu ayırmaq olar, kimisə yuxarı qaldırmaq, kimisə dağıtmaq, parçalamaq olar (2, s.84).

1941-ci ilin aprel ayına kimi Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı nəzdində fəaliyyət göstərən dövlət təhlükəsizlik şöbəsi 13 aprel 1941-ci il tarixli Naxçıvan MSSR Ali Sovetinin fərmanı ilə ayrılaraq iki komissarlığa çevrildi: Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığı və Naxçıvan Xalq Dövlət Təhlükəsizlik Komissarlığı (17, v.56).

XX əsrin əvvəllərində də, sonunda da torpaqlarımızın az qala yarısını (Dağıstan, Borçalı, indiki Ermənistan) zor gücünə Ermənistana, Gürcüstana, Rusiya Federasiyasına birləşdirən Sovet imperiyasının 73 illik hakimiyyətində üst-üstə baş katiblərin köməkçiləri ermənilər olmuşlar. S.Şaumyan Leninin, A.Mikoyan Stalinin, S.Vazyan Xruşşovun, Şahnazaryan, Z.Balayan, Aqanbekyan, S.Kapitukyan M.Qorbaçovun sağ əli olmuşlar. Respublikamızda isə Qriqoryanlar, Markaryanlar, Sumbat-topridzelər, Naxçıvanda İsakyan, Orbelyan, Akopyan, Xaçaturyan, Azərbaycan Bolşevik Siyasi İdarəsinin rəis müavini, sonralar Dağlıq Qarabağ muxtar Vilayəti Ali Məhkəməsinin sədri işləmiş Orbelyan 30-cu illərin qanlı-qadalı dövrlərində NKVD, xalq komissarları, bolşevik siyasi idarələrinə soxularaq 200 mindən çox azəri türklərinin Sibirin qışda boranlı-şaxtalı, yayda susuz isti səhralarına sürgün edilməsində xüsusi rol oynamışlar (5, s.71).

2017-ci ilin axırlarında "Memorial" Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi Cəmiyyəti "SSRİ-də siyasi terror qurbanları" nın yeniləşmiş məlumat bazasını təqdim edib. Yeni versiyaya bir neçə ölkədən, xüsusən də Azərbaycandan Stalin repressiyası qurbanlarının adları daxil edilib. Yeni versiyada 3,1 milyon ad var. On il əvvəl dərc olunan siyahıda isə onların sayı 500 min nəfər az idi. Yeni bazanın əsasını əsrin son rübündə Rusiyanın bölgələrində nəşr olunan və Stalin repressiyası qurbanlarının adlarını özündə əks etdirən 412 cildlik Yaddaş kitabı təşkil edir. Əvvəl nəşr olunanlara daha 170 kitab əlavə edilib. Yenilənmiş məlumat bazasına ölkəmizdən, o cümlədən Naxçıvandan əvvəlki versiyalarda olmayan materiallar əlavə edilib.

Beləliklə, 1930-cu illərin əvvəllərindən başlayaraq kənd təsərrüfatının mərkəzləşdirilmiş kolxozlarda-kollektiv təsərrüfatlarda birləşdirilməsi, yəni təsərrüfatların məcburi və zoraki kollektivləşdirilməsi aparılırdı. Kolxozlar üçün dövlətə veriləcək böyük miqdarda kənd təsərrüfatı məhsulları planı qoyulurdu. Məhz bu planlar 1932-1933-cü illərdə baş vermiş kütləvi aclığa gətirib çıxarmışdı. 30-cu illərdə Naxçıvanda baş vermiş repressiyalar, hər şeydən əvvəl, rejimin, sistemin mahiyyətindən irəli gəlirdi. Rejimin mahiyyəti ondan ibarət idi ki, sosializm tam və qəti qələbə çalmalı idi. Tarixdən də məlumdur ki, sosializmin tam və qəti qələbəsi repressiyadan sonra müəyyənləşdi. Əslində bu repressiyalar sonralar da davam edəcəkdi. Amma İkinci Dünya müharibəsinin başlanması bunun qarşısını aldı.

**ƏDƏBİYYAT**

1. Bağırov İ. Kəngərli yurdunun generalları, Bakı: Yazıçı,1994, s.40.
2. Cəfərov C. Stalinizm və Azərbaycan kəndi (1920-ci illərin sonu-30-cu illər), Bakı: Elm, 2012, 144 s.
3. Cəfərov F. Naxçıvan polisi repressiya illərində (1930-1940-cı illər), Tarix və onun problemləri, Bakı-2007, №4, s.126-129.
4. Əliyev Ə. Əlincə yaddaşı, Naxçıvan 1914-1992, Bakı: Gənclik, 1997, 304 s.
5. Əliyev Qaşdar. Papağı başından düşməyən dağlar /Folklor və etnoqrafiya, 2016, №1, s.70-79.
6. Hüseynbəyli N. Naxçıvanda repressiyalar və onun nəticələri / Tarix və onun problemləri, Bakı 2003, №2, 99-101.
7. Hüseynbəyli N. İslah əmək düşərgələrində kollektivləşmə, Tədqiqlər, Bakı, 2004, №4, s.260-264.
8. Hüseynbəyli N, Behbudlu Q. Naxçıvanda milli-mənəvi dəyərlərin repressiyalara məruz qalması // NDU-nun "Elmi əsərləri", Naxçıvan, 2012, №2, s.175-182.
9. Hüseynbəyli N. 30-cu illərdə Naxçıvanda qolçomaqlığın ləğvi / Pedoqoji Universitetin "Xəbərlər"i, Bakı: 2004, №4, s.206-213.

10. İsmayıl Soysal. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları, I cilt (1920-1945), 2. Baskı. Ankara, 1989, s.-s.95
11. Qasımov C. Əksinqilab ilə mübarizə təşkilatı və siyasi repressiya, Bakı: Dövlət Universiteti nəşriyyatı, 1997, s.105-106
12. Naxçıvan tarixi, üç cilddə, II c. Naxçıvan: Əcəmi NPB, 2014, s.412-423.
13. Naxçıvan Muxtar Respublikası Mərkəzi Dövlət Arxivi (NMR MDA): f.40, siy.3, iş 53.
14. NMR MDA: f.314, siy.5, iş 14.
15. NMR MDA: f.63, siy.1, iş 4, v.1-3.
16. NMR MDA: f. 260, siy.1, iş 91, v.7
17. NMR MDA: f.613, siy.1, iş 1364, v.56
18. Sadiqov S.Tarixin qan yaddaşı (I və II kitab), Bakı: Gənclik nəşriyyatı, 2001, 366 s.
19. http: //www, moderator. az./news/239974.html
20. edebiyyatqazeti.az/news/muzakire/1248-repressiya-gizlin-ve gerçekler ile

## ABSTRACT

**Yashar Rahimov**

**THE REPRESSIONS IN NAKHCHIVAN IN COLLECTIVIZATION YEARS**

The article deals with repression in Nakhchivan during the collectivization period. Hundreds of people were victims of innocent repression in the 20-30s of the last century in Nakhchivan. During those repressions, Russian and Armenian interrogator shooted and deported the local residents.

While massacres in Nakhchivan were more than dismissal in the early 30s, mass repression was launched at the end of the 36th. Let us note that the Communists were on the verge of repression in the 37th year. The arrests in Nakhchivan did not go beyond the Nakhchivan party committee.

Armenians living in Nakhchivan played an important role in the repressions. Orbelian, Danelyan, Akopov, Ganski, Bazian, Mosesov, Gevorkov and others, who continued their historic hostilities in Nakhchivan. by making false statements and groundless allegations against our compatriots. Most of those generations who were subjected to repression were Shakhtakhtinski, Kangarlachiks, and others.

## РЕЗЮМЕ

**Яшар Рагимов**

**РЕПРЕССИ НАХЧЫВАН В ГОДЫ КОЛЛЕКТИВИЗАЦИИ**

Статья посвящена репрессиям в Нахчыване в период коллективизации. Сотни людей в Нахчыване стали жертвами невинных репрессий в 20-30-х годах прошлого века. Во время этих репрессий российские и армянские следователи приказали и депортировали местных жителей.

Хотя массовые убийства в Нахчыване в начале 30-х годов были более чем увольнением с работы, массовые репрессии начались в конце 36-го. Отметим, что коммунисты были на грани репрессий в 37-м году. Аресты в Нахчыване не выходили за пределы Нахчыванского партийного комитета.

Проживающие в Нахчыване армяне сыграли важную роль в репрессиях. Орбелян, Данелян, Акопов, Ганский, Базиан, Мосесов, Геворков и другие, которые продолжали свои исторические враждебние деятельности в Нахчыване делая ложные заявления и необоснованные обвинения против наших соотечественников. Большинство из тех, кто подвергался репрессиям среди таких поколений, были шахтахтынские, кенгерлинцы и другие.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev

**İBRAHİM KAZIMBƏYLİ**
*Azərbaycan Dillər Universiteti*
*ibrahimkazimbeyli@gmail.com*

**UOT: 94(4)**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ OSMANLI TÜRKİYƏSİ ƏRAZİSİNDƏ ERMƏNİ İĞTİŞAŞLARI

**Açar sözlər:** *üsyan, terror, iğtişaş, dövlət, siyasət*
**Key words:** *rebel, terror, confrontation, state, politics*
**Ключевые слова**: *восстание, террор, беспорядок, государство, политика*

1904-cü ildə Sasun üsyanı və 21 iyun 1905-ci ildə Ulduz məscidində cümə namazı qılıb çıxarkən II Əbdülhəmidə qarşı sui-qəsdə təşəbbüslərdən sonra erməni dərnəkləri bu zaman padşaha və hökumətə qarşı meydana gələn Gənc Türklər hərəkatına qoşularaq məqsədlərinə çatmaq istədilər. Sui-qəsd nəticəsində II Əbdülhəmidə heç bir şey olmadı, lakin 26 nəfər öldü, 58 nəfər yaralandı [1.səh. 536]. M.Ə.Rəsulzadə 1913-cü il iyunun 9-da yazdığı "Erməni məsələsindən bir az" adlı məqaləsində yazırdı ki, "Elani-məşrutiyyətdən ermənilər arasında böyük bir nüfuza malik olan daşnaksutyun firqəsi daima "İttihad və tərəqqi" firqəsi ilə mülif olmuş. Hətta bir zamanlar məzkur cəmiyyətlə ittihad belə etmiş idi. İntixab zamanlarında daim daşnaksutyun ittihadçılarla təşriki-məsai edərdi. İstanbulda "Äzadamard" namində ermənicə nəşr olunan bir qəzetə vardır. Bu qəzetə daşnaksutyun firqəsinin orqanıdır. Hər gün iki stununu da türkcə yazar. Türkcə qismində adətən bir gün əvvəl ermənicə nəşr etmiş olduğu baş məqalələrinin tərcüməsi dərc olunur. Bu qismi qismən təqib edər idim. O məqalələri oxurdum. "Azadamard" bütün türk firqələrini tənqid etdiyi halda daima "İttihad və tərəqqi"yi digərlərinə tərcih edərdi.

Beləliklə, 1902-ci il fevralın 4-də Parisdə toplanan I Gənc Türklər konqresinə İttihad və Tərəqqinin iki güclü lideri şahzadə Səbahəddin (1879-cu ildə İstanbulda doğulmuş, anası Osmanlı padşahı Əbdülməcidin qızı və II Əbdülhəmidin ögey bacısı Seniha sultan, atası isə dəniz kapitanı damat gürcü Xəlil Rıfat paşanın oğlu damat Mahmud Cəlaləddin paşa idi. Xanədanlıqla ana tərəfdən gələn bağına görə "sultanzadə" idi. Lakin şahzadə ünvanından istifadə etmişdir) və Əhməd Rza bəy tərəfdarları ilə yanaşı erməni nümayəndələri də qatıldı. Konqresdə qəbul edilən qərarlardan biri inqilabın uğur qazanması üçün xarici dövlətlərin müdaxiləsinin zəruriliyi idi. Təbii ki, bu qərardan ermənilər çox yüksək şəkildə razı qaldılar. Şahzadə Səbahəddin də onlara qatıldı. Lakin Əhməd Rza bəy (sonralar Məclis-i Məbusanın rəisi olmuş, siyasətçi) və Gənc Türklərin əksəriyyəti ölkəni parçalanmaya aparacaq belə bir qərara qarşı çıxdılar. Konqresin sonunda müdaxilə tərəfdarları şahzadə Səbahəddinin ətrafında, qarşı çıxanlar isə Əhməd Rza bəyin ətrafında toplandılar.

Şahzadə Səbahəddin bəyin siyasi proqramı ermənilər üçün əlverişli idi. Ona görə ki, ademi-merkeziyetçi (mərkəzləşdirilmiş) bir idarə formasını qəbul edən bu proqrama görə dövlətin müxtəlif bölgələri özlərinə məxsus məhəlli idarələrə bölünəcək, bölünmə idarəçilik, maliyyə və ədliyyə istiqamətlərində olacaqdı. Bu səbəblə də proqram ermənilərə əvvəlcə muxtariyyət, sonra isə müstəqillik yolunu açacaqdı. Bu baxımdan ermənilərin əksəriyyəti şahzadə Səbahəddinin proqramını dəstəklədilər. Gənc Türklər hərakatının ölkə daxilində və xaricində qurulan yeni cəmiyyətlərinin hesabına gücləndiyi bir vaxtda Daşnaksütyun partiyası bu proqram üzərində razılaşmaq və icra şəkillərini müəyyənləşdirmək məqsədilə bir konqres çağırılmasını təklif etdi. Bu təklif Əhməd Rza bəy və şahzadə Səbahəddin tərəfindən qəbul edildi. 27 dekabr 1907-ci ildə Parisdə II Gənc Türklər konqresi toplandı. Bu konqresdə ermənilər sözdə razılaşma yolunu tutaraq, Osmanlı dövlətinin mülki və siyasi müstəqilliklərini qəbul etdiklərini, əsgər verməməkdən və qızışdırıcılıqdan əl çəkdiklərini bildirdilər. Müdaxiləçilik fikrinə son qoyulan konqresin sonunda nümayəndələr konstitusiya və digər məsələlərin inqilab yolu ilə reallaşdırılması məsələsində razılığa gəldilər [4. səh. 339].

II Gənc Türklər Konqresindən sonra yayılan və güclənən müxalifət qarşısında II Əbdülhəmid 23 iyun 1908-ci ildə ikinci dəfə konstitusiyanı elan etdi. Bu vəziyyət dövlətin bütün təbəqələri tərəfindən sevinclə qarşılandı. Lakin bu zaman millətlərarası balansın dəyişməsi və ermənilərin bundan yararlanmaq istəmələri səbəbindən bu uzlaşma uzun ömürlü olmadı. Beləliklə, İngiltərə 1897-ci ildə Rusiyaya Osmanlı imperiyasının bölüşdürülməsinə hazır olduğunu, hətta bu mirasdan pay olaraq boğazların ruslara verilməsinə razı olduğunu bildirdi. Digər tərəfdən, Uzaq Şərqdəki anlaşılmazlıqları sülh yolu ilə həll edən və 1907-ci ildə İranı aralarında nüfuz bölgələrinə bölməkdə razılaşan bu iki dövlət "Erməni islahatı" adı altında Osmanlı dövlətinə edilən

müdaxilədə də artıq birlikdə hərəkət etmək qərarına gəldilər. Bundan istifadə edən ermənilər Qərbin böyük dövlətlərinin də köməyi ilə ölkə daxilində və xaricində bir sıra cəmiyyətlər quraraq terrora başladılar. İttihadçıların Konstitusiyanı qorumaq uğruna bu cür terrorçu cəmiyyətlərlə münasibətə girməsi Daşnaksütyun kimi qeyri-leqal cəmiyyətlərin leqal fəaliyyət göstərməsinə kömək etdi. İttihadçıların "İttihad-i anasır" (fərqli din və xalqlardan olanların birliyi) uğruna verdikləri bu kompromis ermənilərin işinə yaradı. II Əbdülhəmidin silah qadağasını Konstitusiya idarəsi ləğv etdiyi üçün ermənilər sürətlə silahlanmağa başladılar. İstanbulda "31 mart hadisələri"nin ertəsi günü (həmin gün, yəni 13 aprel 1909-cu ildə -yunan təqviminə görə 31 mart 1325-ci il- İstanbulda İttihad və Tərəqqi Cəmiyyətinə qarşı hərbçilərin və sıravi vətəndaşların qiyamı baş vermişdi), 1909-cu il aprelin 14-də Adanada ermənilər türkləri qətl etməyə başladılar.Hadisələrdə 1850 nəfər türk ermənilər tərəfindən öldürüldü. Hadisələr, hər zaman olduğu kimi, Avropaya "ermənilər öldürülür" şəklində çatdırıldığına görə İttihadçılar təlaşa düşdülər. Ona görə də, Adana valiliyinə göndərilən Camal paşa Avropaya xoş gəlmək üçün erməni dəstələrinə toxunmayaraq, qurduğu "Divan-i Harb"də (Hərbi məhkəmə) 47 türk və yalnız 1 ermənini edama məhkum etdi.

1909-cu il Adana hadisələri erməni islahatı məsələsini yenidən gündəmə gətirdi. İttihadçıların davamlı olaraq anlaşmaq istəmələrinə baxmayaraq, Balkan müharibəsi dövründə dövlətin ən çətin vaxtından yararlanmaq istəyən ermənilər xarici dövlətləri işin içinə soxdular. Ona görə də Babıali (Osmanlı dövlətində sadrazam sarayına verilmiş addır) 1913-cü il aprelin 24-də İngiltərəyə gedərək Şərqi Anadoluda bir sıra məsələləri nizama salacaqlarını bildirdi və Şərqi Anadoluda xidmət etmək üçün zabit və müfəttiş göndərilməsini istədi. İngiltərə Osmanlı hökumətinin bu istəyinə cavab vermədən əvvəl Rusiya ilə məsləhətləşmələr keçirdi. Rusiya bu islahatların keçirilməsinin tərəfdarı olduğunu bəyan etməklə bərabər, bildirdi ki, əgər Şərqi Anadoluda onun istədiyi şəkil alınmazsa, Rusiya bölgəni işğal edəcək.

Hadisələrin bu cür inkişafından sonra İngiltərə hökiumətin (Babıalinin) istədiyi zabit və müfəttişləri göndərməyi qəbul etdi. Lakin bu dəfə də Rusiya Qafqaz sərhədlərinə yaxın türk vilayətlərinə ingilis zabitlərinin göndərilməsinə şiddətlə etiraz etdi. Bu məsələdə uzun diplomatik mübahisələr getdi. Nəticədə İngiltərə istənilən zabitləri müvəqqəti olaraq göndərə bilməyəcəyini bildirmək məcburiyyətində qaldı. Lakin Osmanlı hökumətinin israrı nəticəsində 1913-cü ilin noyabr ayında Osmanlıda xidmətdə olan polkovnik Havker adlı ingilis zabitinin Şərqi və Şimal-Şərqi Anadolu vilayətləri jandarma nəzarət heyəti rəhbərliyinə təyinini qəbul etdi. Rusiya Havkerin müvəqqəti bu vəzəfəyə təyin olunmasına görə etiraz etmədi. Əslində Rusiya islahatın İstanbuldakı rus, fransız və ingilis elçiləri arasında müzakirə edilməsinin tərəfdarı idi. Digər tərəfdən, Osmanlı dövlətində böyük yatırımlar yatıran və ona görə də bu dövlətin yaşamasını istəyən Almaniya isə bu üç dövlətin Osmanlı torpaqlarını aralarında bölüşdürmək istəmələrindən çəkinirdi və buna görə də Osmanlı dövləti də daxil olmaqla bütün dövlətlərin iştirakı ilə islahatın müzakirə edilməsini istəyirdi. Buna baxmayaraq, üç dövlətin İstanbuldakı səfirləri bir alt komissiya quraraq 1895-ci il islahat layihəsindən də istifadə edərək yeni bir islahat layihəsi hazırladılar. "Rus qanun layihəsi" adı verilən bu layihəyə görə Ərzurum, Van, Bitlis, Diyarbəkir, Harput və Sivasın bir hissəsi "Erməni vilayəti" adı altında vahid bir vilayət halına gətiriləcək və başına da böyük dövlətlərin razılığı ilə padşah tərəfindən 5 il müddətlə bir Osmanlı xristianı və ya layiqli bir Avropalı general-qubernatorun gətirilməsi məsləhət olunurdu. General-qubernatorun idarəçilik, mülki və məhkəmə səlahiyyətləri olacaq, vilayətdə rəsmi yazışmalar türk və erməni dillərində aparılacaqdı. Bu layihənin həyata keçirilməsi halında Şərqi Anadoluda II Əbdülhəmidin qarşısını almağa çalışdığı "Ermənistan"ın qurulması qaçınılmaz bir hal almaqda idi [4.səh.108-111].

Hökumət Almaniyanın da təklifi ilə bu qanun layihəsini rədd etdi. Rusiya qanun layihəsinə ən böyük etirazın Almaniyadan gəldiyini başa düşdükdən sonra İstanbuldakı elçisinə Almaniya ilə razılaşma yollarının araşdırılması haqqında göstəriş verdi. Beləliklə, iki elçi arasında edilən müzakirələr 22 sentyabr 1913-cü ildə razılaşma ilə nəticələndi. Razılaşmaya görə, Rus qanun layihəsində tək general-qubernatorluqda toplanan vilayətlər iki qrupa ayrılaraq Ərzurum, Trabzon və Sivas birinci qrupu, Van, Bitlis, Harput, Diyarbəkir də ikinci qrupu təşkil etməli idi. Hər qrupun başına 5 illik müqavilə ilə bir əcnəbi baş-müfəttiş təyin edilirdi. Bundan əlavə, qanun layihəsinə görə islahatın həyata keçirilməsinə səfirlər və konsullar nəzarət etməli idi.

Rus qanun layihəsindən heç də fərqli olmayan bu yeni qanun layihəsinə görə baş müfəttişliyə geniş səlahiyyətlər veriləcəkdi. Almaniya Rusiya tərəfindən digər məsələlərdə razı salındığı üçün Rusiyaya artıq Osmanlı dövlətini parçalayan bir dövlət kimi baxılırdı. Beləliklə, hökumət erməni məsələsində ən çox arxalandığı Almaniya da daxil olmaqla bütün Avropa dövlətləri ilə qarşı-qarşıya qaldı. Bu məsələdə nə İngiltərə, nə də Almaniya Türkiyə naminə Rusiya ilə münasibətləri pozmağa və qarşı-qarşıya durmağa risk etmədilər. Əksinə, onlar Osmanlı dövlətinin bölüşdürülməsindən özlərinə düşən payı qoparmaq üçün Rusiya ilə birlikdə Osmanlıya təzyiqləri artırdılar. Rusiya isə digər Avropa dövlətlərindən əmin olaraq Şərqi Anadolu emənilərini qızışdırmaq üçün bir tərəfdən insanlıq və xristianlıq, digər tərəfdən qonşuluqdan doğan mənafelərini qorumaq bəhanəsilə təhditləri artırdı.

Osmanlı hökuməti 1913-cü il oktyabrın 28-də rus və alman səfirliklərinə verdiyi bəyanatda bütün Osmanlı torpaqlarında islahat keçirəcəyini, bu məsələ barədə hazırladığı qanun və nizamnaməni qüvvəyə mindirəcəyini, ancaq bu işi Balkan müharibəsinin gecikdirdiyini bildirdi.

Digər tərəfdən, Sədrazam (Baş vəzir) Səid Həlim paşa alman səfiri Vangenheimlə görüşündə bir sıra yeni təkliflər irəli sürdü. Səid Həlim paşanın verdiyi təkliflər əsasında alman səfiri ilə rus səfiri arasında məsləhətləşmələrdən sonra 7 dekabr 1913-cü ildə 6 maddəlik bir təklif hazırlanaraq hökumətə təqdim etdilər. Sədrazam rus-alman qanun layihəsinə qarşı bir Osmanlı qanun layihəsi versə də, bütün dövlətlərin narazılığı ilə qarşılandı. Nəhayət, bir sıra yazışmalardan sonra rus və alman səfirləri hazırladıqları müvafiq qanun layihəsini 23 dekabr 1913-cü ildə sədrazama verdilər. 16 maddədən ibarət olan və demək olar ki, rus qanun layihəsinin eyni olan bu qanun layihəsinə görə Şərqi Anadolunun hər iki hissəsinin başına kukla kimi iki müfəttiş gətiriləcək, onların yanında böyük dövlətlər tərəfindən seçilmiş iki müşavir hər şeyə rəhbərlik edəcək, ən kiçik məmurun təyin edilməsinə qədər hər işə müdaxilə edəcəklər [4.səh 159-160].

Alman səfəri Vangenheim erməni məsələsində almanların yeni mövqeyi məsələsində sədrazamı əmin etmək üçün çox çalışdı. O, 1909-cu ildən bəri Rusiya ilə Osmanlı dövləti arasında olan bir məsələ ikən, indi millətlərarası məsələ halına gəlməsinin Osmanlı dövlətinə gətirdiyi xeyirlərdən bəhs edirdi. Əslində Almaniya da yıxılmaqda olan Osmanlı dövlətindən payına  düşəni almaq üçün rus təkliflərinə digər Avropa dövlətləri kimi səs çıxarmaq istəmirdi.

Rus səfiri Girs yuxarıda qeyd etdiyimiz 16 maddəlik qanun layihəsini Səid Həlim paşaya təqdim edərkən hətta bildirir ki, bu qanun layihəsi hələ böyük dövlətlərin istədiklərinin ən azıdır. Əgər hökumət bunu qəbul etməzsə və qətliamlar davam edərsə, rus hökumətinin edəcəklərini təsəvvür etmək mümkün deyil. Səfir digər ölkələrin də səfirləri ilə görüşərək rus istəklərinin qəbulu üçün hökumətə təzyiq etmələrini istədi. Ona görə də İngiltərə və Fransa da hökumətə rus istəklərinin qəbul etmələrini təklif etdi. Digər tərəfdən erməni kilsəsi başda olmaqla bütün erməni cəmiyyətləri Avropa dövlətlərini erməni islahatı məsələsində köməyə çağırırdı. Türk mətbuatı Avropanın dövlətin daxili işlərinə qarışmasından bəhs etdikdən sonra hökumət Şərqi Anadolunu öz əli ilə vermək mənasına gələn qanun layihəsini qəbul etməməkdə dirəndi.

Böyük dövlətlər istəklərini qəbul etdirmək üçün Avropada "Türk vəhşiliyi" propaqandası ilə mənəvi təzyiqə başladılar. 1913-cü il dekabrın 1-də "Asiya Fransız Komitəsi" 20-yə qədər dövlətin nümayəndələrinin iştirakı ilə toplandı. Erməni nümayəndələrinin başçısı  Poqos Nubar paşanın uzun danışığından sonra böyük dövlətlər islahat qüvvəyə minənə qədər Osmanlı hökumətinə maliyyə yardımı etməmək, eyni zamanda, Osmanlı hökumətinin gömrük və bəzi vergiləri artırması ilə razılaşmamaq barəqə qərar qəbul etdilər.

Bu dövrdə Osmanlı hökuməti bir neçə ay idi ki, məmur və zabitlərin əmək haqlarını verə bilmirdi. Ona görə də Fransaya kömək üçün müraciət edir, eyni zamanda bəzi yeni vergilər qoymaq və gömrük haqqını artırmaq üçün Avropa dövlətləri ilə müzakirələr aparırdı. Səid Həlim paşa 1913-cü il dekabrın 13-də Parisdəki Türk səfirliyi vasitəsilə Poqos Nubar paşanı görüş üçün İstanbula dəvət edir. Nubar paşa Eçmiədzin katalikosu ilə razılaşdıqdan sonra dekabrın 17-də verdiyi cavabda katalikosun onu xidmət üçün Avropaya göndərdiyini, katalikosun İstanbuldakı təmsilçisinin ermənu patrikxanası olduğunu və Osmanlı hökumətinin onunla görüşə biləcəyini bildirir.

Bu vaxt İstanbulda səfirlərlə hökumət arasında erməni islahatı ilə bağlı müzakirələr davam edirdi. 1913-cü il dekabrın 16-da rus və alman səfirlərinin təzyiqləri artırması ilə sədrazam ictimaiyyəti məmnun edə biləcək bir dəyişikliyin edilməsi şərtilə qanun layihəsini qəbul edəcəyini bildirdi. Ona görə də əcnəbi müşavirlərdən imtina edildi. Sədrazam "yazılı" şəkildə böyük dövlətlərə müraciət edərək  baş müfəttişlərin əcnəbi olmalarına razılıq verdi. Böyük dövlətlər də onların adlarını "yazılı" şəkildə bildirməli idilər. Beləliklə, həm rus və alman istəkləri qəbul edilir, həm də türk ictimaiyyəti aldadılırdı. Lakin rus səfiri bi mətni də yetərli hesab etmədi və bəzi düzəlişlər etdi. Alman səfirinin 1913-cü ilin sonlarında müvəqqəti olaraq İstanbulu tərk etməsindən istifadə edən rus səfiri yeni şərtlər irəli sürdü. 14 yanvar 1914-cü ildə Fransa, İngiltərə və Almaniya göndərdikləri notada "Ermənistan" deyə adlandırdıqları Şərqi Anadolu vilayətlərində vəziyyətin qayğıverici olduğunu, buradakı qarışıqlıqların qarşısını almaq üçün hökumətin təcili tədbirlər görməsini tələb etdilər. Bu notadan sonra Fransa hökuməti Ərzurumdakı konsuluna vəziyyəti araşdırmağı tapşırır. Konsul verdiyi məlumatda heç bir qarışıqlığın olmadığını bildirir.

Böyük dövlətlərin təzyiqləri ilə yanaşı, İttihad və Tərəqqi iqtidarının da yaratdığı sıxıntılar dövləti Rusiya ilə bir razılaşmaya məcbur edirdi. Beləliklə, 1914-cü il fevralın 8-də Hariciye nazirliyi (Xarici İşlər naziri) vəzifəsini də qəbul etmiş sədrazam Səid Həlim paşa ilə  Rusiyanın İstanbuldakı Daxili İşlər Müvəkkili arasında bir razılaşma imzalandı. Bu razılaşmaya görə:

1) Şərqi Anadolunun iki hissəsinin başlarına seçiləcək olan iki müfəttişi böyük dövlətlər təklif edəcək və Osmanlı dövləti də kimi təyin edəcəyini nota ilə bildirəcək;
2) Hər müfəttiş öz hissəsində idarəçilik, ədliyyə, polis və jamdarmaya nəzarət edəcək;
3) Torpaq məsələsindəki anlaşılmazlıqlar müfəttişlərin nəzarəti altında həll ediləcək;

4) Qanun, nizamnamə və rəsmi təbliğat yerli dillərdə elan ediləcək; baş müfəttiş lazım bilsə, hər kəs məhkəmələrdə və rəsmi dairələrdə öz dilindən istifadə edə biləcək, ancaq məhkəmə hökmləri türkcə olacaq və imkan olursa maraqlı tərəflərin dilinə də tərcümə ediləcək.

Bu qanun layihəsində dil məsələsi rus qanun layihəsinə görə bir az yumşaldılmışdı. Rus qanun layihəsində yerli əsgərlik sistemi tələb olunurdu. Yəni hər kəs yaşadığı hərbi müfəttişliyin sərhədlərindən kənara çıxmadan əsgərliyini etməli idi. Hökumət bunu yalnız Şərqi Anadoluya tətbiq etməyi arzuolunmaz hesab edərək bütün dövlətə şamil etdi. 1913-cü il avqustun 7-də verilən qərarla hər kəsin yaşadığı ərazidə hərbi xidmət etməsi qəbul edildi. Bu rusların istədiyindən də artıq qəbul edilmiş qərar idi. Son dərəcə zərərli olan bu qərar Osmanlı-Rusiya müqaviləsində də eynilə təsbit edildi. Xüsusilə ermənilərin Şərqi Anadoluda yaşadıqları bölgədə hərbi xidmət etmələrinin qəbulu bir müddət sonra başlayan I dünya müharibəsində onların üsyan etmələrinə və yerli müsəlman xalqı öldürmələrinə səbəb oldu. Qəbul edilən qərarda bundan əlavə, II Əbdülhəmid tərəfindən sırf erməni dəstələrinin fəaliyyətinin qarşısını almaq məqsədilə təşkil edilən Hamidiyyə polklarına ermənilərin də qəbul edilməsi, hər iki bölgədə bir il içərisində seçkilər keçirilərək müxtəlif din və irqlərin müəyyən edilməsi, vilayət məclislərinə seçilən nümayəndələrin, jandarma və polis təşkilatının yarı-yarıya olması məsələləri də öz əksini tapırdı [4.səh.169-172].

Alman səfiri Vangenheimin sədrazamı aldadaraq "erməni məsələsi millətlərarası bir məsələ deyil" fikrinin tamamilə əksini qəbul edilən bu razılaşmadan görmək mümkündür. Beləliklə, erməni məsələsi Berlin müqaviləsinin 61-ci maddəsi ilə qazandığı millətlərarası statusu itirsə də, sanki San-Stefano müqaviləsinə dönərək Osmanlı-Rusiya məsələsi halına gəlmişdi. Çünki, yuxarıda qısa şəkildə qeyd etdiyimiz qərarları yerinə yetirməyi Osmanlı hökuməti yalnız Rusiya qarşısında öhdəsinə götürmüşdür.Digər dövlətlər, sadəcə baş müfəttişlərin seçimində söz sahibi idilər. Müqavilədə Rusiyanın hansı sahələrdə Osmanlının daxili işlərinə qarışa biləcəyi açıq göstərilmişdi. Digər Avropa dövlətlərinin Rusiyaya bu qədər sərbəstlik vermələri aydın idi. Çünki bir tərəfdən erməni islahatı məsələsində Osmanlı-Rusiya müqaviləsinin şərtləri müzakirə edilərkən, digər tərəfdən Osmanlı Asiyanın bölüşdürülməsi məsələsini müzakirə edirdi. Türkiyənin dostu hesab edilən Almaniya da daxil olmaqla hər bir dövlət özünə düşəcək hissəni qoparmağa çalışırdılar. Şərqi və Şimali Anadolunu da Rusiyanın payı kim görürdülər.

Beləliklə, Osmanlı-Rusiya razılaşması dövləti çox ağır vəziyyətə saldı. Müqavilənin ən təhlükəli tərəfi hərbi təəhhüdlər idi. Osmanlı dövləti öz təbbəsini necə və harada əsgərlik etdirəcəyini Rusiya ilə bağladığı bu müqavilə ilə məhdudlaşdırırdı. Ən önəmlisi, Rusiya sərhəddinə yaxın yerlərdə olan Osmanlı birliklərində yalnız Ərzincan hərbi müfəttişliyindən alınan əsgərlər olacaqdı ki, Rusiya müqaviləyə əsasən bu yerlərə nəzarət edə biləcəkdi. Bu əsgərlərin dörddə biri erməni, qalanı isə türklərdən ibarət olduğuna görə Rusiya hər an bunlardan istifadə edə bilərdi. Digər tərəfdən, baş müfəttişliyin qəbul edilməsi ilə Osmanlı hökuməti Anadolunun yarısında hakimiyyətinin çox hissəsini itirirdi. Bir müddət sonra bu qərarın mənfi nəticələri Rusiyanın Vanı işğal etdiyi ərəfədə ortaya çıxdı.

Ermənilər Osmanlı-Rusiya müqaviləsini bir son deyil, başlanğıc kimi qəbul etdilər. Qeyd etdiyimiz kimi, Osmanlı hökumətinin Rusiya ilə görüşlər keçirdiyi bir vaxtda, ruslarla ermənilər Şərqi Anadoluda fəaliyyətlərini artırdılar. Daşnaksütyun partiyası mərkəzini Ərzuruma köçürərək böyük konqresini burada keçirməyə qərar verdi. Ruslar da Şərqi Anadoludakı erməni komitə üzvlərinə etdikləri yardımları daha da artırdılar. Artıq bu bölgə böyük dövlətlərə görə, yarı rəsmi də olsa bir rus bölgəsi kimi tanınırdı. Bu hadisələrdə Rusiyanın rolunu qeyd edən Avstriya-Macarıstan İmperatorluğunun Trabzondakı konsulu Moriz 30 yanvar 1914-cü il tarixli məlumatında belə yazmışdır: " Ruslar erməniləri hərəkətə gətirəcəklər. Bu məqsədlə xeyli pul xərcləyirlər, gizlicə düşmənin xidmətinə silah göndərir və erməni üsyanının baş verməsinə vasitəçilik edirdilər" [5. səh.36]. Rusiyanın səfiri tərəfindən Xarici İşlər naziri S.D.Sazanova göndərilən məlumatda göstərilirdi ki, " Erməni xalqının getdikcə Rusiya tərəfini tutmaqda olduğu və bu istəyin içdən və səmimi olduğu ortadadır...Van, Bəyazid, Bitlis, Ərzurum və Trabzon konsulluqlarımızın bildirdiklərinə görə bu vilayətlərdəki ermənilərin hamısı Rusiya tərəfindədirlər və bizim ordularımızı gözləyirlər, və ya Rusiyanın nəzarəti altında islahatların keçirilməsini istəyirlər. Noyabrın 21-də Bəyazid konsulunun bildirdiyinə görə bütün ermənilər Türkiyəyə qarşı düşmən münasibətdədirlər və Rusiyanın protektoratlığını, erməni torpaqlarını işğal etmələrini gözləyirlər. Erməni patriarxı Rusiyaya Türkiyədəki erməni xalqını qurtarması üçün yalvarır...bu xalqın militanları bizdən kömək ala biləcəklərinə inanmasalar "Üç dövlətə" müraciət edəcəklər. Belə olduqda biz şansımızı itirərik, fürsət Avropa dövlətlərinə keçəcəkdir" [5. səh.49].

Rahib Qabriel Cəvahirciyanın rəhbərliyi altında toplanan Daşnaksütyun, Hnçak və digər erməni komitələrinin nümayəndələri Osmanlı dövlətinin Rusiyaya qarşı müharibəyə qoşulması halında öz mövqelərini müzakirə etdilər. Qərara alındı ki, Osmanlı hökumətini şübhələndirməmək üçün "ermənilərin Osmanlı hökumətinə sadiq qalmaları, hərbi xidmətlərini yerinə yetirmələri və xarici təhriklərə uymamaları" lazımdır. Ancaq digər tərəfdən də siyasi və hərbi vəziyyətə uyğun olaraq bütün gücləri ilə hazırlanmalıdırlar.

1914-cü il avqustun 3-də Osmanlı dövlətinin səfərbərlik elan etməsindən sonra Eçmiədzin katalikosu Keork çara çatdırmaq üçün Qafqazın general-qubernatoru Vorontsov-Daşkova göndərdiyi 5 avqust 1914-cü il tarixli məktubunda erməni məsələsinin qəti həlli üçün bunları təklif edirdi: "Anadoludakı 6 erməni vilayətindən bölünməz bir Ermənistan bölgəsi meydana gətirilməli, bu bölgənin başına hökumətdən asılı olmayan, Rusiya tərəfindən seçilmiş, yüksək rütbəli xristiyan gətirilməli, islahatın həyata keçirilməsinin nəzarəti sadəcə Rusiyaya aid olmalıdır..." [3.səh.150-151].

Rusiya erməniləri qızışdıraraq Osmanlı dövlətinin bu ağır vaxtında onlardan bir alət kimi istifadə edib məqsədinə çatmaq istəyirdi. Erməni komitələri Türkiyədəki şöbələrinə verdikləri təlimatda göstərirdilər ki, "Rus ordusu sərhəddən irəliləyər və Osmanlı ordusu geri çəkilərsə, hər tərəfdən birdən əldəki vasitələrlə ayağa qalxılacaq, Osmanlı ordusu iki atəş arasında qalacaq, rəsmi binalar bombalanacaq, iaşə depolarına sabotajlar təşkil ediləcək. Əksinə Osmanlı ordusu hücuma keçərsə erməni əsgərləri ruslara qoşulacaq və silah altına alınanlar hissələrindən qaçaraq türk birliklərinin arxa cəbhələrinə zərər vermək və ölkə daxilində müxtəlif hadisələr törətmək üçün dəstələr təşkil edəcəklər" [5. səh.50]. 1914-cü il avqustun 5-də Marsilyada keçirilən Türkiyə ermənilərinin yığıncağında "Rus ordusuna könüllü yazılmaq" barədə qərar qəbul edildi. Az sonra da Şərqi Anadoludakı hərbi hissələrdə əsgərlik edən ermənilər silahları ilə birlikdə firar edərək dəstələrə qoşuldular.

Bu təlimata görə hərəkət edən ermənilərdən səfərbərliyin elan edildiyi 3 avqust 1914-cü il tarixdən etibarən hərbi xidmətə çağırılanlar getməməyə, hərbi xidmətdə olanlar isə ordudan qaçmağa başladılar. Ermənilərin bir hissəsi Rusiyaya qaçaraq orada qurduqları dəstələrə qatılaraq ruslara qoşuldular. Ruslar hücuma başlayan zaman müsəlman- türk xalqına qarşı tüklər ürpədən qətliamlar törətdilər. I dünya müharibəsinin ilk günlərində Daşnaksütyun partiyasının xarici əlaqələrini yönəldən Zavriyev də Vorontsov-Daşkov ilə görüşərək müharibədə erməni millətinin Qafqaz cəbhəsində türklərə qarşı rus ordusuna əllərindən gələn bütün köməkliyi göstərməyə hazır olduğunu bildirmişdi.

Beləliklə, ermənilər rus ordusunun 1 noyabr 1914-cü ildə Şərqi Anadolu üzərinə hücuma keçdiyi zaman Şərqi Anadolunun bir sıra yerlərində-Bitlisdə, Zeytunda, Ərzurumda, Vanda, Sivasda və s. bölgələrdə üsyanlar qaldıraraq türk əhalisinə qarşı soyqırımlar törətmişlər. İstanbuldakı Rusiya səfiri Zinovyevin 26 fevral (6 mart) 1909-cu ildə göndərdiyi "Osmanlı imperatorluğunda vəziyyət" adlı gizli məlumatda iki xalq arasında heç bir toqquşmanın, vuruşmanın olmadığı göstərilirdi. Bildirilirdi ki, "...Bitlisdəki ermənilərin nə türklərdən, nə də kürtlərdən heç bir şikayətlərinin olmadığı halda erməni dərnəkləri yaradılır və geniş fəaliyyət göstərirlər. Dərnək üzvləri hər bazar günü Bitlis kilsəsində toplantılar və danışıqlar təşkil edirlər. İnqilab fikrində olan erməniləri bir yerə toplayaraq hökumətə qarşı mübarizə üçün qızışdırırlar. Toplantılar qadağan edildikcə ermənilər eyni fikri bildirən elanları hər tərəfə yapışdırırlar. Ermənilərin əksəriyyətinin bu cür fəaliyyətinin ermənilərə zərərdən başqa bir şey gətirməyəcəyini və silah üçün pul verməyəcəklərini söylədikləri, ona görə də erməni inqilabi komitələrinin şiddətdən istifadə edərək etiraz edənləri qılıncdan keçirdikləri öyrənilmişdir..." [5. səh.52].

Bu məlumatdan düşmənçiliyin kimlər tərəfindən və necə yarandığı aydın görünür. Beləliklə, Rusiyanın 1914-cü ilin oktyabr ayında Osmanlı dövlətinə rəsmən müharibə elan etməsindən və ordularına türk sərhədlərini keçmə əmrini verməsindən sonra ermənilər bütün imkan və gücləri ilə Rusiya və müttəfiq dövlətlərin əmrinə girməyə və türklərə qarşı qanlı soyqırımlar həyata keçirməyə başladılar. Öz növbəsində Rusiya da Anadoludan qaçan erməniləri silahlandıraraq könüllü birliklər yaratmaqla yanaşı, həm də Daşnaksütyun partiyasının vasitəsilə onlara pul yardımı da edirdi. Bu məsələ ilə əlaqədar olaraq 1915-ci ilin fevral ayında Tiflisdə toplanan Erməni Milli Konqresində erməni nümayəndəsinin məlumatında göstərilirdi ki, " Məlum olduğu kimi, müharibənin əvvəlində Rusiya hökuməti Türkiyə ermənilərini silahlandırma və hazırlama, müharibə dövründə ölkənin daxilində üsyan qaldırmalarının ilk məsrəfləri üçün 242,900 rubl vermişdi..." [3. səh.59]. Daşnaksütyun, Hnçak və digər erməni partiyalarının, Eçmiədzin kilsəsinin fəaliyyətləri nəticəsində "Müstəqil Ermənistan uğrunda" çar Rusiyası tərəfində 4 könüllü erməni birliyi vuruşmuşdur. Ermənilər rusların irəliləməsinə kömək edir, yerli xalqı kütləvi şəkildə öldürərək toplu məzarlara basdırırdılar.

1914-cü ilin avqust ayından başlayaraq İstanbula vali və komandanlardan saysız-hesabsız teleqraflar göndərilirdi. Bu teleqrafların hamısında ermənilərin silahlanmasından, zülmündən, yol kəsmələrindən, kəndlərə necə hücum etmələrindən, əsgərlərə atəş açmalarından, günlərlə davam edən atışmalardan bəhs edilirdi. Erməni dəstələri ruslarla əlbir olaraq daha da saldırğan olmuşdular. Teleqraflarda bildirilirdi ki, "əgər durun deyən olmasa bu dəstələr Anadoluda tək bir türk, tək bir kürd buraxmayacaq" [2.səh.200]. 1914-cü il noyabrın 14-də Osmanlı paşası Poqos Nubar paşa Qahirədəki ingilis nümayəndəsinə "İsgəndəruna ordu göndərsəniz könüllü olaraq döyüşərik" demiş, Tiflis Erməni Bürosu noyabrın 30-da "Bütün ermənilər rus ordusuna yazılın" çağırışı etmişdi. 6 mart 1915-22 aprel 1915-ci illər arasında erməni dəstələri Vanda, Bitlisdə, Sivasda və s. bölgələrdə türklərə qarşı dəhşətli qırğınlar həyata keçirmişdilər. Aprelin 24-də 2345 erməni həbs edilmiş, ingilis, fransız və ruslar buna etiraz etmişlər.

Türkiyə Tarix Qurumunun məlumatına əsasən erməni dəstələri 24 apreldən əvvəl 120 min müsəlmanı öldürmüşlər. 24 apreldən sonra yenə ermənilərin öldürdükləri müsəlmanların sayı 410 min nəfər olmuşdur. Hətta

Vanda on minlərlə müsəlmanı öldürən ermənilərə Rusiya çarı "Van ermənilərinə təşəkkür edirəm" deməkdən belə çəkinməmişdi. Həqiqətdə türklərin yox, ermənilərin türklərə qarşı sözün əsl mənasında soyqırımı törətdiyini Türkiyənin müxtəlif bölgələrindən qazıntılar zamanı aşkar edilən türklərə aid toplum məzarlıqlar sübut edir. Bu gün heç bir sənədə, arxiv materialına və s. əsaslanmadan "erməni soyqırımı" törətdiyinə görə Türkiyəni günahkar hesab edən dövlətlərin ikili standartlar yeritdikləri bütün dünyaya məlumdur. Əgər belə olmasa idi baş verməyən hadisəni cidd-cəhdlə olmuş hadisə kimi göstərməyə çalışan Avropanın "demokratik" dövlətləri çox da uzaq olmayan tarixi keçmişdə baş verən "Xocalı" soyqırımına görə erməniləri suçlayardı. Təəssüflər olsun ki, özlərini insan azadlığının müdafiəçiləri kimi göstərməyə çalışan dünyanın aparıcı xristian dövlətləri 250 mindən artıq azərbaycanlını öz doğma torpaqlarından didərgin salan, Azərbaycanın bu günkü ərazisinin 20 %-dən çoxunu işğal edən, BMT-nin qətnamələrini saya salmayan "Ermənistan"ın özbaşınalığına göz yumur, heç bir tədbir görmürlər. Ancaq biz inanırıq ki, tarix baba gec-tez öz sözünü deyəcək, haqq-ədalət qalib gələcəkdir.

## ƏDƏBİYYAT


1. M.Orhan Bayrak Türk imperatorlukları tarih. İstanbul, 2002, 621 s.
2. Recep Şükrü Apuhan Türklerin tarihi. Göktürklerden Türkiye Cumhuriyetine 2500 yıllık savaş. İstanbul, 2008, 288 s.
3. Türk-ermeni ilişkileri. 21. yüzyıla girerken tarihe dostça bakış. Ankara, 2000, 315 s.
4. Y.H.Bayur Türk inkilabı Tarihi. Ankara, 1983, 742 s.
5. Yusuf Halaçoğlu Ermeni tehciri. 9. baskı, İstanbul, 2006, 192 s.


## ABSTRACT


**Ibrahim Kazimbeyli**

**ARMENIAN CONFRONTATION IN THE TERRITORY OF OTTOMAN TURKEY IN THE EARLY TWENTIETH CENTURY**

The geopolitical and geostrategic position hold by Turkey in the early 19th century had no benefit to the mighty countries in terms of future plans for those territories. The rising idea of nationalism since 19th century among ethnic minorities living in the Ottoman state was produced as a form of claiming for the autonomy and independence. Throughout the history, Armenians have always stood out as a community that abused many state revenues for their own benefits. Like other European states, the main target of the USA was to build a puppet state which would be able to serve for its interests in Anatolia and in whole east as well as to prevent access of Russia to White Sea so that to have a power over the underground and over ground recourses of Ottoman lands. During the I World War Ottoman state was going through a deep socio economic and political crisis. It was defeated in the Balkan War and lost a large part of its land. Serious ethnic factor emerged inside the state.

Each state preparing for the war had its own plan on sharing Turkey. On the basis of the plan was “Armenian issue”. During these periods, Armenian clashes and rebels in these territories were carried out on purpose by the great powers and with the support of the Church. Those terrors and genocides penetrated deliberately into South Caucasus. In the scientific article the main purpose set by the author is analyzed in a broad way.


## РЕЗЮМЕ


**Ибрагим Казымбейли**

**АРМЯНСКИЕ БЕСПОРЯДКИ НА ТЕРРИТОРИИ ОСМАНСКОЙ ТУРЦИИ В НАЧАЛЕ XX ВЕКА**

В начале XIX века геополитическое и геостратегическое положение в Турции было чрезвычайно невыгодным для планов великих держав по отношению к этим территориям. Растущий национализм девятнадцатого века распространенный среди этнических меньшинств, проживающих в Османской империи, выражался в форме автономии и независимости. На протяжении всей истории армяне были известны тем, что они стремились воспользоваться большими государственными доходами для их собственной выгоды. Как ряд европейских государств, главная цель Соединенных Штатов состояла в том, чтобы создать игрушечное государство, способное служить его интересам в Анатолии и на Востоке, а также прервать доступ России к Средиземному морю. Таким образом, США смогут получить влияние на подземные и поверхностные ресурсы османских земель.Во время Первой мировой войны Османская империя переживала глубокий социально-экономический и политический кризис. Она потерпела поражение в войне на Балканах и потеряла здесь большую часть своих земель. В государстве имели место серьезные этнические факторы.

У каждого государства, готовящегося к войне, были свои планы по разделению Турции. В основе этого плана стоял «Армянский вопрос». В указанный период на этих территориях армянские беспорядки и восстания осуществлялись при поддержке великих держав и церкви. Этот террор и геноцид были целенаправлены на Южный Кавказ. В данной научной статье широко анализируются поставленные цели и задачи.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev

**ZÜLFİYƏ İSMAYILOVA**
*Naxçıvan MR Dövlət Arxivi*

**UOT 94 (479.24)**

# 1920-1971-Cİ İLLƏRDƏ NAXÇIVANDA TƏHSİLİN İNKİŞAF YOLLARI

**Açar sözlər***: Naxçıvan Pedaqoji Məktəbi, müəllim hazırlığı, ixtisalı kadr, təhsil ocağı*
**Key words:** *Nakhchivan Pedagogical School, teacher training, specialist staff, educational institution*
**Ключевые слова***: Нахичеванское Педагогическое Училище, педагогическая подготовка, специалисты, учебное заведение*

Azərbaycanda, eləcə də onun ayrılmaz bir hissəsi olan Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra xalq təsərrüfatı və iqtisadiyyatın bütün sahələrində olduğu kimi, xalq maarifi və məktəb quruculuğu sahəsində də böyük işlər görüldü. 1920-ci ilin oktyabr ayının 10-da Naxçıvan İnqilab Komitəsinin qərarı ilə müxtəlif şöbələr o cümlədən, Xalq Maarif Şöbəsi də yaradıldı. Xalq Maarif Şöbəsinin müdiri vəzifəsinə Əbdüləzim Rüstəmov təyin edildi.

Xalq Maarif Şöbəsinin əsas vəzifəsi müəllimlərin bütün qüvvəsini xalq maarifinin inkişafına səfərbər etmək, uşaqları təhsilə cəlb etməklə şagird kontingentini artırmaq, savadsızlığı ləğv etmək üçün yaşlılar üçün savad kursları açmaq və s. idi.

İnqilab Komitəsinin 25 avqust 1920-ci il tarixli dekretinə əsasən Naxçıvan ölkəsində yaşayan bütün millətlərə pulsuz ibtidai icbari ümumi təhsil və təhsildə bərabər hüquq, hər bir xalqa öz doğma dilində təhsil almaq hüququ verildi. Daha sonra Naxçıvan Xalq Maarif Şöbəsi ləğv olunaraq Naxçıvan Xalq Maarif Komissarlığı yaradıldı. Əbdüləzim Rüstəmov ilk Maarif Komissarı oldu.

Naxçıvanda Sovet hakimiyyətinin ilk illərində maarif sistemi yenidən qurulmağa başladı. İnqilaba qədər qəzalarda məktəblərin sayının az olmasına baxmayaraq Sovet hakimiyyətinin ilk illərində Naxçıvanda 45 məktəb açmaq mümkün olmuşdur.

1920-1921-ci illərdə Naxçıvan diyarında maarifin vəziyyəti aşağıdakı kimi olmuşdur (1, vər.1):

| № | Qəzaların adı | Məktəblərin sayı | Şagirdlərin sayı | Oğlan | Qız |
|---|---|---|---|---|---|
| 1 | Naxçıvan | 19 | 1140 | 867 | 273 |
| 2 | Ordubad | 15 | 766 | 620 | 146 |
| 3 | Şərur | 13 | 534 | 534 | - |
| 4 | Cəm | 47 | 2440 | 2021 | 419 |

1922-ci ildə Şərur qəzasının Muğanlı, Zeyvə Düdəngə, Qıvraq, Kərki, Siyaqut, Baş Noraşen, Tumaslı, Püsyan, Yengicə, Şahtaxtı kəndlərində, Naxçıvan qəzasının Nehrəm, Tumbul, Qaraçuq, Cəhri, Təzəkənd, Qahab, Alagöz Məzrə, Qoşadizə, Sirab kəndlərində, Ordubad qəzasının Əlıhi, Nəsirvaz, Əylis, Vənənd, Cənnəb, Dəstə, Runus, Subatan Dizə və s. kəndlərində məktəblər fəaliyyət göstərirdi (2, vər. 7).

1922-ci il oktyabrın 23-də Rüşdiyyə və Xeyriyyə məktəbləri birləşərək I dərəcəli məktəb yaradıldı. 1924-cü ildə Dəmirçi, Dərvizlər, Şəkərabad, Xanağa, Xok, Əndəmic, Xıncab kəndlərində məktəb açıldı (3, vər.7). 1922-ci ilin iyun ayının 17-də RSFSR Maarif Komissarlığının Əsasnaməsinə müvafiq olaraq Naxçıvan MİK Maarif Komissarlığı üçün Əsasnamə hazırlanıb təsdiq edilərək Komissarlığa gələcək məktəb quruculuğu işlərini yüksəklərə qaldırmaq üçün istiqamət verdi (4, vər.12).

1922/1923, 1923/1924-cü dərs ilində Naxçıvan Muxtar Respublikasının məktəblərində geniş təlim-tərbiyə işləri aparılır, ayrı-ayrı məktəblərdə şagirdlərin sayı çoxalır, məktəbyaşlı uşaqların məktəbə cəlb edilməsi işi faiz hesabı ilə aşağıdakı şəkildə olur:

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | Naxçıvan şəhəri | 80,4 % | 7 | Nərimanov | 6,1 % |
| 2 | Ordubad şəhəri | 85,2 % | 8 | Əbrəqunus | 23.8 % |
| 3 | Baş Noraşen | 25,5 % | 9 | Culfa | 52,7 % |
| 4 | Qıvraq | 41,6 % | 10 | Parağa | 77,1 % |
| 5 | Cəhri | 19,9 % | 11 | Aza | 100,0 % |
| 6 | Tumbul | 10,5 % | | | |

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda yeni məktəb tikintisində 1922-ci ildə Xalq Maarif Komissarlığı kollegiyası tərəfindən təsdiq olunmuş Azərbaycan SSR I dərəcəli əmək məktəbləri haqqında Əsasnamə böyük rol oynadı. Xalq Maarif Komissarlığı haqqında Əsasnamə Naxçıvan Respublikası Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq olunmuşdu. Əsasnaməyə görə İnqilab Komitəsi partiyanın proqram və tələblərinə rəhbərlik edərək bütün zəhmətkeşlərə başa saldı ki, şagirdlərin əmək inkişafını kənarda saxlayan köhnə məktəb tipli orta və ibtidai məktəblər tamamlanmış peşəkar təhsil ilə əvəzlənəcək. Yeni məktəb iki dərəcədən ibarət olacaq: birinci beşillik və ikinci dörd illik. Dərslər doğma dildə keçiriləcək və təhsil mümkün qədər birgə aparılacaq. Məktəbdə bir dərəcədən digərinə azad keçid olacaq (5, vər. 51).

1923-cü ilin oktyabrında Azərbaycan K(b)P MK-da Naxçıvan ölkəsinin siyasi-iqtisadi və mədəni vəziyyəti haqqında məsələ müzakirə olundu. Müzakirədə Naxçıvan ölkə Xalq Komissarlar Sovetinin sədri Vəlibəyov çıxış etmişdi. Qəbul edilmiş qərarda müəllim kadrlarının qıtlığını nəzərə alaraq müəllim göndərilməsi, müəllimlərin maddi vəziyyətini yaxşılaşdırmaq, yeni məktəb binalarının tikilməsi, məktəbyaşlı uşaqların təhsilə cəlb edilməsi və s. məsələlər öz əksini tapmışdır (6, vər. 26).

Naxçıvanda xalq maarif sahəsində ən böyük hadisə qızların təhsilə cəlb edilməsi olmuşdur. Sovet hakimiyyətinin ilk ilində Naxçıvan diyarının məktəblərində qızların sayı 80 nəfər idisə, 1925-ci ildə 1920-ci illə müqayisədə məktəblərdə qızların sayı 5,5 dəfə artdı və 100 nəfərdən 1083 nəfərə çatdı. Növbəti 1926-1927-ci tədris ilində artıq 1137 nəfər azərbaycanlı qız məktəbdə təhsil alırdı. Onlardan 1057 nəfəri I dərəcəli, 80 nəfəri II dərəcəli məktəblərdə oxuyurdu (7).

1922-ci ildə Naxçıvan Respublikası Müəllimlərinin I qurultayında açılmasına qərar verilmiş seminariya – Pedaqoji Texnikumun 1926-1927-ci tədris ilində birinci buraxılışı oldu. Naxçıvan Pedaqoji Texnikumu həmçinin Azərbaycanda fəaliyyət göstərən təhsil müəssisələrinin muxtar respublika məktəblərinin müəllim kadrlarına olan ehtiyacını ödəməyə başladı.

Muxtar Respublika müəllimlərinin SSRİ məkanında olan respublikalara ezamiyyətə getməsi, qabaqcıl təcrübəyə yiyələnərək muxtar respublika məktəblərində tətbiq edilməsi, təlim-tərbiyə işlərinə müsbət təsir göstərirdi.

Naxçıvan MR məktəblərində müəllimlərin də sayı getdikcə artırdı. Bunu aşağıdakı cədvəldən də aydın görmək olur:

| **Tədris ili** | **Müəllimlərin sayı** | **Qadınların sayı** |
|---|---|---|
| 1921/1922 | 86 | 2 |
| 1924/1925 | 154 | 4 |
| 1928/1929 | 250 | 64 |
| 1930/1931 | 277 | 72 |
| 1934/1935 | 544 | 85 |
| 1935/1936 | 575 | 91 |
| 1936/1937 | 733 | 173 |

Beləliklə, məktəb şəbəkələrinin genişlənməsi həm məktəblərin, həm də şagirdlərin sayca artmasına səbəb olurdu.

| **Tədris illəri** | **Məktəblərin sayı** | **Siniflərin sayı** | **Şagirdlərin sayı** |
|---|---|---|---|
| 1921/1922 | 58 | 144 | 4351 |
| 1924/1925 | 75 | 210 | 6573 |
| 1928/1929 | 78 | 309 | 9298 |
| 1930/1931 | 98 | 476 | 10441 |
| 1934/1935 | 164 | 981 | 23180 |
| 1935/1936 | 173 | 842 | 23311 |

Naxçıvan MR məktəblərində müəllimlərin təhsil dərəcələri aşağıdakı kimi idi:

| **Tədris illəri** | **Müəllimlərin sayı** | **Orta təhsilli** | **Ali təhsilli** | **Bitməmiş orta təhsilli** |
|---|---|---|---|---|
| 1930/1931 | 277 | 126 | 17 | 134 |
| 1934/1935 | 544 | 391 | 37 | 116 |
| 1936/1937 | 733 | 640 | 37 | 56 |

1928-ci ilin may ayında Azərbaycan MİK III sessiyası Azərbaycanda ümumi icbari təhsil başlanğıcının perspektiv planını müzakirə etdi. 1928-ci ildə Naxçıvan MİK ümumi məcburi təhsilin keçirilməsi planını təsdiq edildi. Praktiki işlər 1930-1931-ci təhsil ilindən həyata keçirilməyə başlandı (5).

1928-ci ilin may ayında Naxçıvan MİK Rəyasət Heyətinin iclasında "Respublikada 4 və 3 sinifli məktəblərin tikilməsi haqqında" qərar qəbul olundu. Bu qərara əsasən bir neçə kənddə məktəb tikildi. İbtidai

məcburi təhsilin keçirilməsi üçün 1925-1926-cı təhsil ilində Naxçıvan MSSR büdcəsindən 350.046 manat pul ayrılmışdısa, 1929-1930-cu təhsil ilində bu məqsədlər üçün 447.363 manat vəsait ayrılmışdı (8).

Naxçıvan MSSR Xalq Maarif Komissarlığının qərarına əsasən 1930-1931-ci illərdə Sələsüz, Buzqov, Külüs, Yuxarı Remeşin (Şahbuz), Kültəpə, Myasnikobad, Kolanı, Xanağa, Aşağı və Yuxarı Əndəmic, Nürgüd, Düylün (Ordubad), Subatan Dizə (Culfa), Alışar, Maxta, Muğanlı, Qarxun, Axura, Comartur (Noraşen) və s. kəndlərdə I dərəcəli məktəblər açıldı (5).

1930-1931-ci tədris ilində muxtar respublikada ümumilikdə 8-12 yaşlı 1377 nəfər şagird icbari təhsilə cəlb edilmişdir ki, onların 699-u qız idi. Məktəb şəbəkəsinin genişlənməsi nəticəsində növbəti ildə məktəblərin sayı 163-ə, şagirdlərin sayı 16.427 nəfərə (5.552 qız) çatdı.

1935-ci ilin yanvar ayında Ümumazərbaycan Sovetinin VIII qurultayının qətnaməsində Xalq Maarif Komissarlığının məruzəsində ibtidai ümumi təhsil sahəsində müvəffəqiyyətlər və ikinci beşilliyin sonunda nəinki şəhərlərdə, həmçinin kəndlərdə də natamam orta məktəb həcmində ümumi politexnik təhsilin daxil olma zəruriliyi qeyd olunurdu. Sovetlər qurultayı tələb etdi ki, orta məktəblərin gücləndirilmiş inkişafı üzrə tədbirlər ilk növbədə şəhərlərdə və işçi qəsəbələrdə elə keçirilsin ki, beşilliyin sonuna hər bir rayonda orta məktəb olsun (9).

İbtidai ümumi təhsilin başa çatdırılması və yeddiilliyə keçmək üçün məktəblərin kifayət qədər müəllim ilə təmin olunması lazım gəlirdi. AK(b)P Naxçıvan Vilayət Komitəsi və Azərbaycan Xalq Maarif Komissarlığının təsdiq etdiyi plana əsasən 1937-1938-ci tədris ilində 28.124 şagirdi təhsilə cəlb edildi. Bunlar ibtidai məktəb üzrə 19.750 şagird, natamam və orta məktəb üzrə 6.236 şagirdi əhatə edirdi (10).

1938-ci ildə Şahbuz kənd, Yengicə, Əbrəqunus, Bist kəndlərində 4 orta məktəb açıldı. Bundan əlavə, Ordubad şəhərində 112 şagirdlik pedaqoji texnikum, 110 şagirdlik pedaqoji işçi fakültəsi, 12 yeni ibtidai məktəb açılmışdı.

1938-1939-cu illərdə muxtar respublikada 865 müəllim (o cümlədən, 109-u qadın), 1939-1940-cı illərdə 960 müəllim (128-i qadın), 1940-1941-ci tədris ilində 1027 müəllim (140-ı qadın) var idi.

Müəllim kadrlarının hazırlanmasında Naxçıvan və Ordubad Pedaqoji Texnikumları və 1939-cu ildə fəaliyyətə başlayan İkiillik Müəllimlər İnstitutu mühüm rol oynadı. 1939-1940-cı təhsil ilində respublika məktəblərində 960 müəllim var idi ki, onlardan 170-i ali və orta təhsilə malik idi (11, vər.12).

1940-50-ci illərdə Naxçıvan MR məktəblərində müəllimlərin əksəriyyətinin ali təhsili yox idi. Onların metodiki hazırlığı sahəsində ciddi qüsurlar var idi. 1961-ci ildə Sovet İKP MK-nın "Ümumtəhsil məktəblərinin müəllim kadrları ilə təmin edilməsi tədbirləri haqqında" qərarı qəbul edildi.

1940-1941-ci təhsil ilində Naxçıvan MSSR məktəblərində 1.027 müəllim var idi. İkiillik İnstitutu bitirənlərdən 176 nəfər tam ali təhsilə, 851 nəfər isə orta pedaqoji təhsilə malik idi. 1940-1941-ci illərdə Naxçıvan MSSR-də 2002 məktəb var idi ki, onlardan 1-i ali, 4-ü texnikum, 35-i orta, 72-si natamam orta, 1 musiqi məktəbi, 1 incəsənət, 1 kolxoz kadrlarının hazırlanması üçün məktəb idi. Bu məktəblərdə 29.693 uşaq təhsil alırdı (5).

10 noyabr 1948-ci ildə Naxçıvan MSSR Nazirlər Soveti "Naxçıvan MSSR məktəblərində ümumi icbari təhsilin həyata keçirilməsi haqqında" qərarında Naxçıvan MSSR Nazirlər Soveti respublika məktəblərində ümumi icbari təhsilin keçirilməsi vəziyyətini müzakirə edərək keçən ilə nisbətən 1948-1949-cu tədris ilində respublikada məktəb şəbəkəsi genişləndirilmiş, şagirdlərin sayı 23.934-dən 24.423 nəfərə çatmışdır. Respublika məktəblərində yuxarı sinif şagirdlərinin dərslərə müntəzəm davamını təmin etmək məqsədi ilə məktəb yanında 168 nəfəri əhatə edən internat təşkil edilmişdi. Orta təhsilli müəllimlərdən 175 nəfəri qiyabi təhsilə davam edir, 150 nəfər isə təkmilləşdirmə kurslarında oxuyurdu (12, vər.69).

1941-1942-ci dərs ilində 28 orta məktəbdə 6.900 şagird, 65 natamam orta məktəbdə 9.000, 60 ibtidai məktəbdə 2.950, cəmi 153 məktəbdə 18.850 şagird təhsil almışdır ki, onlardan 6.257 nəfəri qızlar idi.

1942-1943-cü dərs ilində 30 orta məktəbdə 9.553, 175 natamam orta məktəbdə 10.108, 73 ibtidai məktəbdə 3.039 şagird, cəmi 278 məktəbdə 22.700 şagird oxumuşdur. Bunların 9.593 nəfəri qız idi.

1942-1943-cü dərs ilində respublika məktəblərində 771 müəllim çalışırdı.1943-1944-cü dərs ilində 848 nəfər müəllim çalışırdı ki, onlardan 52 nəfər ali, 99 nəfəri ali-orta, 587 nəfəri orta, 110 nəfəri aşağı orta təhsilli idi.

1943-1944-cü təhsil ilində 36 orta məktəb olmaqla 2.224 şagird (922 nəfəri qız), 76 natamam orta məktəbdə 8.722 şagird (3.758 nəfəri qız), 68 ibtidai məktəbdə 14.255 şagird (6.744 nəfəri qız) təhsil alırdı. Ümumiyyətlə, respublikanın 180 məktəbində 25.201 nəfər şagird (bunlardan 11.443 nəfəri qız idi) təhsil alırdı.

Müharibə dövründə 445 müəllim hərbi səfəbərliyə alınmış, 90 nəfər isə ordu sıralarından qayıdaraq məktəblərdə çalışmışdır. Bunlardan 25 nəfəri direktor, 35 nəfəri dərs hissə müdiri, qalanları isə müəllim kimi fəaliyyət göstərmişdir.

Respublikada 1942-ci ildə 9, 1943-cü ildə 7 nəfər Əməkdar Xalq Müəllimi Azərbaycan SSR Baş Soveti Prezidiumunun qərarı ilə fəxri fərmanla təltif edilmişlər (13, vər.37-39).

1951-ci ildə Naxçıvan MSSR-də 31 orta, 80 yeddiillik və 70 ibtidai məktəbdə təhsil alan şagirdlərin ümumi sayı 23.524 nəfərə çatmışdır ki, onlardan 12.833 nəfəri ibtidai, 8.424 nəfəri yeddiillik, 2.264 nəfəri orta məktəblərdə təhsil alırdı (14, vər.3).

22 iyun 1951-ci il Naxçıvan MSSR Nazirlər Sovetinin qərarı ilə Naxçıvan MSSR məktəblərində və maarif orqanlarında uzunmüddətli və qüsursuz xidmətlərinə görə çalışan müəllimlər SSRİ-nin orden və medalları ilə təltif olundular. 2 nəfər müəllim "Lenin" ordeni, 10 nəfər müəllim "Qızıl Bayraq" ordeni, 6 nəfər "Şərəf" nişanı, 40 nəfər "Əməkdə igidliyə görə" medalı, 24 nəfər "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olundular (15, vər. 34-36). Bu müəllimlərin əksəriyyəti Naxçıvan Pedaqoji Texnikumunun məzunları idi. 1949-cu ildən etibarən Naxçıvan MR ümumicbari yeddiillik, 1959-cu ildən başlayaraq səkkizillik, 1966-cı ildən isə orta təhsil onillik həyata keçirilməyə başladı. 1969-1970-ci tədris ilində üçillik ibtidai təhsilə keçirildi.

1946-1961-ci illərdə Naxçıvan MR ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, onların strukturunda mühüm dəyişikliklər baş vermişdi. Əgər 1945-1946-cı tədris ilində muxtar respublikada 176 ümumtəhsil məktəbi var idisə, 1950-1951-ci tədris ilində onların sayı 185-ə, 1960-1961-ci tədris ilində 198-ə çatmışdır. Bu illərdə məktəblərdə şagird kontingenti də xeyli artmışdı. 1945-1946-cı tədris ilində muxtar respublikada orta məktəblərin sayı 29, yediillik və səkkizillik məktəblərin sayı 77, ibtidai məktəblərin sayı 70 idisə, 1950-1951-ci tədris ilində orta məktəblərin sayı 31, yediillik və səkkizillik məktəblərin sayı 79, ibtidai məktəblərin sayı 75, 1963-1964-cü tədris ilində orta məktəblərin sayı 46, yediillik və səkkizillik məktəblərin sayı 77, ibtidai məktəblərin sayı 75 olmuşdur. Məktəblərin sayının artması ilə əlaqədar şagirdlərin də sayı məktəblər üzrə dəyişməyə başlamışdı. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası məktəblərinin yüksək ixtisaslı kadrlarla təmin edilməsi xeyli yüksəlmiş, 1950-1951-ci tədris ilində müəllimlərin sayı 1.255 nəfər, 1961-1962-ci tədris ilində 2.018 nəfər, 1963-1964-cü tədris ilində 2.393 nəfər olmuşdur (7).

Bu dövrdə Naxçıvan MR-də politexnik təhsil sahəsində də tədbirlər görüldü. Bütün səkizillik və onillik məktəblərdə çilingərlik, tikiş emalatxanaları yaradılmış, avadanlıqlarla təchiz edilmişdir.

Bu illərdə peşə texniki təhsilin əsası qoyulmuş, 1966-cı ildə Sovet İKP MK və SSRİ Nazirlər Sovetinin "Orta ümumtəhsil məktəblərinin işini daha da yaxşılaşdırmaq haqqında" qərarından irəli gələn vəzifələr əsasında xalq maarifi və məktəblərinin tərəqqisi sahəsində yüksək nailiyyətlər əldə edilmişdi.

1964-cü ildə Naxçıvan MSSR-in 40 illiyi ilə əlaqədar olaraq uzunmüddətli səmərəli fəaliyyətinə görə S.Əkbərova, S.Məmmədov, Q.Fərzəliyev Azərbaycan SSR Əməkdar Müəllimi, A.Abbasov, M.Axundov, B.Novruzova, H.Səfərov, X.Əliyarov Naxçıvan MSSR Əməkdar Müəllimi adını almış, bir neçə müəllim isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif olunmuşdular.

1956-cı ildə İbrahimova Pəri, Zeynalov Bəhlul, Məmmədov Həbib, Mehdiyev Mehdi, Naibov İsmayıl, İmanov Cəfər, Kazımzadə Həsən, Məmmədova Hökümə Naxçıvan MSSR Əməkdar Müəllimi adını aldılar (16).

1960-cı ildə Qafarova Nuriyə, Rzayev Mürsəl, Tutayuk Murad, Xəlilova Səlbi, Abdulayev Məmməd, Alıyev Əli, Əhmədov Əli, Həsənov Əbülfəz, Kəngərli İsmayıl, Kərimova Şəmsi, Paşayev Məmməd, Tağıyev Şahvələd, ismayılov İsa (17), 1964-cü ildə Kələntərli Lətifə, Əhmədov Məmmədtağı, Əliyeva Tükəzban, Quliyev Abbas, Quliyev Abbasqulu, Mahmudov Musa, Musayev Sadıq, Əliyev Əsəd Azərbaycan SSR Əməkdar Müəllimi adını aldılar(17).

1965-ci ildə Naxçıvanda uzun fasilədən sonra yenidən Pedaqoji Texnikum fəaliyyət göstərməyə başladı. 1965-1966-cı tədris ili üçün ibtidai sinif müəllimi ixtisasına tələbə qəbulu başlandı. Az sonra məktəbəqədər tərbiyəsi və bədən tərbiyəsi ixtisaslarına tələbə qəbul etdilər. Beləliklə, Naxçıvan Pedaqoji Məktəbi 1971-ci ilə qədər fəaliyyət göstərdi.

Naxçıvanda məktəb sisteminin inkişafı, məktəblərin və şagirdlərin kontingentinin artması ilə ali təhsilli müəllimlərə böyük tələbat yarandı. Bu məqsədlə tez-tez mətbuatda naxçıvanlı elm adamları, ziyalıları çıxış edirdi. 1967-ci ilin iyulunda Naxçıvan şəhərində 3 ştat vahidi olmaqla (direktor, tədris işləri üzrə direktor müavini, metodist) Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı açıldı.

1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı açılaraq 3 fakültədə - dil-ədəbiyyat, tarix,riyaziyyat ixtisasları üzrə 75 nəfərlə öz fəaliyyətinə başladı.

Bu vəzifələrə Əli Əliyev, Yavuz Axundov və Mahmud Mahmudov təyin olundu. Filialın ilk müəllimləri İbrahim Mollayev pedaqogika-psixologiya, İzzət Maqsudov ədəbiyyat, Firuz Rəhimov, Allahverdi Hüseynov ümumi tarix, İbrahim Hüseynov Sov. İKP tarixi, Eli Həşimov riyaziyyat fənnini tədris etdilər. Müzəffər Nəsirli, Qasım Qasımov, İbrahim Bağırov, İsmail Zeynalov, Zenfira Əhmədova, Nəriman Orucəliyev filiala saat hesabı müəllim kimi dəvət olundular. İlk tədris ilində 3 ixtisas - dil-ədəbiyyat, tarix, riyaziyyat ixtisasları üzrə müəllim hazırlığına başlayan filial sonralar ibtidai təhsil, coğrafiya və digər fənlərdən də müəllim hazırlığına başladılar (5, vər 59).

1971-ci ildə isə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının ilk buraxılışı oldu.

Heydər Əliyevin rəhbərliyə gəlməsi o vaxt geridə qalmış Azərbaycanın keçmiş ittifaq məkanında ön cərgəyə çıxması, iqtisadiyyatda, sənayedə, tikintidə, kənd təssərrüfatında, mədəniyyətdə, elm və təhsildə misli

görünməmiş nailiyyətlər əldə olunmasına gətirib çıxardı. Hakimiyyətə gəldikdən sonra Azərbaycan iqtisadiyyatında yaranmış böhranın aradan qaldırılması üçün konkret planlar və onların həlli yollarını müəyyənləşdirən Heydər Əliyev idarəçilikdə, kadrlarla işdə, intizamın və qanunçuluğun möhkəmləndirilməsi üçün atdığı ciddi addımlar sayəsində qısa müddət ərzində respublikamız sosial-iqtisadi inkişafda yüksək nəticələrə nail oldu.

## ƏDƏBİYYAT


1. Naxçıvan MR Dövlət Arxivi, fond 32, siyahı 1, iş 10
2. NMR DA, fond 1, siy.2, iş 19
3. NMR DA, fond 1, siy.2, iş 12
4. NMR DA, fond 713, siy.2, iş 14
5. F.Cəfərov. Naxçıvan MR-də mədəni quruculuq, Bakı, 2018
6. NMR DA, fond 351, siy.5, iş 70
7. H.Cəfərov. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları, Bakı: Elm və təhsil
8. NMR DA, fond 40, siy.1, iş 288
9. Azərbaycan SSR Sovetlər Qurultayının qətnamə və qərarları (1921-1937), Bakı, 1961
10. NMR DA, fond 1, siy.1, iş 232
11. NMR DA, fond 1, siy.1, iş 287
12. NMR DA, fond 1, siy.1, iş 39
13. NMR DA, fond 582, siy.1, iş 29
14. NMR DA, fond 1, siy.1, iş 414
15. NMR DA, fond 1, siy.1, iş 391
16. "Şərq qapısı" qəzeti, 1956
17. NMR DA, fond 613, siy. 1, iş 14/33


## ABSTRACT


**Zulfiya Ismailova**


**DEVELOPMENTAL WAYS OF EDUCATION IN NAKHCHIVAN IN 1920-1971**


The article deals with the ways of development of education in Nakhchivan in 1920-1971. Granting all nations living in Nakhchivan an equal right to free primary, compulsory general education, as well as, the right to education for each nation in their own language by the Nakhchivan Revolutionary Committee's Decree of August 25, 1920, the opening of 45 schools in Nakhchivan in the early years of the Soviet power, also organization of the Teachers' Seminary at the 2nd Congress of the Country Teachers in 1922 and its key role in the training of teachers find their reflection in the article. An increase in the number of teachers as a result of the Nakhchivan Two-Year Teachers' Institute's activity in connection with completion of primary general compulsory education and transition to seven-year education was highlighted in the article, too. The paper highlights transition to the general obligatory seven-year period from 1949 in the Nakhchivan Autonomous Republic, from 1959 to the eight-year, from 1966 to the ten-year of secondary education and to the 3-year primary education in the 1969-1970 academic year.


## РЕЗЮМЕ


**Зулфия Исмайлова**


**ПУТИ РАЗВИТИЯ ОБРАЗОВАНИЯ В НАХЧЫВАНЕ В 1920-1970 ГОДАХ**


В статье говорится о путях развития образования в Нахчыване в 1920-1970 годах. В статье нашло свое отражение представленное право всех национальностей, прживающих в Нахчыване, на равноправное бесплатное начальное, обязательное, общее образование каждого народа на родном языке, открытие в первые годы Советской власти в Нахчыване 45 школ на основе декрета Нахчыванского Революционного Комитета а от 25 августа 1920 года, организация Учительской Семинарии на 2-ом съезде учителей страны в Нахчыване в 1922 году и основная роль ее в подготовке учительских кадров. В связи с завершением начального общего обязательного образования и переходом на семилетнее образование в результате деятельности Нахчыванского Двухгодичного Института Учителей увеличилось количество учителей. В статье также отмечено осуществление с 1949 года в Нахчыванской АР общего обязательного семилетнего образования, с 1959 года – восьмилетнего, а с 1966 года десятилетнего образования, переход в 1969-1970 учебном году на трехгодичное начальное образование.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**SƏBUHİ HƏSƏNOV**
*AMEA Naxçıvan Bölməsi*
*Sebuhi.hesenov.88@inbox.ru*

**UOT 94 (479.24)**

# DƏFNETMƏ ADƏTİNDƏ SÖYÜD AĞACI İLƏ BAĞLI İNAMLAR (NAXÇIVAN MATERİALLARI ƏSASINDA)

***Biri terek, biri tal, Cıgaçının türkü uşu (Biri qavaq, biri söyüd, ağacların gözəli bu).***
***Manas dastanı***

**Açar sözlər:** *türk, söyüd, Naxçıvan, məzar, inam, ağac*
**Key words:** *Turkish, willow, Nakhchivan, grave, faith, tree*
**Ключевые слова**: *турецкий, ива, Нахчыван, мицар, вера, дерево*

Naxçıvan qədim mədəniyyət beşiklərindən biridir. Min illər boyunca burada yaşayan prototürklər mədəniyyətlər qurmuş, bu mədəniyyətlər ümumdünya mədəniyyətinin bir parçası olmuşdur. Arxeoloji qazıntılar zamanı əldə olunun maddi-mədəniyyət nümunələri bu bölgənin insan oğlunun qədim yaşayış məskənlərindən biri olduğunu söyləməyə əsas verir. Burada yaşayan insanların mənəvi dünyasını öyrənmək üçün ilk olaraq qəbir abidələri araşdırılmışdır. Burada tədqiq olunan maddi-mədəniyyət nümunələri əsasında Naxçıvanda yaşayan türklərin qədim inanclarını və digər türk xalqları ilə mədəni əlaqələri olduğu öyrənilmişdir. Burada toplanılan maddi-mədəniyyət nümunələrinə əsasən demək olar ki, qədim dövrdən türk xalqları ortaq inanc sisteminə malik olmuşlar. Qədim türklər ilk olaraq təbiət güclərinə inanmış, onlara sitayiş etmiş, qurbanlar kəsmişlər. Qədim türklər öz bölgələrində olan bəzi ağaclara tapınmışlar. Gərək türk, gərəksə də digər səyyahların əsərlərində türklərin ağaclara tapınmaları haqqında yetərincə məlumatlar vardır.

Türklərin qavaq, qayın ağacı, tut, qaraağac və söyüd ağacını müqəddəs bilmişlər. Bu ağaclar türklərin inanclarında mühüm yerlərdən birini tutmaqdadır. Söyüd ağacı da müqəddəs ağaclardan sayılmaqdadır. Söyüd ağacı naxçıvanlıların inancında mühüm yerlərdən birini tutmaqdadır. Bu ən çox dəfn adətində özünü göstərməkdədir. Aparılan etnoqrafiq tədqiqatlardan məlum olmuşdur ki, Naxçıvanın demək olar ki, hər bölgəsində dəfn zamanı insanın sağ və sol qoltuq arasında orta barmaq qalınlığında (təqribən 2-3 sm diametrində), bir qarış uzunluğunda (təqribən 13-20 sm) iki söyüd çubuğu qoyulmaqdadır. Bu inancın yaranması haqqında fərqli fərziyələr mövcuddur. Etnoqraf alim Hacı Qadir Qadirzadə Naxçıvanda mərhumunun kəfənlənmədən əvvəl ona söyüd çubuqlarından qoltuq ağacı qoyulduğunu qeyd edir. Onun topladığı etnoqrafik materiallardan bunun izahı tam bilinməsə də, əsas səbəblərdən biri xalq tərəfindən söyüd ağacının cənnət ağacı olması inancından irəli gəlməsi ehtimalı var (10, s. 203). Türk tədqiqatçısı Yaşar Kalafat "Ulu Canlar" adlı kitabında bu inanc haqqında qısa məlumat vermişdir. Cənubi Azərbaycan, Naxçıvan və Şərqi Anadoluda mərhumun qoltuqaltına söyüd ağacından hazırlanan iki çubuq qoyulur. Bu ağacların üzərinə Lailahə İllallah Muhamədən Rəsulullah yazılmaqdadır (8, s. 93). Aparılan təqdiqatlar nəticəsində Naxçıvanda mərhumun qoltuqaltına söyüd çubuqları qoyulsa da söyüd çubuğunun üzərinə hər hansı yazının yazılmasının şahidi olmadıq.

Naxçıvan bögəsində söyüd çubuqlarıyla dəfn edilmənin kökünü 3 əsas xətlə tədqiq etmək lazımdır.

1. Qədim Şumer mifiologiyasında söyüdə inam.
2. İslam dinində söyüd haqqında.
3. Türklərdə ağac kultu.

***1. Qədim Şumer mifiologiyasında söyüdə inam.***

Ağaca inam qədim zamanlardan başlayaraq tarix boyu demək olar ki, bütün xalqların inancında vardır. Türklərin İslam dinini qəbul etməsindən sonra ağaca inam nisbətən zəifləsə də öz əhəmiyyətini qoruyub saxlamağa davam etmişdir. E.ə qədim Şumer şəhər dövlətlərinin Azərbaycanın qədim dövlətləri ilə əlaqələri mədəni yüksəlişə kömək etmişdir. Bunu arxeoloji qazıntılar da təsdiq etməkdədir. Buna görə də Şümer mifologiyasında söyüd ağacının inanc sistemində tutduğu yer böyük əhəmiyyətə malikdir.

Tədqiqatlar nəticəsində bəlli olmuşdur ki, söyüd ağacının şirəsi ağrıkəsici salistik asit maddələrlə zəngindir. Buna görə də şumerlilər tərəfindən kəşf edilən söyüd ağacının bu xüsusiyyəti tibbdə geniş şəkildə istifadə olunmağa səbəb olmuşdur. 1828-ci ildə Munhen de Johann Buchner adlı tədqiqatçı salistin asit adlı maddəni əldə etdi. 1898-ci ildə Bayern şəhərində aspirin istehsal olunmağa başlanıldı (12, s. 213). Söyüd ağacındanda alınan ağrı kəsici maddələrin tapılması böyük ehtimalla Şumerlilərin onda sehir olma fikirinə gətirmişdir. Şumerlilərin söyüd ağacından bu şəkildə istifadə etməsi böyük ehtimalla onunla mədəni və siyasi əlaqələrə səbəb olan qədim Azərbaycan etnoslarına məlum idi. Buna əsaslanaraq demək olar ki, Naxçıvan bölgəsində söyüd ağacından dəfn zamanı mərhumun qoltuq altına qoyulması mərhumun daha az əzab çəkməsinə səbəb

olmasına inamla bağlıdır. Naxçıvanda hələ də söyüd ağacının şəfa verici bir ağac olduğuna inanılmaqdadır. Söyüd ağacının yarpaqlarından və çubuqlarından dərman kimi istifadə edilməsi qədim bir müalicə üsuludur. Xalq təbabətində insanın qızdırmasını müalicə etmək üçün onun qoltuq altına söyüd çubuğu qoyulur (1, s. 700). İlahə İnannnanın bağında bitən Huluppu ağacı da söyüd ağacıdır. Bilqamış dastanından da anlaşıldığı kimi söyüd ağacı da ölümsüzlüyü təmsil edir. İlahə İnanna bu ağacı kəsmək istəmiş, amma, bunu bacara bilmədikdə Bilqamışdən kömək istəmişdir. Bilqamış orada yuva quran ilanı öldürmüş, Lilliti qovmuş və Anzu quşunu qovalamışdır. İlahə İnanna isə huluppu ağacından hazırlanan davul və tokmağı Bilqamışa hədiyyə eləmişdir (3, s. 7). Daha sonra da deyəcəyimiz kimi şamanlar da davullarını söyüd ağacından hazırlayırdılar. Bu sadəcə Şumerdə deyil, bütün türk dünyasında söyüd ağacı ölümsüzlük ağacı sayılmışdır. Qədim bir Şumer təsvirində İlahə İnanna və Huluppu ağacı təsvir edilmişdir. Huluppu ağacı əyilərək budaqlarını yerə vurmaqdadır. Naxçıvan bölgəsində olan inanışa görə Novruz bayramı günü il təhvil olunanda söyüd ağacı budaqlarını əyərək axar sudan içir. Türk inancında su həyatı bildirdiyi kimi söyüd ağacının da əyilərək su içməsi həyatın yeniləndiyini təcəssüm etdirir.

Nəticə etibarı ilə söyüd ağacının ağrı kəsici və yenidən doğma inancı ilə qoyulduğunu söyləyə bilərik. Amma gərək Şumerdə, gərəksə də Naxçıvan bölgəsində olan nekropollarda arxeoloji qazıntılar zamanı söyüdün qoltuq altına qoyulmasına rast gəlinməmişdir.

### 2. *İslam dində söyüd haqqında*

Xalqımızın İslam dinini qəbul etdikdən sonra dəfnetmə inanclarında köklü dəyişikliklər olmuşdur. Aparılan tədqiqatlar nəticəsində aydın oldu ki, söyüd ağacı ilə dəfnetmə inancının Hz. Məhəmməd peyğəmbərin (s.a.v) dövründən başladığını inanılar. İnanca görə İslamın ilk dövrlərində ölülərin qoltuq altına nar, sidr, xurma və söyüd ağacı qoyulurmuş. Daha sonra Hz .Məhəmməd peyğəmbər (s.a.v) məzarlara yalnızca meyvə verməyən ağacların qoyulmasını söyləmiş bununlada bu ağaclardan ancaq söyüd ağacı saxlanmışdır. İnanışa görə söyüd ağacının qoltuq altına qoyulması sorğu-sual zamanı mühakimə edilən kimsənin ayaq üstə durması üçün bu çubuqlara yaslanmasıdır. Çünki, bu zaman onlar ağır bir yük yəni, öz əməllərini çəkməkdə çətinlik çəkməsidir.

Naxçıvanda dəfnetmə adətində söyüd ağacı ilə bağlı inanc sistemini araşdırdığımız zaman fərqli məlumatlar əldə etdik. Bu məlumatların hansının doğru olmasını öyrənmək üçün söyüd ağacının xüsusiy-yətlərini bilməliyiz. Topladığımız etnoqrafik materiallara əsasən deyə bilərik ki, söyüd çubuqlar ilə dəfnetmə səbəblərindən biri də insanın öldüyü zaman şişməsidir. İnanca görə söyüd ağacında olan maddələr insan vücudunun şişməsinin qarşısını alır. Naxçıvanda heyvanlar köpdüyü zaman (ən çox yonca yedikləri zaman) onun qulaqları kəsilip köp yatana qədər qaçırdırlar və ya söyüd ağacından bir parça kəsib heyvanlara yedirdirlər ki, köp yatsın, ölməsinin qarşısı alınsın. Söyüdün bu xüsusiyyətini nəzərə alaraq qoltuq altına qoyulması mümkündür. Bu adət Türkiyədə əsasən də Pasin bölgəsində yaşayan türklərdə söyüd yerinə (basdırılmaqdan öncə) dəmir alətin (qayçı, bıçaq və başqa) qoyulması ölünün şişməsinin qarşısını almaq üçündür (7, s. 182). Onu da qeyd edək ki, bu adət digər türk xalqları arasında geniş yayılmışdır.

Heyvanlara söyüd ağacının yedirtərək və ya suyunu içirərək sağaltmaq eyni zamanda digər türk bölgələrində də görünməkdədir. Amma bu bölgələrdə əsasən pir ağacları olmaqdadır. Naxçıvanın Badaşqan kəndində Qaraağac pirində qaraağac ağacının qabıqlarını qaynadaraq heyvanlara içirdilər ki, onlar sağalsınlar. Buna oxşar bir inanc da Malatyanın Onan kəndində yaşadılmaqdadır. Onar Dədə və Sakız Dədə türbələrində ağacın quru qabıqlarını qaynadıb heyvanlara içirdirlər ki, heyvanlar salamat olsunlar (9, s.157).

Digər bir inanca görə söyüd ağacında antibakterial maddələr cəsədi məzarda çürüdən mikrobları öldürməsidir. Belə ki, bu mikroblar cəsədi çürütdükdən sonra söyüdü yeməyə başlayırlar. Bu zaman söyüddə olan anti bakterial maddələr mikrobları öldürür. Beləliklə, xəstəliyin yaranmasının və yayılmasının qarşısını alır.

### 3. *Türklərdə ağac kultu*

Söyüd ağacının dəfnetmə zamanı qoltuq altına qoyulmasının əsas səbəblərindən biri türk adətləri ilə bağlıdır. Türklərin bəzi boyları qədim zamanlarda ölüləri ağaclardan asmışlar əsasən də şamançılığın daha çox olduğu bu türk tayfaları yas zamanı ölən kimsəni ağaclardan asmaq adətini uzun müddət yaşatmışlar. İbn Fədlan Xəzər dövlətinə səyahəti zamanı xəzərlərin ölülərini ağaclardan asdıqlarını söyləmişdir. Türklər ölülərini ağaclardan asar və orada çürüyərdilər (13, s. 63). Bu adət türklərin Altay bölgəsində və Sibir coğrafiyasında olduqca geniş yayılmışdır. Türk boylarından olan çuvaş türkləri də ölü evi dedikləri taxtadan sandıqlar düzəldər və ölülərini oraya qoyardılar (15, s. 488).

Qırğızların məşhur dastanı olan Manas dastanında söyüd ağacı haqqında dəyərli məlumatlar vardır. Almambet Sirqaka öz hekayəsini söyləyərkən, uşaqkən altında oynadığı söyüd ağaclarının kıtay və mancurlar içərisində müqəddəs ağac olduğunu bildirir. Hətta bu boyların bu ağaclara dua etdikləri, ayinlər təşkil etdiklərini bildidmişdir (6, s. 83).

Türklərdə ağacla dəfnetmə sadəcə 1970-ci ildə Özbəkistan da aparılan arxeoloji qazıntılar zamanı bir qadın skeletinin sinəsində tut ağacının budağına rastlanmışdır (5,s 46). Bu tapıntı nadir olduğundan bu ənənənin geniş xalq kütləsi tərəfindən icra edilmədiyi qənaətinə gəlinmişdir.

Söyüd ağacının həm də gizli mistik güclərlə bağlılığı haqqında məlumatlar vardır. Hacı Bektaşinin "Məsnəvi" əsərində "parlaq günəş tutulsun, söyüdün sirri açılsın" ifadəsi işlənmişdir. Qədim türk şamanlarında söyüd ağacı olduqca böyük əhəmiyyətə malik olmuşdur. Onlar söyüdün bəd ruhları qovalamaq kimi xüsusiyyətinin olduğuna inanırdılar. Şamanlar davullarının skeletini söyüd ağaclarından hazırlayardılar. Eyni

zamanda şamanlar şamanlığı təhvil alarkən ona davul, at qılı və söyüd ağacı verərlər (2, s. 180). Qədim zamanlarda davullar söyüd ağacından və qurd dərisindən hazırlanırdı. Dahi Nizami Gəncəvinin "Sirlər xəzinəsi" əsərində söyüd ağacının mistik güclərə malik olması haqqında beyt vardır.

*Titrəyir salxım söyüd oxla vurulmuş gibi,*
*Lalənin mangalından qalxan dumanmı, çənmi?* (4, s. 75).

Dahi şair burada qədim və orta əsrlər dövründə cadunun pozulması üçün həyata keçirilən bir ayini nəzərə çatdırır. Laləni yandıraraq üzərinə üzərlik atılır və söyüd budaqları ilə yelləyərlər ki, cadu sınsın və bədəndən çıxsın. Söyüdün cadudan və bəd ruhlardan müdafiə xüsusiyyətinin olduğuna inanırdılar. Digər yandan söyüd ağacı qədim türklərə yol göstərən ağac kimi müqəddəsdirilmişdir. Jan Paul Ronun "Qədim türk Mifologiyası" adlı əsərində maraqlı məlumatlar vermişdir. Türklər söyüd ağacından kiçik ox və çubuqlar ataraq fala baxarlar. Bunlar skiflərdə və hunlarda da görünmüşdür. Çubuqlar hansı tərəfi göstərirdilərsə o tərəfə gedərdilər (13, s. 98).

Manas dastanında Almammed və Manasın söyüd çubuqlarından tutmaları və daha sonra bıçaqla kəsərkən söyüdə qardaşlıq andı içərək demişlər, "Almammed və Manas Tanrı huzurunda həyatda və ölümdə bərabər olmaq üçün dost oldunuz, Bir anadan süd əmən qardaş oldunuz. Andı pozaraq bir-birinizə düşmən olsanız başınız bu çubuq kimi kəsilsin. Tanrının lənətinə gələsiniz, Umay ana bəlanızı versin" demişdirlər. Ardından da xalq demiş "Pis ruhlarınızı yer udsun, məzarınız açıq olsun" (11, s. 147-148). Buradan da anlaşıldığı qədəriylə söyüd ağacı türklər içində olduqca müqəddəs sayılmışlar. Aparılan etnoqrafiq tədqiqatlardan Naxçıvanda da söyüd ağacına müəyyən inamlar olduğunun şahidi olduq. Nəzir söyüdlərinin budaqlarının kəsən kimsənin tezliklə xəstələnərək öləcəyinə inam vardır (1, s.33). Hətta bu haqda çoxlu rəvayətlər mövcuddur. Qədim türk yurdu olan Naxçıvanın özünə məxsus inanc sistemində söyüd ağacına inam dəfnetmə adətində özünü qabarıq şəkildə göstərməkdədir. Bu adət uzun zamandan bəri yaşadılmaqdadır. Mərhumun qoltuqaltına söyüd çubuqlarının qoyulması ağac kultunun izlərinin yaşadıldığını göstərir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Folkloru Antologiyasi Naxçıvan folkloru, III cilddə I cild, Naxçıvan: Əcəmi, 2012, 765 s.
2. Bayat.F. Ana hatlarıyla türk şamanlığı, İstanbul: Ötüken, 2006, 287 s
3. Çığ.M.İ. Gilgameş-Tarihte İlk Kral Kahrama, İstanbul: Kaynak Yayınları, 2000, 26 s.
4. Gəncəvi.N. Sirlər xəzinəsi, "Lider nəşriyyat", Bakı: 2004, 264 səh.
5. Gürsoy.Ü. Türk kültüründü ağac kultu və dut ağacı / Türk kültürü Veli Bektaşı araşdırma dergisi, 2012/6, Imer.2005. s. 43-54.
6. İnan.A. Manas destanı. İstanbul: Milli Eğitim basım evi, 1992, 290 s.
7. Kadıoğlu.H.H. 3.Uluslararası türk şöləni Türk Kültürü Sempozyumu // Türk dünyası bağlantılı Pasin coğrafiyası halk inancları, İstanbul: Kenan Ofset, 2016, s. 179-188.
8. Kalafat.Y. Eski türk inanclarının izləri ilə. Ankara: Sistem ofset. 1990, 157s.
9. Kalafat.Y. Ulu canlar, Ankara: Berikan, 2011, 351 s.
10. Qadirzadə.H.Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr, Bakı:Elm, 2003, 368 s.
11. Manas dastanı, Bakı: Nurlan, 2009, 290 s.
12. Özeker. E. Salistik Asit ve bitkiler üzerinde etkileri/ Ege Universiteti. Ziraat fakultesi dergisi. 2005, 42 (1), s. 213-223.
13. Roux.J.P. Eski Türk mifiologiyası, Tərcümə edən Musa Yaşar Sağlam, Ankara: Bilgəsu, 2011, 154 s.
14. Şükürov.A. Mifiologiya, 4-cü kitab. Qədim türk mifiologiyası, Bakı: Elm, 1997, 232 s.
15. Tiryanski.E. Türklər və ölüm, tərcümə edən Hafize Er, İstanbul: Pünhan yayıncılıq, 2011, 639 s .


## ABSTRACT


**ON BURIAL HABIT TRUSTS ABOUT WILLOW TREE (based on Nakhchivan materials)**

İn the article is discussion when burial is puting willow stick to armpit at which the Nakhchivan Autonomous is an integral part of the Republic Azerbaijan of Republic. Putting willow sticks in the deceased's armpit during the burial is kept in some villages. Putting willow rods is one of the facts showing that tree cult are living in the by nasional. The reason for the emergence for this belief are different.


## РЕЗЮМЕ


**ВЕРЫ ОБЫЧАЙ ЗАХОРЕНИЕ С ИВОЙ (на основе Нахичеванским материалов)**

В статье упоминается вера в действующую Нахчыванскую Автономную Республику, являющуюся неотъемлемой частью Азербайджанской Республики. В некоторых деревнях во время погребения держат плечевые палки на шее умершего. Установка зудящих стержней - один из фактов, указывающих на то, что стволы деревьев живут в сообществе. Причины этого убеждения разные.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**NURLANA ƏLİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*nurlana_aliyeva@yahoo.com*

**UOT 94 (479.24)**

# "ERMƏNİ VİLAYƏTİ"NİN YARADILMASI TARİXİ COĞRAFİYAMIZA EDİLƏN QƏSDİR

**Açar sözlər:** *Naxçıvan, Erməni vilayəti, əyalət, mahal, Türkmənçay müqaviləsi*
**Key words**: *Nakhchivan, Armenia region, province, district, Turkmancay treaty*
**Ключевые слова:** *Нахчыван, Армянская провинция, провинция, махал, Туркменчайский контракт*

1813-cü ildə Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsindən sonra da bu dövlətlər arasındakı münasibətlər gərgin olaraq qalırdı.Çünki Rusiya Qacarlardan yeni torpaqlar qoparmaq məqsədindən əl çəkməmişdi. Hər iki dövlət məxfi şəkildə müharibəyə hazırlaşırdı.Gülüstan müqaviləsi bölgədə müvəqqəti sakitliyə səbəb olsa da, onun nəticələri nə Rusiyanı, nə də Qacarlar İranını qane etmirdi.İran tərəfi müharibənin əsassız yerə uduzulduğunu, Rusiya tərəfi isə qarşıya qoyulan məqsədin tam sürətdə həyata keçirilmədiyini hesab edirdi. Müqavilə Rusiyanın Cənubi Qafqazdakı hərbi uğurlarını təsdiq etsə də, bu dövlət bölgədə hələ də lazımınca möhkəmlənə bilməmişdi. Başlıca məqsəd - iki dövlət arasındakı sərhəd xəttini Arpaçay və Araz çaylarından müəyyənləşdirməklə Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya birləşdirilməsi planı hələ də reallaşmamışdı [ 7, s. 325-326]. Buna görə də Rusiya ilə İran dövləti arasında 1826-cı ildə yenidən müharibə başlandı.

1827-ci ilin iyununda Naxçıvana yürüş etməyi qərarlaşdıran rus generalı Paskeviç qoşunlarını Gərniçaydakı düşərgəyə toplamışdı. İyunun 19-da qoşunlar hərəkətə başlayıb, əvvəlcə Dəvəli kəndinə girdilər. İrəvan sərdarı əvvəlcədən əhalini İrəvana köçürdüyünə görə, kənd bomboş idi. V.Umudlu Naxçıvanda ruslara qarşı hər hansı müqavimət göstərilməsi barədə məlumatın olmadığını qeyd edir və ehtimal edir ki, Kərim xan müqavimət göstərə bilməyəcəyini zənn edib xanlığı tərk etmişdi. Buna görə iyunun 26-da Naxçıvan ələ keçirilmişdi [9, s.167]. Musa Quliyev isə apardığı tədqiqatlarda yazır ki, Paskeviç Naxçıvana hücum edəndə II Rusiya-İran müharibəsinin ən qanlı döyüşləri məhz Naxçıvanın 25 kilometrliyində yerləşən Xok kəndində baş vermişdir. Araşdırmalar göstərir ki, kənd sakinləri ruslarla əlbəyaxa döyüşlərə girmişlər. Bu döyüşlərdə ruslar xeyli itki vermişdilər [4, s. 127]. Bütün bunlara baxmayaraq Naxçıvan xanlığı işğal edilmişdi. Nəhayət, Naxçıvanın işğalından sonra İrəvan xanlığı da işğal edilmiş və ruslarla qacarlar dövləti danışıqlara yenidən başlamışdılar.

1828-ci ildə fevralın 10-da imzalanan Türkmənçay müqaviləsinə görə Naxçıvan və İrəvan xanlıqları da Rusiya imperiyasının tabeliyinə keçdi. Elə bu müqavilədən sonra Azərbaycanın tarixi coğrafiyasında böyük dəyişiklik edildi. Birincisi Azərbaycan iki yerə - Şimali və Cənubi Azərbaycana bölündü. İkincisi bu müqavilərdən bir az sonra tarixən Azərbaycan torpaqları olan Naxçıvan və İrəvan xanlıqları ərazisində, həmçinin Qafqazda, həm də Azərbaycan torpağında ilk dəfə olaraq ermənilərin fiziki - coğrafi ərazisi – qondarma "Erməni vilayəti" yaradıldı [11, s. 257].

1828-ci il martın 21-də Rusiya imperatoru I Nikolay İranla müharibənin başa çatması və Rusiya ilə İran arasında sülh imzalanması haqqında manifest verdi. Bu manifestdə yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi "qədim Ermənistanın bir hissəsi" elan olundu. Bununla da, I Pyotr dövründən başlayaraq Azərbaycan torpaqlarının işğalı üçün onun etnik mənsubiyyətinin zorla dəyişdirilməsinə dair dövlət siyasəti və strateji məqsədin yerinə yetirilməsi burada təsbit edildi. Erməni vilayəti yaradılması haqqında Çar I Nikolayın martın 21-də verdiyi fərmanda deyilirdi: "İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqları bundan sonra "Erməni vilayəti" adlandırmağı hökm edir və öz titulumuzu daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydası haqqında Ali Senat lazımi fərmanları öz vaxtında alacaqdır". İ.Kazımbəyli yazır ki, "Erməni vilayəti" İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. İrəvan əyalətinə keçmiş İrəvan xanlığının 15 mahalı, Naxçıvan əyalətinə 5 mahal və Ordubad dairəsinə 5 mahal daxil idi [3, s. 108]. Bu vilayət 26,9 min $km^2$ ərazini əhatə edirdi. Naxçıvan qəzasının tərkibinə 5 mahal – Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz daxil idi [14, s.342].

"Erməni vilayəti"nin cənub-şərq hissəsini təşkil edən Naxçıvan əyaləti $39^0$ və $41^0$ genişlikdə və Qarabağın şimal-şərqi ilə sərhəddə yerləşirdi, buradan isə Bombaks dağ silsiləsi davam olunurdu (Bundan sonra bu dağları yerlərinə görə adlandıracağıq, məsələn; Qarabağ dağları – N.Ə.); Cənub və Cənub-Qərb

tərəfdən İran əyaləti Azərbaycanla sərhəddə yerləşir və Araz çayına sərhəd xətti ilə yolu var idi; Şimal-Qərb tərəfdən isə İrəvan əyaləti ilə sərhəddə idi; bu tərəfdən sərhəd xətti Arazın sol sahilindən başlayır, əvvəl Araz çayı boyunca Dərələyəz kəndi Danzik mahalına qədər 40 verst yuxarıya, daha sonra isə Göyçə gölünə və Yelizavetpol dairəsinə birləşən və Zəngəzur, Eyvaz Xan və Damçerman kimi sahələr üzrə Qarabağ qoluna qədər uzanırdı. Cənub-Şərqdən şimal-qərbə (Qorçevan kəndindən Damçerman qoluna qədər) Əyalətin məsafəsi 150 verstdir, Cənubdan Şimala qədər və ya Abbas-Abaddan Salvarti sərhəd boyu dağlarına qədər orta genişlik isə - 60; təxmini hesablamaya görə Naxçıvan əyalətinin sahəsi 4.500 kvadrat verst və ya 450 m.desyatindən çox təşkil edirdi. Yerli mülahizəyə görə bu miqdarın ¾ hissəsini dağ kimi ehtimal etsək, 1,125 verst təşkil edəcək və ya 112,500 desyatin. [10, s.1-2].

Bir məsələni vurğulamaq istərdik ki, Erməni «tədqiqatçıları» «Naxçıvan XIX əsrin əvvəllərində də Ermənistanın tərkibində olmuşdur», - kimi yalnış və qeyri-obyektiv fikirlər söyləyirlər. İlk növbədə qeyd etməliyik ki, həmin dövrdə Ermənistan dövləti yox, «erməni vilayəti» yaradılmışdır. Həm də, Rusiya imperatoru I Nikolay 21 mart 1828-ci ildə xüsusi fərmanla İrəvan və Naxçıvan xanlıqları ərazisində yaratdığı «erməni vilayəti»ndə erməni dövlətçiliyindən heç bir əsər-əlamət yox idi. Yaradılan bu qondarma quruma qondarma ad seçilməsi də heç bir məntiqə uyğun deyildi. Çünki, İrəvan və Naxçıvan xanlıqlarının ərazisi Azərbaycan ölkəsinin bölgəsi idi. Bu ərazilərdə yaşayan əhalinin tərkibində müsəlmanlar mütləq əksəriyyət təşkil edirdilər. Bütün bunlara əhəmiyyət verməyən çar Rusiyası «görünür, bu qondarma adı qoymaqla onlar Ermənistan coğrafi anlayışını dirçəltmək və hansısa mərhələdə «erməni vilayəti» bazasında Ermənistan dövləti yaratmaq barədə düşünürlərmiş». Ermənilərin kütləvi surətdə Naxçıvana köçürülməsi bunu bir daha təsdiq edir [2, s.113].

Çarın fərmanından da göründüyü kimi“Erməni vilayəti” inzibati planda iki qəza və bir dairədən ibarət idi. İrəvan və Naxçıvan qəzaları və Ordubad dairəsi. Qəza rəhbərləri kimi Ehsan xan və Şıxəli bəy öz vəzifələrində saxlanılmışdı. Qəzalar rayonlara bölünürdü. Rayonların rəhbərliyində mirablar, məliklər, ağalar saxlanıldı. Ermənilər isə güman edirdilər ki, Rusiya qoşunlarının vilayətə gəlməsi ilə hər şey onların dediyi kimi olacaq, azərbaycanlı bəylər və xanlar qarşısında olan borclarını daha yerinə yetirməyəcəklər. Vilayət idarəsinin rəisi vəzifəsinə A.Çavçavadze təyin edildi. İdarənin üzvlüyünə iki rus hərbiçisi, erməni və azərbaycanlılardan ibarət imtiyazlı təbəqənin nümayəndələri daxil idi. Vilayətin idarəçiliyi, polis, məhkəmə orqanları, maliyyə təsərrüfatı rus hərbiçilərinin, mülki məmurların əlində idi.

İki ildən sonra, 1830-cu ildə “Erməni vilayəti”nin idarəsi əslən erməni olan D.Bebutova həvalə edildi. D.Bebutov fəaliyyətinin ilk dövründən burada ermənilərin mövqelərini gücləndirməyə başladı. Azərbaycanlı xanlara, bəylərə, ağalara qarşı güclü bir təqib kampaniyası başladı, idarəetmə metodunda dəyişiklik edildi. D.Bebutovun təkbaşına rəisliyi gücləndirildi, əvvəllər mövcud olan məşvərətçi orqanlar ləğv edildi.

Ermənilərin təkidi ilə vilayətin yeni statusunun möhkəmləndirilməsi naminə onun gerbi də qəbul olundu. Ermənilərin təkidi ilə qəbul olunmuş bu gerbdə həmin ərazilərin türklərlə bağlılığını xatırladan bir əlamət yox idi. Gerbin aşağı hissəsində Ağrı dağının şəkli çəkilmişdi. Onun fonunda tac və Eçmiədzin (Üçmüəzzin) monastırı, gerbin yuxarı hissəsində isə Rusiya taxt-tacının emblemi olan ikibaşlı qartal təsvir edilmişdi. Gerb Rusiya çarı tərəfindən 1833-cü il fevral ayının 27-də təsdiq olundu.

Çar hökuməti 1833-cü il iyunun 23-də «Erməni vilayəti»nin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etdi. İrəvan vilayətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. Əyalət dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi:

1. İrəvan dairəsi. Buraya Dərəçiçək, Qırxbulaq mahalları daxil idi.
2. Şərur dairəsi. Buraya Şərur, Vedibasar, Qarnibasar, Zəngibasar mahalları daxil idi.
3. Sürməli dairəsi. Buraya Sürməli, Dərəkənd-Parseniç mahalları daxil idi.
4. Sərdarabad dairəsi. Buraya Saatlı, Talin, Seyidli-Ağsaxlı, Abaran, Karpi, Sərdarabad mahalları daxil idi.

Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı. Paskeviçin tapşırığı ilə “Cənubi Qafqaz diyarının statistik təsviri”ni yazmış O.Evetski isə Naxçıvan və Ordubad dairələrinin birlikdə Naxçıvan əyalətini meydana gətirdiyini yazmışdır [12, s.103]. V.Qriqoryev də “Naxçıvan əyalətinin statistik təsvirində” Naxçıvan vilayətinin sərhədlərini təsvir edərkən Naxçıvan və Ordubad dairələrini Naxçıvan əyalətinin tərkibində göstərmişdir [10, s.2] V.Qriqoryev Naxçıvan dairəsinə daxil olan mahallar sırasında Naxçıvan, Əlincə, Xok və Dərələyəz mahallarının adını çəkmişdir [10, s.64]. XIX əsrin 30-cu illərindən sonrakı dövrdə Naxçıvan əyalətinin inzibati ərazi quruluşundan bəhs edən Z.Şahverdiyev Naxçıvan əyalətində 5 mahalın (Xok, Naxçıvan, Əlincəçay, Yaycı, Dərələyəz, Məvazi-Xatun) olduğunu yazmışdır [9, s.100] Akademik İ.Hacıyev isə Naxçıvan əyalətinə 5 mahal (Naxçıvan, Əlincəçay, Məvazixatın, Xok, Dərələyəz), Ordubad dairəsinə isə 5 mahal (Ordubad, Əylis, Dəstə, Biləv, Çənnəb) daxil olduğunu qeyd etmişdir [2, s. 31]. İ.Şopendə öz tədqiqatlarında Naxçıvan və Ordubad əyalət və dairələrinin hər birinin 5 mahaldan ibarət olduğunu bildirmişdir.

1833-cü il Əsasnaməsi Naxçıvan əyaləti və Ordubad dairəsində polis idarə sistemini olduğu kimi saxladı. Polismeyster təyin olunan Ehsan xan və qardaşı Şıxəli bəy bilavasitə “Erməni vilayəti” rəisinə tabe

idi. Məhkəmə sistemində dəyişiklik edildi. Naxçıvan əyalət məhkəməsi yaradıldı. Çar Rusiyasının və onun işğalçılıq siyasətinə xidmət edən ermənilərin Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan əyalətlərini "Erməni vilayəti" kimi qələmə verməsini təkzibedilməz tarixi faktlar rədd edir. Çünki çar Rusiyasının erməniləri İran və Türkiyədən həmin ərazilərə kütləvi sürətdə köçürməsindən əvvəl, sonradan "erməni vilayəti" adlandırılan ərazinin əhalisi 107 224 nəfər idi. Əhalinin 76,5 faizini azərbaycanlılar, 24,5 faizini ermənilər təşkil edirdi. Azərbaycanlıların əhalinin etnik tərkibində bu cür üstünlük təşkil etməsi həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edir. Bütün bunlara baxmayaraq "Erməni vilayəti" ərazisində demoqrafik vəziyyəti dəyişdirmək mümkün olmadı. Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: «Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz köçürüb gətirmişik [15, s. 21].

Fransız mənşəli rus tədqiqatçısı İ.Şopen Paskeviçin tapşırığı ilə 1829-32-ci illərdə «erməni vilayəti»ndə kameral siyahıyaalma keçirmişdir. Burada kəndlərin və əhalinin sayı göstərilmişdir. «Erməni vilayəti»ndə olan 1125 kəndin 1111-də ancaq Azərbaycan türkləri yaşayırdı. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən 310 kənd İrəvan əyalətində, 42 kənd Naxçıvan əyalətində, 6 kənd Ordubad dairəsində xaraba qalmış, əhalisi didərgin düşmüşdü [16, s. 510].

1829-cu il sentyabrın 2-də Ədirnədə Osmanlı dövləti və Rusiya arasında bağlanmış müqavilənin 13-cü maddəsi isə Osmanlı imperiyasında yaşayan ermənilərin kütləvi şəkildə, 18 ay müddətində daşınan əmlakları ilə birlikdə Azərbaycan torpaqlarına köçürülməsini rəsmiləşdirmişdi. Qeyd edək ki, bu müqavilənin 13-cü maddəsinin işlənilib hazırlanmasında Rusiya tərəfinin təkidi böyük rol oynamışdı [1, s. 179].

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi yerli əhali olan azərbaycanlıların kəskin müqaviməti ilə müşayiət olunurdu. Erməniləri Azərbaycana köçürməklə Çar Rusiyası Cənubi Qafqazda - Azərbaycan torpaqlarında bugünkü erməni dövlətinin əsasını qoydu [5, s. 25].

Çar I Nikolayın 10 aprel 1840-cı ildə imzaladığı qanuna əsasən Cənubi Qafqazın yeni inzibatı quruluşu yaradılır. Yeni qanunla "Erməni vilayəti" buraxıldı. "Naxçıvan qəzası" adlı inzibati ərazi bölgüsü yaradıldı. Yaradılan yeni qəza Gürcü - İmereti quberniyasının tərkibinə daxil edildi. 1844-cü ildə Qafqaz canişinliyi yaradıldı. 14 dekabr 1846-ci il qanunu ilə Qafqazın yeni inzibati bölgüsü təsdiq edildi [13, s. 118]. İrəvan və Aleksandropol qəzaları yeni yaradılan Tiflis quberniyasının tərkininə daxil edildi. Senatın 9 iyun 1849-cu il fərmanı ilə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bəyazid qəzalarından ibarət İrəvan quberniyası təşkil edildi.

AMEA-nın müxbir üzvü H.Səfərli qeyd edir ki, artıq bu zamandan etibarən, yəni işğaldan sonra, Rusiya hakimiyyəti altında olduğu zamanlarda Naxçıvan adlı inzibati ərazi bölgüsünün sahəsi bir sıra torpaqların digər inzibati ərazilərə verilməsi hesabına süni surətdə kiçildilir. Belə ki, Naxçıvan qəzasının sahəsi 1917-ci il Qafqaz təqviminin məlumatına görə 3939 kv verst (1 verst =1,0668 $km^2$), yəni 4202 $km^2$ müəyyənləşdirilmişdi [6, s. 28].

1849-cu ilin 9 iyununda İrəvan quberniyası yaradıldı və quberniya 5 qəzaya bölündü: 1)İrəvan qəzası; 2)Aleksandrapol qəzası; 3)Novobayzet qəzası; 4)Naxçıvan qəzası ; 5)Ordubad qəzası, Zəngibasar, Sürməli, Şərur, Sərdarabad mahalları İrəvan quberniyasına, Naxçıvan və Dərələyəz mahalı isə Naxçıvan qəzasına aid hesab edildi [17].

Beləliklə, Azərbaycan II Rusiya-İran müharibəsindən sonra, daha dəqiq desək Türkmənçay müqaviləsinə görə iki yerə parçalandı. Rusiya çarı I Nikolay Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda və qədim oğuz türklərinin yurdu olan İrəvan ərazində qondarma "Erməni vilayəti" yaratdı. Bu torpaqların çox qədim zamanlardan əsl sakinləri olan azərbaycanlıların etirazlarına isə Rusiya tərəfi məhəl qoymadı."Erməni vilayəti"nin yaradılması ilə Azərbaycanın tarixi-coğrafiyasına böyük dəyişiklik edildi. Bundan sonra həmin ərazilərdə etnik dəyişikliklər etdilər ki, əhalinin say dinamikasını ermənilərin xeyrinə dəyişdirsinlər, ancaq bu məsələ baş tutmadı.

## ƏDƏBİYYAT


1. Əliyev E. II Rusiya və İran müharibəsi, erməni vilayətinin yaradılması // Bakı Universitetinin "Xəbərləri" humanitar elmlər seriyyası, 2015, №1. s. 177-183
2. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2012, 192 s.
3. Kazımbəyli İ. Naxçıvan və İrəvan qalalarının çar Rusiyasına qarşı müqavimət hərəkatı, AMEA Naxçıvan Bölməsinin xəbərləri, ictimai və humanitar elmlər seriyasi, 2017, № 1, s.103-110
4. Quliyev M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri, Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, 184 s.
5. Mahmudov Y, Şükürov K. Naxçıvan: tarixi və abidələri, Bakı: Təhsi», 2007, 216 s.

6. Səfərli H. Naxçıvan bölgəsinin tarixi coğrafiyası haqqında qeydlər // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, İctimai və humanitar elmlər seriyası, 2012.-№1. Cild 8. s.26-31.
7. Süleymanov M.S. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən, Bakı: Hərbi nəşriyyat, 2008, 400 s.
8. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində, Bakı: Elm, 2008, 264s.
9. Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə, Bakı: Elm, 2004, 184 s.
10. Григорьев В. Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург : тип. Деп.внеш.торг., 1833, 263с.
11. Гусейнзаде Р.А. Кавказ и армяне. Баку: Печатный дом «Апострофф», 2014, 486 с.
12. Эвецкий О. Статистическое описание Закавказского края. Санкт-Петербург: Типогпафий Штаба ОКВС, 1835, 308с.
13. Нефедъев Н.А. Записка о Нахичеванской провинции, 22 ноября 1837 года // Система русского колониального управления в Азербайджане в половине XIX в. Колониальная политика российского царизма в Азербайджане. Москва-Ленинград, 1936, у. 1.
14. Сумбатзаде А. Промышленность Азербайджана в XIX в Баку: Изд – во АН Азербайджана ССР, 1964, 501с.
15. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911,с.63.
16. Шопен И. Исторической памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. Санкт-Петербург: Типография Импeрадской Академии Наук, 1852, 1231с.
17. http://www.wikiwand.com/az/Sərdarabad_mahalı

## ABSTRACT

**Nurlana Aliyeva**

### THE FORMED ARMENIA REGION IS INTENTION AGAINST OUR HISTORICAL GEOGRAPHY

This article is about events happened after Turkmancay and Gulustan treaty which was signed between Russia and Iran. As result of these treaties Armenia region was formed by I Nicolay degree 21 march 1828. Armenia region was divided Irevan and Nakhchivan province and Ordubad district. 15 districts of former Irevan were included Irevan province, 5 districts were included Ordubad region. These region surround 26,9 $km^2$ territory.

## РЕЗЮМЕ

**Нурлана Алиева**

### СОЗДАНИЕ АРМЯНСКОЙ ПРОВИНЦИИ-ЭТО НАМЕРЕНИЕНАШЕЙ ИСТОРИЧЕСКОЙ ГЕОГРАФИИ

Статья посвящена последствиям Гюлистанского и Туркменчайского соглашений, подписанных между Россией и Ираном. В результате этих договоров “Армянская провинция” была создана указом царя Николая I от 21 марта 1828 года. “Армянская провинция” была разделена на Ереванскую и Нахчыванскую области и Ордубад. В состав 15 провинций Иреванского ханства, 5 провинций Нахчыванской области и 5 районов Ордубадского района входила провинция Иреван. Эта провинция покрыла 26,9 тыс. $м^2$.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev

**VÜSALƏ VEYSƏLOVA**
*Gəncə Dövlət Universitetinin*
*vusala.veysalova@mail.ru*

**UOT 94(479.24)**

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GƏNCƏBASAR BÖLGƏSİNDƏ XALQ TƏBABƏTİ

**Açar sözlər:** *Gəncəbasar, xalq təbabəti, təbiət, bitki, dərman, xəstəlik*
**Key words:** *Ganjabasar, folk medicine, nature, plant, medicine, disease.*
**Ключевые слова:** *Гянджабасар, народная медицина, природа, лекарство, болезнь*

Keçmişdə Gəncəbasarlıların öz sağlamlıqlarının qayğısına qalmaq, xəlq təbabətinin sınaqdan çıxarılmış üsul və vasitələrinidən istifadə etməklə yeni-yeni müalicə formaları axtarıb tapmaq, el içində şöhrətlənən xalq bilicilərinə, təbib və loğmanlara güvənərək sağlam yaşamağa çalışmaq kimi müsbət keyfiyyətləri burada xalq təbabətinin geniş yayıldığından soraq verir. “Xəstəliklərin baş verməsi, heyvan, bitki və mineral mənşəli maddələrin müalicəvi xüsusiyyətləri, həmçinin xəstəliklərin proflaktika və müalicəsində bir sıra praktik üsullar, gigiyenik vərdişlər haqqında xalq tərəfindən toplanmış empirik məlumatların cəmindən ibarət olan xalq təbabəti”nin **[**11, 3**]** flora, fauna, zonal qurşaqlar (dağlıq, dağətəyi və düzən ərazilər) və hidroqrafik zənginliklərinə görə seçilən Gəncəbasar bölgəsində lokal-məhəlli xüsusiyyətləri ilə seçilməsi təsadüfi olmamışdır. Çox zəngin empirik biliklər və vərdişlər sisteminə əsaslanan, zamanın sınaqlarından çıxıb zənginləşən, bəşər övladının sağlamlığına xidmət edən xalq təbabəti mənəvi mədəniyyətin praktik əhəmiyyətli sahələrindən biri olmaqla, tarixən qədim dövrlərlə səsləşir. Mütəxəsislərin qənaətinə görə, xalq təbabəti dördüncü geoloji dövrün antropoloji zonalarında insan əmələ gələndən az sonra onların gündəlik müşahidəsi və təcrübəsi sayəsində meydana çıxmış, tədriclə formalaşmağa başlamışdır**.** Arxeoloq H.Kəsəmənlinin 1971-ci ildə Gəncəbasar hüdudlarına daxil olan Daşkəsən rayonunun Xoşbulaq kəndində apardığı arxeoloji qazıntı nəticəsində kurqan tipli qəbirdən aşkar etdiyi və Tunc dövrünün axırı - Dəmir dövrünün əvvəlinə aid edilən kəllə üzərində aparılan trapenasiya əməliyyatı (kəllə və ya lülə sümüyü boşluğunun cərrahi üsulla açılması) hələ 3000 il bundan əvvəl gəncəbasarlı təbabət bilicilərinin nəyə qadir olduqlarını aşkar surətdə göstərir **[**14, 26**].**

Azərbaycan şifahi xalq ədəbiyyatı qaynaqları, o cümlədən dastan yaradıcılığı otra əsrlər dövrünün xalq təbabəti haqqında təsəvvürlərimizi bir qədər də genişləndirir. “Kitabi-Dədə Qorqud” dastanının “Dirsə xan oğlu Buğacın boyunu bəyan edər” boyunda ağ atlı Xızır peyğənbərin məsləhəti ilə ana südü ilə dağ çiçəklərindən hazırlanmış məlhəmlə Buğacin yarasının sağaldılması, döyüşdə yaralanan Qaraca Çobanın öz yarasını keçə külü ilə sağaltması **[**12, 27;, 15,39], “Koroğlu” dastanında əsir düşən Dəmirçioğlunun düşmənlər tərəfindən soyulan dərisinin loğmanın hazırladığı məlhəmlə sağaldılması, “Məhəmməd və Güləndam” dastanında gözəl Güləndamın tanınmış el təbabəti bilicisi kimi təqdim olunması, hazırladığı dərmanların şəfaverici gücünün gerçəkliyi, Şumer-Türk ruhunun və əzəli-mənəvi qohumluğunun qırılmaz tellərini, mənəvi bağlarını təsdiqləyən “Bilqamıs” (“Gülqamış”) dastanında [7,103-108] əsərin qəhrəmanı Bilqamısın ölməzlik və şəfa çiçəyi axtarıb onu dənizin dibindən tapması, böyük sərkərdə Makedoniyalı İsgəndərin ömür boyu dirilik çeşməsi axtarışında dünyanı gəzməsi haqqında əfsanələr, yenə də “Koroğlu” dastanında yeddi ildən bir göydə ulduz toqquşmasından nur alan Qoşabulağın suyunda çimən hər kəsdə sonsuz güc və səs əmələ gəlməsi, “Lətif şah” dastanında sarılıq xəstəliyinə tutulmuş Mehican Soltanın Hindistan dağlarındakı bir bulaqda çimib şəfa tapması və s. kimi misallar xalq təbabəti ilə müalicənin uzun əsrlər boyu xalqın müraciət etdiyi müalicə üsulu olduğunu bir daha təsdiqləyir [13,138-141**].**

Gəncədə doğulub, böyüyüb yaşa dolan Şərqin böyük mütəfəkkiri, alimi və şairi Nizami Gəncəvi yaradıcılığında Gəncəbasar elinin xalq təbabəti haqqında maraqlı məlumatlar əldə edə bilirik. Şairin əsərləri ilə tanışlıq göstərir ki, o, antik yunan-Roma, ümumiyyətlə Şərq təbabəti ilə yaxından tanış olmuş, bunlardan yeri gəldikcə əsərlərində istifadə etmişdir [4,23]. Təbabəti “elmlər elmi” adlandıran N.Gəncəvinin əsərlərində insanın bədən quruluşu, orqanizmin daxili üzvləri, bir sıra xəstəliklər və onların müalicəsi zamanı istifadə olunan dərmanlar, pəhriz saxlamağın xeyri, düzgün qidalanma, içkinin zərəri və s. haqqında ətraflı məlumatlara rast gəlmək mümkündür [3,138**].** Xüsusilə böyük şairin insanın daxili orqanlarını obrazlı şəkildə tərənnüm etməsi onun insan anatomiyası və gigiyenasına yaxından bələd olduğunu təsdiqləyir. “Sirlər xəzinəsi”ndə şair yazır:

Bu yarımisti Nəfəsabad (diyarında)
Günorta şahı başda oturmuşdur.
Qırmızı atlı ədəblə onun qabağında,
Ləl qəbalı zəfər əsgəri bir yanda.
Acıqlı bir cavan onun şikar kəşfiyyatçısı,
Ondan aşağı qəmgin bir (qara qul dayanmışdı).
Kəməndatan pusquya durmağa hazırlaşmış,
Bir misbədənli (pəhləvan) özünə günəşdən zireh taxmışdı.[9, 62].

Mətnə R. Əliyevin verdiyi izahdan aydın olur ki, burada şairə görə, nəfəsabad – ağciyər, günorta şahı – qəlb, qırmızı atlı – ürək, ləl qəlbli zəfər əsgəri – qaraciyər, qara qul – dalaq, kəməndatan – mədə, misbədənli pəhləvan – böyrək, acıqlı bir cavan isə - öd kisəsidir [2, 348].

Gəncəbasar bölgəsi əhalisinin xalq təbabəti sahəsində əldə etdiyi empirik bilik və vərdişlərin araşdırılmasından aydın olur ki, burada təbii usulla aparılan müalicənin əsas vasitələri yabanı və mədəni bitkilər, heyvandarlıq məhsulları, mineral tərkibli maddələr və mədən suları olmuşdur.

Xalq təbabətinin araşdırıcıları təsdiq edirlər ki, "Azərbaycan xalq təbabətinin bütün tarixi ərzində bitki mənşəli dərman vasitələrindən daha geniş şəkildə istifadə edilmişdir. Bu Azərbaycan təbiətinin bitki örtüyü ilə zənginliyindən irəli gəlir" [2,354]. "Dünyanın əksər xalqlarında olduğu kimi, azərbaycanlıların (o cümlədən gəncəbasarlıların – V.V.) da xalq təbabətində müalicəvi bitkilər əsas yer tutmuşdur. Belə ki, onlar əsrlər boyu təbiətdə yetişən yüzlərlə otu və çiçəyi sınaqdan keçirmiş, tərkibinə və təsiredici keyfiyyətinə bələd olduqdan sonra müxtəlif xəstəliklərə qarşı tətbiq etməyə başlamışlar" [6,16]. Gəncəbasar bölgəsində istər yabanı şəkildə yetişən, istərsə də mədəniləşdirilmiş bir çox bitkilər olmuşdur ki, onlardan itburnu, kəklikotu, qəfliçiçəyi, əvəlik, boymadərən, andız kökü, bağayarpağı, çaytikanı, zirinc, moruq, yaealması, çobanyasdığı, xaşxaş, yemişan (ağ və qara növləri), yarpız, nanə, səhləb, şomu, unnuca, yemlik və s., eləcə də bostan-tərəvəz və bağçılıq məhsulları – qarpız, yemiş, xiyar, badımcan, soğan, sarımsaq, turp (ağ və qırmızı növləri), kələm, əksər tərəvəzlər, alma, heyva, üzüm, nar, gilas, gavalı, əncir, tut, ərik, xurma, armud, zoğal, alça və b. xalq təbabəti bilicilərinə, ümumiyyətlə əhaliyə müalicəvi keyfiyyətləri yaxşı tanış olduğundan, səmərəli surətdə istifadə edilmiş, həm çərəz kimi, həm də mürəbbə, bəkməz, qax, axta, turşu, albuxara, qaysı, quru (alma, heyva, armud qurusu) şəklində sağlamlığa xidmət etmişdir.

Bölgədə maldarlıq geniş şəkildə inkişaf etdirilərək təsərrüfat məşğuliyyətinin əsas sahəsinə çevrildiyindən, burada yağ, pendir, qatıq, süd, ət, şor, dələmə, ayran, qurud, süzmə, keçi piyi, at və uzunqulaq südü, ilan zəhəri və yağı, ayı, kirpi və dəvə əti, heyvan sidiyi və s. kimi məhsulların əksəriyyəti yemək öynəsində başlıca yer tutmuş, onların bəzilərindən isə müalicə məqsədləri üçün istifadə edilmişdir. Bölgənin "Sərkar suyu", "Kolayır suyu", "Naftalan nefti" kimi mineral mənşəli müalicə vasitələri bu gün də əhalinin yararlandığı şəfalı vasitələrdir.

Tədqiqatlar göstərir ki "ot-çəmən, meyvə və giləmeyvə, mineral-mədən və heyvan mənşəli məhsullardan alınan dərmanlar müxtəlif cövhər, məcun, həb, dəmləmə, şirə, həlim, maz, məlhəm şəklində hazırlanır, müvafiq xəstəliklərin müalicəsində istifadə olunurdu. Maraqlı cəhət isə bu idi ki, zaman-zaman bu dərman məhsullarının keyfiyyəti yaxşılaşır, çeşidi artırdı. Təbabətin atası, eramızdan 400 il əvvəl yaşamış yunan həkimi Hippokrat 200 dərmanın, Diaskorid (eramızın I əsri) 400 dərmanın, Qalen (eramızın II əsri) 500 dərmanın, Əbu Əli ibn Sina (eramızın X əsri) 800 dərmanın təsvirini vermişlər. XVII əsrdə nəşr olunmuş dərmanlar haqqında Nürnberq məlumat kitabında 1300 dərman verilmişdir]. Etnoqraf Q.Cavadov yazırdı ki, keçmişdə "dərmanlar müxtəlif olduğu kimi, onların hazırlanması üsulları da fərqli olmuşdur. Yəni otlardan, çiçəklərdən hazırlanan dərmanlar, əsasən, quru şəkildə və ya həlim halında, ağac və kollardan, bitki köklərindən hazırlanan dərmanlar şirə, cövhər və ya çay halında, heyvan mənşəli yağlardan hazırlanan dərmanlar isə məlhəm şəkində hazırlanırdı. Hər bir dərmanın hazırlanması ölçüsü, norması mövcud idi. Əks təqdirdə onların təsir qüvvəsi mənfi nəticə verə bilərdi [4, 50-51].

El arasında "həkim", "loğman", "təbib" və s. adlarla məşhur olan təbabət biliciləri çalışardılar ki, hazırladıqları dərman vasitələri təbii şəkildə, yəni qatqısız (cövhər, dəmləmə, həlim, şirə, şərbət) olsun. Qarışıq tərkibdə hazırlanan maz, həb, məlhəm, məcun, ekstrat və s. tərkibinə isə, bir qayda olaraq, bitki və ya heyvan mənşəli yağlar, mum, un, təbaşir, yumurta, bal, duz, su, süd, qatıq qatardılar. Bütün bu əlavələr dərmanların əks-təsirini aradan qaldırmaqla yanaşı, sağaltma gücünü daha da artırmağa hesablanırdı.

Keçmişdə Gəncəbasar bölgəsində, Azərbaycanın bütün bölgələrində olduğu kimi, xəstəliklərin xalq təbabəti ilə müalicəsi əsasən sümük sınıqları və çıxıqları, müxtəlif açıq və bağlı yaralar, qan-damar və ürək, tənəffüs yolları, daxili və xarici orqanların xəstəliklərinin müalicəsi istiqamətində inkişaf etdirilmişdir.

Sümük sınıqları və çıxıqlarını xalq arasında "sınıqçı" adı ilə şöhrətlənən xüsusi adamlar müalicə edirdilər. Məişət və iş travmaları, diqqətsizlik, qeyri-ənənəvi fiziki işləri yerinə yetirməkdən yaranan sınıq və çıxıqlar, güləş və ya döyüş zamanı, eləcə də müxtəlif idman oyunları zamanı rast gəlinən zədələr və s.

sınıqçıların müalicə edərək sağaltdıqları sınıq və çıxıqlar idi [2, 357]. Gəncəbasarın, demək olar ki, hər bir kəndində keçmişdə sınıqçı olmuşdur ki, onlar da əhalinin dadına yetərincə çatmışlar. Onların tətbiq etdikləri müalicə üsulları olduqca rəngarəng, həm də effektli olurdu. Əvvəlcə sınmış yerləri müəyyən etməyə çalışan sınıqçılar həmin əzaları əllə nizamladıqdan sonra müxtəlif qatqılardan (bal, yağ, xəmir, yapışqan, yumurta sarısı, duz, zəy, ağac saqqızı, təbaşir və s.) yaxı (qatı məlhəm) hazırlayaraq parça üzərinə çəkib sınmış yerə qoyur, sonra sınmış əza tərpənməsin deyə, ətrafına ağacdan və ya qarğıdan mıl (çilik) bərkidirdilər. Həfdədə bir dəfə olaraq sınığın vəziyyəti yoxlanar, sınığın tez bitişməsi üçün xəstəyə xaş və ya kəllə-paça suyu yedirtmək tövsiyyə olunardı. Sınıqçılar baldır-bud, çanaq sümüyü, ayaq, qol, qabırğa, onurğa, boyun sınıqları zamanı öz fərdi məharətlərini göstərər, bununla da el arasında hörmətləri birə-beş artardı. Sınıqçıların əldə, ayaqda, beldə burxulma olduqda isə ən çox istifadə etdikləri üsul dartmaqla yerindən çıxmış əzanın yerinə salınması idi. Bundan sonra həmin əzanın hovunu (şişini) çəkmək üçün oraya, üstünə yumurta yaxısı çəkilən çirkli yun bağlayardılar [8,88]. Keçmişdə ən hörmətli peşələrdən biri sayılan sınıqçılıq peşəsi atadan oğula, oğuldan nəvəyə nəslən ötürülərək yaşadılırdı. "Həm də burada usta-şagird ənənəsi mövcud idi. Ustalar aylarla, illərlə öz yanlarında şagirdlər saxlar, təcrübələrini onlara öyrədərdilər. Ancaq müəyyən təcrübə keçən, ənənələrə yiyələnən şagirdlərə sınıqçı adı verilərdi" [4, 54].

Müxtəlif açıq və bağlı yaraların sağaldılmasında da el təbibləri çox böyük vərdiş və empirik biliklərə sahiblik etmişlər. Gəncəbasarda dəri yaralarını – çiban, ziyil, dolama, eləcə də döyüş zamanı, təsərrüfat işləri vaxtı, məişət zəminində, ehtiyatsız davranışdan və s. əmələ gələn yaraları sağaltmaq üçün el təbibləri yandırılmış parçanın külündən, yumurta sarısının yağından, ağ turpun balla qarışıq məlhəmindən, üzərlik yarpağından, xəmirdən, kələm və soğan pörtləməsindən, bağayarpağından, müxtəlif şəfalı ot və bitkilərin yarpaqlarından istifadə edirdilər. Etnoqraf M.Allahmanlı yazır ki, Gəncəbasarla qonşu olan Qazax bölgəsində gərməşövün gövdə və budaqlarını döyüb un halına salır, kərə yağı ilə qatıb məlhəm hazırlayaraq gec sağalan irinli yaraları müalicə edirdilər [1,154]. Yaraları tez sağaltmaq üçün üzərliyin toz şəkilli kökü ilə qoyun piyindən hazırlanan məlhəmin, çolpa ətinin həll bişmişinin, eləcə də mal ödü ilə bir diş sarımsaq qatışığının da təbiblər tərəfindən istifadə edildiyini araşdırmalar sübut edir [5,120]. Dəri yanıqlarında isə ən çox işlədilən balıq yağı, mürəkkəb, qatıq, kartof unu məhlulu, sidik, gil-palçıq məhlulu və s. olurdu. Yeri gəlmişkən, qeyd edək ki, su çiçəyi, qızılca, qoturluq, dəmrov, məxmərək və s. kimi dəri xəstəliklərinin müalicəsində at, ulaq və dəvə südündən, sütül əncir südündən, paltar sabunu məhlulundan, tut bəkməzindən və s.
istifadə edilir, xəstə gicitikan və ya acı biyanın qaynanmış suyunda çimizdirilirdi.

Tədqiqatlardan aydın olur ki, "qan təzyiqinin normal səviyyəsinin saxlanmasında, orqanizmdə qan dövranının tənzimlənməsində qan damarları fövqəladə rol oynayır. Bəzən müxtəlif xəstəliklər ucbatından qan damarları kirəcləşir, onların keçiricilik qabiliyyəti azalır, bu da orqanizmdə fəsadlı xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Odur ki, xalq təbabəti biliciləri bu fəsadları aradan qaldırmaq üçün çoxlu müalicə vasitələri düşünüb tapmış, onları tətbiq etməklə ürək-damar sisteminin sağlamlığını təmin etmişlər" [2,358]. Gəncəbasarlı təbabət biliciləri tövsiyyə edirdilər ki, üzüm yemək və şirəsini içmək, kələmi dəfnə yarpağı ilə birgə qaynadıb suyunu içmək, ildə bir dəfə qan aldırmaqla qanı təmizləmək, şaftalı, gülövşə nar, çiyələk, tut, xurma, alma (əsasən qızıləhmədi alma), qara və ya qırmızı yemişan, qırqovul əti, noxud, ləpəli meyvələr yemək də qan dövranını yaxşılşdıraraq qan-damar sistemi xəstəliklərinin qarşısını alır. Ürək xəstəlikləri zamanı qızılgül, süsən iyləməyi və suyunu içməyi, turş nar və heyva suyu, mərəçüyüd şirəsi, zirinc və bal şərbəti içməyi də gəncəbasarlı təbiblər əsas müalicə vasitələri kimi tətbiq edərdilər.

Tənəffüs yollarının xəstəlikləri əsasən soyuqlamadan və keçici virusların təsirindən yaranır, müalicə edilmədikdə ciddi fəsadlara yol açırdı. Belə xəstəlikləri müalicə etmək üçün təbiblər Gəncəbasarda kəklikotu, itbirnu, qəfliçiçəyi, nanə, yarpız, heya tumu və zoğlarının dəmləmələrini, isti halda bal şərbətini, bişmiş inək südünü məsləhət görərdilər. Xörək kimi isə əvəlikli umac, qaşxəngəli, əriştə istisi yeməyi faydalı hesab edərdilər. Boğaz ağrısı zamanı badamcıqlar şişib irinləyərdisə, onu səhər-səhər mal örüşə çıxan zaman əli düşərli qadınlar (boğaz basanlar) sığıyıb basar, xəstəliyi dəf edərdilər. Boğazı bəlğəmdən təmizləmək üçün yumurtanı ilidib uşaqlara içirtmək də müaııcə vasitəsi idi. Xalq təbabəti araşdırmalarında qeyd olunan nar və yasəmən çiçəyini, moruğu balla qarışdırıb yeməyin, təzə balın ılıq şərbətini, razyana toxumunu və kökünü, eləcə də baldırğanın kötük və gövdəsini qaynadıb süzüb suyunu içməyin [5, 74-75] sinənin təmizlənməsində və tənəffüsün rahatlığında rolunu gəncəbasarlı el təbibləri də gözəl bilmişlər. Ağ ciyər xəstəliklərində kirpi əti və ispanaq yemək, uzunqulaq südü və ya səhərlər bir çayqaşığı qətran içmək də effektli müalicə vasitəsi hesab olunurdu.

Keçmişdə Azərbaycanın əksər bölgələrində olduğu kimi, Gəncəbasarda da məişətdə geniş yayılmış xəstəliklərdən biri qızdırma olmuşdur. Azərbaycanda tüğyan edən bu xəstəliyin nəticələrindən dəhşətə gələn A.Qaraşarlı 1926-1927- ci illərdə Ağdam qəzasının Ağcabədi-Xəlfərəddin kəndinin əhalisinin sanitar-məişət durumunu tədqiq edərkən yazırdı ki, burada doğulan uşaqların 75 %-i müxtəlif xəstəliklərdən, o cümlədən qızdırmadan dünyasını dəyişir [16, 97]. Qızdırmanı müalicə etmək üçün təbiblər qarpız suyunu, qarpız

qabığının balla qarışdırılmış qatqısını, yumurta sarısının araqla qatqısını, zoğal, zirinc suyunu, quru meyvə çaylarını verərdilər. Kirpi dərisini odda yandırıb tüstüsünü qızdırmaya tutulan xəstənin yaylıqla bağlanmış başına vermək də bir ayrı müalicə üsulu idi [10, 68-69].

Azərbaycanın, eləcə də Gəncəbasarın kəndlərində daim əhalinin əziyyət çəkdiyi xəstəliklərin bir qismini də oynaq, bel və boyun fəqərələrini əhatə edən revmatik səciyyəli xəstəliklər təşkil etmişdir. Xalq arasında bu xəstəliklər "duzlaşma" və ya "yel xəstəlikləri" adı ilə məlum idi. Yel xəstəlikləri adi (duran yel -V.V) və qızıl yel olmaqla iki formada təzahür etmişdir [2, 368]. Bu xəstəliyi müalicə etmək üçün sınaqdan çıxarılmış vasitə xəstəni təzəcə soyulmuş keçi, qoyun və ya mal dərisinə bükərək tərlətmək idi. Müalicənin səmələliliyini artırmaq üçün bəzən dəriyə təbii bal da sürtürdülər ki, xəstə yataq vəziyyətində daha çox tərləsin və xəstəlikdən xilas olsun. "Ənənəvi xalq təbabətində yel xəstəliklərini müalicə etmək üçün təbii neft və qır (mazut) qaynaqlarına da müraciət edilirdi. Gəncəbasarda Eldar kəndlərinin əhalisi burada təbii şəkildə yerdən çıxan mazut gölünün suyunu ("qır suyu") yığaraq iri çənlərdə qızdırır, onun içərisində oturmaqla yel xəstəliyini müalicə edirdilər. Bəzən mazutu bədənə sürtərək 5-6 saat günəş vannası qəbul etmək də faydalı təsir göstərirdi" [2, 368-369]. Bölgədə belə faydalı qaynaqların ən önəmlisi isə uzaq keçmişdən məlum olan Naftalan nefti idi. Hələ XIII əsrdə Azərbaycandan keçən məşhur səyyah Marko Polo Azərbaycanla Gürcüstan sərhəddində quyulardan yüzlərlə gəmi yükü qədərincə çoxlu neft (yağ-mazut) çıxdığını, onun yeməyə yox, lakin yandırmağa yararlı olduğunu, qotur tutan və keçəlləşib tükləri tökülən dəvələrə yaxıldığını, uzaq ölkələrdən bu yağın dalınca gəlib apardıqlarını yazırdı [17, 32]. İstər bəhs etdiyimiz XIX-XX əsrin əvvəllərində, istərsə də müasir dövrdə Naftalan nefti ilə müalicənin səmərəliliyi elmi təbabətə də məlum olmuş, bir çox xəstəliklərin (revmatizm, iflic, apatiya, dəri və sümük xəstəlikləri, əzələ ağrıları, soyuqdəymə və s.) müalicəsində Naftalan nefti (palçığı) effekli nəticələr vermişdir. Həm bütün Gəncəbasarın, həm Azərbaycanın, həm də dünyanın yuxarıda sadaladığımız xəstəliklərə düçar olan əhalisi bu gün Haftalanda fəaliyyət göstərən "Qaşaltı", "Çinar", "Qarabağ", Sehrli", "Möcüzəli" və s. kimi şəfa ocaqlarına üz tutur, tam müalicə olunurlar.

Keşmişdə Azərbaycanda, eləcə də Gəncəbasar bölgəsində elmi təbabətin olmadığı və ya zəif inkişaf etdiyi bir dövrdə xalq təbabəti ilə müalicə o dərəcədə inkişaf etmişdi ki, burada çöpçü, dəllək, ovsunçu, mamaça, loğman, sınıqçı, zəli qoyan, küpə düzən, qan alan və s. kimi peşəkar ara həkimləri (türkəçarələr) fəaliyyət göstərmiş, əhalinin dərdlərinə bacardıqları qədərincə çarə tapa bilmişlər [15, 543-546].

Gəncəbasar bölgəsinin xalq təbabəti üzrə araşdırmalarımızdan göründüyü kimi, əhali əsrlərcə sınaqdan çıxarılmış ənənəvi müalicə üsul və vasitələrindən istifadə etməklə öz sağlamlığı keşiyində durmağa, elin təbabət bilicilərinə müraciət etməyə, düçar olduğu mərəzdən qurtulmağa çalışmışdır. Elmi təbabətin ilkinlik dövrlərində bu təbabət üsul və vasıtələri ilə müalicə məqbul sayılmışdır.

## ƏDƏBİYYAT


1. Allahmanlı M. Azərbaycanın qərb bölgəsinin mənəvi mədəniyyətindən. Bakı, Nurlan, 2011
2. Bünyadov T., Vəliyev F. Xalq təbabəti. // Azərbaycan etnoqrafiyası. Üç cilddə, III cild, Bakı, Şərq-Qərb, 2007
3. Bünyadova Ş.T. Nizami və etnoqrafiya. Bakı, Elm, 1992
4. Cavadov Q.C. Xalq təbabətimiz məişətimizdə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1995
5. Əfəndiyev S., Rəcəbov A. Azərbaycan xalq təbabətindən. Bakı, Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi, 1992
6. Əhmədova V.Ş. Azərbaycan xalq təbabəti (etnoqrafik aspekt) // Tarix elm. nam. alimlik dərəcəsi ... diss. aftoref. Bakı, 2009
7. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı, 1998
8. Əliyev Ə. Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti. Bakı, Elm, 1995
9. Gəncəvi N. Sirlər xəzinəsi. Bakı, Elm, 1981
10. Xalq təbabətinin izi ilə. Bakı, Azərnəşr, 1986
11. Xalq təbabəti xəzinəsindən. Bakı, Azərb. Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 1992
12. Kitabi-Dədə Qorqud. Bakı, 1978, səh. 27; Захидова Х. Народная медицина. // Азербайджанцы. М., Наука, 2017.
13. Veysəlova V.R. Azərbaycan məhəbbət dastanları etnoqrafik mənbə kimi. Bakı, Elm, 2003.
14. Гаджиев Д.В., Кесаманлы Г.П. Трепанасия черепа в Азербайджане в древности // История медицины. № 2, 1977; Qasımova R. Paleoantropoloji materiallarda ibtidai "cərrahiyə" izləri // "Elm və həyat" jur. 1988, № 4
15. Захидова Х. Народная медицина. // Азербайджанцы. М., Наука, 2017
16. Карашарлы А. Санитарно-бытовые очерки азербайджанской провинции. // Изв.ООИА 1928 № 5
17. Путешественники об Азербайджане. т. I, Баку, Изд-во АН.Азерб ССР, 1961

## ABSTRACT

**Vusala Veysalova**

**TRADITIONAL MEDICINE OF THE GANJABASAR REGION IN THE XIX - EARLY XX CENTURY**

The presented article is dedicated to ethnographic investigation of folk medicine in Ganjabasar region in the XIX-XX centuries. In the article the essence of folk medicine, the role and place of the population in the spiritual culture of the region, the use of medicinal plants in folk medicine, the medicines prepared by medical professionals, their ingredients and others like issues that are ethnically motivated are being investigated sequentially. It is noted that the people of the region have tried to take care of their health by using conventional treatment methods and means, which have been tested for centuries in their lives, applying to the hands of healthcare professionals and get rid of the suffering. In the early stages of scientific medicine, these methods and means were considered to be acceptable in terms of methods and means.



## РЕЗЮМЕ

**Вусала Вейсалова**

**НАРОДНАЯ МЕДИЦИНА ГЯНДЖАБАСАРСКОГО РЕГИОНА XIX – НАЧАЛА XX ВЕКА**

Bazar münasibətlərinin formalaşması şəraitində şəxsiyyətin iqtisadi fəallığının artmasına maneçilik göstərən amillər tədricən aradan qaldırılmaqdadır. Totalitar rejimdən miras qalmış, bu amillər sırasında aşağıdakılar xüsusi yer tutur: mülkiyyət üzərində dövlətin inhisarı, əməkçi insanın mülkiyyətdən uzaqlaşdırılması; mülkiyyətin müxtəlif formalarının olmaması üzündən iqtisadi inkişaf mənbələrinin

məhdud miqyas alması; rəqabət olmadığı üçün iqtisadi təşəbbüskarlığın və maddi marağın stimullaşdırılmaması; konkret sahibinin olmaması nəticəsində iqtisadi resurslara israfçı münasibət bəslənilməsi; planı ödəmək naminə istehsal göstəricilərinin süni sürətdə şişirdilməsi, zərərlə işləyən müəssisələrə qabaqcıl müəssisələrin təmənnasız köməyi pərdəsi altında onlarda ələbaxımlılıq əhvalının yaradılması və sair (18, s.36-38).

Bazar iqtisadiyyatının şəxsiyyətə təsiri o qədər güclü olur ki, zəmanəmizin görkəmli filosofu E.From onun hətta xüsusi şəxsiyyət tipini – «bazar tipli şəxsiyyəti» yaratdığını göstərir. O həmin şəxsiyyət tipinin əsas səciyyəsini aşağıdakı kimi göstərir: «özünə və başqa insanlara münasibətləri əmtəəyə olan münasibəti xatırladan, qiyməti mübadilə dəyəri ilə müəyyən olunan şəxsiyyət oriyentasiyasını, mən bazar oriyentasiyalı şəxsiyyət adlandırıram» (20, s.66).

E.From bazar tipli şəxsiyyətin xarakterik cəhətlərini daha müfəssəl təsvir edərək göstərir ki, bu şəxsiyyət hər şeyi əmtəə kimi qavrayır. Təkcə əşya və predmetlər deyil, şəxsiyyətin özü də, onun fiziki enerjisi, vərdişləri, biliyi, rəyləri, hissləri, hətta gülümsəməyi də əmtəə kimi qəbul olunur. Hər cür şəraitdə əlverişli sövdələşməyə nail olmaq insanın başlıca məqsədinə çevrilir (20, s.27).

From qeyd edirdi ki, bazar münasibətləri şəraitində uğur qazanmaq üçün şəxsiyyət ona edilən hər hansı bir təklifi yerinə yetirərkən, öz qabiliyyətlərini satmağa məcburdur. Buna görə də o özünü əmtəə və yaxud satıcı kimi hiss edir. Belə şəraitdə insanı öz şəxsi həyatda xoşbəxtliyi maraqlandırmır, o daha çox satılmaq iqtidarına malik olan qabiliyyətlərini itirməmək qayğısına qalır.

Səciyyəvi cəhət burasıdır ki, From bu vəziyyət üçün şəxsiyyəti günahlandırmır, çünki şəxsiyyətə bazar xarakteri verən situasiya ayrı-ayrı fərdlərin nəzarətindən kənardadır. Hətta fərd müəyyən həddədək belə şəraitə müqavimət də göstərə bilir. Lakin bu önəmli olmur, əsas məsələ cəmiyyətin bu şəraitə necə münasibət bəsləməsindədir. Bununla əlaqədar From haqlı olaraq göstərirdi ki, normal cəmiyyət öz təbəələrinin şəxsi ləyaqətinin, özünəhörmət hissinin və müstəqilliyinin itirilməsinə yol verməməlidir. Onun bu ibrətamiz fikri bazar iqtisadiyyatı yoluna düşmüş bütün postsovet respublikaları, o cümlədən də Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan yanaşdıqda respublikamızda da sözügedən qəbildən problemlər az deyildir. Burada bazar iqtisadiyyatının müasir şəxsiyyət üçün yaratdığı problemlər sırasında aşağıdakılar əsas yer tutur: işsizliyin artması, əhalinin həyat səviyyəsinə görə kəskin qütbləşməsi; yoxsulluğun geniş yer tutması, sosial dəyərlərə laqeyd münasibət bəslənilməsi, həqiqi əxlaqi dəyərlərin destruksiyası və sair (21, s.28).

Bazar iqtisadiyyatının şəxsiyyətə göstərdiyi təsirin mühüm bir istiqaməti onun dəyərlər sistemi və dəyərlər oriyentasiya sferasında təzahür edir. Bu prosesin ətraflı təhlili xüsusi mövzunun predmetidir. Burada isə ümumi şəkildə qeyd edək ki, formalaşmaqda olan bazar mexanizimləri, iqtisadi liberalizm, sərbəst rəqabət, daha çox gəlir etmək cəhdləri şəxsiyyətin malik olduğu dəyərlər sisteminin və dəyər oriyentasiyalarının strukturunu ciddi surətdə dəyişdirir, burada maddi dəyərlərin rolu və təsir dairəsi genişlənir, mənəvi dəyərlərin xüsusi çəkisi isə xeyli azalır.

Bazar münasibətlərinin şəxsiyyətə təsiri mexanizmini araşdırarkən təkcə iqtisadi, sosial, siyasi və mədəni dəyər xarakterli amillərlə kifayətlənmək olmaz. Bu prosesin mühüm bir istiqaməti şəxsiyyətin mənəvi psixoloji keyfiyyətləri ilə bağlıdır. Söhbət bazarın sərt qanunları şəraitində fəaliyyət göstərən insan şəxsiyyətinin psixoloji dözümlülüyündən gedir. Məsələnin mahiyyəti bundadır ki, azad rəqabət şəraitində iqtisadi fəaliyyətin nəticələrini əvvəlcədən bütün dəqiqliyi ilə müəyyənləşdirmək mümkün deyildir. Başqa sözlə deyilsə, şəxsiyyətin fəaliyyətinin digər sahələrində olduğu kimi burada da (bəlkə də başqa sahələrdən daha çox) gözlənilməyən nəticələr əldə etmək, böyük miqdarda itkiyə məruz qalmaq riski mövcuddur. Şəxsiyyətin psixoloji hazırlığı və dözümlülüyünün mənası odur ki, o bu qəbildən olan arzuolunmaz nəticələr baş verdikdə özünü sarsıtmasın, psixoloji gərginliyə və stress vəziyyətinə düçar olmasın. Mülkiyyətçi şəxsiyyət digər insanlarla müxtəlif sövdələşmələrə daxil olarkən unutmamalıdır ki, onu təkcə iqtisadi mənfəət və yüksək gəlir gözləmir. Müəyyən obyektiv və subyektiv amillər üzündən uğursuzluq halları da baş verə bilər. Buna görə də o (xüsusən də professional surətdə sahibkarlıqla məşğul olursa) hər cür arzuolunmaz hallara qarşı psixoloji cəhətdən hazır olmalı, bazarın sərt qanunlarının doğurduğu mənəvi – psixoloji zərbələri dəf etməyi bacarmalıdır. Çox təəsüf ki, bəzən belə olmur, müxtəlif sahibkarlıq əməliyyatlarında işləyən şəxs gözlənilmədən müflişləşdikdə və uğursuzluğa düçar olduqda özünü itirir, ağır psixoloji sarsıntılar keçirir. Bu isə bir çox hallarda fəlakətli nəticələr törədir.

Deyilənlər sübut edir ki, bazar mexanizimlərinə əsaslanan müasir cəmiyyətin fəaliyyətinin bütün forma və sahələrində mənəvi – psixoloji amillərin rolu və əhəmiyyəti durmadan artmaqdadır. Bununla əlaqədar olaraq cəmiyyətdə psixoloji xidməti yaxşılaşdırmaq, insanların psixoloji tərbiyəsini və hazırlığını yaxşılaşdırmaq son dərəcə zəruridir. Eyni fikir həm də şəxsiyyətin subyektiv mənəvi – psixoloji keyfiyyətlərinin təkmilləşdirilməsinə aiddir.

Aparılan təhlillər sübut edir ki, müasir davamlı inkişaf prosesində bazar qanunlarına əsaslanan iqtisadi münasibətlər sisteminin şəxsiyyətə təsiri öz məzmununa görə son dərəcə geniş, çoxtərəfli, müxtəlif istiqamətli və mürəkkəb xarakterə malikdir. Buna görə də onu birmənalı və bəsit qiymətləndirmək olmaz, bu prosesin mexanizmini aşkar etmək, onun konkret istiqamətlərini və şəxsiyyət baxımından törətdiyi nəticələri dəqiqliklə təhlil etmək tələb olunur.

## ƏDƏBİYYAT


1. Azərbaycan iqtisadiyyatı, Bakı, Elm, 1999, 4234s.
2. Abbasov Ə.F. Əsgərov İ. Keçid dövrü və yeni iqtisadi təfəkkür, Bakı: Nurlan, 2002,122 s.
3. Spirkin A.Q. Filosofiə. M.: Qardariki, 2000,815 c.
4. Qeqel. Q.F. Rabotı raznıx let. M., 1972, 668 c.
5. https: / degura. az / article/ davamlı inkişaf -fisfci
6. A.Şirəliyev, Dövlətin iqtiasadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi, Bakı, İqtisad Universiteti, 2011, 542 s.
7. Rzayev M.H., Müasir şəxsiyyət, Bakı, MBM, 534 s.
8. Cəfərova V., Azərbaycan müstəqillik yollarında: problemlər, mülahizələr. Bakı, Elm 2003, 327 s.
9. Ələkbərov U., Davamlı insan inkişafının əsasları, Bakı, Təhsil 2007, 132 s.
10. Ələkbərov U., Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları, Bakı, Təhsil 2014, 224 s.
11. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi, Azərbaycan modeli. Bakı 2018, 252 s.
12. İqtisadi nəzəriyyə (T.Vəliyevin redaktəsi ilə), Bakı: Çaşıoğlu, 1999,716s
13. İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası, B, "Çap APT" nəşriyyatı, 2017, 28 s.
14. İnsan inkişafı (tədris vəsaiti) – Bakı, 2014, 54 s.
15. Azərbaycan XXI əsrin astanasında, Bakı: Elm, 1997, 608s
16. Əmiraslanov A. Azərbayjan iqtisadiyyatı ABŞ-da eyni dərəcədə tanınmır. «Azərbaycan» qəzeti, Bakı,07 yanvar, 2001.
17. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meyilləri, Bakı: Elm, 1999,122s.
18. Баликов В.З. Общая экономическая теория. Новосибирск: 1996,786 с.
19. Биттем Девид. Демократия. Вопросы и ответы. М.: 1995,278 с.
20. Фром Э. Характер и социальный процесс. – Психология личности. М.:, Прогресс1982,473 s.
21.Фром Э. Психоанализ и этика. М., Наука, 1993,152 с.


## ABSTRACT


**M.Rzayev, A.Ahmadov**


## PERSONALITY FACTOR IN SUSTAINABLE HUMAN DEVELOPMENT


Human being stands in the center of sustainable human development concept proposed by United Nations Organization at the beginning of the XX century.

In this regard, when studying human problems, the human position in society and its well-being should be considered. Creating such condition is very important for both modern and future generations. Therefore, when it comes to human development, the sustainability of this development is also taken into consideration. From this point of view, in this article, the authors aimed to study the problem of formation of personality in the transformation process in the economic life of society in the condition of sustainable human development. The article substantiates that in recent years, the role of personality in our country has increased, thanks to the efforts made to formulate complex economic, organizational and political preconditions to ensure a sustainable and dynamic transition of national economy. Radical changes in economic life, the establishment of market relations led to such a stage of economic development that they provided broad opportunities for the comprehensive development of personality in the process of steady and sustainable development. Recently, sufficient cadre potential has been formed in the socio-economic, scientific and technical spheres, the institutional and legal base of the starting capital has been created, due to the work done to form complex economic, organizational and political conditions to ensure the transition of the national economy to sustainable and dynamic development in Azerbaijan. Our country has already entered such a period of economic development that its future acceleration is directly related to a large extent to the nature, scale and effectiveness of structural policy implemented, which opens wide opportunities for the comprehensive development of personality in the process of consistent and sustainable development.

## РЕЗЮМЕ

**М.Рзаев, А.Ахмедов**

## ФАКТОР ЛИЧНОСТИ В УСЛОВИЯХ УСТОЙЧИВОГО РАЗВИТИЯ ЧЕЛОВЕКА

В центре концепции устойчивого развития человека, выдвинутой Организацией Объединенных Наций в начале XX века, стоит человек. По этой причине при анализе человеческой проблемы следует учесть положение человека в обществе, его благосостояние. Создание такой обстановки очень важно и для современных, и для будущих поколений. Поэтому, когда говорим о развитии человека, следует учесть и устойчивость данного развития.

С этой точки зрения авторы в своих анализах в условиях устойчивого развития человека приводят на плоскость анализа проблемы формирования личности в процессе трансформации, шедшей на экономической жизни общества.

В статье обосновано, что за последние годы с целью обеспечения в Азербайджане перехода национальной экономики к последовательному и динамическому развитию, благодаря комплексным экономическим, организационным, политическим мероприятиям, связанным с формированием первичных условий, повысилась роль личности в нашей стране.

Коренные изменения, происходящие в экономической жизни, установление рыночных отношений привели к такому этапу развития экономики, что они открыли широкие возможности для всестороннего развития личности в процессе последовательного и устойчивого развития.

За последние годы с целью обеспечения в Азербайджане перехода национальной экономики к последовательному и динамическому развитию, благодаря комплексным экономическим, организационным, политическим мероприятиям, в нашей стране на достаточном уровне сформирован потенциал кадров в социально-экономической, научно-технической сферах, создана институциональная и правовая база стартового капитала. Уже на современном периоде наша страна вошла в такой период экономического развития, что ее будущее ускорение непосредственно связано в значительной степени с характером, масштабом и эффективностью осуществляемой структурной политикой, что открывает широкие возможности всестороннему развитию личности в процессе последовательного и устойчивого развития.


---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:1(091)**

# HÜQUQUN ARTMAQDA OLAN ƏXLAQİLİYİ İLƏ AZADLIĞIN QARŞILIQLI ƏLAQƏSİ

**Açar sözlər:** *Hüquq, hüquqi normalar, hüququn əxlaqiliyi, əxlaq, əxlaq normaları, əxlaqi şüur, azadlıq, hüququn əxlaqiliyinin azadlığa təsiri.*

**Key words**: *law, legal norms, the morality of law, morality, moral standards, moral freedom, consciousness, the influence of law of morality on freedom*

Liberal düşüncə tərzinə əsaslanan müasir sivil cəmiyyətlərdə insanın hüquq və azadlıqlarının müdafiə olunması və inkişaf etdirilməsi, başlıca məqsəd rolunu oynayır. Bununla əlaqədar olaraq hüquqi normaların məzmununda əxlaqın yeri və rolunun açıqlanması, onun xüsusi çəkisinin çoxalmasının azadlığın inkişafı baxımından mənalandırılmasının zəruriliyi daha aydın görünür.

Hüquqi normalar və münasibətlər yarandığı gündən əxlaq ilə ayrılmaz əlaqədə çıxış edir. Cəmiyyətin inkişafı gedişində dövlətin və siniflərin yaranması nəticəsində, hüquq əxlaqdan ayrılaraq müstəqil fəaliyyət göstərməyə başlamışdır. Sonrakı dövrlərdə onlar qarşılıqlı əlaqəli, lakin nisbi müstəqil və özünəməxsus normativ sistemlər kimi mövcud olmuşdur. Hüquqi normalar məcburi xarakter daşıyır, dövlətin gücü ilə qorunur. Onları pozanlar əməllərinə müvafiq surətdə hüquqi və inzibati cəza sanksiyasına məruz qalır. Bundan fərqli olaraq, əxlaq normaları ictimai rəyə arxalanır. Bu normaların pozulmasında tətbiq olunan sanksiyalar özünəməxsus olur, yəni, insan etdiyi bu və ya digər hərəkətin cəmiyyət tərəfindən pisləndiyini başa düşərək, həya hissi keçirir və gələcəkdə ona yol verməməyə çalışır. Vaxtilə Ş.Monteskyo bu iki normativ sistemin yaxınlığını və fərqini göstərərək yazmışdır:

“Qanunlar ilə əxlaq arasındakı fərq bundadır ki, birinji daha çox vətəndaşın, ikinji isə insanın hərəkətlərini müəyyənləşdirir” (5, c. 417).

Əxlaq normaları və əxlaqi şüur xeyir, şər, ədalət, borc, vicdan, şərəf, ləyaqət, xoşbəxtlik, həyatın mənası kimi kateqoriyalarda ifadə olunur. Hüquq ilə müqayisədə bu normaların tətbiq olunduğu sahələr daha geniş olub, özündə həm də dostluq, yoldaşlıq, sevgi və sair intim münasibətləri əhatə edir. Bundan əlavə əxlaq normaları hüquqdan fərqli olaraq insanın davranışları üçün daha böyük diapazon müəyyənləşdirir, yəni onun mümkün olan həddlərini geniş miqyasda götürür. Qeyd olunan səciyyəvi cəhətlərə malik olduğu üçün əxlaq, sosial normaların digər növləri (o cümlədən də hüquqi) içərisində insanın daxili mənəviyyatına bilavasitə yaxın olması ilə seçilir. Sözügedən keyfiyyət ictimai şüurun normativ sistemi kimi çıxış edən əxlaqa müəyyən universallıq verir. Belə ki, digər ictimai şüur formaları, (xüsusilə də normativ xarakterli) öz funksiyalarını yerinə yetirərkən, həm də əxlaqi meyarlara arxalanmalı olurlar. Qeyd olunan məqam nə qədər çox olursa, həmin şüur formasının azadlıq ilə yaxınlığı da bir o qədər artır. Bu onunla şərtlənir ki, ictimai şüur formaları sırasında məhz əxlaq öz təbiəti və mahiyyətinə görə azadlığı daha çox ifadə edir. Sözügedən məqam əxlaqın hüquq normaları ilə münasibətlərində daha qabarıq özünü göstərir və ümumilikdə hüququn əxlaqiliyi probleminin məzmununu ifadə edir.

Hüquqi şüurda həyata keçirilməsi vacib olan və ədalətli hesab olunan normalar dövlət qanunu səviyyəsində çıxış edir (yəni onlar pozulduqda məcburi sanksiya tətbiq edilir). Əxlaqi şüurda isə bu keyfiyyət və qiymətləndirmə insanın mənəviyyatına əsaslanır. Bununla belə, onların ümumi cəhətləri xeyli dərəcədə çoxdur. Buna görə də hüququn əxlaqi dayağa malik olması müasir dövrdə ən vacib məsələlərdəndir. A.Spirkin haqlı olaraq yazır ki, «hüququn əxlaq tərəfindən dəstəklənməyə ehtiyacı vardır. Hüquqi şüur əxlaq ilə daim qarşılıqlı təsirdə olmazsa, onun əsası zəif olur» (8, s. 724).

Qeyd olunan məqam hüquq ilə azadlığın münasibətlərinə də aid edilməlidir. Doğrudur, sivil cəmiyyətdə hüquq normaları, insanların azadlığının mühüm təminatçısı rolunu oynayır. Bununla yanaşı nəzərə alınmalıdır ki, hüquqi normaların verdiyi azadlıqlar daha çox zahiri xarakter daşıyır, yəni insandan kənardadır və onun daxili aləmi ilə bilavasitə əlaqəli deyildir. Bundan fərqli olaraq, insanın əxlaq normaları ilə təmin olunan azadlığı, onun daxili mənəvi kamilliyi ilə daha sıx bağlı olduğundan, xüsusi önəmə malikdir. Buradan bir daha aydın olur ki, hüququn əxlaqiliyi son dərəcə zəruridir. Elmi

ədəbiyyatda haqlı olaraq göstərilir ki, «hüquq özünün bütün təzahürlərində–normativ sistem, ictimai münasibətlərin tənzimedici səpgisi və ədalət məhkəməsi kimi götürüldükdə, mənəviyyatdan keçməlidir. Hüququn daxili əxlaqiliyi onun effektivliyinin mühüm şərtidir» (9, s. 56 - 57).

Qeyd etmək lazımdır ki, hüquq normaları güclü məcburetmə təsirinə malik olsalar da, bu təsirin imkanları sonsuz deyildir. Buna görə də, əsas məsələ təkcə məcburiyyətə əsaslanmaqda deyildir. İnsanlarda, onların davranış və hərəkətlərini tənzim edən normalara dərin inam yaratmaq tələb olunur. Bu vəzifənin həlli isə hüququn əxlaqilik səviyyəsindən çox asılıdır. Belə ki, hüquq normalarının əxlaqiliyi, faktiki olaraq onları məcburi qaydada yerinə yetirilməli olan göstərişlər çərçivəsindən kənara çıxarır. Bu məqam ona görə böyük əhəmiyyətə malikdir ki, qeyd olunan prosesdə məcburi normalar insanın daxili mənəviyyatına hopur, fərdin subyektiv aləminin daxili yaşantıları kimi dərk olunur. Nəticədə onların yerinə yetirilməsi sadəcə məcburiyyət kimi deyil, azadlıqla bağlı olan könüllülükdən irəli gələn mənəvi zərurət və borc kimi çıxış edir. Bu halda azadlıq kənar qüvvənin (dövlətin və onun hüquq mühafizə orqanlarının) məcburiyətə əsaslanan iradəsi ilə həyata keçirilmir. Fərdin öz maraqları və əqidəsinin, daxili subyektiv göstəricilərinin təhriki ilə reallaşdırılır. Buna görə də o, insanın əsl seçim imkanlarının və onları həyata keçirməyə nə dərəcə qadir olduğunun göstəricisi rolunu oynayır (1, s. 81).

Bu keyfiyyət, yəni normanın kənar qüvvə tərəfindən təlqin edilməyərək, öz daxili düşüncə səviyyəsindən keçərək hasil olması, fərdin konkret situasiyada sözün əsl mənasında azad davranışına çox güclü müsbət təsir göstərir. Yeri gəlmişkən qeyd edək ki, deyilənlər təkcə hüquqi normalara deyil, həm də insanın həyat tərzində mühüm yer tutan yüksək dəyərlərə və birgəyaşayış qaydalarına da aiddir. Yəni onların da adekvat reallaşması insanın mənəviyyatına dərindən nüfuz etməsi və «mən»inə hopması yolu ilə baş verir.

Əxlaq hüquq ilə müqayisədə insanın daxili mənəvi həyatına yaxın olduğundan, hüquqda əxlaqi tərəfin çoxalması, insanların sosial tənzimetmə mexanizmində mühüm yenilik yaradır. Həmin yeniliyin mahiyyəti bunda təzahür edir ki, davranış və hərəkətin xarici amilləri (hüquq başlıca olaraq bu mövqedən çıxış edir) ilə daxili mənəvi keyfiyyətlərinin (bu əxlaqda daha geniş tutur) bir növ inteqrasiyası baş verir. Qeyd olunan cəhət mühüm əhəmiyyət kəsb edir. Belə ki, insanın azadlığının təmin olunması, yəni azad seçim və qərar qəbul etməsi üçün təkcə kənar (xarici) tənzimləmə kifayət deyildir. Əsl azadlıq, subyektin özünü daxili mənəvi tənzimləməsini tələb edir. Yalnız belə olduqda, insanın davranış və hərəkətlərinin tənzim olunması ilə öz–özünü tənzimləməsi üzvi sürətdə qovuşur. Bunun nəticəsində insanın fəaliyyətinin hüdudları, ona qoyulan qadağalar ciddi surətdə yeniləşir. Burada fərdi aktivliyin və azadlığın təsir dairəsi çoxalır, hüquqi məcburiyyətin xüsusi çəkisi azalır. Göstərilən məqam hüquqda və əxlaqda, xüsusilə də onların qovuşuq halı olan yeni keyfiyyətdə (hüququn əxlaqiliyində) azadlığın çoxalmasını şərtləndirir.

Hüququn əxlaqiliyinin azadlığa təsiri mexanizmini təhlil edərkən, onun yalnız bir istiqamətdə baş verdiyini iddia etmək doğru olmazdı. Başqa sözlə deyilsə, məsələni təkcə hüquq normalarının əxlaqi məzmun kəsb etdiyi kimi təsəvvür etmək birtərəfli olardı. Əslində bu prosesin əks istiqaməti də özünü göstərir: sivil cəmiyyətlərdə həm də əxlaq normaları sözün müəyyən mənasında hüquq normaları və standartları ilə ölçülür. Bu o deməkdir ki, bəzən əxlaqi cəhətdən bəraət qazandırılan və ya qınaq obyektinə çevrilən məsələnin həllində hüquqi şüurun və hüquqi düşüncənin «müdaxiləsinə» ehtiyac yaranır. Belə olduqda, problem həm də hüquq müstəvisində dəyərləndirilir. Qeyd olunan məqamda da fərdin hüquq və azadlıqlarının vəhdəti əsas meyar rolunu oynayır.

Buradan bir daha aydın olur ki, hüququn əxlaqiliyi konkret hansı yol ilə getməsindən asılı olmayaraq, öz mahiyyətinə görə azadlığın inkişafına müsbət təsir göstərir. Deməli, əxlaq və onun şəxsiyyətin davranışına tənzimedici təsiri müxtəlif istiqamətlərdə özünü göstərən mürəkkəb prosesdir. Sözügedən təsirin məğzini fərdin konkret situasiyada azad seçiminə açdığı imkanların genişlik səviyyəsi təşkil edir. Başqa sözlə deyilsə, fərdin fəaliyyət və davranışında hüququn əxlaqiliyi nə qədər çoxdursa, onun azad seçim imkanları və ümumilikdə azadlığı da bir o qədər artıq olur. Qeyd olunan istiqamətin reallaşmasında həm də aşağıdakı cəhət mühüm yer tutur. Söhbət ondan gedir ki, bu və ya digər konkret şəraitdə insanın davranış və hərəkətləri, onun öz mənəvi göstəricilərinə nə qədər çox arxalanırsa, onun hərəkətləri üçün məsuliyyəti də bir o qədər çoxalır (6, s.36). Məsuliyyət artdıqca, onun azadlığa tənzimləyici təsiri də güclənir. Bəzən belə yanlış təsəvvürlərə rast gəlinir ki, hüquqda əxlaqiliyin cüzi, minimum səviyyədə olması və yaxud konkret bir məsələyə münasibətdə özünü göstərməsi kifayətdir. Fikrimizcə, bu qəbildən olan iddialara haqq qazandırmaq olmaz. Əxlaq ayrılıqda fərdin və bütövlükdə cəmiyyətin sosial mahiyyətinin başlıca tənzimedici və ifadəsi olduğundan, digər sosial normaların, o cümlədən də hüququn ictimai həyatda öz funksiyasını yerinə yetirməsi, onlarda əxlaqi məzmunun səviyyəsindən xeyli dərəcə asılıdır. Bununla əlaqədar qeyd edək ki, müasir Qərb dünyasında rasionalist düşüncəyə və maddi dəyərlərə üstünlük verilməsi və mənəvi–əxlaqi göstəricilərin lazımi qiymətləndirilməməsi, onun mənəvi böhranının başlıca səbəblərindəndir.

Hüququn əxlaqiliyi insanın digər insanlara, vətəninə və xalqına münasibəti ilə bağlı fəaliyyətində

seçim və qərar qəbul etməsində daha aydın görünür. Lakin o bununla məhdudlaşmır, həm də şəxsiyyətin öz–özünə olan münasibətlərində təzahür edir. Bu onunla izah edilir ki, normal cəmiyyət, öz üzvlərinin taleyinə biganə qala bilməz. Hətta bu və ya digər fərd müəyyən səbəblər üzündən öz azadlığına və həyatına qəsd etmək qərarına gələrək, intihar etdikdə də cəmiyyət (din də) bu hərəkəti pisləyir, onu törədən şəxs mənəvi qınaq obyektinə çevrilir.

Hüququn əxlaqiliyi artdıqca fərdin fəzilətə (xeyirxahlığa) və qəbahətə (şərə) etinasız münasibətinin qeyri– mümkünlüyü daha aydın üzə çıxır. Belə ki, o tədricən anlayır ki, analoji hərəkət etməyə onun mənəvi cəhətdən hüququ yoxdur. Nəticədə onun öz davranış və hərəkətlərinə görə vicdanı və bütövlükdə cəmiyyət qarşısında mənəvi məsuliyyəti çoxalır. Sonuncu anlayış isə insanın azadlığından ayrılmazdır. Hüquqda əxlaqilik və mənəvilik nə qədər geniş yer tutarsa, insanın cəmiyyətdəki mövqeyində, yerinə yetirdiyi rolda və ümumi fəaliyyətində iradə azadlığı və azad seçim imkanları daha da artır.

Hər bir fərd cəmiyyətdə təkbaşına yaşamır, digər insanlar ilə ünsiyyətdə və qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Bu məqam onun öz maraqlarını ümumi maraqlar ilə uzlaşdırmasını, insanlar ilə münasibətlərdə müəyyən öhdəliklər yerinə yetirməsini tələb edir. Hüquq və əxlaq bu qəbildən olan borcluluq münasibətlərinin reallaşdırılmasını tənzim edən iki sıx əlaqəli formadır. Qeyd etmək lazımdır ki, hüququn əxlaqi xarakterinin azadlığa real təsiri prosesi əlahiddə baş vermir, mövcud cəmiyyətin sosiomədəni amilləri ilə birlikdə çıxış edir. Bu münasibətdə əhalinin mədəni səviyyəsi göstəriciləri çox mühüm rol oynayır. Belə ki, hüquqi normaların məzmununda mənəvi və əxlaqi məqamlar nə qədər çox olursa olsun, əgər cəmiyyət üzvlərinin mədəniyyəti lazımi dərəcədə inkişaf etməmişdirsə, o azadlığın reallaşmasına elə bir güclü təsir göstərə bilmir.

Hüquq və əxlaqın sıx əlaqəliliyi və vəhdəti məsələsi İ.Kantın fəlsəfəsində geniş yer tutur. Onun yaradıcılığını araşdıran rus tədqiqatçısı E.Solovyov belə bir fikir irəli sürür ki, böyük alman filosofu hüquq ilə əxlaqın bir-birinə bağlı olduğu, onların qarşılıqlı surətdə bir-birini tamamladığı və zənginləşdirdiyi qənaətinə gəlmişdir (7, s. 189-190).

Hüququn əxlaq ilə yaxınlığı və ona nüfuz etməsi, Şərqin həyat tərzi üçün daha səciyyəvidir. Burada insanların bir-birinə münasibəti Qərbdə olduğundan fərqli olaraq ümumcəmiyyət miqyası kəsb etmir. Onlar daha çox şəxsi planda çıxış edir və iki tərəfin əlaqəsi kimi özünü göstərir. S.Xəlilov haqlı olaraq yazır ki, belə münasibətlər şəbəkəsi hüquq normalarına yox, daha çox əxlaqa və ənənəyə söykənir. Məhz bunun nəticəsi kimi Şərqdə hər bir fərd özü üçün lokal mühit yaratmalı və azadlığını buradakı münasibətlər daxilində ifadə etməli olur (10,s. 172).

Əlbəttə, qeyd olunan vəziyyət öz həddini aşdıqda fərd ilə ictimai həyat və dövlət arasında fərqləri dərinləşdirir, buna görə də o normal demokratik cəmiyyətlər üçün məqbul hesab olunmur. Lakin bu fakt Qərbdə olduğu kimi müasir Şərq ölkələrinin hüquq sistemində də əxlaqi məqamların xüsusi çəkisinin durmadan artdığını istisna etmir. Bu meyil milli müstəqillik əldə etmiş ölkələrdə daha aydın hiss olunmaqdadır. Son illərdə Azərbaycanda gedən hüquqi islahatların mahiyyətinə nəzər saldıqda bunu yəqin etmək olar. Milli dövlətçilik institutlarının fəaliyyəti təkmilləşdikcə, həm qəbul olunmuş qanunların mənəvi əxlaqi əsasları artır, həm də ictimai şüur yüksəlir və insanların qanunlara münasibəti dəyişilir, onların hüquq mədəniyyəti inkişaf edir. Vaxtilə H.Qrosi göstərirdi ki, azad və ağıllı insan öz təbiətinə uyğun fəaliyyət göstərmirsə, bunun günahı onun tərbiyəsində və ictimai institutların qüsurlu olmasındadır. Buna görə də insanları elə tərbiyə etmək, ictimai institutları elə keyfiyyətdə formalaşdırmaq lazımdır ki, insanın azad və ağıllı təbiəti öz haqqını qazansın, insanların birgəyaşayışı azad və rasional olması ilə səciyyələnsin (2, s. 225).

Müasir cəmiyyətimizdə milli dövlətçiliyin inkişafı və milli təfəkkürün, özünüdərkin formalaşması, hüquq normaları ilə əxlaq normalarının yaxınlaşmasına, başqa sözlə deyilsə, hüququn əxlaqiliyinin artmasına əlverişli şərait yaradır və onun reallaşmasını sürətləndirir. Hazırda ictimai münasibətlərin bütün sahələrində hüquqi normaların tənzimləyici rolunun genişlənməsi heç də əxlaq normalarının təsir dairəsinin azalması demək deyildir, əksinə, indi hüquqi normaların öz daxili məzmununa mənəvilik, əxlaqilik ölçüləri getdikcə daha çox nüfuz etməkdədir. Digər tərəfdən, əxlaqi baxımdan bəraət qazandırılan hər bir davranış və hərəkət eyni zamanda hüquq düşüncəsi səpgisində mənalandırılır və dəyərləndirilir. Qeyd olunan özünəməxsus yaxınlaşma və bir-birinə nüfuz etmə prosesində əsas meyar rolunu insanın son məqsəd kimi qiymətləndirilməsi, onun hüquq və azadlığının vəhdətdə götürülməsi oynayır.

Hüquq ilə əxlaqın vəhdəti əslində ayrılıqda götürülmüş fərd ilə ümumi cəmiyyətin bir-birilə ahəngdarlığının yaranmasına xidmət edir. Qeyd olunan vəzifənin reallaşdırılması, insanın həyatında və cəmiyyət miqyasında hüququn və əxlaqın yerinin, rolunun və əhəmiyyətinin dəqiq müəyyənləşdirilməsini və qiymətləndirilməsini tələb edir. Burada nəzərdə tutulmalı olan başlıca cəhət budur ki, hüquqi

normalar ümumilikdə ictimai münasibətləri tənzim edən əsas vasitədir. Lakin hər bir insan öz həyat fəaliyyətinin özünəməxsusluğu ilə seçilir. Burada onun şəxsi əxlaqi keyfiyyətləri, mənəvi amalı və ideya inamı çox mühüm yer tutur. Sonuncular hüquq normalarının təsir dairəsindən kənarda olub, əxlaq sferasına aiddir.

Burada hüququn əxlaqiliyini ifadə edən başqa bir cəhət üzərində də dayanmaq lazım gəlir. Söhbət ondan gedir ki, əxlaqi meyarların və mühakimələrin təsiri nəticəsində hüquq normalarında insan azadlıqlarının normal hüdudlar daxilində məhdudlaşdırılması göstəricilərinə müəyyən düzəlişlər və əlavələr edilməsi zəruridir. Bu qəbildən olan dəyişikliklər bizim yanaşdığımız kontekstdə ona görə mühüm əhəmiyyət kəsb edir ki, onlar hüquq düşüncəsində və hüquq normalarının məzmununda mənəvi dəyərlərin artmaqda olan rol oynadığını göstərir. Məhz sözügedən məqam hüquq normalarını əxlaqi kriteriyalara uyğunlaşdırmaq, onlar arasında ziddiyyətə rol verməmək üçün həyata keçirilən səmərəli vasitə kimi çıxış edir.

Bütün bunlar sübut edir ki, müasir hüquq sistemində əxlaq sadəcə ideya kimi iştirak etmir, o hüquq normalarının real məzmununa nüfuz etməkdədir. Hazırda əxlaqi meyarlar və ölçülər təkcə normativ sənədlərdə deyil, həm də hüququn digər tərəflərində (dövlətin qəbul etdiyi müxtəlif qanunlarda, məhkəmə qərarlarında və s.) getdikcə daha aydın ifadə olunur. Qeyd etmək lazımdır ki, müasir dünyada qəbul olunmuş ümumi hüquq normalarında çox ciddi irəliləyişlər baş verməkdədir ki, onlar da hüquqda əxlaqiliyin artmasına stimullaşdırıcı təsir göstərir. Hazırda baş verən qloballaşma və inteqrasiya prosesləri, dövlətlər arasında hərtərəfli əməkdaşlığın möhkəmlənməsi fonunda həm də hüquq və azadlıqların anlaşılmasında mövqelərin yaxınlaşması meyil özünü göstərir. Bunun nəticəsində regional və beynəlxalq miqyaslı ümumi hüquqi sənədlər qəbul olunur ki, bunlarda mənəvi, əxlaqi məzmun əhəmiyyətli yer tutur. Digər tərəfdən, müasir dövrdə formalaşan yeni əxlaq nəzəriyyələri getdikcə daha çox rasional məzmunla tamamlanır, onlarda ümumi xarakterli normalar geniş yer tutur. Bu nəzəriyyələr maarifçilik ənənələrinə əsaslanması, başqalarının fikir və rəylərinə hörmətlə yanaşılması ilə diqqəti cəlb edir (3, s. 80). Həmin meyil də hüququn əxlaqiliyinə təkan verən mühüm amil rolunu oynayır.

Hər bir sivil cəmiyyətdə ictimai münasibətlərin müxtəlif tərəfləri hüquq normaları vasitəsilə tənzim olunur. Bununla yanaşı göstərilməlidir ki, həmin normalar təkbaşına deyil, əxlaqi məzmun ilə zənginləşdikdə, daha yüksək səmərə verir. Bu halda insanın onlara əməl etməsi kənar məcburi qüvvənin təsirilə deyil, öz daxili tələbatının nəticəsi kimi çıxış edir. Beləliklə də onun azadlığına geniş imkanlar açılır. Cəmiyyətimizin yaşadığı açıq ictimai münasibətlər sisteminə keçid dövründə, hüquqi dövlət quruculuğunun tələblərinə uyğun olaraq məcburi normaların əxlaqiliyi daha geniş məzmun alır. Bu baxımdan ölkəmizdə aparılan hüquqi islahatlar, bütövlükdə hüquq sisteminin təkmilləşdirilməsi müstəsna əhəmiyyətə malikdir. Həmin proses intensivləşdikcə, hüquq normalarının əxlaqi və ümummənəvi mahiyyəti, tərbiyəvi təsiri də çoxalır. Bu isə öz növbəsində fərdin azadlıqlarının inkişafına stimullaşdırıcı təsir göstərir. Qeyd olunan məqam onunla şərtlənir ki, milli dövlətçilik şəraitində həm hüquq, həm də əxlaq azadlıq ilə sıx qarşılıqlı əlaqədədir. Onların qovuşmasını ifadə edən hüququn əxlaqiliyi isə bu şüur formalarının azadlıq ilə ayrılmaz vəhdətini təmin edir. Bununla yanaşı göstərilməlidir ki, bir çox digər məsələlərdə olduğu kimi, hüququn əxlaqiliyinin çoxalması və onun azadlığa təsiri də, postsovet məkanında yaranan ölkələrin yaşadığı transformasiya prosesləri şəraitində xeyli çətinliklərlə üzləşməli olur. Bu onunla şərtlənir ki, totalitar rejimdən açıq cəmiyyətə keçid dövründə meydana çıxan neqativ hallar, bəzən azadlığın humanist ideyasını, yüksək mənəviyyatı, vicdanlılığı və ədaləti zərbə altına qoyur. Azad bazar münasibətləri şəraitində bəzən insanların seçim azadlığı, aldatma və yalan yolla varlanmaq azadlığı kimi özünü göstərir (4, s. 114).

Təbiidir ki, qeyd olunan vəziyyət hüquq sisteminin sözün əsl mənasında mənəviyyata və əxlaqa əsaslanmasına, sonuncu ilə birləşərək azadlığı inkişaf etdirməsi prosesinə müəyyən dərəcədə ləngidici təsir edir. Bu hal keçmiş müttəfiq respublikaların hamısında bu və ya digər dərəcədə özünü göstərir. Azərbaycanda onun səciyyəvi xarakter daşıdığını və geniş yayıldığını iddia etmək doğru olmazdı. Belə ki, burada xalqımızın Şərq ənənələri ilə sıx bağlı olması üzündən, insanların fəaliyyət və davranışlarında mənəvi–əxlaqi dəyərlər öz müsbət təsirini və rolunu oynamaqda davam edir. Bununla birlikdə, qapalı cəmiyyətdən açıq ictimai münasibətlər sisteminə keçidin çətinlikləri, insanların azadlıq mühitinə ləng alışması, azadlığın ictimai şüurda tam dolğunluğu ilə qərarlaşmamasının törətdiyi mənfi nəticələr ölkəmizdən də yan keçmir. Bütövlükdə götürdükdə ölkəmizdə dərin humanist məna daşıyan hüquq sistemində o cümlədən də hüquqi normalarda əxlaqilik durmadan artır. Həm də qeyd olunmalıdır ki, o sadəcə bir məqam və cəhət kimi özünü göstərmir. O getdikcə daha artıq dərəcədə hüququn daxili məzmununa nüfuz edir, onun standartlarında və normativ hüquqi aktlarda geniş əks olunur. Ölkəmizdə həyata keçirilən hüquqi islahatlar bu prosesin intensiv getməsi üçün lazım olan şəraiti təmin edir.

Aparılmış təhlil sübut edir ki, hüququn əxlaqi məzmunla tamamlanması, insan azadlığının sabitliyinə və inkişafına etibarlı təminat yaradır. Nəzərdə tutmaq lazımdır ki, müasir dövrdə hərtərəfli qloballaşma prosesləri ölkələrin və xalqların ictimai həyatın bütün əsas göstəriciləri üzrə inteqrasiyasını şərtləndirir. Bu yaxınlaşma, həm də hüquq və azadlıqların mənalandırılmasında ümumi cəhətlərin artması ilə müşahidə olunur. Bununla əlaqədar olaraq hüququn əxlaqiliyi, onun məzmununa əxlaqın dərindən nüfuz etməsi meyili, milli və regional həddlər ilə məhdudlaşmır, beynəlxalq miqyas alır. Bu, insan hüquqları və azadlıqlarını tənzim edən beynəlxalq sənədlərdə geniş yer aldıqca, bəşəriyyəti həqiqi azadlıq idealına getdikcə daha çox yaxınlaşdırır.

## ƏDƏBİYYAT


1. Алексеев С.С. Философия права. М.: НОРМА, 1999, 336 с.
2. Аннерс Э. История европейского права. М.: Наука, 1993, 395 с.
3. Бьюкенен П.Дж. Смерть Запада. М.: АСТ, 2004, 444 с.
4. Лейбин В.М. «Открытый мир: рационализация самообмана // На пути к открытому обществу / Отв. ред. А.Н.Чумаков, М.: «Весь мир», 1998, с.113-125.
5. Монтескье Ш. Избранные произведения. М.: Мысль, 1965, 330 с.
6. Общественное сознание и его формы / Под ред. И.В.Биккенина. М.: Политиздат, 1986, 367 с.
7. Соловьев Э.Ю. И. Кант: взаимодополнительность морали и права. М.: Наука. 1992, 312 с.
8. Спиркин А.Г. Философия. Учебник. М.: Гар¬дарики, 2008, 810 с.
9. Уледов А.К. Духовная жизнь общества. М.: Мысль, 1980, 312 с.
10. Xəlilov S. Şərq və Qərb:ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər, B, Azərbaycan Univesiteti, 2004, 624 səh.


## ABSTRACT


**Garib Allahverdiyev**


## MUTUAL RELATIONSHIP OF GROWING MORALITY OF LAW WITH FREEDOM


The article analyses the growing morality of law in modern society as a special direction. The mutual relationships between the increasing morality of law system and freedom are investigated, the place and role of morality are explained in the context of legal norms. The article studies the necessity of the increase in its specific weight in terms of freedom development and substantiates that among the forms of public consciousness, morality is more expressive in its nature and essence. The impact mechanism of the morality of law on freedom is also studied and noted that regardless of the specific way that morality of law follows, by its very nature it has a positive effect on the development of freedom, but the process of real influence on moral character of law does not take place in isolation but combines with the socio-cultural factors of the existing society. In this sense, the indicators of the cultural level of the population play a very important role, if the culture of the members of the community has not improved properly, it can hardly have a strong impact on realization of freedom. The author emphasizes that the proximity of law with morality and its penetration into it are more specific to the Eastern lifestyle and the completion of the law in the moral context provides a secure guarantee for the stability and development of people's freedom. The article notes that as a result of legal reforms carried out in Azerbaijan in recent years, the activity of national state institutions improves and, as a result, spiritual and moral basis of adopted laws and public consciousness increase, people's attitudes to law change, their legal culture develops.


## РЕЗЮМЕ


**Гариб Аллахвердиев**


## ВЗАИМОСВЯЗЬ ПОВЫШАЕМОЙ МОРАЛЬНОСТИ ПРАВА СО СВОБОДОЙ


В статье моральность права в современном обществе анализируется как специально взятое направление. Рассматривается взаимосвязь повышаемой моральности системы права со свободой, при этом раскрывается место и роль морали в содержании правовых норм. Обосновывется необходимость осмысления повышения морали с точки зрения развития свободы, наиболее полного выражения именно свободы по своей природе и сущности среди форм общественного сознания. В статье анализируется механизм влияния моральности права на свободу, отмечается, что независимо от того, конкретно каким путем идет моральность права, она по своей сущности положительно влияет на развитие свободы, но процесс реального влияния моральной характеристики на свободу не происходит изолированно, а совместно выступает со сосиокультурными факторами существующего общества. В данном соотношении показатели культурного уровня населения играют очень важную роль, если культура членов общества недостаточно развита, то она не может так сильно повлиять на реализации свободы. Выясняется близость права с моралью и влияние на нее как наиболее характерного для образа жизни Востока, наполнение морального содержания права, создание надежного обеспечения стабильности и развития свободы людей. В статье отмечается, что в результате проводимых за последние годы в Азербайджане правовых реформ усовершенствуется деятельность национальных государственных институтов и как результат, повышаются нравственно-моральные основы принятых законов, а также общественное сознание, изменяется отношение людей к законам, развивается их правовая культура.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**FƏXRƏDDİN CƏFƏROV**
**NADİR HÜSEYNBƏYLİ**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94(479)**

## REPRESİYA QURBANLARINDAN BİRİ

**Açar sözlər:** *Represiya qurbanlarından biri, Qazi, şəhid, pantürkist, həbs, sürgün, türk, mübariz, totalitar rejiom, repressiya, milli düşücə*

**Key words:** *One of the victims of the crisis, Gazi, martyr, panturkist, imprisonment, exile, Turkish, struggle, totalitarian regiment, repression, national falls*

**Ключевые слова:** *Одна из жертв кризиса, Гази, мученик, пантюркист, тюремное заключение, изгнание, турецкий, борьба, тоталитарный полк, репрессии, национальный водопад*

Azərbaycanda türkçülüyün ideya-nəzəri əsaslarının və elmi siyasi sisteminin formalaşmasına qarşı yönəldilmiş yeni Sovet qaydalarının milli mentalitetimizə yad xüsusiyyətlərinə qarşı mübarizə aparan Hüseyn Cavidin XX əsrin 30-cu illərində xüsusi amansızlıqla həyata keçirilən repressiyaya hədəf seçilməsi, "pantürkist" adlandırılaraq həbsə alınması, aylarla dindirilməsi və ağır sürgün həyatı arxiv materialları əsasında araşdırılmışdır.

Xalqımızın böyük zəka sahiblərindən olan Hüseyn Cavidin XX əsrin 30-cu illərində Azərbaycanda xüsusi amansızlıqla həyata keçirilən repressiyanın hədəfinə çevrilməsi və "pantürkist", "panislamist" adlandırılaraq təqsirləndirilməsi, həbsə alınması, aylarla dindirilməsi, sürgünə göndərilməsi təsadüfi deyildi. Sənətdə sərhədsiz romantizm ədəbi cərəyanını təmsil edən Hüseyn Cavid, qeyd-şərtsiz, türkçülüyə, turancılığa bağlı idi, türk dünyasının problemləri haqqında düşünür, özünün mübariz qələminə sığınaraq insanlıq tarixində başəri-humanist xidmətləri ilə yer tutan və bu səbəbdən daim imperialist qüvvələrin qəddarlığına tuş gələn türklərin tərəqqisi, istiqlaliyyəti uğrunda mübarizə aparırdı.

Bolşeviklər ictimai şüurun bütün formaları üzərində marksist-leninçi kommunist ideologiyası inhisarını təmin etmək məqsədilə ictimai həyatın bütün sahələrində mədəni inqilab adı altında milli ideologiyaları və milli düşüncəyə malik olan ziyalıları bolşevik platformasının üzərinə gətirmək üçün təqib etməyə başladılar.

1920-ci illərin əvvəllərində milli hərəkatın bütövlükdə türkçülüyə söykənməsi, Azərbaycanda türkçülüyün ideya-nəzəri əsaslarının və elmi-siyasi sisteminin formalaşması, onu ictimai fikrin başlıca inkişaf istiqamətinə çevrilmişdi. Azərbaycan Xalq Cümhuriyyəti türkçülüyü bütövlükdə dövlət sistemi təsdiqləmişdi. Türk dili və türk milləti haqqında dövlət fərmanları verilmişdi. 20-ci illərdə də türkcə müəyyən istisnalarla respublikanın siyasi və mədəni həyatında öz üstünlüyünü saxlamışdı. 30-cu illərdə isə Məmməd Əmin Rəsulzadənin təbirincə dəstək "türk qoxuyan" hər şey məhv edildi. Hətta türk və türkçülük sözünün işlənilməsi və eşidilməsi belə arzu olunmaz ifadəyə çevrildi.

Bu siyasi xəttə qarşı çıxanların siyahıları mərkəzləşdirilmiş qaydada tərtib edilir və müttəhimin sənədləri ilə birlikdə Bakıya etap olunur və Nargin adasında güllələnirdi. Bu siyahıları isə Naxçıvan XDİK-in əməkdaşları tərtib edirdi. Bu əməkdaşlar arasında çoxluğu erməni və digər millətin nümayəndələri təşkil edirdi. "Erməni çekistləri Naxçıvanda xüsusi canfəşanlıqla çalışırdılar. Orbelyan, Akopov, Nersesov, Mosesov, Parseqov, muxtar respublikanın bütün bölgələrində baş cəllad kimi tanınırdılar".

Yuxarıda adları çəkilən ermənilər Azərbaycan SSR XDİK-in məsul və sözü keçən işçiləri olan sumbatovlardan, qriqoryanlardan, maryakanlardan, ohanesyanlardan, qalstyanlardan, avanesyanlardan, borşovlardan, gerasimovlardan və digərlərindən dəstək və təlimat alaraq öz tarixi düşmənçiliklərini Naxçıvanda da davam etdirir, müxtəlif uydurma və bəhanələrlə sayseçmə oğullarımızı – alim, yazıçı, artist, müəllim, hərbçi, din xadimi, partiya işçisi, bir sözlə əxlaq və əqidə sahiblərinin hamısını məqsədli sürətdə məhv etməyə çalışırdılar.

Naxçıvan MR dövlət arxivində və digər arxivlərdə aparılan arayışdırmalarda Cavidlə bağlı bir çox sənədlərlə, o cümlədən iki iş 68 səhifədən (sənəddən) ibarət olan H.Cavidin məhkum olunması haqda şəxsi işi və anadan olmasının 100 illiyi ilə əlaqədar H.Cavidin soyuq Maqadan çöllərindən cənazəsinin gətirilməsinə dair sənədlər və şəkillərdir.

H.Cavidin həbs olunması haqda şəxsi işini vərəqlərkən 3 iyun 1937-ci ilə aid bir sənədə rast gəldik. Bu sənəd Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı dövlət təhlükəsizlik idarəsinin rəisi leytenant Klemançiçin H.Cavidin haqqında "Cəza növünün seçilməsi və ittiham olunması haqqında qətnamə"sidir. Qətnamədə yazılmışdır:

Bakı şəhəri 3 iyun 1937-ci il

Mən, Azərbaycan Xalq Daxili İşlər Komissarlığı dövlət təhlükəsizlik idarəsinin rəisi leytenant Klemançiç 12493№-li istintaq işinə baxaraq və vətəndaş Hüseyn Cavidin 1882-ci ildə anadan olduğunu, azərbaycanlı, Azərbaycan SSR-nin vətəndaşı, partiyasız, teatr texnikumunda müəllim olduğunu və gizli millətçi təşkilatda iştirak etdiyinə görə ittiham olunduğunu nəzərə alaraq qərara aldım:

1.Vətəndaş Hüseyn Cavid Azərbaycan SSR cinayət məcəlləsinin 68,72-73-cü maddələrinə görə ittiham olunaraq həbs edilsin.

Görkəmli şair-dramaturq H.Cavid ağır ittihamlarla 3 iyun 1937-ci ildə Az. SSR XDIK DTI tərəfindən imzalanmış 509 saylı orderə əsasən həbs olundu. Hüseyn Cavid aşağıdakılarda ittiham edilirdi:

1. Əksinqilabçı müsavatçı mövqedə olarkən Bakıda olan antisovet millətçi təşkilatın tərkibinə daxil olduğuna və bu təşkilatın fəalları ilə əksinqilabi əlaqə yaratdığına görə;

2. Müsavatçı pantürkist mövqedə duraraq Az.SSR-dəki gizli əksinqilabçı müsavatçılar, Bakı şəhərində və Türkiyədə olan pantürkistlərlə əlaqədə olduğuna görə:

3. Şüurlu sürətdə sovet mövzusuna etinasızlıq göstərərək, ədəbiyyat və dramaturgiya sahəsində praktiki əksinqilabi iş apardığına görə;

4. İran və Türkiyədə təhsil və tərbiyə alaraq, gənc yazıçılara əksinqilabi millətçi təsir göstərdiyinə, onları pantürkist ruhda tərbiyə etdiyinə və türk ədəbiyyatına istiqamətləndirməyə çalışdığına, bilərəkdən rus xalqının ədəbiyyatına saymamazlıqla yanaşdığına görə;

5. Bakıdakı Müsavat təşkilatının rəhbərlərindən biri olan Yusif Vəzirov ilə əlaqə yaratdığına və türk kəşfiyyatının xeyrinə casusluq fəaliyyəti göstərdiyinə, yəni Az.SSR CM-in 68, 72 və 73-cü maddələrində nəzərdə tutulan cinayətləri törətdiyinə görə ittiham edilir»

Rayonunun Şevçenko kəndi yaxınlığında vəfat edən H.Cavidə 6 mart 1956-cı ildə Az.SSR Ali Məhkəməsi bəraət vermişdi.

Bu kimi ağır cinayətlərdə ittiham edilən H.Cavid müddəti 4 iyun 1937-ci ildən hesablanmaqla səkkiz il müddətinə azadlıqdan məhrum edilir. Cəza müddətini başa vurmadan - 5 dekabr 1941-ci ildə İrkutsk vilayətinin Tayşet rayonunun Şevçenko kəndi yaxınlığında vəfat edən H.Cavidə 6 mart 1956-cı ildə Az.SSR Ali Məhkəməsi bəraət vermişdi.

Beləcə ümumi bəşəri idealları ilə zaman və məkan sərhədlərini aşan həqiqət carçısı Hüseyn Cavidin millətçi təşkilatlarla əlaqədə olması ittihamı ilə həbsinə qərar verilir.

R. Hüseynovun "Vaxtdan uca'' kitabında oxuyuruq":...Gələnlər üç nəfər idilər. Bir nəfər də qonşudan çağırdılar. Gecə birin yarısından səhər yeddinin yarısınacan evi ələk-vələk etdilər. Baxılmayan yer qızımın yataq otağı oldu. Kiçik olduğu üçünmü ya nəsə onu oyatmadılar. Amma onlardan biri hey deyinirdi ki, niyə ora baxılmadı**?**

Cavid o gecə bir qutu yarım papiros çəkdi. Kibritini yandıranda onlardan da biri cibindən papiros çıxardı. Cavid öz papirosunu yandırıb, ev sahibi kimi odu qonağa sarı tutdu. O yandırmadı. Cavid çöpü söndürüb udqundu. Nələr dedi o udqunmaqla. Qəmli-qəmli üzümə baxdı. Qaşlarını qaldırıb ah çəkdi..."

30-cu illərdə qara pencəkli, qara plaşlı bu üçlüklər "gecə ovuna" çıxaraq neçə-neçə günahsız insanların qapılarını döyərək güllələnməsinin, həbs olunaraq sürgün edilməsinin iştirakçısı olmuşlar. Onları bir o qədərdə günahlandıra bilmirik. Çünki onlar əmr qulu idilər. Verilən əmri icra edirdilər. Günahkarlar isə yuxarı kürsüdə əyləşənlər idi.

Yenə sənədləri vərəqləyirik. Qarşımıza saralmış bir sənəd çıxır. Bu sənəd 4 iyun 1937-ci tarixdə Hüseyn Cavidin axtarışı ilə bağlı 1113 №-li protokoludur. Bu rəqəm Hüseyn Cavidə açılmış cinayət işinin nömrəsi idi. Həmçinin müttəhim kimi yan və düz profildə çəkilmiş foto şəkilində həbsxana pencəyinin üst cibinin üstündə vurulmuş nömrə idi.

Həmin protokolda yazılır: "Azərbaycan SSR XDIK üzrə komendantın növbətçi köməkçisi S.Federenko. İştirak edir nəzarətçi Sarkisyan. Axtarış zamanı məhkumdan müsadirə edilib: bumacnik, aşırma, iki qalstuq. Həmin əşyalar məhkumun istintaq materiallarına əlavə edilib.

Axtarış barəsində şikayət daxil olmayıb.

Komendantın növbətçi köməkçisi: (imza)

İştirak etdi: (imza) ''

8 aprel 1938-ci ildə Hüseyn Cavidin yatdığı kamerada həbsxananın əməkdaşları İbrahimov və baş nəzarətçi Sokolov tərəfindən aparılan axtarışın 4743 №-li protokolundan yazılır: ''Axtarış zamanı məhkumda

aşağıdakı əşyalar aşkar edildi: cib kisəsi, iki qalstuq, iki cüt zakolka, aşırma və taxta çubuq. Sadalanan əşyalar müsadirə edilib. Axtarış barəsində şikayət daxil olmayıb.

Axtarışı apardı: (imza)

İştirak etdi: (imza)’’

H.Cavidinin şəxsi işində məhkum olunanlar haqqında bir məktuba rast gəldik. Həmin məktub Azərbaycan SSR XDIK-ı dövlət təhlükəsizlik idarəsinin həbsxana rəisi baş leytenant Suxanovun Bakı istintaq həbsxana rəisinə 6 aprel 1938-ci il tarixli 60280 №-li məktubudur. Məktubda azadlıqdan məhrum olunanlar göstərilir:

“Hüseyn Cavid, Əliyev Məmmədbəy Hüseyn oğlu, Mkrtçyan Arakel Ayrapetoviç, Cəfərov Bilal Vahab oğlu, Novruzov Meybalı Nəcəfəli oğlu, Aqramanyan Artaşes Mirzayeviç, Vəlivey Israfil Kazım oğlu, Ismayılov Xanamir Kazım oğlu.

Şəxsi işlərin nömrəsi 44 (44№-ə H.Cavidin şəxsi işidir-F.C, N.H) 322, 415, 642, 647, 801, 888, 1259, 1271, 1334. Şəxsi işləri və əşyaları ilə Azərbaycan SSR XDIK hesabına sizə həvalə edilmiş həbsxanada saxlamaq üçün göndərilir.

Həbsxananın rəisi, dövlət təhlükəsizliyinin baş leytenantı Suxanov (imza)”.

Bu məktub isə Bakı şəhər 1 №-li həbsxananın rəisi Cəfərovun Azərbaycan SSR XDIK-nın həbsxana rəisi Suxanova göndərdiyi məktubdur. Məktubda Cəfərov yazır: ’’8 sentyabr 1938-ci il tarixli 60733 №-li təliqənizə əsasən Sizin əməkdaşınız Vozniçuka azadlıqdan məhrum edilmiş Hüseny Cavidi Sizə həvalə edilmiş həbsxanada saxlanması üçün təhvil verilib.’’

Bu sənəd ilə Cavidin 25 sentyabr 1938-ci ildə Azərbaycan SSR XDIK-na yazdığı ərizədir. Ərizədə göstərilir: ’’Bildirirəm ki, 9 sentyabr və ya 10 sentyabrda məni Keşlə türməsindən göndərən zaman axtarış vaxtı iş köynəyim itib. Ola bilsin ki, komendaturada qalıb.

Xahiş edirəm bu köynəklər və bizim digər üst geyimlər aydınlaşdırılsın. H.Cavid 25.IX-1938-ci il.

Həmin ərizənin arxasında isə 26 sentyabrda H.Cavid qırmızı qələmlə belə yazır: ’’Səhv etmişəm. Xahiş edirəm bu haqda (köynək və üst geyimləri haqda-F.C,N.H.) komendaturadan yox Keşlə türməsindən soruşulsun. Imza:H.Cavid 26. IX-1938-ci il.’’

Şəxsi işin 13-cü vərəqi Azərbaycan SSR XDIK-ın xüsusi şöbəsinin rəisi dövlət təhlükəsizlik leytenant Koqanın 19 dekabr 1938-ci ildə Azərbaycan SSR XDIK-ı 1-ci bölməsinin rəisi dövlət təhlükəsizlik baş leytenantı Suxanov yoldaşa xidməti məktubudur. Həmin məktubda yazılır: ’’SSRI XDIK xüsusi şöbəsinin 23 avqust 1938-ci il tarixli protokolundan Hüseyn Cavidin işi haqda qərar ona bildirilib. Şəxsi işə tikilməsi üçün təqdim edirəm.

Xüsusi sərəncam olanadək məhkum Hüseyn Cavidi daxili həbsxanadan heç yerə köçürməyin.’’

Bu məktub isə Azərbaycan SSR XDIK həbsxanasının rəisi baş leytenant Suxanovun 5 aprel 1939-cu il tarixli Bakı 1 №-li istintaq həbsxanasının rəisinə göndərdiyi məktubdur. Məktubda Suxanov yazır ki, Azərbaycan SSR XDIK-ın həbsxanası bu günkü tarixdə məhkum olunmuş: Sadıqov Əliağa Məhəmməd oğlu, Həmidov Dağlı Əlihüseyn oğlu, Zeynalov Yusif Məhəmməd oğlu, Kərimov Əliəşrəf Ismayıl oğlu, Vəliyev Hüseyn Novruz oğlu və Hüseyn Cavidi əşyaları və şəxsi işləri ilə birlikdə Sizə həvalə edilmiş 1 №-li həbsxanada saxlanılmaları üçün göndərir.

Əlavə: 5, 32, 48, 9, 119, 2 №-li şəxsi işlər.

Baş leytenant Suxanov.’’

1937-ci ilin iyunundan 1939-cu ilin mayına kimi dəfələrlə istintaqdan sonra Azərbaycan SSR XDIK-nın dövlət təhlükəsizlik həbsxanalarında yatan Hüseyn Cavid Bakı həbsxanasından köçürülür.

Şəxsi işindəki 23 aprel 1939-cu il tarixli arayış bunu bir daha sübut edir. Arayışda yazılır: “Azərbaycan SSR XDIK-ın daxili həbsxanasının dəftərxanası Azərbaycan SSR XDIK xüsusi şöbəsinin 4 aprel 1939-cu il tarixli xidməti məktubuna əsasən azadlıqdan məhrum olunmuş Hüseyn Cavid SSRI XDIK-ın xüsusi şöbə həbsxanasına köçürülüb.’’

Hüseyn Cavid əmək-islah düşərgəsinə göndərilərkən həbsxananın həkimi tərəfindən tibbi müainədən keçirilib 125 №-li şəxsi işin sanpasportunda (sanitar pasport) yazır: ’’Hüseyn Cavid, yaşı 1882, peşəsi şair, xəstəliyin adı: miokardit, hepatit, xolesistit, xroniki malyariya. Əmək qabiliyyəti-məhdud yararlı. Şimal iqlimini götürmə qabiliyyəti-götürə bilər.

Həkim (imza) 26.VI-1939.’’

Çox təəcüblüdür ki, Hüseyn Cavidin yuxarıda göstərilən xəstəliyi haqqında epikrizə baxmayaraq həkimin axırıncı nəticədə H.Cavidin şimal iqlimini götürə bilər qərarı olmuşdur.

Cavidin bu xəstəliyinə baxmayaraq uzaq bir səfərə, şaxtalı bir bölgəyə sürgünə göndərilir. Günlərlə qaranlıq bir vaqonda Bakıdan başlamış Krasnovodsk – Aşqabad – Səmərqənd – Daşkənd - Alma-ata, Novosiribsk - Krasnoyarsk – Xabarovsk – Vladivostok – Maqadan -Irkutsk kimi uzun bir yol getdi. Istintaq işinə əlavə olaraq yeni bir iş açıldı- 266249 №-li iş.

Sübutsuz, dəlilsiz, qanunsuz cəzalandı Cavid. Keçmiş SSRI-nin ən ucqar, ən soyuq, ən şaxtalı bir diyarına sürgün edildi.

Çox çalışdı günahı olmadığını sübut etsin. Günahı olmadığı haqda I.Stalinə, SSRI XDIK-nın 1 xüsusi şöbəsinə ərizə göndərdi. Lakin bir nəticəsi olmadı.

Şəxsi işində 28984 nömrəli, 21 oktyabr 1940-cı il tarixli və 29814 nömrəli 23 oktyabr tarixli bildirişlər və bu bildirişlər Hüseyn Cavidlə tanış edilərək, ondan alınmış yazılı qol kağızı bunu bir daha sübut edir.

Şimal-şərqi Islah Əmək Düşərgəsi idarəsinin 2-ci şöbəsinin 21 oktyabr və 23 oktyabr 1940-cı il tarixdə Maqadan əlillər şəhərciyinin rəisinə göndərdiyi məktubda yazır: ''Şəxsi işi 266249 nömrəli olan məhkum Hüseyn Cavidə elan edilsin ki, onun bağlı məktubları alınmış, baxılması üçün ÜIK(b)P Mərkəzi komitəsinə I.V.Stalinə və SSRI XDIK-nın 1-ci xüsusi şöbəsinə göndərilmişdir.

Nəticəsi haqda əlavə mə'lumat veriləcək.

Bildirişləri yazılı qol kağızı ilə SSRI XDIK Şimal-şərqi Islah Əmək Düşərgəsinin 2-ci şöbəsinə qaytarın.

Ikinci şöbənin 4-cü bölməsinin rəisi (imza).''

26 noyabr 1940-cı ildə Hüseyn Caviddən belə bir yazılı qol kağızı alınır: ''Verirəm Əlillər şəhərciyinin URÇ şöbəsinə ondan ötəri ki, mənə, məhkum Hüseyn Cavidə Şimal-Şərq Islah Əmək Düşərgəsi 2-ci şöbəsinin 21 oktyabr 1940-cı il 28984 nömrəli və 23 oktyabr 1940-cı il 29314 nömrəli bildirişləri ilə mənim bağlı məktublarım ÜIK(b)P Mərkəzi Komitəsinə I.V.Stalinə və SSRI XDIK 1-ci şöbəsinə göndərilməsi elan edilmişdir.

Məhkum: (imza)

Qol kağızını aldı: (imza).''

Hüseyn Cavidin Müşkinaz Cavidə Maqadan 21 №-li əlillər kalonundakı son məktubu olur. Bu məktubdan altı ay sonra 5 dekabr 1941-ci il tarixdə əlillər kalonunda keçinir.

Hüseyn Cavidin ölümü ilə bağlı 5 dekabr 1941-ci il tarixdə tərtib olunmuş 59 №-li aktda belə yazılmışdır: ''Əlillər kalonu №21. Biz aşağıda imza edənlər: Kalonun rəisi D.Y.Sinişin əlillər xəstəxanasının müdiri həkim P.P.Vartminskiy, palata üzrə növbətçi V.E.Fisunenko, bu aktı tərtib edirik ondan ötəri ki, bu gün 5 dekabr 1941-ci il tarixdə saat 22 $^{30}$-da əlillər xəstəxanasında müalicədə olan məhkum Hüseyn Cavid ölüb.

Daxil olub 17 noyabr 1941-ci il.

Məhkum Hüseyn Cavid 59 yaşında idi. Xalq Daxili Işlər Komissarlığının xüsusi şurası tərəfindən 8 il müddətinə məhkum olunmuşdu. Anadan olduğu yer Naxçıvan şəhəri, mərhumun xarici əlamətləri: boyu orta, göz rəngi qonur, saç rəngi açıq, ağarmış.

Ölümün səbəbi: Ürəyin fəaliyyəti ilə dabanların donmasından əmələ gələn sepsis. Xəstəxanaya daxil olan zaman mərhum Hüseynin üzərində olan əşyalar mühafizəyə götürülüb.

Imzalar: Sinişin. Vartmimski. Fisunenko.

Bu akt isə 7 dekabr 1941-ci il tarixdə yazılmışdır: ''Biz aşağıda imza edənlər: əmək köməkçisi A.T.Sitkin, təsərrüfat müdiri D.Y.Sinişin, növbətçi feldşer K.I.Lapkin və növbətçi Koçin bu aktı tərtib edirik ondan ötəri ki, bu gün 7 dekabr 1941-ci il tarixdə Irkutsk vilayətinin Tayşet rayonunun Şefçenko kəndi yaxınlığındakı qəbristanlıqda 21 №-li kalonun məhkumu, şəxsi işi 13133 №-li olan, Bakı şəhər sakini, XDIK-nın xüsusi şurası tərəfindən 4 iyun 1937-ci il tarixdən başlanaraq 8 il müddətinə məhkum olunmuş Hüseyn Cavid bastırılıb.

Əlamətləri: Orta boylu, qonur gözlü, saçları açıq rəngdə, ağarmışdır. Hüseyn Cavidin cənazəsi taxta tabuta qoyulub və baş hissəsi şərqə doğru bastırılıb. Qəbrin dərinliyi 2 metrdir. Yeri 59 nömrədir.

Əmək köməkçisi: (imza)

Təsərrüfat müdiri: (imza)

Növbətçi feldşer: (imza)

Hüseyn Cavidin ölümü ilə bağlı 7 yanvar 1942-ci ildə SSRI XDIK-nin 1-ci gün şöbəyə və 14 yanvar 1942-ci il tarixdə isə Naxçıvan şəhər VVAQ şöbəsinə Irkutsk vilayətinin Tayşet şəhərindən baş müfəttiş Babayevaya göndərdiyi məktublarında yazırdı: ''Bildiririk ki, milləti azərbaycanlı olan, həbsdən əvvəl Naxçıvan şəhərində yaşamış Hüseyn Cavid 5 dekabr 1941-ci il tarixdə dabanlarının donmasından əmələ gələn sepsisdən vəfat edib.

Baş müfəttiş Babayeva (imza)''.

1956-cı ildə günahsız həbs olunanlara, güllələnənlər bir sözlə 30-cu illərin repressiya qurbanlarına bəraət verilir. Həmçinin Azərbaycan SSR Ali Məhkəməsi 19 mart 1956-cı ildə Hüseyn Cavidə bəraət verir.

Hüseyn Cavidin ölümü haqda həyat yoldaşı Müşkinaz Cavid 20 dekabr 1956-cı il tarixdə Primorsk diyar Daxili İşlər İdarəsinin 1-ci xüsusi şöbəsinin rəisinə göndərdiyi məktubunda Hüseyn Cavidin ölümü haqda məlumat verilməsini xahiş etmişdir.

Müşkinaz Cavidin məktubuna cavab olaraq Maqadan Vilayət Daxili İşlər İdarəsinin 1-ci xüsusi şöbəsinin rəis müavini polkovnik Minanov 13 fevral 1956-cı il tarixdə həm iştirakçı, həm də Primorsk Daxili İşlər İdarəsinin 1-ci xüsusi şöbəsinə göndərdiyi cavab məktubunda yazır: "Bildirilir ki, axtarılan Hüseyn Cavid 1882-ci ildə Naxçıvan Şəhərində anadan olmuş, antisovet təşkilatçılarda iştirak etdiyi üçün SSRİ Xalq Daxili İşlər Komissarlığın xüsusi Şurası tərəfindən 8 il müddətinə həbs edilib. 6 sentyabr 1941-ci ildə Maqadan İslah Əmək Düşərgəsindən Tayşet düşərgəsinə göndərilib. DİŞ-nin qeydiyyatında başqa məlumat yoxdur".





H.Cavidin qəbrinin aşkar edilib çıxarılması və Naxçıvana gətirilməsi.

Uzun axtarışdan sonar Hüseyn Cavidin ölüm tarixi, ölümün səbəb və 59 nömrə ilə basdırıldığı yer müəyyən edilir.

1981-ci ildə ulu öndərimiz Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitənin katib işlədiyi illərdə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında 21 iyul 1981-ci il qərar imzalayır.

Bu qərarla əlaqədar Naxçıvan MSSR Nazirlər Sovetinə tapşırılır ki, H.Cavidin cənazəsinin Naxçıvana gətirilməsi və dəfn edilməsi ilə bağlı bütün məsələlər həll edilsin.

Allah rəhmət eləsin sənə Cavid əfəndi. Rahat yat! Bilki sən həmişə xalqın qəlbindəsən.

## ƏDƏBIYYAT


1. MTN arxivi: PR 18845
2. NMRDA: fond. 314, siy. 5a, iş 85, vərəq 1-68
3. NMRDA: fond. 314, siy. 5a, iş 87, vərəq 1-18
4. NMRDA: fond. 299, siy. 2, iş 39, vərəq 1-15
5. NMRDA: fond. Siy.5, iş 181, vərəq 1-8
6. Şərq qapısı qəzeti 2003-cü il, 21, 25,30 oktyabr nömrələri


## ABSTRACT


**Fakhraddin Jafarov, Nadir Huseynbeyli**


**ONE OF THE VICTIMS OF THE CRISIS**


Hussein Javid, who fights against the alien characteristics of our new mentality in the national mentality against the formation of ideological-theoretical bases and scientific-political system of Turkism in Azerbaijan, is targeted at the repressions targeted at the cruelty of the 1930s, called "panturkist", the months of interrogation and heavy The exile was investigated on the basis of archives.


## РЕЗЮМЕ


**Фахраддин Джафаров, Надир Гусейнбейли**


**ОДНА ИЗ ЖЕРТВ КРИЗИСА**


Хуссейн Джавид, который борется с чужеродными характеристиками нашего нового менталитета в национальном менталитете, против формирования идейно-теоретических основ и научной политической системы тюркизма в Азербайджане, нацелен на репрессии, нацеленные на жестокость 30-х годов, называемую «пантюркистом», месяцами допросов и тяжелыми Изгнание было исследовано на основе архивов.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**QƏHRƏMAN BEHBUDOV**
**PƏRVİZ QƏRİBOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:342.7**

# FƏRDİ ƏMƏK MÜBAHİSƏLƏRİNİN HƏLL EDİLMƏSİ VƏ MÜBAHİSƏ PREDMETİNİN TƏRƏFLƏR ÜÇÜN MƏQBUL HESAB OLUNAN VARİANTDA RAZILAŞDIRILMASI

**Açar sözlər:** *Əmək münasibətlərinin yaranması, əmək müqaviləsinin bağlanması, işçi-işəgötürən münasibətləri, profilaktik tədbirlərin görülməsi, fərdi əmək mübahisələri, Əmək Məcəlləsinin maddələri, əmək kollektivinin mənafeləri, həmkarlar ittifaqının fəaliyyəti, kadr aparatı işçiləri, etik norma və qaydalar, intizam qaydalarına riayət olunması, məhkəmə çəkişməsinin nəticəsi.*

**Key words**: *Establishment of labor relations, signing of employment contract, employee-employer relationships, taking preventive measures, individual labour disputes, articles of Labour Code, interests of workers, trade union activity, personnel, ethical norms and rules, discipline rules, result of litigation*

**Ключевые слова:** *создание трудовых отношений, заключение трудового договора отношения работника-работодателя, выполнение профилактических мероприятий, персональные трудовые споры, статьи Трудового Кодекса, интересы трудового коллектива, деятельность профсоюзов, работники кадрового аппарата, этческие нормы и порядки, соблюдение порядка дисциплины, заключение судебных пререканий.*

İşçi-işəgötürən münasibətləri probleminin səmərəli həll yollarının axtarışı istər sosializm istərsə də kapitalizm dövründə aktual olan mövzuların biri bəlkə də birincisidir. Dövlət müstəqilliyi bərpa edildikdən sonra cəmiyyətin demokratikləşdirilməsi istiqamətində real olaraq görülən işlər əmək hüquq münasibətlərinə, eləcə də işçi-işəgötürən münasibətləri probleminə yeni yanaşmanı tələb edir. Heç şübhəsiz ki, bu baxımdan müəssisə və təşkilat rəhbərlərinin idarəçilik fəaliyyəti ilə bağlı istifadə etdiyi üsul və qaydalar konstitusyon prinsiplərə əsaslanmalı, hüquqi dövlətin tələblərinə və ədalətə cavab verməli, maraqlı şəxslərin mənafelərini mütləq nəzərə almalıdır (3;142).

Əmək hüquq münasibətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ və normativ xarakterli aktlarla nizamlanır.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs zorla işlədilə bilməz. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır (1;15).

Hər bir müəssisədə daim olmasa da istisna hallarda işçi və işəgötürən arasında kiçik anlaşılmazlıq və mübahisələr yaşanır. Mübahisələr bir çox hallarda işçinin kollektiv münasibətlərdə olmaması, ilk işə başlaması, həmin işçinin tabeçilik, etik norma və qaydaları gözləməməsi, müəyyən zamanda sosial və məişət problemlərinin həddən artıq olması, səbirsiz olması və iş yerinin, mühitin onun təsəvvür etdiyi və gözlədiyi kimi olmaması səbəbindən yaranır. Bu mübahisələrin həlli bəzən işəgötürənin humanistliyi həmçinin, işçinin ona son anda edilən jestdən istifadə etməklə, etdiyi qəbahəti anlayıb işə münasibətinə, davranışına və fəaliyyətində dönüş yaratmasına müsbət təsir edir. Bir sıra hallarda isə tərəflər razılığa gəlmədikdə bunun əksi baş verir və məhkəmə çəkişməsi ilə nəticələnir (5;98).

Əmək mübahisələrinin yaranmasının aşağıdakı iki səbəbi fərqləndirilir. Ümumi müəyyən olunmuş əxlaq normalarını qəbul etməmə işəgötürənin aşağıdakı hərəkətləri əmək mübahisəsinin yaranma səbəbləri ola bilər: bürokratizm, tənqidin təqib olunması, işçilərin qanuni mənafe və hüquqlarının təmininə etinasızcasına münasibət, süründürməçilik, fərdi və kollektiv əmək müqavilələrinin və qanunvericiliyin kobudcasına pozulması və s. işçilərin isə proqul etmək, işə sərxoş gəlmək, digər əmək və istehsalat intizamını pozmaq, ona etibar edilən müəssisənin əmlakına laqeyd münasibət göstərmək, işləmədiyi gün üçün əmək haqqı tələb etmək və s. bu kimi hərəkətləri əmək mübahisəsinin yaranması üçün səbəb ola bilər. İşçilərin və işəgötürənlərin əmək qanunvericiliyini bilməməsi və ya pis bilməsi bunun nəticəsində müəssisə rəhbəri və işçilər öz vəzifələrini yerinə yetirərkən hüquq pozuntusu törədirlər ki, bu da əmək mübahisəsinin yaranmasına səbəb olur. Əmək mübahisələrinin şərtləri mübahisə edən tərəfə münasibətdə obyektiv xarakter daşıyaraq, konkret istehsalatın, sahənin işindəki çatışmazlıqları, yaxud əmək

qanunvericiliyindəki çatışmazlıqları və boşluqları əks etdirir. Əmək mübahisələrinin şərtləri istehsalat və hüquqi xarakterli ola bilər. Mübahisə edən tərəfə münasibətdə onlar həyatımızda obyektiv surətdə mövcuddur. Fərdi əmək mübahisələri Azərbaycan Respublikası Əmək Məcəlləsinin fəsillərində (maddə 287) nəzərdə tutulmuş qaydada həll olunur. Fərdi əmək mübahisələrinin həlli müstəsna surətdə işçini müdafiə etmək məqsədi güdən bir tərəfli proses deyildir. O, həqiqətin müəyyən edilməsinə və fərdi əmək mübahisəsinin tərəflərindən hər hansı birinin - işçinin yoxsa işəgötürənin hüquqlarının pozulmasından asılı olaraq pozulmuş hüquqların bərpasına yönəlmişdir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 224-cü maddəsi fərdi əmək mübahisələrinə baxan orqanların dairəsini müəyyən etmişdir. Həmin maddənin birinci hissəsində deyilir ki, bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla bütün fərdi əmək mübahisələrinə bilavasitə məhkəmələr tərəfindən baxılır (2; 545).

Məhkəmədə əmək mübahisələrinin həlli ilk olaraq işəgötürənin işgüzar nüfuzuna, kollektiv arasında sağlam psixoloji mühitin korlanmasına gətirib çıxarmaqla, müəssisənin fəaliyyətinə bütövlükdə mənfi təsir edir. Bu kimi neqativ halların baş verməsinin qarşısının alınması üçün müəssisədə vəzifə daşıyan hər bir vəzifəli şəxsin ilk öncə işinə peşəkarcasına yanaşması vacibdir. Onlardan ən mühüm olanı qeyd etmək olar ki, işçilərin işə qəbulunda iştirak edən kadr aparatının təcrübəli, rotasiya qaydasında təyin olunmuş, müəssisə rəhbərinin yanında nüfuzu olan peşəkar işçinin fəaliyyət göstərməsi labüddür.

Kadr aparatı istər işçi işə yeni qəbul edilərkən, istərsə də işçi ilə müəssisə rəhbəri arasında yaranmış mübahisə zamanı əmrin layihəsini hazırlayıb müəssisə rəhbərinə təqdim etməklə işini bitirmiş hesab etməməlidir. İşə yeni qəbul edilən işçi ilə əmək müqaviləsi bağlanarkən müqavilədə göstərilənləri tanış etməli və əmək müqaviləsi üzrə işçinin əsas vəzifələrini ona geniş şəkildə izah etməlidir. İşəgötürənlə işçi arasında hər hansı səbəbdən mübahisə nəticəsində münasibətlər korlandıqda kadr aparatı işçisi görüləcək tədbirləri müəyyən etməlidir. Bunun üçün ilk öncə mübahisənin səbəblərini araşdırıb tərəfləri sakitləşdirməklə, səhv qərarlar qəbul etdikdə yaxın gələcəkdə işçi tərəfindən haqlarının müdafiəsi üçün məhkəməyə müraciət edəcəyini işəgötürənə bildirməli, işçinin isə etdiyi qəbahətə görə onun qəbahətini əks etdirən müvafiq maddə ilə işdən çıxarıldıqda, gələcəkdə işə düzəlmək üçün çətinlik çəkəcəyi, iş üçün müraciət etdiyi müəssisədə işəgötürən tərəfindən əvvəlki iş yerindən onun iş fəaliyyətinin araşdırılacağını bildirilməli və çıxış yolunun dialoq vasitəsilə mübahisənin həll olunmasını inandırmalıdır. Bu kimi profilaktik tədbirlər bir sıra hallarda gələcək mübahisələrin qarşısını almaqla işçilər arasında sağlam psixoloji mühitin bərqərar olmasını təmin edəcəkdir. Mübahisələrə bu kimi yanaşmalar vəzifəli şəxslərin və işçilərin öz iş yerlərinə, peşələrinə, tutduqları mövqeyə və əmək kollektivi arasında nüfuzlarını daha da artıracaqdır. Lakin tərəflərdən biri və ya hər ikisi uzun müddət razılığa gəlmədikdə mövcud qanunvericiliyə əsasən kadr aparatı tərəfindən müvafiq sənədləşmə işinin aparılması zərurəti yaranacaqdır.

Əmək mübahisələrinin əsasında işçinin və işəgötürənin mənafeləri arasındakı obyektiv ziddiyyətin durduğu əmək münasibətinin təbiətinə xas olan təzahür kimi nəzərdən keçirmək lazımdır.

Problemin kökünə baxdıqda bir çox hallarda görünür ki, müəssisədə işə yeni başlayan işçi etik davranış qaydaları və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10-cu maddəsində qeyd olunan (a) əmək müqaviləsi ilə müəyyən edilmiş əmək funksiyasını vicdanla yerinə yetirmək; b) əmək intizamına və müəssisədaxili intizam qaydalarına əməl etmək; c) əməyin təhlükəsizliyi normalarına əməl etmək; ç) işəgötürənə vurduğu maddi ziyana görə məsuliyyət daşımaq; d) dövlət sirrini, habelə işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamaq; e) iş yoldaşlarının əmək hüquqlarını və qanuni mənafelərini pozmamaq; ə) fərdi, kollektiv əmək mübahisələri üzrə məhkəmə qərarlarını yerinə yetirmək; f) əmək qanunvericiliyinin tələblərinə əməl etmək) əmək müqaviləsi üzrə işçinin əsas vəzifələri ilə tanış olmur (3;139).

İşçinin işə yeni başlayarkən məsuliyyəti artırılmadıqda və neqativ hallar baş verdikdə işçi ilə müəssisə rəhbərinin münasibətlərinin korlanması baş verir və nəticədə müəssisə rəhbərinin işçi barəsində ən ciddi intizam tədbirini seçməsi ilə nəticələnir. Əmək fəaliyyətinin həyata keçirilməsi prosesində işçilərin və işəgötürənlərin mənafelərinin üst-üstə düşməməsi, bəzən isə yuxarıda qeyd edildiyi kimi onların bir-birinə zidd olması çox vaxt onlar arasında münaqişələrin yaranmasına gətirib çıxarır. Belə münaqişələr işçilərlə işəgötürənlər arasında bilavasitə danışıqlar yolu ilə tənzimlənmədikdə həm ayrıca bir işçinin, həm də bütün əmək kollektivinin və ya onun bir hissəsinin mənafeləri ilə bağlı olan əmək mübahisələrinə çevrilir.

Müəssisə rəhbərinin idarəçilik fəaliyyəti ilə bağlı istifadə etdiyi üsul və qaydalar əmək hüquq münasibətlərini nizamlayan, qüvvədə olan qanunvericilik aktlarına və normativ xarakterli aktlara uyğun olmalıdır (4;190).

Müəssisədə sağlam psixoloji mühitin formalaşdırılması üçün işçi işə qəbulunun keçirilməsi zamanı namizədlərin psixologiyası öyrənilməli, müvafiq qaydada yoxlamalar aparılmalı, Əmək Məcəlləsinin 16-cı maddəsinə əsasən əmək münasibətlərində ayrı-seçkiliyə (vətəndaşlığına, cinsinə, irqinə, dininə, milliyyətinə, dilinə, yaşayış yerinə, əmlak vəziyyətinə, ictimai-sosial mənşəyinə, yaşına, ailə vəziyyətinə, əqidəsinə, siyasi baxışlarına, həmkarlar ittifaqlarına və ya başqa ictimai birliklərə mənsubiyyətinə, qulluq mövqeyinə, həmçinin işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan digər amillərə görə

işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, həmin amillər zəminində bilavasitə və ya dolayısı ilə imtiyazların və güzəştlərin müəyyən edilməsi, habelə hüquqların məhdudlaşdırılması) yolverilməzliklə bağlı qadağaya riayət olunmalı, qadınlara, əlillərə, yaşı 18-dən az olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsinin ayrı-seçkilik hesab olunmadığı nəzərə alınmalıdır (4;191).

Müəssisədə əmək fəaliyyəti ilə məşğul olan hər bir işçinin əmək intizamına və onun əmək funksiyasını səmərəli və faydalı yerinə yetirməsinə diqqət yetirilməlidir. Hər ilin sonu işində yaxşı nəticələri olan və digərlərindən fərqlənən işçilər mükafatlarla həvəsləndirilməlidir. İlin müəyyən vaxtlarında hüquqi maarifləndirmə işi aparılmalı, etik davranış qaydaları və əmək qanunvericiliyi vaxtaşırı işçilərin nəzərinə çatdırılmalıdır. İşçi və işəgötürən arasında mübahisənin həlli yolları araşdırılarkən müəssisə rəhbərinə kadr aparatı, həmkarlar ittifaqı və müəssisənin digər vəzifəli şəxsləri yaxından kömək göstərməli və onların iştirakı ilə birgə çıxış yolu tapılmalıdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2017
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Bakı, 2017
3. Qasımov A.M. Əmək hüququ: Dərslik, Bakı: “Adiloğlu” nəşriyyatı, 2007
4. Azərbaycan Respublikasının Əmək qanunvericiliyi, Bakı, Qanun-2006
5. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin Kommentariyası, Bakı-2003


**ABSTRACT**


**Gahraman Behbudov, Parviz Garibov**


**RESOLUTION OF INDIVIDUAL LABOR DISPUTES AND SOLUTION OF SUBJECT MATTER OF DISPUTE IN AN ACCEPTIBLE VARIANT FOR PARTIES**


Considering the actuality of labor relations and the interests of employers and employees, the article is aimed at discussing individual labor disputes, finding their acceptable solution for parties, and prevention of further disputes. Written labor contract between employer and employee based on a labor contract, either individually or collectively, is primarily considered the beginning of labor relations.

As a result, business relationships are established and maintained between the two parties. The disagreement between the employer and the employee can lead to labor disputes in some cases. A good understanding of the labor legislation by officials in order to ensure the normal operation of the enterprise will help establish a psychologically healthy staff and find ways to resolve labor disputes in the enterprise. The other ideas in the article mentioned for the purpose of resolution of individual labor disputes and solution of the subject matter in an acceptable variant for the parties, are directed to the prevention of labor disputes, reconciliation of the parties and consideration of them in further disputes.


**РЕЗЮМЕ**


***Гахраман Бехбудов, Парвиз Гарибов***


**РЕШЕНИЕ ПЕРСОНАЛЬНЫХ ТРУДОВЫХ СПОРОВ, СОГЛАСОВАНИЕ ПРОБЛЕМНЫХ МОМЕНТОВ И ПРЕДМЕТА СПОРОВ В ВАРИАНТЕ, УДОВЛЕТВОРИТЕЛЬНОМ ДЛЯ СТОРОН**


Статья посвящена вопросам обсуждения персональных трудовых споров, находки путей решения удовлетворительного для сторон и предотвращения возможных споров с учетом актуальности трудовых отношений, интереса работника и работодателя. Письменный договор, заключенный между работодателем и работником в персональном или коллективном порядке, первично считается началом в трудовых отношениях, строится и продолжается деловые отношения между сторонами. При разногласии между работодателем и работником в ряде случаях создаются трудовые споры. С целью обеспечения нормального функционирования предприятия хорошее знание должностными лицами трудового законодательства посбособствет формированию здорового психологического коллектива и находке в данном предприятии путей решения трудовых споров. Поиск и находка путей решения трудовых споров всегда считается одной из актуальных тем, в исследовании вопроса необходимо учитывать мнение каждого и обращать внимание на это в решении персональных трудовых споров работодателей и работников.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**VAQİF QURBANOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:341**

# AZƏRBAYCAN RESPUBLİKASINDA XARİCİ MƏHKƏMƏLƏRİN VƏ ARBİTRAJLARIN QƏTNAMƏLƏRİNİN TANINMASI VƏ İCRASI

**Açar sözlər:** *beynəlxalq hüquq, mülki icraat, məhkəmə hakimiyyəti*
**Keyword**: *human rights, international law, civil procedure, judicial power*
**Ключевые слова:** *международное право, гражданский процесс, судебная власть.*

Azərbaycan Respublikasında xarici məhkəmələrin və arbitraj məhkəmələrinin qətnamələrinin tanınması və icrası Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 47, 48 və 49-cu frəslinin müddəaları əsasında tənzimlənir. Belə ki, tuxarıda qeyd olunan məcəllənin 462-ci maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin və arbitrajının qətnamələri Azərbaycan respublikasının qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə qarşılıqlı təlimatlandırılmışsa, Azərbaycan respublikasında icra edilə və tanına bilər.

Xarici dövlətlərin məhkəmələrinin və arbitrajının qətnamələri dedikdə, mülki işlər və iqtisadi mübahisələr üzrə qətnamələr, cinayət işləri üzrə hökmlərin cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi barədə hissələri, arbitral məhkəmələrinin qətnamələri və eləcə də xarici dövlətlərin digər aktları başa düşülür.

Xarici dövlət məhkəmələri və arbitrajlarının qətnamələrinin məcburi qaydada icra olunması və tanınması barədə ərizələrə Azərbaycan Respublikasının ali məhkəməsi baxır.

Aşağıdakı hallarda məhkəmənin qətnaməsini məcburi qaydada icra etməkdən imtina edilməsinə yol verilir:

1. İşin baxılması Azərbaycan Respublikası məhkəməsinin səlahiyyətinə aiddirsə;
2. İşdə iştirak edən şəxs işə baxılması barədə bildirişin vaxtında və lazımi qaydada ona verilməməsi nəticəsində prosesdə iştirak etmək imkanından məhrum olmuşsa;
3. Eyni tərəflər arasında, eyni predmetə dair və eyni əsaslar üzrə Azərbaycan Respublikası məhkəmələrinin qanuni qüvvəyə minmiş varsa və ya digər dövlətin məhkəməsində iş qaldırmadan əvvəl Azərbaycan Respublikası məhkəmələrinin icratında eyni şəxslər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə qaldırılmış iş varsa;
4. Qətnamə, ərazisində həmin qətnamə çıxarılan dövlətin qanunvericiliyi üzrə qanuni qüvvəyə minməmişdirsə;
5. Qətnamənin icrası Azərbaycan Respublikası qanunvericiliyinin əsas prinsipləri və suverenliyi ilə ziddiyyət təşkil edirsə;
6. Xarici dövlətin qarşılıqlı əlaqələri təmin olunmursa.

Əgər Azərbaycan Respublikası məhkəməsinin icratında eyni tərəflər arasında, eyni predmet barədə və eyni əsaslarla olan mübahisə barədə iş başlanmışdırsa, məhkəmə qətnamənin məcburi icrası və tanınması barədə ərizəyə baxılmasını dayandırır. Qətnamənin məcburi icrası və tanınması barədə qərar qəbul edildiyi halda məhkəmə iş üzrə icrata xitam verir. Əgər ərizə rədd edilmişdirsə, mübahisəyə mahiyyəti üzrə baxır.

Azərbaycan Respublikası mülki prosessual Məcəlləsinin 466-cı maddəsinə müvafiq olaraq xarici dövlətin məhkəmə qətnaməsinin məcburi icrası barədə ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

1. Xarici dövlətin məhkəmə qətnaməsinin qanuni qüvvəyə minməsini təstiq edən, üzərində qeydiyyat aparılmış surəti, zərərinə qətnamə çıxarılmış və məhkəmə iclasında iştirak etməyən tərəfin işə baxılması barədə vaxtında və lazımi qaydada xəbərdarlıq edilməsini təstiq edən sənəd;
2. Sənədlərin Azərbaycan dilinə tərcümə olunmuş, təstiq olunmuş surətləri.

Xarici dövlətin məhkəmə qətnaməsinin tanınması və məcburi icrası barədə ərizəyə işdə iştirak edən şəxslərə baxılmasının vaxtı və yeri barədə xəbər verilməklə açıq məhkəmə iclasında baxılır.

Bildiriş vərəqəsinin ona verilməsi barədə məhkəmədə məlumat olarsa, işdə iştirak edən şəxsin üzürlü səbəb olmadan məhkəməyə gəlməməsi ərizəyə baxılmasına mane olmur. Əgər işdə iştirak edən şəxs ərizəyə baxılmasının başqa vaxta keçirilməsi barədə xahişlə məhkəməyə müraciət edərsə və həmin xahiş məhkəmə tərəfindən üzürlü hesab edilərsə, məhkəmə işə baxılmasını başqa vaxta keçirir və borclunu yeni məhkəmə baxışının vaxtı barədə xəbərdarlıq edir. Ərizəyə baxılarkən məhkəmə xarici dövlətin məhkəmə qətnaməsini tanımaqdan və icra etməkdən imtina etdikdə Azərbaycan Respublikası mülki Prosessual məcəlləsinin 465-ci maddəsində nəzərdə tutulan əsasların olub – olmamasını yoxlayır. Məhkəmə ərizə üzrə xarici dövlətin məhkəmə qətnaməsinin məcburi icrası və ya imtina edilməsi barədə qərardad çıxarır. Xarici dövlətin məhkəmə qətnaməsi və Azərbaycan Respublikası Ali Məhkəməsinin qərardadı əsasında bu qətnamənin məcburi qaydada icra edilməsinin həll olunması haqqında, məhkəmə qətnaməsinin icra edilmə yerinə göndərməklə icra vərəqəsi verir.

Xarici dövlətin məhkəmə qətnaməsinin məcburi qaydada icra edilməsi barədə hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qətnamənin icrasını həyata keçirən orqanlar tərəfindən edilir.

Azərbaycan Respublikası mülki Prosessual Məcəlləsinin 469-cu maddəsinə əsasən xarici dövlətin məcburi icra olunması tələb edilməyən məhkəmə qətnamələri, maraqlı şəxs tərəfindən buna qarşı etiraz daxil olmamışsa, hər hansı sonrakı icraat olmadan tanınır.

Əgər xarici dövlətin məhkəmə qətnaməsi ilə nigah pozulmuşsa, etibarlı yaxud etibarsız hesab edilmişsə. Bu qətnamə icra edilməsi üçün onun Azərbaycan Respublikasının Ali Məhkəməsi tərəfindən tanınması tələb olunur. Bu halda tanınma xarici dövlətin qarşılıqlı təminatından asılı deyildir.

Ər-arvad hər ikisi qətnamə qəbul edilən zaman nigahı pozan orqanın aid olduğu dövlətin vətəndaşı olmuşsa, qətnamənin tanınması tələb olunmur.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 471-ci maddəsinə əsasən işdə iştirak edən şəxs, xarici dövlətin məhkəmə qətnaməsinin daxil olmasını bildiyi 1 ay müddətində bu qətnamənin tanınmasına etiraz barədə Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edə bilər.

Xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasına qarşı işdə iştirak edən şəxsin Azərbaycan Respublikası mülki prosessual Məcəlləsində göstərilən qaydada bildirməklə açıq məhkəmə iclasında baxılır. Məhkəmə bildirişinin ona rəsmi qaydada verilməsi məhkəməyə məlum olduqda, işdə iştirak edən şəxsin üzürsüz səbəbdən məhkəməyə gəlməməsi etiraza baxılmasına mane olmur. Əgər şəxs etiraza baxılması vaxtının bağqa vaxta keçirilməsinə dair məhkəməyə müraciət edərsə və bu xahiş məhkəmə tərəfindən üzürlü hesab edilərsə, onda məhkəmə baxışı başqa vaxta keçirilir və bu barədə iştirak edən şəxslərə bildirilir. Xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasına qarşı etiraza baxılanda məhkəmə qərardadı çıxarılır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 473-cü maddəsinə əsasən məcburi icra edilməli olmayan xarici dövlətin məhkəmə qətnaməsinin tanınmasının rədd edilməsinə Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 465-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda yol verilir. Qərardadın surəti onun çıxarıldığı gündən 3 gün müddətində xarici dövlətin məhkəmə qətnaməsinin çıxarılması barədə ərizə vermiş şəxsə və ya onun nümayəndəsinə və qətnamənin tanınmasına qarşı etiraz edən şəxsə göndərilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Konstitutsiyası
2. AR MPM-si “Digesta” nəşriyyatı, Bakı, 2017-ci il
3. Z.Qafarov, Ataxan Əbilov “Beynəlxalq xüsusi hüquq”, Bakı, “Qanun” nəşriyyatı, 2007-ci il
4. Azərbaycan Respublikası Ailə Məcəlləsi
5. Azərbaycan Respublikası Ticarət gəmiçiliyi Məcəlləsi
6. “Beynəlxalq xüsusi hüquq haqqında” AR Qanunu
7. “Prozoqasiya sazişi”nin anlayışı, Mülki və ticarət işləri üzrə məhkəmə qərqrlarının məcburu icrası və yurisdiksiyası haqqında”, 1968-ci il, Brussel Konvensiyası.


## ABSTRACT


**Vagif Gurbanov**


### RECOGNITION AND EXECUTION OF FOREIGN COURTS AND ARBITRATIONS RESOLUTIONS


In the modern world, special attention is paid to the study and teaching of private international law. It is sufficient to say that the International Law Institute, an authoritative international organization, attached particular importance to private international law in its resolution adapted at the 1997 session. It states that any student who does not know private international law as a fundamental course cannot get a diploma of law degree. The article deals with the recognition of foreign courts resolutions in the Republic of Azerbaijan. These laws have provided a number of recommendations regarding the recognition and executions of resolutions issued by foreign courts in our country.


## РЕЗЮМЕ


**Вагиф Гурбанов**


### ПРИЗНАНИЕ И ИСПОЛНЕНИЕ РЕШЕНИЙ ИНОСТРАННЫХ СУДОВ И АРБИТРАЖЕЙ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ


В современном мире особое внимание уделяется на изучение и преподавание международного частного права. Достаточно только сказать, что Международный Правовый Институт, являющийся авторитетной международной организацией, в своем постановлении, принятом на сессии 1997 года, придавал особое значение международному частному праву. В нем говорится, что ни один студент, не знающий международного частного права как фундаментального курса, не может получить диплом об окончании юридического факультета. В статье говорится о признании постановлений иностранных судей в Азербайджане. В АР-е принят ряд законов и законодательные акты о Международном частном праве. В этих законах выдвинут ряд рекомендаций по признанию в нашей стране постановлений, принятых иностранными судами.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

**MÜSLÜM NƏZƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**NİZAMİ QULİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 16:378**

# "PEDAQOJİ TEXNOLOGİYA" VƏ "MODUL TƏHSİL TEXNOLOGİYASI"NIN NƏZƏRİ ƏSASLARI

**Açar sözləri:** *təhsil, təlim, modul təhsil, texnologiya, pedaqoji texnologiya, təhsil texnologiyası*
**Key words:** *education, training, module education, technology, pedagogical technology, educational technology*
**Ключевые слова:** *образование, обучение, модульное образование, технология, педагогическая технология, образовательные технологии*

XX əsrin 50-ci illərin ortalarından başlayaraq təhsil prosesində müəyyən bir texniki mühitin yaradılması, ənənəvi təhsili avtomatlaşdırılmış alətlər dəsti ilə əlaqələndirilməsi, təhsil prosesinin qurulmasında yeni bir texnoloji yanaşma baş verdi. Bu yanaşmalar yeni informasiya texnologiyalarının mənimsənilməsi yolunun inkişafına şərait yaratdı. Bu gün təhsil paradiqmaları dəyişir, təhsil texnologiyası konsepsiyası geniş şəkildə elm sahəsi və xüsusi bir təhsil texnologiyası kimi nəzərdən keçirilir və təlim prosesinə tətbiq edililir.

Bu baxımdan XXI əsrin təhsil modeli – təlim və tərbiyənin əsas ideyalarının, məqsədlərinin, prinsip və metodlarının tam sistemidir. Cəmiyyətin inkişafı prosesində o, müntəzəm sürətdə dəqiqləşir və yeniləşir. Sivilizasiyalı inkişafdan geri qalmaq istəməyən heç bir ölkənin öz təhsil sistemini beynəlxalq təhsil ideallarının formalaşması tələblərindən kənarda modelləşdirməsi mümkün deyildir( 4, s.161).

Sosial-iqtisadi və siyasi dəyişikliklər nəticəsində ortaya çıxan təhsil sisteminin dərin islahatı, məlumatların və öyrənilən fənlərin həcminin daim artması yeni təhsil texnologiyalarından istifadə etmək zərurətini yaradır. Müasir şəraitdə təhsilin rolu artmaqdadır, bu baxımdan təhsil təkcə fərdi deyil, həm də cəmiyyətin dəyişməsi və inkişafına kömək edən güclü bir amildir

Təhsilin texnologiyası tədris fəaliyyətində müəllimlərlə şagirdlərin, pedaqoqlarla tələbələrin bir-birindən kənarlaşma hallarının qarşısını almağa kömək edir. Belə texnologiya məhz şəxsiyyətə tərəf dönüş, ona hörmət və inam, ləyaqətlə münasibəti, onun şəxsi məqsədlərinin, tələblərinin və maraqlarının qəbul edilməsini nəzərdə tutur. Bu həm şagirdlərin bacarıqların yaranması şərtlərini açmaq, həm də pedaqoqun öz gündəlik həyatındakı tələblərinin hərtərəfli təmin olunması meyli ilə bağlıdır( 4, s.168).

Müasir dövrdə təlim və tərbiyənin yeni texnologiyalarının işlənib hazırlanması və həyata keçirilməsi üçün yeni təhsil texnologiyalarının axtarışı mühüm bir problem kimi qarşıya qoyulur.

Təhsil texnologiyaları yalnız müəyyən bilikləri deyil, həm də əldə etmək bacarığı olan tədris prosesinin xüsusi metodik iş yükünü nəzərdə tutan təhsil strategiyalarına uyğun olan, ənənəvi təhsil prosesindən fərqli, təhsildə innovativ metodoloji təhsil təcrübələrinə əsaslanır.

Təhsil texnologiyasının mahiyyəti təhsilin təbiəti və metodunun dəyişdiyini ifadə edir. Müasir təhsil sisteminin modernləşdirilməsi kontekstində təhsil prosesi yalnız müəllim və tələbə mövqeyindən başqa, yeni mütəxəssislərin keyfiyyətcə fərqli mövqeyə daxil edilməsini də tələb edir.

Fəlsəfi və pedaqoji ədəbiyyatda yeni təhsil texnologiyaları konsepsiyasına olan münasibət qeyri-müəyyəndir. Bir çox müasir tanınmış tədqiqatçılar insanlığın gələcəyini yüksək texnologiyaların inkişafı ilə birləşdirirlər. Onların mövqeyi texnologiyanın dəyişdirilməsi və istehsalın texnoloji tərəfi cəmiyyətin inkişafında vacib texnoloji determinizm təzahürüdür. Texnoloji determinizm görə, böyük dəyişiklik olan sosial strukturlarda və əlaqələrdə texnoloji qaydada kifayət qədər dəyişikliklərə səbəb olur. Bu mövqe, texnologiyanın inkişafına birbaşa asılılıq verən sənaye, postsənaye, informasiya cəmiyyətinin sosial konsepsiyasına xasdır.

Müasir cəmiyyətdə texnologiyaların nəzarətsiz və genişlənən təsiri, insanın həyat tərzinə, texnologiyanın inkişafının mümkün mənfi təsirlərinə, informasiya proseslərinin gələcəyə təsirinə dair artan narahatlıq var. Texnologiya istifadəsinin sosial məhdudiyyətləri və texnoloji inkişafın effektiv tənzimləyiciləri məsələsi qaldırılır. Məsələn; İngilis alimi A.Toynbenin fikirincə: "texnologiyanın inkişafı, texnoloji gücün qırılmasının ilk əlaməti olduğunu və sonra mədəniyyətin ölümünün nəticəsidir" (10).

Hazırda təhsil texnologiyası konsepsiyası pedaqoji lüğətdə möhkəm şəkildə özünə yer tutmuşdur. Lakin bu anlayışın istifadəsində böyük fərqlər var.

**Texnologiya** - Yunan sözləri **techno** (sənət, sənətkarlıq, bacarıq)) və **loqotiplər** (elm, öyrənmə, tətbiq etmə, konsepsiya, tədris) ibarətdir. Yəni, texnologiya məhsulun hazırlanması bacarığı, istehsal proseslərinin yerinə yetirilməsi üçün üsul və vasitələr haqqında bilik formasıdır(12 ).

Texnologiya – hər hansı bir fəaliyyətin inkişaf yolu və şəxsin fəaliyyətə necə cəlb olunmasıdır.

V.P.Bespalkoya görə "hər hansı bir fəaliyyət texnologiya və ya sənət ola bilər. İncəsənət əsasən sənətə əsaslanır, texnologiya elmə əsaslanır. Hər şey sənətlə başlanır, texnologiya ilə başa çatır ki, bütün proses daha sonra yenidən başlayır" (6).

A.Rakitovun fikrincə, texnologiya "seçilmiş məqsədlərə nail olmaq üçün müvafiq kosmik vaxt intervalı və müəyyənləşdirilmiş texnologiya əsasında müəyyən bir ardıcıllıqla həyata keçirilən müxtəlif əməliyyatlar və bacarıqların bir sistemidir" (9).

B.T. Lixaçov pedaqoji texnologiyanı müəyyən formaları, metodları, tədris metodları, tədris vasitələri, pedaqoji prosesin təşkilati və metodik vasitəsi kimi təsvir edən psixoloji və pedaqoji qurğular qrupu kimi müəyyən edir ( 7.,s.182 ).

V.M.Monaxovun fikirincə "Pedaqoji texnologiya tədris prosesinin layihələndirilməsi, təşkil edilməsi və keçirilməsi üçün tələbə və müəllimə rahat şəraitin təmin edilməsi, pedaqoji texnika modelinin nümunəsi hesab olunan bütün detallar üzərində düşünülmüşdür" ( 8).

Bundan başqa elmi və metodik ədəbiyyatlarda pedaqoji texnologiyanın müəyyənləşdirilməsinin bəzi variantları da mövcuddur:
- praktiki məqsədlərə nail olmaq üçün texniki üsul;
- insan mövcudluğu üçün lazım olan maddələr əldə etmək üçün istifadə olunan bir sıra üsullar;
- insan fəaliyyətinin təşkili prosedurları və metodları;
- insan davranışını modelləşdirmək üçün istifadə olunan alətlər və s.

Müasir təhsil texnologiyaları yeni təhsil paradiqmalarının həyata keçirə biləcəyi bir vasitə sayılır.

Təhsil texnologiyalarının inkişaf tendensiyaları birbaşa fərdiləşdirmə və özünü reallaşdırmağa kömək edən təhsilin humanitarlaşdırılmasına aiddir. "Təhsil texnologiyaları" termini "öyrənmə texnologiyaları" terminindən daha geniş olmaqla tələbələrin şəxsi keyfiyyətlərinin formalaşması və inkişafı ilə bağlı təhsil aspektini nəzərdə tutur. Göstərilən, bu təriflər oxşar kimi görünməsinə baxmayaraq, yeni texnologiyalarının daim tam və dəqiq olduğunu da iddia edə bilməz. Ən ümumi formada, texnologiya yaxşı bir düşünülmüş sistemdir, məqsədin "müəyyən bir məhsul növü" ya da onun tərkibində "necə" yerləşdirildiyi üsuldur.

Hazırda nəzəri və tətbiqi tədqiqat istiqamətləri baxımından da pedaqoji texnologiya problemləri öyrənilir. Nəzəri baxımdan, pedaqogika kateqoriyasında pedaqoji texnologiya vəziyyətin axtarışı; mahiyyətinin bütöv bir görünüşünü, struktur komponentlərini yaratmaq; texnologiyanın elmi əsasları pedaqoji fəaliyyətin müxtəlif sahələrində (didaktik, təhsil, təhsili idarəetmə) öyrənilir; pedaqoji texnologiyaların tərtib edilməsi metodikası və nəzəriyyəsi tədqiq edilir. Ümumiyyətlə, təhsil texnologiyası nəzəriyyəsinin əsasları yaranır.

Elmi və tətbiqi cəhətdən yeni texnologiyalar məhsuldar fikir və anlayışlara əsaslanaraq nəzərdə tutulur; müəllimlərin pedaqoji texnologiyalarının tədrisinin nəzəriyyəsi və metodları araşdırılır. Pedaqoji texnika problemləri ilə bağlı xarici və yerli ədəbiyyatın təhlilinə əsasən bu pedaqoji fenomenin dörd inkişaf nöqtəsinin mövcudluğunu göstərmək olar:1) Pedaqoji texnologiya təhsildə effektivliyin artırılması üçün tədris vəsaitlərinin istifadəsinin artırılmasıdır. Biz bu tərifi iki anlayışın təkamül, interpenetrasiya və qarşılıqlı əlaqəsi nəticəsində nəzərdən keçirmək məcburiyyətindəyik: "təhsildə texnologiya" (təhsil prosesində mühəndislik düşüncəsinin tətbiqi) və "təhsil texnologiyası" (elmi təsvir qaçılmaz olaraq planlaşdırılan nəticəyə gətirib çı-xaran pedaqoji prosesin vasitələri və üsullarının birləşməsi kimi xarakterizə olunur. 2)Pedaqoji texnologiya bütün təlim alətlərinin sistemli şəkildə müəyyən edilməsi, inkişaf etdirilməsi, təşkili və istifadə edilməsi ilə yanaşı, bu üsulların idarə olunması vasitəsilə təlimlərin asanlaşdırılmasına yönələn bilik sahəsidir.
3)Pedaqoji texnologiyanın məzmunu, məhdudiyyət olmadan, təlim sistemlərinin inkişafı, mövcud təlim vasitələrinin müəyyən edilməsi və bu vasitələrin istifadəçilərə təqdim edilməsi, həmçinin bu proseslərin idarə edilməsi və onları həyata keçirən insanlar daxildir. Bu tərif "Pedaqoji texnologiya" konsepsiyası daxili mahiy-yətin - öyrənmə məqsədinə nail olmaq üçün metodlar, tədris vasitələri və onların istifadə nəzəriyyəsi daxil olmaqla, bilik sahəsinin tədbirlərindən birini göstərir.

Bizim fikrimizcə, bütün öyrənmə prosesinin tətbiqi və qiymətləndirilməsi, insan və texniki resursları nəzərə alaraq məlumatın mənimsənilməsi, təhsilin daha effektiv bir forma əldə etmək üçün qarşılıqlı əlaqəsinin planlaşdırılması sistematik bir üsuldan başqa bir şey deyildir. Bu mənada Pedaqoji texnologiyadan sistem analizini nəzəri aləti kimi istifadə edilir. 4) Pedaqoji texnologiya elm və texnologiyanın son nailiyyətlərinə əsaslanaraq tədris prosesinin optimallaşdırılması prinsiplərinin öyrənilməsi, inkişafı və tətbiqi kimi başa düşülür. Bu baxımdan təhsil prosesinin texnologiyası sistematik yanaşma əsasında inkişaf etdirilməlidir.

Pedaqoji texnologiya aşağıdakı xüsusiyyətlərə malikdir:
- texnologiyanın məqsədi tədris prosesinin səmərəliliyinin daim artmasıdır;
- sistematik olmayan planlaşdırma pedaqoji texnologiyanın əlamətidir, lakin daha aşağı səviyyədədir;
- təhsil məlumatlarının sistemləşdirilməsi;
- öyrənmə alqoritmləri və sərhədləri, onları birləşdirilməsi.

Pedaqoji texnologiya sürətlə inkişaf edən bilik sahəsi olmaqla, davranış psixologiyası elementlərini özündə əks etdirən fənlərarası bir vasitədir.

Təhsil texnologiyası həmçinin planlaşdırılan tədris nəticələrinin bəzi təmsil olunmağından ibarət olan bir kompleksə, həmçinin tələbələrin hazırki vəziyyəti, tədris modelləri və bu xüsusi şərtlər üçün optimal modeli seçmək üçün meyarlar müəyyənləşdirmək üçün vasitələrdən ibarətdir.

Bizim fikirimizcə təhsil texnologiyalarını təhsil modeli aspektində nəzərdən keçirəkən iki səviyə fərqləndirilməlidir: üst səviyyə - didaktika ilə əlaqəli üsullar və formalar; alt səviyyə pedaqoji bir texnika təşkil edir - müəllimin şəxsiyyət xüsusiyyətləri (intuisiya, davranış, mimika, münasibətlər və s.) tərəfindən əlavə olunduqda pedaqoji sənətdir.

*Pedaqoji texnologiya* didaktik məqsədlərə nail olmaq, şagirdin şəxsiyyətinin inkişaf etdirilməsi və onun intellektual, davranış və peşəkarlıq statusunun formalaşdırılmasına yönəlmiş metod və vasitələrin tam sistemidir.

"Pedaqoji texnologiya" konsepsiyası üç aspektlə təmsil edilə bilər:

1) *elmi:* pedaqoji texnologiya - pedaqoji elmin bir hissəsi, məqsədləri, məzmunu və tədris metodlarını və tədris proseslərinin tədqiqi və inkişaf etdirilməsi;

2) *prosessual təsviri:* prosesin təsviri (alqoritmi), planlaşdırılmış öyrənmə nəticələrinə nail olmaq üçün məqsədlər, məzmunlar, üsullar və vasitələr;

3) *prosessual* cəhətdən *effektivdir:* texnoloji (pedaqoji) prosesin həyata keçirilməsi, bütün şəxsi, instrumental və metodik vasitələrin işlənilməsi.

Beləliklə, pedaqoji texnika həm öyrənmənin ən mürəkkəb yollarını, həm də tədrisdə istifadə olunan metod və prinsiplər sistemini və real tədris prosesi kimi tədqiq edilən bir elm kimi fəaliyyət göstərir.

Təhsil praktikasında "pedaqoji texnologiya" konsepsiyası üç mühüm səviyyədə istifadə olunur:

- Ümumi pedaqoji (ümumi didaktik) səviyyə: ümumi pedaqoji (ümumi didaktik) texnologiya müəyyən bir regionda vahid təhsil prosesini, müəyyən təhsil səviyyəsində təhsil müəssisəsini xarakterizə edir. Burada pedaqoji texnika pedaqoji sistem ilə sinonimidir: bir sıra məqsədlər, məzmunlar, alətlər və tədris metodları, subyektlərin və proses obyektlərinin fəaliyyəti üçün alqoritmdir;
- Şəxsi metodoloji (mövzu) səviyyə: pedaqoji texnika "xüsusi metodologiya" mənasında istifadə olunur, yəni, bir subyektin, sinifin, müəllimin (dərslərin tədrisi metodları, təhsilin kompensasiya metodları, müəllim işinin metodları) metod və vasitələrin müəyyən bir şəkildə həyata keçirilməsi üçün üsullar və vasitədir;
- Yerli (modul) səviyyə: yerli texnologiyaya uyğun olaraq təhsil prosesinin ayrı-ayrı hissələri, fərdi didaktik və təhsil vəzifələrinin həlli (fərdi fəaliyyət texnologiyası, konsepsiyaların formalaşdırılması, fərdi şəxsi keyfiyyətlərin öyrənilməsi, yeni material və biliklərin öyrənilməsi, müstəqil iş texnologiyasıdır və s.).
- Tədrisə müasir yanaşma onu texnoloji əsasda qurulması.
- Texnologiya yanaşmada fərdi bacarıq yüksək səviyyədə hökm sürür.

Ümumi bacarıqların yaxşılaşdığına görə "kollektiv yaradıcılıq", "kollektiv bacarıq" inkişaf edir, bu zaman texnologiya konsentrasiyalı ifadə forması alır.

Təhsildə müasir texnologiyaların inkişafı aşağıdakı prinsiplərə əsasən həyata keçirilməlidir:

- didaktika sistemini təmsil edən texnologiyanın bütövlüyü prinsipi;
- hədəflərə nail olmaq üçün müəyyən bir təhsil mühitində texnologiyanın təkrar etibarlılığı prinsipi;
- pedaqoji qurumların qeyri-dəqiqlik prinsipi və müvafiq pedaqoji sistemlərin özünün həyata keçirmə mexanizmlərinə təsir edən amillərin prioriteti;
- öyrənmə prosesinin tələbənin şəxsiyyətinə və bilik qabiliyyətinə uyğunlaşdırılması prinsipi;
- təhsil məlumatlarının potensial artım prinsipi, ümumiləşdirilmiş biliklərin formalaşması üçün optimal şərait yaradır.

Bu baxımdan, texnologiyanın köməyi ilə bilik və bacarıqların mənimsənilməsi prosesində şəxsi keyfiyyətlərin inkişafında effektiv nəticə əldə etmək mümkündür (6,s.12).

Hər hansı bir təhsil texnologiyasının səmərəliliyi əsasən onun üzərində qurulan elmi konsepsiyaya bağlıdır. Pedaqoji texnologiyanın hər hansı bir elmi konsepsiyası təhsil məqsədlərinə nail olmaq üçün fəlsəfi, psixoloji, didaktik və sosial-pedaqoji əsaslandırmanı ehtiva edir.

Müasir texnologiyaların tətbiqi təhsilin keyfiyyətini artırmaq, tədris prosesini optimallaşdırmaq, gənc nəslin mədəniyyət səviyyəsini texniki informasiya vasitələrində işləyərkən artırmaqdır.

Müasir pedaqogika elminin xarakterik xüsusiyyəti uşağın şəxsi inkişafına yönəldilmiş yeni təhsil texnologiyalarının yaradılması arzusudur. Təhsil texnologiyalarının tətbiqi təhsilin keyfiyyətini artırmaq, tədris prosesini optimallaşdırmaq, gənc nəslin mədəniyyət səviyyəsini texniki informasiya vasitələrində işləyərkən artırmaqdır. Buna görə də, təhsil prosesinin effektivliyini təmin edən təlim və təhsilin bu üsullarını inkişaf etdirmək üçün xüsusi iş yollarını tapmağa cəhd göstərmək lazımdır. Belə müasir təhsil texnologiyalarından biri də modul təhsil texnologiyasıdır. Modul təhsil pedaqoji bir texnikadir ki, bu da tələbələrin modullardan ibarət bir tədris proqramı ilə işləməsidir. Modul təhsili müasir təhsil texnologiyaları öyrənmə prosesinin tələbələrin fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmasına imkan verir.

Təlim məzmununun mürəkkəbliyi, məktəbin xüsusiyyətləri və s. şəxsiyyətin inkişafına yönəldilən texnologiyalar kimi müəyyən edilə bilər. Modul təhsili öyrənmə prosesinin ümumi fəaliyyətin aktivləşdirilməsini, yaradıcı inkişaf şərtlərini və fərdin özünü ifadə etməsini təmin edir və onların fikirlərinə və proqramlaşdırılmış tədrisin təşkilati formalarına çox yaxın olur.

Modul təhsil texnologiyası diferensial, problemə əsaslanan öyrənmənin elementlərini, həmçinin didaktik vahidlərin inteqrasiyasını birləşdirir. Lakin, bir çox texnologiyanın elementlərini birləşdirən modulsal öyrənmə fərdi elementləri effektiv nəticələr və uşaqların fəal müstəqil fəaliyyəti ilə əlaqəli bir sistemə çevrilir.

Modul təhsilin mahiyyəti şagirdin fərdi modullardan ibarət proqramın mənimsəməsində nisbətən müstəqil işdən ibarətdir. Hər bir modul tam inkişaf edir və müəyyən mərhələlərdən keçir. Modul proqram hazırlayarkən aşağıdakı ümumi prinsiplər nəzərə alınır:
- təhsil prosesinin əsas konsepsiyaları və metodları ətrafında yerləşdirilməsi;
- təhsil materialının təqdimatının sistemli və məntiqi ardıcıllığı;
- məzmunun bütövlüyü və praktiki əhəmiyyəti;
- təhsil materialının təqdimatı və nümayiş etdirilməsi.

Bundan əlavə, hər bir modul öz didaktik məqsədinə malikdir, bu əsas məqam modulun ümumi subyektiv tədris sisteminin inteqrasiyasını təmin edən müxtəlif pedaqoji metodların və texnologiyaların qarşılıqlı əlaqəsi ilə bağlı olur. Modul təhsili ilə həyata keçirilən məqsəd fərdi təlim proqramı üçün təhsil və bilik fəaliyyətlərinin təşkili ilə tələbə əsas təhsilin səviyyəsini, ehtiyaclarını və fərdi qabiliyyətlərə adaptasiya etmək, təhsil sistemini çevik öyrənmə məzmunu ilə təmin etməklə tələbələrin şəxsiyyətinin inkişafı üçün əlverişli şərait yaratmaqdır. Modul təlim texnologiyasının məqsədi təhsil prosesinin subyektlərinin fərdi maraqlarını və bacarıqlarını nəzərə alaraq ayrı-ayrı və müstəqil təlim modulları ilə fərqli ardıcıllıqla, müxtəlif həcmdə və tempdə təhsil proqramlarının məzmununu tam şəkildə seçmək üçün zəruri şərait yaratmaqdır.

Modul təlimin xüsusiyyətləri aşağıdakıları əhatə edir:
1) təlim məzmunu tam müstəqil komplekslər (modullar) təqdim olunur;
2) səviyyəni seçmək imkanı;
3) tələbələrin müstəqilliyini artırmaq;
4) müəllimin fəaliyyəti daha informativ və məsləhətləşmələrə çevrilməli və s.

Hər bir modul aşağıdakı kimi qurulmuşdur:
1) modulun adı;
2) didaktik məqsədin inteqrasiyası;
3) hədəf bir tələbənin hərəkət planı;
4) informasiya bankı: a) giriş nəzarəti; b) yeni materialın izahı (və ya əvvəllər öyrənilmiş materialın təkrarlanması); c) yeni (əvvəllər öyrənilmiş) materialların möhkəmləndirilməsi;
5) çıxış nəzarət.

Modul təhsil sistemi fərqli xüsusiyyətləri (öyrənmə prosesinin fərdiləşdirilməsi, idrak fəaliyyətinin aktivləşdirilməsi, yaradıcı inkişaf və fərdi ifadə və s.) səbəbindən populyarlaşır, belə ki, yalnız orta ümumi təhsil məktəbdə deyil, həmçinin ali təhsil müəssisələridə daha çox diqqəti cəlb edir. Bu inteqrasiya edilmiş didaktik məqsəd, tələbələrin hər bir modulun öyrənilməsi zamanı əldə etdiyi ümumi məqsədi əks etdirir. Bu, məqsədləri aşağıdakı prinsiplər əsasında qurulur: təhsil, inkişaf və təhsil məqsədlərini öyrətmək.

Modul təhsil texnologiyasını tədris prosesinə tətbiq etməsi ilə bağlı tədris metodlarında dəyişiklik yalnız təhsilin məzmununa deyil, həm də onun metodlarına təsir göstərir, onları yüksəlməyə yönəldir, şagird şəxsiyyətini inkişaf etdirir, onun formalaşması və inkişafı üçün əlverişli şərait yaradır. Modul təhsil texnologiyasının perspektivləri - yüksək bilikli, müasir təhsilin dərinliklərini yiyələnmiş və inkişaf etmiş şəxsiyyəti formalaşdırmaqdan ibarətdir.

Modul təhsili sisteminin dəyəri, müstəqil öyrənmə qabiliyyətinin yetişdirilməsi sayəsində, refleksiv qabiliyyətləri inkişaf etdirir. Məqsədli bir sistem ilə, tədris fəaliyyətləri nəzərə alındıqda: öyrənmə vəziyyətləri, monitorinq və qiymətləndirmə, mütəxəssislərin analitik və tədqiqat bacarıqları yenilənir.

Modul təhsil texnologiyası üstünlükləri aşağıdakılardır:
- bütün təlimlərin praktiki bacarıqların tətbiqinə yönəldilməsi ilə əlaqədar təlimin keyfiyyəti yaxşılaşdırılır;
- səlahiyyətləri lazımi şəxsi keyfiyyətləri müəyyənləşdirir;
- təlim şərtlərinin azaldılması;
- təhsilin fərdiləşdirilməsi əslində fərdi təlim proqramlarının yaradılmasının real imkanları ilə həyata keçirilir;
- təhsil materialının dəyişən şəraitə, çevik reaksiyaya sürətli uyğunlaşdırılması.

Bu üstünlüklərləin tətbiqi zamanı müəyyən çətinliklərdə yarana bilər. Bu çətinliklərin aradan qaldırılması əsasən tədris prosesinin təşkilatçılarının bacarıqlarından asılıdır. Müxtəlif təhsil müəssisələrinin təcrübəsini təhlil etdikdən sonra, təhsil prosesini qurmaq və həyata keçirmək üçün bütün tədris dövründə hər bir tələbənin sistemli və obyektiv qiymətləndirilməsini təmin edən modul reytinqli təhsil texnologiyasına əsaslanmalıdır. Modul təhsil texnologiyasının fəaliyyətinin əsas istiqaməti - zehni hərəkətlərin tədricən formalaşması fikri ilə inkişafı təhsil nəzəriyyəsi ilə bağlıdır.

Texnologiya geniş daxili inkişafa malikdir və bununla da daim inkişaf edən sistemin enerjisini ehtiva edir. Texnologiyadan istifadə təcrübəsi qaçılmaz olaraq həm müəllimlərin, həm də tələbələrin bacarıqlarının yüksəlməsinə gətirib çıxarır.

Müasir təhsil sisteminin əsas tələblərini yerinə yetirmək üçün səmərəli yollardan biri mütəxəssislərin lazımi səviyyədə bacarıqlarının təmin edilməsi, təhsilin rahatlığı, davamlılığı, açıqlığı və fərdiləşdirilməsi, innovativ təhsil texnologiyalarının tətbiqi və xüsusi yerin peşə hazırlığı modul texnologiyası ilə əvəz olunmasıdır (5,s.28). Modul təhsil texnologiyanın fərqli bir xüsusiyyəti, müəllim və tələbənin müstəqilliyin səviyyəsinə uyğun olaraq, tədris metodlarına nəzarət və özünü idarə etmək üsullarının assimilyasiya dərəcəsinə əsasən təlimin fərdiləşdirilməsini təmin edir.

Modul təhsil texnologiyaları dərslərin vacibliyi tələbənin öyrənmə fəaliyyətinin quruluşu və təşkili, müasir təhsilin fərdi, tələbə mərkəzli öyrənməyə yaxınlaşdığını nəzərə alır. Modul təhsil texnologiyası onun məqsədlərindən biri kimi fərdi ehtiyaclara uyğunlaşma və onun əsas təhsili səviyyəsini təmin etmək, düşüncə, yaddaş, yaradıcı meyillər, şagirdlərin bacarıqlarını inkişaf etdirmək üçün şərait yaradır və peşə hazırlığının effektivliyini artırır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Təhsil haqqında qanunu, Bakı, "Bakı Çap Evi" 2012. 64 s.
2. Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan məktəbi, 2013, № 5, s.12
3. Mərdanov M.C.Azərbaycan təhsili yeni inkişaf mərhələsində, Bakı, 2009, 528s.
4. Nəzərov M.H.Təhsilin sosiomədəni əsasları, Monoqrafiya, Bakı: 2017, 215 s.
5. Nəzərov M.H.Müasir dövrdə təhsilin sosiomədəni problemləri, Monoqrafiya, Bakı: 2018, 298 s. Rus dilində
6. Беспалько В.П. Слагаемые педагогической технологии. - М.: Педагогика, 1989. - 192
7. Лихачев Б.Т. Педагогика: курс лекций. М .: Гуманитар, изд. центр ВЛАДОС, 2010.-647 с.
8. Монахов В.М. Дидактическая аксиоматика когнитивноий теории педагогических технологиий // Современные информационные технологии и ИТ-образование. -2016.Т. 12. № 3-1. - С. 32-39.
9. Ракитов А. И. Философия компьютерной революции. - М.: Политиздат, 1991. - 288 с.
10. Тойнби А. Постижение истории. - М.: Прогресс, 1996. - 608 с.
11. https://az.wikipedia.org/wiki/Texnologiya
12. https://az.wikipedia.org/wiki/Modul



## ABSTRACT

**Muslim Nazarov, Nizami Guliyev**

**THEORETICAL BASES OF "PEDAGOGICAL TECHNOLOGY" AND "MODULAR EDUCATION TECHNOLOGY"**

The article describes the essence, purpose, development tendencies, aspects, features, theoretical and applied research directions of modern educational technologies. The definition of "Technology", "Pedagogical technology", "Education technologies" analyzes. The concept of "module education technology", its essence, module structure, principles, general and individual characteristics of the module training, main directions of its activities, and the application of the advantages of the opportunity to optimize the teaching process in the learning process.

The problems of the concept of humanization of education that contribute to the personalization and self-realization of the educational technologies directly related to the formation and development of students' personal qualities.



## РЕЗЮМЕ

**Муслим Назаров, Низами Кулиев**

**ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ «ПЕДАГОГИЧЕСКАЯ ТЕХНОЛОГИЯ» И «МОДУЛЬНАЯ ОБРАЗОВАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ »**

В статье раскрываются сущность, цель, тенденции развития, аспекты, особенности, теоретические и прикладные направления исследований современных образовательных технологий. Понятия «Технологии», «Педагогические технологии»,«Образовательные технологии» анализируют. Понятие «модульная технология обучения», его сущность, модульная структура обучения, принципы общие и индивидуальные особенности модульного обучения, основное направление деятельности, аспекты, позволяющие учебному процессу оптимизировать в процессе обучения.

Проблемы концепции гуманизации образования, способствующие персонализации и самореализации образовательных технологий, непосредственно связаны с формированием и развитием личностных качеств учащихся


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**BAĞIR BABAYEV**
*baqirbabayev59@mail.ru*
*Naxçıvan Dövlət Universiteti*

**UOT:060**

# NƏSİMİNİN KAMİL İNSAN KONSEPSİYASINDA BU GÜNÜMÜZLƏ SƏSLƏNİŞ – MİLLİ BİRLİK VƏ BƏŞƏRİ İDEYALARIN TƏBLİĞİ

**Açar sözlər:** *Nəsimi, Allah, kamil insan, azad ruh, fərziyyə və ehtimallar*
**Keywords:** *Nasimi, God, perfect man, free spirit, assumptions and probabilities.*
**Ключевые слова:** *Насими, Бог, совершенный человек, свободный дух, предположения и вероятности.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd olunması haqqında" 15 noyabr 2018-ci il tarixli Sərəncamından sonra bu yubiley münasibətilə ölkəmizdə 2019-cu il "Nəsimi ili" elan olunmuşdur. "Nəsimi irsinə bu ehtiramın əsası isə düz 50 il bundan öncə qoyulub. Belə ki, 1969-cu ildə o zaman Respublikanın rəhbəri olmuş Heydər Əliyevin təşəbbüsü ilə klassik Azərbaycan ədəbi irsinin parlaq nümunələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirlər siyahısına daxil edilib və həmin yubiley 1973- cü ildə beynəlxalq miqyasda qeyd olunub" (10). "Nəsiminin Azərbaycan mühitində yenidən tanıdılmasında ümummilli liderimiz H.Əliyevin müstəsna xidmətləri olmuşdur. H.Əliyevin ciddi səyləri nəticəsində Nəsiminin 1973-cü ildə 600 illik yubileyi son dərəcə möhtəşəm bir şəkildə keçirilmişdir" (6). Bu isə "Nəsiminin şəxsiyyətinə və yaradıcılığına dövlətimizin və xalqımızın bəslədiyi yüksək ehtiramın və ümumxalq məhəbbətinin ifadəsidir" (2).

Nəsimi xalqımızın, bütövlükdə türk-müsəlman dünyasının bədii və fəlsəfi təfəkküründə bir mütəfəkkir olaraq əvəzsiz irs qoymuş dahi söz adamıdır. Onun yaradıcılığı insanın mənəvi-əxlaqı kamilləşməsində çox mühümdür. Nəsiminin əsərlərinin həyat fəlsəfəsi istənilən situasiyada həmişə cəmiyyəti, insanları düşünməyə sövq edir. İmadəddin Nəsimi Ümumşərq miqyasında qüdrətli şair kimi tanınan və qəbul olunan böyük sənətkardır. Nəsimi Azərbaycan hürufizm ədəbiyyatının görkəmli yaradıcısıdır (2).

Elə bütün hər şeyə görə də heç nəyin nəzərdən qaçmaması ümidiylə onun tədqiqində gərgin əməli fəaliyyət hamı üçün əl çatan deyildir. Bu həm də bütün hallarda bir mücadilə aşiqi olmaq istəyinə gətirib çıxaran eşqdir. Tədqiqatçılar açıq etiraf edirlər ki, "bəşəriyyət kamillik, insana diqqət və qayğı, haqq-ədalət axtarışı istiqamətində dəyərləri itirib. Ona görə də, ölkə başçısı İlham Əliyevin sərəncamı ilə 2019-cu ilin "Nəsimi ili" elan olunması dünyaya bir mesajdır. Dünyanı haqq-ədalətə, insanlığa, kamilliyə çağırmaqdır" (1). "Sərəncam böyük mütəfəkkir şairə dövlət səviyyəsində bəslənən yeni və yüksək münasibəti aydın surətdə ifadə edir" (2).

İmadəddin Nəsimi orta əsrlər dövrü Azərbaycan poeziyasının, ədəbi-bədii və fəlsəfi fikrinin inkişafında möhtəşəm xidmətləri olan xalqımızın dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi qüdrətli söz sərkərdəsidir. Nəsimi insanın yaradılanların arasında ən ali varlıq olduğunu daim vurğulayırdı və onları sülhə səsləyirdi. İnsanları allahı, insanlığı, təbiəti, sənəti-sözü sevməyə səsləyirdi. Nəsiminin dahiliyi ondadır ki, onun əsərləri və yaradıcılığı bütün dövrlər üçün aktualdır (17). İmadəddin Nəsimi həm də bizim müasirimizdir. O, bu gün bizimlədir. Biz onun yaradıcılığını oxumaqla insanlaşırıq, humanistləşirik, dünyanı sevirik, insanları sevirik. Ona görə, Nəsimi bizi düşündürür. Biz Nəsimi yaradıcılığını oxumaqla düşünürük (1). "O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir" (3, s. 4). Təkcə Azərbaycanın deyil, ümumiyyətlə, "türk divan və təsəvvüf ədəbiyyatının görkəmli nümayəndələrindən olan Nəsimi özündən sonra çox uzunömürlü bir ədəbi məktəbin sarsılmaz təməlini qoymuşdur" (14). "Nəsimi poeziyası orta əsrlərin məfkurə məhdudiyyətinə qarşı yönəlmiş fikrin üsyanıdır" (16, s. 102). Nəsiminin həyat və yaradıcılıq dövrü olan "XIV sonu- XV əvvəlləri bütövlükdə Yaxın və Orta Şərqin, eləcə də Azərbaycan tarixinin gərgin dövrünə düşür" (5, s. 31).

Şairin elmi tərcümeyi-halının yazılması nəsimişünaslığın qarşısında hələ də problem olaraq qalır. "Azərbaycan ədəbiyyatşünaslığında H.Araslı, M.Quluzadə, Salman Mümtaz kimi tədqiqatçıların Nəsiminin həyat və yaradıcılığı üzərindəki araşdırmaları, Nəsiminin dövrü, həyatı, yaradıcılığı ilə əlaqədar dəyərli işlər olsa da, bu tədqiqatçılar onun şeirlərinin hürufiliklə əlaqəsini və bu əlaqənin xarakterini nisbətən üzdən şərh etmişlər. Zümrüd Quluzadənin "Hürufilik və onun Azərbaycanda nümayəndələri" kitabı isə ilkin mənbələrə əsaslanmaq, zəngin informativlik baxımından çox əhəmiyyətlidir" (16,s.106).

Bu gün Nəsimi "şəxsiyyəti ilə əlaqəli bir çox mübahisəli və ziddiyyətli mülahizələr mövcuddur. İlkin qaynaq və elmi araşdırmalarda Nəsiminin şəxsiyyəti ilə əlaqədar təzadlı mülahizələr" (14), fərziyə və ehtimallar hələ də çoxdur. "Nəsiminin həyatına dair elmi məlumatlar azdır" (6, s.6), onun hətta harada doğulduğu-dünyaya gəldiyi tarixi mənbələr tərəfindən təsdiqlənmir. Orta əsr qaynaqlarında onun haqqında yaradılmış rəvayətlər rəsmi tarixi məlumatları üstələyir. Amma bir həqiqət vardır ki, "Nəsimi hər şeydən öncə Azərbaycan türküdür, onun milliyəti barədə heç bir mübahisəli fikir yoxdur" (6, s.6). "Doğrudur, bir sıra müəlliflər Nəsimidən danışarkən onun azərbaycanlı, dilininsə Azərbaycan türkcəsi olduğunu qəbul edirlər" (15,s.4). Çünki "Nəsimi yaradıcılığı isə sağlam bir ruh, sağlam bir ideya və ideologiya olmaqla, bizi birləşdirir və millət olaraq bütövləşdirir" (1).

Sovet dövründə ideologiyanın məcburiyyəti tədqiqatçını vadar edirdi ki, Nəsimini az qala ateistə "çevirə" bilsin. Çünki sistemin baxışlarına uyğun gəlmək üçün bu belə deyilməli idi. "İndi Nəsimini ateist kimi başa düşmək kobud səhv olardı" (7). Keçmiş sovet ideologiyasının dinə, İslama münasibətdə təhrifçi mövqeyi burada aydın görünməkdə idi. Nəsiminin haqqsevər- haqq axtaran olması Haqqa üz tutması demək olduğu halda, "kor atın kor da nalbəndi" kimi ali dini və dünyəvi elmi olmayan, cahil, maarifsiz olan o dövr insanlarının təqdimatında din adından danışa bilənlərin uydurduqları başqa cür də ola bilməzdi. Ona görə də cahil olanlar onun Haqqa doğru üz tutmasını- Haqq axtarışını böyük bir cəmiyyətə- geniş kütləyə "dinsizlik", "küfr" kimi təqdim etməkdən başqa çarə görmürdülər. "Sovet tədqiqatçıları Nəsimini İslam dininə qarşı çıxan bir şair kimi təqdim edirdilər" (6, s.6).

Uzun müddət Sovetlər dönəmində Nəsiminn fəlsəfəsinin mahiyyətini başa düşə bilmədilər. Sovet ideologiyası dövründə ya bilərəkdən, ya da yanlışlıqdan-bilməyərəkdən sufilik və hürufilik təriqətinin düzgün ifadəsinə münasibət doğru olmayıb, onun doğru yöndən təqdim olunmasına yol verilməyib. "Əgər XIV əsrdə ehkamçı din xadimləri Nəsiminin dərisini soyublarsa, XX əsrin din əleyhdarları alt qatdan sinfi mübarizə rüşeymləri, realizm ünsürləri, intibah əlamətləri çıxarmaq məqsədilə onun irsini soyublar. Lakin Nəsimi poeziyasında mistik pərdə, dəri hesab edilən cəhətlər bütöv bir fəlsəfi sistemin mahiyyətini təşkil etdiyi üçün şairin dili bu gün də "kəşfedilməz quş dili" olaraq qalmaqdadır. Ötən əsrin 70-80-ci illərə qədərki tədqiqatların əksəriyyəti məlum səbəbdən öz fəlsəfi metodologiyasına görə dialektik materializmə əsaslanmışdır. İnsanı zaman və məkan çərçivəsindən çıxaran, onu kosmik həddən də aşaraq ilahi mahiyyətə-Allaha qovuşduran Nəsimiyə sırf dialektik materializm meyarları ilə yanaşmanın nəticəsi olaraq bəzən Hegelin dialektikası kimi Nəsiminin hürufiliyi də ayaq-baş düşmüşdür. Bu ayaq-başlığın nəticəsi kimi Nəsimi poeziyasında Allah zaman və məkan çərçivəsinə müncər edilmişdir" (16,s. 106).

Əgər Nəsiminin Allahın dərgahına pənah aparması başqa cür ifadə edilirdisə-burada yanlışlıq göz önündə idi. Lakin elə göstərilirdi ki, guya yallnız onun düzgün dərki elə bu cürdür. "Hürufiliyin fəlsəfi əsasında panteizm dayanır. Avropa mənşəli bu termin hürufiliyə şamil edilərkən Qərb fəlsəfəsində ifadə etdiyi mənasını müəyyən qədər dəyişir. Belə ki, Qərb fələfəsində, əsasən, Allahla təbiətin eyniləşdirilməsi kimi təfsir edilən panteizm orta əsrlər Şərq dini-fəlsəfi təlimlərinə, o cümlədən hürufiliyə şamil edildikdə təbiətin, kainatın Allahda əridilməsi anlamında işlədilir. Şərq panteistləri yeganə substansional müstəqilliyə malik varlıq kimi Allahı qəbul edir, yerdə qalan bütün mövcudatı isə törəmələr, empiriklər sırasına daxil edirdilər. Qərb fəlsəfəsində panteizm idealizmdən materializmə doğru fikri inkişafın xüsusi bir mərhələsi kimi meydana çıxır"(16, s.101).

İndi Nəsimi irsinin öyrənilməsinə mane olan hər hansı bir ideoloji əngəldən- maneədən qorxmağı düşünmək özü belə naqislikdir. Nəsimi tədqiqatçılarının gərgin əməkləri sayəsində ortaya çıxmış və bir daha ortaya qoyulacaq həqiqətlər qarşısında bütün haqq aşiqləri indidən baş əyməkdədirlər. Əlbəttə, bu təbiidir və təsadüfi sayıla bilməz. Tədqiqatçılar şairin cahana sığmayan şəxsiyyətini, yaradıcılığını və həyatını vəhdətdə araşdırma zamanı həm onun əzəməti ilə hamını heyrətləndirməkdə, həm də özləri heyrətlənməkdədilər. Çünki onlar şairin adına və yaradıcılığna kölgə sala biləcək hər şeyi silib atmaq amalına xidmət etməkdə olduqları üçün alqışlanmalıdırlar. Azərbaycan-türk ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan Nəsiminin fəlsəfi dünyagörüşündə "irfan və hürufiliyin yeri sovet dövrü nəsimişünaslığında özünün elmi dəyərini ala bilməmişdi. Keçmiş sovet tədqiqatçılarından bəziləri yanlış olaraq, bir sıra irfani anlayış və simvolları da hürufilik kimi qəbul və təqdim etmişlər. Bu yanlışlığa isə hürufi şairin əsərlərində irfani rəmzlərə sıx-sıx müraciət edilməsi səbəb olmuşdur" (12, s.122).

Azərbaycan poeziyası tarixində İmadəddin Nəsimi siyasi-fəlsəfi şeirin ilk böyük nümayəndəsi sayılır və "əsərlərində poetik fikirlə fəlsəfi fikir birləşir. Fikir, mühakimə hissə, duyğuya üstün gəlir. Şair insana yeni münasibət bəsləyir. Cəmiyyətdə ictimai ədalət və həqiqət axtarır. İnsanı öz ağlı və kamalı ilə uca məqamda görmək istəyir" (4). Tədqiqatçıların fikrincə, hələlik "Nəsimi haqqında aparılan araşdırmalarda kəmiyyətdən keyfiyyətə keçid baş vermir" (1). **"**Bu günün özündə belə Nəsiminin böyüklüyü, fəlsəfi vüsəti, fikir genişliyi lazımi səviyyədə öyrənilməyib" (6, s. 7).

Nəsimi poeziyasının bədii-estetik xüsusiyyətlərindən qaynaqlanıb gələn isə yaradıcı insanın hər şeydən ucada dayana bilməsidir. Bu insan ilahi bir mahiyyət daşıyır. "Nəsimi sadəcə şair deyil, o, filosof-

şairdir, tamamilə yeni bir fəlsəfi məktəbin yaradıcısıdır. Onu da qürurla deyə bilərik ki, şairin insan fəlsəfəsi, insana yanaşması yaşadığımız günlər üçün yeni bir aktuallıq qazana bilər" (1). Azərbaycan ədəbiyyatının intibah ideyalarında bütün mahiyyəti ilə ortada qalan məhz belə kamil insan konsepsiyasıdır. Nəsiminin poeziyasında vəsf olunan bu insan həm yaranışdan özünü, həm də məskun olduğu dünaynı dəyişdirməyə gücü çatann-buna qadir olan insandır.

Bu dövrün intibah ədəbiyyatında oyanış, yenilənmə, təzələnmə də məhz yenə də bu cür ruhu, düşüncəsi buxovlardan azad ola biləcək qadir insanın tərənnümüdür. Onun azad düşüncəsi cismən və ruhən qarşısını kəsib saxlayan, ona boğucu görünən mühitdən, atmosferdən uzaq qalmaqla- uzaq dayanmaqla daha azad, sərbəst bir düşüncə aləminə doğru ruhən, mənən baş götürüb çəkilməkdədir. Bu insan öncə özünün azad ruhu-nəfəsi- qəlbi- düşüncəsi ilə buxov nə olduğunu tanımaqdan uzaqdır, kənardır. Öncədən özünün düşüncəsinin qarşısında nəyinsə ola biləcəyin düşünə bilmək qorxusundan kənardlr. Bu da onun düşüncə özgürlüyünə xas olan özünəməxsusluğudur.

Nəsimi tərənnüm etdiyi kamil insanın gücünə, qüdrətinə inanır. Bu güc, bu qüdrət onu qüvvətli edərək, dönməz mübarizə çevirir. Bu, kamil insanın ən böyük mənəvi sərvətidir, onun əsas-vəzsiz dəyəridir. Bu insan eləcə də mənəvi gücü ilə ədalətlidir. Nəsimi də bu ədaləti ilə inamla, yorulmaz əzəmətli insana ideal olaraq sözün qüdrəti ilə bir əbədilik qazandırmışdır. Nəsiminin vəsf etdiyi insan ilahi qüdrətə malikdir. Bu insan həm orta əsrlər Azərbaycan, həm də bütövlükdə Şərq poeziyasında Nəsimi qələminin gücü ilə bir fərd olaraq, mənəvi ucalığı, daxili azad ruhu və əzəməti ilə dünya ədəbiyyatına təqdim olunçmuşdur. O, adi fərd-insan deyil, bir həqiqət-haqq aşiqidir, çünki o, uca göylərin eşq mehrabından yol alan ilahi varlığa-ilahi ucalığa qovuşmağa doğru yola çıxmağa hazırlanan azad, aşiqanə ruhun daşıyıcısıdır. Onu da öndə-qarşıda gözləyən ilahi varlığa-ilahi ruha qovuşmaq istəyi-eşqidir.

Belə azad, özgür düşüncənin daşıyıcısı olan insan bu azadlığı əngəlləyəcək, ona mane ola biləcək, onu sıxacaq hər şeydən daha üst qatlardadır. Orada onun azad ruhunun-düşüncsəinin gedib çatacağı yerlərdə belə əngəllər qurula bilməz. Bütün cəmiyyət atmosferi buxovlarla-qadağalarla qapandığına görə belə azad ruhlu-nəfəsli insanın azad ruhu azad cismi ilə birlikdə təbiətlə-Allahın yaratdığı azad məkanla harmoniya-vəhdət təşkil etməkdədir. Nəsimi insanı azad görmək eşqi ilə onu cəmiyyətdən qoparıb təbiətin harmoniyasına təslim edir. Buradakı təslimçilik bağlılıq, qapanış deyildir, əksinə, bağlılıqdan, qapanmadan açılışa- özgürlüyə-azadlığa davamlı, dayanıqlı, dönməz bir gedişdir. Onun azadlığı orada görünəndir və oradan da dünya onun necə azad olmasının şahidinə çevrilər. Bu insanın kamilliyinin, qüvvət və qüdrətinin gözəlliyi də onun tənhalıqdan uzaqda dayanması-təbiətlə həmahəng harmoniya təşkil etməsindədir. "Nəsimi yaradıcılığında insan amili, şəxsiyyətin azadlığı və məhəbbət ideyası qırmızı xətlə keçir. Bu səbəbdəndir ki, onun müxtəlif ideyalarla zəngin bədii irsi özündən sonra Azərbaycan və digər xalqların bədii-ictimai fikrinin inkişafına güclü təsir göstərib" [Səfərova, 2019].

O, insanı uca tutur, insanı Allah səviyyəsinə qaldırır. Bununla da Allahla insanın vəhdətini irəli sürür. Hürufilər insanla Allahın qovuşmasını özlərinin idealı elan etmişdilər. "Allahın dərgahına pənah aparmağın mahiyyəti sovet ideologiyası tərəfindən düzgün anlaşılmayıb" [1, 2019]. Onlar insan azadlığını, onun mənəvi sərbəstliyini, fikir hürriyyətini, ideya saflığını hər şeydən uca tuturdular. "Nəsimi əsərlərində iki cür insandan söhbət açır: bir vəhit, yəni Allahla qovuşan insan, bir də şeytan-İblis səviyyəsində olan insanlar. Böyük mütəfəkkir insanlara fərq qoyub. Şairin nəzərində Allahla qovuşan insan mələkdir" (10).

Onun ənəlhəq fəlsəfəsi-insanı Allah mərtəbəsinə ucaltması, Tanrını insanlaşdırması çox maraqlı və düşündürücüdür. Dünya fəlsəfə tarixində, bəşər humanizmində çox orijinal və maraqlı yanaşmalardan biridir. "Bu həqiqət özümüzə və dünyaya aşılanmalı, təbliğ olunmalıdır" (6, s.7). Nəsimi Allah-İnsan birliyini-vəhdətini irəli sürmüşdür. Bu ideya təkcə XIV əsr üçün deyil, yaşadığımız XXI əsrin özündə belə möcüzə sayılmalıdır. XIV əsrin İslam dünyası üçün isə, sözün həqiqi mənasında, bir inqilab idi. Ağılda, idrakda, təfəkkürdə görünməmiş bir inqilab" (6, s.7). Şairə görə, həqqi ancaq kamil və yetkin insan görə bilər. Belə insanlar sevilməyə, alqışa layiqdirlər. "Kamil insan öz ağlı və eşqi ilə insanların gözlərini açmağa, onların gözləri qarşısındakı zülm pərdəsini qaldırmağa, həyata günəş kimi işıq saçmağa qadirdir" (4). "Lakin Nizamidən fərqli olaraq o, İnsan-Allah ierarxiyasını pozur, İnsanla Allahı eyni bir səviyyədə və eyni bir mahiyyətdə görür. Nəsiminin tərənnüm etdiyi "ənəlhəq" deyən İnsanı İnsanallah adlandırmaq daha doğru olardı. Bu, İnsanın mənəvi-ruhi kamilləşmə yolunda çata biləcəyi ən yüksək zirvədir. Bu, İnsanın Allahlıq iqtidarının təsdiqidir. Əlbəttə, Nəsiminin İnsan konsepsiyasının ziddiyyətlərdən xali olmasını söyləmək çətindir. İnsanı allahlaşdırmaq Allahı insanlaşdırmaq qədər ziddiyyətli təsəvvürdür. İnsan-Allah dualizminin ortadan götürülməsi idrakda və mənəviyyatda İnsanla Allah arasındakı tarazlığın pozulmasına gətirib çıxarır. Ona görə də Nəsiminin İnsan konsepsiyası estetik baxımdan nə qədər dəyərlidirsə, dini baxımdan bir o qədər ziddiyyətlidir. Burada Allahın şəriksizliyi prinsipinin pozulması göz qabağındadır. Nəsiminin İnsanallah nəzəriyyəsi Renessans humanizminin məntiqi nəticəsidir. Hər bir yüksəlişdə gizli bir qüsur vardır -olduğundan artıq görünmək qüsuru. İnsanın allahlıq iddiasında da gizli bir mənəvi iflas mövcuddur" (7).

Nəsimi böyük bir filosof, fikir və düşüncə sahibi olaraq, həm də mənəviyyatda bir təriqət sahibi idi. O təriqətin ideallarını insanlara çatdıran şair- mütəfəkkir, həqiqət, mərifət sahibi kimi sonda kamillik mərhələsinə çatmaq yolunda səy göstərməkdə idi. Bu mərhələdə Allahın dərgahına yetişmək, onun sevdiyi bir vatlığa çevrilmək bu mərhələnin vacib şərtlərindən idi. "Sonuncu mərhələ isə kamillik mərhələsi idi. Kamillik dərəcəsi artıq Allahın dərgahında olmaq, Tanrının qəbul etdiyi bir varlığa çevrilmək idi ki, bunun üçün mərhələləri keçmək vacib şərtlərdən idi. İmadəddin Nəsimi də bu mərhələləri keçirdi" (1). "Şairə görə, insan həyatı əqli-mənəvi yüksəklik mərhələlərindən ibarətdir: şəriət, təriqət, mərifət və həqiqət. Bu mərhələlərdən keçib gedən insan müdriklik səlahiyyəti qazanır. Haqqa qovuşur, həqiqəti arayıb tapır" (4). "Nəsimiyə görə, insan qəlbində Allah eşqini gəzdirməlidir. Qəlbində Allah eşqi olan insanın əxlaqı saf, əqidəsi təmiz olur" (6,s.7). "Çünki Nəsimi yaradıcılığı-haqq-ədalət axtarışı, kamillik axtarışından ibarət olub. Bu gün bəşəriyyətin saydığım keyfiyyətlərə çox böyük ehtiyacı var. Bəşəriyyət öz tarazlığını, öz ölçü tərəzisini bu istiqamətdə itirib" (1).

"Nəsimi necə ki özünü laməkan adlandırırdı bu gün onun yaradıcılığının coğrafiyası göstərir ki, həqiqətən də, Nəsimi dediyi kimi də vardır" (17). Bir zamanlar Nəsimi necə hamını "düşünürdüsə", bu gün də o, hamını düşündürməkdədir. Bu gün bizlər onun yaradıcılığına yaxından bələd olmaqla, onu oxumaqla, düşünməklə bu günkü və gələcək nəsillərimizi düşünür və düşündürməyə can atmağa tələsirik. Onunla milli varlığımızı qorumağa çalışır və milli birliyimizin təminatı üçün səy göstərmiş oluruq. Nəsimi yaradıcılığı da bizim milli birliyimizdə vacib və əhəmiyyətli amil kimi, sağlam bir ruh, sağlam bir ideya aşılayır və bizi bütöv bir millət kimi görmək istəyində olduğunu bildirir. "Nəsimi həm də bizim müasirimizdir. O, bu gün bizimlədir. Biz onun yaradıcılığını oxumaqla insanlaşırıq, humanistləşirik, dünyanı sevirik, insanları sevirik. Ona görə, Nəsimi bizi düşündürür. Biz Nəsimi yaradıcılığını oxumaqla düşünürük" (1).

Əgər bizlər bu günün gözü ilə baxa bilsək görərik ki, Nəsimi yaradıcılığındakı haqq- ədalət axtarışı kamillik axtarışı ilə vəhdətdədir. Bu gün dünyamızını haqq-ədalət, kamilllik axtarışında sanki bu axtraışın öndə gedənləriundən biri də Nəsimidir. XXI yüzilin bu qədər ədalətsiliklərlə dolub-daşan dünyasında bəşəriyyətin haqq-ədalətə sahib çıxmaqda aciz qaldığı hamının gözləri qarşısında baş verməkdədir. Bu gün dünya o haqq-ədalətin, insanlığın kamilliyinin axtarışındadır. "Nəsimi əslində müasir dünyanın, haqq-ədalət istəyində olan dünyanın maraq dairəsindədir. Belə ki, harada haqq-ədalət axtarışı varsa, orada Nəsimi var. Harada insanlıq axtarışı varsa, orada Nəsimi var. Harada kamillik axtarışı varsa, orada Nəsimi var" (1).

Ondan əvvəl və ondan sonra yaşayıb-yaratmış bütün fikir adamlarımız kimi, "Nəsiminin də Azərbaycan xalqına və ümumən bəşəriyyətə mənəvi əmanətləri çoxdur. Bu gün danışdığımız saf, inci kimi cilalı, şirin ana dilimiz onun əmanətlərindəndir" (4). "XIV əsrdə Nəsimini dinsiz kimi edam edən zahid cildlərlə şəriət, təfsir, fiqh kitabları yazan din alimi olmuşdur. Bu gün çox qarışıq dünyamızda dinə, işığa, ruhani atmosferə yenidən dönmək istərkən həmin zahidin üstünü toz basmış kitablarını deyil, Nəsiminin divanını əlimizə alırıq. Və Nəsimi divanının saldığı işıqdan ruhaniliyə, ilahiliyə aparan yol daha aydın görünür. Qəlbi kor olan kimsələr Haqqı, onun mərifət və cəlal nurlarını görməz və şeytani hisslərin əsiri olar, maddi dünyaya uyarlar. «Bu dünyada kor olan kimsə, axirətdə də kordur» («Əl- İsra», ayə 72) ayəsinin mənası da irfanda məhz belə yozulur. Qəlbin möhürlənməsi, cəhalət hicabına bürünməsi və korluğu Haqq yolundan azmağın başlıca səbəbidir" (16, s.116).

Etiraf etməliyik ki, "Nəsimiyə həsr olunmuş bədii və elmi əsərlərin yaradılması sahəsində son yarım əsr ərzində yaranmış boşluğun aradan qaldırılması üçün çox iş görülməlidir" və "bir daha insanlığın, həqiqətə bağlılığın, insanpərvərliyin, kamilliyin nə olduğunu dünya ilə bərabər, öz oxucularımıza, xüsusən də gənclərə, uşaqlara çatdırmalıyıq" (2). Nəsimiyə bütün kölgə ola biləcəkləri aradan qaldıra bilmək də tədqiqatçının- araşdırmaçının qələminin canından keçən bir zərurətdir. Bu, ədəbi- fəlsəfi zənginliyə imza atan şairin yaradıcılığının başlıca amalına sədaqətin göstəricisidir. Nəsiminin irsinə mükəmməl yanaşılması vacib tələblərdəndir, indiyə qədərki təhriflərdən, yanlışlıqllardan qaçılmalı, həqiqət donuna geydirilən şablonçuluqlardan, təhrif olunanlardan əsl həqiqətlər tapılmalı və ortaya qoyulmalıdır.

## ƏDƏBİYYAT


1. Haqqı axtaran şair – müzakirə » Kaspi.az Azərbaycanda ... 13 İyun 2019 www.artkaspi.az/az/haqqi-axtaran-sair-mzakire/
2. Həbibbəyli İsa. Cahana sığmayan Azərbaycan şairi. "Azərbaycan" qəzeti, 16 yanvar 2019.
3. İmadəddin Nəsimi – 650: metodik vəsait / Tərt. Ed. L.Əhmədova; elmi red. K. Tahirov; red. A.Abdullayeva.- Bakı, 2019.- 57 s.
4. Əliyeva Nurlana. Ədəbiyyat tarixinin bahar nəsimi. Xəbərlər-Bakı Slavyan ... 29 mar 2019 https://bsu-uni.edu.az/az/news/1676
5. Əliyev Məhəmməd. Nəsimi yaradıcılığına yeni baxış. İpək yolu, N 2, 2019, s.31-36.
6. Göyyallı Xeybər. İnsanlıq mərtəbəsini ucaldan şair. Mədəniyyət.- 2009.- 18 dekabr.- S. 6-7.

7. Qocayev Məmməd. Nizamidən Füzuliyə qədər –» Kaspi … -15 Fevral 2019 …artkaspi.az/az/ onlarin-deyeri-sevilmek-ve-sevmek-bacariinda-idi-hazir-deyil/
8. Sarıyeva İradə. Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği 10 İyun 2019 https ://aqreqator. Az/az /medeniyyet/117039
9. Sayılov, Galib (2014). "Nesimi'nin İnsan Konsepti ve İslam". Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Buluşması. 26-28 Mayıs 2014. Eskişehir, ss.453-460 (http://bilgelerzirvesi.org).
10. Səfərova Samirə. Nəsimi ili: klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği. 10 iyun 2019 https://www.baki-xeber.com. /medeniyyet / 91807. Html.
11. Şıxıyeva Səadət. Hürufiliyin tarixi: ənənəviləşmiş təhriflər, unudulan gerçəkliklər… Metafizika – cild 1, Say 2, 2018. Səh.65-96.
12. Şıxıyeva Səadət. Nəsiminin irfani görüşləri. Bakı Avrasya Universiteti. Sivilizasiya,cild 5, N 4, 2016 (32), səh.122-131.
13. Şixiyeva Səadət. Nəsimî sözü: zaman və məkanın üstündə. Kültür Evreni 2017 / Sayı /32 192 s. (s.143-160)
14. Şıxıyeva Səadət. Seyid İmadəddin Nəsimi: portretdən cizgilər – 9 mart 2019 https://modern.az/az/news/194438
15. Şükürlü Müşfiq . Hürufilik dini-mistik təlim kimi: yaranması, mənbəyi və mahiyyəti. 525-ci qəzet.- 2016.- 28 sentyabr.- S.4.
16. Xavəri Sərxan. Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu. Bakı: "Elm", 2016, – 180 səh.
17. Şamaxıda İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş elmi sessiya keçirilib. 24.06.2019, Ədəbiyyat qəzeti

**ABSTRACT**

**THE CONCEPT OF A PERFECTED PERSON BY NAMIM, AS A REVIEW OF A TODAY'S DAY – PROPAGANDA NATIONAL UNITY AND PROGRESSIVE IDEAS**

After the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev "On the celebration of the 650th anniversary of the great Azerbaijani poet Imadedin Nasimi", on November 15, 2018, this year was declared the Year of Nasimi in 2019 in our country. "The foundation of this heritage is Nasimi only 50 years ago. For example, at the initiative of Heydar Aliyev, who was the head of the republic in 1969, the 600th anniversary of Nasimi was first included in the list of UNESCO events in vivid examples of the classical literary heritage of Azerbaijan, and this anniversary was celebrated at the international level in 1973. "The exceptional merits of our national leader Heydar Aliyev in re-acquaintance with Nesimi in the Azerbaijani environment. As a result of H. Aliyev's serious efforts, Nasimi's 600th anniversary in 1973 was extremely impressive. This is evidence of Nasimi's generosity and creativity in respect of the highest respect and love of our state and our people.

**РЕЗЮМЕ**

**КОНЦЕПЦИЯ СОВЕРЩЕННОГО ЧЕЛОВЕКА НАСИМИ, КАК ОТЗЫВ СЕГОДНЯЩНЕГО ДНЯ – ПРОПАГАНДА НАЦИОНАЛЬНОЕ ЕДИНСТВО И ПРОГРЕССИВНЫХ ИДЕЙ**

После Указа Президента Азербайджанской Республики Ильхама Алиева «О праздновании 650-летия великого азербайджанского поэта Имадеддина Насими» 15 ноября 2018 года этот год был объявлен Годом Насими в 2019 году в нашей стране. «Основой этого наследия Насими является всего 50 лет назад. Например, по инициативе Гейдара Алиева, который был руководителем республики в 1969 году, 600-летний юбилей Насими впервые был включен в список мероприятий ЮНЕСКО в ярких примерах классического литературного наследия Азербайджана, и этот юбилей отмечался на международном уровне в 1973 году. «Исключительные заслуги нашего общенационального лидера Гейдара Алиева в повторном ознакомлении с Несими в азербайджанской среде. В результате серьезных усилий Г. Алиева 600-летие Насими в 1973 году было чрезвычайно впечатляющим. Это свидетельство щедрости и творчества Насими в отношении высочайшего уважения и любви нашего государства и нашего народа .

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 379.85**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFINA DÖVLƏT QAYĞISI

**Açar sözlər:** *Naxçıvan, turizm, sosial-iqtisadi inkişaf, ekoloji turizm, kənd turizmi, milli mətbəx, dövlət proqramı.*

**Key words**: *Nakhchivan, tourism, socio-economic development, ecological tourism, rural tourism, national cuisine, state program.*

**Ключевые слова**: *Нахчыван, туризм, социально-экономическое развитие, экологический туризм, сельский туризм, национальная кухня, государственная программа*

Turizm - zəmanəmizin əhəmiyyətli təzahürlərindən biri kimi tükənməz imkanları ilə həm ölkə daxilində, həm də dünya miqyasında iqtisadi və siyasi inkişafın qanunlarını qanunvericilik səviyyəsində müəyyən edir. Sosial siyasət cəmiyyət üzvlərinin bütün tərəflərini, onların mal, ev və sosial infrastruktur xidmətləri, iş yerləri, müəyyən pul gəlirləri ilə təmin edilməsi məsələlərini, bu istiqamətdə tədbirləri, maddi bazanın gücləndirilməsini, əhalinin sağlamlığının mühafizəsini, təhsil, mədəniyyət və vətəndaşların həyat fəaliyyəti üçün sosial təminat sisteminin yaradılmasını əhatə edir. Eyni zamanda sosial siyasət - əhalinin həm ümumilikdə, həm də ayrı-ayrılıqda, onu təşkil edən təbəqələrin, sosial, sosial-demoqrafık, sosial peşə qruplarının, sosial icmaların sosial vəziyyətinin normallaşdırılması və dəyişdirilməsi səbəbindən irəli gələn qarşılıqlı əlaqəsidir. Göründüyü kimi sosial siyasətin əsas mövzusu - əhalinin bu və ya digər hissəsinin və ümumilikdə bütün xalqın sosial vəziyyətidir. İndiki şəraitdə dövlətin sosial siyasəti ilə bağlı fəaliyyətin genişləndirilməsi zərurəti aktuallaşmışdır. Təsadüfi deyil ki, hal-hazırda əhalinin həyat səviyyəsinin yüksək səviyyədə təminatına şəraiti yaratmış bir sıra avropa ölkələri sosial siyasət mexanizmlərindən istifadə edərək cəmiyyətin rifahını yüksəltməyə çalışır. Sosial siyasət cəmiyyətdəki sosial prosesləri tənzimləmək üçün dövlətin əsas fəaliyyət istiqamətlərindən biridir. Dövlətin sosial siyasəti çərçivəsində əsas yer tutan mexanizmlərindən biri də turizmdir. Milli turizm siyasətini reallaşdırmaqla dövlət cəmiyyətin rifah halını yaxşılaşdırmaq, mövcud resurslardan səmərəli istifadə etmək və mərkəzlə regionlar arasında tarazlığı davamlı olaraq təmin etmək üçün müəyyən tədbirlər hazırlayır, proqramlar həyata keçirir. Azərbaycanda milli turizm sektorunu inkişaf etdirmək və turizm ehtiyatlarından əhalinin sosial rifahı yönündə səmərəli istifadə etmək siyasətinin əsası, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycanda turizmin inkişafı, turizm və ekskursiya bürolarının genişlənməsi 1970-1980-ci illərə aid edilir. Bu, ümummilli lider Heydər Əliyevin həmin sahəyə bilavasitə diqqətinin və qayğısının nəticəsində mümkün olmuşdur.

1993-cü ildə ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycan tarixində yeni mərhələ başlandı. Ölkədə siyasi vəziyyət tədricən sabitləşməyə, iqtisadi-sosial həyatın bütün sahələri, o cümlədən turizm sahəsi yüksəlişə başladı. Azərbaycanın turizm regionları hesab edilən və 1990-cı illərin əvvəllərində ən narahat bölgələr olan Qusar-Quba-Xaçmaz, Zaqatala-Qax-Şəki, Masallı-Lənkəran zonalarında ulu öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində sabitllik bərpa olundu, qonşu dövlətlərlə sərhədlərimiz möhkəmləndirildi. Həmin ərazilərdə turizm inkişaf etməyə başladı. Azərbaycan həmkarlar ittifaqlarının bu regionlarda yerləşən istirahət bazalarına turist yollayışlarının verilməsi bərpa olundu.

Son dövrlərdə Azərbaycanın turizm potensialının beynəlxalq aləmdə tanınması, xarici turistləri ölkəyə cəlb etmək, turizmin potensial sahələrini inkişaf etdirilməsi, turizm infrastrukturlarının müasir tələblərə cavab verməsini təmin etmək, yeni infrastrukturların qurulması istiqamətində geniş tədbirlər həyata keçirilir. Bu inkişafda özünəməxsus yeri olan Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli tədbirlər ictimai həyatın bütün fəaliyyət istiqamətlərində, o cümlədən turizm sahəsində də əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Turizm sektoru regionun sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Regional turizm - müəyyən ərazi çərçivəsində turizmin inkişafını şərtləndirən və turizm tələbatlarının ödənilməsi funksiyalarını yerinə yetirən, bir-birilə sıx əlaqəli olan çoxsaylı elementlərdən (rekreasiya resursları, turizm infrastrukturu, ekoloji və fərdi təhlükəsizlik və s.) ibarət mürəkkəb sistemdir. Muxtar respublikada regional turizmin inlişafına bir sıra amillər təsir edir ki, bunlara ticarətin və ictimai-iaşənin inkişafı, nəqliyyat xidmətlərinin təkmilləşdirilməsi, mehmanxana komplekslərinin tikilməsi, informasiya texnologiyalarının inkişafı, regionda əhalinin sayının artması, əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin artması, regionda

əhalinin iş və asudə vaxtının nisbətinin dəyişməsi, istehlak tələbatının strukturunun dəyişməsi (xidmətlərə tələbatın artması, o cümlədən, turizm, təhsil, səhiyyə xidmətlərinə) aid edilir. Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri turizmin inkişafı üçün əlverişli şərait yaradır.

Naxçıvan Muxtar Respublikası və rayonları qədim tarixə malikdir. Muxtar respublika ərazisində bir çox tarixi abidə mövcuddur. Bunlardan Nuh peyğəmbərin məzarüstü türbəsi, Möminə Xatın və Yusif Küseyr oğlu türbələri, Naxçıvanqala abidəsi, Qarabağlar Memarlıq Kompleksi, "Xanəgah" Abidə Kompleksi, adı Nuh peyğəmbərin gəmisi ilə əlaqələndirilən Gəmiqaya ərazisindəki qayaüstü rəsmlər, əfsanəvi Haçadağ, abidələrlə zəngin olan "Ordubad" Tarix-Memarlıq Qoruğu, haqqında müqəddəs Qurani-Kərimdə bəhs edilən "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, 5000 ildən çox yaşı olan Naxçıvan şəhər mədəniyyəti, qədim tikililər, qalalar, yaşayış yerləri və nekropollar, xalq sənətkarlarının günümüzə qədər qorunub saxlanılmış sənətkarlıq nümunələri və s. turistlər üçün cəlbedicidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən 700-ə yaxını dünya və ölkə əhəmiyyətli abidə olmaqla, ümumilikdə 1202 daşınmaz tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Daşınar tarix-mədəniyyət abidələrinin qorunub saxlanıldığı muzeylər turistlər üçün böyük maraq kəsb edir. Naxçıvan ərazisində bəşəriyyətin bütünlüklə qəbul etdiyi Nuh peyğəmbərin qəbrinin olması, "Əshabi-Kəhf" ziyarətgahının yerləşməsi turistləri cəlb edən əsas amillərdəndir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi də onun zəngin tarixə və mədəniyyətə malik olmasından qaynaqlanır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizm sahəsinin də inkişafına təsir etmiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır. Hazırda muxtar respublikada 21 mehmanxana və mehmanxanatipli müəssisə, Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincə qalası, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat, Naxçıvan-Gülüstan turizm marşrutları fəaliyyət göstərir. Qədim diyarımızın bütün bölgələrini əhatə edən müasir infrastrukturun qurulması, istirahət və əyləncə mərkəzlərinin yaradılması, tarixi-mədəni irsə qayğı, yaşayış məntəqələrinin abadlaşdırılması, enerji, nəqliyyat, rabitə xidmətinin yüksəldilməsi muxtar respublikada turizmin inkişafını şərtləndirir.

Muxtar respublikanı turizm cəhətdən cəlbedici edən amillərdən biri də burada mövcud olan minlərlə tarixi-mədəni abidələrdir. Təbii ki, abidələrin qorunması, bərpası və təbliği sahəsində görülən işlər bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq, muxtar respublika ərazisindəki 1200-dən artıq abidə qeydə alınaraq pasportlaşdırılmışdır. Naxçıvanı dünyada tanıdan, yüksək turizm imkanlarına malik olan bu abidələrin bərpası diqqət mərkəzində saxlanılmış, yüzlərlə tarixi-mədəni abidəyə yeni həyat verilmişdir. Bərpa olunan Əlincəqala və Gülüstan türbəsi qədim diyara gələn turistlərin marağına səbəb olmuşdur.

Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması, təşkil olunan turizm mar-şrutları dini dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilmişdir. Burada bərpa işləri aparılmış, turistlərin ziyarəti üçün lazımi şərait yaradılmışdır. Bütün bunlar onu göstərir ki, Naxçıvanda dini turizmin inkişafı üçün də real imkanlar mövcuddur.

"Ölkəmizin dayanıqlı inkişafı üçün gəlir gətirən sahələr inkişaf etməlidir. Onların içərisində turizm xüsusi yer tutur. Turizmin inkişafı üçün birinci şərt ölkədə beynəlxalq irimiqyaslı tədbirlərin keçirilməsidirsə, ikinci şərt ölkədə infrastrukturun inkişaf etdirilməsidir", – deyən ölkə başçısının rəhbərliyi ilə son illər Azərbaycanın bütün regionlarında yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır. İcrası uğurla həyata keçirilən "2009-2018-ci illərdə Azərbaycan Respublikasında kurortların inkişafı üzrə Dövlət Proqramı" turizm-kurort sahələrinin inkişafına mühüm oldu. Naxçıvan kəndləri təmiz havası, saf suyu və ekoloji təmiz məhsulları, əlverişli iqlim şəraiti, abad yol və müasir rabitə xidməti ilə turizmin inkişafı üçün böyük imkanlar açır. 2013-cü ildə Şahbuz rayonunda Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

2012-ci ildə Naxçıvan şəhərindəki 17-ci əsrə aid Zaviyyə-Mədrəsə binası əsaslı təmir olunmuş və Naxçıvan Turizm İnformasiya Mərkəzi bu tarixi binada fəaliyyətə başlamışdır. Mərkəz öz fəaliyyətini turizm məlumat bankının hazırlanması, digər turizm informasiya mərkəzləri ilə işgüzar münasibətlərin yaradılması, buraya müraciət edənlərə otellər, tarixi və mədəniyyət abidələri, tur firmalar və bələdçilər haqqında məlumat verilməsi, həmçinin internet resurslarından səmərəli istifadə vasitəsilə muxtar respublikanın inkişaf edən turizm potensialının təbliği istiqamətində qurmuşdur.

Turistlər o ölkələrə səfər edirlər ki, orada inkişafla yanaşı, həm də sabitlik olsun. Bu gün ölkəmizdə, eləcə də onun Naxçıvan Muxtar Respublikasında sabitlik və əmin-amanlıqdır. Naxçıvan şəhəri cinayətsiz region statusunu uzun illərdir, qoruyub saxlayır. Muxtar respublikadakı sabitlik imkan verir ki, turistlər öz istirahətlərini mənalı və təhlükəsiz keçirsinlər. Naxçıvan artıq mötəbər beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir. 2017-2018-ci illər qədim diyara "Naxçıvanı tanıyaq tanıdaq" lahiyəsi çərçivəsində info-tur təşkil olmuşdur. Bu info-tur çərçivəsində Türkiyə İran, Kipr, Küveyt və Azərbaycanın müxtəlif turizm şirkətlərindən gəlmiş, 220 sahibkar və turizmçi Naxçıvanın turizm imkanları, tarixi,dini abidələri, müalicəvi yerləri ilə taniş olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası da bu sahədə fəaliyyətin güclənməsinə əlverişli şərait yaratmışdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 29 noyabr tarixli "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında" Sərəncamı regionda bu sahənin inkişafına göstərilən diqqət və qayğının növbəti ifadəsidir. Naxçıvan Muxtar respublikamızda turizm işinin təkmilləşdirilməsi, həmin sahənin gələcək perspektivlərinin müəyyənləşdirilməsi üçün qəbul edilən hüquqi sənədlər isə turizm quruculuğu istiqamətində görüləcək işlərin ümumi məzmununu özündə əks etdirilməsi üçün 23 aprel 2018-ci il tarixində muxtar respublikada turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə Nax¬çıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti yaradılıb.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin yaradılması, Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində Turizm və otelçilik ixtisaslarının açılması, İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd-keçid rejiminin sadələşdirilməsi, yeni beynəlxalq marşrutların təşkili turizmin inkişafına əlverişli şərait yaradıb.

2018-ci ildə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin xətti ilə kənd turizminin inkişafı mövzusunda keçirilən maarifləndirici tədbirlər bu sahənin inkişafına təsir edib. Əhalinin iştirakı ilə keçirilən tədbirlərdə kənddə istirahət etmək istəyən turistlər üçün minimum şərait yaradılması ilə turizm mövsümü ərzində yaxşı gəlirlər əldə etməyin mümkünlüyü diqqətə çatdırılıb. Həmçinin Naxçıvan Muxtar Respublikası kənd turizminin inkişafı istiqamətində də ardıcıl tədbirlər görülməsi məqsədilə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında 2018-ci il 29 noyabr tarixli Sərəncamına əsasən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılmış, kənd abadlaşdırılmış, 65 ev yenidən qurularaq müasir şəraitlə təmin edilmişdir. Həmçinin Ağbulaq Xizək Mərkəzinin yaradılmasına başlanılmışdır. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutu xəritəsi hazırlanmış, kənddə yaradılmış müasir infrastruktur və geniş turizm potensialı barədə məlumatlar Azərbaycanda və 20-dən çox xarici ölkədə fəaliyyət göstərən 100-dən çox mehmanxana və turoperatorun elektron poçt ünvanlarına göndərilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində indi muxtar respublikanın ən səfalı kəndlərində–Biçənəkdə, Ağbulaqda, Dırnısda, Şahbulaqda, Kükü də və onlarca belə yaşayış məntəqələrində evlər turistlərə təklif olunur. Bu cür evlər haqqında məlumat Turizm İnformasiya Mərkəzinin saytında yerləşdirilib. Həmçinin turistlərin marağını daha çox cəlb edən, milli dəyərlərin və milli mətbəx nümunələrinin təqdim və təbliğ olunduğu festivalların keçirilməsi artıq bir ənənə halını alıb.

Həyata keçirilmiş kompleks tədbirlərin nəticəsi olaraq muxtar respublikaya 2008-ci ildə 219,1 min nəfər, 2010-cu ildə 287,6 min nəfər, 2018-ci ildə isə 414,7 min nəfər turist gəlmişdir. 2018-ci ildə muxtar respublikaya gələn turistlərin sayı 2008-ci illə müqayisədə 1,9 dəfə artmışdır.

Muxtar respublikada bu sahədə görülən işlər nəticəsində gələn turistlərin sayı son beş ilin müvafiq dövrü ilə müqayisədə 13,1 faiz artmışdır. Şahbuz rayonunun Ağbulaq kəndində dağ-xizək turizminin inkişafı məqsədilə yeni turizm obyektinin tikintisi və kənd turizminin inkişafı, Culfa rayonunda Darıdağ Arsenli Su Müalicəxanasında yeni müalicə və istirahət kompleksinin yaradılması və həyata keçirilən digər tədbirlər muxtar respublikaya turist axınını daha da -sürətləndirəcəkdir.

Qeyd etmək lazımdır ki, turizmin bütün formaları müəyyən sosial əhəmiyyət daşıyır və insanların həyat səviyyəsinə öz müsbət təsirini göstərir. Eyni zamanda muxtar respublikada turizm sənayesinin inkişafı dövlətin strateji fəaliyyət planının əsas hissəsini təşkil edir. Regional turizmin inkişafı dövlətin sosial siyasətinin aparıcı istiqamətlərindən biridir. Bu inkişaf müxtəlif normativ sənədlər, regional qanunvericilik aktları, sosial proqramlar vasitəsilə həyata keçirilir. Sosial proqramlarda regionlarda turizm infrastrukturunun yaradılması və inkişafı əsas məsələ kimi qoyulur. Turizm sahəsinin inkişafı bir tərəfdən muxtar respublikanın iqtisadi tərəqqisinə, inkişafına, sosial infrastrukturun təkmilləşdirilməsinə, digər tərəfdən əhalinin rifah halının yüksəldilməsinə, ehtiyacı olan təbəqələrin müalicə və turizmin digər sosial xidmətlərilə bağlı tələbatlarının təmin edilməsinə yönəlir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu, 4 iyun 1999.
2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı.
3. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı".
4. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi", Bakı, 2016. s.2.
5. "2001-ci ildən başlayaraq Azərbaycan turizmi dayaniqli və davamli inkişaf yolundadir", https://azertag.az, 13.04.2010.
6. "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"
7. Baxşəliyev R., "Turizm ölkə iqtisadiyyatının dayanıqlı və rəqabətədavamlı sahəsinə çevrilib", http://www.azerbaijan-news.az, 16 aprel 2017-ci il
8. Əlirzayev Ə.Q., Aslanova S. Turizmin inkişafının sosial-iqtisadi problemləri. Bakı, 2006. 163 səh
9. İlqar Hüseynov, Nigar Əfəndiyeva "Turizmin əsasları" Bakı-2007. 374 səh


## ABSTRACT


**Flora Karimova**


**STATE SUPPORT DEVELOPMENT IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC**


The article deals with the activities carried out in the Nakhchivan Autonomous Republic on tourism development. One of the main development trends of the modern economy is the development of the tourism sector. In recent years, wide-ranging measures are being undertaken to promote the tourism potential of Azerbaijan in the international arena, attract foreign tourists to the country and develop tourism potential. Successful implementation of state programs on socio-economic development of regions has also had a great impact on the development of tourism. Measures implemented in the Nakhchivan Autonomous Republic, which has a special place in this development, have also made progress in tourism. The tourism sector plays an important role in the socio-economic development of the region.


## РЕЗЮМЕ


**Флора Керимова**


**ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА РАЗВИТИЯ ТУРИЗМА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ**


В статье рассматриваются мероприятия, проводимые в Нахчыванской Автономной Республике по развитию туризма. Одним из основных направлений развития современной экономики является развитие туристического сектора. В последние годы предпринимаются широкомасштабные меры по продвижению туристического потенциала Азербайджана на международной арене, привлечению иностранных туристов в страну и развитию туристического потенциала. Успешная реализация государственных программ социально-экономического развития регионов также оказала большое влияние на развитие туризма. Меры, осуществляемые в Нахчыванской Автономной Республике, которая занимает особое место в этом развитии, также добились прогресса в туризме. Сектор туризма играет важную роль в социально-экономическом развитии региона.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**TƏRANƏ CAMALOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 008.39**

# MƏHƏMMƏD HADİNİN MAARİFÇİLİK FƏALİYYƏTİNDƏ QADIN PROBLEMİ

**Açar sözlər:** *Məhəmməd Hadi, qadın azadlığı, ailə, hüquq bərabərliyi, hörmət*
**Key words:** *Muhammad Hadi, women's freedom, family, equality of rights, respect*
**Ключевые слова:** *Магомеда Хади, женская свобода, семья, юридическое равенство, уважение*

Məqalədə görkəmli maarifçi Məhəmməd Hadi yaradıcılığında qadına münasibət və qadın azadlığı problemi təhlilə cəlb olunur. Qeyd olunur ki, millətin irəliləməsinə mane olan başlıca səbəblərdən biri qadınların cəhalət aləmində saxlanılmasıdır. Hadinin fikrincə, qadınları qaranlıqdan xilas edib azadlığa çıxarmağın yalnız bir yolu var: o da təhsildir. Əgər qadınların təhsil almasına şərait yaradılarsa cəmiyyət inkişaf edər, mədəniyyət irəliləyər və ictimai bəlalar aradan qalxar və xoşbəxt nəsil formalaşar.

Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus dəsti-xətti ilə ictimai problemlər sırasında yer tutan maarifçilərdən biri də Məhəmməd Hadidir. Onun fəaliyyətini məşğul edən problemlərdən biri də qadın azadlığı problemi idi. Bu da təbii ki, azadlıq carçısı Hadini narahat edən məsələlərdən biri idi. Hadi 1906-cı ildə yazdığı "Dəyanəti-ictimayənin insana bəxş etdiyi hüquqa bir nəzər" adlı məqaləsində qeyd edir ki, islam dini qadına digər görüşlərlə yanaşı, təhsil almaq hüququnu da verir: "Gərək zükur və gərək inas olsun, kəsbi-fəzail (elmi əxlaq - T.C.) və təhsili-kəmalat (ağıllı - T.C.) etməyə və bu yolda təsfiyeyi-vicdan (saf vicdan - T.C.) və təthiri-əxlaqi (pak əxlaq - T.C.) aləmiyyəyə şəriət nöqteyi-nəzərində bilafərq (fərq qoymadan - T.C.) məmur və mükəlləfdirlər". M.Hadinin maarifçilik ideyalarının əsas məğzini təşkil edən qadın azadlığına dair baxışlarıdır. O, millətin irəliləməsinə mane olan başlıca səbəblərdən birini qadınların cəhalət içərisində qalmasında görürdü. Qadınların cəhalətdən xilas edilməsini və onların maarifləndirilməsini zəruri hesab edən şair yazır: "Böylə bir ailədə məvəllüd və tənacül edən övlad hikmət nöqteyi-nəzərindən əfkarü-amalü-vicdana hər naqis hesab olunacaqdır. Tərbiyeyi-ətfal nəzərindən isə ananın tərbiyəli, ziyalı olması pək əlzəm və əhəmm bir məsələdir. Çünki, ətfalın əvvəlinci məktəbi-ədəbi və pərvərişgahi-tərbiyəsi madərinin ağuşi-şəfqətpərvəranəsi olduğu kimi, əvvəlimci ədib və müəllimi də anasıdır. Ana cahilə olduqda, ondan nə umulur və nə gözlənə bilər".

1910-1913-cü illərdə şairin qadın azadlığı məsələlərinə baxışı daha da təkmilləşir. Həmin quruluşda qadınların mürtəcə qüvvələrin əlində əsir olduğunu göstərən şair, bunun çarəsini maarifçi inqilabda görür. 1913-cü ildə qələmə aldığı "Cinsi-lətifə" əsərində qadınların bu acınacaqlı şəraitdən xilas olma yolunu belə izah edir:

...Zalımların əlində birər canlı bihəyat,
Divani-ədl yox ki, sorulsun hesabınız...
Əlbət, gələr bahar, yağar abi-inqilab,
Parlar sizin camali-lətafətməabınız...
Olduqca siz əsiri bu müzlim qəfəslərin-
Qabil deyil təzahürü tabəndə hisslərin [1, 205].

M. Hadi qadınların hüquqlarının tapdalanmasını ədalətsizlik hesab edirdi. O, 1914-cü ildə yazdığı "Nisviyyət təranələri" əsərində qadınlara yüksək dəyər verir, onlara xoşbəxtlik mənbəyi kimi baxır, çadra altında saxlanılmalarını cinayət hesab edir. Şair qadınları azadlıq rəmzi hesab edir və onlara müraciətlə yazır:

Nə deməkdir qadın? İlahi-həyat,
Ruhbəxşayi-ədəmiyyətdir,
Afərinəndeyi-səadətdir.
Qadını pərdəpuş olan, yerə bat!
Mələki-ərzdir nisayi-cahan,
Ey qadın, ey qaranlıq içrə sabah!
Ey həyatın lətif bir səhəri,
Ey cahanın işıqlı bir gühəri,
Örtülü olduğun yer iştə siyah [2, 223].

Şair millətin qaranlıqdan xilas olub, gözəl səhərlərə çıxmasının bir vasitəsini də qadın azadlığında görür. O, qadınların azad olmasını ictimai inkişafın qarşısında duran böyük səbəb hesab edir. Onun fikrincə, qadınları bu qaranlıqdan xilas edib azadlığa çıxarmaq lazımdır ki, yüksəlişə nail olunsun. Bu zaman, mədəniyyət irəliləyər və ictimai bəlalar aradan qalxar. 1914-cü ildə yazdığı "Ümməhati-həyat, yaxud cinsi lətifəyə bir baxış", "Alihati-ilmahat və həyat pərəstidələri", "Bahari-əfkar" və s. əsərlərində də şair qadın azadlığı məsələlərinə toxunub.

M.Hadi inanırdı ki, qadınların kölə və hüquqsuz vəziyyəti belə davam etməyəcək. Qadınların hüquqları həmişə tapdalanmayacaq və bu hüquqları tapdalayanlar cəzalanacaqlar. O, qadınların nə yolla azadlığa çıxmalarının səbəblərini axtarır və belə qənaətə gəlir ki, bəşəriyyətin yüksəlməsi üçün qadının üzündən pərdəni götürmək və onu təhsilləndirmək lazımdır. Bu yolla ictimai tərəqqiyə nail olmaq, millətin irəliləməsini təmin etmək olar. Qadınların maariflənməsini, təhsil almasını əsas şərtlərdən hesab edən şair öz əsərləriylə onları maarifləndirməyə çalışır.

M.Hadi öz yaradıcılığında qadın azadlığının alovlu tərəfdarı kimi çıxış edir. Onu qadın azadlığı uğrunda coşğun bir mübariz kimi görürük. Şairin "Acı həqiqətlər qarşısında dadlı xatirələr" əsərində də qadın azadlığı probleminin əhəmiyyətini irəli sürmüş, bu problemin həllinə xidmət göstərməyə çalışmışdır.

Bu şeirdə Hadi təkcə qadına hüquqi görüşləri deyil, eyni zamanda insanın sosial inkişafına təkan verən ümumi prinsiplər: təbiətəmüvafiqlik prinsipi, mədəniyyətəmüvafiqlik prinsipi, fərdi yanaşma prinsipi, dəyər çalarlı istiqamət prinsipi, özünüaktuallaşdırma prinsipi, seçmək prinsipi, yaradıcılıq və uğur prinsipi, inam və dəstək prinsipi müəyyənləşdirir. Hadi qeyd edir ki, qadın tərbiyəsində pedaqoji dəstək yaradılarsa, bu sahədə çətinliklə qarşılaşan uşağa da çətinliyi dəf etməkdə yardım etməsinə şərait yaranar. Qadın təhsilinin və qadınların cəmiyyət daxilində zəif mövqe tutmalarının səbəbləri içərisində qadının vəzifələrini ancaq ailə daxilindəki funksiyaları ilə məhdudlaşdıran stereotiplər əsas yerlərdən birini tutur.

Çox bağırdıq ki, qadınlar da işıqlansınlar,
Dirilik aləmini anlayaraq qansınlar.
Çox bağırdıq ki, qaranlıqda qalırsa nisvan, -
Gələcək aləmimiz olmayacaqdır taban.
Bir işıqlı dirilik sizlər üçün lazım isə, -
Salmayın cinsi-lətifi o qaranlıq qəfəsə.

Hadi yazır ki, "cinsi-lətifi" qaranlıq guşəyə salmayın. Çünki uşaq ilk tərbiyəni ana qucağı məktəbində alır. Ancaq bu ilk tərbiyə məktəbində uşağın dünyaya gəlişi ilə cəmiyyətdə mövcud olan münasibətlər özünü biruzə verir. Əgər kişi ailədaxili münasibətlərdə arvada düzgün mövqedən yanaşmırsa uşağın tərbiyəsinin düzgün qurulmasından danışmaq qeyri-mümkündür. Nə qədər ki qloballaşan dünyamızda qadınlara mənəvi və fiziki zorakılıq tətbiq olunursa uşağın tərbiyəsindən danışmaq qeyri əbəsdir.

Qadınlara ictimaiyyətdə yer verilmədiyini görən Məhəmməd Hadi kişiləri şeirdə oxuduğumuz kimi "canlı ölülər" adlandırır. M.Hadi hayqıraraq, bağıraraq qadınların qiymətini anlamaya, onlara hörmət qoymağa çağırır. Şair deyir ki, "qadın alçaqda yaşarsa kişi ali olmaz", "kişinin xidməti varsa, qadının da işi var". Ən önəmlisi isə qadın anadır. Ana bədbəxtdirsə, oğul üçün həyat zillətdir. Heç bir övlad ananın zillətinə göz yummamalı, əksinə azad, hürr yaşamasına arxa, dayaq olmalıdır kimi fikirlərində oxuyuruq:

Çox bağırdıq ki, xanımlarda da ürfan olsun,
Mərifət nuri ilə canları rəxşan olsun.
Dirilik aləminə ər kimi çıxsın nisvan,
Bunu fəhm etməmişik, sonrası qayətdə yaman.
Çıxıb onlar da bu dünya işığın görsünlər,
Aləmi anlayaraq yaxşı ömür sürsünlər.

Burada şair, həmçinin qadınla bağlı milli mentalitetimizdə mövcud olan fikirlərin əsaslı rolunu işıqlandırmağa cəhd edir. Vurğulanır ki, qadın təhsilli olarsa onun vəzifəsi həm də ilk növbədə evinin xanımı olması və ərə gedəndən sonra özünü ailəsinə və ərinə həsr etməsi ilə məhdudlaşar.

Çox bağırdıq qadının qiymətini anlayalım,
Hörmət istərsək əgər, hörmətini anlayalım.
Qadın alçaqda yaşarsa kişi ali olmaz,
Şübhə yoxdur ki, qadınsız da təali olmaz...

Şair poetik dildə yazır ki, əgər qadının cəmiyyət üçün vətəndaşın doğulmasında, onun tərbiyə edilməsində əvəzsiz rolunu nəzərə alsaq, qadının ancaq kişilərin əmrini yerinə yetirən şəxs kimi qəbul olunması təmsil olunduğumuz cəmiyyətin sosial bəlalarından biri kimi qiymətləndirilə bilər:

Daima zülmətə məhkum isə madərlərimiz, -
Pərtəvəfruzi-təkamül ola bilməz fərimiz...
Çox bağırdıq tələbi-vəqtə itaət edəlim,

Qəflətə batmayalım, dərki-həqiqət edəlim [2, 304].

Göründüyü kimi, M.Hadinin pedaqoji görüşlərində qadına münasibət məsələsi maraqlı məqamlarla zəngindir. Qadın azadlığının cəmiyyətin inkişafına aparan yolda əsas amil olmasını yaxşı başa düşən böyük maarifçi hər vasitə ilə qadın azadlığını, qadın hüququnu Azərbaycanda təbliğ etmiş və onun əldə edilməsinə çalışmışdır.

Bir daha qeyd edək ki, M.Hadinin "Acı həqiqətlər qarşısında dadlı xatirələr" əsəri qadına mənfi münasibətlərin aradan qaldırılmasında böyük əhəmiyyətə malikdir.

Yekun olaraq qeyd edək ki, Məhəmməd Hadi yaradıcılığında qadın problemini həm sosial, həm siyasi, həm də pedaqoji problem kimi dəyərləndirmiş, eyni zamanda milli intibahda qadının rolunu yüksək qiymətləndirmişdir.

## ƏDƏBİYYAT


1. Məhəmməd Hadi. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 464 səh.
2. Məhəmməd Hadi. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı: Elm, 1978, 471 səh.


## ABSTRACT


**Tarana Jamalova**


**THE PROBLEM OF WOMEN IN ENLIGHTENMENT ACTIVITY OF MAHAMMAD HADI**


Attitude towards women and the problem of women's freedom in the creative activity of outstanding enlightener Muhammad Hadi have been analysed in the article. The article emphasizes that one of the main reasons preventing the progress of the nation is that women are kept under ignorance.

According to Hadi, there is only one way to save women from darkness: it is education. If a favorable condition is created for women's education, the society develops, culture advances, social problems are eliminated and a happy generation is formed.


## РЕЗЮМЕ


**Тарана Джамалова**


**ЖЕНСКАЯ ПРОБЛЕМА В ПРОСВЕТИТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ МАГОМЕДА ХАДИ**


В статье привлекается к анализу женская свобода и отношение к женщине в творчестве выдающегося просветителя Магомеда Хади.. По мнению Хади есть только один единственный путь вытащить женщин из тьмы - это образование. Если будут созданы условия для образования, то продвинется культура, уйдут общественные недуги и формируется счастливое поколение


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**İBRAHİM CƏFƏROV**
*Azərbacan Dövlət Aqrar Universiteti*

**UOT:316**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA MULTİKULTURALİZMİN SİYASİ BANİSİDİR

**Açar sözlər:** *müstəqillik, multikulturalizm, islam, tolerantlıq, dünyəvilik, azərbaycançılıq*
**Key words:** *Independence, multiculturalism, religion, tolerance and secular*
**Ключевые слова:** *независимость, мультикультурализм, ислам, толеранство, мировая*

Bu gün öz əvvəlki çoxüzlülüyünü və çoxtərəfliliyini tədricən itirən dünya bütövləşməyə doğru addım-addım yaxınlaşır. Müxtəlif ölkələrdə insanlar eyni kommunal xidmətlərdən və nəqliyyat vasitələrindən istifadə edir, eyni növ paltar geyinir, eyni cür qidalanır, eyni televiziya verilişlərinə baxır, eyni xəbərləri dinləyirlər. Müasir sivilizasiyaların yaratdığı texnologiyalar, əmtəə, xidmətlər, informasiyalar və s. Müxtəlif xalqların həyatına daxil olaraq onları bir-birinə oxşar edir.

Bu gün qloballaşma prosesini obyektiv əks etdirən ictimai şüur forması olan qloballıq da insanların kollektiv təfəkkür tərzinə can atdıqlarını, dünya sivilizasiyası ilə eyniləşdirmə tendensiyasını, artıq təkbaşına inkişafın mümkün olmadığını, multikultural şüurun və öz maraqlarını dərk edən sosial qrupların rol və əhəmiyyətinin artdığını göstərir.

Azərbaycan bu mühüm proseslə çox spesifik bir şəraitdə üzləşdi. XX əsrin sonlarında imperiya buxovlarından azad olaraq siyasi müstəqillik əldə edən ölkəmiz həm də iqtisadi, mədəni, mənəvi sahələrdə də müstəqilləşərək öz milli-mədəni irsini qoruyub inkişaf etdirmək şansı qazandı. Lakin müstəqilliyini qazandıqdan sonra dövlətimiz vətəndaş müharibəsi ərəfəsində, müstəqilliyini yenidən itirmək təhlükəsi ilə üz-üzə idi. Məhz ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi quruculuq siyasəti Azərbaycan xalqının milli mənəviyyatına əsaslanan milli dövlətin əsaslarını formalaşdırmağa yönəldi. Ulu öndər bununla da milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həmçinin dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirdiyini bəyan etdi.

Məlumdur ki, hər bir xalqın mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, tarixinə bağlılığından asılıdır. Azərbaycan xalqı da bu günədək məhz zəngin milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində özünün mövcudluğunu və özünəməxsusluğunu qoruyub saxlaya bilmişdir.

Xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyevin bu məntiqə söykənərək müəyyənləşdirdiyi, milli maraqlara əsaslanan mütərəqqi inkişaf strategiyası ölkədə sabitliyin, demokratiyanın qorunmasına, bərqərar olmasına və davamlı yeni iqtisadi modelin formalaşmasına zəmin yaratdı. Ən əsası isə böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin Azərbaycan Prezidenti seçildikdən sonra dövlət müstəqilliyinin möhkəmlənməsi və dönməzliyi təmin olundu. Ulu öndər öz nadir keyfiyyətləri sayəsində həmin mürəkkəb geosiyasi dövrdə ölkəni vətəndaş qarşıdurması və hərcmərclik, dərin iqtisadi, mənəvi və sosial-siyasi böhran vəziyyətindən çıxararaq, onu sabit inkişaf səviyyəsinə qaldırmağa nail oldu. Ona görə də, Azərbaycan XXI yüzilliyə möhkəm siyasi, iqtisadi və mədəni təminatlı bünövrə üzərində qədəm qoyaraq milli təhlükəsizliyini, onun mühüm tərkib hissələri olan iqtisadi, enerji, ərzaq və ekoloji təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bildi və beləliklə, qısa tarixi dövr ərzində qabaqcıl dünya dövlətləri arasında mövqeyinin möhkəmləndirilməsinə yol açdı.(1).

Bu dövrdə Heydər Əliyev müdrik siyasəti ilə həm də Azərbaycanda əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini, multikultural dəyərləri, tolerantlığı, insan hüquqlarının aliliyini özündə ehtiva edən son dərəcə mütərəqqi milli-ideoloji konsepsiyanın konturlarını müəyyən edərək Azərbaycanda multikulturalizm fenomeninin formalaşmasına nail oldu.

Azərbaycan xalqı müstəqillik qazandıqdan sonra əsas məsələlərdən biri də ölkədə tolerantlıq və multikulturalizm məsələsinin dövlət tərəfindən nizama salınması məsələsi idi. Çünki, XX əsrin sonunda istər dünyada, istərsə də postsovet məkanında milli münaqişələrin artdığı bir zamanda müstəqillik yoluna qədəm qoymuş gənc bir dövlət üçün ən həssas məsələ tolerantlıq və multikulturalizm məsələsi olduqca vacib məsələlər idi. Nəzərə alsaq ki, Azərbaycan tarixən tolerantlıq və multikulturalizm diyarı olub və Azərbaycan xalqının tarixi qədər onların da tarixi qədimdir, o zaman multikulturalizm və tolerantlığın dövlət tərəfindən

tənzimlənməsi yeni qurulmada olan vətəndaş cəmiyyəti üçün zəruri idi. Müdrik rəhbər uzaqgörənliklə insan təfəkküründə baş verən böhranlı məqamlar içərisində ən önəmlisinin insan fikrinin və bəşəri ideyaların transformasiyası olduğunu görürdü.

Azərbaycan İslam ölkəsi olmaqla, dünyəvi və çoxkonfessiyalı dövlətdir. İslam dini ölkəmizdə tarixi – mənəvi irsin, mədəniyyətin, milli mentalitetin ayrılmaz hissəsi kimi qəbul edilir. Azərbaycan tarixinin heç bir dönəmində milli-dini zəmində qarşıdurmanın və ayrı-seçkiliyin olmadığı nadir ölkələrdəndir. Əsrlər boyu müxtəlif xalqların, dini konfessiyaların təmsilçiləri Azərbaycanda dinc yanaşı və əmin – amanlıqda yaşamışlar. Ulu öndər Heydər Əliyev deyirdi: "Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır" (2).

Ümummilli lider Heydər Əliyev haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən, etnik-mədəni dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan insanların hüquq və azadlıqlarının qorunmasından irəli gəldiyini göstərirdi. Ulu öndərin rəhbərliyi ilə demokratik inkişaf yolu götürmüş Azərbaycan Respublikası onun qeyd etdiyi kimi "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi. Buna uyğun olaraq Konstitusiyanın yeni bəndləri üzə çıxır və yaxud yeni sosial-siyasi münasibətlər rakursundan işıqlanırdı. Tarixən dinlərin və mədəniyyətlərin və Asiya ilə Avropanın qovşağında yerləşən Azərbaycan dövlət müstəqilliyinin bərpa etdikdən sonra da eyni funksiyanın uğurla davam etdirir.

Son illərdə ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti ulu öndər Heydər Əliyevin dövlət- din münasibətlərinin təkmilləşməsi sahəsində aparılan müdrik siyasətinə uyğun olaraq daha da möhkəmlənmiş, ümumdövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Qədim tarixə və zəngin ənənələrə malik olan xalqımızın xarakterik keyfiyyəti olan multikulturalizmin və tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmış və bu sahə dövlətin qayğısı ilə əhatə olumuşdur.

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının ortaya qoyması ilə Azərbaycanda tolerantlıq və multikulturalizmin daha da sürətlə inkişaf etməsinə geniş şərait yaratdı. Çünki, multukulturalizm və tolerantlıq hər bir ölkənin altına qoyulmuş saatlı bir bombadır. Azərbaycanda multikulturalizmin bütün problemləri demək olar ki, azərbaycançılıq ideologiyası ətrafında yoxa çıxmışdır. Ulu öndər Heydər Əliyev Azərbaycanda yaşayan milli azlıqlarla görüş keçirdiyi zaman demişdir ki, "mən milli azlıqlarla yox, Azərbaycan xalqı ilə görüş keçirirəm".

Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının birinci qurultayında azərbaycançılığın mahiyyətini məhz bu cür ifadə etmişdir: "müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı-Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini ya-şatmalıyıq" (3, s. 5).

Ulu öndər həmişə öz çıxışlarında Azərbaycanın çoxmillətli ölkə olmasını, etnik rəngarəngliyini və tolerantlığa böyük əhəmiyyət verməsini xalqımızın böyük sərvəti hesab etmişdir: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür... Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib".

Akademik Ramiz Mehdiyev özünün **A**zərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi adlı əsərində yazır: "Azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Azərbaycançılıq keçmiş tarixi dövrlərin mifologiyasını, mədəni kodlarını və rəmzlərini mənimsəyərək onlardan yeni ideyaları əsaslandırmaq və milli dövlətin inkişafının yeni vektorunu müəyyənləşdirmək üçün istifadə edir. İndi o, cəmiy-yətimizdə ən qurucu və dinamik qüvvədir. Azərbaycançılığın gücü həm də bundadır ki, o, fərdi maraqları və meyilləri dövlətin siyasəti ilə birləşdirməyə və xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamağa qadirdir. Təbii ki, milli birliyə mənsubluq hissi həyatın özünə də məna verir və onun əhəmiyyətini müəyyən edir, qarşılıqlı məsuliyyət və ümumi işə bağlılıq hissini gücləndirir, tənhalıq və qəriblik hissini aradan qaldırmağa kömək göstərir. Bu ideologiya Azərbaycanda vahid cəmiyyət, vahid xalq formalaşdırır" (4, s. 4).

Akademik S.Xəlilov özünün "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" adlı kitabında yazır: Bu məfkurə təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların, təkcə Azərbaycan dövlətinin maraqlarını deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir. Eyni zamanda bütün azərbaycanlılar harada yaşamasından və hansı ölkənin vətəndaşı olmasından asılı olmayaraq, rəsmi vətənləri ilə yanaşı, həm də özünün mədəni-mənəvi vətəni olan Azərbaycan Respublikasını düşünür, onun nüfuzunu uca tuturlar".

Azərbaycançılıq idologiyasının iqtisadi əsasları isə bunlardır: Azərbaycanı xammal istehsal edən ölkədən hazır məhsul istehsal edən ölkəyə çevirmək, iqtisadi islahatların milli maraqların qorunmasına yönəldilməsi, dövlət mülkiyyətinin qorunması və s.

Heydər Əliyevin fəaliyyətinin istər ölkə, istərsə də dünya miqyasında yüksək qiymət-ləndirilməsi azərbaycançılıq ideologiyasının təbliğ olunması baxımından böyük əhəmiyyətə malikdir. Heydər Əliyev irsinin qorunması və təbliği, azərbaycançılıq ideologiyasının təbliği istiqamətində həyata keçirilən müxtəlif tədbirləri təkcə bu dahi insanın şəxsiyyətinə münasibətlə əlaqələndirmək olmaz. Bu tədbirlər böyüməkdə olan gənc nəslin dövlətçilik duyğularının inkişaf etdirilməsi baxımından da çox böyük əhəmiyyətə malikdir.

Ölkəmizdə bütün xalqların, toplumların ürəyi eyni ritimdə vurur, fərqli dil və din mənsubları ortaq məxrəcə gələ bilirlər. Azərbaycan minilliklər boyu müxtəlif xalqların azad, sərbəst və heç bir maneə ilə rastlaşmadan yaşadığı bir məmləkətdir. Ölkəmizdə formalaşan tolerantlıq mühitinin nəticəsidir ki, burada yaşayan hər bir xalqın nümayəndəsi özünü azad və firavan hiss edir. Xalqımız qonaqpərvər, sülhsevər və humanist qlduğu üçün respublikamızda yaşayan digər xalqların nümayəndələri özlərini hərtərəfli ifadə edə bilirlər. Azsaylı xalqların hüquqları hər zaman qorunub və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün şərait yaradılıb. Ona görə də Azərbaycan ədəbiyyatının mədəniyyətinin, ictimai fikrinin formalaş-masında, eləcədə ölkəmizin ərazi bütövlüyünü qorunmasında qeyri – azərbaycanlılar da örnək ola biləcək vətənpərvərlik nümayiş etdirmişlər və bu gün də bu davam edir.

Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan, tarixən, sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. Ulu öndər Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Müasir Azərbaycanın banisi ulu öndər Heydər Əliyev olduğu üçün əsrlər boyu ölkəmizdə formalaşan multikultural dəyərlər məhz onun hakimiyyəti dövründə yeni inkişaf mərhələsinə qədəm qoyaraq geniş vüsət almışdır. Azərbaycanda kultural mədəniyyətinin müasir tələbləri səviyyəsində formalaşmasının, ölkədə sabitliyin və tərəqqinin əsas amil olduğunu nəzərə alan ümummilli lider Heydər Əliyev multikulturalizmin siyasi və hüquqi müstəvidə yerini müəyyən etmişdir. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçmiş və uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırmışdı.

Azərbaycanda yaşayan hər bir millətin, etnik qrupun nümayəndəsi vahid vətən olan Azərbaycan uğrunda çalışması üçün güclü hakimiyyət və siyasi iradə tələb olunurdu. Məhz, Ulu öndər Heydər Əliyev siyasi müdrikliyi sayəsində bu gün Azərbaycanda yaşayan bütün millətlər və bütün dini mənsubları rahat şəkildə yaşayıt və öz adət - ənənələrinə, dinlərinə sadiqdirlər.

Ulu öndər Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan, tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və müdrik siyasəti ilə əsrlər boyu formalaşan çox mədəniyyətlik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Onun rəhbərləyi ilə Azərbaycan xalqının rolerantlıq və multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi istiqamət bu gün uğurla inkişaf edir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanımızda multikultural məsələlərdə çox önəmli addımlar atmışdır. Belə ki, O digər dinlərin və xalqların xidmətlərini də həmişə yüksək qiymətləndirilmişdir. 1999-cu ilin noyabrın 16-da ölkəmizdə fəaliyyət göstərən dini rəhbərlərlə görüşündə bu anı xüsusi olaraq qeyd etmişdir: “ Əlbəttə Azərbaycanda mövcud olan millətlərarası, dinlərarası, etnik vəziyyət yüksək qiymətə layiqdir. Bu hamının-həm azərbaycanlıların, həm rusların, həm ukraynalıların, həm yəhudilərin, digər millətlərdən olan insanların, o cümlədən bizim dini konfessiyaların – Azərbaycanda başlıca dini olan islam dininin, xristian pravoslav, yəhudi dinlərinin səyləri ilə əldə edilmişdir” (2).

Azərbaycan Respublikası çoxmillətli bir dövlət olduğundan burada müsəlmanlarla yanaşı başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən, irqindən dilindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir. İslam dininin də multikultural sahədə tarixdə görünməmiş hadisələri olmuşdur. Bunun təsirini Azərbaycanda və hətta Qafqazda da biruzə verdiyini Heydər Əliyev belə demişdir: “Dünyada çox yer vardır. Biz Azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərini

xüsusiyyətidir. Bu tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapmışdır. Azərbaycanda islam dini ilə yanaşı xristian dini də,yəhudi dini də əsrlərlə birgə yaşayıb və indi də yaşayır"(4).

Təsadüfi deyildi ki, Roma Papası Bakıya səfərə gələrkən söylədiyi: "Azərbaycanda dinlər arasında mövcud tolerantlıq və dözümlülük münasibətləri dünyanın bir çox ölkələri üçün nümunə ola bilər "-fikri dünya üçün bir mesajdır.

Bu gün ulu öndər Heydər Əliyevin ideyaları bütün sahələrdə olduğu kimi multikulturalizm və tolerantlıq sahəsində də ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirir. Azərbaycan dünyaya tolerantlıq nümunəsi ilə təqdim olunur. Ölkəmizdə mövcud olan yüksək multikultural dəyərlər, tolerantlıq, bütün dünyəvi dinlərin sərbəst şəkildə fəaliyyət göstərməsi Azərbaycanın xarici imicini formalaşdırır və eyni zamanda bir vizit kart rolunu oynayır. Cənab Prezident İlham Əliyevin bu sahədə apardığı uğurlu siyasət nəticəsində Azərbaycan yüksək mədəniyyətə malik olan və tolerant dövlət kimi dünyada tanınır. Azərbaycanın müxtəlif humanitar sahələrdə təşkil etdiyi mütəmadi beynəlxalq toplantılar, konfranslar, tədbirlər buna sübutdur.

Bu gün Azərbaycan multikulturalizminin özəlliyi ondadır ki, multikulturalizmin bir sıra dünya dövlətlərində iflasa uğradığı bir dövrdə, şəraitdə Azərbaycan Respublikası multikulturalizmi özünün dövlət siyasəti bəyan etmişdir. Azərbaycan dünyada tolerantlıq, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir.

Azərbaycançılıq ideologiyası, dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasəti müasir mərhələdə ulu öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə onun məzmununu daha da zənginləşdirməkdə, milli özünüdərk hissini gücləndirməkdə və Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini yüksəltməkdədir. Prezident İlham Əliyev azərbaycançılıq ideologiyasını dövlətçiliyimizin siyasi və mənəvi sütunu kimi xarakterizə edərək demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır" (7 s.26-27).

Bütün bu tolerantlıq ənənələrinin dünyada təqdim edilməsi işində Azərbaycan dövləti ilə yanaşı, dünyada maddi və qeyri-maddi irsin qorunmasında və təbliğində böyük fədakarlıq göstərən xeyirxah əməlləri ilə əsl islami dəyərləri təlqin edən bəşəriyyəti mərhəmətə, qarşılıqlı köməyə, sülhə çağıran Heydər Əliyev Fondunun da böyük əməyi var. Azərbaycan multikulturalizmi yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə öz səmərəli nəticələri ilə insanlara sülh, əmin-amanlıq, qarşılıqlı hörmət bəxş etməyə yönəldilmişdir. Əsrlər boyu iki dünyanın Avropa və Asiyanın təkcə coğrafi deyil, həm də mədəni baxımdan "kəsişmə nöqtəsində" yerləşən Azərbaycanda multikultural dəyərlərin qorunub saxlanılmasına xidmət edən siyasi kurs yuxarıda qeyd etdiyimiz kimi uğurla aparılır və bu kursu həyata keçirməkdə dövlətin yanında vətəndaş cəmiyyəti institutu olan Heydər Əliyev Fondu və onun rəhbəri, birinci vitse prezidentimiz Mehriban xanım Əliyeva durur. Tolerant cəmiyyət modelinin özünəməxsus və nadir formasının yaranmasında, qorunub saxlanmasında Heydər Əliyev Fondunun rolu danılmazdır. Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm proqramlar həyata keçirir. Bu proqramlar Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri şəraitində fəaliyyət göstərməsini reallaşdırır. Bu ondan irəli gəlir ki, ölkəmizdə tarixən formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Heydər Əliyev Fondu isə fəaliyyəti ilə müxtəlif xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına, ölkəmizdə formalaşmış gözəl ənənəyə töhfəsini verməkdədir. Heç də tədsadüfi deyildi ki, Prezidentimiz cənab İlham Əliyev istər ölkə hüdudlarından kənarda, istərsə də ölkə ictimaiyyətinin qarşısında çıxış edərkən deyir: "Multikulturalizm ölkəmizdə hər bir insanın həyat tərzinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Kamal Abdullayev. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. "Azərbaycan qəzeti", 23 iyul 2014
2. Azərbaycan Multikulturalizminin ədəbi – bədii qaynaqları. Bakı 2016 . səh. 4
3. "Gəncənin səsi" qəzeti, 23 fevral 2016-cı il
4. "Respublika" qəzeti, 20 yanvar 1999- cu il
5. Turan A. Azərbaycançılıq milli ideyasında Heydər Əliyev fenomeni. "Xalq" qəzeti, 02.12. 2016
6. Mehdiyev R. Milli ideya: tarix və bu gün, "Azərbaycan" qəzeti, 09.11.2007.
7. Xəlilov S. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi, Bakı: Azərbaycan Universiteti, 2001

**ABSTRACT**

**Ibrahim Jafarov**

**GREAT LEADER HEYDAR ALIYEV IS THE POLITICAL FOUNDER OF AZERBAIJAN MULTICULTURALISM**

After independence the people of Azerbaijan one of the main issues in the country and the issues of tolerance and multiculturalism was a part of the state for the settlement. Azerbaijan is a secular and multi-confessional state, an Islamic countries. Historical and spiritual heritage, culture, national mentality is seen as an integral part of the Islamic religion in the country. İn the article is also talking about the idea of multiculturalism and the work has been done in this field by national leader Heydar Aliyev praised



**РЕЗЮМЕ**

**Ибрагим Джафаров**

**ПОЛИТИЧЕСКИЙ ОСНОВОПОЛОЖНИК МУЛЬТИКУЛЬТУРАЛИЗМА В АЗЕРБАЙДЖАНЕ ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР Г.АЛИЕВ**

После обретения независимости азербайджанского народа, основным вопросом было упорядочения со стороны государства, вопросы мультикультурализма и толеранства. Кроме того, что Азербайджан является исламской страной, она также мировая и многоконфессиональная. Исламская религия в нашей стране принимается как неотъемлемая часть историческо-морального наследства, культуры, национального менталитета. В статье, говорится об идеях мультикультурализма в Азербайджане и роли в этой сфере общенационального лидера Гейдара Алиева.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**AZAD BAYRAMOV**
*Azərbacan Dövlət Aqrar Universiteti*

**UOT: 94(479.24)**

# AZƏRBAYCANDA ETNİK-SİYASİ BİRLİK VƏ MÜSTƏQİLLİK ƏNƏNƏLƏRİ

**Açar sözlər**: *milli dövlətlər, azərbaycançılıq, sülalə hakimiyyəti, istiqlal ruhu, gənc millət, qədim xalq, etnik mənşə, Cənubi Qafqaz türkləri, azərbaycanafobiya, milli oyanış, demokratik təfəkkür, burjua milləti, etnik-milli müqəddərat*

**Key words***: national governments, national, dynastic power, the spirit of independence, young people, old people, ethnic origin, the South Caucasus the Turks, the national awakening of democratic thinking, bourgeois nation*

**Ключевые слова:** *национальные государства, азербайджанство, династическая власть, дух независимости, молодая нация, древний народ, этническое происхождение,турки Южного Кавказа, азербайджанофобия, национальное пробуждение, демократическое мышление, буржуазная нация, этническая чистка*

Bəşər tarixində baş vermiş hadisələr mövcudluq kateqoriyası baxımından iki tipə ayrılır: təsadüfi hadisələr və zəruri hadisələr. Təsadüfi hadisələr konkret bir məkanda, məhdud zaman kəsiyində baş verir və ümumdünya tarixinə həlledici təsir göstərmir, dövrün və nəsillərin yaddaşında iz qoymur. Zəruri tarixi hadisələrə gəldikdə isə, onlar qaçılmaz və qarşısıalınmaz xarakter daşıyır, tanrının, təbiətin, insanların hökmü ilə, mütləq şəkildə baş verir və Ümumdünya tarixinin gedişində əhəmiyyətli dönüş yaradır. Beləliklə, əksiklikləri həll etmək üçün mühüm üsul kimi ortaya çıxan zərurət təsadüflər içərisindən özünə yol açır və bu zaman təsadüflər zərurətin "təzahür forması və əlavəsi" kimi çıxış edir [1, 175]. Azərbaycan xalqının 1991-ci ildə istiqlaliyyət əldə etməsi və Azərbaycanın müstəqil dövlət kimi bərqərar olması, məhz "zəruri tarixi hadisələr" kateqoriyasına aiddir. İlk növbədə bu, onunla izah olunur ki, əsrlər boyu müstəqillik və dövlətçilik ənənələri olan bir xalq uzun müddət asılılıq şəraitində, yaxud əsarət altında yaşaya bilməz. Çünki "müstəqillik" adlı bir tanrı nemətindən dadmış xalqın genotipində istiqlal ruhu heç vaxt ölmür. Bu ruh nəsillərə ötürülür və tarixi şərait yaranan kimi yenidən təzahür edir.

Bəzi nüfuzlu şəxslərin "Azərbaycan dövləti", "Azərbaycan xalqı", "azərbaycançılıq" kimi fenomenlər haqqında fikirləri – Azərbaycan adlı dövlətin yalnız 1918-ci ilin mayında yaranması, əvvəllər bu adda heç bir dövlətin, yaxud tarixi məkanın olmaması "ideyası" ölkədə ictimai, elmi-kütləvi və akademik səviyyədə birmənalı qarşılanmamışdır. Əlbətdə ki, şanlı tarixi olan bir xalqın özü və dövlətçiliyi haqqında əsatir yaratmasına ehtiyac yoxdur. Real tarix yalanı, saxtakarlığı, mif yaratmağı sevmir. O, analitik sintezə və realizmə əsaslanmalıdır. Bu prinsiplər əsasında Azərbaycan tarixinə nəzər salanda qarşımızda möhtəşəm bir mənzərə canlanır. Çünki Azərbaycan tarixinin ontologiyası real faktlara əsaslanır. Rəsmən "Azərbaycan" adının siyasi subyekt kimi 1918-ci ildə yaradılmış, Şərqin ilk Demokratik Cümhuriyyətinə verilməsi təkzibolunmaz tarixi faktdır [8, 33-34]. Lakin bu o demək deyil ki, "Azərbaycan" fenomeninin cəmi 100 illik tarixi var. Müasir Azərbaycan milləti doğurdan da gənc millətdir. Lakin bu baxımdan "gənc" epiteti Azərbaycana münasibətdə milli oyanış, demokratik təfəkkür, burjua milləti anlayışları ilə əlaqədar işlənilə bilər. Antropoloji və etnik-mədəni cəhətdən isə Azərbaycan xalqı qədim xalqdır. Onun "Azərbaycan" adı altında tarixi ən azı 1300 il bundan əvvəl başlayır. İlk dəfə bu ölkəni ərəblər VII əsrdə "Azərbaycan" adlandırmışlar. "Azər" sözü ərəbcədən "od" deməkdir. Müsəlman ərəblər bu məmləkətə ilk dəfə gələndə başdan başa atəşpərəst əqidəli əhalini "azərbaycanlılar" adlandırdılar. Yəni "atəşə sitayiş edənlər", "odu canları kimi sevənlər və qoruyanlar". Demək olarki, bütün ərəb tarixçiləri – Əl-Məsudi, İbn Hordadbeh, Həmdullah Qəzvini və b. öz əsərlərində "Azərbaycan" adını cənubda Zəncandan, Qəzvindən və Həmədandan tutmuş Şimalda Dərbəndə qədər ərazilərə aid edirlər.

Qədim Azərbaycanın ərazisində Aratta, Lullubi, Kuti, Manna, Midiya, Atropatena, Albaniya, Arran, Şirvan, Muğan və s. adlı qədim dövlətlər və tarixi məkanlar olmuşdur. Bu adlar sözügedən qurumlara güclü etnosların adları ilə əlaqədar, yaxud məkanın coğrafi xüsusiyyətlərinə görə verilmişdir. Xilafət dövrünə aid mənbələrdə 4-cü əmirliyin, daha sonra "Əl-Cəzirə" adlı 3-cü əmirliyin tərkibində "Azərbaycan" adlı əyalət var idi. Xilafətin hərbi-siyasi əsaslarını sarsıtmış Xürrəmilər hərəkatının Azərbaycanda olmasını, Babək Xürrəminin Azərbaycan türkü olmasını heç bir arqumentlə inkar etmək olmaz. "Azərbaycan xilafətin vilayətidir. Dörd əyalətdən – Arran, Muğan, Quştasfi və Şirvandan ibarətdir. Əhalisinin az bir hissəsini iranlılar, böyük hissəsini isə türklər təşkil edir" [6, 180]. Babəkin igidliyi, Azərbaycan xalqının azadlıq

mübarizəsi haqqında məlumatı, o dövrün ərəb tarixçiləri verir. Bu mənbələrdə Babək Azərbaycanın azadlığı uğrunda vuruşan, fars, ərəb, yaxud qafqazlı kimi deyil, məhz azərbaycanlı inqilabçı kimi təqdim olunur.

Xilafətin tənəzzülü dövründə türk mənşəli Sacilərin və Salarilərin türk olması, məhz Azərbaycan adlanan tarixi məkanı vahid dövlətdə birləşdirməsi real faktdır. Bu dövrdə hakim sülalə tərəfindən sözügedən istiqlaliyyət obyektinin Azərbaycan deyil, məhz Sacilər dövləti, Salarilər dövləti, Atabəylər dövləti adlandırmalarını izah etmək də çətin deyil. Bildiyimiz kimi Orta əsr dövlətlərinin monarxiya quruluşu, adətən sülalənin adını və şöhrətini tarixi məkanın, yaxud hakim etnosun adından yüksək tuturdu. Məhz buna görə Azərbaycan tarixində Saci istiqlaliyyəti, Atabəylər istiqlaliyyəti, Səfəvilər istiqlaliyyəti anlayışları "Azərbaycan" anlayışından daha dominant xarakter kəsb etmişdir. Lakin onların hamısının məhz Azərbaycan xalqının dövlətçilik tarixi olmasını heç kim inkar edə bilməz. Bu dövlətlərin hər biri Azərbaycanda təşəkkül tapıb, onların mərkəzi şəhərləri tarixi Azərbaycan şəhərləri olub. Hökmdarları "Azərbaycan mənşəli" hökmdar – şah, padşah, atabəy titulu daşıyıb. Onların tələbələri, Azərbaycan türkcəsində danışan yerli azərbaycanlılar olub.

İran tarixçiləri Xilfətin tənəzzülü dövründə Əfqanıstanda, Orta Asiyada və Azərbaycanda yaranmış müstəqil feodal dövlətləri "İran intermessosu" (lat. intermedius – aralıq, yəni İran imperiyaları arasında aralıq dövr) adlandırırlar [3, 110]. Lakin İran tarixçiləri nədənsə belə bir vacib məqamı izah etməyi unudurlar ki, əgər adı çəkilən sülalələr doğurdan da "İran intermessosudursa" niyə İranda deyil, onun hüdudlarından kənarda təzahür etmişdir? Niyə onu tarixi vəzifə kimi, məhz türk-azərbaycan hökmdarları yerinə yetirirdi. Fars şovinizminə hər vəchlə haqq qazandırmağa çalışan İran alimləri, guya Y-xromosomlarını tədqiq edərək belə bir nəticəyə gəlmişlər ki, tarixən türk dilinin, azərbaycan-türk etnik amilinin İranda belə geniş və davamlı təmsil olunması, guya siyasi elitada təmsil olunan azsaylı türk kişilərinin fəaliyyəti ilə bağlıdır, lakin onlar İran xalqlarının populyasiyasına son dərəcə zəif təsir göstərmişlər.

Ümumiyyətlə "Milli dövlətlər" fenomeni Yeni dövr tarixinin hadisəsidir [2, 144-181]. Orta əsrlərdə, bütün dünya dövlətləri tayfa, sülalə mahiyyəti daşıyırdı. Bu həm Avropada, həm də Asiyada belə idi. Azərbaycan da bu baxımdan istisna deyildi. 1923-cü ilə qədər Anadolu türklərinin dövlətçilik arealına daxil olan ərazi Osmanlı dövləti, Ottoman imperiyası, yaxud Əla Porta, Yüksək Porta (osm. Babi-Ali) adlanırdı və sülalənin başçısı I Osman Qazinın (1281-1336) və Osmanlı vəzirinin dəftərxanasının adı ilə bağlı idi [7, 26-41]. Demokratik quruculuq, parlamentarizm və respublikaçılıq tarixi isə 1923-cü ildən başlayır. Lakin türk tarixçilərinə və türk xalqına dövlətçlik tarixinin cəmi 93 il olmasını demək ən azı gülməli olardı. Hindistan tarixində Harappa sivilizasiyasından başlamış Böyük Moqollar imperiyasına qədər 57 dövlətdən heç biri Hindistan adlanmayıb. Amma hind xalqının heç bir nümayəndəsi dövlətçilik tarixinin 1947-ci ildən başlamasını, Hindistan xalqının 70 yaşlı xalq olmasını, heç vaxt Hindistan adlı dövlətin olmamasını heç ağlına da gətirmir. Bu nümunələri Avropa xalqlarının dövlətçilik və etnik-siyasi inkişaf tarixinə də aid etmək olar. Məsələn; fransızlar, almanlar, ispanlar, ingilislər qədim dövrdə qotlar adlanırdı. Lakin adı çəkilən xalqlar qotları öz əcdadları və onların yaratdıqları, fərqli adlar altında dövlətləri öz dövlətləri hesab edirlər. Ümumiyyətlə, bu gün Yer kürəsində yaşayan bəzi xalqların ümumi cəhətlərini nəzərə almasaq (monqoloid cizgiləri, neqroid əlamətləri, hind xüsusiyyətləri və s.), təmiz antopoloji xüsusiyyətlərini qoruyub saxlamış xalq yoxdur. Hər bir etnosun müasir antropoloji ifadəsi, həmçinin mədəni durumu sırf sinkretik xarakter daşıyır.

Səfəvilər dövlətinin Orta əsrlər Azərbaycan dövlətçiliyinin şah əsəri olması tarixi faktdır. Lakin onun Azərbaycan dövləti deyil, Səfəvi dövləti adlanmasının səbəbi də məlumdur. O, imperiya xarakterli dövlətdir. İmperiyapərəstlik isə xalqın əqidəsi deyil, ayrı-ayrı şəxslərin və hökmdarların mütləq hakimiyyətə can atan iradi potensiyasının, yəni subyektiv volyuntarizmin məhsuludur. Xalqın siyasi əqidəsi isə demokratizm, plyuralizm, parlamentarizmdir. Odur ki, orta əsr imperiyaları, bir qayda olaraq məkanın, millətin, xalqın deyil, hakimiyyət subyektinin adını əbədiləşdirirdi. Hakimiyyətin subyekti isə burada millət deyil, hökmdarın mütləq nüfuzudur. Səfəvilərdən sonra Əfşarlar, Qacarlar, Pəhləvilər kimi dövlətlər tarixən dövlətyaradan etnos olmuş Azərbaycan türklərinin yaratdıqları və idarə etdikləri dövlətlər olub. Məlum səbəblərdən, yəni Səfəvi hökmdarı I Abbasdan başlayan farslaşdırma siyasətinin davamı olaraq, onlar "Fars dövlətləri" kimi qələmə verilir.

Xanlıqlara gəldikdə isə onlar müstəqil feodal qurumları olaraq, tarixdə İran xanlıqları kimi deyil, məhz Azərbaycan xanlıqları kimi qalıb. Azərbaycandakı xanlıqlar tipində Rusiya tarixində də 300 il davam edən feodal pərakəndəliyi – knyazlıqlar dövrü olmuşdur və onlardan heç biri Rusiya adı daşımamışdır. Lakin Rusiya tarixində bu dövr rus xalqının dövlətçilik tarixi kimi öyrənilir [4, 69 -74]. 1925-ci ildə Pəhləvilər öz dövlətlərini İran dövləti adlandırdılar. Reza Pəhləvinin (1878-1944) anası Nuş Afərin Ayrumlı və həyat yoldaşı Tac əl-Mülk Ayrumlı (Nimtac xanım – 1896-1982) etnik azərbaycanlı idilər. Reza Pəhləvinin və Tac əl-Mülkün oğlu, sonuncu İran şahı Məhəmməd Reza Pəhləvinin həyat yoldaşı Fərəh Diba (1938) isə əslən Bakılı olan azərbaycanlı, Sen-Sir hərbi məktəbinin məzunu Söhrab Dibanın qızı idi. Onun İranda Şahbanu olduğu dövrdə (1967-1979) azərbaycanlılar özünəməxsus intibah dövrü yaşamış və Azərbaycanın mədəni muxtariyyəti məsələsi gündəmə gəlmişdi. 1979-cu il İran İslam inqilabı, əslində azərbaycanlı Şahbanu Fərəh Dibanın siyasi fəaliyyətinə qarşı fars şovinizminin klerikal xarakterli qiyamı idi [5, 160].

Ümumiyyətlə, 1979-cu ilə qədər Məzdəkilər hərəkatından tutmuş, İranda baş vermiş bütün inqilabların və üsyanların aparıcı qüvvəsi azərbaycanlılar olmuşlar. Fars bürokratiyası daim Azərbaycanın inqilab ruhundan qorxmuş və həmişə sərt qabaqlayıcı tədbirlər görmüşdür. Bu gün isə inqilabdan qorxan İran hakim

dairələri Cənubi Azərbaycanda etnik birliyi sarsıtmaq məqsədi ilə, sahillərində azərbaycanlıların kompakt yaşadığı Urmiya gölünü qurutmaq, imkan daxilində Cənubi Azərbaycanda yerləşən neft və qaz ehtiyyatlarını istismar etməmək və bununla da burada təşkilatlanmağa qadir olan kütlənin konsentrasiyasının qarşısını almaq kimi tədbirlər görürlər.

Azərbaycanın 1922-ci ildə Zaqafqaziya federasiyasının tərkibində ittifaqa daxil olmasından sonra, 1926-cı il 17 dekabrda başlanmış əhalinin I Ümümittifaq siyahıya alınmasında azərbaycanlılar "Cənubi Qafqaz türkləri kimi" qeydə alınmışdı. Hələ ADR dövründə İran hökumətinin təkidlə "Azərbaycan" və "azərbaycanlı" ifadələrinə qarşı çıxması, onların "tatar", "müsəlman" sözləri ilə əvəz edilməsi isə "Azərbaycan" etnik genotipi, "Azərbaycan" siyasi fenomeni qarşısında tarixi xofun, Məzdək, Cavanşir, Babək, Şah İsmayıl, Səttar xan, Məhəmməd Xiyabani, Şeyx Cəfər Pişəvəri qüdrətindən doğan tarixi "Azərbaycanafobiyanın" ifadəsi idi. "Azərbaycan" adının elə bir qüdrətli və sakral mahiyyəti var ki, o çoxəsrlik tarixi boyu bütün təsadüfi elementlərin içərisində itib-batmadı, hər kəs, hər şey gəldi, "Azərbaycan" süsgəncindən keçdi, "azərbaycanlaşdı".

1993-cü ildə ümummilli ilder Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan adlanan gənc bir dövlətin davamlı mövcudluğu və inkişafı təmin olundu. Bu gün "azərbaycançılıq" ideyası və multimədəni dəyərlərin qorunması prinsipləri çərçivəsində Azərbaycan Respublikası adlı bir məkanda vahid Azərbaycan xalqı adlanan mehriban bir ailədə müxtəlif millətlərin və etnik azlıqların nümayəndələri gələcəyin şanlı tarixini yazır. Bu etnik-siyasi birlik sarsılmaz və əbədidir. Müstəqil Azərbaycan Respublikası gənc dövlətdir, lakin Azərbaycan xalqı gənc xalq deyil, onun çoxəsrlik tarixi var. Biz bu tarixlə fəxr edirik və onun həqiqi sahibləri yalnız bizik.

## ƏDƏBİYYAT


1. Маркс К., Энгельс Ф. Собрание сочинений, Изд. 2, Т 39.
2. Meyer J. W., Boli J., Thomas G. M., Ramirez F. O. World Society and the Nation-State // American Journal of Sociology. 1997
3. Минорский В.Ф. "Исследование Истории Кавказа", Кембридж, 1953.
4. Рыбаков С.В. Раздробленность на Руси. Ее оценка в российской историографии. Екатеринбург, 1995
5. Taheri, Amir. The Unknown Life of the Shah. Hutchinson, 1991
6. Томара М. Бабек. М 1936
7. Трепавлов В. В. «Ваша высокая порта»,Российская государственность в системе традиционных представлений о монархии у народов Евразии XV-XVII вв.
8. Шнирельман В. А. Войны памяти: мифы, идентичность и политика в Закавказье / Рецензент: Л. Б. Алаев. М., 2003.



## ABSTRACT

**AZAD BAYRAMOV**

**ETHNIC-POLITICAL UNITY AND INDEPENDENCE IN AZERBAIJAN**

The articleis discussed a wide range of audiences, and as an object of research in the scientific literature, presented the nation, is dedicated to topical issues as the history of Azerbaijani statehood. The scientific facts which prove the antiquity of the Azerbaijani people and Azerbaijani state classification, and a new era in the history of medieval traditions and distinctive character of the state government and the main motives is the interpretation of the article. The article appeared in the stage of development of ethnic and political relations system of scientific material to clarify issues that may be controversial.



## РЕЗЮМЕ

**АЗАД БАЙРАМОВ**

**ЭТНОПОЛИТИЧЕСКОЕ ЕДИНСТВО И НЕЗАВИСИМОСТЬ В АЗЕРБАЙДЖАНЕ**

Статья посвящена таким актуальным вопросам, как азербайджанство, Азербайджанская нация, Азербайджанская государственность, обсуждаемым в широких аудиториях и являющимся объектом исследований научной литературы. Классификация научных фактов, доказывающих древность Азербайджанского государства и народа, обозрение различного характера власти и традиций государственности в средневековой и новой истории являются основными мотивами статьи. В статье, в методической последовательности и с неоспоримыми фактами прослеживается исторический путь, ведущий к Азербайджану, азербайджанство и современной Азербайджанской государственности. Статья может стать научным пособием в выяснении спорных вопросов, возникших на современном этапе этнополитических отношений.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**CAHANGİR CAHANGİRLİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

**UOT:316**

# MULTİKULTURALİZMİN AVSTRALİYA MODELİ

**Açar sözlər:** *Avstraliya, multikulturalizm, siyasət, mədəni müxtəliflik, cəmiyyət, dövlət, immiqrasiya*
**Keywords:** *Australia, multiculturalism, policy, cultural diversity, society, state, immigration*
**Ключевые слова:** *Австралия, мультикультурализм, политика, культурное многообразие, общество, государство, иммиграция*

**Giriş.** Multikulturalizm siyasəti milli dövlətlərin cəmiyyətin etnodemoqrafik strukturunun dəyişməsinə cavab reaksiyası kimi nəzərdən keçirilə bilər. Mədəni plüralizmin qəbul olunması mədəni sahədə münaqişələrin məhdudlaşdırılmasına və müvafiq olaraq cəmiyyətin stabilliyinin təmin olunmasına hesablanır. Multikulturalizm siyasəti ümumilikdə demokratiyanın ruhuna uyğundur. Nəzərə almaq lazımdır ki, qloballaşma və onun iqtisadi, siyasi, sosial, mədəni xarakterli nəticələri miqrasiya proseslərinin yeni interpretasiyanın və axtarılmasını və bu prosesdə dövlətin rolunun və yerinin daha dəqiq müəyyənləşdirilməsini tələb edir. Müasir dünya təcrübəsi dəqiq sübut edir ki, multikulturalizm siyasətinin həyata keçirilməsini şərtləndirən başlıca amil məhz miqrasiya prosesləridir. Bu prosesin xarakterinə və ümumiyyətlə, cəmiyyətin etnodemoqrafiq tərkibinə uyğun olaraq, dünya dövlətləri özlərinin multikulturalizm siyasətlərini formalaşdırırlar və həyata keçirirlər. Müvafiq olaraq, Avstraliyanın multikulturalizm siyasətinin özünəməxsus cəhətləri vardır. Hər şeydən öncə qeyd etmək olar ki, Avstraliyaya miqrant axını əsasən Avropadan baş verir. Asiyadan immiqrantların ölkəyə daxil olmalarına sərt məhdudiyyətlər tətbiq olunurdu. Ötən əsrin 60-cı illərindən etibarən vəziyyətdə ciddi dəyişikliklər müşahidə olunmağa başlamışdır. Belə ki, Asiyadan olan immiqranların Avstraliyaya daxil olmalarına məhdudiyyətlər aradan qaldırılmışdır. Bundan sonra Avstraliyaya sözün əsl mənasında tam mədəni müxtəlifliklər ölkəsinə çevrilmişdir. Təbii ki, bütün bunlar cəmiyydəki ümumi vəziyyətə ciddi təsir göstərməyə başlamışdır. Belə ki, sosial bərabərsizlik, etnomilli zəmində baş verən münaqişələr özünü aydın biruzə verməyə başlamışdır. Dövlət belə halların qarşısını almaq üçün real addımlar atmaq zərurətini hiss edirdi və müvafiq olaraq, tam ciddi multikulturalizm siyasətinin həyata keçirilməsinə start verilirdi. İlkin olaraq, miqrantlara münasibətdə sosial proqramın həyata keçirilməsinə başlanmışdır. Bunun ardınca isə, Avstraliya multikulturalizminin xüsusi ideologiyasının əsasları formalaşdırılmasına başlanmışdır. Bu ideologiyada əsas vurğu etnikliyə edilirdi. Dövlət multikulturalizm siyasətini ayrı-ayrı miqrant təbəqələrinə deyil, etnik qruplara istiqamətləndirirdi.[3, s.91] Müvafiq olaraq, Avstraliyada etnik qrupların daxili idarəetmədə rolu əhəmiyyətli dərəcədə artmışdır. Multikulturalizmin Avstraliya modelinin əsas səciyyəvi cəhətini də məhz bu məqam təşkil edir. Elmi məqalədə multikulturalizmin Avstraliya modelinin bu və digər səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsinə cəhd edilmişdir.

**Multikulturalizmin Avstraliya modelinin xüsusiyyətləri**

Bildiyimiz kimi, XXI əsrdə qloballaşma və inteqrasiya özünün genişlənməsinin pik həddinə çatmışdır. Bu sivilizasiyanın inkişafının yeni modeli kimi nəzərdən keçirilməkdədir. Müvafiq olaraq, xalqlar, millətlər və dövlətlər tam yeni qarşılıqlı münasibətlər sisteminə keçmişlər. İqtisadi, ticarət və mədəni münasibətlərin yeni formasını özünün bütün əlamətləri və elementləri ilə müşahidə olunmaqdadır. Çoxmillətli, çoxkonfessiyalı dünya dövlətlərində unifikasiya prosesi getməkdədir. Bütün vətəndaşların bərabərhüquqlu mövcudluğunun təmin olunması olduqca mürəkkəb məsələdir. Vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi demokratik dəyərlərin oturuşmasının başlıca amili rolunda çıxış edir. Belə dəyərlər içərisində isə, mərkəzi rol tolerantlığa məxsusdur.[2] XX əsrin sonu, XXI əsrin əvvəllərində Qərbi Avropanın təcrübəsi qlobal etnoslararası və konfesiyalararası dialoqun problemli tərəflərinin xüsusi mədəni aspekltərini üzə çıxarmışdır. Nəzərə çarpan əsas problem miqrantların sayı ilə deyil, yeni mədəni dəyərlərin daşıyıcıları ilə yerli mədəniyyətlər arasındakı uzlaşma ilə bağlı idi. Demək olar ki, bütün hallarda yerli əhalinin mədəniyyəti ilə gəlmələrin mədəniyyətləri, mentalitetləri arasındakı fərqlər dərin ziddiyyətlərin meydana gəlməsini şərtləndirir. Yerli əhali immiqrantların öz dəyərlərini qorumaq cəhdlərini, davranış və yaşam tərzlərini olduqca çətin qəbul edir, bir çox hallarda isə, ümumiyyətlə qəbul etmək istəmirlər. Bu, xüsusilə Avropda aydın müşahidə olunur. Müvafiq olaraq, Avropada gəlmələrə münasibətdə bir fobiya əhval-ruhiyyəsi formalaşmışdır. Müsəlman immiqrantlara münasibət xüsusi kəskinliyi ilə seçilir. Təsadüfi deyildir ki, XXI əsrin ikinci onilliyi girdikdən Avropanın aparıcı dövlətlərində,

xüsusilə də, Almaniyada və Fransada narazı əksəriyyətin təsiri altında multikulturalizm siyasətini yenidən nəzərdən keçirmişlər. Hətta, Böyük Britaniyanın sabiq baş naziri multikulturalizm siyasətinin süquta uğradığını elan etmişdir. Onun fikrincə, qərb dəyərlərini qəbul etməyənlərə münasibətdə tolerantlığın əhəmiyyəti yoxdur. Lakin, vətəndaşların hüquq bərabərliyinin, qanunun aliliyinin təmin olunması zəruridir[6]. Təbii ki, Avstraliyada oxşar problemlər özünü biruzə verməkdə idi. Xüsusilə də, ötən sərin 70-ci illərində etnik rəngarənglik artdıqca müvafiq sahədə siyasət də nəzərə çarpacaq dərəcədə dəyişirdi. Hər şeydən öncə tam assimilyasiyasına çalışılan immiqrantlara münasibətdə sərt filtrasiya tətbiq olunurdu. Başlanğıcda "müxtəliflikdə vahidlik" prinsipi üzrə qurulmuş multikulturalizm siyasəti sosial iqlim, etnoslararası qarşılıqlı əlaqələrin qurulmasını, əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Bu reallıq Avstraliyanı immiqrantlar üçün olduqca cəlbedici etmişdir. Lakin ötən əsrin 80-ci illərində bu kursun neqativ tərəfləri özünün göstərməyə başlamışdır. Avstraliyada hər şeydən öncə, cəmiyyətin etnik əlamətlərə görə fraqmentasiyası millətlərarası və konfessiyalararası gərginləyə səbəb olmuşdur. Bu tendensiya Avstraliyada bütün əhali qruplarına toxunmaqla, Asiyadan olan diasporlar arasında daha geniş yayılmağa başlamışdır. Xüsusilə də, öz maraqlarını və ya dəyərlərini üstünlük təşkil edən standartlarla uzlaşdırmaya meyilli olmayan müsəlmanlar arasında daha dərin kök salırdı [4, s.135]. XXI əsrdə belə vəziyyətlər açıq münaqişə vəziyyətlərinə keçməyə başlamışdır. Deməli, müasir Avstraliya multikulturalizminin qarşılaşdığı ilk və əsas problem müsəlman azlıqlarla avropa çoxluğu arasında kəskinləşən düşmənçilik meyilləri ilə bağlı idi. Avstraliyada müsəlmanlara münasibətdə ümumi bir aqressivlik müşahidə olunmaqda idi. Dövlət müsəlmanlara qarşı daha sərt davranmağa başlamışdır. Müsəlman aləmindən gələcək təhlükə əsas gətirilərək, Avstraliya beynəlxalq terrorizmə qarşı mübarizədə daha ciddi fəallıq nümayiş etdirməyə başlamışdır. 2005-ci ildə antiterror əməliyyatının həyata keçirilməsi zamanı 17 müsəlman həbs edilmişdir. Onların içərisində Əlcəzair mənşəli avstraliyalı din xadim Əbu Bəkr də var idi. Həbs olunanlar günahsız insanlara qarşı terror aktlarının təşkil etmə ehtimalları ilə həbs edilmişdilər[5, s.243]. Bunun özü etnomilli və etnokonfessional zəmində gərginliyin ciddi şəkildə artmasına dəlalət edir. Müsəlmanlarla avropalı çoxluq arasında münasibətlərin tənzimlənməsi istiqamətində həyata keçirilən tədbirlər real səmərə vermirdi. Bununla yanaşı, hakimiyyət orqanları cəza tədbirlərinin sərtləşdirilməsini optimal yol kimi müəyyənləşdirirdilər. Belə ki, hüquq-mühafizə orqanlarına əlavə səlahiyyətlər də verilmişdir. Xüsusilə də, kütləvi ixtişaşların təşkilatçılarına qarşı sərt tədbirlərin həyata keçirilməsi haqqında qərar qəbul olunmuşdur. Təbii ki, cəmiyyətdə təhlükəsizliyin, asayişin qorunması baxımından müvafiq addımların atılması məntiqli sayıla bilərdi. Lakin bu, bir növ ayrıseçkilik cəhdləri kimi də qiymətləndirilirdi və bəzi hallarda cəmiyyətdə narazılığı artırırdı.

Qeyd edək ki, Avstraliyada müşahidə olunan problemlərdən biri də onunla bağlı idi ki, avropalı çoxluq hökumətin tənzimləyici addımlarına qarşı çıxırdı. Yəni, narazılıq hər iki tərəfdə özünü aydın büruzə verirdi. Məsələn; 2007-ci ildə Sidney yaxınlığında 1200 yerlik, 19 milyon dollar dəyərində müsəlman məktəbinin tikintisi haqqında qərar sərt təpki ilə qarşılanmışdır. Bu layihəyə qarşı kütləvi çıxışları xristian demokratların dini nümayəndəsi F. Nayl idarə edirdi. O, çıxışları zamanı islamı xristianlığa qarşı qoyur və əsaslandırmağa çalışırdı ki, islam məktəbləri terrorzular hazırlayırlar. F. Nayl sərt ritorikaya üstünlük verərək demişdir: "Böyük Britaniyadakı, Fransadakı və Hollandiyadakı kimi başını qumda gizlətməkdən xeyir gəlməz. İndi həmin ölkələrdə dərin sosial problemlər meydana gəlmişdir. Mən eyni problemləri Avstraliyada görmək istəmirəm[7]. Göründüyü kimi, Avstraliyada etnokonfensional zəmində narazılıqlar müəyyən mənada konkret mərkəzlər tərəfindən məqsədli şəkildə dərinləşdirilirdi. Bu da öz növbəsində dövlət hakimiyyəti orqanlarının multikulturalizm siyasətinin səmərəsini məhdudlaşdırırdı. Bir çox hallarda dövlət ehtiyyatlı davranmağa üstünlük verirdi. Deməli, dövlət özünün multikulturalizm siyasətini cəmiyyətin çoxluq təşkil edən təbəqəsinin istəklərinə uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalırdı. Hakimiyyətin barışdırıcı, lakin birtərəfli mövqeyi əksəriyyətin mövqeyi ilə üst-üstə düşmürdü. Avstraliya multikulturalizminin əsas səciyyəvi cəhətlərindən biri kimi məhz bu məqamı qeyd etmək olar. Bundan başqa, immiqrantların özlərinin qeyri-adekvat davranışları da əksər hallarda cəmiyyətdə ciddi təhlükəsizlik və stabillik problemi yaradırdı. Məsələn; 2011-ci ildə Avstraliya sahillərində qeyri-leqal immiqrantları gətirən gəminin batması nəticəsində çoxsaylı təlafat olmuşdur. Avstraliya dövləti öz hesabına həlak olanların dəfn mərasimini təşkil etmişdir. Sidneydə həlak olanların yaxınları kütləvi ixtişaşlar törətmişlər. Onlar hesab edirdilər ki, dəfn mərasimi islam qaydalarına tam uyğun deyildir. Hətta, tələb edirdilər ki, həlak olanlar İraqa göndərilsin və orada islam qaydalarına uyğun şəkildə dəfn edilsinlər. Ümumiyyətlə, müsəlmanlar getdikcə daha intensiv və sərt şəkildə hakimiyyət orqanlarından narazılıqlarını bildirməyə başlayırdılar. Bütün bu amillərin təsiri altında Avstraliyada dövlət multikulturalizm siyasəti əsasən miqranlara deyil, ayrı-ayrı etnik qruplara yönəlik həyata keçirilirdi. Digər bir müşahidə olunan məqam ondan ibarət idi ki, ölkədə sosial-siyasi münaqişə vəziyyətinin əsasında etnik və konfesional motivlərin dayandığı ciddi-cəhdlə gizlədilirdi. Hesab olunur ki, belə kursun nəyin bahasına olursa, olsun saxlanılması vəziyyətin daha da mürəkkəbləşməsini şərtləndirirdi. Yəni, etnomilli və etnokonfessioanl zəmində ziddiyyətlər getdikcə daha dərinləşmişdir. Bu da sübut edir ki, Avstraliyada multikulturalizm sahəsində vəziyyət həqiqətən

mürəkkəbdir. Hökumət Avstraliyada etnik müxtəlifliyinin qorunub saxlanılmasına kursuna sadiqlik nümayiş etdirsə də, cəmiyyətin stabilliyinin və təhlükəsizliyinin təmin olunması naminə bəzi məqamlarla bağlı sərt addımlar atmağa başlamışdır. Məsələn; Avstraliya vətəndaşlığını alma şərtlərini kifayət qədər sərtləşdirmişdir. Belə ki, əvvəllər qayda və qanunları pozmadan 2 il Avstraliya İttifaqı ərazisində qalmaq tələb olunurdusa, sonra bu müddət dörd ilə qaldırılmışdır.

Avstraliyada multikulturalizmin xüsusiyyətlərini təhlil edərkən, həmçinin, vurğulmaq lazımdır ki, burada multikulturalizm siyasəti həm də bir növ seçki alətinə çevrilmişdir. Belə ki, siyasi liderlər multikulturalizm ideyalarını tam dəstəkləmədikləri təqdirdə belə, açıq şəkildə ona qarşı çıxmırlar. Belə ki, siyasi cəhətdən kifayət qədər fəal olan azlığın dəstəyini itirməkdən çəkinirlər. Təbii ki, belə yanaşmanın özü də multikulturalizm siyasətinin səmərəliliyini ciddi şəkildə azaldırdı. Yəni, cəmiyyətdə mədəniyyətlərarası dialoqun qurulmasından daha çox, siyasi məqsədlər uğunda fəaliyyət göstərilirdi. Multikulturalizm ideyalarının özü də daha çox siyasi motivlər əsasında dəstəklənirdi. Qeyd etmək lazımdır ki, etnik qrupların və ya diaspor rəhbərləri bu reallıqdan kifayət qədər “səmərəli” istifadə edirdilər. Deməli, multikulturalizm təkcə hakimiyyət orqanlarının və ya siyasətçilərin deyil, həm də etnik azlıqların liderlərinin əlində bir alətə çevrilmişdir. Belə ki, onlar multikulturalizmi öz diasporlarında və ölkənin ictimai strukturunda təsirlərini saxlamağın ən optimal variantı idi. Əksər hallarda etnik azlıqların liderlərinin mövqeyi siyasi kampaniyalar zaman həlledici amil rolunda çıxış edirdi.

Göründüyü kimi, əksər Avropa ölkələrində olduğu kimi, Avstraliyada da cəmiyyətdə etnik harmoniyanın yaradılması, müxtəlif mədəniyyət daşıyıcılarının hüquq bərabərliyinin təmin edilməsi əvəzinə, sadəcə, multikulturalizm mühitinin görüntüsünü yaratmağa çalışırlar. Bütün hallarda, Avstraliyada multikulturalizm ideyası tam dəstəyə malik deyildir. Hətta, hökumət orqanları tərəfindən multikulturalizm siyasətinin yenidən nəzərdən keçirilməsi cəhtləri aydın müşahidə olunmuşdur. Lakin bu cəhdlər həmişə cəmiyyətdə ciddi sosial-siyasi gərginliyi şərtləndirmişdir. Bu baxımdan, yaxın gələcəkdə multikulturalizm siyasətindən tam imtina haqqında danışmaq hələ tezdir. Digər bir reallıq da ondan ibarətdir ki, etnik azlıqlarla uzunmüddətli manipulyasiya Avstraliyanın daxili və xarici vəziyyəti üçün ciddi neqativ nəticələrə gətirib çıxara bilər. Ən təhlükəli məqam isə, artıq yuxarıda nəzərdən keçirdiyimiz kimi, britaniya identikliyinin ciddi-cəhdlə dəstəklənməsindən ibarətdir. Britaniya identikliyinin dəstəklənməsi o dərəcədə ciddi idi ki, bütövlükdə Avropa immiqrantlarının axınına məhdudiyyətlər qoyulması tələb olunurdu. Bununla yanaşı, qeyri-britaniyalı immiqrantlara birbaşa qadağa tətbiq olunmurdu. Avstraliyaya düşə bilmiş azsaylı qeyri-britaniyalılar və britaniyalı olmayan avropalılar Avstraliya cəmiyyətinə maksimum uyğunlaşmalı idilər. Deməli, əsas ideya britaniyalılaşdırmağa hesablanmışdır. Multikulturalizm siyasəti də bunun üzərində qurulmuşdur. Nəzərə almaq lazımdır ki, Avstraliyada britaniyalılaşdırma əsasən ingilis dili bilikləri çərçivəsini aşmırdı. Yəni, əsasən ingilis dilinin öyrənilməsi tələb olunurdu. Digər dəyərlərin də qəbul edilməsi məsələsində ciddi israr yox idi. Bu da, Avstraliya multikulturalizminin səciyyəvi cəhəti kimi nəzərdən keçirilə bilər. Məsələn; ABŞ-da tam assimlyasiya məsələsi xüsusi diqqət mərkəzində idi. Digər mədəniyyətlərin, dəyərlərin yerli mədəniyyət içərisində əridilməsi ABŞ multikulturalizm siyasətinin əsas hədəflərindən idi[1].

Avstraliyada multikulturalizm mühitinə təsir edən vacib məqamlardan biri də ondan ibarətdir ki, zaman keçdikcə, avstraliyalılar özlərini daha az britaniyalı hesab etməyə başlayırlar. Sadəcə olaraq, Avstraliyada daha çox Cənubi və Şərqi Avropadan gələn immiqrantlara daha çox üstünlük verilməsi tendensiyası müşahidə olunmuşdur və bu gün də müşahidə olunmaqdadır. Avropalıların isə, cəmiyyətdə tam “əridilməsi” hədəf kimi müəyyənləşdirilməmişdir. Avstraliyada multikulturalizm modelinin əsasən başlıca etnomədəni və etnokonfessional zəmində baş verən və verəcək ziddiyyətlərin aradan qaldırılması istiqamətində addımların atılması təşkil edir. Bu baxımdan, Avstraliyada multikulturalizm ideyasının yaranmasını və reallaşdırılmasını zərurətin diqtəsi kimi qiymətləndirmək mümkündür. Müvafiq olaraq, Avstraliya multikulturalizmini məhdud multikulturalizm kimi səciyyələndirə bilərik. Belə ki, cəmiyyətdə monomədəni iqlimin yaradılması istiqamətində real fəaliyyət həyata keçirilmir. Bununla yanaşı, mədəniyyətlərarası dialoqun zəif də olsa, təmin olunması istiqamətində müəyyən addımların atılması cəhdləri müşahidə olunur.

**Avstraliyada multikulturalizm siyasətinin perspektivləri**

Avstraliyada multikulturalizm siyasətinin perspektivlərindən bəhs edərkən, öncə vurğulamaq lazımdır ki, getdikcə ABŞ təcrübəsinin müəyyən təsirləri də sezilməkdədir. Avstraliya aborigenlərinin inkulturasiyasını təmin edəcək sosial proqramların işlənib hazırlanması da multikulturalizm siyasətinin perspektivli istiqamətlərindən biri kimi nəzərdən keçirilə bilər. Avstarliyada multikulturalizm siyasətinin yuxarıda çox da uğurlu olmayan təcrübəsinə baxmayaraq, reallıqlar bu sahədə ciddi tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu reallıq Avstraliya hökuməti tərəfindən də aydın dərk edilməkdədir. Avstraliya İttifaqında multikulturalizm sahəsinə aid çoxsaylı rəsmi sənədlərin qəbul edilməsi də gələcəkdə daha qəti addımların atılacağına dəlalət edir. Mədəni plüralizm məsələsində Avstraliyanın iki aparıcı partiyasının-liberalların və leyboristlərin konsensusa gəlməsi isə tarixi hadisə kimi qiymətləndirilməlidir. Çünki, bu, ondan xəbər verir ki, Avstraliya

cəmiyyətinin mədəni müxtəlifliyinin saxlanılması və inkişaf etdirilməsi alternativsiz yol kimi qəbul edilir. Qəbul edilmiş siyasi proqramların mahiyyəti ona yönəldilmişdir ki, etnik müxtəliflik pozitiv məqam kimi qiymətləndirilsin və dəstək alsın. Çünki, Avstraliya cəmiyyətinin inkişafında bu amilin təsirli rolu ciddi qəbul edilirdi. Məhz bu məqamdan çıxış edilərək, Avstraliya İttifaqının hər vətəndaşının mədəni identikliyi, sosial ədalət və iqtisadi uğuru təmin edən imkanlar diqqət mərkəzində saxlanılırdı. Avstraliyada aşağıdakı baza prinsiplərinə həssaslıqla yanaşılması multikulturalizm siyasəti sahəsində real uğur imkanlarının olduğuna dəlalət edir:

-konstitusiya;

-parlamentarizm;

-qanunun aliliyi;

-dözümlülük və bərabərlik;

-söz və din azadlığı;

-başqalarının fikir azadlığı və s.

Bütün hallarda qeyd olunan prinsiplərə istinad edərək, uğurlu multikulturalizm siyasətini həyata keçirmək və Avstraliya cəmiyyətində harmoniyaya nail olmaq mümkündür. Müvafiq sahədə təşkilati işlərin həyata keçirilməsi xüsusi multikulturalizmin xüsusi institusional strukturun yaradılmasını şərtləndirir. Bunları əsasən aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:[8, s.383]

-Dövlət institutları. Bunlara İmmiqrasiya, multikulturalizm və yerli əhalinin işləri üzrə nazirlik, Vətəndaşlıq və multimədəniyyət nazirliyi, Multimədəniyyət işləri üzrə idarə və s. Göründüyü kimi, multikulturalizm siyasətinin həyata keçirilməsində yaxından iştirak etmək imanlarına malik kifayət qədər dövlət institutları mövcuddur. Bütün bu institutlar etnik birliklərin inkişafını dəstəkləyəcək strategiyanı işləyib hazırlayırlar və həyata keçirirlər. Həmçinin, bu birliklərin ehtiyacları və mədəni inkişafları üçün büdcəni müəyyənləşdirirlər və bölgüsünü həyata keçirirlər;

-İctimai-hüquqi təsisatlar. Bunlara Radio verilişləri xüsusi xidməti, İctimai veriliş fondu, Bələdiyyə mədəni inkişaf üzrə İdarə, Avstraliyanın 200 illiyi multimədəni fondu və s. Bu təsisatlar Avstraliyanın etnik diasporlarının maraqları çərçivəsində konkret proqramların həyata keçirilməsinə görə məsuliyyət daşıyırlar. Məsələn; təhsil sahəsini əhatə edən, azlıqların dilində KİV, çoxailəli uşaqlara yardım və s.;

-Yerli özünü idarəetmə orqanları. Bu orqanlar mədəni təşəbbüslərə texniki dəstəyi həyata keçirir. Məsələn; milli məktəblər, mədəniyyət mərkəzləri və s. üçün binaların ayrılmasını təmin edir.

Göründüyü kimi, Avstraliya İttifaqında etnik azlıqların maraqlarını müdafiə edəcək və təmsil edəcək strukturlar bütün hakimiyyət instansiyaları səviyyəsini əhatə edir. Bu strukturlarının işlərinin uğurlu koordinasiya olunması və müxtəlif mədəniyyətlərin daşıyıcılarının maraqlarının uzlaşdırılması, müvafiq proqramların işlənib hazırlanması ölkədə multikulturalizm siyasətinin real uğurlarını təmin etmiş olar. Bu baxımdan, Avstraliyada multikulturalizm siyasətinin perspektivlərinin yüksək olduğunu əsaslandırmaq mümkündür.

**Nəticə.** Avstraliyada multikulturalizm siyasətinin həyata keçirilməsinin bir sıra səciyyəvi xüsusiyyətləri vardır. Bu səciyyəvi xüsusiyyətlər multikulturalizmin Avstraliya modeli ABŞ və Avropa ölkələrinin təcrübəsindən ciddi şəkildə fərqlənir. Belə ki, Avropa və ABŞ təcrübəsindən fərqli olaraq, Avstraliyada multikulturalizm cəmiyyətdə vahid mədəni dəyələr sisteminin yaradılmasına yönəldilməmişdir. Avstraliyada multikulturalizmin mahiyyəti də qismən fərqli tərzdə izah edilirdi. Belə ki, əsas diqqət bir növ avropalı çoxluğun hüquqlarının və maraqlarının asiyalı azlıq qarşısında müdafiə etmək elə multikulturalizmin əsl mahiyyəti kimi təqdim olunurdu. Avstraliyada cəmiyyətində etnomilli və etnokonfessional zəmində baş vermiş dərin ziddiyyətləri şərtləndirən əsas məqam da məhz bundan ibarətdir. Zaman keçdikcə ölkədə multikulturalizm siyasətinə yanaşma tərzində müəyyən dəyişikliklər müşahidə olunmuşdur. Ümumiyyətlə, Avstraliyada multikulturalizmin çox da uğurlu olmayan təcrübəsinə baxmayaraq, mövcud reallıqlar bu sahədə yaxşı perspektivlərdən xəbər verir. Başlıca məqam ondan ibarətdir ki, Avstraliya cəmiyyətinin inkişafı və təhlükəsizliyi üçün multikulturalizm alternativsiz hesab edilir. Bu da uğurlu multikulturalizm siyasəti üçün daha ciddi addımların atılmasını zəruri edir.

## ƏDƏBİYYAT


1. Австралийские закаты мультикультурализма// http://www.apn.ru/publications/article1711.htm (müraciət tarixi: 06.11.2017)
2. Гасымова Н.В. Мультикультурализм и толерантность как глобальный диалог в современном мире // Universum: Общественные науки: электрон. научн. журн. 2017, № 7(37), URL: http://7universum.com/ru/social/archive/item/5010 (müraciət tarixi:07.11.17)

3. Канарш Г. Ю.Мультикультурализм: социальная концепция и социальные практики// Знание. Понимание. Умение 2011, №1, s. 87-95(91)
4. Скоробогатых Н.С. Австралийский мультикультурализм: путь к гражданскому согласию или к расколу общества? // Обще- ственные науки и современность. 2004. № 1. 135-146.
5. Скоробогатых Н.С. Мультикультурализм в Австралийском Союзе: новый XXI век, старые проблемы// Идеология, история, культура, политика, экономика отдельных стран. 2011, №3, с.241-261(243)
6. British PM signals multiculturalism policy change// http://www.abc.net.au/news/2011-02-05/british-pm-signals-multiculturalism-policy-change/1930940 (müraciət tarixi: 07.11.2017)
7. MP 'defending Australia' against Muslim school// http://www.abc.net.au/news/2007-12-21/mp-defending-australia-against-muslim-school/994426 (müraciət tarixi: 07.11.2017)
8. Marr D., Wilkinson M. Dark Victory. Sydney, 2004, p. 383–384

**ABSTRACT**

**Jahangir Jahangir**

**AUSTRALIAN MODEL OF MULTICULTURALISM**

And the scientific article features of multiculturalism in Australia are considered. First of all, the multiculturalism essence reveals. It is noted that multiculturalism is a response to changes of ethnodemographic structure of society. Recognition of cultural pluralism considerably reduces conflictness in society. Both, and in Australia, the cultural policy serves in other countries to ensuring stability and development of society. In Australia such policy has the features. That is, the policy of multiculturalism in Australia is directed generally to protection of the European majority before Asian minority. It promotes increase in conflictness in society on ethnic grounds. Also Australian authorities show loyalty on the relation of immigrants. Various programs for ensuring cross-cultural dialogue in societies are developed. All these and other features of the Austrian model of multiculturalism are considered in the submitted scientific article.

**РЕЗЮМЕ**

**Джахангир Джахангирли**

**АВСТРАЛИЙСКАЯ МОДЕЛЬ МУЛЬТИКУЛЬТУРАЛИЗМА**

В научной статье рассматриваются особенности мультикультурализма в Австралии. Прежде всего, раскрывается суть мультикультурализма. Отмечается, что мультикультурализм-это ответная реакция изменениям этнодемографической структуры общества. Признание культурного плюрализма заметно сокращает конфликтность в обществе. Как в других странах, так и в Австралии, культурная политика служит обеспечению стабильности и развития общества. В Австралии такая политика имеет свои особенности. То есть, политика мультикультурализма в Австралии направлена в основном на защиту европейского большинства перед азиатским меньшинством. Это способствует повышению конфликтности в обществе на этнической почве. Также австралийские власти демонстрируют лояльность по отношению иммигрантов. Разрабатываются различные программы для обеспечения межкультурного диалога в общества. Все эти и другие особенности австрийской модели мультикультурализма рассматриваются в представленной научной статье.

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**NİLUFƏR AĞAYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*nuraagaoglu@gmail.com*

**UOT: 94(479.24)**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA ELMİN VƏ TƏHSİLİN İNKİŞAFI

**Açar sözlər:** *Heydər Əliyev, siyasi böhran, təhsil, elm, dövlət proqramları*
**Key words:** *Heydar Aliyev, political crisis, education, science, state programs The return of the great leader H Aliyev to political power*
**Ключевые слова:** *Гейдар Алиев, политический кризис, образование, наука, государственные программы.*

Azərbaycanda ali təhsil ocaqlarının və elmi-tədqiqat institutlarının yaradılması, xalqın təhsilə cəlb olunması, Elmlər Akademiyasının gərgin axtarışlarla zəngin fəaliyyəti bütün bunlar məhz XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda elmin və təhsilin sürətli inkişafını nümayiş etdirən təkzibedilməz faktlardır. Ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyətində elmə və təhsilə göstərilən qayğı həmişə mühüm yer tutmuşdur.

Hələ 1969-1982-ci illərdə Azərbaycanın şəhər, kənd və qəsəbələrində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəb tələbələrinin sayı 70 mindən 100 min nəfərə çatdırılmışdır. Yenə də həmin illərdə Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu ən dəyərli ənənələr sırasında gərəkli ixtisaslara yiyələnmək üçün azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi təcrübəsi xüsusi yer tutur. Dahi lider 1993-cü ilin sentyabrındakı çıxışında “Azərbaycan elmi inkişaf etməlidir” fikirlərini qeyd etmiş və o, məhz bu çıxışıyla elm və təhsilə ən yüksək qiyməti verməklə yanaşı, həm də onların perspektivlərinin çox uğurlu olacağını qeyd etmiş, o çətin şəraitdə bəlkə də heç kəsin ağlına gəlməyən elm və təhsil islahatlarının başlanğıcını qoymuşdur. Beləliklə, həyatımızın digər sahələrində olduğu kimi, burada da islahatların məhz 1993-cü ilin ikinci yarısından sonra başlandığını söyləyənlər, heç şübhəsiz ki, tamamilə haqlı idilər. Lakin onu da unutmaq olmaz ki, bu gün həmin islahatları hazırlayanlar və həyata keçirənlərin əksəriyyəti 1969-1982-ci illərdə elm və kadr potensialının yüksəldilməsini təmin etmək üçün həyata keçirilmiş tədbirlər nəticəsində yetişmiş yüksək ixtisaslı elm və təhsil nümayəndələridir (9).

1990-ci illərdəki siyasi böhran zamanı ölkədə geniş xalq kütlələrini bürümüş böyük ruh yüksəkliyi milli hərəkatın hərəkətverici qüvvəsinə çevrilmədi. Respublikada hələ təhsil konsepsiyası hazırlanmadan 1992-ci ildə 2-3 ay ərzində yaranıb qəbul edilən və tələsik icrasına başlanan “Təhsil Qanunu” təhsil sahəsində əsaslı islahatlar aparmaq üçün stimuldan daha çox əngələ çevrildi, bir sıra həlli müşkül yeni problemlər yaratdı. Belə ki, həmin qanunda normativ xarakterli müddəaların olmaması, bir çox maddələrin bir-birinə zidd olması, real inkişaf prosesinin nəzərə alınmaması nəticəsində müəllimlərin sosial vəziyyətini daha da ağırlaşdırdı, eyni zamanda sosial bəlaya çevrilmiş çoxsaylı qeyri-qanuni özəl təhsil müəssisələri açıldı. Həyat tezliklə bu qanunun dəyişdirilməsi zərurətini ortaya qoydu. Müstəqilliyin ilk illərində elm və təhsil sahəsini bürümüş böhran təhlükəli həddə - tənəzzül, dağılma, səviyyəsinə çatdı. Hələ 1970-80-ci illərdə həyata keçirilən və özünü doğruldan ümumi orta icbari təhsilin ölkənin iqtisadi durumunu nəzərə almadan “Təhsil Qanunu”nda 8 illik icbari təhsillə əvəz edilməsi orta təhsilə zərbə kimi və geriyə doğru addım kimi qiymətləndirilməlidir. Çünki ümumtəhsilin strukturunun dəyişdirilməsi və təhsilin məcmusunun zorla həmin struktura uyğunlaşdırılması heç bir qanunauyğunluğa əsaslanmırdı. Ona görə də bu struktur, hər şeydən əvvəl, təhsil islahatlarının aparılmasını ləngidirdi. Nəticədə ümumi təhsil depressiyaya, geriləməyə başlamışdı. Təhsil sahəsində böyük təcrübəyə malik olan Heydər Əliyev təəccüblənirdi ki, necə ola bilər ki, iki-üç ay içərisində “Təhsil Qanunu” kimi məsuliyyətli və dəqiqlik tələb edən bir qanun hazırlansın və qəbul edilsin. Ona görə də, mən bunu bizim təhsil işçiləri və cəmiyyətimiz üçün deyirəm, 1992-ci ildə iki-üç ayın içərisində “Təhsil Qanunu” qəbul edib və onu icra edərək Azərbaycanın təhsilinə zərbələr vurmaq Azərbaycan xalqına qarşı cinayət etmək deməkdir (4, s.115). Ümumlilli lider Heydər Əliyev sonrakı çıxışlarında da 1992-ci ildə təhsil sahəsində baş vermiş məsuliyyətsiz işlərə görə təəssüfləndiyini bildirirdi. Acı təcrübədən nəticə çıxarmağı məsləhət görür, təhsil sahəsində qəbul ediləcək qanunda və islahatlar proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərilməsini tələb edirdi.

1990-ci illərdəki hadisələr nəticəsində təhsil sahəsinə olduğu kimi elmə də dövlət qayğısı tamam unudulmuşdu, hətta elmin bu qayda ilə təşkilinin səmərəsizliyi, akademiyanın ləğv olunması haqqında fikirlər yayılmışdı. Alimlər cəmiyyətdə ən sayılmaz bir zümrəyə çevrilmişdilər. Onların bir hissəsi (təkcə Elmlər Akademiyasından 170 nəfər görkəmli alim) xarici ölkələrə getməyə məcbur olmuşdu. Elmi-tədqiqat işlərinə

gənclərin marağı xeyli azalmışdı. Lakin həqiqi elm fədailəri bütün çətinliklərə baxmayaraq, Azərbaycan elmini yaşadır, tədqiqat işlərini davam etdirirdilər. Heydər Əliyevin respublikaya rəhbərliyə qayıdışından sonra elm sahəsində də çox mühüm dəyişikliklər baş verdi. Alimlərin əməkhaqqları artırıldı, onların yaradıcılığına diqqət və qayğı ilə yanaşılmağa başlandı. Alimlər, tədricən cəmiyyətdə öz layiqli yerini tutdu. 1990-cı illərin ortalarında təkcə Elmlər Akademiyası sistemində 35 elmi-tədqiqat institutu vardı. Yeni "Milli münasibətlər", "Arxeologiya və etnoqrafiya" institutları (1992-ci il), İnsan Hüquqları İnstitutu (1998-ci il) təşkil olunmuşdu. 1997-ci ilin fevralında prezident Heydər Əliyevin alimlərlə görüşündə elmin strateji istiqamətləri açıqlandı. Elmlər Akademiyası Azərbaycan elminin, mədəniyyətinin inkişafında əvvəlki mövqeyini bərpa olunmağa başlandı (8,s.533).

Azərbaycan elminin, təhsilinin o illərdəki (1988-1992-ci illər) ağır, dözülməz vəziyyətini görmüş və yaşamış elm adamları, təhsil işçiləri, ziyalılar, müəllimlər taleyin hökmünə minnətdardırlar ki, elmin, təhsilin, mədəniyyətin böyük himayəçisi, əvəzsiz maarifpərvər Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı ilə bütün sahələrdə olduğu kimi, elm, təhsil və mədəniyyət sahəsində də tənəzzülün, böhranın, dağılmanın qarşısı alındı. Heydər Əliyev tərəfindən belə bir konsepsiya, strateji xətt hazırlanıb həyata keçirilməyə başlandı ki, dövlətin, dövlətçiliyin təməl prinsipləri içərisində milli təhsil, bəşəri elm və milli mədəniyyət müstəsna yer tutur. Prezident Heydər Əliyevin milli müstəqillik, milli dövlət quruculuğu strategiyasında belə bir ideya əsaslandırıldı ki, dövlət müstəqilliyinin əbədiliyinin, vətəndaş cəmiyyətinin demokratik inkişafının magistral yolu mütləq və mütləq milli təhsildən keçir, təhsil dövlətin təməl ünsürü, millətin gələcəyidir. Buna görə də o, prioritet sahə olan təhsilə, elmə, mədəniyyətə qayğını dövlətin əsas strateji xətti kimi ön plana çəkdi (6,s.380). Ulu öndər Heydər Əliyev milli təhsilin inkişafı və onun qabaqcıl dünya dövlətlərinin təhsil sisteminə inteqrasiyasını da ciddi vəzifə kimi müəyyənləşdirmiş, bu sahədə aparılacaq islahatların mahiyyətini açıqlamışdır. Ümummilli liderin irəli sürdüyü təhsil konsepsiyasının əsas qayəsini müstəqilliyin daha da möhkəmləndirilməsi, demokratik və hüquqi cəmiyyət quruculuğu prosesinin sürətlə həyata keçirilməsi, dövlətin iqtisadi potensialının gücləndirilməsi kimi prinsiplər təşkil etmişdir. Heydər Əliyev insan hüquq və azadlıqlarının təminatı baxımından vətəndaşların təhsil hüququnun reallaşdırılmasına böyük önəm verdiyini çıxışlarında hər zaman xüsusi vurğulamışdır.

Dahi lider Heydər Əliyevin səyləri nəticəsində Təhsil hüququ 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, Azərbaycan Konstitusiyasında hər bir vətəndaşın vacib hüquqlarından biri kimi elan olunmuşdur. Dövlət vətəndaşların pulsuz icbari, ümumi və orta təhsil almaq hüququnu təmin edir. Konstitusiyanın bu müddəası Azərbaycan Respublikasında təhsil fəaliyyətinin əsas prinsipidir (3)

Sonrakı illərdə də Heydər Əliyev elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn; 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir (1). Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır.

"Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur (1).

2002-ci ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 175 müxbir üzv, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı. Dahi liderin təşəbbüsü nəticəsində elmi-tədqiqat müəssisələrinin strukturu təkmilləşdirildi. 2002-ci ilin ortalarında bir sıra elmi-tədqiqat institutları birləşdirildi. Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" 7 avqust 2002-ci il tarixli sərəncamına əsasən AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. Bölmədə Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası fəaliyyət göstərirdi. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının status haqqında" 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə təsbit edildi ki, "Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətlərini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır". Dövlət başçısının Fərmanı ilə AMEA-nın Nizamnaməsi təsdiq olundu (2,s.347).

Qeyd olunduğu kimi, ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, hər hansı bir yerdə baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması mümkün deyil.

Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür.

Qeyd etmək lazımdır ki, təhsilə, elmə, mədəniyyətə böyük qayğı Heydər Əliyev şəxsiyyətinin aparıcı əlaməti, onun daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü olub, xalqını, millətini sivil dünyanın inkişaf etmiş xalqlarından biri kimi görmək istəyinin parlaq ifadəsi idi. Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənnlər üzrə respublika olimpiadaları, konfranslar, doktorantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə - ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər (7). Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Təhsilin milli tərəqqidəki böyük rolundan danışarkən dahi lider Heydər Əliyev deyirdi: “Təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü ikişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq” (6, s.373).

Heydər Əliyevin milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində başladığı islahatlar bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni məktəblərin tikilib istifadəyə verilməsi, köhnə məktəblərin yenidən qurulması, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılır. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında bölgələrdə müasir dövrün tələbləri səviyyəsinə cavab verən təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət yetirilmişdir. Sürətli iqtisadi inkişaf dövrünü yaşayan ölkəmizdə getdikcə təhsilə ayrılan vəsaitlərin həcmi artırılır, bu sahədə zamanın tələblərindən irəli gələn yeni islahatların həyata keçirilməsi üçün zəmin yaranır. Görülən işlərin real nəticələri isə həqiqətən də ürəkaçandır. Məsələn; Azərbaycanda təhsillə bağlı həyata keçirilən ən böyük tədbirlərdən biri orta ümumtəhsil məktəblərinin maddi-texniki bazasının yeniləşdirilməsi, o cümlədən, müasir informasiya-kommunikasiya vasitələri ilə təmin edilməsidir. Ölkə Prezidenti cənab İlham Əliyevin orta ümumtəhsil məktəblərinin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı proqramı uğurla icra olunaraq artıq başa çatdırılmışdır. Əsas məqsədi Azərbaycan Respublikasında yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltmək, vətəndaşlara təhsil almaqla bərabər müasir İKT-yə yaxından bələd olmaq və ölkə təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya mühitini yaratmaq, əhalini informasiyalaşdırılmış cəmiyyətə hazırlamaq olan bu proqram çərçivəsində bütün bölgələrdə orta tədris məktəblərinə müasir kompüterlər verilmiş, onların internetə çıxışı təmin edilmişdir.

Azərbaycanda təhsil sahəsində həyata keçirilən dövlət siyasətinə Heydər Əliyev Fondu da özünün dəyərli töhfələrini verməkdədir. Heydər Əliyev Fondunun milli təhsilimizin inkişafı ilə bağlı həyata keçirdiyi layihələr nəinki təhsil işçilərinin və şagirdlərin, hətta bütün ölkə ictimaiyyətinin dərin rəğbətinə səbəb olmuşdur. Heydər Əliyev Fondunun fəaliyyətində əsas istiqamətlərdən biri də təhsilin inkişafına töhfələr verməkdir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinin təqdimatına həsr olunmuş "dəyirmi masa"da çıxışında demişdir: "Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir" (5).

Təhsil və elmin inkişafı ilə bağlı dövlət başçısının təsdiq etdiyi müvafiq dövlət proqramları hazırda Azərbaycan hökuməti tərəfindən uğurla icra edilir. Bu proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını və.s. sahələri əhatə edir. Bu gün məhz ulu öndər Heydər Əliyevin miras qoyduğu, özündə yüksək norma və dəyərlər ehtiva edən ənənələr prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının yüksək diqqəti və effektiv göstərişləri əsasında atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrn qazanlmasına xidmət edir. Bu da heç şübhəsiz, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. Ümumiyətlə təhsilə və elmə çəkilən xərclər boşuna getmir. Çünki bu xərclər iqtisadi baxımından insanın gələcək gəlirlərinə qoyulan yatırımdır. Yüksək bilikli və savadlı insanlar ölkəmizin müstəqilliyinin davamlı olmasını və dünyada tanınmasını təmin edirlər.

## ƏDƏBİYYAT


1. Alıyev İ. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı, “Xalq” qəzeti,12 dekabr 2009
2. Azərbaycan tarixi, yeddi cilddə, VII cild (1941-2002-ci illər), Bakı, Elm, 2008, 608 s.
3. Budaqova S. Mütərəqqi təhsil strategiyasinin banisi, “Şərq” qəzeti 12 dekabr 2009
4. Əliyev Heydər “Təhsil millətin gələcəyidir” Bakı, 2002, 442 s.
5. Əliyev M. Heydər Əliyev elm və təhsilin, milli-mənəvi dəyərlərin himayədari idi. “Xalq” qəzeti, 27 aprel 2011.
6. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004, 472 s.
7. Muradov Ş. Heydər Əliyev Azərbaycan elminin hamisi idi. “Respublika”qəzeti, 12 iyul 2009
8. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı, Təhsil, 2009, 560 s.
9. Qarayev S. Müstəqil Azərbaycan elminin və təhsilinin memarı. “Respublika” qəzeti, 19 aprel 2013.


## ABSTRACT


**Nılufer Aghayeva**


### THE DEVELOPMENT OF SCIENCE AND EDUCATION IN AZERBAIJAN IN THE YEARS OF INDEPENDENCE


The article deals with the effects of the political crisis in the 1990s on all fields, as well as on education and science and the failure of the education reform adopted in 1992. The article also highlights the return of our great leader Heydar Aliyev to political power, and the importance of reforms that he made for the development of Azerbaijan education and science. The author emphasizes the impact of reforms implemented on the initiative of Heydar Aliyev on the development of national education, its integration into the education system of the leading countries of the world and the essence of reforms in this area. The article also provides information on the quantitative and qualitative improvement of the national cadre potential of our country as a result of state programs implemented by Ilham Aliyev in the field of education and science.


## РЕЗЮМЕ


**Нилуфер Агаева**


### РАЗВИТИЕ НАУКИ И ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ


В статье говорится о парализованном состоянии образования и науки как и других сфер в последствии политического кризиса 1990-х годов и безуспешного применения образовательной реформы, принятой в 1992 году. Отмечается значение проводимых реформ по развитию образования и науки в Азербайджане общенациональным лидером Гейдаром Алиевым после его прихода к политической власти. В статье особо подчеркивается сущность осуществляемых инициативой Гейдара Алиева реформ в области национального образования, его интеграции в образовательную систему передовых государств мира. Обосновывается мысль, что в результате проводимых Ильхамом Алиевым государственных программ в области образования и науки произошли количественное и качественное усовершенствование потенциала национальных кадров страны.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**SƏBUHİ İBRAHİMOV**
*AMEA Naxçıvan Bölməsi*

**UOT 13**

# NAXÇIVAN MÜHİTİNİN YARATDIĞI KİTAB VƏ KİTABXANA MƏDƏNİYYƏTİ

**Açar sözlər:** *Naxçıvan, kitab, kitabxana, mədəniyyət, tarix, əlyazma, mətn.*
**Key words:** *Nakhchivan, book, library, culture, history, manuscript, text.*
**Ключевые слова:** *Нахчыван, книга, библиотека, культура, история, рукопись, текст.*

Orta əsrlərdən başlayaraq Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyətinə maraq müasir günümüzdə də öz aktuallığını bir daha büruzə vermişdir. Vaxtilə Şərqin kitabxanalarını bəzəyən, zənginləşdirən Naxçıvan alimlərinin əlyazma kitabları zaman-zaman dövlətimizin göstərdiyi diqqət və qayğı nəticəsində alimlərimiz tərəfindən tədqiqata cəlb edilmiş və onlar üzərində filoloji və tekstoloji araşdırmalar aparılmışdır. Naxçıvana dair əlyazma mətnləri, kitab və kitabxana mədəniyyətinin yaranması, onların yaşamasını zəruri edən dini ocaqlar, məscidlər və xüsusən də mədrəsələrdə dərsliklərin, Azərbaycan, türk, ərəb və fars dillərində bir çox kitablar, toplular, cünglər, təzkirələr əlyazma kitabları şəklində köçürülüb çoxaldıldığı haqqında məlumat verilmişdir. Həmçinin islami dəyərlərlə bağlı dünyanın bir çox ölkələrinin müzey və kitabxanalarında saxlanılan qiymətli əlyazma əsərləri, xüsusən Azərbaycanın ən qədim əlyazması hesab edilən “Qurani-Kərim”in orta əsrlərdə yazılmış nüsxəsi Azərbaycanın Atabəylər dövləti hakimiyyəti illərində Naxçıvanda üzü köçürülmüş qiymətli sənət əsəri Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti abidələrinin zəngin xüsusiyyətlərindən xəbər verir.

“Tariximizin qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi-mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni səviyyəsindən xəbər verir. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, sistemli təlim-tərbiyə mədəniyyətinə, müalicə üsullarına sahib olduqlarını təsdiq edir” (3, s. 9).

2018-ci il üçün Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi münasibətilə keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: “İslam elm, mədəniyyət, sülh və mərhəmət dinidir. Mənəvi saflığa və ədalətə çağırışdır. Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam təhsilinin, elminin və mədəniyyətinin böyük rolu vardır. Bunun sayəsində qədim Naxçıvan şəhərində də zəngin tarixi-mədəni irs formalaşmışdır”.

Məhz bu baxımdan da islami dəyərlərdə ilk olaraq “oxu!” (1, s. 597) əmr edilən “Qurani-Kərim”in bəşəriyyətə buyurduğu söz, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 avqust 2017-ci il tarixi sərəncamı ilə bir daha aktuallaşmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların siyahısı” bir daha təsdiq edir ki, Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti fəlsəfəsi anlayışı nə qədər dərin və zəngindir. Tövsiyə olunan kitablar arasında haqlı olaraq Naxçıvan mühitinin yetirdiyi görkəmli şəxslər sırasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Nəsirəddin Tusi, Hüseyn Cavid, Mirzə Cəlil, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi kimi tanınmış simaların əsərləri öz layiqli yerini tapır.

Eyni zamanda ölkə rəhbəri cənab İlham Əliyevin verdiyi sərəncama əsasən Respublikanın bütün bölgələrində kitabxana sisteminin yenidən elektron formada hazırlanması mühüm əhəmiyyət kəsb etmişdir. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 2019-cu il tarixli sərəncamında deyilir: “Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində yeni, mütərəqqi və ölkənin bütün ərazisini əhatə edəcək kitabxana sisteminin yaradılması, habelə mədəniyyət və təhsil xidmətləri göstərən qurumların (mədəniyyət mərkəzləri, klublar, musiqi məktəbləri, rəsm qalereyaları və s.) fəaliyyətində səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlanması üçün aşağıdakı tərkibdə Komissiya yaradılsın”. Bu sərəncam ölkəmizdə kitab və kitabxana mədəniyyətinə verilən ən yüksək dəyərin aşkar nümunəsidir.

“Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti” anlayışı Naxçıvan mədəniyyət və ədəbiyyat tarixinin tərkib hissələrindən biridir. Dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ictimaiyyətinin özünəməxsus çox qədim və zəngin bir mədəniyyəti olmuşdur. Bu mədəniyyət tariximizin çox erkən dövrlərində yaranmış, tədricən inkişaf edib təkmilləşmiş,

dünya mədəniyyətinin nailiyyətlərindən istifadə edərək zənginləşmişdir. Naxçıvan mədəniyyəti dünyanın sivil xalqlarının mədəniyyətindən bəhrələndiyi kimi, yeri gəldikcə Naxçıvan əhalisinin mədəniyyətindən dünya xalqları da bəhrələnmişlər. Məhz buna görədir ki, xalqımızın mədəniyyəti milli olmaqla həm də ümumbəşəri əhəmiyyətə malikdir. Ümumiyyətlə Azərbaycan mədəniyyətinin mühüm tərkib hissələrindən biri kitab və kitabxana mədəniyyətidir.

Yazının meydana gəlməsi, əlifbanın yaranması, kitabın təşəkkülü və inkişafı, kitabxanaların yaranması xalqımızın mədəniyyət tarixinin inkişafında və formalaşmasında xüsusi yer tutur. Azərbaycan xalqının qədim tarixini vərəqləyərkən belə bir tarixi həqiqət ortaya çıxır ki, bu xalq hələ tarixin erkən çağlarından başlayaraq təhsilə, elmə, kitab və kitabxanalara çox böyük dəyər vermiş, onu qoruyub saxlamış, elm və mədəniyyətin inkişafı üçün əlindən gələni etmişdir. Dünya sivilizasiyasının başlanğıcı olan Şumerlərlə qonşu olmaq, onlarla mədəni əlaqələr yaratmaq erkən qədim Azərbaycan dövlətlərində elmin, mədəniyyətin inkişafına olduqca böyük müsbət təsir etmiş, yazı, kitab və kitabçılıq işinin əsası qoyulmuş, xalqımıza məxsus kitablar və kitabxanalar meydana gəlmişdir. Məhz buna görədir ki, Azərbaycanın ən qədim insan məskəni olan Naxçıvan çox qədim və qiymətli kitabları, zəngin kitabxanaları olan bir ölkə kimi tarixdə silinməz izlər qoymuşdur. Bu izlər bizi çox qədimlərə aparmaqla yanaşı eyni zamanda, Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti dünya şöhrətindən soraq verir. Xalqımızın yaratmış olduğu, bəşəri kitab xəzinəsinin bəzəyi olan "Avesta", "Kitabi-Dədə Qorqud" və s. kitablar göz önünə gəlir. Belə ümumbəşəri əhəmiyyətə malik kitabları yaratmış xalqın ölməzliyi və müdrikliyi insanı valeh edir. Orta əsrlərdə də Naxçıvan mühitinin yaratdığı kitab mədəniyyəti böyük nailiyyətlər əldə etmişdir. Xalqımız bəşəriyyətə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Qətran Təbrizi, Əsədi Tusi, Nəsirəddin Tusi, Əkmələddin Naxçıvani, Hinduşah Naxçıvani, Nemətullah Naxçıvani kimi yüzlərlə böyük mütəfəkkir şairlər bəxş etmişdir ki, onların əsərləri bəşər mədəniyyətinin inciləri sırasına daxil edilmiş və bir neçə yüzilliklərdir ki, bəşəriyyətə xidmət edir. "Nemətullah Naxçıvaninin ölməz əsərləri, elmi fəaliyyəti və fəlsəfi fikirləri doğma Naxçıvanımızın bu günü və gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Məkan və zaman baxımından yazan tanınmış tədqiqatçı alimlərin verdiyi əsas mənbələrin axarını B.N.Naxçıvanidən bəhs edərkən onu «möhtəşəm üslub gözəlliyinə sahib təfsir alimi» və «rəbbani elmlərdə mütəbahhir bir mütəsəvvüf» kimi tanıdırlar" (4, s. 11).

Xalqımızın yaratmış olduğu bu qiymətli tarixi, ədəbi-bədii, elmi, fəlsəfi yadigarların, milli sərvətimiz olan kitabların toplanıb saxlanılmasında, nəsildənnəslə çatdırılmasında kitabxanalarımız əvəzsiz rol oynamışdır. Gil lövhələrindən ibarət olan kitabları, papirus kitabları, perqament kitabları və nəhayət, kağız üzərində yazılmış kitabları öz fondunda toplayıb saxlayan kitabxanalarımız böyük tarixi yol keçmiş zəmanəmizə qədər gəlib çıxmışlar.

Dünya kitab və kitabxana tarixindən məlum olduğu kimi, insan yaradıcılığının daşıyıcıları yazı materiallarından asılı olaraq öz formasını dəyişməyə məcbur olmuşdur. Bizim eradan 4 min il əvvəl piramidalar ölkəsi olan Misirdə yazının kəşfi dünya sivilizasiyasının, dünya mədəniyyətinin inkişafı tarixində böyük inqilabi hadisə kimi qarşılandı. Yazının kəşfi insan zehninin, düşüncəsinin, yaddaşının əbədiləşdirilməsi, mənəvi sərvətlərin qorunub saxlanması, nəsildən-nəslə çatdırılması, dünya elminin tərəqqisi üçün əvəzsiz bir vasitəyə çevrildi. Qədim insanlar yazını kəşf etdikdən, yazmaq texnikasına yiyələndikdən sonra nəyin üzərində və necə yazmaq haqqında da düşünməyə başlamış və əsrlər keçdikcə yeni-yeni yazı materialları kəşf etmiş, tarixi təkmilləşmə prosesində bu mühüm işi tədricən inkişaf etdirməyə müvəffəq olmuşlar. "Xatırlayaq ki, insanın təşəkkülündən yazının meydana gəlməsinə qədər 3 milyon il keçmişdir. Yazıdan çapa keçmək 5 min il müddətində olmuşdur. 500 il ərzində səsli yazı və televizor yaranmışdır. Bu mərhələdən kompüter səviyyəsinə küçmək üçün cəmisi 40 il kifayət etmişdir. Beləliklə, XX əsr ərzində bəşəriyyətin əvvəlki tarixində olduğundan çox elmi kəşflər edilmiş və daha çox texniki qurğular yaradılmışdır" (5, s. 399-400).

"Naxçıvanda uçuq evin divarı içindən çıxarılmış perqamen yazı qalıqlarının mənşəyi hələ də dəqiqləşdirilməmişdir. Naxçıvanda tapılan bu nadir əlyazma nümunəsinin ayrı-ayrı vərəqləri AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır" (2, s. 38). Bu cür qiymətli perqamen yazıların tapılması ilə yenə də Naxçıvan ərazisində kitabxanaların təşkili çox qədim zamanlara gedib çıxdığından ilk kitabxananın nə vaxt və harada yaranması haqqında məlumat vermək çəlindir. Naxçıvan ərazisində orta əsrlərdə hökmdarların saraylarında, dini tədris müəssisələrində zəngin kitabxanaların yaranması və fəaliyyəti haqqında, həmçinin görkəmli alimlərin şəxsi kitabxanaları haqqında qiymətli faktlar vardır. Bıı kitabxanaların tarixinin tədqiq edilib öyrənilməsi mədəniyyətimizin daha da zənginləşməsinə səbəb olan amillərdəndir. Məhz buna görədir ki, milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxana tarixinin tədqiq edilib öyrənilməsi mədəniyyət və kitabxana tarixçilərimizin qarşısında duran mühüm vəzifələrdəndir. Kitabxana tarixi mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olduğu kimi kitabxanaşünaslığın da strukturuna daxildir. Ona görə də kitabxana tarixi həm mədəniyyət tarixçiləri tərəfindən ümumi planda, həm də kitabxana tarixçiləri tərəfindən xüsusi, daha geniş həcmdə tədqiq edilib öyrənilir. Bu gün böyük məmnuniyyətlə xalqımızın tarixinə və mədəniyyət tarixinə dair qiymətli əsərlər yazmış, xalqımızın tarixini yaratmış bu unudulmaz insanlara, elm

və mədəniyyət xadimlərinə öz dərin minnətdarlığımızı bildirməliyik. Həmçinin bu araşdırmaları apararkən əsərlərindən geniş surətdə bəhrələndiyim görkəmli alimlərimizdən akademik Z.Bünyadov, akad. İ.Həbibbəyli, AMEA-nın müxbir üzvü, prof. Ə.Mirəhmədov, akademik N.Vəlixanlı, akad. T.Kərimli, akad. M.Nağısoylu, AMEA-nın müxbir üzvü, prof. H.Səfərli, prof. S.M. Onullahi, prof. Y.Yusifov, prof. C.Zeynalov, prof, A.Allahverdiyev, prof. K.Şərifli, prof. M.Adilov, prof. S.İbrahimov, prof. A.Xələfov və başqalarına öz minnətdarlığımı bildirir və dünyasını dəyişənlərə isə Allahdan rəhmət diləyirik.

Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti anlayışı Naxçıvan mədəniyyət və ədəbiyyat tarixinin tərkib hissələrindən biri olmuş, dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan və onun tərkib hissəsi hesab edilən Naxçıvan ictimai mühitinin özünəməxsus qədim və zəngin bir mədəniyyəti olmuşdur. Çünki kitab həyat kimidir, kitabın içində isə həqiqətləri yaşayırıq, doğrunu və çatışmamazlığı ayırd edə bilirik. V.Q.Belinski düşüncəsi ilə desək - "Öz kitabxananı ancaq çoxlu kitab sahibi olmaq üçün deyil, əqlini maarifləndirmək, ürəyini gözəlləşdirmək, ruhunu böyük dahilərin yaradıcı əsərləri ilə yüksəltmək üçün çoxaltmalısan" (6, s. 284).

## ƏDƏBİYYAT

1. "Qurani-Kərim" (tərc. Bünyadov Z. Məmmədəliyev V.) Bakı: Elm, 1992, 714 s.
2. Adilov M.İ. Azərbaycan paleoqrafiyası. Bakı: Elm, 2010, 224 s.
3. Hüseynzadə R.L. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı: MBM, 2005, 256 s.
4. İbrahimov S.M. Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi. Naxçıvan: Əcəmi, 2018, 104 s.
5. İmanov H.R. Fəlsəfə, (mühazirə kursu) Bakı: Turan evi, 2005, 420 s.
6. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi: Dərslik. 2 hissədə. I hissə. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004, 328 s.

## ABSTRACT

**Sabuhi İbrahimov**

**BOOK AND LIBRARY CULTURE CREATED BY THE NAKHCHIVAN ENVIRONMENT**

The article examines the book and library culture created by Nakhchivan in the millennium and have been received information on its rich history. As a result of the investigations it became clear that the manuscript texts on Nakhchivan form the basis of the book and library culture in Azerbaijan. The medieval version of the Quran, considered to be the oldest manuscript in Azerbaijan, is a vivid example of this valuable artistic work depicted in Nakhchivan in the years of the Atabeyler state of Azerbaijan.

The concept of "book and library culture created by the Nakhchivan environment" was also considered as an integral part of Nakhchivan's culture and literature history, an ancient human settlement.

## РЕЗЮМЕ

**Сабухи Ибрагимов**

**КНИЖНАЯ И БИБЛИОТЕЧНАЯ КУЛЬТУРА, СОЗДАННАЯ НАХЧЫВАНСКОЙ СРЕДОЙ**

В статье рассматривается литературно-библиотечная культура, созданная Нахчываном в тысячелетии, и получена информация о ее богатой истории. В результате исследований выяснилось, что рукописные тексты о Нахчыване составляют основу книжной и библиотечной культуры в Азербайджане. Средневековая версия Корана, которая считается самой древней рукописью в Азербайджане, является ярким примером этого ценного художественного произведения, изображенного в Нахчыване в годы государства Атабейлер в Азербайджане.

Понятие «книжная и библиотечная культура, созданная нахчыванской средой» также рассматривается как неотъемлемая часть истории и литературы Нахчывана, древнего человеческого поселения.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**MƏHƏMMƏD ƏKBƏROV**
*Bakı Ağır Cinayətlər Məhkəməsi*
*court.akberov@gmail.com*

**UOT: 930.26**

# AZƏRBAYCANIN DÖVLƏT QURUCULUĞU MODELİNİN ÜÇ ƏSAS DETERMİNANTI

**Açar sözlər:** *milli dövlət quruculuğu, konsept, kataklizm, geosiyasi aktor, regional inteqrasiya*
**Key words:** *national state building, concept, cataclysm, geopolitical actor, regional integration*
**Ключевые слова:** *национальное государственное строительство, концепт, катаклизм, геополитический субъект, региональная интеграция.*

*Giriş.* XX əsrin sonlarına doğru dünya səviyyəsində gedən proseslər öz təsir dinamikasına görə olduqca aktiv və idarəolunması mümkün olmayan dramatik proseslərə assosiasiya olunurdu. Qlobal səviyyədə gedən proseslərin siyasi qərarları üstələdiyi bir dövrdə, xüsusilə SSRİ-in süqutu ilə paralel qlobal siyasətdə baş verən dəyişikliklər dünya siyasətində kataklizmləri meydana çıxardı. Dünyanın gələcəyi ilə bağlı nikbin proqnozlarla paralel amerikan–rus münasibətlərinin gələcəyi fonunda aktiv hərbi toqquşma ssenariləri belə gündəmə gəlirdi. Xüsusilə post sovet məkanında baş verən proseslər və postsovet məkanının yeni geosiyasi şərtlərə adaptasiyası məsələləri aktuallıq kəsb edirdi. Yeni müstəqillik əldə etmiş respublikalarda gedən ictimai, siyasi proseslər, millətçilik tendensiyasının yüksəlişi, milli və dini zəmində qarşıdurmalar artmaqda idi. *Belə bir məqamda faktiki olaraq Cənubi Qafqaz başda olmaqla Orta Asiya və Şərqi Avropada etnik münaqişələr transformasiya olunaraq daha təhlükəli vəziyyət yaratmışdır.* Bütün bunlarla bərabər Rusiyanın yeni geosiyasi vəziyyətə adaptasiyası ilə bağlı irəli sürülən konsepsiyalar bir çox halda öz məntiqi nəticəsini doğurmurdu.

Belə bir şəraitdə Avrasiyanın geosiyasi plasdarmında köhnə dünyanın vərdişlərinin inkar olunduğu geosiyasi mühitdə bütün tərəflər qeyri-müəyyən vəziyyətdə öz mövqelərinin interpertasiyası ilə məşğul olduğu bir vaxtda, paralel müstəvidə gələcəklə bağlı milli qorxu hissinin yaratdığı təşviş siyasi baxışlara təsir etməkdə idi. Doğru qərarların verilməsi məsələsi artıq ciddi problemə çevrilmiş, hətta dünyanın ən inkişaf etmiş ölkəsinin siyasi rəhbərliyi belə qeyri-müəyyənlik içində idi. Konkret olaraq ABŞ prezidenti Corc Buş Ukraynaya səfəri zamanı kütlələrin qarşısında çıxış edərkən qeyri–ixtiyarı olaraq Ukraynada baş verən prosesləri, milli müstəqillik arzularını SSRİ-in "daxili işi" adlandırmışdı. Digər tərəfdən Avropa İttifaqının gələcəyi ilə bağlı dəqiq planlar olsa da, gələcəyə hesablanmış perspektiv model tam müəyyən deyildi. Zbiqnev Bjeziniskinin dediyi kimi, SSRİ-in süqutu ilə bir zamanlar onun hakim olduğu ərazilərdə "qara dəlik" yaranmış, sanki Avrasiyanın mərkəzi və Cənub Şərq hissəsi yerin dibinə batmışdır.

SSRİ-in süqutu prosesi öz nəhəngliyinə görə dünyanın ən böyük sonuncu imperiyasının sürətlə dağılması planında qeyri adi hadisə idi. SSRİ-in dağılması nəticəsində yaranmış yeni milli dövlətlər yeni dünyanın siyasi və geosiyasi şərtlərinə adaptasiya olmağın yollarını axtarırdı. Paralel müstəvidə postsovet ərazilərində yenindən imperiyanı bərpa etməyə çalışan postkommunistlər inadkar görsənirdi. Məhz dünya siyasətində baş verən bu mürəkkəb proseslər fonunda yenicə müstəqillik əldə etmiş dövlətlərin daxilində baş verən prosesləri düzgün qiymətləndirmək isə olduqca çətin idi. Çünki bu respublikalara yardım etmək zərurət idi və bir çox halda bu prosesi qərb ritorikası ilə paralel (liberal demokratiya, humanizm və s. kimi) regionun geosiyasi vəziyyətini nəzərə almaqla həyata keçirmək olardı.

Məhz Azərbaycanın milli müstəqilliyinə gedən yol yuxarıda qeyd olunan qlobal geosiyasi proseslərə intellektual reaksiya fonunda həyati əhəmiyyət daşıyırdı və müvafiq olaraq daxili siyasi proseslərlə paralel regional proseslərin təsir aspekti düzgün müəyyən olunmalı idi. Xarici siyasət daha çox daxili siyasi proseslərdən asılı olaraq formalaşa bilərdi ki, həmin dövr Azərbaycandakı ictimai siyasi vəziyyət nəzərə alındıqda bu olduqca çətin missiya idi. Məhz belə bir dövrdə tarixi şəxsiyyət Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı son nəticədə fundamental problemlərə münasibətdə köklü islahatları siyasətin predmetinə çevirdi. Radikal islahatlar hesabına bütün sahələr üzrə yenidənqurma siyasəti geniş vüsət aldı. Milli dövlət konseptinin Azərbaycan modeli, prioritetləri müəyyənləşdirildi. Xüsusilə Azərbaycanın dövlət müstəqilliyini təhdid edən potensial risklər nəzarətə götürüldü və ölkənin inkişafı üçün dövlət siyasəti tam şəkildə müəyyən edildi.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan və müasir dövrdə də müstəqil siyasi sübyekt kimi regional və beynəlxalq siyasətdə fəallıq nümayiş etdirən Azərbaycan Respublikası tarixi şərait baxımından özünün ən güclü dövrünü yaşayır. Müasir Azərbaycan dövləti çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək güclü dövlət konsepti - prinsipi çərçivəsində milli müstəqilliyinin qarantı olan, iqtisadi, siyasi və hərbi-strateji planda dünyanın ən inkişaf etmiş dövlətlərinin həyata keçirdiyi siyasi konsepsiyalara müraciət edir. Demokratik hüquqi dövlət quruculuğu prosesi ilə paralel, dayanıqlı milli iqtisadi sistemi ilə, hərbi-strateji planda texnoloji üstünlüyə istinad edən gənc respublikanın inkişaf tempi bu gün bütün dünya dövlətləri tərəfindən heyranlıqla izlənilir. İqtisadi və siyasi sabitliyin, milli birliyin və dəqiq geosiyasi hədəflərin işığında müasir Azərbaycan dövləti qarşıya çıxan bütün problemlərin öhdəsindən gəlmək qüdrətinə malikdir.

Azərbaycanın iqtisadi və siyasi inkişafı onun potensialını nəinki şişirdir, eyni zamanda qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi planında proqressiv inkişaf konsepsiyasını şərtləndirir. Beləliklə Azərbaycan tarixi şərait baxımından digər ölkələrin 50 ilə keçdiyi yolu əsrin üçdə biri qədər az vaxta qət edə bilmişdir. Nəticədə güclü dövlət konseptinin Azərbaycan modeli nümunəvi və öz qurucu missiyasına görə konseptual və praqmatik sistem təsəvvürü bağışlayır. Bu səbəbdən bu sistem unikal və öz xarakterinə görə *rasional realizm konsepsiyasına* uyğun modeldir. Lakin bu reallıq heç də təsadüfi xarakter daşımır. Güclü dövlət konsepti dayanıqlı inkişafın və dəqiq planlara istinad edən düşünülmüş siyasətin məhsuludur. Ümumiyyətlə Azərbaycanın müstəqilliyi ilə onun qorunub saxlanılması prosesi tamamilə fərqli aspektləri meydana çıxardır. *Tarixi şəraiti düzgün qiymətləndirmək bacarığının yoxluğu nəticəsində Azərbaycanın milli müstəqilliyi de-fakto təhlükə qarşısında idi. Müstəqilliyinin ilk illərindən başlayaraq qarşıya çıxan taleyüklü məsələlərə siyasi rəhbərliyin qeyri-peşəkar münasibəti, ölkədə və regionda gedən proseslərə intellektual reaksiya verə bilməməsi və geosiyasi şərtlərin təsiri gənc respublika üçün təhlükəli vəziyyət yaratmışdır.* Xüsusilə geosiyasi vəziyyətin düzgün qiymətləndirilməməsi şəraitində xarici siyasətdə perspektivsizlik reallıq idi. Belə bir şəraitdə Azərbaycan xalqının yetişdirdiyi güclü siyasətçi Heydər Əliyev siyasi mərkəzə, Bakıya dəvət olundu. Şübhəsiz təcrübəli siyasətçi Heydər Əliyev Azərbaycanı bu ağır vəziyyətdən qurtara biləcək yeganə şəxsiyyət kimi qəbul olunurdu. Bütün bunların fonunda Azərbaycanda həyatın müxtəlif istiqamət-lərində radikal islahatların həyata keçirilməsi prosesi geniş vüsət aldı.

İqtisadi inkişaf elə bir strategiya idi ki, o, həm daxili siyasi sabitliyi və eyni zamanda dövlətin ümumi inkişafını potensiallaşdıra bilərdi. Paralel müstəvidə iqtisadi inkişaf strategiyasının təsiri fonunda geosiyasi üstünlük əldə etmək mümkün idi. Bu kontekstdə ilk öncə iqtisadi islahatlar prinsipial şəkildə davam etdirilirdi. Paralel müstəvidə Azərbaycan özünün enerji siyasətini beynəlxalq səviyyədə qlobal geosiyasi və iqtisadi proseslərin təsir aspektini nəzərə alaraq formalaşdırırdı. Enerji siyasətinin prinsiplərini müəyyən etmək üçün ilk öncə geosiyasi təhlükəsizlik və regional əməkdaşlıq siyasəti prioritet hesab edilən sahələr kimi işlənilib hazırlandı. Paralel müstəvidə dövlət siyasətinin prioritetlərinə uyğun olaraq rəsmi Bakının həyata keçirməyi planlaşdırdığı enerji siyasəti ABŞ və Aİ-ın maraqlarına uyğun idi, həmçinin Orta Asiya respublikalarının geoiqtisadi və geosiyasi transformasiyası üçün konseptual xarakter daşıyır [1].

Nəticədə Avro-Atlantik strukturlarla sıx əməkdaşlıq şəraitində Azərbaycan özünün iqtisadi və siyasi maraqlarını əsas götürərək milli neft strategiyasını prioritet seçdi. *Daxili qaydada bu siyasət iqtisadi müstəqillikdən geosiyasi aktora doğru mili dövlətin konseptual strateji davranışını ortaya qoyur və iqtisadi müstəqilliklə geosiyasi uğur arasında incə məqamları uzlaşdırır. Bu siyasəti eyni zamanda harmonik inkişaf konsepsiyası kimi xarakterizə etmək mümkündür.* Bu siyasət elə bir geosiyasi üstünlük kompleksini meydana çıxarmışdır ki, artıq həm beynəlxalq münasibətlər sistemində, həm də regional səviyyədə Azərbaycanın milli dövlət maraqları və onun geosiyasi əhəmiyyəti bütün istiqamətlərdə nəzərə alınırdı. İlk öncə etiraf etmək lazımdır ki, bu siyasət bir sıra mühüm qərarların, radikal islahatların həyata keçirilməsi fonunda həyat qabiliyyətli olmuşdur. Birincisi geosiyasi təhlükəsizlik bir çox halda Azərbaycanın fəaliyyətindən və ya fəaliyyətsizliyindən asılı deyildir. Bütün bunlar qlobal geosiyasi proseslərin təsiri kontekstində, transatlantik və transavrasiya geostrategiyası fonunda ABŞ-Rusiya münasibətlərinin qarşılıqlı təzahürü idi.

Bütün bunlarla bərabər Azərbaycan regionun təhlükəsizliyi fonunda, regional dövlətlərlə çoxtərəfli qarşılıqlı etimada söykənən münasibətlər sistemini formalaşdırmaq yolu ilə (*xüsusilə bu siyasət Azərbaycanın suveren hüquqlarına hörmət fonunda həyata keçirilirdi)* unikal balans strategiyasının prinsiplərinə uyğun olaraq strateji komponentləri düzgün və ardıcıl formada tətbiq edə bilməli idi. Beləliklə iqtisadi müstəqillikdən geosiyasi aktora doğru addımlayarkən milli dövlət bir neçə mühüm komponenti nəzərə almalı olmuşdur.

1. Regional dövlətlərin ümumi maraqlarının nəzərə alınması, *həm qarşılıqlı münasibətlərin funksionallığı, həm də regionun geosiyasi və geoiqtisadi parametrləri konteksində* geosiyasi transformasiyaya və yaxud ümumi təhlükəsizliyin konsolidasiyasına zəmanət verə bilərdi.

2. Beynəlxalq siyasi vəziyyətin düzgün qiymətləndirilməsi fonunda çoxqütblü sistemin konfiqurasiyası unikal balans siyasəti üçün metodoloji və praktiki baxımdan adekvat olmalı idi. Yəni xarici siyasət beynəlxalq siyasi sistemin nəzəri-fundamental və praktiki-funksional xüsusiyyətini dərk edə bilməli idi.

3. Xarici siyasət regional səviyyədən beynəlxalq sistemə doğru inteqrasiya xarakterli olmalı idi və onun ümumi məqsədi beynəlxalq sistemin prinsipləri ilə regional sistem arasında kombinasiya yaratmaqdan ibarət olmalı idi. Beləliklə iqtisadi inkişaf və onun təsiri aspektində regional və beynəlxalq siyasət üçün əhəmiyyətli problemləri dövlət maraqlarının təşkili kontekstində səfərbər etmək xarici siyasət üçün prioritet təşkil edirdi [2].

Azərbaycanın müraciət etdiyi regional inteqrasiya formulu (iqtisadi, siyasi və mədəni kulturoloji planda) geosiyasi təhlükəsizliyə zəmanət verə bilərdi. Bunun üçün ilk öncə ölkənin iqtisadi immunitetini formalaşdırmaq qarşıya prioritet məqsəd olaraq qoyulmuşdur. Ölkənin ümumi iqtisadi inkişaf göstəriciləri regional inteqrasiya üçün stimullaşdırıcı xarakter daşıyanda, artıq məlum oldu ki, bu siyasət uzaq perspektivdə daha böyük nəticələrə səbəb olacaq. İqtisadi inkişafın Azərbaycan modeli bir neçə istiqamətdə aparılırdı. İlk öncə özələşdirmə siyasəti geniş vüsət aldı. Sahibkarlığın inkişafı və özəl mülkiyyətin toxunulmazlığı ilə bağlı hüquqi-prosedur mexanizimlər, qanunvericilk bazası yaradıldı. Proses təkminləşdirilərək davam etdirildi. Bu gün də bu proses davam etdirilir. Paralel müstəvidə ölkənin milli iqtisadi inkişaf strategiyasına uyğun olaraq xarici sərmayənin təşviqi prossesinə start verildi.

Bu olduqca mürəkkəb proses idi. Xarici sərmayənin dəstəklənməsi prosesi içtimai-siyasi və ümumən geosiyasi proseslər nəzərə alındıqda müəyyən mənada riskli hesab olunurdu. Xüsusilə qeyri-neft sektorunda bu proses daha qabarıq şəkildə özünü göstərirdi. Lakin düşünülmuş siyasət nəticəsində içtimai-siyasi sabitliklə paralel regional təhlükəsizliyin təşkili prosesində rəsmi Bakı prinsipal siyasət yürüdürdü və böyük ehtimalla bu prinsipiallıq regionda xarici qüvvələr tərəfindən dəstəklənirdi. Çünki Azərbaycanda həyata keçirilən tarixi reformlar paralel müstəvidə regional səviyyədə həyata keçirilən siyasətlə parallelik təşkil edirdi. Xüsusilə 1994-cü il Ermənistan-Azərbaycan arasında bağlanmış sülh sazişi geostrateji planda gələcək perspektivin modelini, onun əsas determinantını müəyyən etdi. Beləliklə iqtisadi inkişaf kompleks şəkildə böyük strategiyanın, inkişafın Azərbaycan modelinin əsas determinatı idi. Lakin iqtisadi inkişafla paralel siyasi və təhlükəsizlik sahəsində problemlər qalmaqda idi.

Xüsusilə 1995-ci ildən 2000-ci ilə qədər olan dövr dünya siyasətində yeni tendensiyaların, çoxqütblü sistemdə formasiya prosesi ilə xarakterizə olunurdu ki, bu zaman bir çox aspektdə həm regional həm də beynəlxalq səviyyədə praqmatik siyasət həyata keçirmək çox çətin məsələ idi. Bütün bunlarala paralel iqtisadi inkişaf strategiyasını və onun Azərbaycan modelini təşkil etmək üçün regiona xas fundamental problemlərə intelektual reaksiya tələb olunurdu. İntensiv olaraq region (paralel müstəvidə beynəlxalq səviyyədə) etnik separatizmin, dini və milli zəmində tarixi konfliktlərin məkanı idi və belə bir mürəkkəb regionda dayanıqlı iqtisadi inkişafı təmin etmək çətin proses idi. İkincisi isə dünyanın iki süper dövlətinin qarşılıqlı maraqaları fonunda unikal balans formulu üçün sistemin elmentlərini inteqrasiya etmək olduqca çətin missiya idi.

Beləliklə üç istiqamətdə gərgin əmək tələb olunurdu. Birincisi içtimai-siyasi sabitliyin təşkili fonunda dövlət quruculuğu prosesi ilə paralel iqtisadi inkişaf strategiyası ardıcıl şəkildə aparılmalı idi. İkincisi geosiyasi və beynəlxalq səviyyədə gedən proseslər düzgün təhlil edilməli idi. Üçüncüsü isə gələcəyin perspektivini formalaşdıran digər resurslar: təhsil, elm, siyasi və hüquqi islahatlar və s. konseptuallıq kəsb etməli idi. Beləliklə konkret faktlar qismində Azərbaycanın iqtisadi-siyasi inkişaf modelinin əsas prinsiplərinin, konturlarının, regional və beynəlxalq siyasətə dair konseptual xarakterli proqramların, onların həyata keçirilmə mexanızimlərinin və s. təhlili fonunda tarixi keçmişə qısa ekskursiya etməklə bu siyasətin nə dərəcədə önəmli olduğunu sübut edə bilərik.

Qlobal geosiyasi hadisələrin təsiri altında milli dövlət quruculuğu prosesi mühüm geostrateji və geosiyasi kataklizimləri, *beynəlxalq siyasi vəziyyəti və s. fundamental-arxaik problemlərin* nəzərə alınmasını tələb edir. Xüsusilə SSRİ-in süqutu ilə meydana çıxan mürəkkəb xaotik mərhələdə - *yeni dünya sistemi kimi xarakterizə olunan beynəlxalq siyasi münasibətlər sisteminin anarxik realıqları konteksində*-milli müstəqilliyi əldə etmək və qorumaq olduqca çətin proses idi [3]. Paralel müstəvidə beynəlxalq təşkilatların strukturunda aprılan islahatlar bir çox halda qarşıya qoyulan məqsədin həyata keçirilməsi planında effektiv, demokratik nəticəni hasil edə bilmirdi. XXI əsrin əvvələrindən başalayaraq yeni geosiyasi sistemə keçid zamanı beynəlxalq təşkilatlarda mənəvi böhran hökm sürürdü və faktiki olaraq qeyri-müəyyənlik böyük dövlətlərin xarici siyasəti ilə assosasiya olunurdu [4]. Bütün bunlarla bərabər qlobal geosiyasi proseslərin təsiri altında beynəlxalaq sistemin institutları arasında nəzəri debatlar aktiv mərhələyə keçmişdir. Əsasən realizm və liberalizm arasında yeni dünyanın ideoloji konseptuallığı üzərində fərqli mənalara söykənən baxışlar üstünlük təşkil edirdi.

Bütün bunlar üçüncü minilliyin qlobal geosiyasi prosesləri ilə xarakterizə olunan reallıqlardır. Neoliberalizm, realizm və s. kimi paradiqmaların beynəlxalq sistemə dair nəzəri debatları bir çox halda ideoloji disharmoniyaya yol açmaqdadır. Məhz yuxarıda qeyd olunan amillərin hər biri daxili qaydada sosial-iqtisadi parametrləri transformasiya edir və bu proses beynəlxalq iqtisadi və siyasi proseslər fonunda özünü göstərir [5]. Belə bir şəraitdə Azərbaycanın beynəlxalq-siyasi münasibətlər sisteminə transformasiyası paralel müstəvidə qeyd olunan problemlər kateqoriyasını da nəzərə almağı tələb edir. Xüsusilə liberal demokratiya və

insan haqlarına münasibətdə güclü dövlətlərin yürütdüyü siyasət bir çox halda təzyiq vasitəsi funksiyası daşıyır. İqtisadi müstəqillik və milli iqtisadi hədəfləri müəyyən edib güclü dövlət konseptinin prioritetini aydınlaşdırmaq isə digər bir problemdir. Çünki inkişaf etmiş kapitalist sənaye dövlətləri kapituliyasiya siyasəti ilə özünün iqtisadi inkişaf dövrünü yaşayan dövlətlərə iqtisadi islahatlar aparmağa imkan vermir.

Bir çox hallarda mal və xidmətlərin, gömrük kvotalarının və büdcə islahatlarının aparılması prosesində kiçik dövlətlərin siyasətinə müdaxilə tendensiyaları müşahidə olunur ki, bütün bunlar modern imperializmin təsir metodları kimi özünü göstərir [6]. SSRİ-in dağılması ilə ortaya çıxan yeni geosiyasi vəziyyət həm regional, həm də beynəlxalq sistemdə dərin böhran yaratdığı halda dünya bu böhranı qlobal səviyyədə müharibə olmadan həll edə bilmişdir. İmperiyanın periferiyasında onun tarixi rəqibləri geosiyasi qalibiyyət əldə etdiyi halda, postimperiyanın ərazlilərində yeni sosial iqtisadi şərtlər və aktiv fəaliyyətə keçən etnik identifikasiya prosesləri dramatik vəziyyət yaratamaqdadır. Proses bu gün çoxqütblü sistemdə davam edir. Maraqlısı odur ki, bu gün də postsovet məkanında öz milli müstəqillikləri yolunda inamla addımlayan respublikalar eyni təhlükə ilə üz-üzə dayanıb. Cənubi Qafqaz başda olmaqla, Balkanlarda və Orta Asiyada proseslər öz xarakrtereinə görə daha dramatik reallıqlarla assosasiya olunur. Məhz dünyanın bu yeni geosiyasi plasdarmında Cənubi Qafqazda gedən proseslər öz dagıdıcı funksiyasına görə potensial risk faktorları nəzərə alındıqda daha əhəmiyyətlidir.

Göründüyü kimi, Azərbaycanın milli müstəqilliyinə gedən yol və ondan sonrakı mərhələdə dövlət müstəqilliyinin qorunub saxalanılması prosesi bu kontekstdə çətin sınaq təşkil edir. Lakin milli siyasət ölkənin gələcək siyasi taleyinə münasibətdə prinsipial faktorları nəzərə alır. Və bu fakt gələcək perspektivi önə çıxardır. Azərbaycan dövlətinin xarici siyasət strategiyası ölkənin iqtisadi immunitetinin gücləndirilməsi fonunda konseptual xarakterlidir. Bu çərçivədə ölkənin iqtisadi inkişafı ilə paralel xarici siyasət vahid məqsədə xidmət edir. Xarici siyasət elə bir geosiyasi dilemmanı meydana çıxarmışdır ki, bu dilemmanı yalnız regionun maraqlarını qərb dövlətlərinin ümumi iqtisadi-enerji maraqları ilə konsolidasiya etməklə aşmaq mümkündür. Tarixi keçmiş və siyasi proseslər bizə Azərbaycanın milli müstəqilliyinin ilk dövrlərində dövlət siyasətinin həyata keçirilməsilə bağlı dəqiq informasiyalar verir. Bu konteksdə Milli Lider Heydər Əliyevin düşünülmüş xarici və daxli siyasəti fövqəladə önəmli reallıqları gün üzünə çıxardır. Beləliklə milli lider Heydər Əliyev üç əsas istiqamətdə dövlət quruculuğu prosesini prioritet olaraq müəyyən etmişdir.

1. Milli İqtisadi İnkişaf konsepsiyasının prinsiplərinə uyğun olaraq partnyorlararası iqtisadi münasibətlərdə makrosəviyyədə milli maraq kompleksi siyasətin prioriteti hesab olunurdu.
2. Dövlət quruculuğu prosesində ölkənin daxili siyasi sisteminə təsir yolları axtaran bütün tərəflərə adekvat radikal və prinsipial mövqe nümayiş etdirilmişdir. Azərbaycanın müstəqil dövlət obrazı simvolik olaraq 1993-1998-ci illərdə baş verən proseslərə reaksiya fonunda öz təsdiqini tapanda, artıq subut olundu ki, o, eyni zamanda güclü dövlət konseptinin əsas prinsiplərini həyata keçirə bilmişdir.
3. Azərbaycan xarici siyasət strategiyasını formalaşdırarkən makrosəviyyədə balans siyasəti həyata keçirdiyi halda, maksimum səviyyədə milli maraq komponentlərini, yəni iqtisadi, siyasi və ideoloji elementlərin daxili qaydada harmoniyasını regional və beynəlxalq sistemə inteqrasiya edə bilmişdir. Yəni dövlət quruculuğu prosesində güclü dövlət konseptinin Azərbaycan modeli uğurla konsepsiyalaşdırılmışdır.

İqtisadi əlaqələrin genişliyi və qərb dövlətlərinin Azərbaycana qoyduğu iri həcmli kapital nəticədə ölkənin iqtisadi inkişafı ilə paralel onun siyasi sistemində demokratiya və pluralizm elmentlərini gücləndirmiş, ictimai münasibətlərdə keyfiyyət dəyişikliyi baş vermişdir. Nəzərə almaq lazımdır ki, iqtisadi inkişafın Azərbaycan modeli Avro-Atlantik strukturlara sıx əməkdaşlıq şəraitində elə bir geoiqtisadi platformada təşəkkül tapmışdır ki, bu iqtisadi platformada təkcə Azərbaycan deyil, region dövlətləri ilə paralel, ABŞ və Qərbi Avropa dövlətlərinin də maraqları nəzərə alınırdı. Azərbaycanın geosiyasi əhəmiyəti eyni zamanda onun fiziki imkanlarını da diqqət mərkəzinə gətirməkdə idi. Orta Asiya ilə Avropa arasında iqtisadi bufer dövlət funksiyasını həyata keçirən ölkə kimi Azərbaycanı daha çox iqtisadi transformasiyaların qovuşduğu məkan kimi xarakterizə etmək olar.

Dövlət quruculuğu prosesində iqtisadi faktorlarla paralel ictimai-siyasi sabitlik, bürokratik strukturda aparılan islahtalar, (xususilə milli kadr siyasəti fonunda radikal islahatlar) və demokratik hüquqi dövlət quruculuğu prosesində prinsipial siyasət müasir Azərbaycan dövlətçiliyi üçün ilk təcrübə idi. Xüsusilə regional dövlətlərin daxili siyasətə təsir yolları axtarması və bəzən buna nail olmaması mürəkkəb vəziyyət yaratmaqda idi. Lakin milli lider Heydər Əliyevin prinsipal və radikal mövqeyi, "Azərbaycanın müstəqilliyi, dönməzdir, əbədidir" ideyası (*bu müəyyən mənada milli ideologiya idi)* olduqca önəmli olmuşdur. Nəticədə bütün bu kənar təsirlərin qarşısı alınmış, onları yaradan səbəblər müəyyən edilərək profilaktik tədbirlər həyata keçirilmişdir. Avro-Atlantik strukturlara inteqrasiya fonunda öz iqtisadi və siyasi sistemini liberallaşdıran Azərbaycan dövlətçiliyi üçün iqtisadi müstəqillikdən geosiyasi aktora doğru dəqiq və prinsipal strategiya həyatqabliyyətli sistemə transformasiya olunurdu. Bütün bu faktorlar belə bir reallığı meydana çıxarırdı ki,

Azərbaycanın inkişafı təsadüfü xarakter daşımırdı. O dəqiq və düşünülmüş siyasətin məntiqi nəticəsi kimi meydana çıxmışdır.

Xüsusilə iqtisadi müstəqllikdən geosiyasi aktora doğru addımlayarkən Azərbaycanın xarici siyasəti çoxvektorluluqdan çoxfunksiyalılığa keçid fonunda unikal transformasiyanı uğurla başa vurmuşdur. Xarici siyasətin iki mühüm aspekti daxili qaydada unikal kombinasiyanı, iqtisadi parametrlərlə geosiyasi dinamikalar arasında koordinasiya və konsolidasiyanı gələcəyin perspektivini formalaşdırarkən nəzərə almış, paralel müstəvidə tarixi keçmişin acı təcrübələrindən dərs çıxarmışdır. *Ümumiyyətlə regionun geosiyasi mənzərəsi onun geoqtisadi mənzərəsinə adekvat deyil. Faktiki olaraq regionda geosiyasi proseslərin təsir aspekti, dinamikası və öz funksiyasına görə dağıdıcı elementlərlə əhatələnmiş proseslər daha aktiv fazadadır*. Lakin Azərbaycan geoiqtisadi parametrlərin geosiyasi konsolidasiyanı möhkəmləndirərkən, təkcə özünün milli maraqlarını deyil, eyni zamanda müəyyən olunmuş siyasi xəttin interaktivliyini formalaşdırmaq üçün istifadə edə bilmişdir. Avro-Atlantik strukturlara inteqrasiya fonunda iqtisadi parametrlərə beynəlxalq səviyyədə dəstək avtomatik olaraq geosiyasi proseslərə reaksiya fonunda özünü göstərmişdir. Nəticədə Azərbaycan iqtisadi müstəqillikdən geosiyasi aktora doğru hərəkət edərkən iqtisadiyyatın kölgəsində özünün geosiyasi maraqlarını təmin edə bilmişdir. Bu mükəmməl kombinasiya güclü dövlət modelinin intelektual potensialını nümayiş etdirir. Beləliklə, Azərbaycanın xarıcı siyasətində çoxvektorluqdan çoxfunksiyalılığa keçidi aşağıdakı kimi xarakterizə etmək olar:

1. Xarici siyasətdə çoxvektorluluq hələ çoxfunksiyalı sistemə inteqrasiya olmaq demək deyil. Çoxfunksiyalılıq aktiv siyasi proseslərin interaktiv formasıdır [7]. Bu kontekstdə Azərbaycanın xarici siyasətində çoxvektorluluqdan çoxfunksiyalılığa keçid daxili qaydada və beynəlxalq səviyyədə elə bir sistemin inteqrasiya formul-modelini meydana çıxardır ki, burda dövlət makrosəviyyədə aktor, mikrosəviyyədə isə strukturun elementi kimi çıxış edir. Yəni dövlət öz milli maraqlarını regional və beynəlxalq səviyyədə təmin edərkən interaktiv sistemdə fəaliyyət göstərir. Nəticədə o, təkcə sistemin elementi funksiyasını deyil, həm də onun mexanizmini təşkil edən sübyekt kimi çıxış edir**.**
2. Azərbaycanın xarici siyasəti iqtisadi resursların regional transformasiyasını təşkil etmək planında funksional sistem təsəvvürü bağışlayır. Yəni bu onun funksiyasıdır. Azərbaycanın regional səviyyədə belə bir funksiyası geosiyasi plasdarmda ona əlavə dividentlər verir. Xüsusilə regionun geosiyasi mənzərəsində makrosəviyyədə təhlükəsizliyin təmini prosesində Azərbaycanın səmimi liderliyi onun potensialı ilə disharmoniya təşkil etmir. Bu isə xarici siyasətin çoxvektorluluqdan çoxfunksiyalılığa keçidi üçün digər bir parametrdir**.**
3. Azərbaycanın xarici siyasət strategiyası iqtisadi transformasiyanın geosiyasi modeli ilə paralel periferik mahiyyət daşıyır. Yəni Avropanın enerji təhlükəsizliyi fonunda bu siyasəti ilə avtomatik olaraq periferiyada geosiyasi status qazanır. Və yaxud geoqtisadi. Belə bir şəraitdə çoxvektorluluqdan çoxfunksiyalılığa keçid onun Avro-Atlantik strukturlara inteqrasiyasından daha çox, transformasiyasını şərtləndirir. Yəni inteqrasiya transformasiya ilə əvəzlənir. Bu isə müstəqli siyasi kurs üçün daha elastik modeli konsolidasiya edir.

*Nəticə*. Yuxarıdakı mülahizələrdən belə bir nəticə hasil olur ki, Azərbaycanın xarici siyasəti regional və beynəlxalq sistemin fundamental problemlərinə intelektual reaksiya fonunda rasional realizm prinsipinə və yaxud düturuna adekvatdır. Bu siyasət milli lider Heydər Əliyevin müəyyən etdiyi, tarixin inkişaf planında güclü dövlət konseptinin Azərbaycan modelini tranasformasiya edir.

Lakin hər dövrün öz geosiyasi, siyasi və ideoloji-fəlsəfi şərtləri var. Bu konteksdə Azərbaycanın daxili və xarici siyasət strategiyası öz milli kodlarına sadiq olsada onun həyata keçirilməsi prosesində konsepsiyaya zaman-zaman əlavələr edilməsi tarixi zərurət olmuşdur. Məhz bu konteksdə Azərbaycan prezidentinin şəxsi təşəbüsü ilə böyük geosiyasi əhəmiyyət daşıyan lahiyələr həyata keçirilmişdir. Prezidentin intellektualaş-dırılaraq davam etdirdiyi xarici və daxili siyasətdə mühüm prinsiplər məhz dövlət başçısının şəxsi təşəbbüsü fonunda tarixin tələbinə uyğun olaraq həyata keçirilmişdir. Bu kontekstdə müasir Azərbaycanın siyasi həyatında prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətə daha geniş spektrdan baxmağa çalışacağıq.

## ƏDƏBİYYAT


1. Globalization and İnternational Relations Theory. Lan Clark. Oxford University Press. p.52.
2. İnternational Order and The Future of World Politics. Editor.T.V.Paul.John A. Hall. p. 20
3. The Poltical Economy of İnternational Realations.Robert Cilpin. p. 172.
4. Peace and Security the Postmodern World. The OSCE and conflict resolution. Dennis J.D.Sandole. p 128.
5. Цыганков П.А Теория международных отношений: Учебное пособие. М.: Гардарики, 2007.
6. Among Nations. Readings in International Relations. American Foreign Policy Fall 2010.Stephen F. Austin State University. Michael Tkacik. p.158.

7. Safeguarding Space Scurity : Prevention of an Arms Race in Outer Space. Conference Report 21-22 March 2005. United Nations Institute for Disarmament Research Geneva Switzerland. She.69.

**ABSTRACT**

**Akbarov Mohammad**

**THREE MAIN DETERMINANTS OF THE MODEL OF STATE CONSTRUCTION OF AZERBAIJAN**

The process of building an independent Azerbaijan state is a historical phenomenon of extraordinary significance in the plan of considering geopolitical risks and internal social political situation. And these historical facts prove that the national state independence of Azerbaijan was possible as a result of hard work and a principled political and ideological position. In particular, the correct assessment of the international political situation, parallel to the collapse of the USSR, was a fact that this new political view could be the guarantee of the path to national independence. Today, threats facing Azerbaijan in modern times parallel with those events, taking into account past risks. Exactly in this context, the short historical excursion to the national independence of Azerbaijan and the historical reforms in foreign and domestic politics during that period, all of which remain relevant today. Under the leadership of President Ilham Aliyev, the domestic and foreign policy of the second republic continues to remain true to its ideological and political codes. However, the principled foreign and domestic policies are welcomed by certain circles today, just as in the past. The facts are more clearly evident in the history of independence of Azerbaijan, a brief overview of political and geopolitical perspectives, the geopolitical risks of that period, and the general problems category.

**РЕЗЮМЕ**

**Акбаров Мохаммед**

**ТРИ ОСНОВНЫХ ДЕТЕРМИНАНТА МОДЕЛИ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА АЗЕРБАЙДЖАНА**

Процесс построения независимого азербайджанского государства является историческим явлением, имеющим исключительное значение в плане учета геополитических рисков и внутриполитической ситуации. И эти исторические факты доказывают, что национальная государственная независимость Азербайджана стала возможной в результате кропотливого труда и принципиальной политической и идеологической позиции. В частности, правильная оценка международной политической ситуации, параллельной распаду СССР, была фактом, что этот новый политический взгляд мог быть гарантией пути к национальной независимости. Сегодня угрозы, с которыми сталкивается Азербайджан в наше время, параллельны этим событиям с учетом прошлых рисков. Именно в этом контексте краткий исторический экскурс в национальную независимость Азербайджана и исторические реформы во внешней и внутренней политике в этот период, которые все еще актуальны сегодня. Под руководством президента Ильхама Алиева внутренняя и внешняя политика второй республики продолжает оставаться верной ее идеологическим и политическим кодексам. Тем не менее, как и в прошлом, некоторые круги приветствуют принципиальную внешнюю и внутреннюю политику. Факты становятся более очевидными в истории независимости Азербайджана, кратком обзоре политических и геополитических перспектив, геополитических рисков того периода и категории общих проблем.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**SEVİNC QURBANOVA**
*Gəncə Dövlət Universiteti*
*sevincakifqizi@mail.ru*

**UOT: 94(479.24)**

# AZƏRBAYCAN RESPUBLİKASININ NEFT KƏMƏRLƏRİ LAYİHƏLƏRİNİN REALLAŞDIRILMASINDA RUSİYANIN MÖVQEYİ

**Açar sözlər:** *neft strategiyası, neft kəmərləri layihələri, karbohidrogen ehtiyatlar, geosiyasi maraqlar*
**Key words**: *oil strategy, pipeline projects, hydrocarbon reserves, geopolitical interests*
**Ключевые слова:** *нефтяная стратегия, проекты нефтепроводов, запасы углеводородов, геополитические интересы*

"Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində yeni milli neft strategiyası həyata keçirilməyə başlandı. Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir"(18). Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə ölkədə və regionda sabit şərait təmin edildikdən sonra böyük güclərin Azərbaycanla əlaqəli rəqabətləri də tənzimlənərək Azərbaycanın yeni neft strategiyası formalaşmışdı və bununlada yeni xarici siyasət kursu meydana gəlmişdir. Azərbaycan Respublikasının neft strategiyasının tərkib hissələrindən biri boru kəməri marşrutlarının seçilməsi məsələsi idi. Xəzərin Azərbaycan sektorunda olan neftin nəqli məsələsindən danışarkən qeyd etməliyik ki, Azərnaycan hökumətinin neft strategiyasına əsasən neftin çox variantlı sistem əsasında nəqli nəzərdə tutulmuşdur. Bu sistem üzrə neftin nəqlinin iki mərhələdə həyata keçirilməsi qərara alınmışdır : "İlkin" və "Böyük". "İlkin" Azərbaycan neftinin nəqli dedikdə, 1994-cü il sentyabrın 20-də bağlanmış " Əsrin Müqaviləsi"nə əsasən "Çıraq" yatağından çıxarılacaq neftin nəqli nəzərdə tutulurdu. Bu neft iki xətt boyunca : "Şimal" və "Qərb" marşrutları ilə nəql olunur. "Şimal" xətti Rusiyadan, "Qərb" xətti isə Gürcüstandan keçir. Başqa sözlə, İlkin Azərbaycan neftinin nəqlini həyata keçirən boru kəməri marşrutlarının əsas variantları aşağıdakılardır:

-Rusiya ərazisindən keçməklə Qara dənizə çıxan Bakı-Novorossiysk yolu ilə "Şimal" xətti ( ötürmə gücl ilə 5 milyon ton ).

-Gürcüstan ərazisindən keçməklə Bakı- Supsa yolu ilə Qara dənizə çıxan "Qərb" ( ötürmə gücl ilə 5 milyon ton ).

"Böyük" Azərbaycan neftinin nəqlinin real variantı olaraq isə əsasən Türkiyə ərazisindən keçən bir xətt Bakı-Tiblisi-Ceyhan ( ötürmə gücü ildə 50 milyon ton ) xətti nəzərdə tutulmuşdur.Region dövlətlərindən "Böyük" Azərbaycan neftini öz ərazisindən nəql etməyə can atan əsas dövlətlərdən biri Rusiyadır. Əsas ixrac kəmərlərinin keçə biləcəyi ərazilərdə Xəzər dənizindən Qara dəniz sahillərinə qədər olan geopolitik zonaları öz nəzarətində saxlamaq Rusiyanın əsas strateji məqsədlərindən biridir. Bildiyimiz kimi, müasir dünyanın kollektiv təhlükəsizlik sistemində Rusiya - Qərb münasibətlərinə əsas ixrac boru kəməri məsələsi mühüm təsir edir. SSRİ dağıldıqdan və bir qütblü dünya yarandıqdan sonra bir çox qərb ölkələri kimi Rusiyada müasir geopolitik reallıqları nəzərə alaraq öz yeri və rolunu yenidən qiymətləndirmək zərurəti ilə üzləşmişdir. Z.Bzejinskinin qeyd etdiyi kimi, "Əgər Rusiya daha rəqib deyilsə bəs indi o kimdir? müttəfiqdir, yoxsa müştəridir və ya məğlub olmuş düşməndir sualı bu gün Qərb dünyası və ABŞ-ı düşündürən məsələdir (17, s.288). Təhlillər göstərir ki, Rusiya üçün post sovet məkanına daxil olan respublikalarla inteqrasiyanın vacibliyi onun geopolitik məqsədləri və iqtisadiyatının gələcək inkişaf prespektivləri baxımından əhəmiyyətlidir. Təbii olaraq, Türkiyə, ABŞ, Çin, İran və s ölkələrin keçmiş SSRİ-nin cənub respublikaları olan Azərbaycan, Gürcüstan və Ermənistana qarşı hər hansı siyasi və iqtisadi maraqları ilk növbədə Rusiyanı qıcıqlandırır. Rusiyanı narahat edən məslələrdən biri də odur ki, Azərbaycandan və Gürcüstandan keçən Mərkəzi Asiya və Qafqazı Avropa ilə birləşdirən Avrasiya nəqliyyat dəhlizi, Avrasiya magistralı, Bakıdan, Tbilisidən keçərək Türkiyə ərazisi ilə Ankaraya qədər gedib İstanbulda ən iri kommunikasiya xətti olan avtomobil və dəniz yolu ilə birləşəcək, ön Asiya və Avropanı birləşdirən və Aralıq dənizi limanlarına çıxan yollar qovuşacaq. Bu isə Rusiyanın nəqliyyat kommunikasiya xətlərinə alternativ deməkdir. Bu və ya digər layihələrin həyata keçməsi ilə Asiyanı Avropa ilə birləşdirmək missiyası Rusiyadan Türkiyəyə, Gürcüstan və

Azərbaycana keçə bilər. Bundan əlavə hal hazırda Rusiyanı Zaqafkaziya ilə birləşdirən dəmir yol magistralları praktiki olaraq işləmir. Yuxarıda deyilənləri nəzərə alaraq, burada vurğulamaq olar ki Azərbayan neft ehtiyatları ilə zəngin ölkə kimi Rusiyanın milli maraqlarının ABŞ və Türkiyənin mərkəzi Asiya və Zaqafqaziyanın neft rayonlarını öz nəzarətinə götürmək cəhtləri ilə toqquşduğu bir regiona çevrilmişdir.

Əlbətdə torpaqlarının bir qismi Ermənistanın işğalında olan Azərbaycan ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi Dağlıq Qarabağ ətrafında sülhyaratma proseslərinə cəlb edilmiş Rusiya ilə rəqib ölkə kimi qala bilməzdi. Bunu nəzərə alan Heydər Əliyev yeni neft strategiyasını həyata keçirərkən Rusiyanın da maraqlarını nəzərə almış, eyni zamanda Şimali Qafqaz və Çeçenistan məsələrində Rusiyanı dəstəklədiyini bəyan etmiş, Azərbaycanın Müstəqil Dövlətlər birliyi çərçivəsində onunla iqtisadi inteqrasiya proseslərində iştirak etməsinə nail olmuşdu. 1996-cı il yanvarın 18-də Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında imzalanmış sazişdə bu ölkə rəsmi şəkildə etiraf etdi ki, Azərbaycan neftini Rusiya ərazisindən daşınmasına razıdır, eyni zamanda mülkiyyət hüququ neftin istehsalçısına yəni Azərbaycana məxsusdur. Bakı-Qroznı-Novorossiysk marşrut kəmərinin hüquqi statusunun təsbit edilməsi Heydər Əliyevin Moskvaya səfəri zamanı reallaşdırıldı. 1996-cı ilin yanvarın 18-də Rusiya Federasiyasının hökumət evində Azərbaycanın “Azəri” “Çıraq” “Günəşli” Dəniz yataqlarından çıxarılacaq “İlkin neftin Rusiya ərazisi vasitəsi ilə nəql edilməsi” haqqında Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Federasiyası baş naziri Viktor Çernomırdin saziş imzaladılar(9, s.114; 14). Burada diqqət çəkən məqam neftin nəqlinin Şimal və ya Cənub variantıının daha səmərəli olması barədə Viktor Çernomırdinin fikirləridir : “Şimal variantı etibarlı, çoxillik təcrübə ilə sınaqdan çıxarılmış yoldur və onu inkişaf etdirməyə imkan var. O ki qaldı başqa variantların olmasına, burada pis nə var ki ? Vaxt gələcək, hər şey ondan asılı olacaqdır ki, biz nə qədər neft istehsal edirik. Burada hansı yolla getmək lazım olduğunu iqtisadi səmərə göstərəcəkdir.Daşınma tarifəri Rusiya ərazisində 1 ton neft üçün 15,67 dollar, müəyyən edilmişdir (15, s.426). Bu, Heydər Əliyevin regionda yürütdüyü tarazlığı qoruma siyasətinin uğuru hesab olunmalıdır. Prosesin bu cür davam etməsi münasibətlərin bütün istiqamət-lərində müsbət dəyişiklilə xarakterizə olunmağa başladı.

1997-ci il noyabrın 12-də “Çıraq-1” platformasında “Əsrin Müqaviləsi” üzrə “İlkin” neftin hasilatına başlandı. Heydər Əliyevin bu sahədə gördüyü misilsiz xidmətlər sayəsində “Çıraq” neft yatağında böyük bir platforma yaradılmış və bu platformada ilk neft fontan vurmuşdur.Bu platformadan gün ərzində 10 min ton neft və bir milyon kub metr qaz hasil edilmişdir. 1997-ci il noyarbrın 12-də Xəzər dənizinin təkindən dünya bazarlarına ilkin Azərbaycan nefti axıdılmağa başlandı.(12, s305).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasəti və bu siyasət nəticəsində gənclərin təhsil, sosial müdafiə və işlə təminatı sahələrində atılan məqsədyönlü addımlar gənclərin partiyamıza axınını sürətləndirir. Ölkəmizdə yeni iş yerlərinin açılması, İpoteka proqramının həyata keçirilməsi, tələbə-gənclərin təqaüdlərinin artırılması Yeni Azərbaycan Partiyasının gənclərlə bağlı siyasətinin əsas istiqamətləridir.

YAP Gənclər Birliyinin fəaliyyəti genişlənmiş, partiya sıralarının kəmiyyət və keyfiyyətcə yeniləşməsinə töhvəsi artmışdır. Partiyamızın gənclərinin təşkilatın beynəlxalq əlaqələrinin genişlənməsi istiqamətində fəaliyyəti güclənmişdir.

2005-ci ildə YAP GB-nin internet saytı yaradıldı, qonşu ölkələrin, xüsusilə Türkiyə və Ukraynanın sağ mərkəzçi partiyalarının GB-ləri ilə əlaqələrin genişlənməsinə xidmət edən qarşılıqlı səfərlər təşkil edildi. YAP-ın Gənclər Birliyi bu gün də istedadlı, cəmiyyətə və dövlətə yararlı olmaq istəyən gəncləri öz ətrafında birləşdirməklə yanaşı, yeni nəslin hərtərəfli inkişafı, vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin aktiv ictimai fəaliyyətə cəlb olunması və digər istiqamətlərdə işlər görür.

Hazırda daxili siyasətdə aparıcı rola malik olan Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələri də yüksələn xətt üzrə inkişaf edir, əməkdaşlığın coğrafiyası və məzmunu genişlənərək keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. YAP müasir qloballaşan dünyanın çağırışlarına çevik reaksiya verərək, əməkdaşlıq imkanlarından maksimum faydalanır və Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində geniş fəaliyyət göstərir.

Bu gün ölkəmizdə dövlət gənclər siyasəti bir neçə istiqamətdə-gənclərin dövlət qulluğunda irəli çəkilməsi, təhsilə göstərilən diqqət və istedadlı tələbələrin xaricə göndərilməsi, onların təqaüdlərinin artırılması, gənclərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə İpoteka kreditlərinin verilməsi, idmana və idmançıya göstərilən qayğı və .s formalarda özübnü qabarıq şəkildə biruzə verməkdədir.

2007-ci il 17 apreldə Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi “Gənc liderlər dünyada sülhün və təhlükəsizliyin tərəfdarıdır” devizi altında beynəlxalq hərəkatın əsasını qoymuş və təsis toplantısı olaraq “Avroatlantika məkanında enerji təhlükəsizliyi” mövzusunda beynəlxalq konfrnas keçirmişdir. Tədbirdə 8 ölkəni – Rusiya, Belarus, Qazaxıstan, Türkiyə, Makedoniya, Moldova və Kanadanı təmsil edən gənclər iştirak etmişdir.

2007-ci il, iyul ayının 20-də YAP GB-nin mətbuat orqanı olan “Yeni Azərbaycan Gəncləri” qəzetinin ilk sayı işıq üzü görmüşdür (4, səh 54). Bu gün, Azərbaycan gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Gənclərin intellektual səviyyəsinin, peşə hazırlığının yüksəldilməsi üçün müxtəlif tədbirlər görülür. İnnovativ və sosial-ictimai layihələrin icrasına məhz gənclər cəlb edilir. Gənclər həm də dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes

strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Özünəməxsus siyası ənənəsi olan YAP Gənclər Birliyi Azərbaycanda ictimai-siyasi faəliyyət göstərən gənclər təşkilatlarının flaqmanıdır.

2003-cü ildən sonra isə Azərbaycanda gənclər siyasəti daha da şaxələnərək, yeni verilmiş qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəldi. Məhz, 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. Xüsusilə, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı" haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu bir daha təsdiqlədi.

Bu gün Yeni Azərbaycan Partiyası ölkəmizin ən güclü və mütəşəkkil siyasi təşkilatıdır. Ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası qısa bir zaman kəsiyində gördüyü işlər sayəsində xalqımızın etimadını qazanaraq, ən mütərəqqi Azərbaycan ziyalılarını ətrafına toplamağı bacardı. Ulu öndərimizə xalqın sevgisi YAP-ın ümumxalq partiyasına çevrilməsində mühüm rol oynadı. Bu gün də bu uğurlu siyasət ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən davam etdirilərək, xalqımızın inamını qazanmaqda davam edir.

## ƏDƏBİYYAT


1. Yeni Azərbaycan Partiyası Azərbaycanın dünəni, bu günü və gələcəyi.YAP-ın 10-cu ildönümünə həsr edilmiş konfrans materialları, Bakı-2002, 467 s.
2. "Yeni Azərbaycan qəzeti" 24 noyabr, 1998-cü il YAP VI ildönümü münasibətilə təntənəli yığıncada H. Əliyevin nitqindən. 21 noyabr, 1998
3. YAP-ın II qurultayında H.Əliyevin nitqi, 21 noyabr 2001-ci il.YAP-ın II qurultayının materialları. Bakı-2001-c il.
4. Yeni Azərbaycan Partiyası., Bakı-2007, 56 s.
5. "Xalq qəzeti" 5 sentyabr, 24 noyabr 1998-ci il YAP I qurultayına hazırlıq üzrə təşkilat komitəsinin üzvləri ilə görüşdə H.Əliyevin nitqindən. 4 sentyabr 1999-cu il.



## ABSTRACT

**Gunay Shukurova**

**THE NEW AZERBAIJAN PARTY AND ITS YOUTH POLICY**

The article is based on New Azerbaijan Party and its youth policy in the Repiblic of Azerbaijan. The main purpose of the research is to explore the activity of New Azerbaijan Party and the importance of New Azerbaijan Party in the youth's life of the Republic of Azerbaijan. So the article comes to conclusion that New Azerbaijan Party is based on Heyder Aiyev's political heritage and plays an important role in the social life of Azerbaijan Republic. The youth's policy has been implemented since 1993. 2007 is announced as "the Youth's years" in Azerbaijan. Youth policy is an important component of public policy in Azerbaijan. The research was carried on the basis of references and literatures. Application of importance: can be used in lectures and seminars at high education institutions.



## РЕЗЮМЕ

**Гюнай Шукюрова**

**НОВАЯ АЗЕРБАЙДЖАНСКАЯ ПАРТИЯ И МОЛОДЕЖНАЯ ПОЛИТИКА**

Статья основана на НАП и ее молодежной политики в Азербайджанской Республике. Основная цель исследования заключается в изучении деятельности НАП и роль Азербайджанской партии в жизни молодежи. Так статья приходит к выводу Азербайджанской Новый Партии основан на политическом наследии Гейдара Алиева и играет важную роль социальной жизни Азербайджанской Республики. Молодежная Политика была реализована с 1993 года. 2007 объявлен как "Годы молодёжи" в Азербайджане. Молодежная политика Азербайджана является важной составной частью государственной политики. Проведенные исследования было на основе официальных документов и литератур. Важность применения: может использоваться в высших учебных заведениях на лекциях и семинарах.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

# İQTİSADİYYAT

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

**UOT:332**

## XXI ƏSRİN MEQALAYİHƏSİ "BİR KƏMƏR, BİR YOL" VƏ AZƏRBAYCAN

**Açar sözlər:** *layihə, inkluziv, maliyyə gəlirləri, investisiya, Avrasiya, beynəlxalq əməkdaşlıq, sərmayə, inkişaf modeli, infrastruktur, ticarət, turizm*
**Key words:** *project, inclusive, financial incomes, investment, Eurasia, international cooperation, capital, growth model, infrastructure, trade, tourism*
**Ключевые слова**: *проект, инклюзив, финансовые прибыли, инвестиция, Евроазия, международное сотрудничество, капитал, модель развития, инфраструктура, торговля, туризм.*

"Bir kəmər, bir yol" 2010-cu ildə Çin Xalq Respublikası (ÇXR) tərəfindən irəli sürülən "İpək Yolunun İqtisadi Kəməri" və "XXI əsrin Dəniz İpək Yolu" layihələrinin təklifidir. Çinin bu təşəbbüsünün mahiyyəti onun iştirakı ilə qarşılıqlı fəaliyyətin mövcud regional, ikitərəfli və çoxtərəfli mexanizmlərinin və strukturlarının möhkəmləndirilməsinin köməyilə yeni beynəlxalq əməkdaşlıq və inkişaf modelinin formalaşmasının və irəliləyişinin axtarışıdır. Qədim İpək Yolunun ruhunun davam etməsi və inkişaf etməsi əsasında "Bir kəmər, bir yol" regional iqtisadi tərəfdaşlığın yeni mexanizmlərinin işlənib hazırlanmasına, cəlb edilmiş ölkələrin iqtisadi cəhətdən çiçəklənməsinin stimullaşdırılmasına, müxtəlif sivilizasiyalar arasında bütün sahələrdə mədəni mübadilələrin və əlaqələrin möhkəmlənməsinə, eləcədə sülh və dayanıqlı inkişafa yardıma çağırış edir. Rəsmi məlumatlara görə "Bir kəmər, bir yol" inkişaf etməkdə olan ölkələri, o cümlədən "yeni iqtisadiyyatları" və inkişaf etmiş ölkələri birləşdirərək, Avrasiyanın böyük hissəsini əhatə edir. Bu meqalayihənin ərazisində zəngin resurs ehtiyatları cəmlənmiş, burada planetin əhalisinin 63%-i yaşayır, təxmini iqtisadi miqyas 21 trilyon ABŞ dollarıdır.

Dünya iqtisadiyyatının qlobal maliyyə-iqtisadi böhrandan zəif bərpa olunması fonunda dünya birliyinin qarşısında fəaliyyətin yeni modelinin tapılması və iqtisadi inkişafın yeni mexanizmlərinin yaradılması durur. Çin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya gedişində Çin öz qabiliyyətlərinə uyğun olaraq daha çox beynəlxalq nailiyyətin və öhdəliklərin öz üzərinə götürülməsinə, sülhün və ümumbəşəri inkişafın saxlanmasına böyük töhfə verilməsinə hazırdır. "Bir kəmər, bir yol" layihəsi iqtisadi amillərin sərbəst qaydaya salınmış hərəkətinin dəstəklənməsinə, resursların səmərəli bölgüsünə və bazar inteqrasiyasının dərinləşməsinə, "Bir kəmər, bir yol" marşrutları boyunca ölkənin iqtisadi siyasətinin koordinasiyasının həvəsləndirilməsinə, regional əməkdaşlığın genişlənməsinə və dərinləşməsinə, birgə səylərlə regional əməkdaşlığın açıq, inkluziv və balanslı arxitekturasının formalaşmasına yönəldilmişdir.

Boao-Asiya forumu (Şərqi Davos kimi beynəlxalq qeyri-hökumət və qeyri-kommersiya təşkilatıdır) – 2015-ci ildə müşavirənin açılışı mərasimində Çin Xalq Respublikasının sədri Si Cinpinin qeyd etdiyi kimi "Bir kəmər, bir yol" Çinin solo ifası deyil, əksinə layihənin marşrutları boyunca bütün ölkələrin əsl xorudur". "Bir kəmər, bir yol" təşəbbüsü, həmçinin Çinin "İlk yüzilliklər" və çin millətinin dirçəlişi haqqında "Çin arzusu" məqsədlərinin həyata keçirilməsində qonşu ölkələrlə münasibətdə ÇXR-ın xarici siyasətinin əsas rolunu yeni ölkə rəhbərliyi tərəfindən qeyd edilməsi nəticəsində meydana gəlmişdir. Si Cinpinin sözlərinə görə, qonşu ölkələrlə münasibətdə xarici siyasətin uğurla irəliləməsi Çinin inkişafı üçün əlverişli mühit yaradır. Çinin dinc inkişafı, öz növbəsində, qonşu dövlətlərə böyük fayda gətirəcək və onların birgə çiçəklənməsinə səbəb olacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan lap əvvəldən "Bir kəmər, bir yol"təşəbbüsünü dəstəkləmişdi [5].

Çinin bu təşəbbüsü qərb rayonlarının inkişafının stimullaşdırılmasının və Çinin qərb və şərq rayonlarında disproporsiya problemlərinin aradan qaldırılmasına, qərb istiqamətində açıqlığın genişlənməsi yolu ilə ölkədə artıq güclər probleminin həll edilməsinə, əmtəələrin və kapitalın ixracı üçün Avrasiyada ölkələrin yeni bazarlarının mənimsənilməsinə kömək edəcəkdir. "İpək Yolu İqtisadi Kəməri" layihəsi çərçivəsində üç transaviasiya iqtisadi dəhlizlərinin yaradılması nəzərdən keçirilir:

- Şimal (Çin - Mərkəzi Asiya – Rusiya – Avropa);

- Mərkəzi (Çin - Mərkəzi və Ön Asiya – Fars körfəzi – Aralıq dənizi);

- Cənub (Çin – Cənub – Şərqi Asiya – Cənubi Asiya – Hind okeanı).

"XXI əsrin Dəniz İpək Yolu" layihəsi iki dəniz marşrutunun yaradılmasını özündə ehtiva edir:

- birinci marşrut Cənub – Çin dənizi vasitəsilə Çinin sahillərindən Cənub – Sakit okean regionuna aparıb çıxarır;

- ikinci marşrut Cənub – Çin dənizi və vasitəsilə Çinin və Avropanın dəniz sahili rayonlarının birləşdirilməsini nəzərdə tutur [5].

İpək Yolu İqtisadi Kəməri (İYİK) çərçivəsində yeni Avrasiya dəmir yolu magistrallarının tikintisi və MDB ərazisində köhnələrin yenidən qurulması Avropa ilə Asiyz – Sakit Okean Regionu (ASOR) arasında yüklərin quru yollarda Avrasiya İqtisadi İttifaqının (Aİİ) tranzit mövqelərini möhkəmləndirməyə kömək edəcəkdir (hazırda Avropa ilə ASOR ölkələri arasında yüklərin əksər hissəsinin nəql edilməsi texniki məhdudiyyətlərlə Süveyş kanalı vasitəsilə dəniz yolu üzrə həyata keçirilir). Avrasiya və Avropa vasitəsilə ASOR-dan ən qısa quru yolu məsafəni 50% azalda bilər və dəniz yoluna nisbətən daha etibarlıdır və bundan böyük mənfəət əldə edilə bilər.

Qazaxıstan və Çin İYİK-in Qazaxıstanın "Nurlu yol" proqramı ilə birləşməsi haqqında razılığa gəlmişdir. Eyni zamanda, bu proseslərdə Rusiya hökumətinin də iştirakı gözlənilir. Birgə layihələrin təşkili zamanı Aİİ ölkələri maliyyə gəlirləri, investisiya və texnoloji dəstək əldə edə bilərlər. Çin öz növbəsində, İYİK Fondunu təsis etmiş və özü nizamnamə kapitalı kimi 40 milyard dollar qoymuşdur. Layihələrin maliyyə əsasının təmin edilməsi üçün Asiya İnfrastrukturu İnvestisiyalar Bankı (AİİB) da iştirak edir.

Qazaxıstan və Belarusiya hökumətləri İYİK çərçivəsində Çinlə əməkdaşlığı yüksək qiymətləndirirlər. Belarusiya Çin mallarının Avropaya ixrac edilməsi üçün Çin-Qazaxıstan-Moskva, daha sonra Minsk-Qərbi Avropa, Sankt-Peterburq-Skandinaviya ölkələri tranzit yolunu göstərmək olar.

Qazaxıstan vasitəsilə Pekindən Moskvaya yüksək sürətli sərnişin dəmir yolu magistralının tikintisi böyük gələcəyi olan layihədir. Nəzərdə tutulur ki, marşrut əhalinin sürətlə hərəkətetmə qabiliyyətini artıracaq və iri aqlomerasiyaların (kompleks interval infrastrukturunun) yaranmasına, həmçinin magistral boyu yeni iş yerlərinin açılmasına təkan verəcəkdir. Belə ki, Moskva ilə Pekin arasında yolu iki sutkaya getmək mümkün olacaq. Yüksək sürətli yerüstü nəqliyyatın əsası kimi yüksək texnologiyalar (qatarların sürəti 200-dən 400 km/saata çatacaqdır) tikintidə, maşınqayırmada innovativ texnologiyaların tətbiqinə, informasiya texnologiyalarının daha da inkişaf etdirilməsinə səbəb olacaqdır.

Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olmuşdur və bu layihənin reallaşmasına öz töhfəsini verməyə hazırdır.

Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir və onun reallaşmasına öz töhfəsini verməyə hazırdır.

Azərbaycanın sürətli iqtisadi inkişafı bizə ölkəni transformasiya etməyə kömək etmişdir. Ötən on beş ildə iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Yatırılan 260 milyard dollar həcmində sərmayə bizə ölkəmizi müasirləşdirməyə və müasir infrastrukturu, o cümlədən nəqliyyat sahəsində infrastrukturu yaratmağa kömək etmişdir. Azərbaycanın çox aşağı səviyyədə xarici borcu var. Bu, bizim ümumi daxili məhsulun təxminən 19 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcumuzdan beş dəfə çoxdur. Azərbaycanın builki iqtisadi göstəriciləri artımın olduğunu nümayiş etdirir. Ümumi daxili məhsul 3 faiz artıb, inflyasiyanın səviyyəsi 2,1 faizdir və iqtisadiyyatın şaxələnməsi Azərbaycanın əsas məqsədlərindən biridir [5].

Azərbaycanın çox böyük neft və qaz ehtiyatları var. Biz neft və qazımızı beynəlxalq bazarlara nəql etmək üçün çoxsaylı boru kəmərləri tikmişik və əsas hədəfimiz iqtisadiyyatımızı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq və inkişaf üçün dayanıqlı imkanlar yaratmaqdır. Şaxələnməyə gəldikdə. Bizim diqqətimiz əsasən sənayenin, kənd təsərrüfatının, turizmin, xidmətlər sektorunun, informasiya və kommunikasiya texnologiyalarının inkişafına yönəlib. İnfrastruktur layihələri bizim üçün çox önəmlidir və biz müasir infrastrukturun yaradılmasına sərmayə yatırmaq üçün maliyyə resurslarımızdan istifadə etdik. Azərbaycanda qazlaşdırma səviyyəsi 95 faiz təşkil edir. Azərbaycan elektrik enerjisini, neft və qazı ixrac edən ölkədir. Nəqliyyat sahəsinə investisiyaların yatırılması bizim əsas prioritetlərimizdən biridir.

Üç il öncə Azərbaycan və Çin "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumunu imzalayıb. Müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Coğrafi mövqeyindən bəhrələnərək Azərbaycan Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırıb.

Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq Azərbaycan Beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycan region dövlətləri ilə şaxələndirilmiş dəmir yolu şəbəkəsi yaradıb. Eyni zamanda Azərbaycanda son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib.

Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

Bu gün Azərbaycandakı biznes mühiti dünyada olan ən qabaqcıl biznes mühitlərindən biridir. Dünya Bankının ən son "Doing Bisness" hesabatına görə, Azərbaycan biznes mühiti üzrə 25-ci pillədədir və indi Azərbaycan dünyada ən çox islahat aparan on ölkə sırasındadır.

2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir. Asiya və Avropa arasında vacib bağlantıdır. Azərbaycanın sərmayə yatırdığı daha bir əhəmiyyətli nəqliyyat layihəsi Şimal-Cənub dəhlizidir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edirlər. Beləliklə, Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrilib.

Ötən il istifadəyə verilmiş Lapis-Lazuli marşrutu Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə birləşərək Azərbaycanın tranzit potensialını daha da artırıb. Bu gün Azərbaycan sayı artmaqda olan ölkələr üçün tranzit imkanlarını təmin edir. Azərbaycan Xəzər dənizində 260 gəmidən ibarət ən böyük donanmaya malikdir.

"Bir kəmər, bir yol" təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

## ƏDƏBİYYAT


1. M.H.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın formalaşması, Bakı, 2003, 315 s.
2. S.Qafarov. Müasir iqtisadi sistem və qloballaşma,Bakı, 2005, 631 s.
3. M.T.Əliyev. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri, Bakı, 2002, 610 s.
4. Z.Ə.Səmədzadə. Dünya iqtisadiyyatı - Çin "iqtisadi möcüzə"si. Bakı, "Gənclik" nəş., 2001, 317 s.
5. "Xalq", "Azərbaycan","İqtisadiyyat" qəzetlərinini, 2019-cu il mart, aprel, may aylarının nömrələri.


## ABSTRACT


**Teymur Abbasov**

**THE XXI CENTURY MEGA PROJECT "ONE BELT, ONE ROAD" AND AZERBAIJAN**

The scientific article examines the creation of " ONE Belt, One Way" project, initiated by the People's Republic of China (PRC) in 2010, which is based on the proposals of the "Silk Road Economic Belt" and Maritime Silk Road of the XXI century projects.

The article also explores the impact of the project on the development of economy and transport links between Azerbaijan and China. The article has widely commented the configuration of the project "One Belt, One Road".

The author stresses that this project will also strengthen ties between different countries, promote dialogue and cooperation, and will further strengthen economic and transport routes between Azerbaijan and China.

Moreover, the article notes that the initiative "One Belt, One Way" will create new opportunities in the field of transport in Azerbaijan and promote the establishment of stability, security and peace in Eurasia by promoting contacts between trade, tourism and peoples.


## РЕЗЮМЕ


**Теймур Аббасов**

**МЕГАПРОЕКТ XXI ВЕКА: «ОДИН ПРОВОД – ОДИН ПУТЬ» И АЗЕРБАЙДЖАН**

В научной статье обстоятельно исследовано влияние созданного на основе предложенных Проектов «Экономический Провод Шелкового Пути» и «Морской Шелковый Путь XXI века», выдвинутого в 2010 году Китайской Народной Республикой (КНР) «Один провод – один путь» на развитие экономических и транспортных связей между Азербайджаном и Китайской Народной Республикой.

Автором широко откомментирована конфигурация проекта «Один провод – один путь». Обосновывается мысль, что данный проект будет служить усиливанию связей между различными странами, укреплению диалога и сотрудничества, наряду с этим значительно укрепит экономические и транспортные связи между Азербайджаном и Китайской Народной Республикой.

Подчеркнута мысль, что инициатива «Один провод – один путь» наряду с открытием в Азербайджане новых возможностей в области транспорта, улучшит отношение между народами и посбособствует обеспечению на Европейском пространстве стабильности, безопасности и мира.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

**UOT:332**

# REGİONLARIN TARAZLI İNKİŞAFI MÜASİR DÖVRÜN AKTUAL PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Açar sözlər:** *kompleks sosial-iqtisadi inkişaf, tarazlaşdırma, davamlılıq, iqtisadi artım, iqtisadi siyasət*
**Key words:** *complex socio-economic development, balancing, sustainability, economic growth, economic policy.*
**Ключевые слова**: *комплексное социально-экономическое развитие, уравновешение, продолжительность, экономический рост, экономическая политика.*

Regional inkişafı nəzərdən keçirərkən bu məfhumu sosial-iqtisadi sistemin inkişafı kimi araşdırmaq və təsərrüfat kompleksi kimi hərtərəfli öyrənmək lazımdır. Belə ki, istənilən hər hansı bir sistemin idarə olunması mövcud vəziyyətin qorunmasına deyil, sistemin inkişafında yeni səviyyəyə nail olmağa yönəldilməlidir.

Çoxölçülü və mürəkkəb proses olan regionun sosial-iqtisadi inkişafına müxtəlif sosial və iqtisadi məqsədlərin məcmusuna nail olmaq kimi baxmaq lazımdır. Bu cür inkişafın məqsədi istehsalın və əhali gəlirlərinin artımını, cəmiyyətin institusional, sosial və inzibati strukturlarının dəyişdirilməsini, mədəni inkişafın və ictimai şüurun dəyişməsini təmin etməkdir. Fikrimizcə, regionun sosial-iqtisadi inkişafını, eyni zamanda, müxtəlif fəaliyyət sahələri və növləri arasındakı tarazlığın əldə edilməsinə yönəltmək lazımdır. Belə ki, artıq ötən əsrin 60-70-ci illərindən başlayaraq regionların tarazlı inkişafına nail olmaq obyektiv zərurətə çevrilmişdir.

Tarazlı inkişaf anlayışı ölkənin davamlı inkişaf probleminin daxili tərkib hissəsi kimi regionların inkişaf səviyyəsi və sürətinin yaxınlaşdırılmasını və ya nisbi bərabərliyini nəzərdə tutur. Burada tam bərabərlikdən söhbət belə açıla bilməz, ona görə ki, bazar münasibətləri şəraitində iqtisadiyyatın bütün sahələrinin və regionların vahid mərkəzdən idarə olunması sistemi məhduddur. Bəzi nəzəriyyəçilərin "iqtisadiyyata dövlət müdaxiləsi yolu ilə regionların inkişaf səviyyəsinin tam bərabərliyi probleminin həllinə nail olmaq mümkündür" yanaşmalarına baxmayaraq, bu problemin köklü həllinə nail olmaq mümkün deyildir. Beləliklə, burada yalnız regionların inkişaf səviyyəsinin maksimum bir-birinə yaxınlaşmasından söhbət gedə bilər. Tarazlı inkişaf anlayışını nəzərdən keçirərkən qeyd etmək lazımdır ki, tarazlılıq, hər şeydən əvvəl, resursların və onlara olan tələbin ödənilməsinin qarşılıqlı bərabərliyi, iqtisadi sistemin inkişafını müəyyənləşdirən elementlər arasındakı kəmiyyət əlaqələridir. Tarazlı inkişaf məfhumunun mahiyyətini açarkən onun hansı iqtisadi göstəricilərlə ifadə olunduğunu müəyyən etmək lazımdır. Qeyd edək ki, regionların inkişaf səviyyəsində yaradılan tarazlıq - regionlarda ərazinin hər kvadrat kilometrinə və adambaşına düşən ÜDM-nin, sənaye və kənd təsərrüfatı sahələri üzrə məhsul istehsalının miqdarının, eləcə də əhalinin pul gəlirləri, investisiya qoyuluşları və digər belə göstəricilərin bir-birinə yaxınlaşması ilə ifadə olunur. Bu iqtisadi göstəricilərin nisbi bərabərliyi istehsalın səmərəliliyini təmin edən proporsiyaların çoxluğu ilə xarakterizə olunur.

Tarazlı inkişaf anlayışı, fikrimizcə, inkişaf səviyyəsinə görə nisbətən geri qalmış iqtisadi rayonların inkişafına sürət baxımından üstünlük verilməsini, real sektorun və xidmət sahələrinin inkişafında mümkün optimal nisbətlərin gözlənilməsini, regional siyasətdə ədalətlilik və səmərəlilik prinsiplərinin düzgün əlaqələndirilməsini əks etdirir. Regionların inkişaf səviyyəsinin nisbi tarazlaşdırılması təkcə ayrı-ayrı dövlətlərin ümumi inkişaf səviyyəsinin yüksəldilməsi, istehsalın səmərəliliyinin artırılması, davamlı iqtisadi artımın təmin olunması mənafeyindən deyil, eyni zamanda, yüksək mənfəət əldə edilməsi mənafeyindən irəli gəlir.

Ümumi iqtisadi tarazlığa nail olarkən iqtisadiyyatın daxilində tez-tez qeyri-səmərəli qarşılıqlı münasibətlər – sahələr, istehsallar arasında bir-biri ilə qarşılıqlı bağlı elementlər arasında uyğunsuzluqlar meydana gəlir [3]. Bu uyğunsuzluqlar sahələrin inkişaf tempindəki fərqlərin, koordinasiya və planlaşdırmadakı səhvlərin, həmçinin təbii və texnogen hadisələrin təsiri nəticəsində baş verir. Bu cür uyğunsuzluqlar istehsalın artım tempini, əmək məhsuldarlığını, əhalinin həyat səviyyəsini aşağı salır, ətraf mühitin vəziyyətini ağırlaşdırır.

Regional tarazlı inkişaf iqtisadi, sosial, ekoloji və digər fəaliyyət sferalarının nisbi bərabərləşdirilməsi və qarşılıqlı əlaqəsi sayəsində əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, davamlı insan inkişafı göstəricilərinin bir-birinə yaxınlaşmasına nail olmağı hədəfləyir [2]. Bu məqsədlərə nail olunması kompleks vəzifələrin həll edilməsini nəzərdə tutur. Belə ki, yuxarıda qeyd olunan məqsədlərə nail olmağın yollarından biri regionun sosial-

iqtisadi vəziyyətinin monitorinqini həyata keçirtməkdir. Regionun sosial-iqtisadi vəziyyətinin monitorinqinin həyata keçirilməsi regionun tarazlı inkişafına təbii-iqlim şəraitinin, sosial-iqtisadi amillərin, ixtisaslaşmanın, həmçinin resurs bazasının məcmu təsirini müəyyənləşdirməyə imkan verir. Regionların tarazlı inkişafı ilə bağlı onlar qarşısında dayanan ən aktual problemlərdən biri bu inkişafın davamlılığına nail olmaqdır. Bu cür inkişaf stabil iqtisadi artımın təmin edilməsi, ətraf mühitin qorunması, əhalinin həyat səviyyəsi və keyfiyyətinin yüksəldilməsi məqsədini güdür. İqtisadi inkişafın davamlılığı iqtisadiyyatın istehsal, sosial və iqtisadi göstəricilərinin bərabər artımını və ya gələcək nəsillərin maraqlarını nəzərə alaraq ətraf mühitin mühafizəsini və sosial-iqtisadi inkişafın səmərəli tarazlaşdırılmasına nail olmağa istiqamətlənmiş prosesləri əks etdirir. Buna görə də regionların davamlı sosial-iqtisadi inkişafı üç komponentə əsaslanır: iqtisadi; sosial; ekoloji.

XX əsrin 60-70-ci illərindən başlayaraq tarazlı inkişaf anlayışı ilə yanaşı işlədilən davamlı inkişaf anlayışı arasında fərqləri görməmək olmaz. Belə ki, davamlı inkişaf regionlarda inkişafın bütün istiqamətlərdə - iqtisadi, sosial, ekoloji fasiləsizliyini nəzərdə tutursa, tarazlı inkişaf regionlarda inkişaf səviyyəsi və sürətinin yaxınlaşmasını və nisbi tarazlaşdırılmasını əks etdirir. Davamlı inkişaf sosial-iqtisadi nöqteyi-nəzərdən "davamlı iqtisadi artım" kateqoriyası ilə sıx qarşılıqlı bağlıdır. Davamlı iqtisadi artım müsbət əhəmiyyətə malik artım sürətində müəyyən tərəddüdlər dairəsində dəqiq ifadə edilmiş artım vektorudur. İqtisadiyyatın davamlı inkişafı yalnız iqtisadi artımın müsbət dəyərlərini deyil, eyni zamanda, iqtisadi artımın müsbət dəyərləri ilə üstü örtülməli olan sıfır, mənfi dəyərlərini də nəzərə alır. İqtisadiyyatın davamlı artımı və onun davamlı inkişafı arasındakı əsas fərq iqtisadiyyatın davamlı inkişafı zamanı iqtisadi artımın sıfır və mənfi dəyərlərinin mümkünlüyünün nəzərə alınmasıdır. Davamlı inkişafa əsaslanan iqtisadiyyatın davamlı artımı yalnız diskret şəkildə həyata keçirilə bilər. Buna görə də müəyyən bir müddətdən sonra iqtisadiyyatın davamlı artımı onun davamlı inkişafı şəklinə düşür. Bu iqtisadiyyatın müsbət artımında mütəmadi olaraq müəyyən fasilələrlə müşayiət olunur. Məhz bu baxımdan qeyd edə bilərik ki, iqtisadi artım regionun tarazlı inkişafını müəyyən edir və regionun tarazlı inkişafını qiymətləndirmək üçün əsas parametr kimi xidmət (çıxış) edir.

Müasir iqtisad elmində regionun tarazlı iqtisadi inkişafının təmin edilməsini hədəfləyən müxtəlif modelləri mövcuddur. Neoklassik nəzəriyyəyə görə, regionlar bir-biri ilə rəqabət edən açıq sistemlərdir. Regionların tarazlı iqtisadi inkişafı iqtisadi sistemin istehsal potensialını yüksəldən amillərin nəzərə alınmasına əsaslanır. Tarazlı regional inkişafın parametrləri texnologiyaların səviyyəsi, investisiyaların həcmi, əmək resurslarının kəmiyyəti və keyfiyyəti, təbii resurslarla müəyyən edilir. Bu zaman resursların hərəkətliliyi, iqtisadiyyatın açıqlığı və regionların məhdud resurslar uğrunda rəqabəti hesabına qiymətlərin istehsal amillərinə yaxınlaşması baş verir. Bu nəzəriyyə milli və regional azad rəqabətli bazarların mövcudluğunu və regionların resurs və gəlirlər uğrunda azad rəqabətini nəzərdə tutur. Bu nəzəriyyəyə görə, daha az inkişaf etmiş regionlarda aşağı əmək haqqının, müvafiq olaraq daha aşağı istehsal xərclərinin, yüksək gəlirin olması regiona əlavə kapitalın axmasına və onun sürətli inkişafına səbəb olur. Neoklassik nəzəriyyənin zəif nöqtəsi regionların xüsusiyyətlərini və resursların ideal hərəkətliliyi haqqında ilkin mesajı kifayət qədər nəzərə almamasıdır. Bu nəzəriyyədə təbii resurslar tamamilə hərəkətsizdirlər. Eyni zamanda, neoklassik nəzəriyyənin əksinə olaraq ən yaxşı əmək resursları iqtisadi cəhətdən inkişaf etmiş və perspektivli regionlara və şəhərlərə axın edirlər. Nəticədə bu proses ölkənin regionları arasındakı fərqliliyi şiddətləndirir.

Kumulyativ inkişaf nəzəriyyəsinə əsasən ixtisaslaşmanın köməyi ilə ərazinin cüzi üstünlüyünü artırmaq mümkündür. Belə ki, "İnkişaf qütbü" adlandırılan müəyyən rayonların üstünlükləri regionların inkişafının sürətlənməsinə səbəb olur. Bu zaman iqtisadi cəhətdən "zəif" regionlarda bu cür inkişaf mərkəzlərinin olmaması onların daha çox geri qalmasını gücləndirə bilər. Regionun sürətləndirilmiş sənaye artımı amili böyük şəhər aqlomerasiyalarıdır. Məhz istehsal xərclərinə regional aqlomerasiya qənaəti müəssisələrin yerləşdirilməsi və xarici investisiyaların cəlbi prosesinə güclü təsir göstərən yüksək peşəkar mütəxəssislərin, alimlərin axınını və əmək məhsuldarlığının artımını stimullaşdırır.

Burada regional inkişaf daxili hərəkətsiz resurslara və digər regionlardan cəlb olunan hərəkətli (mobil) resurslara əsaslanır. Aqlomerasiyanın təsiri, sosial-siyasi komponentlər, investorlar üçün cəlbedici biznes və sərmayə mühitinin olması, regionun müasir texnologiyalara sahib olması regional inkişafın əsas elementləri kimi çıxış edirlər. Regionun iqtisadi inkişafının öyrənilməsinə dair bir başqa yanaşmaya əsasən gəlirlərin böyük şəhərlərdə toplanması regionlara şəxsi gəlirləri hesabına inkişaf etmələrinə imkan verir. Regionda "inkişaf qütbü"nün yaradılması üçün 4 şərtə diqqət lazımdır:

1. inkişaf qütbü potensialına malik çoxlu sayda bölgələrin olması;
2. inkişaf qütbünü əmələ gətirən və ərazi qurumlarının inkişafına təsir göstərən güclü özəyin (nüvənin) xarici və daxili amillərin təsiri ilə oyadılması;
3. inkişaf qütblərinin polisentrik strukturunu formalaşdıran bir neçə özəyin yaradılması və inkişaf etdirilməsi;
4. bu cür inkişaf qütblərinin güclü klasterlərdə birləşdirilməsi.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatda istehsalın inkişafı qeyri-bərabər baş verir. Deməli, təmərküzləşmə proseslərinin köməyi ilə əmələ gələn və müəyyən bir ərazidə toplanan qabaqcıl sahələri fərqləndirmək olar.

Son zamanlar regionların tarazlı inkişafı probleminin həll edilməsi məqsədilə rəqabət üstünlüyü nəzəriyyəsindən istifadə xüsusilə geniş yayılmışdır. Bu nəzəriyyə texnoloji irəliləyişin yerli determinantlarına (amillərin parametrləri; firmaların strategiyası, onların strukturu və rəqabəti; tələb parametrləri) və rəqabətə əsaslanır. Rəqabət üstünlüyü nəzəriyyəsində elmin inkişaf səviyyəsi, insan potensialının keyfiyyəti və s. kimi xüsusi inkişaf amilləri nəzərə alınır. Onların səmərəli istifadəsi üçün iqtisadiyyatın əsas məhsuldar amili olan insan potensialının tam reallaşdırılmasına imkan verən institusional, sahibkarlıq və sosial-iqtisadi mühit kimi müəyyən şərtlər formalaşdırılır. Fikrimizcə, bu halda regionda innovasiya və informasiya sektorunun inkişaf etmiş infrastrukturunun mövcud olması vacibdir.

Rəqabət üstünlüyü nəzəriyyəsinə əsasən bölgənin inkişafı baxımından yüksək dəyərə malik yerli mallara sabit tələbi saxlamaq və yüksək texnologiyalı məhsul istehsalı sahəsi yaratmaq olduqca vacibdir. Bütün bu addımlar regionda insan kapitalının inkişafını və onların oraya axınını təmin edəcəkdir. Ancaq bunlar üçün həm milli, həm də beynəlxalq səviyyədə rəqabətqabiliyyətli sahələrin mövcud olması vacibdir [5].

“Mərkəz-region” modelinə görə, ən qabaqcıl texnoloji və sosial nailiyyətləri birləşdirən kiçik bir mərkəz mövcuddur. O, ölçücə daha böyük rayonlarla – mərkəz üçün resurs mənbəsi və ondan gələn yeniliklərin istehlakçısı olan ləng modernləşən uzaq və zəif inkişaf etmiş ərazilər məcmusu ilə müqayisə edilir. Mərkəz və regionun sosial-iqtisadi inkişafının fərqlənməsi texnoloji, sosial və digər yeniliklərin eyni zamanda ortaya çıxmaması ilə şərtlənir. Rayonun mərkəzə tabe edilməsi üstünlüklərinə şəhərlərin miqyasının artmasını və region çərçivəsində bir inzibati ərazi vahidindən digərinə inkişafı ilə bağlı keçidi aid etmək olar. Tabe rayonlarda əhalinin həyat səviyyəsinin aşağı düşməsi və yoxsullaşmasını, sosial gərginliyin artmasını, mərkəzə axını, sosial infrastrukturun həddindən artıq yüklənməsini, regionun cəlbediciliyinin azalmasını “mərkəz-rayon” modelinin çatışmazlıqlarına aid etmək olar. Fikrimizcə, regionda mövcud vəziyyətin yaxşılaşdırılması məqsədilə regional inkişafın dövlət tənzimlənməsi alətlərindən istifadə edərək aşağıdakı meyarları nəzərə almaqla “mərkəz-rayon” modelini təkmilləşdirmək lazımdır:

- bütün səviyyələrdə ərazi maraqlarının nəzərə alınması;
- mərkəzə nisbi məkan yaxınlığı;
- ərazinin inkişafı üçün zəruri olan resursların mövcudluğu;
- iqtisadi, sosial və ekoloji özünü inkişaf qabiliyyəti;
- regionun davamlı tarazlı inkişaf qabiliyyəti;
- regionun inkişaf məqsəd və nəticələrinin uzlaşdırılması yolu ilə irəliləmə qabiliyyəti;
- ətraf (xarici) mühitin çağırışlarına cavab olaraq regionun dəyişmə qabiliyyəti.

Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsində ən aktual problemlərdən biri regionların sosial-iqtisadi inkişafının idarə edilməsinin səmərəli və çevik mexanizminin qurulmasıdır. Burada bütün yük regional və yerli səviyyələrdə sosial sferada islahatların aparılması, fəaliyyət göstərən sosial standartlar və ekoloji normativlərlə təmin edilməsi məsələsinin praktik həlli üzərinə düşür. Qeyd edək ki, bütövlükdə ölkənin sosial-iqtisadi inkişaf nəticələri bu məsələlərin regionda uğurlu həllindən asılıdır.

Sosial-iqtisadi inkişafın idarə olunmasına təkrar istehsal baxımından yanaşmanın mahiyyəti əhali rifahının artımını və səmərəli iqtisadi inkişafı təmin edən regional sistemin elementləri arasında qarşılıqlı əlaqə və asılılığın qurulması zəruriliyindən ibarətdir.

Fikrimizcə, sahə ilə ictimai istehsalın inkişafının ərazi faktorlarının optimal əlaqəsi (ahəngi) aşağıdakı əsas prinsiplərə əsaslanmalıdır:

- istehsal sahələrinin ərazidəki xammal, enerji və əmək ehtiyatlarının yaxınlığında yerləşdirilməsi;
- istehsalın istehlaka yaxınlaşmasının iqtisadi məqsədəuyğunluğu;
- ixtisaslaşmanın başlıca şərti və sosial məsələlərin kompleks həllinin maddi əsası kimi istehsalın və onun ayrı-ayrı seqmentlərinin bir ərazidə toplanması [1].

Regional iqtisadi siyasətin həyata keçirilməsi zamanı qarşıya aşağıdakı məqsədlər qoyulur:

1. tənəzzüllü sahələrdə istehsalın canlandırılması;
2. səmərəli sahibkarlıq zonalarının yaradılması;
3. regional istehsalın rəqabət qabiliyyətliliyinin artırılması.

Sosial sferada regional siyasətin başlıca məqsədi sosial infrastrukturun təkmilləşdirilməsi, tam məşğulluğun təmin edilməsi və ictimai nemətlərin əldə oluna bilmə imkanlarının genişləndirilməsindən ibarətdir.

Sosial ədalət prinsipi vətəndaşların və sosial qrupların iş, gəlir və ictimai nemətlərin əldə edilməsində eyni imkanlara malik olmasıdır [4]. İqtisadi problemlərin həllinə sosial inkişafdan təcrid olunmuş şəkildə diqqət yetirmək olmaz. İqtisadi fəaliyyətin yüksək göstəricilərinin əldə olunduğu vəziyyət aşağı həyat səviyyəsi və yüksək ekoloji təhlükə zamanı qəbuledilməzdir. Sosial siyasətin əsas məqsədi sabitliyin təmin edilməsi, kəskin sosial münaqişələrə yol verilməməsi, gərginliyin meydana gəldiyi yerlərdə onun aradan qaldırılmasından ibarətdir. Regional sosial proqramların maliyyələşdirilməsi mənbələri dövlət büdcəsi və yerli büdcələrdir.

Əhalinin müdafiə olunmayan təbəqələrinə sosial dəstəyin keyfiyyəti böyük ölçüdə region iqtisadiyyatının inkişaf səviyyəsi, yerli büdcənin maliyyə imkanları, sosial infrastrukturun inkişafı imkanları ilə müəyyən olunur.

Dövlətin iqtisadi siyasəti mövcud sosial-iqtisadi vəziyyətdən və onun yaratdığı problemlərdən asılıdır. Tarixən dövlət iqtisadi siyasətinin həyata keçirilməsində iki əsas yanaşmadan istifadə etmışdir: liberal və dirijizm (dirijist). Dirijist iqtisadi siyasətin əsasında iqtisadiyyatın aşağıdakı qeyd olunan yollarla fəal dövlət tənzimlənməsi ideyası dayanır:

a) yüksək texnologiyalar və elmi-tədqiqat işləri sahəsində investisiya tələbinin stimullaşdırılması yolu ilə;
b) iqtisadiyyatın indikativ planlaşdırılması yolu ilə;
c) iqtisadi konyunkturadan asılı olaraq dövlət xərclərinin manevr edilməsi yolu ilə;
ç) əməkqabiliyyətli əhalinin həyat səviyyəsinin yüksəldilməsi və onların tələbatlarının ödənilməsi yolu ilə.

Liberal iqtisadi siyasətin təməl ideyası dövlətin funksiyalarını məhdudlaşdırmaqla insanların klassik, neoliberal və iqtisad elminin digər nəzəriyyələrinə əsaslanan azad əməkdaşlığı üçün hüquqi çərçivəni təmin etməkdir. Liberal iqtisadi siyasətin əsasını təşkil edir:

1. ictimai nemətlərin istehsalına əsaslanan sosial siyasət;
2. mülkiyyət hüquqlarını təmin edən institusional siyasət;
3. antiinhisar siyasət;
4. tədavüldə pul kütləsinin məhdudlaşdırılmasına yönəlmiş sərt pul siyasəti.

Dövlət və bazar tənzimlənməsinin qarşılıqlı münasibəti ilə bağlı institusional nəzəriyyənin əsas ideyası yalnız iqtisadi inkişafın bütün iqtisadiyyatlar üçün ümumi olan pul amilləri və qanunları ilə deyil, eyni zamanda, milli mədəniyyətin növü, insanların və təşkilatların iqtisadi davranışı, mentalitet, dəyərli adət və vərdişlər, müxtəlif iqtisadi sistemlər üçün xas olan hüquqi sistemin vəziyyəti ilə müəyyən olunur. Burada sosial qurum kimi dövlətin məqsədi cəmiyyətin fəaliyyətinin sosial xərclərini azaltmaqdır.

Apardığımız araşdırmanın nəticələrinə əsaslanaraq qeyd edək ki, fikrimizcə, regional iqtisadi siyasətin ən effektli metodlarından biri liberal yanaşmadır. Belə ki, bu yanaşmaya əsasən dövlət yalnız iqtisadi inkişaf üçün şərait yaratmalı, zəruri hallarda bazar mexanizmlərinin köməyi ilə çətin vəziyyətdə olan sahə və müəssisələri dəstəkləməli, regionun tarazlı iqtisadi inkişafını və iqtisadi artımı təmin etmək üçün rəqabəti təşviq etməli, klasterlərin yaradılmasını stimullaşdırmalıdır.

## ƏDƏBİYYAT


1. Qasımov E.E. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası, Bakı, Təhsil, 2011, 192 s.
2. Kerem Karabulut, Fatih Özarslan. Tuzluca: sosyo-ekonomik profil araştırması, Erzurum, 2011, 70 yaprak
3. Zeynel Dinler. Bölgesel iktisat, Bursa, 2012, 449 yaprak.
4. Гранберг А.Г. Основы региональной экономики, Москва, 2003.
5. Мокроносов А.Г., Маврина И.Н. Конкуренция и конкурентоспособность. Учебное пособие, Екатеринбург, 2014, 194 с.


## ABSTRACT


**Jeyhun Mahmudov**


### BALANCED REGIONAL DEVELOPMENT AS ONE OF THE ACTUAL PROBLEMS OF THE MODERN PERIOD


The scientific article examines the essence of balanced economic development, the differences in the economic system, and the factors affecting the formation of economic differences.

The author also outlines the main objectives of regional development, characterizes the concept of sustainable economic growth, and investigates various models of economic development of the region. The article examines the main aspects of the regional economic policy implemented by the state and its application directions. The article also discusses possible approaches that can be used when dealing with it.


## РЕЗЮМЕ


**Джейхун Махмудов**


### УРАВНОВЕШЕННОЕ РАЗВИТИЕ РЕГИОНОВ КАК ОДНА ИЗ ПРОБЛЕМ СОВРЕМЕННОГО ПЕРИОДА


В научной статье рассматриваются сущность уравновешенного экономического развития, отличия в экономической системе, исследованы факторы, влияющие на возникновение экономических отличий. Автор установил основные цели регионального развития, дал характеристику понятия продолжительного экономического роста, а также изучил различные модели экономического развития региона. В статье рассмотрены основные аспекты регионального экономического развития, осуществляемого государством, и его применительные направления, при этом обсуждены подходы, которые могут быть использованы.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ashraf@mail.ru*

**UOT:332**

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA KƏND TƏSƏRRÜFATININ ROLU

**Açar sözlər:** *milli iqtisadiyyat, kənd təsərrüfatı, iqtisadi təhlükəsizlik, ərzaq təhlükəsizliyi, aqrar bazar*
**Key words:** *national economy, agriculture, economic security, food security, agrarian market*
**Ключевые слова:** *национальная экономика, сельское хозяйство, экономическая безопасность, продовольственная безопасность, аграрный рынок*

Ölkənin ərzaq təhlükəsizliyi onun iqtisadi və milli təhlükəsizliyinin *ayrılmaz hissəsidir.* Əhalinin ərzaq məhsulları ilə təmin edilməsi dövlət üçün mühüm əhəmiyyət kəsb edən və həlli vacib olan sosial-iqtisadi problemlərdən biridir. Qeyd etmək lazımdır ki, ərzaq təhlükəsizliyi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Belə ki, bu problemin həlli milli, iqtisadi, sosial, demoqrafik və ekoloji faktorların geniş spektrini əhatə edir. Buna görə də dövlət səviyyəsində sosial-iqtisadi sistem ərzaq təhlükəsizliyi ilə sıx əlaqədardır. Məhz bu baxımdan ərzaq təhlükəsizliyinin təmini daxili resursların mobilizə edilməsinə əsaslanmışdır. Bu yanaşma milli iqtisadi islahatlar strategiyasının işlənib hazırlanması, dayanıqlı inkişafı, effektiv hüquqi normaların istifadəsi, əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı bir çox dəyişikliklərə əsaslanır.

Dövlətin iqtisadi təhlükəsizliyinin prioritetləri dövlətin tarixi inkişaf dövründən və dünyada baş verən dəyişikliklərdən asılı olaraq dəyişir. Müasir dövrdə bu prioritetləri valyuta - kredit, enerji və ərzaq təhlükəsizliyi təşkil edir. Ərzaq təhlükəsizliyinin rolu insanın varlığının baza göstəricisidir. Çünki, ərzağın yoxluğu aclıq və ölümün əsasını qoyur. Hər bir insan üçün gündəlik yüksək keyfiyyətli və müxtəlif növlü ərzaqların qəbulu vacibdir. Əhalinin qidalanma səviyyəsi ölkənin ümumi iqtisadi inkişafının səviyyəsini xarakterizə edir. Əhalinin ərzaq məhsulları ilə təminatı sosial həyatın iqtisadi strukturun həyat qabiliyyətliliyinin səviyyəsinin vacib faktoru və müəyyənləşdirici kriteriyasıdır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, ölkənin strateji maraqlarının qorunmasının başlıca vasitəsi kimi çıxış edir. Məhz prosesə bu aspektdən yanaşdıqda, kənd təsərrüfatının tənzimlənməsi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsinə ehtiyac yaranır. Ərzaq təhlükəsizliyinin təmin olunması kənd təsərrüfatı sahəsində bazar münasibətlərinin inkişaf etdirilməsindən bilavasitə asılıdır. Bu sferada bazar münasibətlərinin inkişaf etdirilməsi baxımından bazarı aşağıdakı aspektdə təsnifləşdirmək mümkündür:

- aqrar bazar;
- ərzaq bazarı;
- kənd təsərrüfatı məhsulları bazarı.

Qeyd etmək lazımdır ki, aqrar bazar yuxarıda adı çəkilən bazar növləri ilə müqayisədə daha geniş anlayışa malikdir. Əslində aqrar bazara həm kənd təsərrüfatı məhsulları bazarını, həm ərzaq bazarını, eyni zamanda torpaq bazarını, aqrar sahədə maddi-texniki resurslar bazarını, aqrar sahədə maliyyə bazarını aid etmək olar.

Beləliklə, yuxarıda adı çəkilən bazar növlərinin məcmusunu özündə əks etdirən aqrar bazar, əslində aqrar əmtəə istehsalçıları, emal müəssisələri, aqrar sahəyə xidmət göstərən maddi-texniki resursların istehsalçıları və satıcıları, eləcə də maliyyə xidməti göstərən qurumlar arasındakı iqtisadi münasibətlərin məcmusunu özündə əks etdirir. Aqrar bazarın elmi əsaslarla qurulması onun kəmiyyət və keyfiyyət göstəricilərinin, bazar tələb və təklifinin və əhalinin rifahı üçün əsas istiqamətlərinin təkmilləşdirilməsini əhatə edir (1, səh. 14).

Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində kənd təsərrüfatı bazarları da mühüm rol oynayır. Kənd təsərrüfatı bazarları kənd təsərrüfatı məhsullarının tədavül sferasında bazar subyektləri arasındakı iqtisadi münasibətlərin məcmusu kimi çıxış edir. Bu zaman aqrar bazarda kənd təsərrüfatı məhsullarının istehsalı və xidmətlər göstərilməsi ön plana çəkilir. Kənd təsərrüfatı bazarları bir qayda olaraq kənd təsərrüfatı xammalının geniş təkrar istehsalı prosesində mövcud olan iqtisadi münasibətlər sistemini özündə əks etdirir. Aparılan araşdırmalar göstərir ki, ərzaq bazarının sərhədləri kənd təsərrüfatı bazarının sərhədləri ilə müqayisədə daha genişdir. Təkcə bir faktı qeyd etmək lazımdır ki, ərzaq məhsullarının müəyyən bir hissəsi

heç də kənd təsərrüfatı mənşəli olmur. Məsələn; balıqçılıq təsərrüfatlarında istehsal edilən məhsullar kənd təsərrüfatı bazarlarına aid edilmir və bilavasitə ərzaq bazarlarına şamil edilir (4, səh. 121).

Aqrar sahədə bazar münasibətlərinin yuxarıda adı çəkilən təsnifatından belə qənaətə gəlmək mümkündür ki, kənd təsərrüfatı bazarlarında, əsas etibarilə kənd təsərrüfatı xammalının tədavülü prosesləri həyata keçirilir. Ona görədə regiondakı sərvətlərdən və təbii ehtiyatlardan səmərəli istifadə etmək, kənd təsərrüfatı və emal məhsullarını artırmaq, xidmət və digər infrastruktur obyektlərini, müvafiq sahələri inkişaf etdirmək üçün beynəlxalq layihələrdən istifadə edilməsi əsas şərtlərdəndir (2, səh. 150).

Kənd təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi və mütərəqqi texnologiyalardan istifadə edilməsi ərzaq təhlükəsizliyində müsbət nəticələr əldə edilməsinə imkan yaradar. Araşdırma nəticəsində belə qənaətə gəlmişik ki, regionumuzda bəzən təbii-iqlim şəraitinin əlverişsiz keçməsi, eləcə də regionlarda təbii-iqlim şəraitinin kənd təsərrüfatı istehsalı üçün yetərli olmamağı və digər bu kimi amillər bütövlükdə regionun ərzaq təhlükəsizliyinə öz mənfi təsirini göstərir. Təbii ki, bu problemə təsir göstərən amillərə eyni zamanda texnoloji proseslərin zəif olmasını, eləcə də aqrar-sənaye kompleksində istehsalın qeyri-səmərəli fəaliyyət göstərməsini də aid etmək olar. Təhlil göstərir ki, ərzaq müstəqilliyində bütün hallarda əhəmiyyətli rol oynayan kənd təsərrüfatı və emal sənayesində texnoloji proseslərin geri qalması məhsuldarlığın səviyyəsinin aşağı olmasına və eləcə də istehsal edilən məhsulların nəinki xarici bazarda, eləcə də daxili bazarda effektiv şəkildə rəqabət aparmaq iqtidarında olmamağı ilə sonuclanır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, mütərəqqi texnologiyaların tətbiq edilməsi kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinə əhəmiyyətli təsir göstərir və bu da son nəticədə məhsul vahidinə çəkilən xərclərin aşağı salınmasında bilavasitə önəmli rola malikdir. Ona görə də hesab edirik ki, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsinin davam etdirilməsi regionun ərzaq bazarının inkişaf etməsinə və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə yardımçı ola bilər.

Kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi və kooperasiya formasında təşkili əsas faktorlardan biridir. Muxtar respublikanın bir çox kəndlərində bəzən kənd təsərrüfatı istehsalçılarının sərəncamında olan torpaq resurslarının həcminin aşağı olması, son nəticədə həmin əmtəə istehsalçılarının manevr imkanlarını məhdudlaşdırır. Məhz belə bir şəraitdə iqtisadi səmərəliliyin həmin müəssisələr üçün aşağı səviyyədə olması artıq reallıqdan irəli gəlir. Bu da ərzaq təhlükəsizliyinin təmin olunmasına mənfi təsir göstərir. Odur ki, muxtar respublikanın kənd təsərrüfatında istehsalın intensivləşdirilməsinə və kooperasiya münasibətlərinin inkişaf etdirilməsinə gələcəkdə xüsusi diqqət yetirilməsi ərzaq təhlükəsizliyinin təmin olunmasında öz müsbət töhvəsini verəcəkdir.

Yerli kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması, kənd təsərrüfatının elmi şəkildə inkişafı məqsədilə 2018-ci ildə Naxçıvan MR Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi, həmçinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi üçün yeni inzibati bina 7 istifadəyə verilmiş, müasir avadanlıqlarla təchiz edilmiş Aqrokimya Laboratoriyası yaradılmışdır.

2018-ci ilin məhsulu üçün muxtar respublikada 61935 hektar sahədə əkin aparılmışdır ki, bu da 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur. Tələbata uyğun olaraq kartofçuluğun inkişafında müsbət dinamika saxlanılmış və 2018-ci ildə 3215 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2017-ci ildə əkilmiş sahədən 32 hektar çoxdur. 2018-ci ildə 8 sahələrdən 49574 ton kartof yığılmışdır ki, bu da bir il öncəki göstəricini 1,2 faiz üstələyir. 2018-ci ildə 104 min 413 ton dənli və dənli-paxlalılar, 10523,5 ton dən üçün qarğıdalı, 760,6 ton dən üçün günəbaxan, 85642 ton tərəvəz, 38714 ton ərzaq üçün bostan məhsulları, 55949 ton meyvə, 16222,5 ton üzüm tədarük edilmişdir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 321-i 2018-ci ildə olmaqla, cəmi 2375 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2018-ci ildə 238 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 48-i nağd yolla satılmışdır. Bu dövrdə məhsul istehsalçıları 5156 ton mineral gübrə ilə təmin olunmuşdur. Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı istiqamətində mal-qara arasında xəstəliklərə qarşı profilaktiki tədbirlər həyata keçirilmiş, yeni heyvandarlıq təsərrüfatlarının yaradılması diqqətdə saxlanılmışdır. Belə ki, 2018-ci ildə 17 heyvandarlıq təsərrüfatı yaradılmış, 3 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 1 heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilmişdir. Ümumilikdə 2018-ci ildə bank və kredit təşkilatları tərəfindən bu sahəyə 4 milyon 950 min 400 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 2,8 dəfə çoxdur.

Həyata keçirilən tədbirlər kənd təsərrüfatının inkişafına öz təsirini göstərmiş, 2018-ci ildə bir il öncəyə nisbətən 4,4 faiz çox, yəni 480 milyon 21 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur (5).

Yer kürəsində baş verən ekoloji və iqlim dəyişiklikləri, kənd təsərrüfatı istehsalına yararlı torpaq sahələrinin və su resurslarının azalması, eroziya proseslərinin sürətlənməsi, habelə dünya əhalisinin müntəzəm artması ərzaq məhsullarına qlobal tələbatın yetərincə ödənilməsində ciddi problemlər yaratdığı bir dövrdə

muxtar respublikamızda kənd təsərrüfatı sahəsində həyata keçirilən məqsədyönlü iqtisadi siyasət ərzaq təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynamışdır.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan Muxtar Respublikasında aqrar bazarın sosial-iqtisadi inkişaf problemləri, Bakı: ADPU-nun mətbəəsi, 2005, 62s.
2. İbrahimov İ.H. Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri, Bakı: Səda, 2007, 296 s
3. Məmmədov Q.Ş. Azərbaycanda aqrar islahatlar: tənəzzüldən ərzaq təhlükəsizliyinə doğru. Bakı: Azərnəşr, 2011, 352 s
4. Шакин В.В., Р.Г.Ахметов, Н.Я.Коваленко . Сельскохозяйственные рынки. Москва: Колос, 2001, 264 с
5. http://statistika.nmr.az


## ABSTRACT


**Alekberov Aşraf**


## THE ROLE OF AGRICULTURE IN ENSURING FOOD SECURITY


Country's food security is an integral part of its economic and national security. Provision of population with food products is one of the most important socio-economic problems of the state and solution. It should be noted that food security is one of the priorities of state policy. So, the solution of this problem covers a wide range of national, economic, social, demographic and environmental factors. Therefore, the state-level socio-economic system is closely linked to food security. From this point of view, food security is based on mobilization of internal resources. This approach is based on a number of changes in the development of national economic reform strategies, sustainable development, the use of effective legal norms, and improving the living conditions of the population.


## РЕЗЮМЕ


**Ашраф Алекперов**


## РОЛЬ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ОБЕСПЕЧЕНИИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ


Продовольственная безопасность страны является неотъемлемой частью ее экономической и национальной безопасности. Обеспечение населения продовольственной продукцией для государства является одним из значительных и важных социально-экономических проблем. Необходимо отметить, что продовольственная безопасность является одним из приоритетных направлений государственной политики. Так, решение этой проблемы охватывает широкий спектр национальных, экономических, социальных, демографических и экологических факторов. Поэтому социально-экономическая система на государственном уровне тесно связана с продовольственной безопасностью. Именно с этой точки зрения обеспечение продовольственной безопасности основывается на мобилизацию внутренних ресурсов. Этот подход ссылается на большинство изменений, связанных с разработкой стратегии национально-экономических реформ, со стойким развитием, с использованием эффективных правовых норм, с улучшением жизненных условий населения.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**AMAR QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*ammarhuseyn@yahoo.com*

**UOT:332**

# MİKRO SAHİBKARLIĞIN İLKİN ADDIMLARI, NAXÇIVAN MODELİ KİMİ FORMALAŞAN AİLƏ TƏSSƏRRÜFATLARININ SOSİAL ƏHƏMİYYƏTLƏRİ

**Açar sözlər:** *Sahibkarlıq fəaliyyəti,ailə təsərrüfatı, iqtisadi idarəetmə, istehsal münasibətləri, mikro sahibkarlıq, məşğuliyyət*

**Key words:** *Entrepreneurship activities, family economy, economic management, production relations, micro entrepreneurship, employment*

**Ключевые слова:** *деятельность предпринимательства, семейное хозяйство, экономическое управление, производственные отношения, микропредпринимательство, занимательность*

Təqdim edilmiş "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" layihəsi sahibkarlıq subyektlərinin hər birinin konkret öhdəliklərini müəyyənləşdirir. Belə ki, işçi sayı 1-dən 10-a, illik gəlirləri 200 min manatadək olanlar mikro sahibkarlığın fəaliyyəti o qədərdə geniş olmur. Mikro sahibkarlığın iqtisadiyyata töhfəsi çox böyük olmasa da sosial əhəmiyyətləri böyükdür. Mikro sahibkarlıq aztəminatlı ailələrə öz biznesinə başlamaq imkanı yaradır. Eləcə də, inkişaf etməkdə olan ölkələrdə ailə təsərrüfatlarını böhrandan sığortalayır. Dövlətimiz də ailə biznesinin inkişafında maraqlıdır. Bu səbəbdən onun inkişafı üçün müvafiq qanunvericilik aktlarının qəbulunu gecikdirmir. Çünki, biznesin bu qolunun genişlənməsi əlavə xərc çəkmədən, əhalinin məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayır. Bir çox çətinliklərlə üzləşmədən evində, yaxud şəxsi mülkiyyətində olan torpağında işləyib, yaşayış üçün vəsait əldə etmək isə aztəminatlı ailələrin həyat şəraitinin yaxşılaşmasına əsaslı təsir göstərir (1).

Qeyd edək ki, Azərbaycanda ailə təsərrüfatları haqqında hüquqi bazanın yaradılması 2005-ci ilə təsadüf edir. Belə ki, "Ailə kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu"nda (14 iyun 2005-ci il) göstərilir ki, ailə kəndli təsərrüfatı – ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalının, emalının, saxlanmasının, daşınmasının və satılmasının) birgə həyata keçirilməsidir. Ailə kəndli təsərrüfatının tərkibi bir nəfərdən, onun ailə üzvlərindən və onlarla qohumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər. Ailə kəndli təsərrüfatı kənd yerlərində qanunvericiliklə qadağan olunmayan və məhdudiyyət qoyulmayan bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olan təsərrüfatçılıq subyektidir və onun fəaliyyəti sahibkarlıq sayılmır. Qanunvericiliyin məqsədi kənd yerlərində ailə əməyinə əsaslanan təsərrüfatların inkişafının dəstəklənməsi, özünüməşğulluğun stimullaşdırılması və onun səmərəliliyinin yüksəldilməsi, alternativ gəlir mənbələrinin genişləndirilməsi, kənd yerlərinin inkişafının sürətləndirilməsinə şərait yaratmaqdır. Ailə təsərrüfatları mikro sahibkarlıq subyektləri deyil, ondan aşağı meyarda fəaliyyət növüdür. Yəni ailə təsərrüfatları mikro sahibkarlıq üçün bir növ başlanğıc rolunu oynayır. Adından da göründüyü kimi, ailə təsərrüfatı ailə üzvlərinin iştirak etdiyi, idarəçiliyin və varisliyin ailə ənənələri ilə həyata keçirildiyi biznes modelidir. Ailə təsərrüfatında gəlirlərin və kapitalın idarə edilməsində ailə üzvlərinin hamısı bərabər iştirak edir ki, bu da etibarlılığı şərtləndirən vacib amillərdəndir. Ailə biznesində maliyyə intizamı yüksəkdir, hər kəs bir-birinə çox etibar edir. Buna görə də belə biznesdə digər müştəri və tərəfdaşlarla konfliktlərə çox az rast gəlinir. Ailə təsərrüfatı yaradanda bir çoxları işə məhz ailə üzvlərini cəlb etməyə çalışır. Bunun müsbət tərəfi ondadır ki, gəlir ailə büdcəsindən kənara çıxmır, qazancdan hamı bəhrələnir. Digər tərəfdən, ailə üzvlərinin bir-birindən sirləri olmur, buna görə də biznesdə gözlənilməz uğursuz hadisələrin ehtimalı və maddi itkilər çox az olur. Ailə təsərrüfatının digər bir müsbət cəhəti odur ki, biznesin zəif zamanlarında işçilər daha az əməkhaqqı ilə, hətta pulsuz işləməyə razı olurlar. Maliyyə çətinlikləri olduqda, ailə üzvlərinə bunu izah etmək çox asandır. Bundan əlavə, ailə təsərrüfatında bütün ailə üzvləri biznesdə böyük təcrübə keçir və valideynlərin şəxsi timsalında bunu öyrənmə daha effektiv olur. Bu isə ailə başçısına uşaqlarının gələcəyinin təmin olunması və onlara biznesi daha irəli aparmaları üçün geniş imkanlar yaradır. Nəhayət, ailə təsərrüfatı istehsal etdikləri məhsulda yeni dəyərlər yaradır və bu dəyərlər biznes inkişaf etdikcə yaşayır. Ailə təsərrüfatlarının daha önəmli tərəflərindən biri burada ailə üzvlərinin məşğulluğunun təmin olunmasıdır. Məlumdur ki, muxtar respublikamızda əmək qabiliyyətli əhalinin böyük bir hissəsi məhz aqrar sektora məxsus ərazilərdə, yəni kənd-lərdə məskunlaşıb. Deməli, iş üçün şəhərə üz tutanlar elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə

bilərlər. Bu isə ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafına, eləcə də daxili bazarın yerli məhsullarla təmin edilməsinə öz töhfəsini verər(2).

Muxtar respublikamızda iqtisadiyyatın ən vacib sahəsi olan kənd təsərrüfatında istehsalın ixracın stimullaşdırılması, məhsulun rəqabət qabiliyyətliliyinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsinə dövlət dəstəyi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərancamları ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı ( 2005-2010-cu illər)", "2008-2015- ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "2014-2015- ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", həmçinin " Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial –iqtisadi inkişafı Dövlət Proqramı", "2016-2020- ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2017-2022- ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" nın həyata keçirilməsi muxtar respublikada ailə təsərrüfatlarının genişlənməsini, iqtisadiyyatımızın güclənməsini, kənd təsərrüfatının kompleks inkişafını təmin etmişdir(6).

Müasir dövrdə bütün ölkələrin iqtisadi siyasətinin səmərəli təşkili və idarə olunmasında aktuallığnı artıran ən zərruri məsələlərdən birini də ərzaq təhlükəsizliyi təşkil etməkdədir. Muxtar respublikamız səmərəli tədbirlərdən bəhrələnərək ərzaq təhlükəsizliyinin təminatı sahəsində qətiyyətli adımlar ataraq və digər hüqqi tənzimləmələr vasitəsilə olduqca məhsuldar dövrünün əsaslarını müəyyənləşdirmişdir.

Son illərdə yeni bir müasir Naxçıvan qurulmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtı ilə yanaşı, ən ucqar kəndlərini də əhatə etmişdir. Naxçıvan Muxtar Respublikasında tikinti - quruculuq və abadlıq işləri sənaye sahəsindən sonra inkişaf proqramının əhəmiyyətini əks etdirən mühüm göstəricilərdən biridir. Muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri, rayon mərkəzləri, qəsəbə və kəndlər göz oxşayır, Şərq və Qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyara gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir.

Müstəqillik illərində muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biridə səhiyyə sistemidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalini sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. Səhiyyənin inkişafı insanların sağlamlığının qorunması ilk növbədə müasir tələblərə cavab verən, lazımi maddi texniki imkanları və ixtisaslı həkimləri olan səhiyyə müəssisələrinin olmasıdır.

Ulu öndər Heydər Əliyevin ideya-siyasi kursunun uğurla davam etdirilməsi nəticə etibarilə qədim Naxçıvanı inkişafa qovuşdurmuşdur. Beşminillik şəhər mədəniyyəti olan Naxçıvan bu gün həm də müasirliyi ilə öyünür. Keçmişini qorumaqla gələcəyə doğru inamla addımlayır. Məlum olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş VI konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmuşdur(4).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikasının regionlarının illik investisiya reytinqinin müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq investisiya reytinqində ardıcıl iki il lider olması ulu öndər Heydər Əliyevin ideya-siyasi kursunun uğurla davamçısı olan Vasib Talıbov cənablarının Muxtar Respublika iqtisadiyyatının inkişafına göstərdiyi qayğının nəticəsidir.Bütün bunların ardınca Naxçıvanın ölkəmizin gənclər paytaxtı seçilməsi muxtar respublikanın tarixində yaşanan daha bir əlamətdar hadisə olmuşdur(5).

Müasir mərhələdə Muxtar Respublika iqtisadiyyatının dahada inkişaf etdirilməsi istiqamətində qarşıda duran vəzifələrin yerinə yetirilməsi sahibkarlığın inkişafının sürətləndirilməsini, ölkənin sosial –iqtisadi problemlərinin həllində onun rolunu artırılmasını, bu istiqamətdə dövlət qayğısının genişləndirilməsini və ən əsası regionlarda sahibkarlığın inkişafı sahəsində mövcud potensialın reallaşdırılmasını tələb edir. Bu baxımdan qeyd etmək lazımdır ki, sahibkarlığın regional inkişafının sürətləndirilməsi bu gün xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir. İqtisadiyyatın dinamik inkişafı sahibkarlıq fəaliyyətinin genişlənməsinə və uğurlu nəticələrin əldə olunmasına gətirib çıxarmışdır. Mikro sahibkarlığın inkişafı bütövlükdə sahibkarlığın inkişafına öz müsbət təsirini göstərməkdədir. Mikro sahibkarlıq əsasən daxili bazara köklənən əmtəə və xidmətləri reallaşdırır. Bu təsnifatda istənilən inkişaf etmiş təsərrüfat sisteminin ayrılmaz hissəsini təşkil edərək sahibkarlıq üçün münasib mövqe tutur. Əgər böyük biznes ümumtəsərrüfat səmərəliliyinin artırılmasına xidmət edirsə, mikrosahibkarlıq təsərrüfata elastiklik, mobillik verir və tezdəyişən struktura texniki imkanlar yaradır. Mikro sahibkarlığın inkişafını şərtləndirən mühüm cəhətlərdən biridə onunla bağlıdır ki, heç bir dövlətdə iri istehsalçılar kiçik sahibkarlara rəqib kəsilmirlər. Mikro sahibkarlıq iqtisadiyyatın ən çevik və mobil hissəsidir, iri sahibkarlıqların gələcəyidir. O çox asanlıqla yeni şəraitə adabtasiya olunur, müasir texnologiyaları mənimsəyir və risk etməkdən çəkinməyərək yeni istehsal sahələri yaradaraq innovasiya işlənmələrinin əsasında dayanır. Muxtar respublikanın bütün bölgələrində mikro sahibkarlığın ilkin adımları olan ailə təsərrüfatlarının genişlənməsinə dövlət dəstəyi durmadan davam etdirilir. Sahibkarlığın inkişafı və onun dəstəklənməsi Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasətin aparıcı istiqamətlərindəndir. Son illər özəl sektorun inkişafı dahada sürətlənmiş,

sahibkarlığa göstərilən diqqət və qayğı artmışdır. Muxtar respublikada sahibkarlığın inkişafı üçün zəruri maliyyə təminatı yaradılmış, bu sahənin stimullaşdırılması diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə görülən işlərin biridə dövlət tərəfindən mikro sahibkarlara maliyyə dəstəyinin göstərilməsi güzəştli kreditlərin verilməsidir. Mikro sahibkarların güzəştli kreditlərlə təmin edilməsinin nəticəsidir ki, hər il onlarla istehsal və xidmət sahələri yaradılaraq istifadəyə verilir(3-s.210).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasib Talıbov muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla işgüzar görüş keçirmiş və oradakı çıxışlarının birində demişdir: "Mövcud dünya təcrübəsi göstərir ki, kiçik və orta sahibkarlıq subyektləri inkişaf etdirilmədən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaq mümkün deyil". Bu amil əsas götürülərək muxtar respublikada sahibkarlıq subyektlərinin fəaliyyəti diqqət mərkəzində saxlanılır. Bu gün Naxçıvan Muxtar Respublikasında soaial-iqtisadi inkişafın təmin edilməsi üçün sahibkarlıq fəaliyyəti hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Mikro,kiçik və orta sahibkarlığa dövlət büdcəsindən ayrılan vəsaitin həcminin ildən-ilə artırılması, iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, antiinhisar tədbirlərin gücləndirilməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirərək "bir pəncərə" prinsipi əsasında aparılması müsbət təsirini gəstərməkdədir.

Beləliklə, yuxarıda sadalanan xüsusiyyətlər inkişafın Naxçıvan modelinin və ya Naxçıvan möcüzəsinin əsas səbəbi olmuşdur. Çünki Naxçıvan Muxtar Respublikasının ölkəmizin hərtərəfli inkişafındakı rolunu qiymətləndirmək, təkcə coğrafi baxımdan deyil, həmdə iqtisadi, eyni zamanda da, siyasi əhəmiyyətini dəyərləndirmək, sözün həqiqi mənasında, çox mühüm tarixi addımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə deyib: "Naxçıvan uğurla sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq - quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır (5).

**ƏDƏBİYYAT**


1. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında azərbaycan respublikasi nazirlər kabinetinin qərarı.Bakı şəhəri 2019
2. "Ailə kəndli təsərrüfatı haqqında"Azərbaycan respublikasının qanunu. Bakı şəhəri, 14 iyun 2005-ci il
3. T.Abbasov Naxçıvan: aqrar sektorun resurs potensialı,aqrar bazar və iqtisadi inkişaf, Bakı, 2018, 584s
4. "2018-ci ildə Naxçıvan MR-ın sosial-iqtisadi inkişafının yekunlarının xülasəsi" Naxçıvan: Əcəmi 2019
5. http://az.trend.az/business/economy/2485849.html


**ABSTRACT**


**Amar Gasimov**


**PRIMARY STEPS OF MICROENTREURO, SOCIAL IMPORTANCE OF FAMILY ECONOMY FORMED AS NAKHCHIVAN MODEL**


The article deals with the importance of micro-emtrepreneurship and its social significance. The role and economic nature of micro-emtrepreneurship activity in this field have also been highlighted. In the article, the author mentions the role of family economy in the economic life of Nakhchivan Autonomous Republic and substantiates their close relations with micro-emtrepreneurship. The article also explores legal and economic regulation policy of the state in the development of micro-emtrepreneurship and emphasizes the importance of laws and decrees signed in this field. The ways of accelerating the development of micro entrepreneurship in the regions, ensuring the sustainable development of the economy through efficient use of labour resources, natural and economic potential, increasing the level of social life of population, and ways to achieve unemployment and poverty reduction in the country have broadly been studied in the article as one of the crucial issues in the Autonomous republic


**РЕЗЮМЕ**


**Амар Гасымов**


**ПЕРВИЧНЫЕ ШАГИ МИКРОПРЕДПРИНИМАТЕЛЬСТВА, СОЦИАЛЬНОЕ ЗНАЧЕНИЕ СЕМЕЙНЫХ ХОЗЯЙСТВ, ФОРМИРУЕМЫХ КАК НАХЧЫВАНСКИЙ МОДЕЛЬ**


В статье обстоятельно говорится о микропредпринимательстве и его социальном значении. Автор коснулся вопроса о роли и экономической сущности деятельности микропредпринимательства. В статье говорится о роли семейных хозяйств в экономической жизни Нахчыванской Автономной Республики обосновывается их тесная связь с развитием микропредпринимательства. Здесь говорится о политике государства в области правово-экономическом регулировании развития предпринимательства и о значении подписанных законов и указов. Как одна из неотложных задач в автономной республике широко откомментированы пути ускорения развития в регионах микропредпринимательства, эффективного использования здесь трудовых ресурсов, естественных и экономических потенциалов, намечены цели добиться последовательному развитию экономики, улучшению уровня социальной жизни населения, уменьшению безработицы и бедности.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
*eva.alieva.2012@mail.ru*

**UOT:332**

# İNNOVASİYALARIN MƏNİMSƏNİLMƏSİNİN TƏŞKİLATİ-İQTİSADİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

**Açar sözlər:** *innovasiya yönümlü iqtisadiyyat, innovasiyalı siyasət, vencur siyasəti, güzəştli vegitutma, sabit iqtisadi artım*

**Keywords**: *innovation-oriented economy, innovation policy, vigorous policy, concessional tax, stable economic growth*

**Ключевые слова:** *инновационная экономика, инновационная политика, венчурная политика, льготное налогообложение, стабильное экономический рост*

İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İnnovasiya fəaliyyətinin nəticəsi olaraq yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər məsələlərdə uğurlu həllər hesab edilir. İstehsalatda elmi-texniki tərəqqinin nailiyyətləri məhz innovasiyalar formasında yayılır. “İnnovasiya” anlayışı daxilində yeni qayda, yeni üsul, yeni məhsul və ya texnologiya, yeni hadisə nəzərdə tutulur. İnnovasiyanın əldə edilməsi, onun cəmiyyətin maddi mühitində təkrar istehsalı və reallaşdırılması fəaliyyəti innovasiya prosesini təşkil edir. İnnovasiya prosesləri elmin ayrı-ayrı sahələrində yaranıb istehsal sahəsində tamamlanaraq, onun daxilində mütərəqqi, keyfiyyətcə yeni dəyişiklərə səbəb olur. İnnovasiyalar həm texnika və texnologiyaya, həm də istehsalın və idarəetmənin təşkili formalarına aid edilə bilər.

Son dövrlərdə ölkəmizdə həyata keçirilən islahatlar bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaratmısdır. Azərbaycanda makroiqtisadi sabitliyə, dayanıqlı iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar əldə olunmuşdur. Eyni zamanda, sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkarlığın inkisaf etdirilməsi, innovasiyalara əsaslanan iqtisadiyyat modelinin bərqərar olması istiqamətində mühüm addımlar atılmışdır.

Hazırda əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının layiqli səviyyəyə çatdırılması, habelə elmin və mədəniyyətin inkişafında yeni nailiyyətlərin əldə olunması olan iqtisadi siyasət ölkəmizdə uğurla davam etdirilməkdədir.

Müasir dövrdə beynəlxalq rəqabətin güclənməsi fonunda dövlətlərin səyləri yalnız innovasiyaların əsas mənbəyi olan elmi-tədqiqat və sınaq-konstruktor islərinə maliyyə qoyuluşlarının və tədqiqatlarla məşğul olan qurumların, mütəxəssislərin artırılmasına deyil, həm də innovasiyaların həyata keçirilməsinin səmərəliliyini asağı salan, biliklərin və texnologiyaların mübadiləsinə mane olan, innovativ sistemlərin fəaliyyətini çətinləşdirən sistem boşluqlarının aradan qaldırılmasına yönəldilir. Digər tərəfdən, innovasiyaların həyata keçirilməsi üçün maliyyə bazasının yaradılması regionun elmi-texniki siyasətinin mühüm elementi kimi çıxış etməkdədir.

Qeyd etmək yerinə düşər ki, innovasiyalar bir tərəfdən xərc elementinin təzahürü olduğu halda digər tərəfdən alınan müsbət nəticələrin də zəmini hesab olunmalıdır. Rəsmi statistika əsasında aşağıdakı informasiya ilə rastlaşmaq mümkündür.

***Cədvəl 1.***Fəaliyyət növləri və tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 31.589 | 9.326 | 13.877 | 21.534 | 35.179 | 27.929 |
| Mədənçıxarma sənayesi | 692.9 | 778.4 | 8197 | 4133 | 2671 | 179.6 |
| Emal sənayesi | 29.319 | 8.083 | 4.066 | 17.384 | 32.493 | 27.744 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | - | 464.5 | 1614 | 17.0 | 15.1 | 5.0 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 1 577 | - | - | - | - | - |

Mənbə**: stat.gov.az.**

Cədvəl 1-in nəticələrinə müvafiq olaraq qeyd edə bilərik ki, sənaye sahəsi üzrə 2011-2016-cı illərdə

ümumilikdə texnoloji innovasiyalara çəkilən xərclərin tərkibində 85%-dən yuxarı həcmi emal sənayesinin payına düşür.

Məsələnin ikinci tərəfini alınan müsbət nəticələr də nəzərdən yayınmamalıdır. Aşağıdakı cədvəl 2007-2016-cı illərdə innovasiyaların tətbiqi nəticəsində əldə olunan yeni, məhsulun dəyər ifadəsini xarakterizə etməkdədir.

***Sxem 2***. Sənayedə məhsul istehsalına tətbiq olunan innovasiyalar, min manat

| İllər | Sənaye məhsulu ilə bağlı innovasiyaların tətbiqi nəticələri | |
|---|---|---|
| | Əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul | Təkmilləşdirilmiş məhsul |
| 2007 | 826.3 | 399.4 |
| 2008 | 6 842 | 1 715 |
| 2009 | 730.9 | 68.8 |
| 2010 | 4.384 | 2.029 |
| 2011 | 13.163 | 14.403 |
| 2012 | 23.052 | 1.045 |
| 2013 | 11.634 | 883,1 |
| 2014 | 12.319 | 1.118,0 |
| 2015 | 929.7 | 589.7 |
| 2016 | 35.747 | 540.9 |

Mənbə: **stat.gov.az.**

**Cədvəl 2**-dən də göründüyü kimi, illər üzrə kəmiyyətlərdə artma-azalma yönündə dalğalanmalar baş versə də, istehsalın innovasiyalara meyilliliyi ahəngiməmişdir. Bu isə istehsal sahəsində iki məsələnin daima aktuallığına dəlalət edəcəkdir:

1. əhalinin tələbatının daha geniş spektrə və keyfiyyətli ödənilməsi;
2. istehsalın texniki və texnoloji aspektlərdə yeni məhsulların mənimsənilməsində maraqlı olması.

Sənayedə innovasiyaların tətbiqi istəkləri onların qarşılığı olan tələbləri də irəli sürməkdədir. Sənayedə innovasiyaların tətbiqi aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir:

- ✓ yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi
- ✓ texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması
- ✓ yeni texnologiyaların alınması
- ✓ proqram vəsaitlərinin alınması
- ✓ yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi
- ✓ innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı
- ✓ marketinq tədqiqatlarının aparılması və s.

Lakin sənaye müəssisələrində innovasiyanın tətbiq edilməsinə bir sıra iqtisadi, istehsal və digər amillər təsir göstərir:

| | |
|---|---|
| İqtisadi amillər | Pul vəsaitinin kifayət qədər olmaması |
| | Təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması |
| | Yeniliklərin dəyərinin yüksək olması |
| | Yüksək iqtisadi risk |
| | Müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi |
| | Satış bazarları haqqında informasiyanın çatışmaması |
| İstehsal amilləri | Müəssisənin innovasiya potensialının aşağı olması |
| | İxtisaslı işçilərin çatışmaması |
| | Yeni texnologiyalar haqqında informasiyanın çatışmaması |
| Digər səbəblər | Daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması |
| | İnnovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ - hüquqi sənədlərin olmaması |
| | İnnovasiya prosesi müddətinin qeyri-müəyyən olması |
| | İnnovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquq, bank və s. xidmətlərinin) inkişaf etməməsi |

Sənaye müəssisələrində innovasiya tədbirlərinin maliyyələşdirilməsi mənbələrini yeni yaradılmış innovasiya fondları, dövlət büdcəsindən məqsədli şəkildə innovasiya proqramlarına və layihələrinə ayrılan vəsaitlər, təsərrüfat obyektlərinin öz vəsaitləri, bank kreditləri, xarici investisiyalar, vençur maliyyələşdir-mələri və digər maliyyələşdirmə mənbələri təşkil edə bilər.

Fikrimizcə, muxtar respublikanın sənaye müəssisələrinin innovativ inkişafını təmin etmək üçün aşağıdakı təkliflərin reallaşdırılması ilə müəyyən nəticə əldə etmək olar:

- ✓ innovasiya fəaliyyəti üçün vacib olan iqtisadi-hüquqi və sosial-mədəni mühitin yaradılması, innovasiya fəaliyyətinin təşkilinin, innovasiya infrastrukturunun yeniləşdirilməsi;
- ✓ sənaye məhsullarının ümumi həcmində yeni məhsulların xüsusi çəkisinin daha da artırılması;
- ✓ sənaye müəssisələrinin tərkibində innovasiya fəallığı ilə seçilən müəssisələrin sayının artırılması;
- ✓ sənaye istehsalının ümumi həcmində sertifikatlaşdırılmış məhsullar buraxılışının payının artırılması;
- ✓ sənayedə əsas istehsal fondlarının (aktivlərinin) yeniləşdirilməsi səviyyəsinin yüksəldilməsi;
- ✓ intellektual məhsulların və mülkiyyətin qorunub saxlanması və kommersiyalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi,
- ✓ ixtiraların, patentlərin, səmərələşdirici təkliflərin sayının artırılması;
- ✓ innovasiya proseslərinin fəallaşdırılması və genişləndirilməsi üçün yüksək ixtisaslı kadr hazırlığı sisteminin yaxşılaşdırılması.

"İnnovasiya siyasəti" hökumət orqanlarında geniş müzakirə olunmaqdadır və bu məqsədlə innovasiya prosesinə müxtəlif hökumət təşkilatları cəlb edilir. Son on il ərzində innovasiya məsələləri çoxsaylı Dövlət Proqramlarına daxil edilmişdir. Bu proqramların hər birinin öz məqsədləri və vəzifələri olduğundan, məqsədlərin bəziləri hökumətin innovasiya siyasəti məqsədləri kimi hesab oluna bilər.

Ölkəmizdə innovasiya siyasətinə hökumət orqanları tərəfindən göstərilən diqqət və qayğı, eləcə də dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycanda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"nin yaradılması və onun uğurlu fəaliyyəti bu sahənin ölkə iqtisadiyyatının strateji inkişafında nə qədər vacib və zəruri olduğunu bir daha göstərir. Bu Agentliyin yaradılmasında əsas məqsəd ondan ibarətdir ki, müasir innovasiyaları tətbiq etməklə vətəndaşlara dövlət qurumları tərəfindən göstərilən xidmətlərin daha keyfiyyətli və rahat şəkildə həyata keçirilməsi mümkün olsun.

İqtisadi inkisafın müasir mərhələsində müəssisələr innovasiya layihələrinin həyata keçirilməsi üçün zəruri olan başlıca komponentlərə - vencur kapitalına, yüksək ixtisaslı kadrların, yeni ideya və tədqiqatların yerdəyişməsinə nəzarət yolu ilə innovasiyaların yaradılmasının və istehsalının coğrafiyasına güclü təsir göstərirlər.

Beləliklə, müəssisələrin innovasiya siyasəti ölkələrin bu prosesdə mövqeyinə (liderliyinə və ya geriləməsinə) təsir göstərməklə onların rəqabətqabiliyyətliliyinin yüksəldilməsində mühüm rol oynayır.

İnkişaf etməkdə olan sənaye ölkəsi olan Azərbaycanda innovasiya kapitalı üçün güzəştli vergitutma, yüksək ixtisaslı kadrların hazırlanması, zəruri infrastrukturun inkişafına yönəldilmiş investisiya siyasəti və digər belə tənzimləmə vasitələrilə müəssisələrin innovasiya laboratoriyalarının və istehsal sahələrinin yaradılması stimullaşdırıla bilər. Müəssisələrin innovasiya fəaliyyətinin milli iqtisadiyyata cəlb edilməsi ölkənin elmi texniki potensialının genişlənməsinə, rəqabətqabiliyyətliliyinin mövcud olan amillərindən istifadənin səmərəliliyinin yüksəlməsinə, innovasiya prosesinin intensivləşməsinə və son nəticədə Azərbaycanın beynəlxalq arenada rəqabətqabiliyyətliliyinin yüksəlməsinə kömək edə bilər. Ölkənin milli innovasiya sisteminin, həmçinin innovasiya infrastrukturunun əsas elementlərini təşkil edən innovasiya strukturlarının, eləcə də onlardan biri hesab olunan İKT-profilli texnoparkların fəaliyyətinin nəticələrini qiymətləndirmək olduqca aktual bir məsələdir. Ona görə də gələcəkdə bu işi daha dəqiq həyata keçirmək üçün, ilkin olaraq, həmin prosesin elmi-metodoloji əsasları islənilməlidir. İnnovasiya strukturlarının fəaliyyətinin səmərəlilik dərəcəsinin qiymətləndirilməsi həmin sahədə mövcud olan problemləri üzə çıxarmaga, onların həlli yolları və vasitələrini müəyyən etməyə imkan verir. Bundan başqa, innovasiya strukturlarının inkişaf strategiyasının praktiki olaraq həyata keçirilməsi səviyyəsinin qiymətləndirilməsini təyin etməyə və seçilmis variant vaxtında müvafiq düzəlişlər etməyə şərait yaranır. Eyni zamanda, innovasiya strukturlarının səmərəliliyinin vaxtında qiymətləndirilməsi və onlardan istifadə olunması onun müvafiq statusu almağa məqsədəuyğunluğu haqqında elmtutumlu şirkətlərin də qərarlarının qəbuluna bilavasitə təsir edir.

Dinamik inkişaf mərhələsində olan Azərbaycanda çoxşaxəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, şaxələndirilməsi, əhalinin rifahının beynəlxalq standartlara çatdırılması elmin, mədəniyyətin, bir sözlə, ictimai həyatın bütün sahələrində yeni nəaliyyətlərin əldə olunmasına imkanlar yaradır. Bilik iqtisadiyyatının güclü inkişafına nail olmaq üçün Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da innovasiya yönümlü institutların yaradılması və müasir modelin formalaşdırılması, sosial infrastrukturun təkmilləşdirilməsi üçün geniş imkanlar açır. Həmin Konsepsiyasının "Müasir dövrümüzün əsas çağırışları" bölməsində qeyd edilir ki: "Qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu, əslində qloballaşmanın "müsbət yüklü" effektidir və getdikcə daha çox hər bir ölkənin innovasiya sahəsindəki nailiyyətlərdən, qabaqcıl texniki standartlardan və idarəetmədə yeni metodlardan yararlanmasına imkan verir. Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır".

Beləliklə, dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, ilk növbədə, sosial təhlükəsizliyin təmin edilməsinə, ənənəvi inzibati-bürokratik metodların tətbiq edildiyi sahələrin yeni texnologiyalarla əvəz edilməsinə, ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm tutumlu cəmiyyətin və mədəniyyətin bərqərar edilməsinə yönəldilmişdir.

Vacib məqsədlərə nail olmaq üçün ilk növbədə təbii resurslardan asılılığın azaldılması və qeyri-neft sektorunun inkşaf etdirilməsi ilə yanaşı, elmtutumlu istehsal sahələrinə, innovasiyalara diqqətin artırılması nəzərdə tutulmuşdur. Bu istiqamətlərdə real nəticələr əldə etmək üçün biliklərə əsaslanan iqtisadiyyatın formalaşması, İKT-dan səmərəli istifadə edilməsi, iqtisadi inkişafda yüksək rentabelliyə nail olmaq üçün yeni təfəkkürlü, yaradıcı gəncliyin formalaşması məsələlərini ön plana çıxarmışdır.

Konsepsiyanın əsas strateji baxışı - mövcud imkanları va ehtiyatları nəzərə alaraq Azərbaycanda sabit iqtisadi artımın, ölkənin ictimai həyatında vətəndaş cəmiyyətinin aktiv statusunun üstünlüyünün tam təminatı ilə xarakterizə olunan inkişaf mərhələsinə nail olmaqdır. Bu baxımdan demək olar ki, həyata keçirilən sosial - iqtisadi siyasət Azərbaycanda hər bir vətəndaş üçün geniş imkanlar yaradır. Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, möhtaram cənab Prezident İlham Əliyev tərəfindən müasir qlobal çağırışlar əsasında zənginləşdirilərək, uğurla davam etdirilən milli inkişaf strategiyası ölkəmizin və xalqımızın gələcəyina böyük nikbinliklə baxmağa imkan verir.

## ƏDƏBİYYAT


1. Hüseynova İ. İnformasiya texnologiyalarının inkişafı dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir.//Azərbaycan, 2007, 26 oktyabr, N 240.
2. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. B: 2009.416 s.
3. Qəribov A. İqtisadi inkişaf və innovasiya fəaliyyətinin təşkili formaları. Naxçıvan, Elmi-praktiki konfrans, 2015, 28 noyabr, s. 23-26
4. Гусейнова А.Д. Информационное обеспечение инновационной деятельности в Азербайджанской Республике.I BEPK-ın materialları. Bakı, Elm, 2007, s 13-17


## ABSTRACT

**Havva Adıgozalova**

### WAYS TO IMPROVE THE ORGANIZATIONAL-ECONOMIC MECHANISM OF INNOVATION ACQUISITION


As is known, the independent state of Azerbaijan has made an important milestone in its historical development - 25 years of its sovereign development. At present, our society is a witness of the radical reform policy, which envisages the comprehensive development of the non-oil sector of our country.

The article deals with the importance of innovations in recent reforms and the impact of development on the development of the republic. It is noted that at present, the development of incentive mechanisms in all directions has begun with the aim of expanding and implementing innovation activities at all levels of our society. Formation of the innovation-oriented economy has had a positive impact on the wellbeing of the population, the development of science, culture and infrastructure. The article focuses on the dynamics of innovations, innovative activities, subject of innovations, and so on. concepts are being reviewed. In addition, key criteria and indicators that determine the innovative development of world states are analyzed. The article also discusses the impact of modern enterprise innovation on the major components of enterprise innovation projects, such as self-sustaining capital, highly qualified personnel, and new ideas and research.


## РЕЗЮМЕ

**Хавва Адыгезалова**

### ПУТИ УСОВЕРШЕНСТВОВАНИЯ ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКОГО МЕХАНИЗМА УСВОЕНИЯ ИННОВАЦИЙ


Как известно, независимое Азербайджанское государство прошло важный путь в своем историческом развитии - 25 лет своего суверенного развития. В настоящее время, общество свидетель коренных реформ, предусматривающих переход от нефтяного периода к всестороннему развитию не нефтяной сферы. Статья посвящена свойствам и особенностям инноваций и тому, как влияют инновации на изменения в экономическом развитии республики в последнее время. Отмечается, что в целях усовершенствования инновационной деятельности и ускорения внедрения этой формы во все сферы общества отрабатываются механизмы стимулирования во всех направлениях. Формирование инновационного государства оказывает положительное влияние на повышение благосостояния населения, на развитие науки, культуры и инфраструктур. В статье рассматриваются такие понятия, как динамика инноваций, инновационная деятельность, субъекты инноваций и т. д. Также, рассматриваются критерии показатели, определяющие инновационное развитие стран мира. В статье, также, говорится о влиянии высокоспециализированных кадров, новых идей и исследований на важный компонент, осуществляющий инновационные проекты на предприятиях на современном этапе экономического развития- венчурный капитал.


---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**HƏSƏN ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:332**

# SAHƏVİ TƏNZİMLƏMƏ ÜZRƏ DÖVLƏT SİYASƏTİ, ONUN REGİONAL MÜSTƏVİDƏ İSTİQAMƏTLƏRİ VƏ TƏŞKİLATİ MEXANİZMLƏRİ

**Açar sözlər:** *iqtisadi sahə, sahəvi tənzimləmə, tənzimləmə siyasəti, regional iqtisadiyyat, regional tənzmləmə*

**Keywods:** *economic sector, sectoral regulation, regulatory policy, regional economy, regional regulation*

**Ключевые слова:** *экономическая отрасль, отраслевое регулирование, политика регулирования, регональная экономика, региональное регулирование*

Azərbaycanda təkamülün formalaşması digər məsələlərlə yanaşı sahəvi tənzimləmə məsələlərinin aktullığını da ifadə etməkdədir. Məzmunca bu tənzimləmə özündə kifayət qədər geniş tərkibə malik istiqamətləri birləşdirməkdədir. Həmçinin, mövcud şəraitdə dövlətin sahəvi tənzimləmədə rolunun lazımi səviyyədə qiymətləndirilməsi də zəruri məsələlərdən hesab olunmaqdadır. İnzibati amirlik sisteminin uzunmüddətli bərqərar olması və müstəqillik "parametrləri" ilə uyğunsuzluq təşkil etməsi iqtisadiyyatın ümumi mənzərəsi ilə yanaşı ayrı-ayrı sahələr üzrə fəaliyyətin müasir dövrün tələblərinə uyğun həyata keçiril-məsinə baxışın yenilənməsini tələb edirdi. Bu fəaliyyət ilk növbədə öncəki sistemin formalaşmasında özünü əyani sürətdə biruzə verən iqtisadi elastikliyin zəifliyi (bəzi sahələrdə tamamilə olmaması), adaptasiya proseslərinə gec cavab verməsi, məhsuldarlıq səviyyəsinin aşağı olması kimi şərtlər əsasında öz zəruriliyini qorumaqda idi. İstənilən ölkənin iqtisadi sisteminin yenidən qurulması "keçid" adlandırılan və bəzi hallarda bir çox onillikləri əhatə edən dövr üzərində formalaşmalır. Bir çox inkişaf etmiş ölkələr üzrə əldə olunan beynəlxalq təcrübə də göstərir ki, bu proses özünün:

- çoxsaylı Qanun və digər hüquqi-normativ sənədlərin qəbulu ilə;
- "yazılmayan" sosial və digər xarakterli qaydaların məqsədyönlü tətbiqi ilə;
- yerli şərait və imkanların səfərbər olunması, onların qarşılıqlı əlaqələndirmə, təsir-əkstəsir və digər şərtlər daxilində düzgün, sistemli və kompleks şəkildə qiymətləndirilməsi ilə;
- zəruri kadr potensialının formalaşdırılması ilə;
- real iqtisadi həyatı və hüquqi-normativ bazanın biri-birini tamamlaması, qarşılıqlı uzlaşmaya nail olunması ilə;
- təşəbbüskarlıq hissinin bərqərar olması və inkişafı ilə;
- mövcud şəraitə uyğunluğu təmin edəcək digər şərtlərlə müşayət edilməkdədir. [3; 165]

Müstəqillik əldə etmiş Azərbaycanın "kövrək" addımlarla müşayət olunan ilk illəri iqtisadi sferanı möhkəmlənməsində əsaslı addımların atılmasına şərait yaratmamışdır. Müdafiə potensialının formalaşması prosesini öncül istiqamət kimi seçən müstəqil respublikanın onsuzda zəif olan iqtisadi imkanlarını bir az da zəiflədirdi. Maliyyə resursları ilə təminat sahəsində mövcud olmuş nəzərə çarpacaq çatışmazlıqlar nəticəsində istər ümumilikdə, istərsə də regional müstəvidə sistemli yeniləşmə və quruculuq işlərinin icrası mümkün deyildi. Eyni zamanda 1991-1993-cü illərdə ölkədə idarəetmə və tənzimləmə mexanizmlərinin qurulması və icrası sahəsində səriştəli kadrların lazımınca təmsil olunmaması ilə də əlaqələndirilməlidir. Keçmişdəki iqtisadi əlaqələrin böyük hissəsinin pozulması, yenilərinin isə yaradılmaması, ölkədəki siyasi sabitliyin pozulmasına, onun parçalan-masına yönələn addımların atılması da bəhs olunan istiqamətdə öz sözünü deməkdə idi.

Müstəqilliyin ilk illəri müvafiq hüquqi-normativ bazanın bazar münasibətlərin, bu sahədə mövcud olan beynəlxalq təcrübə nəaliyyətlərinə uyğunsuzluğu ilə də xatırlanmaqdadır. Həm ümumi iqtisadi, həm də fərdi sahəvi müstəvidə qanunvericilik bazası yönündə böyük ölçüdə Sovet qanunlarına əsaslanaraq işlərin görülməsi həmin dövrdə səmərəli fəaliyyətin təşkili, zəruri tənzimləmə elementlərindən istifadə, optimal idarəetmənin formalaşdırılması kimi məsələlərdə arzuolunan nəticələrin nail olunmasına imkan vermirdi. Buna həmçinin mövcud olan müxtəlif dərəcəli hüquqi aktların lazımınca qiymətləndirilməməsi, onların çatışmazlıqlarının operativ sürətdə aradan qaldırılması sahəsində mövcud olmuş nöqsanlar da əlavə olunmalıdır. Müstəqilliyin ilk illərində ölkəmizdə mövcud olmuş böhran sosial, etik, psixoloji və digər uyğun sahələrdən də yan keçməmiş, bu da son nəticədə özünü ümumilikdə qayda və qanunlara riayət edilməsi, davranış, əxlaq və digər məsələlərlə yanaşı iqtisadi təşkilatlanmada, istehsal proseslərinin icrasında, sahələrin təkamülündə manea

amili kimi biruzə verirdi. Həmin dövr yerli şərait və imkanların qiymətləndirilməsi sahəsində yer almış çatışmazlıqlarla da müşayət olunmaqda idi. Belə ki, əksər sənaye və digər təyinatlı subyektlərin öz fəaliyyətini dayandırması, vergi və gömrük sistemlərində heç bir stimullaşdırıcı alətlərdən istifadə olunmaması, yerli xammal bazasının fəal iqtisadi dövriyyəyə cəlb olunmasının zəifliyi, peşəkar işçi qüvvəsinin bir çox hallarda öz daimi iş yerlərindən uzaqlaşaraq ölkə hüdudlarından kənara qazanc dalınca yollanması, maddi maraq prinsipinə aşağı səviyyədə əməl olunması, bəhs olunan istiqamətlərdə heç bir tənzimləyici addımların atılmaması, respublikada köklü iqtisadi və əlaqəliliyi ilə seçilən digər islahatların keçilməsinin yubadılması ümumilikdə ölkənin, o cümlədən onun regionlarının iqtisadi potensialının formalaşmasında öz izlərini buraxmışdır.

Yaranmış vəziyyətin elmi-nəzəri tədqiqi və təcrübi tətbiqi ayrı-ayrı sahələr üzrə formalaşan vəziyyətin düzgün qiymətləndirilməsi və müvafiq çıxış yollarının göstərilməsini şərtləndirir. Bu baxımdan ilk növbədə ümumi, o cümlədən sahəvi tənzimləmədə görüləcək işlərin istiqamətlər üzrə müəyyən edilməsi, onların zərurilyini diktə edən səbəblərin sistemləşdirilməsi və uyğun vəzifələrin dəqiqləşdirilməsi ehtiyacı çıxır. Nəzəri-metodoloji araşdırmaların təşkilində müvafiq sahəvi tənzimləmə fəaliyyətinin aparılması zərurətinin haradan qaynaqlanması, ona ehtiyacın yaranması səbəbləri prioritetlərdən biri kimi müəyyən edilir. Sahəvi tənzimləmənin aparılması zamanı bu addımı atmağa vadar edən amillərin müəyyənləşdirilməsi və əhatəli araşdırmaya məqsədyönlü, tələblərə uyğun cəlb edilməsi tənzimləmə prosesinin uğurla aparılmasının zəminidir. Belə halda tənzimləməyə məruz qalacaq, onun obyektini təşkil edəcək hər bir element haqqında ətraflı informasiya toplanılmalı, onun müxtəlif situasiyalarda təzahürü haqqında düşüncələr ümumiləşdirilməlidir. Bu sahədə dövlətin, onun həyata keçirdiyi siyasətin yeri və rolu ölkə iqtisadiyyatının tərəqqisində danılmazdır. O, əlində cəmlədiyi çoxsaylı alət və vasitələrlə iqtisadi inkişafın "məcrasını" dəyişmək, daha məhsuldar mühit yaratmaq, daha çevik tənzimləmə sistemi qurmaq iqtidarındadır.

Bəhs olunan fikir incələnməklə, onu yarada biləcək mühüm səbələr sırasında aşağıdakıların ümumi şəkildə göstərməsini məqsədəuyğun hesab edirik:

- ölkə iqtisadiyyatının inkişaf templərinin geriləməsinin aradan qaldırılması;
- ərzaq və digər tələbat istiqamətlərində təhlükəsizliyi sahəsində irəliləyişlərə nail olunması;
- ölkə iqtisadiyyatının sahəvi şaxələndirilməsi imkanlarının yüksəldilməsi;
- istehsal sahələri üzrə tarazlı inkişafa nail olunması,
- istehsalın təkamülü yönündə Dövlət Proqramlarının hazırlanması;
- maliyyə resursları ilə təmin olunması sahəsində çatışmazlıqların aradan qaldırlması,
- maliyyə-bank, hesablaşmalar sahəsində daha yüksək nəaliyyətlərin əldə olunması;
- sahəvi tənzimləmədə optimal idarəetmə quruluşunun yaradılması üzrə addımların atılması;
- sahələrin regionlararası əlaqəli inkişafının təmin olunması;
- region üzrə sahələrin daha səmərəli bölgüsü yönündə məqsədyönlü işlərin təşkili və icrası;
- sahəvi infrastruktur-logistik imkanların yaradılması və genişləndirilməsi və s. [ 13; 92]

Təsnifatın ümumiləşdirilmiş şəkildə olmasına və əsasən aparıcı istiqamətləri əhatə etməsinə bax-mayaraq, onun nə dərəcədə müxtəlif obyekt və fəaliyyət istiqamətlərindən ibarət olması, aparılacaq tənzimləmə işlərinə nə dərəcədə təsir etməsi də nəzərdən yayınmamalıdır. Maddələrin hər biri kifayət qədər tutumludur ki, bu da ölkə üzrə sahə miqyasında dövlət tərəfindən kompleks işlərin icrasını aktuallaşdırır. Bəhs olunanların ümumiləşdirilməsi hər bir dövlətin əsas məqsədinin ölkə üzrə sosial-iqtisadi inkişafa nail olunması fikrini ortaya çıxarır. Müvafiq məqsəd əsasında ümumi iqtisadi, həmçinin sahələr üzrə inkişaf konsepsiyalarının hazırlanması zərurəti yaranır. Düşünürük ki, ölkənin sahəvi inkişaf konsepsiyasının əsasını aşağıdakı istiqamətlər təşkil etməlidir:

1. ölkənin vahid iqtisadi sisteminin tərkib hissəsi olan istənilən sahənin iqtisadi və sosial müstəvilərdə inkişafının məqsədlərinin, hədəf və tələblərinin müəyyən edilməsi;
2. sahənin sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması;
3. sahənin iqtisadi proqnozlaşdırılma işlərinin icrası, bu istiqamətdə yarana biləcək spesifik məqamların səciyyələndirilməsi və icrası nəzərdə tutulan fəaliyyətin əsaslandırılması;
4. məqsədlərin nail olunmasında istifadəsi zəruri hesab edilən çoxsaylı və müxtəlif təyinatlı alət və vasitələrdən istifadə olunması;
5. strateji hədəflər üzrə icra mərhələləri və müddətlərinin planlaşdırılması və s. [6]

Hökümət strukturları tərəfindən sahələrin sosial-iqtisadi inkişafı konsepsiyalarının işlənməsi və icrası bir sıra ardıcıl addımların atılmasını da şərtləndirir. Bu baxımdan ümumilikdə sahə, onun prioritet istiqamətləri üzrə fərdi inkişaf proqramları müəyyənləşdirilməli və hazırlanmalıdır. Bu proqramlar dəqiqləşdirilmiş zaman-məkan göstəricilərinə malik olmalı, həmin dövrlərin sonuna olan hədəflərlə ifadə edilməlidir. Sahəvi tənzimləmə fəaliyyətində bir tərəfdən tərkib element, digər tərəfdən isə proqramlar kifayət qədər əsaslandırılmış iqtisadi təhlillər əsasında hazırlanmalıdır. Bu zaman çoxsaylı amillərin təsir dərəcəsi, artım və inkişaf imkan və perspektivləri nəzərə alınmalıdır.

Sahəvi təyinat üzrə hazırlanan konseptual, həmçinin tənzimləyici xüsusiyyətləri ilə seçilən sənədlər özündə həmin sahə üzrə istehsal və maliyyə resurlarından istifadə imkanlarını əks etdirməlidir. Bu məsələ cari dövrdə həmin sahələrin nə dərəcədə proqnozlara müvafiq fəaliyyət göstərməsi haqqında fikir formalaşdırmaqla yanaşı, təyinatı üzrə istifadə, optimallıq, gəlirlilik kimi parametrlərə riayət olunması ilə bağlı vəziyyəti sərgiləmiş olur. Strateji istiqamətlər üzrə proqramların hazırlanması zamanı variant çoxluğu özünün aktuallığı ilə seçilməkdədir. Belə ki, çoxsaylı amillər əsasında fərqli variantlar üzrə inkişafı proqnozlaşdıracaq və sonrakı tənzimləməni həyata keçirəcək sənədlərin hazırlanması zərurəti ortaya çıxa bilər.

Araşdırma bazasının öyrənilməsində sahəvi tənzimləmədə istifadə olunacaq metodların seçilməsi mühüm əhəmiyyət kəsb edir. Aşağıda sadalanan metodların istər proqnozlaşdırma zamanı, istərsə də sonrakı tənzimləmə fəaliyyətində istifadəsi daha məqsədəuyğundur:

- ❖ ilkin məlumatların toplanılmasına xidmət edən müşahidə metodu;
- ❖ digər fəaliyyət yönləri ilə əlaqəliliyin vəziyyətinə aydınlıq gətirən sahələrarası balanslaşdırma metodu;
- ❖ sahənin ayrı-ayrı regionlarda inkişafı haqda təsəvvür yaradacaq regionlararası balanslaşdırma metodusahənin məqsədli sosial-iqtisadi inkişafı metodu;
- ❖ sahədaxili inkişafın optimallaşdırılması metodu;
- ❖ sahənin iqtisadi göstəriciləri əsasında aparılan balanslaşdırma metodu;
- ❖ quruluş və riyazi modelləşdirmə metodu və s. [14; 168]

Sadalanan iqtisadi metodların vahid məcmuda birləşdirilməsi və onlardan kompleks şəkildə istifadə düşünürük ki, dövlətin sahəvi tənzimləmə istiqamətində apardığı fəaliyyətin daha sistemli şəkil almasına, onun daha əhatəli, dəqiqləşdirilmiş və düzgün yönləri ilə təzahürünə yol açmalıdır. Məntiqi ardıcıllıq əlaqələndirilməsində dövlət tərəfindən həyata keçirilən sahəvi tənzimləmə siyasətinin hansı istiqamətlərə toxunacağının, bu zaman hansı üsullardan istifadə olunacağının, nə kimi alət və vasitələrin tətbiqinin dəqiqləşdirilməsi çıxış edir. Bu baxımdan aşağıdakı nəzəri-metodoloji fikir və düşüncələrin bildirilməsi məqsədəuyğundur. (sxem 1)

Sxem 1. Sahəvi tənzimləmənin əhatə edəcəyi mühüm istiqamətlər




Mənbə: [5; 228]

Sahəvi tənzimləmə fəaliyyətinin təşkilində ilk addım kimi dövlətsizləşdirmə və özəlləşdirmə proseslərinin nizama salınmasına yönəldilmişdir. Belə ki, bazar iqtisadi sisteminin təcrübi tətbiqinin və onu xarak-terizə edən nəzəri konsepsiyaların öncül müddəalarından biri kimi xüsusi mülkiyyətə keçid hesab olunur. Beynəlxalq təcrübəyə əsaslanaraq qeyd etmək mümkündür ki, müvafiq iqtisadi sistemə keçilməsinin əsas şərtlərindən hesab olunan dövlətsizləşdirmənin həyata keçirilməsi nəticəsində mülkiyyət çoxnövlülüyünün təməli qoyulur və mülkiyyət münasibətlərinin quruluşunda nəzərə çarpacaq dəyişikliklər baş verir. Dövlətsizləşdirmə prosesinin nəzəri cəhətdən izahında aşağıdakı mərhələlər əyani sürətdə təzahür edir:

- ❖ subyektlər üzərindəki mövcud birbaşa idarəçilik funksiyalarının dövlətin əlindən alınması;
- ❖ müvafiq idarəetmə vəzifələrinin müəssisələrin özlərinə verilməsi;
- ❖ istər ümumilikdə, istərsə də qanunvericiliklə dövlətsizləşdirmə proseslərinin aparılmasına icazə verilmiş istənilən sahə və fəaliyyət istiqamətlərində "şaquli" təsərrüfat əlaqələrinin "üfuqi" əlaqələrlə əvəzlənməsi. [11; 124]

İfadə olunan sonuncu təsnifat dövlətsizləşdirmə prosesi üzrə öncül xarakterik addımlara aydınlıq gətirmək niyyətindədir. İqtisadçı-alim A.Martınov "Rusiya iqtisadiyyatının struktur tənzimlənməsinin starategiyası" əsərində dövlətsizləşdirmə prosesinin aşağıdakı məqamlarına diqqəti çəkir: "... Dövlətsizləşdirmə zamanı dövlətin idarəetmə istiqaməti üzrə yükünün azalması baş verir. Belə vəziyyət bir tərəfdən dövləti tənzimləmə müstəvisində daha əsaslı və düşünülmüş addımları atmağa vadar edir, digər tərəfdən müstəqilləşən müəssisələrin üzərinə özünü məqsədyönlü idarəetmə vəzifəsini qoyur." [12; 352]

Müxtəlif mülkiyyət münasibətlərinin bərqərar olması onların hər növünə fərdi, spesifik yanaşmanın və araşdırmanın tətbiqini şərtləndirir. Qanunvericiliklə müəyyən edilmiş mülkiyyət formaları üç qrup üzrə müəyyən edilmişdir: dövlət, xüsusi (özəl) və bələdiyyə. Bununla yanaşı tərkib elementlərinin fərqli kombinasiyalar üzrə qurulması daxili tərkibin daha zəngin ifadəsinə şərait yaradır. Bu sırada icarə əsasında formalaşan, bəlli payların birləşdirilməsi ilə fəaliyyətini təşkil edən, kooperasiya qaydasında təmsil olunan və digər formalı subyektlər fərqləndirilməlidir.

Ölkəmizdə dövlətsizləşdirmə prosesinin həyata keçirilməsi ilk növbədə zərərlə işləyən subyektləri öz obyekti kimi müəyyən etmişdi (dövlətin inhisarında olan sahələr istisna olmaqla). Dövlətsizləşdirmə prosesinin məntiqi davamı olaraq müasir iqtisadi şəraitin nəbzinə uyğun gələn, bazar sisteminin tələblərinə birbaşa cavab verən, mülkiyyətin məxsusluq vəziyyətinə aydınlıq gətirməli olan, tənzimləmə fəaliyyətinin tərkib elementlərindən biri – özəlləşdirmə ölkə vətəndaşlarını əmlak sahiblərinə çevirmək, respublikada insanlar arasında təşəbbüskarlıq düşüncəsini yaratmaq, işgüzar fəaliyyətdə müstəqil qərarlar qəbul etmək hissələrini aşılamaq məqsədini güdür. Digər ifadə əsasında o, dövlət mülkiyyətini ayrı-ayrı şəxslərin, əmək kollektivlərinin, hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyətinə verərək mülkiyyətin dövlətsizləşdirilməsi üsullarından bir hesab olunur. İqtisadi və hüquqi aspektlərin nəzəri müstəvidə ümumiləşdirilməsi nəticəsində ölkəmizdə özəlləşdirmənin başlıca məqsədləri sırasında aşağıdakı maddələr fərqləndirilə bilər:

a) xüsusi mülkiyyətin, sərbəst rəqabət mühitinə əsaslanan bazar iqtisadi mühitinin təşəkkülü;
b) iqtisadi quruluşda yenilənmə və transformasiyaların aparılması;
c) iqtisadi proseslərdə "iştirakçı elementlərin" təmsil olunma dərəcəsinin müəyyən edilməsi;
ç) istifadə olunmamış ehtiyatların aktiv iqtisadi dövriyyəyə cəlbinin maksimallaşdırılması;
d) ölkə iqtisadiyyatının investisiya ehtiyacının ödənilməsi sahəsində addımların atılması;
e) əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması və s.

Sadalanan məqsədlər özəlləşdirmə sahəsində əsas strateji hədəflərin formalaşması yönündə işlərin sistemli şəkildə həyata keçirilməsinə şərait yaradır. Bu ilk növbədə özəlləşdirmə prosesinə cavabdehlik daşıyan dövlət orqanının və müvafiq fəaliyyət istiqamətinin zəruri hüquqi-normativ bazasının yaradılması zərurətini ortaya qoyur.

Qeyd olunmalıdr ki, Azərbaycanda mülkiyyətin özəlləşdirilməsinə cavabdehlik daşıyan orqan haliyədə Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi hesab olunur (1992-ci ildə Dövlət Əmlak Komitəsi formasında yaradılıb). Onların ilk tənzimləyici sənədləri sırasında 1993-cü ilin yanvarında qəbul olunmuş "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanunu, 1995-ci ilin oktyabrında müvafiq Azərbaycan Respublikası Qanununa uyğun olaraq təsdiqlənmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı" və tənzimləyici xarakterə malik digər çoxsaylı sənədlər nümunə olaraq göstərilə bilər.

Sahəvi tənzimləmənin əhatə edəcəyi istiqamətlər sırasında bazar infrastrukturunun formalaşdırılması, bu sahədə həyata keçirilən mütəmadi təkmilləşdirmələr özünəməxsusluğu ilə fərqlənir. Bu məsələ istehsalın təşkili və həyata keçirilməsi qədər öz aktullığı ilə təzahür etməkdədir. Sahəvi tənzimləmədə infrastruktur elementlər kifayət qədər rəngarəgliyi ilə fərqlənir, onun hər bir tərkib hissəsi özündə xüsusi diqqətlə araşdırılması və icrası tələb olunan işləri birləşdirir. İnfrastruktur və logistik imkanların yaradılması və təkmilləşdirilməsi özündə çoxsaylı qrupları birləşdirir. Sahə təyinatı üzrə in frastruktur elementlərinin təsnifləşdirilməsində:

1. subyektin avadanlıq və texniki təminatına, onun fəaliyyətinə yardım edəcək strukturların formalaşdırılması,
2. əmtəələrin uzunmüddətli saxlanılmasını təmin edəcək qurğuların istifadəyə verilməsinə, alınmasına yaxud xidmətlərindən istifadəsinə şəraitin yaradılması,;
3. yol, rabitə, su-kanalizasiya, enerji, konsaltinq xidmətlərinin təşkili və digər infrastruktur elementlərindən istifadənin mümkünlüyü;
4. elektron-informasiya vasitələrin məlumatalma, reallaşdırılmanın təşkili istiqamətlərinə tətbiqinin mümkünlüyü və digər bu kimi məsələlər xüsusi əhəmiyyət kəsb edir. [4; 37]

Sadalanan infrastruktur imkanları regional müstəvidə olduğu kimi, sahəvi baxımdan da fərqlənir. Belə ki, hər bir sahə özünəməxsus sistemin formalaşmasını tələb edir ki, burada da ümumi təyinatlı infrastruktur elementləri ilə yanaşı xüsusi aidiyyatla seçilən elementlər də mövcuddur.

İnfrastruktur-logistika imkanlarının mütəmadi təkmilləşdirilməsinə gəldikdə isə, bu fəaliyyətin daima maliyyə imkanlarında kifayət qədər asılı olduğunu, onların əsasən subyektlərin fərdi təşəbbüskarlıq, bilik və bacarıqları ilə, elm və texnikanın nəaliyyətlərinin təcrübəyə tətbiqi ilə və digər aidiyyatı fəaliyyət elementləri ilə əlaqəli şəkildə həyata keçirildiyini qeyd etmək mümkündür.

Sahəvi tənzimlənin həyata keçirilməsində düzgün qiymət siyasətinin seçilməsi və bu sahədə mütərəqqi tənzimləyici adımlardan istifadə mühüm əhəmiyyət kəsb edir. Qiymət haqqında danışdıqda ilk növbədə müasir dövrün əsas bazar “iştirakçılarından” olan tələb və təklif, onlar arasında tarazlığın yaradılması və qorunması ilə bağlı məsələlərə diqqət yetirməmək mümkün deyildir. Dövlət tərəfindən birbaşa tənzimlənən və sabit qiymətlər şəklində ifadə olunan əmtəə və xidmətlərdən başqa, digər məhsul, mal, iş xidmətlərin mübadilə məkanlarında pulla ifadə olunmasında mühüm rol oynayan bu iki (iqtisadi və sosial təyinata malik) kateqoriya özlərinin kifayət qədər əhəmiyyətli məzmunu ilə fərqlənməkdədir. [9; 88]

Tələbatın bazara çıxarılan və pulla təmin olunan hissəsi kimi çıxış edən tələbin xarakterizə edilməsində aşağıdakı xüsusiyyətlərlə rastlaşmaq mümkündür:

a) ictimai tələbatın əmtəə-pul münasibətləri əsasında təzahür edən spesifik formasıdır;
b) istehlakçının müəyyən zaman ifadəsində hər hansı kəmiyyət və qiymətə əmtəə əldə etmək və ya xidmətdən istifadə etmək arzusu və imkanıdır;
c) onun səviyyəsi əksər hallarda tələb qanununun müddəaları əsasında formalaşır;
ç) mübadilə məkanlarındakı real qiymət səviyyələri ilə tərs mütənasibdir (onun səviyyəsi qiymərlərin artması ilə azalmağa doğru hərəkətlənir) və s.

Satıcının bəlli zaman kəsiyində məhsul reallaşdırmaq istəyi kimi təzahür edən təklif nəzəri və təcrübi baxımdan öz qanunauyğunluqları ilə fərqlənir. Bunlardan ən öncülü məhsulu mümkün qədər yüksək gəlir əsasında reallaşdırmaq və bu prinsip gözlənilməklə daha çox məhsul satmaqdan iba-rətdir. Gəlirliliyin yüksək olması ilə daha çox məhsulun mübadilə məkanlarına çıxarılması arzusu düz mütənasib qaydada biri-digərini tamamlayır. Tələb və təklif arasında tarazlığın mövcudluğu onun bazar qiymətləri formasında təzahürü kimi də qiymətləndirilə bilər. Sərbəst ticarət prinsipləri və azad sahibkarlıq mühitinin yaradılmasının nəticəsi olan bu qiymətlər eyni zamanda özü ilə onların liberallaşdırılması prosesini də formalaşdırmaqdadır.

Əmtəə qiymətlərinin liberallaşdırılması prosesinə istər nəzəri, istərsə də təcrübi baxışın təmin olunması onun birmənalı olmaması, bu sahədə dövlətin kifayət qədər geniş-spektrli tənzimləyici işləri həyata keçirməsi haqqında fikir söyləməyə imkan verir. İlk növbədə qeyd etmək lazımdır ki, təməli dəyər qanunu ilə formalaşan qiymətlər çoxsaylı daxili və xarici amillərin birbaşa və dolayı təsirinə məruz qalır. Digər tərəfdən, qiymətlərin dövlət tərəfindən tənzimlənməsi sahəsində nizamlayıcı addımların atılması da istisna oluna bilməz. Bu istiqamətdə dövlət müxtəlif təyinatlı (qanunvericilik, inzibati, təşkilati və d.) tədbirlər vasitəsilə qiymətlərə təsir etmə cəhdini ifadə edir. Müvafiq yanaşmanın ümumiləşdirilməsi tənzimlənmə prosesinin istər qiymətlərin yaranma sferası, istərsə də onlara təsir mexanizmləri baxımından çoxsaylı forma və nüanslar müşayət olunması ortaya çıxır. Bu baxımdan sxem 2-də ifadə olunmuş formaların nəzərdən keçirilməsi zəruri hesab olunmalıdır.

Sxem 2. Qiymətlərin dövlət tərəfindən tənzimlənməsi formaları




Mənbə: [8; 122]

Tənzimlənmənin birinci forması ilk növbədə dövlətin birbaşa inhisarında və ya onun mütəmadi əsaslı nəzarətində olan sahə və istiqamətlər üçün keçərlidir. Bu qrupa nümunə olaraq neft və neft məhsulları, çörək və çörək məmulatları, aqrolizinq xidmətləri obyektləri, çoxsaylı xidmət sahələri (enerji, su, qaz, nəqliyyat və s.) göstərilə bilər. Dövlət sadaladığımız istiqamətlər üzrə qiymət siyasətinin fəal iştirakçısı, onun birbaşa və ya müvafiq nəzarətedici strukturlar vasitəsilə dolayı tənzimləyicisi rolunda çıxış edir.

İkinci forma hesab olunan əmtəə bazarlarının tələb və təklif balanslarına təsir etmək yolu ilə qiymətlərin tənzimlənməsi sahəsində dövlətin iqtisadi-tənzimləyici siyasəti bir tərəfdən yarmarkaların, satış-sərgilərin

təşkili yolu ilə, digər tərəfdən daxili və xarici satınalmalar əsasında əmtəə bolluğunun yaradılması və bu əsasda qiymətlərin nizamlanması yolu ilə və digər oxşar addımlarla həyata keçirməkdədir.

İqtisadi sisteminin təkmilləşdirilməsi və inkişafı ayrı-ayrı sahələrdə (dövlətin birbaşa nəzarətində olan sahələr istisna olmaqla) təmərküzləşmə meyllərinin yaranmasına və tədrücən güclənməsinə gətirib çıxarır ki, bu da dövləti antiinhisar və sağlam rəqabət mühitinin tənzimlənməsi sahəsində addımların atılması ilə nəticələnir. Əksər hallarda bu istiqamətdə dövlət özünün hüquqi və inzibati tənzimləyici alətlərindən istifadə edir.

Pul tədavülü sferası vasitəsilə təsərrüfat konykturasının tənzimlənməsi yolu ilə həyata keçirilən forma özünəməxsusluğu ilə fərqlənir. Bu istiqamətdə pul vəsaitlərinin təyinatı üzrə, norma və normativlər əsasında istifadəsinə xüsusi diqqət ayrılır, onlar üzrə müvafiq nizamlayıcı təbdirlər həyata keçirilir.

Gəlirin tənzimlənməsi siyasəti əsasında iqtisadi sferada tətbiq olunan nizamlayıcı forma istər sahələr, istərsə də fəaliyyət istiqamətləri və hətta ayrı-ayrı subyektlər (xüsusilə də təbii inhisarçı) üzrə də tətbiq oluna bilər. Bu forma dövlətin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla yanaşı gəlirlərin ədalətli bölgüsünü də özündə əks etdirməlidir.

Dövlət tərəfindən həyata keçirilən sair tənzimləmə formaları sırasında zərurətdən yaranan və adətən hər hansı sahə və ya fəaliyyət növünün inkişafını özündə əks etdirən hüquqi normaların hazırlanması və tətbiqi, müxtəlif qadağanedici (yaxud məhdudlaşdırıcı) və ya təşviqedici tədbirlər geniş rol oynayır. Buraya nümunə kimi ölkədə istehsal olunmuş məhsulların reallaşdırılması prosesində gömrük orqanlarının tətbiq etdikləri demping tədbirlərini, ölkəyə gətirilən əksər avadanlıq və texniki vasitələr üzrə rüsumların minimallaşdırılması və ya tamamilə ləğvi, əkin sahələrinin hər hektarı hesabı ilə ödənilən məbləğlər, gübrə və yanacaq-sürtkü materiallarının, suvarma sistemlərinin, məhsuldar heyvanların aqrar sahə istifadəçiləri tərəfindən əldə olunması zamanı nəzərdə tutulan imtiyazlar və digər bənzər tənzimləyici addımların atılması aid edilə bilər.

Təsnifatda bəhs olunan məsələlərdə dövlətin birbaşa tənzimləyici “müdaxiləsi”, və ya dolayı üsullarla (maliyyə, vergi, kredit, valyuta siyasəti formasında) müvafiq təsiri hiss olunmaqdadır.

Sahəvi tənzimlənmənin əhatə edəcəyi əsas istiqamətlərdən biri də iqtisadiyyatın inhisarlaşdırılması və sağlam rəqabət mühitinin formalaşdırılması hesab olunmalıdır. İstənilən sivil ölkənin iqtisadi sisteminin inkişafını təmin edən amillərdən olan rəqabət “istehsalçı - istehsalçı”, “istehsalçı - reallaşdırıcı” və “reallaşdırıcı – istehlakçı” qarşılıqlı əlaqələrində rəngarəng formada, kifayət qədər geniş diapozonda özünü biruzə verməkdədir.

Öz növbəsində inhisarçılıq, bəzi subyektlərin fəaliyyət forması kimi, özündə arzuolunmaz (bəzi hallarda hüquqazidd) fənd və üsullardan istifadə etməklə daha çox mənfəətin əldə olunmasını, azad rəqabətin qarşısının alınmasını, onun məhdudlaşdırılması və ya tamamən aradan qaldırlmasını ifadə edən hərəkətlər məcmusunu özündə əks etdirir. Həmin fəaliyyət bir çox hallarda məhsul, iş və xidmətlərin keyfiyyət xarakteristikaları ilə əlaqədar olmayan, lakin onların qiymət səviyyələrinin tələb-təklif əsasında deyil, süni müdaxilələr nəticəsində dəyişməsi (əksər hallarda artması) ilə mü-şayət olunan, bəzi hallarda hətta hasilat həcmlərinin azalmasına yol açan addımlarla təzahür etmək-dədir.

İnhisarçılığın güclənməsi dövlət tərəfindən müvafiq tənzimləyici tədbirlərin atılmasını şərtləndirir ki, onların sırasında:

1. rəqabətin inkişafına dövlətin müvafiq strukturları tərəfindən əlverişli mühitin yaradılması və
2. inhisarçı təsərrüfat subyektlərinin fəaliyyətinin hüquqi-normativ aktlarla müvafiq orqanlar tərəfindən məhdudlaşdırılması xüsusi əhəmiyyətə malikdir.

Bu məqsədlə sahəvi tənzimləmədə ilk növbədə inhisarçı subyektlərin və onların bazar payının müəyyən edilməsi zəruridir. Qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikasının “Antiinhisar fəaliyyəti haqqında” Qanununda inhisarçılıq fəaliyyətinin qarşısının alınması, məhdudlaşdırılması və aradan qaldırılması üzrə hüquqi və təşkilati əsaslar birmənalı şəkildə müəyyən edilmişdir. Həmin qanuna müvafiq olaraq istənilən məhsul növü bazar satışının payları aşağıdakı kimi müəyyən edilmişdir:

- ❖ 1 müəssisə - bazar payının 33%-i;
- ❖ 3 müəssisə birgə - bazar payının 50%-i;
- ❖ 5 müəssisə birgə - bazar payının 66,6%-i. [15; 428]

Fikrimizcə, sahəvi tənzimləmə prinsipləri əsas götürülməklə inhisarçılıq fəaliyyətinin qarşısının alınması zamanı (dövlətin birbaşa nəzarətində olan inhisar subyektləri istisna olmaqla) aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir:

1. bazarda kifayət qədər “çəkiyə” malik subyektlərin bazasında rəqabəti məhdudlaşdıracaq yeni təsərrüfat subyektlərinin yaranmasının məhdudlaşdırılması;
2. icra, idarəetmə orqanlarının və təsərrüfat subyektlərinin birgə fəaliyyəti haqqında razılaşmalara müvafiq olaraq istənilən sahəvi aidiyyatla seçilən təsərrüfat subyektlərinin müstəqilliyinin məhdudlaşdırılmasına və istehlakçıların mənafelərinin pozulmasına yönəldilən fəaliyyətinin qarşısının alınması.

Dövlətin iqtisadi sahələrdə sağlam rəqabətin formalaşdırılması və qorunması, müvafiq antiinhisar tədbirlərinin həyata keçirilməsi istiqamətlərinə həmçinin aşağıdakılar aid edilə bilər:

- inhisarçı subyektlərin məhsul qiymətləri üzərində dövlət nəzarətinin tətbiqi;
- onların bazardakı paylarına uyğun mütərəqqi vergi dərəcələrindən istifadə;
- təbii inhisarların öz mövqelərindən sui-istifadə hallarında aksiz və digər vergilərin sərtləşdirilmiş dərəcələrinin tətbiqi;
- kreditləşdirmə ehtiyacı olan belə subyektlər üzrə kreditlərin verilməsi şərtlərinin çətinləşdirilməsi;
- inhisarçılar tərəfindən rəqabətin sıxışdırıldığı halları müşahidə olunduqda təşkilati, texnoloji, ərazi və digər şəraitin imkanları çərçivəsində, hüquqi-inzibati alət və vasitələrdən istifadə etməklə subyektlərin "parçalanması" əsasında inhisarçılıq fəaliyyətinə xitam verilməsi və s.

Dövlətin istənilən sahə üzrə həyata keçirdiyi məqsədyönlü tənzimləyici tədbirləri sırasında maliyyə stabilliyinə və maliyyə resurslarından səmərəli istifadəyə nail olunması məqsədilə uyğun istiqamətdə sahəvi tənzimləmə fəaliyyətinin təşkili üzrə həyata keçirilən tədbirlər kifayət qədər əhəmiyyət malikdir. Tənzimləmə addımları sırasında nümunə kimi maliyyə resurslarının istifadəsi üzərində qanunauyğun nəzarətin təşkili, maliyyə imkanlarından istifadənin optimallaşdırılması sahəsində görülən təşkilati, məsləhət və digər xarakterli işlər, maliyyə siyasətinin tərkib elementləri üzrə aparılan düşününlmüş tədbirlərin icrası göstərilə bilər. Bu sahədə dövlət özünün ümumi iqtisadi və maliyyə konsepsiyalarını hazırlamalı və onların əlaqəli şəkildə tətbiqinə nail olmalıdır. Düşünürük ki, bu istiqamətdə aşağıdakı elementlər üzrə balanslaşdırılmış siyasətin aparılması ümumilikdə ölkə iqtisadiyyatı, o cümlədən sahəvi tənzimləmədə öz müsbət nəticələrini verəcəkdir:

1. neft və digər aparıcı (maliyyə vəsaitləri "yaradan") strategiyaların və fiskal siyasətin reallaşdırılması nəticəsində sahəvi maliyyə təminatlarının yaxşılaşdırılması;
2. məqsədyönlü büdcə-vergi və investisiya siyasətinin həyata keçirilməsi;
3. pul-kredit və valyuta siyasətinin tələblərə uyğun şəkildə təşkili və ardıcıl icrası;
4. maliyyə siyasətinin antiinhisar siyasəti ilə nəzəri-məntiqi və təcrübi baxımdan əlaqələndirilmiş şəkildə aparılması;
5. maliyyə siyasətinin təşkilində sosial amilin nəzərdən yayınmaması;
6. sahə təyinatı nəzərə alınmaqla regional və beynəlxalq iqtisadi-maliyyə siyasətinin qurulması və s.

Təsnifatdan aydındır ki, ölkə iqtisadiyyatı üzrə həyata keçirilən məqsədyönlü maliyyə-tənzimləyici siyasət istənilən sahə üzrə maliyyə istiqamətində aparılan nizamlandırılma işlərinin reallıqlar, hüquqi qaydalar və tələblər əsasında aparılmasında, maliyyə resur və imkanlarından düzgün istifadə olunmasında, son nəticədə isə həmin sahənin maliyyə təminatının yaxşılaşdırılmasında və inkişafında öz sözünü demiş olacaqdır.

Sahəvi tənzimləmədə mühüm istiqamətlərdən birini də həmin sahəyə aidiyyatı ilə seçilən işçi kontingentinin sosial müdafiəsinin təşkil olunması sahəsində atılan tənzimləyici adımlardır. Ayrı-ayrı iqtisadi sahələr üzrə aparılan müşahidələr göstərir ki, fərqli sahə aidiyyatı sosial müdafiə təyinatlı bir sıra tənzimləyici tədbirlərin də fərqlənməsinə şərait yaradır. Məsələn, əmək ödənişləri üzrə müvafiq tənzimləyici tədbirlərin aparılması ümumi ilə yanaşı fərdi tədbirlərin həyata keçirilməsi ilə də müşayət olunur.

Beləliklə, müvafiq məqalədə sahəvi tənzimləmə istiqamətində dövlətin həyata keçirdiyi siyasətdən, onun tərkib elementlərindən və müvafiq təşkilati mexanizmlərindən bəhs olundu. Düşünürük ki, müvafiq tənzimləmə proseslərində kifayət qədər böyük rol oynayan dövlətin, onun struktur bölmələrinin iştirakının fərdi qaydada nəzərdən keçirilməsi, bu zaman yarana biləcək spesifik situasiyalar üzrə operativ tənzimləyici qərarların qəbulu bu bölməyə müraciət etməyimizi əsaslandırmış olur.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazar: konseptual əsaslar və inkişaf istiqamətləri. Bakı: AzTU, 2015, 301s.
2. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
3. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU, 2007, 792 s
4. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı: Elm, 2006, 380s.
5. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi, 2016, 344s.
6. Bağırov M.S. Sahibkarlıq subyektləri və istehlakçı cəmiyyətləri: əmtəə mübadiləsi və tərəflərin mənafelərinin təmin edilməsi / Respublika elmi konfransı. Bakı: ATU, 2013. s.250-252.
7. Əhmədov N.H. Dövlət tənzimlənməsinin iqtisadi mexanizmləri. Bakı: Sabah, 2011, 194s.
8. Mahmudov C.İ.. Biznes: əsasları, təşkili və idarə edilməsi. Bakı: Nurlan, 2011, 272s.
9. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Bakı: Elm, 2004, 224s.

10. Ефременко Н.В., Галицын Н.И. Государственное регулирование национальной экономики: реалии и проблемы. М: Аристей, 2013, 629с.
11. Бабашкина А.М. Вопросы регулирования аграрной сферы. М: ЮНИТИ, 2008, 537с.
12. Малыш М.Н. Государственное регулирование экономики. СПб: Наука, 2010, 499с.
13. Ходов Л.Г. Государственное регулирование национальной экономики. М: ЮНИТИ, 2004, 810с.
14. Серова Е.С. Аграрные реформы в переходных экономиках: общие цели и различные траектории. Новосибирск: Экомир, 2009, 229с.
15. Серова Е.С. Принципы государственного протекционизма в АПК переходных экономик. Новосибирск: Экомир, 2006, 611с.
16. www.economy.gov.az

**ABSTRACT**

**Hasan Abbasov**

**STATE POLICY OF REGULATION ON REGULATION, RECOGNITION OF REGIONAL FRAMEWORK AND ORGANIZATION MECHANISMS**

The article considers the conceptual bases and principles of regulatory activity in the Republic of Azerbaijan in the historical evolution and modern times. Segregation in general regulatory activities is considered to be one of the most important aspects.

One of the main goals of the case is to disclose the essence and significance of the sectoral regulation and to identify its direction. Investigative analysis of the key elements of the economic environment such as price, financial resources, productivity, profitability, efficient organization and governance, provides a comprehensive characterization of the features in the issues discussed.

**РЕЗЮМЕ**

**Гасан Аббасов**

**ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ПО ОТРАСЛЕВОМУ РЕГУЛИРОВАНИЮ, ЕЕ НАПРАВЛЕНИЯ И ОРГАНИЗАЦИОННЫЕ МЕХАНИЗМЫ НА РЕГИОНАЛЬНОМ УРОВНЕ**

В статье основное внимание уделено концептуальным основам и принципам регулировочной деятельности в Азербайджанской Республике в ракурсе исторического развития и нынешних временных отрезков. Отраслевое регулирование является одним из важных направлений общей регулировочной деятельности.

В работе одним из основных целей являются раскрытие сущности и значения отраслевого регулирования, выявление его важных направлений. Изучение в отраслевой плоскости таких основных регулировочных элементов экономической среды, как цена, финансовые возможности, организация производственной деятельности, прибыльность, эффективная организованность и управление создает условия для общирного характеризования выявленных особенностей по повествуемым вопросам.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**SƏDAQƏT ƏHMƏDOVA**
*Bakı Dövlət Universiteti*

**UOT:332**

# AZƏRBAYCAN RESPUBLİKASINDA MƏŞĞULLUĞUN TƏMİN OLUNMASININ ƏSASLARI

**Açar sözlər:** *məşğulluq, əhalinin sosial vəziyyəti, işsizlik, məhsuldar qüvvələr, məşğulluğun tənzimlənməsi, demoqrafik tarazlıq*

**Keywords**: *employment, social status of the population, unemployment, productive forces, employment regulation, demographic balance*

**Ключевые слова:** *занятость, социальное положение населения, безработица, производительные силы, регулирование занятости, демографический баланс*

**Giriş.** Azərbaycan Respublikası haqlı müstəqillik arzularına qovuşduqdan sonra görüləcək bütün zəruri tədbirlərlə yanaşı məşğulluq probleminin həlli əsas məsələ olaraq özünü göstərməkdə idi. Buna görə də tarixən çoxəsrlik inkişaf təcrübəsinə malik olan bazar iqtisadiyyatı məşğulluğun həlli istiqamətində ən optimal, ən səmərəli variantların seçilməsini özündə tərənnüm etdirməkdədir.

İnsanlar bir potensial və hərəkətverici qüvvə kimi tarixən mövcud olduğu dövrlərin bütün mərhələlərində əmək fəaliyyəti ilə məşğul olmuş və bu gün də ona davam etməkdədirlər. Belə ki, hələ ibtidai icma istehsal üsulunun mövcud olduğu dövrlərdə belə insanlar müxtəlif fəaliyyət növləri ilə məşğul olmağa başlamışlar. Diqqət edəndə aydın olur ki, əslində həmin vaxtlar iqtisadi termin kimi ifadə olunmasa da praktik olaraq müvafiq sahə və istiqamət üzrə məşğulluq mövcud idi. Bu mərhələdə həmin istiqamətdəki əmək bölgüsünə uyğun olaraq məşğulluq prosesi aşağıdakı kimi müəyyən olunmuşdur: qadınlar yığımçılıqla, kişilər ovçuluqla, qocalar isə toplanmış kollektiv istehsal təcrübəsinin mühafizəçiləri məsələləri ilə məşğul olurdular.[5, 7] Buradan da görünür ki, ictimai-iqtisadi formasiyaların və tarixi inkişafın bütün mərhələlərində məşğulluq bir fəaliyyət tərkibi, növü və nəticəsi kimi mövcud olmuşdur. Bu anlayış istehsalçıların, iş qüvvəsinin, məqsədlərini hər hansısa işi görməyə yönəltmiş hər bir məhsuldar qüvvənin fəaliyyətində ifadə edilməkdə idi. Zaman keçdikcə aktuallığını daha da artıran məşğulluqla bağlı məsələlərə diqqət edərkən özünü göstərən əsas məqamlar içərisində mühüm rolu olan bir anlayış vardır ki, bu da əmək bölgüsünün mövcudluğu ilə izah edilir. İstər məşğulluqla, istərsə də əmək bölgüsünün təzahür formaları arasındakı bağlılığın və tamamlamanın açıq-aşkar ifadəsi olan yuxarıdakı tarixi fakt özünün elmi və gerçək zərurəti ilə seçilməkdədir. Həmin proseslər sonrakı mərhələdə birinci ictimai əmək bölgüsünün (maldar tayfaların əkinçilikdən ayrılması), ikinci ictimai əmək bölgüsünün (sənətkarlar sinfinin yaranması) və üçüncü ictimai əmək bölgüsünün (tacirlərin meydana gəlməsi) baş verməsinə gətirib çıxarmışdır. Təbii ki, bütün bunlar da öz növbəsində həm cəmiyyətin inkişafına geniş imkanlar açırdı, həm iqtisadi münasibətlərin təkmilləşməsində yeni mərhələni təmin edirdi, həm də şüurlu iqtisadi fəaliyyəti özündə cəmləşdirirdi.

**Azərbaycan Respublikasında məşğulluğun vəziyyəti**

Cəmiyyət üzvlərinin artmaqda olan tələbatlarının məhdud ehtiyatlardan səmərəli istifadə etməklə ödənilməsini zəruri məqsəd olaraq hədəfləyən iqtisadiyyat elmində çoxsahəli elmi tədqiqatlar aparan alimlər tərəfindən məşğulluq anlayışına müxtəlif yanaşmalar irəli sürülmüşdür. Onların məhsuldar araşdırmalarının nəticələrini ümumiləşdirərək belə qənaətə gəlirik ki, iqtisadi fəaliyyətin elə birinci mərhələsi məşğulluqla bağlı olub, insanların perspektivliyə söykənən fəaliyyətini əks etdirir. Yəni bu bir həqiqətdir ki, insan məşğul deyilsə, onda heç bir istehsal prosesi baş tuta bilməz, heç bir iqtisadi ideya uğurlu nəticə verməz.

Elmi araşdırmalar bu yöndə olan fikirləri təsdiq edir. Səmərəli iqtisadi fəaliyyətin təşkili məsələləri iqtisadi proseslərin və tarixi inkişaf hadisələrinin gedişinə dürüst yön verərək onu nizama salmışdır. Belə ki, mənbələrə istinad edəndə aydın olur ki, insanların hələ ibtidai istehsal üsulu dövründən əkinçiliklə məşğul olmaları:

- əgər bir tərəfdən onların bu sahədə təcrübə toplamalarına səbəb olurdusa;
- digər tərəfdən də özlərinin əkinçilik məhsullarına olan tələbatlarını qarşılamalarına yol açırdı.

Hər iki amil bəhs olunan dövrün qonşu icması zamanında (qonşu icmasını K. Marks əkinçilik icması da adlandırırdı [5, 8]) kollektiv mülkiyyətə əsaslanmaqla xüsusi mülkiyyətin də yaranmasına səbəb oldu.

Bütün bunlar əsasında aydın olur ki, məqsədyönlü sosial-iqtisadi fəaliyyətin məcmusu olan məşğulluq həm insanlar arasında münasibətləri tənzimləyir, həm də tarixi-iqtisadi proseslərin təkmilləşərək yeniləşməsinə münbit zəmin və şərait yaratmış olur. Elə buna görə də məşğulluq fəaliyyətinin davamlılığı təkcə ibtidai icma

istehsal üsulunda deyil, eyni zamanda həm də başqa bir formasiya olan feodalizmi əhatə etmiş və hazırki müasir yüksək inkişaf mərhələsinə gəlib çatmışdır.

Hadisələrin gedişi və əldə olunan nəticələr ümumi mənada məşğulluq probleminin həllində yaranan çətinliklərin əsas səbəblərini aşağıdakı kimi qruplaşdırmağı tələb etməkdədir:

1) demoqrafik tarazlığın pozulması nəticəsində ölkələrin strateji təhdidlə üzləşməsi, dünya miqrant probleminin baş verməsi;
2) dəyişən tələblərə uyğunlaşmada əmək bazarındakı qanunauyğunluğun çətinlikləri;
3) mövcud olan və yeni yaranan müharibə ocaqları, terror və digər neqativ hallar nəticəsində özünü göstərən iqtisadi böhranlar və iqtisadi sahədəki nizamsızlıq;
4) iqtisadiyyatın sahə strukturundakı gərginlik və bunun sosial-iqtisadi inkişafın təminatındakı çatışmamazlığı sürətləndirməsi;
5) milli iqtisadi inkişaf siyasətinin təminatındakı axsamalar və s.

Azərbaycan Respublikası ötən əsrin 80-ci illərinin sonlarında həm iqtisadi, həm də siyasi müstəqilliyinə doğru haqlı mübarizəyə başladı. Buna görə də yenicə keçid edəcəyimiz bazar münasibətləri üçün əlverişli mühitin yaradılması məqsədləri əsas götürülə sosial-iqtisadi və siyasi islahatlara başlandı. Həmin proseslərin məntiqi nəticəsi olaraq 1995-ci ildə ölkəmizdə aqrar islahatlar həyata keçirilməsinə start verildi.

Yuxarıda qeyd edilən və səmərəli nəticələri ilə seçilən bütün tədbirlər nəticəsində əhalinin aqrar sahədə məşğulluq imkanları daha da genişləndi və yüksək perspektivliliyi ilə seçilməyə başladı. Bu sahədəki fəaliyyətin təşkilati mexanizmlərini sürətləndirmək məqsədilə torpaqla bağlı münasibətlərin müasir görkəmdə təminatı diqqətdə saxlanıldı. Xüsusən, kəndlilərin Dövlət Torpaq Aktlarını almaqla xüsusi mülkiyyətini formalaşdırması və məşğulluq təminatına şərait yaratması günümüzün ən əsas reallıqlarından birinə çevrilmiş və bunlar hüquqi baxımdan tənzimlənmişdir. Bu sahədə xüsusi önəm daşıyan vasitə olaraq Mülkiyyət haqqında Azərbaycan Respublikasının qanununda hər kəsin xüsusi mülkiyyət hüququ və onun qorunması təsbit edilmişdir. İslahatların müəllifi olan ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan aqrar islahatlar və həm də aqrar siyasət bu sahədə həm də məşğulluq probleminin həllində təkanverici qüvvəyə çevrildi. İslahatların məntiqi nəticəsi və sosial-iqtisadi davamı olaraq, yəni 1996-cı il sentyabr ayının 21-də Prezident sarayında "Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi və kənd təsərrüfatında cari işlərin gedişi vəziyyətinə həsr olunmuş" müşavirədə cənab Heydər Əliyev bu sahə ilə bağlı deyirdi: "Məlumdur ki, respublikamızın iqtisadi potensialı, o cümlədən aqrar bölmədə potensialı böyükdür. İdarəetmə lazımi islahatların keçirilməsi, strukturun təkmilləşdirilməsi, bununla yanaşı, insanların daha səmərəli işləməsi üçün imkanlar yaradılması və iqtisadi islahatların həyata keçirilməsi iqtisadiyyatın inkişafının mühüm şərtidir, əhalinin rifah halının yaxşılaşdırılmasının əsasını təşkil edir".

İqtisadi siyasətin çox mühüm və zəruri məqsədini təşkil edən aqrar islahatların spesifik xüsusiyyətlərindən biri də istehsalçılara verilən, daha doğrusu, onların əldə etdikləri iqtisadi azadlıqlardan ibarətdir. Belə şəraitdə istehsalçının azad yaradıcı fəaliyyətini təmin edən təsərrüfat formalarının təşəkkül tapması özünü göstərirdi. Bəhs edilən prosesin aşağıdakı istiqamətlər üzrə həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1) kəndli-fermer təsərrüfatlarının yaradılması;
2) kolxoz və sovxozların islahatı əsasında özəl kollektiv təsərrüfatlarının formalaşdırılması və s. [1, 190]

Bu məsələnin məqsədyönlü həlli nəticəsində təkcə məşğulluq probleminin həllinə deyil, həm də ölkədə daxili bazarın formalaşmasına və yerli məhsullarla təminatına, ölkəmizin kənd təsərrüfatı məhsulları ilə bağlı olaraq xarici asılılıqdan qurtarmağa şərait yaratmasına, ixrac məhsullarının istehsalına və bununla da yerli məhsulların xarici bazarlarda satışının təmin edilməsinə geniş şərait yarada bilər.

Məşğulluq çox mürəkkəb və çoxcəhətli bir anlayışdır. İnsan fəaliyyətinin bütün sahələrində təzahür edən, özünü göstərən və meydana çıxan məşğulluq bütövlükdə cəmiyyətin mövcudluğu və yaşamasının da maddi və mənəvi əsasıdır. Əgər belə qeyd etmək mümkündürsə, harada insan varsa, onun hərəkəti varsa, izi, əməyi və əməyinin nəticəsi varsa, deməli orada məşğulluq da var. Məşğulluq anlayışını (məfhumunu) dərk etmək üçün ilk baxışda insanların (praktik olaraq) vaxt ayırdığı, başının qarışdığı, düşüncəsinin, əqlinin, zehninin, fiziki qabiliyyətinin, bacarığının, elminin, biliyinin və digər keyfiyyətlərinin yönəldiyi fəaliyyət növü kimi qəbul etmək lazımdır. İnsanların hər biri ayrılıqda (fərdi) və yaxud da bütövlükdə cəmiyyət miqyasında bir növü məşğul olmağa maraqlıdır. Çünki, məşğulluq insanın yaşayışının təmin edilməsi, insan isə məşğulluğun təminatı və mövcudluğu üçün zəruridir.

Məşğulluq sosial-iqtisadi fəaliyyətin məcmusu olmaqla bərabər, həm də bu prosesdə iştirak edən insanlar arasındakı münasibətləri tənzimləyən bir sistemdir. Fikrimizcə, məqsədyönlü fəaliyyət nəticəsində və tükənməz, artan ehtiyacların ödənilməsi prosesində insanlar arasında onların düşüncə və məqsədləri əsasında yaranan münasibətlər məşğulluq münasibətlərini özündə əks etdirir.

Düzdür, məşğulluq prosesində əməklə bağlı istiqamətlər də var, ancaq məşğulluq əməklə eyni məzmun daşımır. Bu o demək deyildir ki, məşğulluqla əmək bir-birinə ziddir, yox. Düşünürük ki, onlar bir-birini tamamlayan, mahiyyətini açıb göstərən və izah edən əsas iqtisadi anlayışlardır. Belə ki, əmək vahid prosesin başlanğıc, orta və son mərhələsidir. Yəni, əməyin vasitəsi ilə məşğulluğun təminatına doğru istiqamətlinmiş yol qət olunur və son mərhələdə məşğulluq baş tutur. Bundan sonra isə məşğulluq önə çıxaraq əmək vasitəsilə

mümkün olur, lakin ondan da (əməkdən) geniş məna kəsb edərək sonrakı, həm də tamamlanmış, ümumi mərhələni təşkil edir. Belə bir vacib qənaətə gəlmək olar ki, məşğulluq kateqoriyasında əmək qabiliyyətli əhalinin işə cəlb edilməsi, məşğulluğun özü və ya əmək prosesi, iş qüvvəsinin azad edilməsi və başqa amillər cəmləşmişdir. Bundan əlavə, qeyd edə bilərik ki, məşğulluq iqtisadi kateqoriya kimi, real gerçəklikdə iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölünməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə olan ictimai iqtisadi münasibətləri əks etdirir [6, 59].

**Azərbaycan Respublikasında məşğulluğun təmin olunması yolları**

Əmək qabiliyyətli əhalinin işə cəlb edilməsi çox mühüm bir başlanğıc olmaqla bərabər, həm də zəruri mərhələni də özündə birləşdirir. Məlumdur ki, hər şey istehsaldan başlayır. İstehsal prosesinin normal baş tutması üçün isə işçi qüvvəsi ilə istehsal vasitələrinin birləşməsi vacibdir.

Məşğulluğun özü və ya əmək prosesi əsasən istehsal amilləri ilə xarakterizə edilir. Yəni işçi qüvvəsi istehsal vasitələri ilə birləşdikdən sonra əmək bir prinsip kimi götürülür. Məşğulluq hər bir dövlətin sosial siyasətinin tərkib hissəsini, əsasını təşkil edir. Hər bir dövlət müvafiq əmək qanunvericiliyində təsbit edilmiş prinsiplər əsasında bu sahədəki məsələləri tənzimləyir. Bunun da nəticəsində vətəndaşların müxtəlif əmək növləri ilə məşğuliyyəti qeyd olunan istiqamətdə öz həllini tapır, yəni insanların məşğul olmalarına əsaslar yaranır. Təsadüfi deyildir ki, əhalinin məşğulluq probleminə ciddi yanaşmanı da özündə göstərən tarixi addım 2009-cu ildə mart ayının 18-də də atıldı. Həmin tarixdə keçirilmiş ümumxalq referendumu yolu ilə Konstitusiyamızın 15-ci maddəsinə edilmiş əlavə ilə də (ümumilikdə isə 29 maddəyə 41 düzəliş) dövlətimizin iqtisadi siyasətinin sosial yönümlü olması təsbit edilmişdir. Qeyd edək ki, Konstitutsiyamızın 16-cı maddəsi sosial inkişaf və dövlət kimi təsbit edilmişdir. Həmin maddənin birinci bəndində bu istiqamətdə deyilir:

“Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalır” [2, 8].

Buradan da görünür ki, Azərbaycanda əhalinin sosial təminatı və məşğulluğu öz hüquqi əsasını tapmış və müdafiə olunmaqdadır. Ölkəmizdə son illərdə əldə edilmiş hərtərəfli uğur və nailiyyətlər nəticəsində əmək ehtiyatlarından istifadə sahəsində çevik addımların atılmasına şərait yaradılmışdır. Bunu ölkəmizin iqtisadi qüdrətinin artması prizmasında daha aydın görmək olar. İstər açılan yeni iş yerlərində, istər fəaliyyəti bərpa edilən müəssisələrdə, istərsə də iqtisadiyyatın müxtəlif sahələrində əmək ehtiyatlarından səmərəli istifadə ən zəruri məsələyə çevrilmişdir. Təbiidir ki, bu isə əmək ehtiyatlarının ölkə daxilindəki fəaliyyətinə səmərəlilik gətirmişdir. Qeyd etmək lazımdır ki, elmi tədqiqat işinə uyğun olaraq aqrar sahədə əhalinin məşğulluğunun təminatı məsələləri elə məhz kənd həyatı ilə bağlı olub, buradakı proseslərin səmərəli həllini şərtləndirir. Bu baxımdan da kənd əhalisinin sosial müdafiəsinin əsas və başlıca, həlledici istiqamətlərindən biri kimi onun səmərəli məşğulluğu təşkil edir.

Məşğulluq hər şeydən əvvəl, bir iqtisadi fəaliyyət növü kimi bütün iqtisadi münasibətlərin təməl prinsiplərini təşkil edir. Eyni zamanda özündə iqtisadi proseslərin səmərəliliyini əks etdirir. Əmək prosesində, istehsal prosesində təbii ki, məşğulluq mövcud olaraq, bu prosesin iştirakçıları arasında münasibətlərin yaranmasına səbəb olur. İstehsal prosesində daha çox məhsulun yaradılmasını təmin edən, onun keyfiyyətinə diqqətli olmağı bacaran, istehsal prosesinin baş verməsi üçün müvafiq istehsal vasitələrinin hərəkətini təmin edə bilən insanların-məhsuldar qüvvələrin mövcudluğundan söhbət gedə bilər ki, bu da insanların həmin sahədə formalaşmasında məşğulluğun rolunu açıb göstərir. Məşğulluq digər bir mühüm tərəflərin-istehsalçı ilə istehlakçı arasında iqtisadi münasibətlərin yaranmasına və möhkəmlənməsinə səbəb olur. Çünki, istehsal prosesində işçi qüvvəsinin iştirakı və bu zaman məşğul olmaları son nəticə etibarı ilə onlarla istehlakçılar arasındakı münasibətlərin formalaşmasında böyük və həlledici rol oynayır.

Qeyd edək ki, keçmiş İttifaq dövründə olduğu kimi, müasir müstəqillik illərində də məşğulluq siyasətinin səmərəliliyinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər ulu öndər Heydər Əliyevin adı və siyasi fəaliyyəti ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixdə Onun Prezident kimi təsdiq etdiyi “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda məşğulluq anlayışına belə tərif verilir:

Məşğulluq - Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan və vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq onlara qazanc (gəlir) gətirən fəaliyyətidir [3].

Düzdür, 27 iyun 1991-ci il tarixdə də Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Lakin, 2001-ci ildə təsdiq edilən eyni adlı qanunda dövlətimizin müəyyən etdiyi siyasət, məşğul şəxs adlandırılan insanlar, məşğulluq sahəsində insanların hüquqları, məşğulluğun tənzimlənməsi, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətləri və digər mühüm məsələlərə ətraflı olaraq aydınlıq gətirilmişdir. Bir sözlə, bu qanun tam mükəmməl və sanballı prosedurları özündə əks etdirməklə gələcək üçün çox güclü təminatdır. Qeyd edək ki, həmin dövlət sənədində yuxarıda göstərilənlər məşğulluğun tənzimlənməsi ilə bərabər, həm də orada təmsil olunan insanların bir-biri ilə münasibətlərinə də yenilik gətirir.

Məşğulluq əhalinin işsizlikdən qorunmasının sosial-iqtisadi təminatı sahəsində dövlətin məqsədyönlü və qanunla müəyyən etdiyi, tənzimlədiyi proseslərin məcmusudur.

İşsizlik - elə bir sosial-iqtisadi hal başa düşülür ki, o zaman əmək qabiliyyətli əhalinin bir hissəsi işləmək

istəyir və işə hazırdır, lakin müəyyən vaxtda və müəyyən ərazidə müvafiq ixtisas üzrə özünə iş tapa bilmir. Başqa sözlə, işsizlik halı-işçi qüvvəsinin təklifinin işçi qüvvəsinə olan tələbi üstələməsidir. [4, 246]

Bütün bunlar məşğulluğun və işsizliyin iqtisadi və digər sosial mahiyyətli elmlər tərəfindən araşdırılan, öyrənilən və tədqiq edilən tərəfləridir.

**Nəticə.** Müasir Azərbaycan gerçəkliyində öz aktuallığı ilə seçilən, daim ölkəmizin sosial-iqtisadi siyasətində aparıcı yerlərdən birini tutan məsələlərin tərkib hissələrindən biri kimi məşğulluğun təmin edilərək səviyyəsinin yüksəldilməsi, işsizliyin isə aradan qaldırılmaqla ən minimum səviyyəyə endirilməsi zəruri olan tədbirlərdir. Eyni zamanda bu tədbirlər ölkəmizin sosial siyasətinə və onun səmərəliliyinə xidmət etməkdədir. Təbii ki, mövcud iqtisadi potensial öz növbəsində əhalinin yaşayış tərzinin, onun səmərəli fəaliyyətinin, daha doğrusu, məşğulluq potensialının daha da artmasına münbit zəmin yaratmışdır. Bu gün qətiyyətlə deyə bilərik ki, ölkəmizin regional siyasətinin səmərəliliyi baxımından qətiyyətli söz sahibi olan Naxçıvan Muxtar Respublikasında bu məsələlər sahəsində yüksək nailiyyətlər əldə edilmişdir.

Məşğulluğun hüquqi bazasının tam mükəmməl əsaslarla təmin olunduğu qanunun davamı olaraq ölkə başçısı cənab İlham Əliyevin 26 oktyabr 2005-ci ildə imzaladığı Sərəncamla təsdiq olunan “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)”, 15 may 2007-ci il tarixdə imzalanmış Sərəncamla isə təsdiq etdiyi “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-ci illər)” böyük əhəmiyyətə malik olmaqla, əhalinin məşğulluq probleminin aradan qaldırılmasında həlledici amilə çevrildi. Yuxarıda qeyd olunanlar Azərbaycanda məşğulluğun möhkəm əsaslarının təmin olunmasının əsasını qoymuşdur.

## ƏDƏBİYYAT


1. Alıyev İ. H., İbadov S. A. Azərbaycan iqtisadiyyatı, Bakı: Ağrıdağ, 1999, 400 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: Qanun, 2017, 92 s.
3. Azərbaycan Respublikasının Məşğulluq Qanunu, 2 iyul 2001-ci ildə qəbul edilib
4. Bayramova S.R., Qurbanova S.Ə. Gəlirlər və əmək haqqı siyasəti, Dərslik, Bakı: 2009, 330 s.
5. Qasımov C.Y. Aqrar sektorda məşğulluq probleminin həlli, Monoqrafiya, Bakı: ADPU-nun mətbəəsi, 2014, 176 s.
6. Qəribov A. H. Beynəlxalq iqtisadi münasibətlər və gömrük işi (terminlərin qısa izahlı lüğəti), Bakı: Səda, 2007, 112 s.


## ABSTRACT


**S.Akhmedova**


## BASICS OF EMPLOYMENT IN THE REPUBLIC OF AZERBAIJAN


The article discusses the fundamentals of ensuring employment in the Azerbaijan Republic. Here, first of all, employment and its essence were analyzed, and these ideas were reflected in the article. After this, the article considered progressively progressive measures related to the employment of the population after the independence of Azerbaijan, and in this regard, the relevant documents were adopted, and the article emphasizes the importance of these measures. The article substantiates that employment of the population in the fight against unemployment is a set of processes that the state purposefully and legally regulates from the point of view of socio-economic security.


## РЕЗЮМЕ


**С. Ахмедова**


## ОСНОВЫ ЗАНЯТОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ


В статье рассматриваются основы обеспечения занятости населения в Азербайджанской Республике. Здесь, прежде всего, была проанализирована занятость и ее сущность, и эти идеи нашли отражение в статье. После этого в статье были рассмотрены поэтапно прогрессивные меры, связанные с занятостью населения после обретения независимости Азербайджана, и в связи с этим были приняты соответствующие документы, и в статье подчеркивается важность этих принятых мер. В статье обосновано, что занятость населения в борьбе с безработицей представляет собой совокупность процессов, которое государство целенаправленно и законно регулирует с точки зрения социально-экономической безопасности.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**NİYAZ MAMMADOV**
*mammadovniyaz@mail.ru*
*Azerbaijan State Agrarian University*

**UOT:332**

# FINANCE SOURCES OF HOUSEHOLDS FROM AGRICULTURAL ACTIVITIES IN CASE STUDY VILLAGES IN AZERBAIJAN AND GEORGIA

**Açar sözlər:** *ev təsərrüfatları, model, model ev təsərrüfatları, kənd təsərrüfatı, həyat səviyyəsi, gəlir, xərc.*
**Ключевые слова**: *домашние хозяйства, модельное домашнее хозяйство, сельское хозяйство, уровень жизни, доход, расход, прибыль.*

## Introduction

The analysis shows that, at present, to ensure sustainable economic development of the country, one of the most important tasks is the development of the households. By providing their needs Households play a role in the country's capital necessary to meet the demand for food products (1). According to this, in order to achieve the development of agriculture is necessary to increase the role of households.The current economic conditionof household play a crucial role in the development of the agricultural sector (2). It is important to note the point of the relevance functions of households in the modern market economy in terms of the relevance of the subject:

- households act as buyers of commodities and services produced by the enterprise are playing the role of consumer;
- households offer products which produced by them to those enterprises;
- theyfocus oncollection of savings part of revenue which formed on productionand in this way get financial assets.

## Methodology

Research questions -in this section, we have improved research questions. Based on these questionsrelevant investigations were carried out in selected case study areas.

1. *What is the contribution of different activities to the income of farming households types*?

Taking into account the share of agriculture in mountainous areas within the prevalence of animal products, mainly I calculated and compared the figures of livestock for the first step of report.

2. *Which factors influence the profitability of income sources of farming household types?*

This research question aims at analysing which factors are influence to the incomes of the households,which will allow us to investigate the causes of these factors in the next step.

3. *Which development options within agriculture are available for local households and economically feasible?*

The aim of the research questions is identify of the household development potential, to look at opportunities to realize and to determine the development perspective.

**Data collection** begins with the taken survey in the villages. The first step of survey was consist of socio-economical indicators of households and started from Azerbaijan in 2016. The second part of the surveys were the financial performance of the households. In order tothese financial performance surveyshave chosen 10-15 households for economic analyses.After these stages started data entry and data evaluation.

So that the name of the villages in both countriesand also the number of the taken surveys in the first part is as following .(see table 1)

Method-Joint scientific research are carry out in mountainous areas in Azerbaijan and Georgia with the financial support German fund of "Volkswagen". It is not accidental to carry out research in mountains areas of two countries. Thus, these areas are in the same geographic and climatic conditions. As a research object have been chosen Gandja-Gazakh region of Azerbaijan and Kakhety region of Georgia. After identifying of the regions was carried out observationso that previous collections information about district and from each country selected three district. From the municipalities taken the information about villages such as how many each district has its own villages,what was about the height of the sea level for each village, situation of livestock, how much areas(except total area it was studied, how much arable land, land plot, vineyard, home garden, hayfield, greenhouse, fruit garden, winter, summer and common village pastures), number of households.The socio-economical surveys taken with the structured interviews which was help to be typed of householdsand financial surveys taken with the semi-structured interviews which was analysis of contribution margin for agricultural activities.

**Table1: The indicators of socio-economical surveys in selected district and villages of Azerbaijan and Georgia**

| Azerbaijan | | | | Georgia | | | |
|---|---|---|---|---|---|---|---|
| Ganja –Gazakh | | | | Kakhetia | | | |
| Socio-economical surveys | | | | | | | |
| District | Villages | Number of surveys | Data collection | District | Villages | Number of surveys | Data collection |
| Goygol | Karamli | 43 | 18-22 Aprel | Sagarejo | Gombori | 82 | 8-15 May |
| Shamkir | Atabey | 83 | 23-29 Aprel | Akhmeta | Shakhvetila | 75 | 16-22 May |
| Gadabay | Plankend | 72 | 30 Aprel-2May | Gurjuani | Arashenda | 37 | 23-27 May |
| Surveys of financial performance of households | | | | | | | |
| Goygol | Karamli | - | 8-12 August | Gurjuani | Arashenda | - | 25-28 July |
| Shamkir | Atabey | - | 13-15 August | Akhmeta | Shakhvetila | - | 29-31July |
| Gadabay | Plankend | - | 16-20 August | Sagarejo | Gombori | - | 1-4 August |

For the financial application of the livestock and cropping of the model households estimated revenue (incomes), variable costs and contribution margin.

The last application is calculation of contribution margin. Because calculation for the profit need fix costs while the interviewers do not know the constant costs and cannot get answer about fix costs exactly (Swedberg 2011). In most of households the stables already were depreciate. There were running costs but they were so few, that's why we established these costs as other costs under category of variable costs. Except this factor, we can calculate(we can assume) contribution margin as a profit such as agricultural sector is free from tax.

For the main calculation used the excel program – MAX (MAX VERSION 3.7 (Ströbel et al. 2013).

Main agricultural activities such as sheep, cattle, beekeeping, poultry, potato, wheat and hayfield was calculated for Atabay village. (see Figure1). For these activities determined revenue, variable costs, contribution margin and contribution margin ratio.

**Figure1: Contribution margins in model households in Atabay**




Equal calculation was used for the Georgian villages as we see from the Figure 2. In Georgian villages there was lees activities types,that's why in Gombori calculated just 4 types of activities.

**Results**

- sampled households have different types of agricultural activities
- arable farming is more widespread in Azerbaijani case study villages
- in Georgian case study villages more households keep livestock than in Azerbaijani case study villages
- in Azerbaijani case study villages are the number of agricultural activities more than Georgian
- potato is the main crop production among the other plants in all six case study villages

- approximately,60% of households have income from non-farm activities

**Figure2: Contribution margins in model households in Gombori**




- cattle keeping in Atabey and potato in Gombori more profitable

Considering these, we suggest the following issues:

- development of beekeeping, which is a highly profitable area in Plankend village and also creating a tourism sector based on the geographical location of the region to ensure a positive impact on the population's income;
- the further development of potatoes, which is a traditional activity in Gombori and Atabay villages;
- prevention of the overgrazing on pastures, and observance of the standard number of animals;
- using of alternative income sources to increase household income.

## LITERATURE


1. Atashov B (2016) Financial markets. ELM, Baku
2. Huseynov M.C. (2006) Sustainable development problems of the agrarian sector. Baku.
3. Ismayilov M., Ahmadov Y., Mehdiyeva M., Mukhtarova P., (2012) Finacial-Economical analysis. Baku.
4. Ströbel H, Schuh C, Bleisteiner N (2013) MAX VERSION 3.7 - Deckungsbeitragsrechnung, Betriebsplanung und mehr unter MS Excel.
5. Swedberg R (2011) "The Household Economy: A Complement or Alternative to the Market Economy? "


## XÜLASƏ


**Niyaz Məmmədov**


**AZƏRBAYCANDA VƏ GÜRCÜSTANIN TƏDQİQAT KƏNDLƏRİNDƏ EV TƏSƏRRÜFATLARININ KƏND TƏSƏRRÜFATI FƏALİYYƏT SAHƏLƏRİ ÜZRƏ GƏLİR MƏNBƏLƏRİ**


İqtisadi fəaliyyətin üç əsas (digər ikisi - dövlət, firma) subyektindən biri də ev təsərrüfatıdır. Ev təsərrüfatı - ümumi iş, yaşayış yeri, büdcə və adətən, ailə-qohumluq əlaqələri ilə birləşmiş insanlar qrupunu əhatə edir. Bu tədqiqatda cəmiyyətin rifah halı, ev təsərrüfatlarının gəlir mənbələri, onlara təsir edən edən amillər tərəfimizdən öyrənilmişdir. Həmçinin məqalədə model və model ev təsərrüfatları haqqında məlumat verilmiş, model ev təsərrü-fatalrının göstəriciləri hesablanmışdır. Tədqiqat Azərbaycanın Gəncə-Qazax iqtisadi zonasında və Gürcüstanın Kaxetiya vilayətində aparılmış və nəticələrin müvafiq ərazilərdəki ev təsərrüfatlarının həyat səviyyəsinə təsiri müəyyənləşdirilmişdir.


## РЕЗЮМЕ


**Нияз Мамедов**


**ИСТОЧНИКИ ДОХОДА ДОМОВОДСТВО В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ В ИССЛЕДОВАТЕЛЬСКИЕ ДЕРЕВНИ АЗЕРБАЙДЖАНА И ГРУЗИИ**


Одним из трех основных (два других, государственных, твердых) субъектов хозяйственной деятельности является домоводство. Домоводство - охватывает группу людей, которых объединяет общая работа, жилье, бюджет и, как правило, семейные отношения. При исследовании как влияющие на современную рыночную экономику категории изучались уровень жизни, доходы домохозяйств и их источники, социальное благосостояние общества. На основе показателей, полученных в результате опроса рассчитаны доходоы, расходы, прибыли домашних хозяйств по отраслям аграрной деятельности, по полученным результатам проведен сравнительный анализ. Результаты исследования относятся к исследуемым селам Гянджа-Газахского экономического района Азербайджанской Республики и области Кахетия в Грузии. Эти результаты в статье сравниваются и отмечается влияние результатов на уровень жизни.



NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ÇİÇƏK NƏCƏFOVA**
**VAHİD ABBASOV**
*İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu*

**UOT 336.7**

# ELEKTRON TİCARƏTİN HÜQUQİ VƏ İQTİSADİ TƏNZİMLƏNMƏSİ

**Açar sözlər:** *elektron kommersiya, elektron ticarət, hüquqi normalar, oferta, aksept, elektron imza*
**Keywords:** *electronic commerce, electronic trading, legal security, electronic signature*
**Ключевые слова:** *электронная коммерция, электронная торговля, правовое обеспеченность, электронная подпись*

Elektron kommersiya fəaliyyətinin hüquqi təminatı elektron telekommunikasiya mühitinin xüsusiyyətləri ilə müəyyən edilir. Bu xüsusiyyətlərin əsas məqamlarından biri ondan ibarətdir ki, əməliyyaların aparılması üçün texnologiyaların dəyişmə sürəti bu texnologiyaların mövcud qanunvericilikdə əks olunmasından daha sürətlidir. Bu problemi həll etmək üçün üç yanaşma mövcuddur və bu yanaşmalar bir-birini istisna etmir, əksinə tamamlayır.

Birinci yanaşma yeni texnologiyaların tətbiqi ilə nəticələnən əməliyyatların mövcud qanunvericiliyin analoji normalarına uyğunlaşdırılmasıdır. Bu halda "yeni" əməliyyatlarda ən çox oxşar olan əməliyyatlar üçün tətbiq edilən normalar istifadə olunur. Buna misal olaraq elektron ticarətdə "MoTo" (“Mail order, Telephone order” - poçt və ya telefon sifarişləri ilə edilən əməliyyatlar) əməliyyatını tənzimləyən bəzi qaydaların yayılmasını göstərmək olar.

İkinci yanaşma ondan ibarətdir ki, əməliyyatları tənzimləmək üçün, inkişaf etmiş ölkələrin əksəriyyətində geniş istifadə olunan biznes dövriyyəsi ənənələrindən istifadə oluna bilər. Hazırda elektron ticarətin hüquqi tənzimlənməsinin əsas prinsipi məhz bu üsulla formalaşdırılır: anlaşmanı tərtib edən tərəflər onun yalnız elektron formada olduğuna görə şübhə altına almamalıdırlar [1].

Müasir dövrdə istənilən kommersiya xarakterli əməliyyatların həyata keçirilməsində mütləq mənada hüquqi formalara istinad edilir ki, bu formalar içərisində də müqavilələr üstünlük təşkil edir. Elektron ticarətin reallaşdırılması zamanı isə məntiqə uyğun olaraq bu tipli razılaşmalar elektron əsasda (formada) həyata keçirilir.

Yeni texnologiyalardan istifadə edərək əməliyyatların tənzimlənməsi probleminin həlli üçün üçüncü yanaşma, müqavilələri mümkün qədər geniş şəkildə tərtib etməkdir, yəni tərəflər cari əməliyyat üçün nəyin norma hesab edilməsi barədə ətraflı razılıq əldə etməlidirlər.

Bir dövlətin qanunvericiliyi çərçivəsində bağlanılmış müqavilələr üçün bu yanaşmalar düzgün tətbiq edildiyi halda, onların hüquqi təminat probleminin həlli də qənaətbəxş hesab edilə bilər. Elektron ticarətin əsas xüsusiyyətlərindən biri, internetdən əməliyyatların yerinə yetirilməsi üçün bir vasitə kimi istifadə edilməsi nəticəsində, əməliyyatların qloballaşmasıdır. Bu halda yuxarıda təsvir olunan üç yanaşmadan heç biri tamamilə effektiv ola bilməz, çünki tərəflər müxtəlif ölkələri təmsil edirlər və hər bir ölkədə müxtəlif hüquqi sistemlər mövcuddur. Əsas problemlərdən biri, elektron ticarətdə hər bir əməliyyatda üçüncü şəxslərin iştirak etməsidir. Onların rolu tərəfləri əməliyyatın baş tutacağı mühitlə təmin etməkdir. Bu üçüncü tərəflər olmadan elektron ticarət mövcud deyil və bu səbəbdən elektron ticarətin hüquqi tənzimlənməsini təmin etmək məqsədilə onların hüquqlarının, vəzifələrinin və məsuliyyətlərinin tənzimlənməsi vacibdir [3].

Aydındır ki, üçüncü tərəfin fəaliyyətini ənənəvi üsullarla tənzimləmək mümkün deyil (məsələn; adi əməliyyatların tənzimlənməsi ilə müqayisədə) və ya olduqca çətin olur (əməliyyatların yeni şəkil alması və üçüncü şəxsin qeyri-ənənəvi rola malik olması mövcud qaydalardan istifadəyə imkan vermir).

Müqaviləni bağlanması yolu ilə üçüncü şəxslərin fəaliyyətini tənzimləmək imkanları da məhdud deyildir, çünki tərəflər arasında bu üçüncü şəxslərin zənciri olduqca uzun ola bilər və bəzi hallarda onun tərkibi əvvəlcədən məlum olmur, buna görə də bu zəncirdə olan bütün əlaqələr arasındakı bütün müqavilələrdə bu əməliyyatlar üçün bütün əhəmiyyətli halların nəzərə alındığını əvvəlcədən bilmək mümkün deyil.

Elektron müqavilələrin bağlanması barədə söhbət açmazdan əvvəl elektron məlumat mübadiləsi (EMM) məfhumunun nə olduğunu müyyən edək. BMT-nin Beynəlxalq Ticarət Hüquqları üzrə Komissiyası, UNCITRAL (Birləşmiş Ticarət Hüquqları üzrə Birləşmiş Millətlər Təşkilatı Beynəlxalq Komissiyası) - Elektron Ticarət haqqında qanunun b bəndinə əsasən - məlumatların strukturlaşdırılması üçün razılaşdırılmış standartdan istifadə edərək bir kompüterdən digərinə elektron məlumat ötürülməsi qaydasını müəyyən etmişdir [4].

Hər bir ölkənin özünəməxsus qanunvericiliyi olsa da, qəbul edilmiş ümumi mexanizmlər də mövcuddur. Əksər hallarda ticarət əməliyyatlarına dair təkliflər "oferta" kimi xüsusi bir terminologiya ilə ifadə edilir. Bu, bizim mülki məcəlləmizdə də özünü hüquqi baxımdan göstərir.

Elektron müqavilənin bağlanılması qaydası da dəqiq müəyyən olunmalıdır. Elektron ticarətdə müqavilə bağlanan zaman bir tərəfdən göndərilən oferta və digər tərəfdən isə aksept elektron məlumat şəklində göndərilə və alına bilər. Müqavilə oferta göndərmiş şəxsin onun akseptini aldığı anda bağlanmış sayılır. Elektron ticarət müqavilələrinin şərtlərinə aşağıdakılar aiddir:

1) oferta müqavilənin bütün əhəmiyyətli şərtlərini özündə əks etdirməlidir;

2) müqavilədə nəzərdə tutulmalıdır ki, onun ayrı-ayrı şərtləri müqaviləyə digər elektron məlumata istinadən daxil edilə bilər;

3) oferta və ofertaya dəvət aşağıdakıları nəzərə almalıdır:

• müqavilənin bağlanılması qaydası;

• şəxsi imzanın analoqundan istifadə qaydası;

• müqavilə şərtlərinin razılaşdırılması zamanı dəyişikliklərin edilməsi mümkünlüyü və qaydaları;

• aksept qaydası;

• akseptin geri çağrılması qaydası;

• elektron məlumatların saxlanılması və təqdim olunması üsulları və onlara çıxma şərtləri, həmçinin elektron məlumatların surətlərinin kağız daşıyıcıda təqdim olunması şərtləri.

Müqavilələrin bağlanması üçün oferent - İnternet şəbəkəsinə qoşulmuş serverdə ictimai oferta yerləşdirir. Təklif olunan şərtlərlə belə bir müqavilə bağlamaq istəyən hər kəs müqavilənin formasını dolduraraq və imzalayaraq təklifi qəbul edir. Bu halda, müqavilə yalnız kompüterdə elektron qeydlər şəklindədir və tərəflər müqaviləni imzalamaq üçün adətən elektron imza və ya onun funksional ekvivalentlərindən istifadə edirlər.

Müasir şəraitdə, əməliyyatların həyata keçirilməsində əsasən rəqəmli elektron imzadan istifadə olunur. Onun əsas funksiyaları iki məqamla bağlıdır: birincisi, müasir elektron texnologiyalarla ötürülmüş məlumatların həqiqiliyini, ikincisi, ötürülmüş məlumatı tərtib edən və düzgün şəkildə imzalayan şəxsin etibarlılığını təsdiq etmək. «Elektron imza və elektron sənədlər haqqında» 2004-cü il Azərbaycan Respublikası Qanununun məqsədi elektron sənədlərdə rəqəmsal elektron imzaların istifadəsini təmin etməkdir, yəni elektron sənəddə rəqəmsal imza adi kağız üzərində olan şəxsi imzaya bərabərdir [2].

Rəqəmsal elektron imzanın mənasını anlamaq üçün Qanunda istifadə olunan aşağıdakı əsas anlayışları qeyd etmək lazımdır:

• imza açarı sertifikatının sahibi - mərkəz tərəfindən imza açarının sertifikatının verildiyi fiziki şəxsdir və o, qapalı rəqəmli elektron imza açarına malikdir və rəqəmli elektron imza vasitələri ilə elektron sənədlərdə özünün rəqəmli elektron imzasını yarada bilər (elektron sənədləri imzalaya bilər);

• imza açarının sertifikatı;

• rəqəmli elektron imzanın bağlı açarı - ancaq imza açarı sertifikatının sahibinə məlum olan və elektron sənədlərdə rəqəmli elektron imzaların yaradılması üçün nəzərdə tutulan unikal (təkrarlanmayan) simvollar (rəmzlər) ardıcıllığıdır;

• rəqəmli elektron imzanın açıq açarı - informasiya sisteminin istənilən hər bir istifadəçisinə məlum olan və elektron sənədlərdə rəqəmli elektron imzaların təsdiq olunması üçün nəzərdə tutulan və rəqəmli elektron imzanın bağlı açarına uyğun gələn unikal simvollar ardıcıllığıdır.

Oferta təklifini təqdim edərkən, aşağıdakılara xüsusi diqqət yetirmək vacibdir:

- şərtləri başa düşmək üçün xüsusi bilik səviyyəsi tələb edilməsin;
- müqavilənin şərtləri dəqiq olsun;
- ofertanı davam etdirmək və onunla tanış olmaq imkanı olsun.

Təcrübə göstərir ki, ofertanın müəyyən şərtləri başqa hallarda başqa bir sənəd və ya mənbəyə istinad edərək tərtib edilə bilər. Bu halda, müvafiq ofertanı etibarsız saymaq üçün əsas ola bilməz. Bununla belə, bu formada təsdiq edildikdə, müvafiq müqavilə əlaqələrinin mənbəyinə çıxış təmin edilməlidir.

Müqavilə nə vaxt bağlana bilər? Cavab sadədir. Təklifi qəbul edən şəxs müəyyən şərtlərlə müraciət edirsə, deməli, müqavilə artıq bağlanmışdır. Müqavilənin elektron forması ilə əlaqədar sənədlərin təqdim edilməsi təklifin qəbul edilməsi hesab olunur. Bu vəziyyətdə biz mal, xidmət və ya işlərin aşağıdakı aspektlərindən danışa bilərik:

- təchizatçının adı;
- qiymət;
- vergilər;
- çatdırılma;
- sifarişin yerinə yetirilməsi;
- qiymətin etibarlılığı;

- minimum çatdırılma vaxtı;
- daimi və ya mütəmadi şərait;
- müqavilənin bağlanmasının mərhələləri;
- müqavilənin qeydiyyatı;
- məlumatın verilməsi və s.

Sifariş zamanı satıcı alıcıya sifarişi qəbul etdiyini dərhal bildirməlidir. Sifarişin icrası barədə məlumat əldə etmək onun qəbul olunduğun bildirir. Qeyd edək ki, bu cür əməliyyatlardan imtina müddəti 7 iş günüdür. Bu müddət ərzində heç bir cərimə tətbiq edilə bilməz və səbəb göstərilmədən müqavilənin icra olunmasından imtina oluna bilər.

İnternet vasitəsilə müqavilələr bağlanarkən meydana gələn əsas problemlər bunlardan ibarətdir:

• müqavilənin bağlandığı yerin təyin olunması və eləcə də orada hansı qanunvericiliyin qüvvədə olduğunu müəyyənləşdirməkdə çətinlik. Bu sual yalnız tərəflərin müxtəlif dövlətlərin sakinləri olduğu zaman yaranmır. Oferent təklifi yalnız dövlətin ərazisində yerləşdiyi serverdə deyil, dünyanın hər hansı bir yerində olan serverdə yerləşdirilə bilər. Məlumatı qəbul edən şəxs yolda olarkən belə (təyyarədə, gəmidə və s.) bir dizüstü kompüterdən məlumatı qəbul edə bilər;

• müqavilənin bağlanması faktının təsdiq olunması, müqavilənin tərkibində olan məlumatların təhlükəsizliyi və dəyişilməzliyi. Hüquq-mühafizə orqanlarının bu müqaviləyə yalnız bir kompüter məlumatı kimi yanaşması qəbuledilməzdir. Müqavilənin etibarlılığını təsdiq edən əsas mexanizm, tərəflərin həqiqiliyini təmin etmək üçün istifadə etdiyi bir sıra prosedurlardır;

• müqavilənin tərkibində olan məlumatların məxfiliyinin qorunması - informasiya şəbəkəsi sahibləri tərəfindən həyata keçirilən müəyyən təhlükəsizlik standartları ilə təmin olunması. Məlumatların məxfiliyinin təminatı əsas şərtdir.

Elektron ticarətin hüquqi tənzimlənməsinin bütün dünyaya xas olan ümumi problemləri bunlardır:

Elektron ticarətin problemləri

Cədvəl 1.

| Proses | Problem daxilində əsas məsələlər |
|---|---|
| İnformasiya xidməti provayderlərinin (xidmət təminatçıları) fəaliyyətinin tənzimlənməsi | - onlayn xidmətinin göstərildiyi yerin müəyyənləşdirilməsi proseduru.<br>- onlayn xidmətlərin göstərilməsi üçün fəaliyyətin başlanması proseduru (icazə və bildiriş). Bəzi peşə sahiblərinə (vəkillər və s.) xidmətlərin göstərilməsi qaydaları.<br>- ədalətli rəqabətin təmin edilməsi.<br>- xidmət şəraitinin şəffaflığının təmin edilməsi |
| Kommersiya mesajlarının mübadiləsi | - "kommersiya mesajı" terminini müəyyənləşdirmək. Mesajın birmənalı təfsiri və müəllifin müəyyən edilməsi prinsipinin həyata keçirilməsi (əvvəlcədən razılaşdırılmış prosedurlara əsasən).<br>- sənədin yalnız göstərilən ünvanlı şəxs tərəfindən oxunmasına təminat verilməsi.<br>- kommersiya mesajında təqdim olunan məlumatların tamlığını təmin etmək (Şəbəkə üzərindən ötürülmə zamanı təminatın təsdiq edilməsinə ehtiyac olduğunu, sənəddə dəyişiklik edilməyəcəyini). |
| Elektron vasitələrdən istifadə etməklə müqavilələrin bağlanması | - elektron qaydada imzalanmış müqavilələrin etibarlılığının tanınması.<br>- müqavilənin bağlanması zamanı tərəflərin müxtəlif hərəkətlərinin hüquqi qüvvəsi. |
| Vasitəçilərin məsuliyyəti | - qeyri-qanuni məlumatların ötürülməsinə görə vasitəçilərin məsuliyyəti.<br>- vasitəçilərin ötürülən məlumatlara nəzarət edə bilməsi qabiliyyəti. |
| Elektron Ticarət sahəsində mübahisələrin həlli | - ən sürətli (tərəflərin bir-birindən coğrafi məsafəsini nəzərə alaraq) və effektiv (bu cür biznesin xüsusi xüsusiyyətləri nəzərə alınmaqla) hüquqi müdafiə mexanizmlərlə təmin olunma vasitələri.<br>- qeyri-məhkəmə (arbitraj) tənzimləmə mexanizmlərinin tətbiqi dərəcəsi.<br>- ayrı-ayrı ölkələrin tənzimləyici və məhkəmə orqanları arasında əməkdaşlığın təkmilləşdirilməsi. |
| Dövlətlərin qanunvericiliyində standartların tətbiq edilməsi | - transsərhəd elektron kommersiya zamanı bu və ya digər dövlətin qanunvericilik nəzarəti prinsiplərinin müəyyənləşdirilməsi.<br>- xidmət-provayderlər haqqında məlumatların açıqlanması üçün vahid qaydaların tətbiqi.<br>- xidmət-provayderlərin fəaliyyətinə tam zəmanətin verilməsi. |

Elektron ticarətin problemli hüquqi aspektlərini vurğulayaq:

1. Əhalinin hüquqi mədəniyyəti demək olar ki, yoxdur - bu cəmiyyətin ən böyük problemidir. Bununla yanaşı, bu internet ilə əlaqəli olmayan ölkələrin sakinlərinə də aid edilir. Qanunun bütün əsaslarını anlaya bilməmə.

2. Bütün saytlar fərqli ölkələrdə yerləşdiyindən, onlardan birini ziyarət edən şəxs, öz ölkəsinin qanunlarını poza bilər, halbuki bu saytın olduğu ölkənin qanunları onu ziyarət etməyə imkan verir. Görünür, bunun üçün dəqiq bir qanun yoxdur.

3. İnternetdə alış-veri edənlərin yalnız "imkanlılar" olduğuna dair fikir. Çünki, ödəmə, yalnız kredit kartları və ya elektron pul vasitəsilə mümkündür. Əslində, onlayn alış-veriş orta və ya böyük bir şəhərdə yaşayan hər kəs üçün açıqdır.

4. Keyfiyyətsiz mallar. Bu, onlayn ticarətdə ciddi problemdir. Məsələn; qeyri-standart məhsulların mübadiləsi. İstifadəçinin sosial müdafiəsi yoxdur.

5. Qanunvericilik problemi. Çox sayda sayt eyni məhsullar təklif edir, lakin bir çox saytlarda bir şirkətin və ya fərdi sahibkarın qeydiyyatı haqqında heç bir məlumat yoxdur [4].

Bu gün Azərbaycanda müasir informasiya texnologiyaları və internet şəbəkələrinə əsaslanan biznes strukturlarının fəal inkişafı elektron kommersiyanın normativ-hüquqi təminatının formalaşdırılmasını tələb edir. Elektron ticarətin istinad qaydası üçün "elektron qaydada bağlanmış müqavilənin qanuni və hüquqi olması" üçün Azərbaycanda mütəmadi olaraq hüquqi əsas yaranır. Elektron əməliyyatlar sahəsində üç əsas anlayış var: "sənədləşdirilmiş məlumatlar", "informasiya sistemləri" və "avtomatlaşdırılmış informasiya sistemləri və onların texnologiyaları". Sənəd və yaxud sənədləşdirilmiş informasiya dedikdə, maddi daşıyıcıda saxlanılmış (onu identifikasiya etməyə imkan verən rekvizitlərlə) başa düşülür. İnformasiya sistemi sənədlərin (informasiya massivləri) və informasiya texnologiyalarının təşkilati və qaydaya salınmış məcmusu kimi ifadə olunur. Elektron sənədlər yalnız mövcud standarta uyğun olaraq rəsmiləşdirildiyi zaman hüquqi qüvvəyə vaxt malik olur [3].

2005-ci ildə «Elektron ticarət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olundu.

Qanun kommersiya xarakterli bütün münasibətlərdən (həm müqavilə, həm də müqavilə olmayan) olan məsələləri əhatə edir. Ticarət münasibətləri aşağıdakı əməliyyatları əhatə edir:

- malların və ya xidmətlərin göstərilməsi üçün hər hansı ticarət əməliyyatları;
- distribütor müqavilələri;
- ticari biznes və agentlik münasibətləri;
- faktoring;
- lizinq;
- sənaye obyektlərinin tikintisi;
- məsləhət xidmətlərinin göstərilməsi;
- injiniринq;
- lisenziyaların alınması / satılması;
- investisiyalar (investisiyalar);
- maliyyələşdirmə;
- bank xidmətləri;
- sığorta;
- istismar və imtiyaz haqqında saziş;
- birgə müəssisələr və digər sənaye və ya işgüzar əməkdaşlıq formaları; mal və sərnişinlərin hava, dəniz, dəmir yolu və ya avtomobil nəqliyyatı ilə daşınması.

Qanun beş hissədən ibarətdir:

I. Ümumi müddəalar

II. Elektron ticarətin təşkili

III. Elektron ticarətin həyata keçirilməsi

IV. Elektron ticarət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

V. Yekun müddəalar

Bu Qanunda yeni anlayışların: elektron ticarət, elektron məlumat, elektron məlumatı göndərən (alan), informasiya vasitəçisi və s. təfsiri verilmişdir.

Qanunda göstərilir ki, Azərbaycan Respublikasında elektron ticarətin hüquqi tənzimlənməsi iştirakçıların hüquqi bərabərliyi, iştirakçıların əmlak müstəqilliyi, əmlakın toxunulmazlığı, müqavilə azadlığı, biznes fəaliyyətinin heç bir maneə olmadan həyata keçirilməsi, azad və ədalətli rəqabət, malların, xidmətlərin və maliyyə resurslarının sərbəst hərəkət etməsi, məhkəmədə hüquqların qorunmasının təmin edilməsi kimi prinsiplərə əsaslanır.

Elektron ticarətin iştirakçılarına olan tələblər də qanunda öz əksini tapmışdır. Aydın olduğu kimi elektron ticarətin iştirakçıları satıcı (təchizatçı) və alıcı (sifarişçi) sayılır. Qanunun tələblərinə əsasən satıcının

(təchizatçının) alıcılara (sifarişçilərə) təqdim etdiyi bütün məlumatlar Azərbaycan dilində və ya tərəflərin razılaşdırdığı digər dildə, xüsusi biliyə malik olmayan alıcı (sifarişçi) tərəfindən aydın və birmənalı başa düşülən şəkildə ifadə olunmalıdır [3].

Satıcı (təchizatçı) özü haqqında alıcı (müştərilər) və səlahiyyətli dövlət orqanlarını aşağıdakı zəruri məlumatlarla tanış etməlidir:

1. Hüquqi şəxsin adı, dövlət qeydiyyatı, təşkilati-hüquqi forması, şəxsin ünvanı və soyadı, adı və atasının adı, ünvanı;

2. Əlaqə məlumatları (telefon, faks, internet və elektron poçt ünvanları);

Satıcı (təchizatçı) ticarət reyestrində qeydiyyata alındıqda, reyestrin adı, qeydiyyat nömrəsi və ya digər identifikasiya məlumatı (satıcı (təchizatçı) peşə üzrə fəaliyyət göstərdikdə isə, qeydiyyata alındığı müvafiq dövlət orqanının və ya digər orqanın adı, peşə üzrə ixtisas dərəcəsi, peşə qaydaları və bu qaydalarla tanış olma imkanı barədə məlumat);

4. Xüsusi razılıq (lisenziya) verilərkən xüsusi razılıq və onu verən dövlət orqanı barədə məlumat;

5. Vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

6. Malların, xidmətlərin və işlərin qiymətinə verginin və onların çatdırılma haqqının daxil olub-olmaması və onların məbləğləri haqqında məlumat.

Elektron ticarəti stimullaşdırmaq üçün təchizatçılar müvafiq sahədə bildirişlərdən istifadə edə bilərlər. Bu tədbir məhsul və xidmətlərin satışı zamanı istehsalçının imicini yaratmaq və təkmilləşdirmək məqsədini daşıyır. Bir qayda olaraq, bu aşağıdakı məqamlarda özündə əks olunmalıdır və həyata keçirilmə zamanı nəzərə alınmalıdır:

- kommersiya xarakterli olmalıdır;
- sahibi haqda məlumatlar dəqiq olmalıdır;
- məhsul satışını stimullaşdırmaq;
- qanunla nəzərdə tutulan güzəştlərin açıq şəkildə açıqlanması;
- müvafiq sahədə hansı mükafatlar mövcuddur;
- təkliflərin ünvanlanması;
- məhsulun alınması üçün şərtlər və s.

Bəzi hallarda, aşağıdakı məlumatları kommersiya xəbərdarlığına daxil etmək qadağandır:

- birbaşa təchizatçı ilə əlaqə saxlamağa imkan verən məlumatlar;
- İnternet və ya e-poçt ünvanları;
- məhsulun satıcısı haqqında məlumat;
- məlumat əldə etmək pulsuzdur və s.

Ümumiyyətlə, əgər respublika qanunvericiliyinə istinad ediriksə, müxtəlif şəxslərin dairəsinə ünvanlanmış müqavilə təklifi (oferta) oferentin və ya etibarnamə əsasında fəaliyyət göstərən hər hansı bir şəxsin ona verdiyi səlahiyyətlərə istinadən göndərilə bilər. Qanunvericilikdə bu hüquqa malik şəxs vasitəçi adlandırılmışdır. Başqa bir halda, bu, bu məqsəd üçün hazırlanmış proqram əsasında avtomatik olaraq fəaliyyət göstərən müvafiq elektron sistem vasitəsilə təmin edilə bilər.

Qanuna əsasən, broker (vasitəçi) elektron ticarətdə iştirak edən tərəflər arasında bağlanmış müqavilənin şərtlərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsindən məsuldur. Lakin, o aşağıdakı problemlərlə bağlı məsuliyyət daşımır:

- məlumatın ötürülməsini təşəbbüs etmirsə və tanınmırsa;
- informasiya alıcısını müəyyən edən hər hansı bir formada iştirakçı olmadıqda;
- mövzudan asılı olmayaraq ötürülən məlumatların məzmununu dəyişdirmədikdə.

**Nəticə**

Qeyd etmək lazımdır ki, hal-hazırda mövcud olan hüquqi normalar hələ elektron ticarətin işləməsinə imkan verir. Belə nəticəyə gəlmək olar ki, elektron ticarətin özünəməxsus xüsusiyyətləri onun hüquqi tənzimlənməsinin əsas cəhətlərini müəyyən edir. Əsas odur ki, elektron ticarət həm bir ölkə çərçivəsində və həm də beynəlxalq səviyyədə hərtərəfli hüquqi tənzimləmə tələb edir.

Beləliklə, İnternet vasitəsi ilə əməliyyatların keyfiyyətinin artırılması həmişə bu sahədə qanunvericiliyin aktuallığı ilə bağlıdır. Əməliyyatların aparılması zamanı hərəkətlərin ciddi şəkildə tənzimlənməsi fırıldaqların yaranmasının aradan qaldırılmasına kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. Северин В.А. Правовое регулирование информационных отношений - Вестник МГУ. Серия Право. 2000
2. "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının qanunu. - 9 mart 2004-cü il.
3. Elektron ticarət haqqında Azərbaycan Respublikasının qanunu. - 10 may 2005-ci il.
4. Дэвид, Козье. Электронная коммерция / Козье Дэвид. М.: Русская редакция, 2007. 288 с.
5. Ганжа, К Я Правовое регулирование электронной коммерции в России // Современные научные исследования и инновации. 2013. № 10.
6. http://www.economy.gov.az
7. http://www.president.gov.az
8. http://www.azstat.org


## ABSTRACT


**V.H.Abbasov**
**Ch.M.Najafova**


### LEGAL AND ECONOMIC REGULATION OF ELECTRONIC TRADE


Speaking about the legal security of e-commerce, it is necessary to note several advantages. First of all, the transparency factor in electronic commerce is more noticeable. Thus, each e-commerce transaction is uniquely fixed, and this is also an important factor. E-commerce, which has now become an integral part of our livelihoods and is becoming more common, necessitates the development of a special legal strategy to promote the development of a global and open market. At the present stage, this means a coordinated use of both traditional legal norms and new, specially created legal institutions and procedures. The article discusses e-commerce issues and its legal framework, key issues and processing issues.


## РЕЗЮМЕ


**В.Г.Аббасов**
**Ч.М.Наджафова**


### ПРАВОВО-ЭКОНОМИЧЕСКОЕ РЕГУЛИРОВАНИЕ ЭЛЕКТРОННОЙ ТОРГОВЛИ


Говоря о правовой обеспеченности электронной коммерции, необходимо отметить несколько преимуществ. Прежде всего, фактор прозрачности в электронной торговле более заметен. Таким образом, каждая транзакция с электронной торговлей однозначно фиксируется, и это тоже важный фактор. Электронная коммерция, которая в настоящее время стала неотъемлемой частью нашей жизнедеятельности и становится все более распространенной, обусловливает необходимость разработки специальной юридической стратегии, способствующей развитию глобального и открытого рынка. На современном этапе это означает скоординированное использование как традиционных правовых норм, так и новых специально созданных правовых институтов и процедур. В статье рассматриваются вопросы электронной коммерции и ее правовые основы, ключевые вопросы и вопросы обработки.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**DİLARƏ ƏMİRASLANOVA**
*Sumqayıt Dövlət Universiteti*
*dilare.amiraslanova@mail.ru*

**UOT 330:59**

# MÜƏSSİSƏNİN İDARƏ EDİLMƏSİNİN TƏŞKİLAT QURULUŞUNUN FORMALAŞDIRILMASI PRİNSİPLƏRİ

**Açar sözlər:** *idarəetmə, müəssisə, istehsal, təşkilati quruluş, funksional yanaşma*
**Keywords:** *management, enterprise, production, organizational structure, functional approach*
**Ключевые слова:** управление, предприятие, производство, организационная структура, функциональный подход

Müəsissənin idarə edilməsinin təşkilat quruluşu idarəetmə sisteminin qurulmasının daxili formasını əks etdirir. İdarəetmə quruluşunun ünsürləri bir-biri ilə üzvü şəkildə əlaqədar olmaq sayəsində bütöv, vahid bir sistemi – müəsissənin idarə edilməsi sistemini əmələ gətirirlər. Ona görə də idarəetmə quruluşunun ünsürləri və onların məcmuusu idarəetmə sisteminin atributunu təşkil edir. İdarəetmə quruluşu obyektiv olaraq onun təşkil olunma xarakterini də müəyyənləşdirir. İdarəetmə quruluşu idarəetmə vəsilələri, mərhələlərinin miqdarı, tərkibi, onların qarşılıqlı tabeçiliyi və əlaqəsi ilə xarakterizə olunur. İdarəetmə quruluşu idarəetmə əmək bölgüsü formasıdır. İdarəetmə quruluşu bu əmək bölgüsünə müvafiq olaraq müəyyən funksiyaları differensiallaşdırır. Çünki idarəetmə funksiyaları avtomatik olaraq həyata keçirilmir. Bunun üçün idarəedən sistem təşkil olunur, idarəedən sistem isə idarə aparatının, idarəetmə orqanının formalaşması ilə əlaqədardır. Burada ən başlıca məsələlərdən biri idərəetmənin funksiyası ilə onun quruluşu arasındakı əlaqənin düzgün təmin edilməsi, idarəetmə funksiyalarının ayrı-ayrı bölmələr üzrə optimal bölüşdürülməsidir. Bu prosesin səmərəli həyata keçirilməsi istər istehsalın, istərsə də idarəetmə sisteminin səmərəliliyinin artırılmasına mühüm təsir göstərir.

İdarəetmə quruluşu iyerarxiya qaydasında qurulur. Ona görə də quruluşun ünsürləri, yuxarı, aşağı və eynihüquqlu, səviyyəli bölmələrə ayrılır. Onlar arasında müəyyən zəruri əlaqələr mövcuddur. Bu əlaqələr tipii üfüqi-rəhbərlik, tabeçilik əlaqəsi və şaquli-eyni hüquqlu ünsürlərin kooperasiya və koordinasiya əlaqələri formasında olur. Burada üfüqi əlaqə xətti əlaqələrə və funksional əlaqələrə ayrılır ki, bu da müəyyən funksiyaların icrası ilə əlaqədardır. Üfüqi əlaqə idarəetmə həcmini, idarəolunanın miqyasını, şaquli əlaqə isə idarəetmə prosesində müəyyən əlaqədə olan adamlar arasındakı münasibəti və adamların sayı ilə bağlıdır. Bu mənada idarəetmə quruluşunun təşkilati formaları xətti və funksional orqanların tərkibi və onlar arasındakı əlaqə formasıdır. İdarəetmə orqanında bütün struktur bölmələri təşkilati quruluşun tipindən asılı olmayaraq aşağıdakı əsas qruplara bölünür: a) rəhbərlik; b) sahə struktur bölmələri; c) funksional struktur bölmələri; d) köməkçi və xidmətedici struktur bölmələri.

Burada struktur bölmələri ilə idarəetmə proseslərinin əlaqələndirilməsi zəruridir və bu aşağıdakılarla əlaqədardır [1]:

- idarəetmə orqanının cari fəaliyyətinin təşkili;
- idarə aparatında fəaliyyətin reqlamentləşdirilməsi;
- idarəetmə orqanının fəaliyyətində məsuliyyət həddinin müəyyən edilməsi;
- bütövlükdə idarəetmə orqanının fəaliyyətinin təşkili sistemi.

Yuxarıdakılarla yanaşı idarəetmənin səmərəli təşkili həmçinin idarəetmə proseslərinin təşkilini, idarəetmənin obyekti ilə subyektinin səmərəli əlaqələndirilməsini, müxtəlif idarəetmə sistemləri arasında iyerarxiya əlaqələrinin təmin edilməsini, ayrı-ayrı idarəçilik işlərinin icra edilməsi qaydasını, hər hansı bir idarə aparatında müxtəlif struktur bölmələrin fəaliyyətinin əlaqələndirilməsi məsələlərini də nəzərdə tutur.

İdarəetmə orqanının quruluşu dedikdə, onun bölmələrinin sxemi, tərkibi, onlar arasındakı funksiya və səlahiyyətlərin bölüşdürülməsi, qarşılıqlı əlaqəsi başa düşülür. Müəyyən əlaqədə olan bölmələrin məcmusu idarəedici sistemi-idarə aparatını əmələ gətirir [2].

İdarəetmə quruluşundakı əlaqələr formasının xarakteri aşağıdakı formalarda olur:

- xidməti formada. Bu əlaqə üfiqi xətt halında, aşağı və yuxarı orqanların, vəzifəli şəxslərin əlaqəsi formasında;

- funksional əlaqə formasında. Burada da əlaqə aşağı və yuxarı orqanların, vəzifəli şəxslərin qarşılıqlı münasibəti halında həyata keçirilir. Lakin yuxarı orqan xətti əlaqə formasndan fərqli olaraq müəyyən məsləhətlər verir, birbaşa məsələni həll etmir;

- texniki əlaqə. Bu eyni funksiyanı yerinə yetirən ayrı-ayrı işçilər və vəsilələr arasındakı əlaqə formasıdır;

- informasiya əlaqəsi. Bu əlaqə idarə edən və idarə olunan sistemlər, sistemdaxili bölmə və vəsilələr arasındakı informasiya formasıdır.

İdarəetmənin ünsürlərinə aşağıdakılar daxildir: əmək kollektivləri, resurslar, işçi kollektivinin, əmək alətlərinin, işçilərin müəyyən formada əlaqələndirilməsi; idarəetmə orqanının bölmələri, vəsilələr.

İdarəetmə sistemin əsasını müəyyənləşdirən istehsal və təşkilati quruluş ilə idarəetmə fəaliyyəti arasında sıx əlaqə vardır. Bunun əsasında idarə aparatı yaradılır. İdarə aparatına mütəxəssislər, funksional və xətti işçi qrupları daxildirlər. Onlar arasında fəaliyyət dairəsi və əlaqələrin optimallaşdırılması, təşkil edilməsi idarəetmədə ən başlıca cəhətdir. Burada idarəetmə orqanlarının bir-birinə tabeliyi xarakteri, idarəetmə funksiyalarının təmərküzləşməsi və mərkəzləşməsi səciyyəsi, idarəetmə prinsiplərinə əməl olunması da mühüm əhəmiyyətə malikdir.

İdarəetmənin təşkilat quruluşu formalaşdırılarkən bir sıra prinsiplər nəzərə alınmalıdır. Bu prinsiplər idarəetmə quruluşunun qanunauyğunluğunu müəyyən etməklə, bəzi hallarda idarəetmə sisteminin səmərəli fəaliyyətini səciyyələndirən meyarlar sistemi kimi də özünü göstərir. İdarəetmənin təşkilat quruluşunun yaradılması zamanı nəzərə alınmalı olan əsas prinsiplər aşağıdakılardır [3] (şəkil.1):

● istehsal-məkan prinsipi (istehsal pillələrinin sayı idarəetmə pillələrinin sayına bərabər olmalıdır);

● sərəncamvericiliklə şəxsi cavabdehliyin vəhdəti prinsipi. Bu prinsip ikili tabeçiliyi və müxtəlif əks xarakterli tapşırıqların alınmasının qeyri-mümkün edir. Hər bir idarəetmə halqasının (hər bir işçinin) yalnız bir rəhbəri olmalıdır;




Şəkil 1. İdarəetmənin təşkilat quruluşunun tərtib edilmə prinsipləri.

● xətti və funksional rəhbərlik arasında dəqiq sərhədlərin qoyulması prinsipi. Xətti rəhbərlik məhsul istehsal edilməsi prosesini idarə etməlidir, funksional rəhbərlik xətti rəhbərliyə kömək etməli, onu lazımi məlumatlarla təchiz etməli, idarəetmə prosesini səmərəli təşkil etmək üçün təkliflər verməlidir;

● tabeçiliyin əhatəliyi prinsipi (bir nəfərin səmərəli idarə edə biləcəyi adamların sayının düzgün müəyyən edilməsi və ya idarəçilik normasının müəyyən edilməsi);

● dəqiq funksional fərqləndirmə prinsipi. Hər bir funksional və istehsal vəsiləsi dəqiq müəyyənləşdirilmiş funksiyaları yerinə yetirilməlidir və heç bir idarəetmə pilləsində başqa bölmələrin funksiyaları yerinə yetirilməlidir (təkrar edilməməlidir). Bu halda idarəetmə quruluşu ilə idarəetmə funksiyalarının dialektik vəhdəti müəyyən sayda şöbələrin, bölmələrin, büroların və başqa təşkilat quruluşlarının yaradılması vasitəsilə edilir;

● hər bir istehsal vəsiləsinin və hər bir vəzifəli şəxsin hüquq, vəzifə və cavabdehliyinin vəhdəti prinsipi. Yalnız belə vəhdət optimal qərarların qəbul edilməsi və həyata keçirilməsi üçün real şərait yaradır;

● səmərəlilik və çeviklik prinsipi. İdarəetmənin təşkilat quruluşu istehsala təsir edən daxili və xarici şəraitə uyğun olaraq dəyişməlidir və bu zaman idarə aparatının səmərəli təşkilinə fikir verilməlidir.

Qeyd edilənlərlə yanaşı idarəetmənin təşkilat quruluşuna daxili və xarici amillər də təsir göstərirlər. Daxili amillərə aşağıdakılar daxildir: istehsalın həcmi və mürəkkəbliyi, onun mexanikləşdirmə, avtomatlaşdırma və kompüterləşdirmə səviyyəsi; istehsalın tipi, quruluşu; idarəetmə funksiyalarının mərkəzləşdirmə dərəcəsi; iqtisadi, sosial, psixoloji amillər və s.

Xarici amillərə müəssisənin məkanca yerləşməsi, xarici əlaqələrin həcmi və xarakteri, iqlim şəraiti və s. daxildir.

İdarəetmənin təşkilat quruluşunun formalaşdırılmasının qarşısında duran başlıca vəzifə idarə aparatı formalaşdırılarkən bu prinsiplərin maksimum nəzərə alınmasından, onlar arasında optimal əlaqənin formalaşdırılmasından (yaradılmasından) ibarətdir. Nəzərə almaq lazımdır ki, səmərəli idarəetmə aparatının yaradılması yalnız qeyd edilən prinsiplərin nəzərə alınması sayəsində mümkündür.

Müəssisənin idarə edilməsinin təşkilat quruluşu aşağıdakı sxemlər əsasında yaradılır [4]:

● ikipilləli və ya sexsiz idarə quruluşu;

● üçpilləli və ya sexli idarə quruluşu (bəzi sənaye sahələrində həmçinin korpus və ya istehsal idarə quruluşu).

Sexsiz idarə quruluşunda əsas inzibati idarə vahidi müstəqil sahələrdir. Bu idarə quruluşunda idarəetmə əlaqələri aşağıdakı şəkildə baş verir: mərkəzi idarə aparatı-sahə rəhbərliyi.

Sexli idarə quruluşunda əsas inzibati idarə vahidi sexdir. Burada idarəetmə əlaqələri aşağıdakı kimi baş verir: mərkəzi idarə aparatı – sexin idarə aparatı -sahənin idarə aparatı.

İdarəetmənin filial quruluşunda sahələrdən, sexlərdən əlavə filiallar da yaradılır. Bu zaman filiallar idarəetmənin əlavə pilləsi kimi meydana çıxmır.

İdarəetmədə əmək bölgüsü və əmək kooperasiyası nəticəsində ilkin olaraq idarəetmənin təşkilat quruluşu xətti və funksional əlaqələr formasında yaradılmışdır. Sonralar bu iki formanın əlaqələndirilməsi nəticəsində qarışıq, xətti-funksional idarəetmə tipi də meydana gəlmişdir. İri, mürəkkəb istehsal proseslərinin cərəyan etdiyi müəssisələrin yaranması istehsalata bilavasitə rəhbərlikdən azad edilmiş rəhbər işçilərin, müəyyən texniki və digər funksiyaların icrası üzrə xüsusi qrup işçilərin meydana gəlməsinə imkan vermişdir. Çünki idarəetmə funksiyaları və idarəetmə quruluşu bir-biri ilə əlaqədar olan vahid bir prosesi ifadə edir, həmçinin işçilərin istehsalın idarə edilməsində iştiraketmə xarakterini göstərir. Bu baxımdan idarə aparatı iki kateqoriyaya-xətti və funksional idarə aparatına, idarəetmə növünə ayrılır. Xətti idarəetmə aparatına daxildir: direktor və onun müavinləri, sex rəisləri və onların müavinləri, baş usta və istehsal sahəsinin ustası. Onlar öz fəaliyyətlərinin əhatəsi dairəsində zəruri vahid rəhbərlik və ondan irəli gələn səlahiyyətlər çərçivəsində istehsalatın gedişində ümumi rəhbərliyi həyata keçirirlər.

Funksional idarəetmədə idarə aparatının funksional bölmələrinin, məsələn; baş mexanik, iqtisadi xidmət bölmələrinin, baş texnoloq və s.-nin fəaliyyəti nəzərdə tutulur. Funksional idarəetmə növündə funksional idarəetmə aparatı xətti idarəetmə aparatına xidmət edir, onun üçün müvafiq texniki-iqtisadi və sosial informasiyalar, idarəetmə qərarları işləyib hazırlayır. Bununla yanaşı o özündə müəyyən müstəqil fəaliyyət növünə malikdir.

Xətti-funksional idarəetmə strukturunda xətti və funksional idarəetmə üzvi şəkildə birləşir. Bu halda xətti rəhbərlik mütəxəssislərin, funksional qərargahların köməyi ilə həyata keçirilir.

Fikrimizcə, bütün zamanlar üzrə doğru, səmərəli olan idarəetmə strategiyasının formalaşdırılması, idarəetmə qərarlarının qəbul edilməsi mümkün deyildir. Həm müəssisənin daxili mühiti (deməli, idarəetməyə təsir göstərən daxili amillər), həm də idarəetməyə təsir göstərən xarici mühit (xarici amillər) dəyişdikcə idarəetmə strategiyası, idarəetmə quruluşu təkmilləşməli, qərarlar qəbul edilərkən dəyişən şərait nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. T.Ə.Quliyev. Menecmentin (idarəetmənin) əsasları, Bakı, Qərənfil, 2006, 591 s.
2. Аокер Д. Стратегическое рыночное управление. «Питер», 2002. 480 с.
3. Друкер П. Эффективное управление., М., ИНФРА- М.2003, 457 с.
4. Фатхитдинов Р.А. Управленческие решения. М., ИНФРА- М.2006, 490 с.


## ABSTRACT


**Dilara Amiraslanova**


### PRINCIPLES OF FORMATION OF THE ORGANIZATIONAL STRUCTURE OF MANAGING THE ENTERPRISE


Improving production management and organizing larger production at lower costs in modern conditions, organizing larger production at lower costs, creating a flexible management structure is one of the main tasks facing each organization. This is the basis for the organization of thoroughly grounded decisions for the effective organization and management of production-economic activity, which can be achieved by improving the management strategy. The article discusses the principles of formation of the organizational structure of enterprise management, the functional-targeted approach to management and features of improving management strategies in modern conditions.


## РЕЗЮМЕ


**Диляра Амирасланова**


### ПРИНЦИПЫ ФОРМИРОВАНИЯ ОРГАНИЗАЦИОННОЙ СТРУКТУРЫ УПРАВЛЕНИЯ ПРЕДПРИЯТИЕМ


Совершенствование управления производством организация большего производства при меньших затратах в современных условиях, организация большего производства при меньших затратах, формирование гибкой структуры управления являются одними из основных задач, стоящих перед каждой компанией. Это основа организации комплексного обоснованного принятия решений для эффективной организации и управления производственно-хозяйственной деятельностью, которая может быть достигнута путем совершенствования стратегии управления. В статье рассматриваются принципы формирования организационной структуры управления предприятием, функционально-целевой подход к управлению и особенности совершенствования стратегии управления в современных условиях.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2019, № 2 (99)**
NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2019, № 2 (99)**
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2019, № 2 (99)**

**VƏFA QULİYEVA**
*Bakı Dövlət Universiteti*

**UOT:332**

# AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN ROLU

**Açar sözlər**: *KOS, qida təhlükəsizliyi, dövlət proqramlar, Azərbaycan iqtisadiyyatı, kənd təsərrüfatı, ölkənin inkişafı*

**Key words**: *SME, food security, government programmes, Azerbaijan economy, agricultural production, a country's development*

**Ключевые слова**: *МСП, продовольственная безопасность, государственные программы, экономика Азербайджана, сельскохозяйственное производство, развитие страны*

Dünyanın inkişaf etmiş ölkələri kiçik və orta sahibkarlığın iqtisadi artımında və məşğulluğun təmin edilməsində aparıcı mövqeyə malikdirlər. Dünya Bankında olan məlumatlara görə, inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın payı 50 və 60 faizdən yuxarıdır. Dünyanın inkişaf etməkdə olan ölkələri kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi iqtisadi aktivliyinin gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirir. Bazar münasibətlərini formalaşdıran tələb-təklifin bazarda tarazlığının formalaşmasına, qiymətlərin sabit qalmasına, istehsal olunan malların rəqabətliliyinin yüksəlməsinə, iqtisadiyyatın dayanıqlılığına şərait yaradır. İnkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr kiçik və orta sahibkarlığın bu səbəblərdən hazırki iqtisadi böhranlara uyğunlaşmasına nail olmağa çalışır. Kiçik və orta sahibkarlıq inkişafı sahəsində inkişaf etmiş ölkələr iqtisadi artıma nail olmuşdur.

ABŞ və Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99 faizini kiçik və orta müəssisələr təşkil edir ki, bunların da məşğulluqda və ÜDM-də payı 60 faizdən çoxdur. 2014-2015-ci illərdə Avropa İttifaqı ölkələrində gəlir kimi əldə olunmuş hər bir avronun 58 senti KOS subyektlərinin payına düşmüşdür [1].

Kiçik biznes formasının yaradılması və sahibkarlıq fəaliyyətinin növünün seçilməsi tənzimləyici çərçivənin, iqtisadi potensialın və biznesin inkişafına yerli hökumətlərin yardımının xüsusiyyətlərindən asılıdır. Eyni zamanda, kiçik biznes üçün əlverişli sosial və iqtisadi sahə yaratmaqla bir çox problemlər baş verir. Buna görə Azərbaycanda sahibkarlığın inkişafında bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 610 nömrəli və 2002-ci il 17 avqust tarixli 753 nömrəli fərmanları ilə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı" (1997-2000-ci illər) və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafına dair Dövlət Proqramı" (2002-2005-ci illər) qəbul edilmişdir.

Belə ki, Noyabrın 1-də Bakıda "Yeni Nəsil" gənc sahibkarlara dəstək layihəsinin açılış mərasimi keçirilib. "Youth Inc" Sahibkarlıq Proqramı çərçivəsində 2018-2019-cu illərdə həyata keçiriləcək layihə dörd iqtisadi rayonu əhatə edəcək [2].

2015-2020-ci illər üçün Dövlət Proqramında sahibkarlığın inkişafı, sahibkarların hüquqlarının və mənafelərinin müdafiəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Ölkədə KOS subyektlərinin inkişafına birbaşa təsir edəcək islahatların ünvanlılığının təmin olunması üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli "İri, orta və kiçik sahibkar meyarlarının təsdiq edilməsi haqqında" qərarı ilə KOS subyektlərinin meyarları müəyyənləşdirilmişdir. Meyarlara uyğun olaraq 2015-ci il üzrə qeydiyyatdan keçmiş hüquqi və fiziki sahibkarlıq subyektlərinin 1 faizi iri, 2 faizi orta, 97 faizi isə kiçik sahibkarlardır [3].

Kiçik və orta sahibkarlığın potensialı ölkənin iqtisadi təhlükəsizliyi ilə əlaqəsindədir. Qeyd edək ki, qida təhlükəsizliyi iqtisadi təhlükəsizliyin əsas komponent olmasına görə sahibkarlığın ərzaq məhsulların istehsalı istiqamətinə üstünlük verilməsi vacibdir. Dünya praktikada bütün xalqlarının milli təhlükəsizliyinin ən aktual problemlərindən biri ərzaq təhlükəsizliyinin təmin olunmasıdır. Birləşmiş Millətlər Təşkilatının yaradılması ilə dünya ictimaiyyəti qida çatışmazlığının aradan qaldırılmasına diqqət göstərməyə başlamışdır. 1996-ci ildə BMT-in təşəbbüsü ilə Dünya Samitində "Dünya Qida Təhlükəsizliyi üzrə Roma Deklarasiyası" qəbul edilmişdir [4]. Qida təhlükəsizliyi milli təhlükəsizliyin əsas elementi olaraq insanın çətin bioloji sistem kimi normal yaşaması özündə əks etdirir, qida məhsulları əsasən yerli istehsalat əsasında müəyyən normalar nəzərə alarkən keyfiyyətsiz məhsullardan əhalinin qorunması, daxili bazarı isə dempinqli, tələbatdan çox idxal

olunan aqrar məhsullardan müdafiəsi, ehtiyyatların yaradılması və müəyyən şərtlərin yerinə yetirilməsi və kənd təsərrüfatının istehsalçılarının xarici ərzaqa çıxmasını nəzərə alır.

Dünyada ərzaq məhsullarının inkişaf etdirilməsi, əhalinin qida məhsulları ilə təmin edilməsi ərzaq təhlükəsizliyi sahəsində sistemli addımların atılması, ərzaq ehtiyatlarının yaradılması bu istiqamətlərdə bir çox işlərin görülməsi, xüsusi dövlət proqramının qəbul edilməsi mühüm amillərdən biridir.

Azərbaycan Respublikası müstəqilliyini elan etdikdən sonra əsas vəzifələrindən biri ərzaq təhlükəsizliyinin təmin olunması olmuşdur. Azərbaycanın ərzaq təhlükəsizliyinin ali məqsədi ərzaq məhsullarının xarici bazarlardan asılılığın azaldılması, daxili və xarici ərzaq təminatının yaradılması beynəlxalq normalara uyğun olaraq, vətəndaşların ərzaq məhsulları ilə təmin edilməsindən ibarətdir. Dünyada baş verən iqtisadi böhran, iqlim dəyişkənliyi, ərzaq məhsullarının nisbi qıtlığı, su ehtiyatlarının azlığı, əhalinin sayının artması, ərzaq məhsullarına olan tələbat, ərzaq catışmazlığı və s. dünya bazarlarında hətta bəzi ölkələrdə real təhlükəyə çevrilmişdir.

Əhalinin kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılması davamlı inkişafın əldə edilməsi, yeni iş yerlərinin açılması, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsinin dövlət səviyyəsində inkişafının, ölkənin ərzaq təhlükəsizliyi proqramında bir neçə istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Azərbaycanın ərzaq təhlükəsizliyinin ərzaq məhsulları istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması təmin edilməsi daxilindədir. Bu vəzifələrin yerinə yetirilməsi ölkədə ərzaq təhlükəsizliyin formalaşdırılması, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sistemi təkmilləşdirilməlidir. Belə ki, sahibkarlıq mühitinin yaxşılaşdırılması ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Son illərdə Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı kənd təsərrüfatı məhsullarının istehsalı müəssisələrə ayrılan güzəştli kreditlərin sayı ildən-ilə artırır, rəqabətəqabilliyyətli məhsulların istehsalı üçün şərait yaradılır.

Ümumiyyətlə, iqtisadiyyatın kənd təsərrüfatı sektorunda dövlət siyasətinin həyata keçirilməsi, istehsalçıların istehsal vasitələrinə, ehtiyyatlarına və istehsal olunan mallara ədalətli çıxış hüququnun təmin edilməsi fəaliyyətin effektivliyini artırır. Bu baxımdan, biznesin kiçik formalarının inkişafı və sahibkarlıq fəaliyyətinin canlandırılması, iqtisadi əlaqələr üçün əlverişli şəraitin yaradılması, eləcə də kənd təsərrüfatında sosial sahənin normallaşdırılması ilə mümkündür.

Hazırda kənd təsərrüfatı istehsalçıları dövlət qurumlarının köməyinə ehtiyac duyurlar. Ölkə daxilində logistika mərkəzlərinin yaradılması, sahibkarlığın inkişafına böyük təkan verəcək emal müəssisələrinin təşkili və yaradılması, müasir fitosanitar laboratoriyalarının yaradılması və kənd təsərrüfatı məhsullarının ixracının təşviqi üçün digər tədbirlər də müvafiqdir. İqtisadi inkişafı strategiyasının əsas istiqamətləri biznes-mühitin, investisiya iqlimin təkmilləşdirilməsi, və sahibkarlığın dəstəyi; bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, daxili və xarici investisiyaların və mütərəqqi texnologiyaların cəlb edilməsidir. Bununla əlaqədar, "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə", "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında", "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Prezidentinin fərmanları ilə bağlı korrupsiya əleyhinə tədbirləri keçirilir.

2001-ci ilin "Azərbaycan Respublikasının Ərzaq Təhlükəsizliyi Proqramı", 2008-2015-ci illərin "Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə təminatına dair Dövlət Proqramı"Azərbaycan Respublikası Hökumətinin ərzaq təhlükəsizliyi sahəsində öhdəlik və məqsədlərini əhatə edir. Bu proqramların dövlətin maliyyə öhdəlikləri və büdcə imkanları çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur.

Ərzaq təhlükəsizliyi proqramının məqsədləri aşağıdakılardan ibarətdir:

1. Yerli kənd təsərrüfatı məhsulları istehsalının artırılması və ərzaq məhsullarının qiymətlərinin məqbul səviyyədə saxlanmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
2. Kəskin ərzaq qıtlığı hallarına yol verilməməsi sisteminin yaradılması.

Ərzaq təhlükəsizliyinə nail olmaq üçün Azərbaycan Respublikasının Hökuməti iki mərhələdən ibarət olan aşağıdakı strategiyanın həyata keçirilməsini öhdəsinə götürür:

1. İslahatlar aparıldığı müddətdə ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün qısa müddətli və orta müddətli keçid tədbirlərinin tətbiqi. Bu əsasən özəl fermer təsərrüfatçılığına və sahibkarlığa kömək göstərilməsi vasitəsilə təmin edilir.

Bu mərhələdə tədbirlərin aşağıdakı istiqamətlərdə aparılması nəzərdə tutulur:

- müvafiq qanunların həyata keçirilməsinə nəzarət;
- gözlənilən ilkin nəticələrin əldə edilməsi üçün lazım olan büdcə ayırmalarının dəqiqləşdirilməsi;
- ərzaq istehsalı sahəsində müvəqqəti vergi güzəştlərinin tətbiqi məsələsinə baxılması;
- qida məhsullarının istehsalı, emalı və satışı üçün kreditlərin alınmasına kömək göstərilməsi;
- qida məhsulları istehsalçılarının ərzaq idxalından müdafiəsi;
- müəssisələr arasında qarşılıqlı borcların restrukturizasiyası;

- istehlakçıların müdafiəsinin gücləndirilməsi;
- ərzaq təhlükəsizliyi sahəsində müvafiq məlumat sisteminin yaradılması yolu ilə fövqəladə vəziyyətə hazırlıqla bağlı əlavə tədbirlərin həyata keçirilməsi.

2. Ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli tədbirlərin əsas məqsədi Azərbaycanın kənd təsərrüfatının gəlirliliyinin və rəqabət qabiliyyətinin artırılmasını, eləcə də onun beynəlxalq iqtisadi sistemə inteqrasiya olunmasını nəzərdə tutulur. Ərzaq təhlükəsizliyi əsasən ölkədə kənd təsərrüfatının inkişafı və ərzaq istehlakı vəziyyətinin yaxşılaşdırılması hesabına təmin edilməlidir.

Buna nail olmaq üçün aşağıdakı dörd əsas istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

ərzaq təhlükəsizliyi ilə bağlı idarəetmə mexanizmlərinin möhkəmləndirilməsi;

fermer təsərrüfatlarının kommersiya və bazar iqtisadiyyatı tələblərinə cavab verən qurumlara çevrilməsi, kənd təsərrüfatı və ərzaq sektorları üçün müəyyən olunan güzəştlərin mərhələlərlə məhdudlaşdırılması;

ölkədə ərzaq məhsulları növlərinin istehsalının inkişafı və kənd təsərrüfatının rəqabət qabiliyyətinin təmin edilməsi;

kənddə infrastrukturun inkişafına kömək edən dövlət investisiya siyasətinin aparılması [5].

Kənd təsərrüfatı istehsalı zəncirində imkanları genişləndirmək, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyinin davamlılığını təmin etmək, güclü, rəqabətli kiçik biznes yaratmaq lazımdır. Buna kömək Azərbaycanda sənaye kvartalların (parkların) yaradılması, onların istehsal prosesinin təşkilində yaranan infrastruktur xərclərinin azaldılması baxımdan, kooperativ əlaqələrin möhkəmləndirməsində, kiçik və orta sahibkarlığın inkişafında və başqa sualların həlində böyük əhəmiyyəti var.

Sahibkarlıq, innovasiyaların beynəlxalq standartların tətbiqi, bazarlarının araşdırılmasında dövlət dəstəyinin gücləndirilməsi, maliyyə, konsaltinq dəstək mexanizmlərinin genişləndirilməsi, monitorinq və qiymətləndirmə mexanizmlərinin yaradılması üçün məqsədlər müəyyənləşdirilməli və ölkəmizdə sahibkarlığın inkişafı üçün ciddi tədbirlər görülməlidir. Bu sahədə dəstək tədbirləri həyata keçirilsə də, bu sahədə fəaliyyət daha da dərindən öyrənməli, strategiya mexanizmləri yaradılmalıdır. İxrac üçün maliyyə sahələrinin genişləndirilməsi, qlobal dəyər zəncirində KOS-un daha çox gəlir əldə etməsi imkanlarının artırılması məqsədilə daha da genişləndirilməlidir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr KOS-ın subyektləri beynəlxalq təcrübəyə əsasən demək olar ki, risk faktorunun yüksək olması, maliyyələşdirilməsi, zəmanət fondunun yaradılması, risklərin sığortalanması kimi xüsusi yanaşmalar tətbiq edirlər. Transmilli şirkətlər istehsal etdikləri məhsullarının dünyanın ayrı-ayrı ölkələrinə kiçik və orta müəssisələrə yüksək gəlir gətirən sektorlara qlobal dəyər zəncirində sifariş verməklə istehsal edirlər. Dünyanın bir çox ölkələrində KOS subyektlərinə əlverişli şəraitin yaradılması üçün dəstəyin verilməsi məqsədilə mərkəzləşdirilmiş qurumlar yaradılır.

Azərbaycanda kiçik və orta sahibkarlığın ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Biznes mühitinin yaxşılaşdırılması, sərfəli və effektiv təşkil edilməsi, ixtisaslı kadrların artırılması vacib məsələlərdəndir. Azərbaycan vətəndaşlarının, sahibkarların bir çox işləri hədəflərə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi tələb olunur. KOS-un inkişafına dəstək verən dəyişikliklərin həyata keçirilməsi və onların inkişafı üçün əlverişli şəraitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın iqtisadi potensialı 2025-ci ilədək KOS-un gücləndirilməsi sayəsində ölkənin rəqabətqabiliyyəti tam formalaşacaq Azərbaycan yerli, xarici investorlar üçün dünyanın ən əlverişli ölkələrindən birinə çevriləcəkdir. İnkişafın davamlılığını təmin etmək üçün Azərbaycanda müəssisələr dünya təcrübələrə əsaslanan keyfiyyətli biznes təlimləri təşkil edərək, biznesdə elmi-texniki inkişafa nail olunacaqdır. Azərbaycanda KOS-un inkişafı kifayət qədər ciddi məsələdir.

Azərbaycan Respublikasi regionların sosial-iqtisadi inkişafına dair dövlət siyasətinin əsas elmi-praktiki istiqamətlərindən biri də respublika daxili regionların resurs potensialından kompleks istifadə etməklə ərzaq məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən aqroemal sənayesinin modernizasiya səviyyəsinin təmin etməkdən ibarətdir [6].

## ƏDƏBİYYAT


1. Avropa Komissiyasının rəsmi internet saytı
2. http://gencalim.az/xeberler/604-yeni-nesil-genc-sahibkarlara-destek-layihesi-iki-min-neferi-ehate-edecek.html
3. https://mida.gov.az/documents/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf
4. Сенчагов В.К. Экономическая безопасность России:Общий курс:Учебник/Под ред.В.К. Сенчагова. 2-е изд. - М.: Дело, 2005, 896 с., с.283-284

5. http://www.e-qanun.az/alpidata/framework/data/4/f_4467.htm
6. Azər Qurbanzadə. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri: Monoqrafiya/ Qurbanzadə A. – Bakı: Kooperasiya, 2017, 192 s.

## ABSTRACT

**Vafa Quliyeva**

## THE ROLE OF A SMALL AND MEDIUM-SIZED ENTERPRENEURSHIP IN THE FOOD SECURITY ACHIEVEMENT OF AZERBAIJAN

In a post-graduate student's V.C.Quliyeva article the connection between a food security and a small and medium-sized entrepreneurship is analyzed; the research in frames of Azerbaijan economy of the abovementioned economic categories is carried out. In the modern Azerbaijan successful steps were taken in SME-s development and in the field of agricultural production, including an implementing of proper programmes. The governmental support is emphasized.

## РЕЗЮМЕ

**Вафа Гулиева,**

## РОЛЬ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В ДОСТИЖЕНИИ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНА

В статье диссертанта В.Ч.Гулиевой анализируется связь продовольственной безопасности страны с развитием малого и среднего предпринимательства и проводится исследование в условиях Азербайджанской экономики вышеуказанных экономических категорий. В современном Азербайджане предприняты успешные шаги в развитии МСП и сфере сельскохозяйственного производства, а также приняты соответствующие программы. Подчёркивается значимость государственной поддержки.

---

NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ASİF HƏSƏNOV**
*asif_hasanov@rambler.ru*
**ELMİR MAHMUDOV**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*mahmudov.elmir.1993@gmail.com*

**UOT:332**

# MODERN MENECMENT VƏ ONUN ÜSTÜNLÜKLƏRİ

**Açar sözlər:** *müasir menecment, təşkilatın məqsədləri, komanda işi, menecer, peşəkar bacarıqları və vərdişləri*

**Key words**: *modern management, goals of organization, teamwork, manager, professional skills and abilities*

**Ключевые слова:** *современный менеджмент, цели организации, командная работа, менеджер, профессиональные способности и навыки*

Bazar rəqabətli şərait, onun iştirakçılarının fəaliyyətlərinin forma və metodlarını daim təkmiləşdirməyə məcbur etdiyi müasir dövrdə, menecment idarəetmə həllərinin tapılması və səmərəli qərarların qəbul edilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Menecment – idarəetmənin iqtisadi mexanizmlərin prinsiplərini, funksiyalarını, metodlarını tətbiq edərək, maddi və əmək resurslarından səmərəli istifadə etməklə, bazar şəraitində fəaliyyət göstərən müəssisələrin qarşıya qoyduğu məqsədlərə nail olunmasına yönələn peşə fəaliyyəti növüdür. Menecment – müəssisənin məqsədlərinə effektiv formada nail olunması üçün kadr, maliyyə, fiziki və informasiya resursları üzrə planlaşdırma, qərar qəbul etmə, təşkiletmə, rəhbərlik, motivləşdirmə və nəzarət proseslərinin qarşılıqlı əlaqəsidir və uzunmüddətli strategiyanın müəyyən edilməsi və əməkdaşların işlərinin koordinasiya edilməsi üzrə tədbirlərdən ibarətdir.

Menecerin əsas vəzifəsi – digər insanların köməkliyi ilə işləmək, komanda işinə nail olmaqdır, bu isə maksimum əməkdaşlığa çatmaq deməkdir. Bugünkü bilik iqtisadiyyatında iş yerlərin əksəriyyəti digər insanlarla qarşılıqlı əlaqələrə əsaslanır. Effektiv komanda işinin zəruriliyi hər bir biznes üçün həlledici əhəmiyyətə malikdir. Komanda işi – ümumi məqsədlərə nail olmaq üçün və ya vəzifələrin ən səmərəli şəkildə yerinə yetirmək üçün komanda üzvlərinin birgə işidir. Effektiv komanda işinə əsas tələblər – komanda üzvlərinin həcmi (6-8 nəfər), səmərəli fəaliyyət üçün resurslar mövcudluğu (görüşlər üçün məkan və zaman, vahid rəhbərlik, təşkilatın dəstəyi və s.) və komanda üzvlərin hər biri üçün, məqsədlərin təyin edilməsi məqsədilə, rolların dəqiq müəyyənləşdirilməsi.

XX əsrin sonlarından-XXI əsrin əvvəllərinədək ənənəvi menecment şirkətin hüquqi-təşkilati formasından asılı olmayaraq müəssisənin vacib tərkib hissəsi hesab edilirdi, həmçinin biznesin uğurlu təşkil edilməsi üçün müəyyən qabiliyyətli rəhbərliyə sahib olmalı idi. Lakin son illərdən etibarən şirkətin menecment prinsipləri keçmişə nisbətən əhəmiyyətli dərəcədə dəyişmişdir. Dəyişikliklər işgüzar dünyada qeyri-müəyyənliklərlə əlaqədardır və bu menecerlərdən tabeçiliyində olan əməkdaşlarla fərdi münasibətlərin qurulmasını nəzərdə tutur. Menecment iyerarxiyaları və ənənəvi yanaşmalar böyük xərclər tələb etdiyindən, müasir şirkətlərlər üçün əlverişsiz hesab edilir, buna görə də daima olaraq yeni yanaşmalar, metod və prinsiplər axtarılır və yeni strategiyaların tətbiq olunması mümkünlüyü təhlil edilir, və bura özünüidarəetmə, şirkətin idarə edilməsində iştirak etmə və səlahiyyətlərin deleqasiya olunması daxildir (5, s. 30).

Menecmentin əsas vəzifəsi – müəssisənin qarşıya qoyulmuş məqsədlərinə nail olmaq bacarığı və öz sahəsində müvəffəqiyyət əldə etmək üçün qayda, metod və prinsiplərin formalaşdırılmasıdır. Müəssisələrdə bu vəzifələri menecerlər yerinə yetirirlər. Müasir menecment sistemində menecerlər qarşısında duran əsas tələb insan resurslarını idarə etmək bacarığıdır. Bunun üçün isə menecer yaxşı psixoloq olmalıdır, tabeçiliyində olan işçiləri tanımalı, onların hər hansı bir tapşırılan işi yerinə yetirmək bacarıqlarını və imkanlarını mükəmməl bilməlidir. Menecerlər şirkət və işçiləri birləşdirən şərtləri təhlil etməli, həm də hər iki tərəfin maraqlarının ədalətli şəkildə qorumalıdır. XXI əsrdə menecerlərin əksəriyyəti mərkəzsizləşmə prinsiplərindən istifadə edirlər və əməkdaşların səmərəliliyinin maksimallaşdırlması istiqamətlənmiş yeni sistemlər işləyirlər. Mərkəzsizləşmə prinsipi əməkdaşlara şəxsi qərarların verilməsini təmin etməyi, komandanın özünü idarəetməsi, dəyərlər əsasında idarəetmə, işçilərin imkanlarının genişləndirilməsi kimi idarəetmə

texnologiyalarından istifadəni nəzərdə tutur. Beləliklə, bu prinsip işçilərə rəhbərliyin heç bir göstərişi olmadan, öz işlərini planlaşdırmaq, təşkil və nəzarət etmək imkanını təqdim edir və bu da öz növbəsində təşkilatın ümumi fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə təkan verir. Buna görə də, şirkətlər işçilərini özünüidarəetmənin təşkil edilməsini,onun komanda işinin dəstəklənməsi və imkanlarının genişləndirilməsi vasitəsilə inkişaf etdirilməsini öyrədirlər(3, s.40).

Menecerin əsas vəzifəsi – digər insanların köməkliyi ilə işləmək, komanda işinə nail olmaqdır, bu isə maksimum əməkdaşlığa çatmaq deməkdir. Bugünkü bilik iqtisadiyyatında iş yerlərin əksəriyyəti digər insanlarla qarşılıqlı əlaqələrə əsaslanır. Effektiv komanda işinin zəruriliyi hər bir biznes üçün həlledici əhəmiyyətə malikdir. Komanda işi – ümumi məqsədlərə nail olmaq üçün və ya vəzifələrin ən səmərəli şəkildə yerinə yetirmək üçün komanda üzvlərinin birgə işidir. Effektiv komanda işinə əsas tələblər – komanda üzvlərinin həcmi (6-8 nəfər), səmərəli fəaliyyət üçün resurslar mövcudluğu (görüşlər üçün məkan və zaman, vahid rəhbərlik, təşkilatın dəstəyi və s.) və komanda üzvlərin hər biri üçün, məqsədlərin təyin edilməsi məqsədilə, rolların dəqiq müəyyənləşdirilməsi. Beləliklə, aparılmış təhlillərə əsasən, aşağıdakı 6 səbəb komanda işinin vacibliyini xarakterizə edir:

1) ***Komanda işi iş yerlərində birliyə səbəb olur***. Birgə iş mühiti dostluğa və sadiqliyə zəmin yaradan mühitin yaradılmasına imkan yaradır. Bu yaxın münasibətlər əməkdaşları motivləşdirir, çalışqanlığa, əməkdaşlığa və bir-birlərini dəstəkləməyə öyrədir;

2) ***Komanda işi müxtəlif perspektivlər təklif edir***. Komanda işinin yaxşı strukturları müəssisələri problemləri həll etmək üçün müxtəlif düşüncə, yaradıcılıq, perspektivlər, imkanlar və yanaşmalarla təmin edirlər. Müvafiq komanda mühiti insanları kollektiv birləşməyə imkan verir ki, buda öz növbəsində problemləri həll etmək və qərarları daha səmərəli qəbul etmək imkan verir. Müxtəlif fikir və təcrübə mübadiləsi hesabatlılığı gücləndirir və tək başına həyata keçirildikdən daha effektiv qərarların qəbuluna kömək edə bilər. Komanda işi ümumi fəaliyyətin dəstəklənməsi üçün zəruri olan, əks əlaqə və bir sıra bacarıqlar hesabına məhsuldarlığı artırır;

3) ***Komanda işi yüksək effektivliyi və səmərəliliyi təmin edir***. Komanda işinin strategiyalarını birləşdirdikdə, daha çox səmərəliliyə və məhsuldarlığa nail olmamaq mümkündür. Bu, ayrı-ayrı şəxslərə yükü azaldaraq və bununla da vəzifələrin vaxtı vaxtında yerinə yetirilməsini təmin edərək, iş yükünün bölüşdürülməsi ilə əlaqədardır. Bu, həmçinin məhsuldarlığın optimallaşdırılmasını yaxşılaşdırır, iş məmnuniyyətini yüksəldir və iş tempini artırır;

***4) Komanda işi əla öyrənmə imkanları ilə təmin edir.*** Bir komandada işləmək bir-birinin səhvlərindən öyrənməyə imkan verir. Gələcəkdə səhvlərdən qaçınmaq, fərqli perspektivlər haqqında fikir əldə etmək və daha təcrübəli həmkarlarından yeni konsepsiyaları öyrənmək olar. Bundan əlavə, insanlar öz bacarıqlarını artırmaq, yeni həmkarlarında yeni ideyalar kəşf etmək və müvafiq olaraq vəzifələrə daha effektiv yanaşmalar və həllər qura bilərlər. Bu aktiv iştirak etmə problemlərin həll edilməsi üçün innovativ potensial yaratmağa və daha effektiv ideyaların təşviqinə imkan verir;

***5) Birgə işlər iş yerlərinin əməkdaşlığına, qarşılıqlı əlaqələrinə imkan yaradır.*** Ortaq məqsədlərin qarşılıqlı dəstəklənməsi və əməkdaşlıq iş yerlərində qarşılıqlı əlaqələri təmin edir. Bunun sayəsində komanda üzvləri daha yaxşı yerinə yetirilmiş öhdəliklər hissini hiss edə bilərlər, əldə edilən nəticələr üzrə kollektiv olaraq məsuliyyət daşıyırlar;

6) ***Münaqişələrin həlli bacarıqlarını öyrədir.*** Münaqişələr bir sıra unikal insanları birləşdirdikdə qaçılmaz olur. Komanda işində qarşıdurma meydana gəldikdə, işçilər rəhbərliyə deyil, özləri həll etməyə məcbur olurlar. Münaqişələr düzgün həll edilməsi, işçilərin gələcəkdə effektiv menecer olmaq üçün istifadə edə biləcəkləri bir bacarıqdır (2, s.112).

Komanda üzvləri öz öhdəlikləri, vəzifələri və rolları haqqında, həmçinin onların işi komandanın digər üzvlərinin fəaliyyətinə təsirinin mühümlüyü haqqında bilgilərə sahib olduqları təqdirdə, komanda üzvləri eyni vizyonu, məqsədləri və dəyərləri bölüşməyə məcbur olacaqlar. Nəticədə, güvənə, əməkdaşlığa, ehtirama, dəstəyə əsaslanan iş mühiti yaranır. Komanda mühitində işçilər effektiv işləməyə nail ola bilmirlərsə, bu innovativ ideyaların işlənib hazırlanmasını, tətbiqini, inkişaf etdirilməsini təxirə sala bilər.

Xarici təcrübələrin təhlillərinə əsasən, uğurlu menecer olmaq üçün aşağıdakı proseslərin effektiv həyata keçirilməsi mühüm şərtdir: effektiv şəxslərarası münasibətləri formalaşdırmalıdır; səmərəli kommunikasiya sistemini formalaşdırmalıdır; komanda yaradır və əməkdaşların bir-birləri ilə daha effektiv əməkdaşlıq etməyə imkan verir; o, işçilərin müsbət mənəviyyat hiss edəcəkləri və biznesin uğuru üçün motivləşdirmə mühiti yaratmağı bilir; iş yerlərində təlim, tədris və öyrənmə yolu ilə işçilərin bacarıq və imkanlarının inkişaf etdirir.

Müasir menecmentin tendensiyaları aşağıdakı kimi müəyyən edilmişdir:

1) Qəbul edilmiş qərarların elmi əsaslandırılması. Bu qərarların əsasında müasir üsullarla toplanmış, emal edilmiş, təhlil edilmiş dolğun və dəqiq informasiyalar olmalıdır;

2) Liderlik keyfiyyətləri, idarəetmədə avtoritarlıqdan imtina edilməsi;

3) İdarəetmənin bütün səviyyələrində səlahiyyətlərin dəqiq, tam və dərin deleqasiya olunması (dərin ixtisaslaşma);

4) Fəaliyyətin əsas prinsipi "Hamımız birlikdə bir iş görürük";

5) Menecerlər sistemin fəaliyyəti üzrə tam məsuliyyət daşıyırlar.

Bu tendensiyalardan asılı olaraq menecerlərə tələb də müntəzəm olaraq dəyişməkdədir. Menecer sadəcə idarə edən şəxs deyil, həm də müəssisədə öz fəaliyyət sahəsindən asılı olaraq idarəetmə prosesini həyata keçirən və qərarlar qəbul edən şəxsdir. O, peşəkar bacarıqlara, hüquqi və informativ biliklərə və ümumi mədəniyyətə malik olmalıdır. Menecerin sosial-iqtisadi sistemin idarə edilməsi üzrə fəaliyyəti bilavasitə insanlarla bağlıdır (3, s.64).

İntellektual əməyin üstünlük təşkil etdiyi müasir dövr işçilərin motivləşdirməsini, onların şəxsi inkişaf istiqamətləri və həyat fəlsəfəsi haqqında bilgilərin olmasını tələb edir. Yalnız bu halda maddi və əmək resurslarını qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün koordinasiya edərək bütün istehsalat proseslərini idarə etmək mümkündür. Burada təşkilati-texniki məsələlər mühüm rol oynayır: məqsəd və vəzifələrin müəyyən edilməsi, resurslarla təminat, iş icracıları ilə əlaqələrin qurulması, stimullaşdırma və s. Müasir menecer müntəzəm olaraq özünüinkişafla məşğul olmalı və tabeçiliyində olan işçilərin inkişafına imkan yaratmalıdır. Buna isə kouçinq vasitəsilə nail olmaq mümkündür. Kouçinq ilk öncə müəyyən qrup insanların peşəkar inkişaf baxımından təlim və məsləhətləşmə prosesidir. Fikrimizcə M.Dauni tərəfindən təklif edilmiş kouçinq anlayışı daha çox müasir menecmentin tələblərinə uyğun gəlir. Onun fikrincə, kouçinq – məhsuldarlığın yüksəldilməsinə, insanın tədrisinə, öyrədilməsinə və inkişafına təkan verən sənətdir və işçilərin potensiallarının maksimum reallaşdırılmasına yönəlmişdir. Beləliklə, kouçinqi istifadə etməklə, şəxsi və ümumilikdə təşkilatın səmərəliliyin yüksəldilməsinə, işçilərin kollektivdə münasibətlərin yaxşılaşdırılmasına, onların vaxtlarının effektiv idarə olunmasına və heyətin motivləşdirilməsinə nail olmaq mümkündür. Bu cür sistem menecerə hər bir situasiyadan çıxış yolu tapmağa, müəssisənin effektiv nəticələrinə nail olmağa imkan verir. Bütün bunlar meneceri yalnız səmərəli deyil, həmçinin rəqabətqabiliyyətli bir mütəxəssis edir. Nəticə olaraq, rəqabətqabiliyyətli menecerin xüsusiyyətlərini müəyyən etmək olar (Cədvəl 1):

**Cədvəl 1**

**Rəqabətqabiliyyətli menecer, lider və sahibkar**

| Menecer | Lider | Sahibkar |
|---|---|---|
| Peşəkar bacarıqlar, qərar qəbul etmə bacarığı, işgüzarlıq, özünü idarəetmə bacarığı, intizamlıq, ümumi, hüquqi, texniki mədəniyyətin olması | Əzmkarlıq, qərarlılıq, iradə gücü, sosial cəsarət, məqsədyönlük, yaradıcılıq fəaliyyətinə istiqamətlənmə, inandırmaq və öz üzərinə məsuliyyət götürmək qabiliyyəti | Qeyri-adi düşüncə, yaradıcı axtarış, risk etmə qabiliyyəti, mobillik, ləyaqət, özünü inkişafetmə və tabeçiliyindəki işçiləri inkişaf etdirmə qabiliyyəti |

Beləliklə, rəqabətqabiliyyətli menecer – liderlik və sahibkarlıq keyfiyyətlərinə malik və daima özünü inkişaf etdirməyə qadir olan mütəxəssisdir. Məhz belə menecer Azərbaycan iqtisadiyyatının modernləşdirilməsinin əsas qüvvəsi olmalıdır. Hər bir menecerin səmərəli fəaliyyəti bir sıra amillərdən asılıdır: idarəetmə obyektinin təşkilati strukturundan, informasiya təminatından, tabeçiliyində olanların peşəkar və təşkilati bacarıqlarından. Menecerin səmərəliliyi həmçinin onun əməyinin təşkilindən və modern menecmentin elmi və praktiki nailiyyətlərindən aktiv istifadə etmə bacarığından asılıdır.

Uğurun əldə edilməsi üzrə dünyada ad qazanmış və bu sahədə ən böyük yazıçılardan hesab edilən Napoleon Hill "Düşün və varlan" əsərində, idarəetmənin 11 sirrini qeyd etmişdir:

*1) Cəsarət və qərarlılıq.* Bunlar şəxsiyyətin və işin dərk olunmasına əsaslanırlar. Heç bir iş icraçısı cəsarəti olmayan və özünə qüvənməyən liderə uzun müddət dözməyəcəkdir.

2) *Özünə nəzarət.* Özünə nəzarət (idarəetməyi) etməyi bilməyən bir kəs başqalarına da nəzarət edə bilməz. Özünə nəzarət – lideri təqlid etməyə çalışan işçilər üçün əla nümunədir.

3) *Maksimum ədalətli olmaq hissi*: Bu hissə malik olmayan menecer işçilər tərəfindən hörmət qazana bilməz və rəhbərlik etmək üçün mənəvi haqqını itirir.

4) *Qərarların dəqiqliyi.* Qərar qəbul etməkdə tərəddüd edən menecer özünə inamsızlıq nümayiş etdirir və uğurlu bir lider ola bilməz.

5) *Planların aydınlığı.* Müvəffəqiyyətli bir lider bütün işlərini planlaşdırır və diqqətlə plan üzərində işləyir.

6) *Artıq işləmək vərdişi.* Menecerin könüllü olaraq öz üzərinə götürdüyü öhdəlik- tabeçiliyində olan işçilərdən tələb etdiyindən daha çox işləmək istəyi və bacarığı çıxış edir.

7) *Şəxsiyyətin cəzabədarlığı.* Səhlənkarlıq və natəmizlik heç bir zaman uğur qazandıra bilməz. Tabeçiliyində olan işçilər özünə və nüfuzuna nəzarət etməyən liderə hörmət etməzlər.

8) *Anlayışlıq və qayğıkeşlik*. Menecer tabeçiliyində olan işçilərin problemlərini anlamalı, onlara qayğıkeşlik göstərməli və razılığa gəlməlidir.

9) *Vəziyyətə (situasiyaya) mükəmməl hakim olmaq*. Menecer dəqiqliyi ilə öz işini bilir və hər bir situasiyada optimal həll yollarını tapır.

10) *Bütün məsuliyyəti öz üzərinə götürmək bacarığı*.

11) *Əməkdaşlıq*. Yaxşı menecer komanda işi prinsiplərini anlamalı və tətbiq etməlidir və işçiləri qarşılıqlı əməkdaşlığa sövq etməlidir (4, s. 95).

Qeyd etdiyimiz şəxsi keyfiyyət və bacarıqlarla yanaşı, menecer idarəetmə fəaliyyətini effektiv həyata keçirmək üçün zəruri peşəkar vərdişlərə sahib olmalıdır. Fəaliyyət sahəsindən, işlədiyi təşkilatdan, tutduğu vəzifədən asılı olmayaraq menecer aşağıdaki 3 əsas vərdişlərə sahib olmalıdır:

❖ ***Analitik vərdişlər*** meneceгə informasiyaların dəqiq emal və təhlil edilməsi, müxtəlif hadisələr və faktlar arasında qarşılıqlı əlaqələrin qurulması üçün zərurdir. Bu vərdişlər təşkilatı və onun mühitini bir sistem halında görməyə, çətinlikləri və imkanları qabaqcadan proqnozlaşdırmağa imkan verir. Belə vərdişlər olmadan menecer dəqiq və aydın şəkildə nəticələr formalaşdıra, planlar tərtib edə və ya effektiv qərarlar qəbul edə bilməz.

❖ ***Kommunikativ vərdişlər*** menecerə digər insanlarla səmərəli əməkdaşlıq və qarşılığlı əlaqələr qurmaq üçün zəruridir. İdarəetmə əməyinin "xammal və məhsulu" informasiya olduğu üçün, heyətlə, həmkarlarla, yuxarı rəhbərliklə, müştərilərlə və tərəfdaşlarla ünsiyyət qurmaq və informasiya mübadiləri bacarıqları mühüm əhəmiyyətə malikdir

❖ ***Texniki vərdişlərə*** bütün menecerlər sahib olmalıdırlar. Burada, ilk öncə, fərdi kompüterlərdən və tətbiqi proqramlardan istifadə etməklə planlar, qrafiklər tərtib etmək, mühasibat hesablarını oxumaq kimi bacarıqlar çıxış edir. Müasir informasiya texnologiyaları və kommunikasiya vasitələrindən istifadə etmək bacarıqları da mühüm rola malikdir(1, s.44).

❖ Təşkilatların idarə edilməsində istifadə olunan prinsiplər və şirkətin quruluşu, daima dəyişən biznes mühitinə uyğunlaşa bilmək üçün, müntəzəm olaraq dəyişməkdədirlər. Müasir təşkilatların idarə edilməsində əsas nöqtə, daxili və xarici mühitin dəyişikliklərinin öhdəsindən gəlməsinə imkan verəcək düzgün strategiyaların tətbiq olunmasıdır.

## ƏDƏBİYYAT


1) Əmirov İ.B., Hacıyeva Z.E. "Menecment", Bakı, 2015
2) Samuel C. Certo, S.Trevis Certo, "Modern management", 12th edition, 2011
3) Sladkeviç V.P., Çernyavskiy A.D., "Müasir menecment", Kiyev 2003
4) Strielkowski W., Galanov V., "Polish journal of management studies", 2016
5) Udalov F.E., Alyoxina O.F., Qaponova O.S. "Menecmentin əsasları", Novqorod, 2013


## ABSTRACT


**Hasanov Asif, Mahmudov Elmir**


**MODERN MANAGEMENT AND IT'S ADVANTAGES**


The article explains the importance of the management. It also outlines the differences of modern management concepts from classic management, as well as its advantages.

Because managers are responsible for the successful implementation of the activity, there is also the explanation of the fundamental skills required by modern managers.


## РЕЗЮМЕ


**Гасанов Асиф, Махмудов Эльмир**


**СОВРЕМЕННЫЙ МЕНЕДЖМЕНТ И ЕГО ПРЕИМУЩЕСТВА**


В этом артикле рассматривается важность менеджмента. Здесь рассматриваются различия между классической и современной концепцией менеджмента, а также её преимущества. Так как менеджеры ответственны за успешную реализацию деятельности, здесь рассматриваются важные навыки, требуемые к современному менеджеру.


---


NDU-nun Elmi Şurasının 30 aprel 2019-cu il tarixli qərarı ilə çapa tövsiyə olunmuşdur. (protokol № 09). Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

# MÜNDƏRİCAT
## TARİX


1. **İsmayıl Hacıyev.** Naxçıvan ilkin şəhər mədəniyyəti və Duzdağ arasındakı paralellər....................... 3
2. **Rafiq Rəhimov, Zamin Əliyev.** XX əsrin əvvəllərində ermənilərin Naxçıvanla bağlı iddiaları və bu iddiaların iflasa uğraması.................................................................................................................. 9
3. **Allahverdi Hüseynov, Xəzər Hüseynov.** Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Azərbaycan ordusunun yaranması tarixindən .......................................................................... 12
4. **Şamxal Məmmədov.** Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cənubi Qafqazda köçlər və qaçqınlıq problemi.............................................................................................................. 17
5. **Məmməd Əliyev, Nərmin Orucova.** Muzeylərin ictimai həyatda rolu……………………….. 21
6. **Hacıfəxrəddin Səfərli.** Qarabağlar türbə kompleksinin öyrənilməmiş kitabələri............................. 24
7. **Turan Həşimova, Vəli Baxşəliyev.** Naxçıvanın Orta Tunc dövrünün metal əşyalarında əks olunan inanclar.............................................................................................................. 28
8. **Bəsrət Zeynalov.** XX əsrin I yarısında Azərbaycanın Naxçıvan bölgəsində həyata keçirilən Oruc bayramı (Babək və Şahbuz rayonlarının materialları əsasında)................................... 32
9. **Musa Quliyev.** Krım xanlarının varisləri Şahingireylər (Şəngileylər) Naxçıvan tarixində................ 35
10. **Yaşar Rəhimov.** Kollektivləşmə illərində Naxçıvanda repressiyalar………………………. 38
11. **İbrahim Kazımbəyli.** XX əsrin əvvəllərində Osmanlı Türkiyəsi ərazisində erməni iğtişaşları.......... 43
12. **Zülfiyə İsmayılova.** 1920-1971-ci illərdə Naxçıvanda təhsilin inkişaf yolları.................................. 49
13. **Səbuhi Həsənov.** Dəfnetmə adətində söyüd ağacı ilə bağlı inamlar.................................................. 54
14. **Nurlana Əliyeva.** “Erməni vilayəti”nin yaradılması tarixi coğrafiyamıza edilən qəsddir……………... 57
15. **Vüsalə Veysəlova.** XIX-XX əsrin əvvəllərində Gəncəbasar bölgəsində xalq təbabəti....................... 61
16. **Emrah Bayramov.** 1918-1920 yıllarda Karabağ ve çevresinde yaşanan olaylar…………………... 66


## SOSİAL ELMLƏR VƏ HÜQUQ


17. **Məmməd Rzayev, Abbas Əhmədov**. Davamlı insan inkişafı şəraitində şəxsiyyət amili.................... 71
18. **Qərib Allahverdiyev.** Hüququn artmaqda olan əxlaqiliyi ilə azadlığın qarşılıqlı əlaqəsi.................... 79
19. **Fəxrəddin Cəfərov, Nadir Hüseynbəyli.** Repressiya qurbanlarından biri…………………………. 84
20. **Qəhrəman Behbudov, Pərviz Qəribov.** Fərdi əmək mübahisələrinin həll edilməsi və mübahisə predmetinin tərəflər üçün məqbul hesab olunan variantda razılaşdırılması……………….… 89
21. **Vaqif Qurbanov.** AR-da xarici məhkəmələrin və arbitrajların qətnamələrinin tanınması və icrası... 92
22. **Müslüm Nəzərov, Nizami Quliyev.** “Pedaqoji texnologiya” və “Modul təhsil texnologiyası”nın nəzəri əsasları.............................................................................................................. 94
23. **Bağır Babayev.** Nəsiminin kamil insan konsepsiyasında bu günümüzlə səsləniş-milli birlik və bəşəri ideyaların təbliği…………………………………………………………………….... 99
24. **Flora Kərimova.** Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dövlət qayğısı…………. 104
25. **Təranə Camalova.** Məhəmməd Hadinin maarifçilik fəaliyyətində qadın problemi........................ 108
26. **İbrahim Cəfərov.** Ulu öndər Heydər Əliyev Azərbaycanda multikulturalizmin siyasi banisidir...... 111
27. **Azad Bayramov.** Azərbaycanda etnik-siyasi birlik və müstəqillik ənənələri.................................. 116
28. **Cahangir Cahangirli.** Multikulturalizmin Avstraliya modeli.......................................................... 119
29. **Nilufər Ağayeva.** Müstəqillik illərində Azərbaycanda elmin və təhsilin inkişafı............................ 124
30. **Səbuhi İbrahimov.** Naxçıvan mühitinin yaratdığı kitab və kitabxana mədəniyyəti......................... 128
31. **Məhəmməd Əkbərov.** Azərbaycanın dövlət quruculuğu modelinin üç əsas determinantı................ 131
32. **Sevinc Qurbanova.** Azərbaycan Respublikasının neft kəmərləri layihələrinin reallaşdırılmasında Rusiyanın mövqeyi.............................................................................................. 137
33. **Сабир Шукуров.** Кавказ в современной геостратегии............................................................. 141
34. **Günay Şükürova.** Yeni Azərbaycan Partiyası və gənclər siyasəti...................................................... 146

## İQTİSADİYYAT


35. **Teymur Abbasov.** XXI əsrin meqalayihəsi “Bir kəmər, bir yol” və Azərbaycan.............................. 151
36. **Ceyhun Mahmudov.** Regionların tarazlı inkişafı müasir dövrün aktual problemlərindən biri kimi..... 154
37. **Əşrəf Ələkbərov.** Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatının rolu.................. 158
38. **Amar Qasımov.** Mikro sahibkarlığın ilkin addımları, Naxçıvan modeli kimi formalaşan ailə təssərrüfatlarının sosial əhəmiyyətləri............................................................................................ 161
39. **Həvva Adıgözəlova.** İnnovasiyaların mənimsənilməsinin təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi yolları........................................................................................................ 164
40. **Həsən Abbasov.** Sahəvi tənzimləmə üzrə dövlət siyasəti, onun regional müstəvidə istiqamətləri və təşkilati mexanizmlər........................................................................................................... 168
41. **Sədaqət Əhmədova.** Azərbaycan Respublikasında məşğulluğun təmin olunmasının əsasları......... 176
42. **Niyaz Mammadov.** Finance sources of households from agricultural activities in case study villages in Azerbaijan and Georgia………………………………………………………………... 180
43. **Çiçək Nəcəfova. Vahid Abbasov.** Elektron ticarətin hüquqi və iqtisadi tənzimlənməsi.................. 183
44. **Dilarə Əmiraslanova.** Müəssisənin idarə edilməsinin təşkilat quruluşunun formalaşdırılması prinsipləri.............................................................................................................. 189
45. **Vəfa Quliyeva.** Azərbaycanda ərzaq təhlükəsizliyinin inkişaf etdirilməsində kiçik və orta sahibkarlığın rolu......................................................................................................................... 193
46. **Asif Həsənov, Elmir Mahmudov.** Modern menecment və onun üstünlükləri…………………… 197

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası 30 aprel 2010-cu il tarixli (protokol №10-R) qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər" jurnalının aşağıdakı seriyalarını müstəqil jurnallar kimi tanımışdır:

1. Elmi əsərlər. *Humanitar elmlər seriyası*
2. Elmi əsərlər. *İctimai elmlər seriyası*
3. Elmi əsərlər. *Təbiət elmləri və tibb seriyası*
4. Elmi əsərlər. *Fizika-riyaziyyat və texnika elmləri seriyası*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubuna əsasən "Elmi əsərlər" jurnalına çap üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Məqalənin mətni – 17 sm x 25 sm formatında, sətirlərarası – 1 intervalla, Times New Roman-12 (Azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Müəllifin (müəlliflərin) adı və soyadı, elmi dərəcəsi tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə CD-lə (disklə) birlikdə təqdim edilməlidir, CD-lər geri qaytarılmır.

4. Ədəbiyyat siyahısı AAK-ın "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan Təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2-10.4.6 tələblərinə uyğun tərtib olunmalıdır.

5. Məqalənin xülasəsi və açar sözləri rus və ingilis dillərində olmalıdır (150-200 söz)

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir.** *Məs.: Həbibbəyli İ.Ə. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007, 696 s.*

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir.** *Məs.: Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan: Əcəmi, 2010, 300 s.*

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** *Məs.: Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə, I cild, Bakı, Lider nəşriyyat, 2004, 440 s.*

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır:** *Məs.: Hacıyev İ.M. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları, bunun qarşısının alınması. // NDU-nun Elmi əsərləri. İctimai elmlər seriyası, 2011, №1, s.13-18*

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir:** *Məs.: Həbibbəyli İ.Ə. Naxçıvan şəhərinin yaşı-beş min il./ "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" mövzusunda elmi-praktik konfransın materialları. Bakı: Nurlan, 2007, s.20-27*

**Dissertasiyaya aşağıdakı kimi istinad olmalıdır:** *Məs.: Həsənli O.Q. Şagird şəxsiyyətinin formalaşdırılmasında diyarşünaslıq materiallarından istifadənin sistemi: Pedaqoji elm.dok. ... . dis. Naxçıvan, 2005, 240 s.*

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız "avtoreferat" sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır:** *Məs.: Şeremetyevski P.A. Naxçıvanın duz yataqları. "525-ci qəzet" qəz., Bakı, 28 iyul 2012*

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir.** *Məs.: Naxçıvan MDTA: f.19, siy.3, iş 56 v.7-9*

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

**Elmi əsərlər jurnalında çap olunan məqalələrin elektron variantı ilə

**www. ndu.edu.az.** saytında tanış olmaq olar.

***P.S: Kənar müəssisələrdən NDU-nun "Elmi əsərlər"inə məqalə göndərən müəlliflər NDU rektorunun adına, təmsil olunduğu müəssisə rəhbərinin məktubunu da təqdim etməlidir. Növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcəkdir.***

***REDAKSİYA HEYƏTİ***

**TO THE AUTHORS!**

By its 30 April, 2010 (minutes J\b 10-R) decision of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic has admitted the following series of the journal **"Scientific works" of Nakhchivan State University as independent journals:**

**1. Scientific works. Humanitarian sciences series**

**2. Scientific works. Social sciences series**

**3. Scientific works. Nature sciences and medicine series**

**4. Scientific works. Physics-mathematics and technical sciences series**

By the letter Ns 48-01947/16, 20 December, 2010 of the Chairman of the Higher Attestation Commission attached to the President of the Azerbaijan Republic the articles submitted for publication in the journal **"Scientific works"** of NSU should follow the following the rules**:**

**1. Papers should be typed in single space ,{4 size (17sm x 25sm) format, in l2pt Times New Roman (in Azerbaijani -in Latin alphabet, in Russian - in Cyrillic, in English –in the English alphabet).**

**2. Name(s) and surname(s) of the author(s) and affiliation(s), their scientific degree should be given in full, their e-mail address and complete address (university, organization) should be shown.**

**3. Each article should include UOT indexes or codes of PACS type and keywords (keywords should be in the language in which the article and abstracts have been written).**

The articles and abstracts (in three languages) should be submitted in computer typed form and electronic form (in CD disk); CDs ate not given back.

**4. List of literature (References) should meet the 10.2 -10.4. 6. requirements of the section "Used Literature" of the Instruction of the HAC "Rules for Dissertations" which is in power.**

**5.The abstract and key words of the article should be in Russian and English language (150-200 words) Sources in "References" are shown as follows:**

Books (monographies, text-books, etc.) Habibbayli I.A. Literary-historioal memory and modernism**. Baki, Nurlan, 2007,696 p.**

Multi-authored books ( collective monographies and text-books) Noah prophet, world's gale and Nakhchivan: **Adjami, 2010, 300 p.**

Multi-volume publications Encyclopedia of the Azerbaijan People's Republic. In 2 volumes, I volume, **Baki, Lider Publishing house, 2004,440 p.**

**Articles/ Papers Hajiyev LM. Tenitorial claims of the Atmenians against Azerbaijan during the Azerbaijan People's Republic and its prevention. //** Scientific works of NSU. Social sciences series, 2011, Nr 1, pp. 13-18.

Series of articles and conference materials Habibbayli I.A. Age of the city Nakhchivan- five thousand years. **/ Materials of the scientificpractical conference "Establishment of Nakhchivan Autonomous Republic: history and modernism". Baki, Nurlan, 2007, pp.20-27**

**Thesis /Dissertation Hassanli O.G.** Use system of regional ethnographic materials in the formation of student personality: Doctor of pedagogical sciences ... Disselt, Nakhchivan, 2005, 240 p.

**The same is applied to the Synopsis of thesis, only the word "synopsis of thesis" is added.** Newspaper materials Sheremetyevski P. A. Salt deposits of Nakhchivan. Newspaper "Newspaper 525", Baki, 28 July,20l2.

**Archive materials Nakhchivan MDTA:** f. 19, list 3, work 56 v.7-9

The literature ofthe last 5-10 years in the references is specially prefened.

**P.S: The authors from other enterprises should also submit the letter by his/her head to the rector of NSU for publication of their papers. the papers which do not meet these requirements will not be admitted.**

## К СВЕДЕНИЮ АВТОРОВ!

Высшая Аттестационная Комиссия при Президенте Азербайджанской Республики по решению (протокол № 10-Р) от 30 апреля 2010 года признал как самостоятельные журналы нижеследующие серии журнала **«Научные труды» Нахчыванского Государственного Университета:**

1. **Научные труды.** ***Серия гуманитарных наук***
2. **Научные труды.** ***Серия общественных наук***
3. **Научные труды.** ***Серия естественных и медицинских наук***
4. **Научные труды.** ***Серия физико-математических и технических наук***

На основани письма № 48-01-947/16 от 20 декабря 2010 года председателя Высшей Аттестационной Комисси при Президенте Азербайджанской Республики статьи, представленные для публикации в журнале **«Научные труды»**, должны составляться на основе нижеследующих требований:

1. Текст статьи должен быть набран в формате 17 см х 25 см, межстрочный интервал 1 на компьютере в программе Times New Roman-12 (на азербайджанском языке латинским, на русском – на кирили, на английском – на английском алфавите).
2. Имя и фамилию автора (авторов), ученую степень следует написать полностью, указать адрес электронной почты, название предприятия (организации), где работает.
3. В каждой статье следует дать индексы УДК или коды типа PACS (ключевые слова должны быть написаны на языке статьи и резюме).
4. Ключевые слова статьи должны быть на русском и английском языках.(150-200 слов)

Статьи и резюме должны быть набраны на компьютере (на трех языках) и представлены в электронной версии на диске СД (СД не возвращаются).

5.Список литературы должен составляться в соответствии с требованиями раздела 10.2-10.4.6 «Использованная литература» существующей Инструкции ВАК «О порядках составления Диссертаций».

**Библиографическое описание книг (монографий, учебников и т.д.) составляется названием книги.** *Напр.: Габиббейли И.А. Литературно-историческая память и современность. Баку, Нурлан, 2007, 696 с.*

**Книги, в которых не указан автор, и которые имеют более четырех авторов (коллективные монографии или учебники), даются по названию книги.** *Напр.: Пророк Ной, всемирный потап и Нахчыван: Аджеми, 2010, 300 с.*

**На многотомное издание ссылка дается в нижеследующем порядке:** *Напр.: Энциклопедия Азербайджанской Народной Республики. В 2-х томах, том I, Баку, издательство Лидер, 2004, 440 с.*

**Ссылка на статьи должна быть в нижеследующем порядке:** *Напр.: Гаджиев И.М. Территориальные притязания армян к Азербайджану в период Азербайджанской Народной Республики и их предотвращение. // Научные труды НГУ. Серия общественных наук, 2011, № 1, с. 13-18.*

**На источники по сборникам статей и материалам конференций следует указать так:** *Напр.: Габиббейли И.А. Городу Нахчыван – пять тысяч лет. / Материалы научно-практической конференции на тему: «Создание Нахчыванской Автономной Республики: история и современность». Баку: Нурлан, 2007, с. 20-27.*

**На диссертацию следует ссылаться так:** *Напр.: Гасанлы О.Г. Система использования краеведческих материалов в формировании личности ученика: Дис... доктора педагогических наук. Нахчыван, 2005, 240 с.*

**На автореферат диссертации ссылка дается также, но следует добавить слово «автореферат».**

**Ссылка на газетные материалы производится так:** *Напр.: Шереметевски Р.А. Сольные скважины Нахчывана. Газ. «525-я газета», Баку, 28 июля 2012*

**Ссылка на архивные материалы дается так**: *Напр.: НГИА Нахчывана: ф.19, оп.3, д. 56, лл.7-9.*

В списке использованной литературы следует предпочитать литературу последних 5-10 лет.

**П.С.: Присылающие в «Научные труды» НГУ статьи из других организаций авторы, должны представить на имя ректора НГУ письмо руководителя организацию, которую они представляют. Статьи, не отвечающие на эти требования, не будут в последующем приняты издательством.**

**РЕДКОЛЛЕГИЯ**

| | |
|---|---|
| Nəşriyyat direktoru: | Samir Tarverdiyev |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Aparıcı redaktor: | Günel Məmmədova |
| Aparıcı redaktor: | Səfa Quliyeva |
| Aparıcı korrektor: | Roza Abdullayeva |

Yığılmağa verilib: 06. V. 2019
Çapa imzalanıb: 27. V. 2019
Formatı: 60/90, 32/1, həcmi 13,1 ç/v
Sifariş № 135, sayı 100 nüsxə

NDU-nun «Qeyrət» nəşriyyatının mətbəəsində çap olunmuşdur.